# BÖYÜK SADİQLİK

Hər bir şeyini Məsih üçün qurban vermiş qədim və müasir imanlıların sadiqlik hekayələri



Müəlliflik hüquqlarının hamısı qorunur.
Ayələr Müqəddəs Kitabdan götürülüb.
Müqəddəs Kitab © MKŞ 2009

Originally published in English as:
*EXTREME DEVOTION*
© 2001 for the English edition.
Published by W Publishing Group,
a Division of Thomas Nelson, Inc.,

© 2009 Azeri edition.
Translated by permission. All rights reserved.

*Bu kitab inkardansa ölümü üstün tutanlara...*
*qorxu üzərində imanı seçənlərə...*
*səssizcə uzaqlaşaraq getməyib şəhadətlik edənlərə həsr olunur.*
*Dünyanın onlara layiq olmadığı insanlara həsr edilir.*

*İbranilər 11:38*

# Giriş

Bu kitabda olan imanlılar qurbanlar deyillər, onlar qaliblərdirlər. Onların hekayələri tarix boyunca İsanın öz həvarilərindən müasir şəhidlərədək uzanır. Təqibçilər romalılar, rumıniyalılar, banditlər, müsəlmanlar, konfusiçilər, kommunistlər olub. Amma bu imanlıların hər biri bizim üçün nümunədirlər, Məsihə dərin həsr olunma nümunəsidirlər. Bu səhifələrdə hekayələri ilə qarşılaşacağınız imanlılar özünümüdafiə üçün əsas insan iradəsindən daha dərin olan bir arzunu tapmışdılar: Məsihə xidmət etmək və Onun üçün şəhadətlik etmək.

* * * * *

Biz bu kitabı tərtib etdikcə, Amerikada yeni bir eraya daxil olduq. 11 sentyabr 2001-ci il hadisələri azad dünyanın üzünü çevirdi və bizim hamımızı suallar dövrünə – cavablar üçün bir çoxlarının məbədə baxacağı bir dövrə – məbədin isə Allaha və qüvvə üçün Onun hakimiyyətinə baxacağı bir dövrə gətirib çıxardı.

Bizim başlıca məqsədimiz budur ki, kitab özümüzün böyük çətinliklərlə üzləşdiyimiz bir vaxtda düşüncəmizi genişləndirmək və hərəkətlərimizə təsir göstərmək üçün istifadə edilsin. Məsələn, bizə pislik edən insanlara necə cavab veririk? Əgər başqa iman ilə yaşayan insanlar bizə qəddar tərzdə təzyiq göstərsələr, bizim onlara qarşı münasibətimiz necə olmalıdır? Bizi öldürə bilən insanlara Allahın sevgisini bölüşməyə çalışmaq üçün hər bir şeyi təhlükə altına salmaq düzgündürmü?

Bu kitab bütün suallara cavab verməyəcək, amma sizin imanınızı tələb edəcək. Siz Məsihə görə sözlə ifadə olunmayan qəddarlıqla əzab çəkmiş məsihçilərin bu hekayələrini oxuduqca səthin altında yerləşən ləl-cavahiratı aşkar etmək üçün faciənin və çətin sınaqların içərisində ümid tapın.

Diqqətinizi bu cəsarətli qardaşların və bacıların şəhadətliklərində olan imana yönəldin. Yadda saxlayın ki, onlarda yaşayan və ya yaşamış eyni Ruh sizdə də yaşayır və *inanın* ki, istənilən ağır vəziyyətlərdə eyni iman ölçüsü sizin üçün də var.

Siz bu şəhadətlikləri oxuduqca, əzab çəkmənin teologiyasını anlayaraq iman kökünün əsl qiymətini əldə edəcəksiniz.

Bu teologiyanı anlamağın birinci hissəsi bunların əzabın ümidsiz hekayələr *olmadığını* bilməkdir. Bu imanlılar "super" məsihçilər deyillər. Əlbəttə, onlar cəsarətlərinə görə seçilirdilər, bəşəri səbəbdən kənar bir halda inadcıl idilər və bəzən anlamaq çətin olan bir tərzdə Məsihə həsr olunmuşdular. Amma həqiqətdə isə onlar qeyri-adi vəziyyətlərlə üzləşmiş adi məsihçilər (bizim kimi) idilər.

Yaxşı, bəs onda belə "böyük sadiqliyə" onları gətirib çıxaran sirli element nədir?

Sadəcə desək, onlar İsaya inandıqlarına görə Məsihdə əzab çəkirlər.

Təkcə iman kifayətdir. İnsan əllərində əzab çəkmək dözülməz ola bilər. Amma bu, Məsihin padşahlığı üçün iman ilə birləşəndə, Məsihi daha çox əldə etmək üçün özünü itirmək istəyən və buna hazır olan məsihçinin ürəyini gücləndirir.

Bu kitabda olan şəhidlərin hamısında Allaha coşqun sevgi var. Allahın məhəbbətini başqaları ilə bölüşərkən tutulmağın ağır nəticələri üzərində bu həmin coşqun sevgi qorxunu üstələmişdi.

Ola bilsin ki, onların coşqun sevgilərinin bir hissəsi malik olduqları şeyin yüksək qiymətini bilməkdən irəli gəlirdi. İmanın bizim üçün qiyməti olanda olduqca dəyərli bir şeyə çevrilir. Bu, dini azadlığa yol verməyən qəddar hökumətlərdə yaşayan məsihçiləri gücləndirməyə xidmət edən insan təbiətinin həmin cəhətidir.

Müqəddəs Avqustin bir dəfə söyləmişdir: "Əzab deyil, səbəb əsl şəhid edir."

Orijinal yunan dilinə görə, "şəhid" sözü əslində "şahid" deməkdir.

Bu kitabda olan şəhidlər İsa Məsihin həqiqətinə və qüdrətinə şəxsən şəhadətlik edə biliblər və inanıblar ki, nəyin bahasına olursa olsun, həmin şəhadətliyi başqalarına da çatdırmalıdırlar.

T. S. Elliot "*Kilsədə qətl*" pyesində şəhidi belə təsvir edir: "Şəhid, Allahın iradəsində öziradəsini itirmiş bir şəxsdir, o, Allahın alətinə çevrilmişdir. Əslində o öz iradəsini itirməyib, əksinə tapıb, çünki o, Allaha itaətkar olaraq azadlıq əldə edib. Şəhid daha özü üçün heç nə istəmir, hətta şəhidlik izzətinibelə arzulamır."

Şahid olmaq sizi alovlu yola itələyir. Pastor E. V. Hill bir dəfə danışır ki, bir qadın onun yanına gələrək bu sözləri söyləyib: "Pastor Hill, mənim üçün dua edin. Şeytan dalımca düşüb." Pastor Hill ona deyib: "Şeytan sənin dalınca düşməyib. Sən kifayət qədər işlər görməmisən ki, şeytan sənin dalınca düşsün." Bütün məsihçilər üçün məqsəd belə olmalıdır. Məsihin padşahlığı üçün "kifayət qədər iş" görməlisiniz ki, şeytanın diqqətini cəlb edəsiniz.

Məsih üçün şəhadətliyinizə hansısa formada əzab gələndə biz sizin üçün ümid edirik ki, bu kitabda olanlar kimi "*Böyük sadiqliy*"*in* izzətini və gözəlliyini yaşayasınız.

*"Böyük sadiqliy*"*i* yazanların komandası

BÖYÜK SADİQLİK

# Böyük sual

**TÜRKİYƏ:** ERCAN SENGÜL

**Ercan Sengül müsəlman ölkəsi olan Türkiyədə həyatını Məsihə verəndə bəziləri bunu öz irsinə və xalqına arxa çevirmək hesab etdilər. O, Allah üçün hər bir şey edəcəyini söyləyəndə, onda bunu nəzərdə tuturdu. Bəs indi?**

Ercan məhbus yoldaşları tərəfindən əhatə olunaraq qaranlıq, rütubətli həbsxanada oturmuşdu. Onu yerli polis həbs etmiş və demişdi ki, məsihçi nəşriyyatı üçün kitabları paylamaqla "islamı təhqir edib".

Ercan Allahı səsləyirdi ki, onu azad etsin. O bilirdi ki, heç bir pis iş görməyib və onu buraya salmalı deyildilər. "Bəs sən demişdin ki, mənim üçün hər bir şey edərsən" – deyə, Allah Ercanın ürəyinə pıçıldadı. "Sən nə dediyini başa düşürdün?"

Allahın qarşısında sınaraq Ercan ağladı və Onu izzətləndirdi. O, Allaha ürəyində söylədi: "Mən, həqiqətən, bunu nəzərdə tuturam." Ercan həbsxanada hər gün üç saat vəz etməyə başladı. O öyrəndi ki, Allah ona yeni müjdəçilik sahəsi vermək üçün həbsxanaya düşməsinə yol verib! Ercan otuz gün həbsxanada oldu, şahidlər etiraf etdilər ki, polis onların aktlara qol çəkmələri üçün təzyiq göstərib və hakim heç bir cinayət üçün sübut tapmadı.

Həbsxanaya düşmək Ercanın şəhadətlik etməsinə kömək etdi. O, azadlığa buraxılandan bəri Müjdəni bölüşdüyü məhbus yoldaşlarından bir çoxu məbədə gəldilər, Ercana həbs müddətində sülh verən Allah haqqında bilmək istədilər. Ercan yenə də sevinclə məsihçi kitablarını paylayır və bilir ki, buna görə yenə həbs oluna bilər.

Ağzımı hər açanda mənə lazımi söz verilsin deyə, mənim üçün də dua edin ki, uğrunda zəncirlə bağlı halda elçilik etdiyim Müjdənin sirrini açım və bu Müjdəni lazımınca cəsarətlə bəyan edə bilim.

*Efes. 6:19-20*

*Bir çox məsihçilər etiraf edirlər ki, biz Allah tərəfindən istifadə edilməyimizi xahiş edəndə əzab çəkmək heç də bizim ağlımıza gəlmir. Əlbəttə, biz imanımızı yaşamaq istəyirik – amma təqib anına qədər yox. Biz iş yerlərimizdə irəliyə çəkilməyəndə və ya ictimai tədbirlərə buraxılmayanda inciyirik. Bizə etinasızlıq göstərdiklərini düşünürük. Bizi aldadırlar. Bizdən oğurlayırlar. Amma biz ümidsizliyimizin içərisində Allahı dua edərək axtarmağa çalışmalıyıq. Biz dua edən kimi gələcəyə baxışlarımızın dəyişildiyini görürük. Biz inkişaf üçün imkanlarımızı görməyə başlayırıq. Biz ümid əldə edirik. Biz ağrının içərisində vəd tapırıq. Nəhayət, biz ədalətsiz və haqsız olduğunu düşündüyümüz hal-hazırkı vəziyyətimizi kəşf etməyə başlayırıq, bunun, əslində, Allahın planının bir hissəsi olduğunu görürük. Biz təqiblərimiz zamanı Allahın fikirlərini bilmək üçün dua edəndə nəyin bahasına olursa olsun, itaətkar olmağa cəsarət tapırıq.*

# Böyük birlik

## MAVRİTANİYA: TİMOTEY

**"Timotey, xahiş edirəm, ona de!"- deyə, Mara ərinə yalvararaq qışqırdı. "Kəlamı harada gizlətdiyimizi ona de ki, azad olasan! Mən bu şeylərə baxmağa daha dözə bilmirəm."**
**Timotey və Mara Mavritaniyanın Roma əyalətinin sakinləri idilər, həbs olunmazdan bir neçə həftə əvvəl evlənmişdilər.**

Mara dəhşətli səhnəyə baxırdı, əsgərlər ərinin iradəsini sındırmağa çalışaraq, gözlərini isti dəmir ilə çıxarırdılar. Roma rəhbəri Arrianusun əmri ilə boynuna ağır bir şey salınaraq, tərsinə vəziyyətdə asılı qalan Timotey ağzından tıxacın çıxarılmasını gözləyirdi. Həbsə alınarkən ilk öncə hiss etdiyi qorxu ilahi sakitlik hissi ilə əvəz olunmuşdu.

Əsgərlərin düşündüyü kimi, öz imanını inkar etmək və Kəlam nüsxələrinin yerini demək əvəzinə, Timotey öz cavan həyat yoldaşını danladı. Xilaskarı üçün ölməyə hazır olduğunu təsdiqləyərək, Timotey Maradan son dərəcədə xahiş etdi: "İmkan vermə ki, mənə olan sevgin Məsihə olan sevginin qabağına keçsin." Ərinin cəsarətini görən Maranın özünün də cəsarəti gücləndi.

Arrianus artıq Timoteyin imtina etməsinə görə yaman hirslənmişdi, ona görə də Maranın yenicə tapdığı cəsarəti dağıtmaq istədi. O, qadını Roma dünyasının ən sərt işgəncələrinə məhkum etdi. Amma Mara sınmadı. O, Məsihi inkar etməkdən imtina etdi.

Hər ikisi sözlə ifadə olunmaz əzablara tab gətirərək, Timotey və Mara yan-yana çarmıxa çəkildilər.

*İsa öz xidmətini sərbəst imanlılara həvalə etmədi – o, ruhani ailə qurdu. O, "qardaş" və "bacı" sözlərindən istifadə edərək öz şagirdlərinin tək olmasını istəməmişdi. Paul yeni imanlılara ünsiyyət və müştərək ibadət üçün məbədlərdə yığışmasını öyrədərək Məsihin tapşırığını davam etdirdi. Məsihçilərin, xüsusilə çətinlik vaxtlarında bir-birinə ehtiyacı var. Bir imanlı büdrəyəndə, imanlı yoldaşları onu dəstəkləmək və ruhlandırmaq üçün yığışırlar. Ona görə də Əhdi-Cədid bir zərurət kimi məsihçi imanında nümunə ilə yaşamağı borc hesab edir. Bir nəfərin iman və cəsarət nümunəsi başqalarının da belə hərəkət etməsinə onları ruhlandırır və birləşdirir. Bunun əksi olaraq, bir imanlı təqibin təzyiqi altında əzab çəkəndə, o birilərinin təslim olması çox asan bir şeydir. Tarix məsihçi cəmiyyətində yoldaşlığı, xüsusilə, təqib zamanı yüksək səviyyədə saxlayır.*

Ürəklərinin cəsarət tapıb məhəbbətdə birləşməsini istəyirəm;

*Kolos. 2:2*

BÖYÜK SADİQLİK

# Böyük hazırlıq

**ÇİN:** PASTOR Lİ DEKSİAN

**Pastor Li Deksian vəzinə başlayan kimi məbədin qapıları taybatay açıldı. Çin Xalq Təhlükəsizlik Bürosunun silahlı məmurları otağa doluşdular və Lini tutub həbs edərək orada olan hər bir kəsi hədələdilər.**

"Xahiş edirəm, gözləyin, çantamı götürüm." Həmişəki kimi pastorun səsinin tonu məmurlarla danışarkən nəvazişli idi, amma mətanətlilik hiss olunurdu.

Məmurlar onun bu xahişinə təəccübləndilər. "Orada nə var?" – deyə ondan soruşdular və Linin əlində tutduğu qara zəncirbəndli çantasını əlindən qapıb içinə baxdılar. Çantada ədyal və dəyişik üçün əlavə paltarlar var idi. Li onlara dedi ki, həmin gün həbs olunacağını gözləyirdi.

Pastor Li dəfələrlə həbs olunmuşdu. İki dəfə polis onu elə döymüşdü ki, hətta qan qusmuşdu. Bir dəfə isə öz Müqəddəs Kitabı ilə Linin üzünə vurmuşdular. Liyə xəbərdarlıq edilmişdi ki, polis onun kənddə çərşənbə axşamları keçirdiyi toplantıları güdür. O bilirdi ki, əgər vəz etməyə çıxsa, həbs oluna bilər. Bu gün Çin vətəndaşları rəsmi məhkəmə olmadan əmək düşərgələrinə göndərilərək üç ilə qədər orada qala bilər.

Risklər böyük idi, amma Li çantasını doldurmuşdu. Təkcə çantasını hazırlamamışdı, o, həm də öz ağlını və ürəyini hazırlamışdı. O, Müjdəni vəz etmək üçün hər bir şeyi ödəməyə hazır idi. O inanırdı ki, Allah hətta həbsxanada belə, onun qayğısına qalar.

*Hazırlıq həsr olunmanın əlamətidir. Qurban verməyə hazırlaşmamış həsr olunma sadəcə cildini dəyişmiş güzəştə getmədir. Məsələn, nikaha həsr olunmaya baxaq. Bu, insanın xudbinliyini tələb edir və insanın sərbəstlik hissinə böyük təsir göstərir. Amma nəticə daha güclü nikahdır. Həsr olunmanın uğrunda qurban verməyə hazır olmayan ünsiyyətlər uzun sürmür. Güzəştə getmə zərbə vurur və həsr olunmağımız üçün arzumuzu və bacarığımızı zəiflədir. Bu yolla, imanlının Məsihə həsr olunması onun dəyərini saxlamaq üçün qiymət tələb etməlidir. Biz gündəlik məsihçiliyin buna layiq olduğunu təsdiqləyərək həsr olunmamızın sınağı üçün hazır olmalıyıq. Gündəlik duada vaxtımızı keçirməyə dəyər. Məbəddə ibadət etmək üçün toplaşmağa dəyər. Güzəştə getmədən həsr olunmamızı saxlamaq üçün çətinliyə, sıxıntılara, zorakılığa, hətta həbsə dözməyə dəyər.*

Sevimlilər, sizi sınamaq üçün aranızda baş verən odlu imtahana sanki başınıza gələn qəribə bir iş kimi təəccüb etməyin.

*1 Peter 4:12*

# Böyük nur

**KOLORADO:** REYÇAL SKAT

**"Mən məktəbdə bütün dostlarımı itirdim. İndi mən "danışdıqlarımı həyata keçirməyə" başladığıma görə onlar məni ələ salırlar." Reyçalın gündəliyi onun məyus olduğunu göstərir, çünki Məsihin sevgisini göstərmək istədiyi ən yaxın dostları ondan üz döndərmişdilər. Amma buna təslim olmadı.**

"Mən İsanın adından danışdığım üçün üzr istəyən deyiləm. Mən belə münasibət bəsləyəcəyəm. Əgər mənim dostlarım ən yaxın dostum İsaya görə düşmənlərimə çevriləcəksə, bu, mənim üçün problem deyil. Mən həmişə bilmişəm ki, məsihçi olmaq düşmənlər əldə etməkdir, amma heç vaxt fikirləşməmişəm ki, mənim 'dostlarım' həmin düşmənlər olacaqlar."

Reyçal Kolumbin orta məktəbində şagird idi, bir gün iki şagird məktəbdə atəş açdılar. Bir silahlı şagird ondan hələ də Allaha inandığını soruşdu. O, oğlanın gözlərinə baxıb, "bəli" dedi, o, hələ də inanırdı. Oğlan Reyçaldan nəyə görə inandığını soruşdu, amma onu cavab verməyə qoymayaraq öldürdü.

Reyçal Skat öz imtahanını verdi, buna görə də onun nuru məktəbdən kənara bütün dünyaya yayıldı. İmtahandan uzun müddət əvvəl Reyçal Məsih üçün hər bir şeyini verməyə hazır olduğunu bildirmişdi. Ölümündən düz bir il əvvəl gündəliyində yazılmış sözlər bizə onun həsr olunması barədə danışır: "Məsihin mənə verdiyi nuru gizlətməyəcəyəm. Əgər hər bir şeyi qurban verməli olsam belə, mən onu edəcəyəm."

*İman bizim Allah ilə şəxsi ünsiyyətimizin görünməz ifadəsidir. Müqəddəs Kitab insanların imanlarını nur kimi ifadə edir – bu ümid ətrafında olan hər bir kəsə təsir edir. İsa bu təsvirdən istifadə etmişdi, çünki nurun qabağını almaq mümkün deyil. Məsələn, istənilən uşağa məlumdur ki, örtük altında fənər ilə oxumaq gecə fəaliyyətini gizlətmək üçün effektli olmaz! Bizim nurun qarşısını almaq cəhdlərimizə baxmayaraq, nur öz təbiətinə görə sadəcə parlayır. Habelə, öz imanlarını tamamilə ifadə etmək lazım gələndə və ya hansısa bir yolla ört-basdır etməyə çalışanda imanlıların həyatında gərginlik yaranır. Gündəlik günəşin doğmasının gerçəkliyi ilə öz qərarlarını bir dəfə və hamı üçün təsdiqləmiş insanlar nurlarının bir vərdiş kimi parladığını görürlər.*

Eləcə də sizin nurunuz insanların qarşısında elə parlasın ki, xeyirxah işlərinizi görüb göylərdə olan Atanızı izzətləndirsinlər.

*Matta 5:16*

# Böyük dua

**ÇİN:** UONQ BACI

**Çin Xalq Təhlükəsizlik Bürosunun məmuru həbsxanaya girəndə Uonq bacı kənara çəkildi. Bu ürəksiz insan bir çox məsihçiləri həbs edərək təqib etmişdir. Bir neçə gün bundan əvvəl həmin məmur onu sorğu-suala tutarkən döymüşdü.**

"Xahiş edirəm, Uonq bacı, bacım bərk xəstədir. O, ayaqlarını tamamilə hiss etmir. Gəlib onun üçün dua edərsənmi?" Yüzlərlə Müqəddəs Kitabı və məsihçi kitablarını ondan müsadirə edərək götürən bu həmin insan deyildimi? İndi o, dua etməyi xahiş edir? Həqiqətən, Allah onun diqqətini cəlb edib.

Neçə gün əvvəl məmur Uonqu sorğu-sual edərkən və döyərkən ona zəng edilib deyildi ki, anasını maşın vurub. O, anasına etdiyi işlər barədə danışanda anası ona dedi ki, məsihçiləri incitdiyinə görə başına bu hadisə gəlib. Məmur bu xəbərdarlığı sadəcə mövhumat hesab etdi.

Növbəti gün o, yenə də Uonqu sorğu-sual etməyə başlayanda ona başqa bir xəbər gəlib çatdı, qardaşı qəzada yaralanıb. Qardaşı da onu günahlandıraraq dedi ki, məsihçilərə hücum etdiyinə görə ailəyə bədbəxtlik gəlir. Lakin məmurun bacısı xəstələnəndə, o, Uonqdan xahiş etdi ki, dua etsin.

Uonq bacı dua etmək üçün imkan olduğunu gördü, bu, onu təqib edənlərə şəhadətlik etmək üçün bir imkan idi. Allah onun bacısını sağaltdı və Uonq bacının hərəkətləri vasitəsilə məmurun ürəyini dəyişdirdi. Məmur müsadirə etdiyi bütün Müqəddəs Kitabları qaytardı və indi məbədi müdafiə edir.

*Bir çox insanlar, xüsusilə çətinlik və ağrı anlarında qəribə tərzdə duaya cəlb olunurlar. Kimsə dua etməyi xahiş edəndə və ya duanı qəbul edəndə dindən uzaq istənilən şeyə qarşı maneələr hissə-hissə sökülür. Təmənnasız dua etmək təklifini çox nadir insan rədd edər. "Mən sənin üçün dua edirəm" sözləri imanlının qeyri-imanlıya dediyi ən güclü sözlər ola bilər. Niyə? Dua Allahın dəyişiklik etməsi üçün bir qüvvədir. Dua nəticələr hasil edir. Bəzən o vəziyyətləri dəyişdirir. Bəzən o qərarları dəyişdirir. Çox vaxt duanın təsir etdiyi insanları dəyişdirir. Müqəddəs Kitab yazır ki, keçmişdə məsihçiləri təqib edən Tarsuslu Şaulun tövbəsindən sonra etdiyi iş dua olub. Hal-hazırda dünyada məsihçilyin məhv edilməsini arzulayan "Şaulların" tövbəsində duanın oynayacağı rolu kim bilir?*

Rəbb ona dedi: "Qalx, 'Düz Küçə' adlanan küçəyə get və Yəhudanın evində adı Şaul olan Tarsuslu bir adamı soruş. Hal-hazırda orada dua edir.

*Həv. İş. 9:11*

# Böyük "təqsir"

**MADAQASKAR:** RANAVALONA AY

**Ranavalona Ay, Madaqaskarın kraliçası öz krallığında məsihçilərə nifrət edirdi. Onun məsihçilərə qarşı şikayətləri çox idi: onlar kraliçanın bütlərinə nifrət edirdilər, onlar həmişə dua edirdilər, onlar həmişə məbədə gedirdilər, onların qadınları əxlaqlı idilər. O, məsihçi olmaqda şübhəli görünən insanları mühakimə etmək məqsədilə hamısını bir yerə yığmaq üçün məmurlarını göndərdi.**

İttiham oxunanda min altı yüz imanlı "təqsirkar" elan edildi. Onlar ittihamı inkar edə bilməzdilər, belə etmək Məsihi inkar etmək idi. Kraliça onlara ikinci dəfə imkan verdi ki, Məsihi inkar etsinlər və onun bütlərinə baş əysinlər, amma onlar bundan imtina etdilər. Onları qaranlıq, rütubətli zindanlara saldılar və bir çoxlarını edam etdilər. Kraliça daha da hirslənmişdi, çünki öldürtdüyü hər bir məsihçinin əvəzinə iyirmisi ayağa qalxırdı.

Sonra kraliça on beş məsihçinin edam olunmasına əmr verdi. Onlar sıldırım qayadan 50 metrə yaxın hündürlükdə daşlı yarğana atılmalı idilər. Kraliçanın bütləri qayanın başına gətirilmişdi və hər məsihçi kəndirlə bağlanaraq, qayanın kənarından azacıq aşağıya salladılmışdılar.

"Məsihinizə ibadət edərsiniz, yoxsa kraliçanın allahlarına?" – deyə, əsgərlər uçurum üzərində asılıb qalmış hər bir məsihçidən soruşdular.

Hər bir məsihçi sadəcə: "Məsih" deyə, cavab verdilər. Kəndirlər kəsildi və onlar daşlara çırpıldılar. Onlardan bəziləri daşlara çırpılanadək mahnı oxudular. Bir cavan qızı saxladılar və təqsirsiz olduğunu bəyan etdilər. Sonralar həmin qız böyük bir məbəd yaratdı.

*Bir çox ölkələrdə müttəhimlər təqsirli bilinənədək təqsirsiz hesab edilirlər. Əsas prinsip budur ki, insanı cinayət işi gördüyünə görə ittiham etmək üçün kifayət qədər sübutlar olmalıdır. Ədalət sisteminin işinə zidd olan bir çox ölkələrdə insanın Məsihə imanına görə hökumət onu incidir. İmanlılar sübut edilənədək təqsirkardırlar. İnsani, dünyəvi məhkəmədə təqsirsiz çıxmaq üçün insan Məsihi rədd edə bilər. Amma göylərdəki məhkəmədə isə təqsirkarlıq hökmü, əslində, qələbədir. "Böyük təqsir" o deməkdir ki, Məsihdə insanın imanı üçün o qədər sübutlar gətirilir ki, ittihama heç cür haqq qazandırmaq mümkün olmur! Buna oxşar ziddiyyətli fikri təkrar etməyə dəyər: Əgər siz bu gün məsihçi olmağa görə ittiham olunursunuzsa, sizin təqsirli bilinməyiniz üçün kifayət qədər sübut olarmı?*

*Lakin Məsihi Rəbb kimi ürəyinizdə müqəddəs tutun. Daxilinizdə olan ümid barəsində sizdən hesabat istəyən hər kəsə cavab vermək üçün hazır olun.*

*1 Peter 3:15*

# BÖYÜK SADİQLİK

**Biz öyrənmişik ki, dünyada ən pis şey əzab çəkmək deyil – Allaha itaət etməməkdir.**

İmanına görə həbs edilmiş vyetnamlı məsihçi pastor



7 gün

# Böyük yaralar

**YERUSƏLİM:** TOMAS

**Biz şayiələri eşitmişik. Əslində, Tomas Rəbbi sağ görən başqa həvarilərdən bunu birbaşa eşitmişdi. O, bu sözləri söyləmişdi: "Onun əllərini görsəm, barmaqlarımı mıxların yerinə qoysam və böyründə Roma nizəsinin açdığı deşiyə əlimi qoysam, onda inanaram ki, O, sağdır."**

Tomasın istədiyi möcüzə deyildi. Bu, hansısa böyük əlamət və ya xariqə deyildi. O, sadəcə İsanın bədənində yaraları, əzablarının simvolunu görmək istəyirdi. İsa ölümə qalib gəlsə də və izzətlənmiş bədəndə yaşasa da, onun hələ də yaraları – ödədiyi ödənişin xatirələri var idi.

Səkkiz gündən sonra İsa yenə göründü. Tomas Rəblə üzbəüz görüşəndə necə də özünü səfeh hesab etmişdi. Başqa həvarilər ona bu haqda danışanda onun bu sözləri necə də gülməli səslənmişdi. Amma İsa Tombası kobud şəkildə məzəmmət etmədi. Tomasın gözünün içinə baxaraq, İsa öz əllərini ona uzatdı, yaralara toxunmağı və inanmağı xahiş etdi.

Məsihin yaraları onun hələ də əzab çəkən bədənini xatırladaraq, dirilməsindən sonra da qalmışdı. İsanın ölümə qalib gəlməsinə baxmayaraq, onun yer üzündəki bədəni hələ də əzab çəkirdi. Bu gün O, imanına görə bədənində yaraları daşıyan insanları başa düşə bilir.

*Yaralar bizim müəllimlərimizdir – ağrılı dərslərin aydın xatirəsidir. Onlara çox vaxt baxmaq xoş deyil və çox vaxt başqalarının da görməsi üçün onlar nümayiş etdirilmir. Buna oxşar olaraq, məbəddə təqib yaraları da çox vaxt məsihçi toplantılarının söhbət mövzusu deyil. Biz buna soyuqqanlı yanaşırıq. Sirr. Amma bunun məqsədi bizi öyrətməkdir. Təqib Allahın bütün dünya üçün olan gözəl planında Müjdəni eşidib cavab verməkdə vacib rol oynayır. İsa öz yaralarını camaat qarşısında daşıdı. Əslində İsa şagirdlərini öyrətmək məqsədilə Tombası ruhlandırdı ki, yaralarına toxunsun. Onun yaraları – xilasımız üçün ödənilən ödənişi xatırladaraq bizim müəllimimizdir. Biz təqib olunmuş məbədin ödədiyi ödənişi rədd etməyərək, həmin yaralardan öyrənməkdə davam etməliyik.*

Sənsə mənim təlimimi, davranışımı, məqsədimi, imanımı, səbrimi, məhəbbətimi, dözümümü,...başıma gələn təqibləri, çəkdiyim əzabları diqqətlə izlədin.

*2 Timotey 3:10*

# Böyük seçim

**İNGİLTƏRƏ:** CON LAMBERT

**"Yaşamağı, yoxsa ölməyi seçirsən? Nə deyirsən?"**

Sual verən şəxs ölkədə qarşısıalınmaz gücə malik biri olan, İngiltərənin kralı Henri VIII idi. Onun qarşısında dayanan "cinayətkar" isə kafirliyə görə ittiham edilən, yunan və latın dili müəllimi Con Lambert, idi.

Lambert cəsarətlə pastorunu Kəlam ilə uyğunlaşmayan bir vəz etdiyinə görə sual altına atmışdı. Lamberti Kanterburinin yepiskopunun sonra isə kral Henrinin qarşısına gətirdilər. Kəlamdan sitatlar gətirərək və orijinal yunan dilini izah edərək, Lambert öz işini yepiskoplar, vəkillər, hakimlər və həmkarlar şurasının iclasına təqdim etdi. Henri yorulana qədər iki tərəf gərgin mübahisə etdi və sonda kral Lambertə axırıncı seçim verərək belə dedi: "Bu bilikli insanların dəlillərindən və təlimlərindən sonra indi sən inandınmı? Yaşamağı, yoxsa ölməyi seçirsən? Nə deyirsən?"

Lambert dərindən köksünü ötürüb arxayınlıqla cavab verdi: "Mən canımı Allahın əllərinə tapşırıram, amma bədənimi isə sizin mərhəmətinizə buraxıram."

"Sən ölməlisən" – deyə, Henri hiddətlə cavab verdi, "Mən kafirləri müdafiə etməyəcəyəm." Kafirlikdə təqsirli bilinərək Lambert dirəyə bağlanaraq yandırıldı. Lambert öz asta, əzablı ölümü qarşısında əyilmədi. O, əllərini yuxarı qaldıraraq, dedi: "Məsihdən başqa heç kim! Məsihdən başqa heç kim!"

*Müasir dövrdə imkanlar və seçmə hüququmuz olduqca artıb. Azadlığın özü ilə bərabər qüvvəyə malik iki yüz televiziya kanalı hüququmuz üçün "əsasdır". Biz seçimlər istəyirik. Müxtəliflik. Çeşid. Hətta dünyəvi qərarlar da gündəlik qapılarımızın ağzına gətirilir – nə geyməliyik, nə yeməliyik, nə sürməliyik, nə etməliyik. Amma bizim seçimlərimiz artıq əməli bir şey deyil – onlar əslində məhdudiyyətsizdir. Buna zidd olaraq, həyatın böyük sualları bizə gələndə bizim verməyə yalnız bir cavabımız var: "Məsihdən başqa heç kim". Göylərə aparan başqa bir yol varmı? Məsihdən başqa heç kim – O, Yoldur. İnsan həyatında özünü tamamilə həsr etmək üçün başqa nəsə üstün bir şey varmı? Məsihdən başqa heç kim – O, hər şeydən üstündür. İnsan ürəyinin istəklərini başqa kimsə təmin edə bilərmi? Məsihdən başqa heç kim təmin edə bilməz. Siz görürsünüz ki, həqiqət üçün heç bir alternativ yoxdur. Həyatın böyük sualları gələndə, onlar, sözsüz ki, gələcəklər, "Məsihdən başqa heç kimin" üstün olmadığını şəhadətlik etməyə hazırsınızmı?*

> Bu gün kimə qulluq edəcəyinizi özünüz seçin... Amma mən və mənim evimdəkilər Rəbbə qulluq edəcək.
>
> *Yeşua 24:15*

# Böyük satqınlıq

**RUMINİYA:** VASİLİ QARDAŞ

**Kommunist rejimi olan Rumıniyada "bütün mövhumatlardan xalqı kənarlaşdırmaq" üçün yeddi illik hücumun bir hissəsi kimi məbədlər bağlanmışdı və pastorlar həbs olunmuşdular.**

Vasili qardaş və həyat yoldaşı öz kiçik evlərində daha çox ev toplantıları keçirməyə başlayanda bilirdilər ki, hökumətin diqqətindən daimi olaraq qaça bilməyəcəklər. Hər axşam Vasili dua edirdi: "Ya Rəbb, əgər hansısa məhbusların mənim köməyimə ehtiyacı varsa, məni həbsxanaya qaytar." Onun həyat yoldaşı isə həvəssiz bir halda ağızucu "amin" deməklə titrəyirdi.

Sonra onlar öyrəndilər ki, məbəd üzvlərindən birinin evinə basqın edilib və Vasilinin vəzlərinin nüsxələri müsadirə olunub. Onlar həm də öyrəndilər ki, pastorun köməkçisi, onların dostu və həmkarı gizlincə xəbər çatdıraraq Vasilini ələ verib.

Gecə saat 1:00-da polis kiçik mənzilə basqın etdi və Vasilini həbsə aldı. Onlar Vasilinin əllərini qandallayanda Vasili dedi: "Siz mənə həyat yoldaşımı qucaqlamaq üçün bir neçə dəqiqə verməsəniz, mən buradan rahat çıxıb gedə bilməyəcəyəm." Polis könülsüz halda razılaşdı. Onsuz da onlar tezliklə istədiklərini edəcəkdilər.

Ər-arvad bir-birilərini qucaqladılar, dua etdilər və elə coşqu ilə oxudular ki, hətta bu, kapitana da təsir etdi. Nəhayət, onlar Vasilini polis maşınına mindirməyə apardılar, onun həyat yoldaşı isə göz yaşı içində onların arxasınca qaçırdı. Vasili naməlum halda uzun müddət həbsxanada vaxt keçirməzdən əvvəl üzünü arvadına tərəf çevirib son sözlərini dedi: "Oğlumuza və bir də məni satan pastora de ki, mən onları çox sevirəm."

*Böyük satqınlıq böyük bağışlamanı tələb edir. Əgər bizim düşmənlərimiz üstümüzə azğınlıqla gələrlərsə, sadəcə səxavətli olub onları bağışlamalı deyilikmi? Düşmənimiz bizi satmaq üçün kifayət qədər aşağı əyilirsə, onları bağışlamaq üçün kifayət qədər yuxarı qalxmalı deyilikmi? İsa bizə öyrədib ki, pisliyi bağışlamaq bizim özümüz üçün yaxşıdır. Böyük satqınlıq bağışlamaq təcrübəmiz üçün ürəklərimizi bağlamağa səbəb ola bilər. Əgər siz bağışlamaq şöbəsində simiclik etdiyinizi görürsünüzsə, öz günahlarınızdan azad olmaq hissini az hiss edəcəksiniz. Ələ verilmək kifayət qədər pisdir. Hirslənmək öhdəsindən gələ bilmədiyiniz bir məğlubiyyətdir. Bu gün siz kimə bol bağışlama verməlisiniz?*

Bizə borclu olanları bağışladığımız kimi, bizim borclarımızı da bağışla.

*Matta 6:12*

# Böyük hədiyyə

**RUSİYA:** KAPİTAN MARKO

**"Bu, nədir?" Sovet kapitanı Marko uşaqdan yapışdı. "Nə istəyirsən?"**

On iki yaşlı oğlan kommunist məmurunun qarşısında öz qorxusunu gizlətdi. "Kapitan, mənim valideynlərimi həbsxanaya salan sizsiniz. Bu gün anamın ad günüdür, mən də ad günündə həmişə ona çiçək alıram."

"Anam mənə düşmənlərimi sevməyi və pisliyə yaxşılıq ilə cavab verməyi öyrətdiyi üçün çiçəkləri uşaqlarınızın anası üçün gətirmişəm. Zəhmət olmasa, bu çiçəkləri həyat yoldaşınıza verin, mənim və Məsihin sevgisi haqqında ona danışın."

Məsihçilər amansızca döyülərkən və işgəncələrə məruz qalarkən biganə tərzdə baxan kapitan Marko oğlanın sevgi hərəkətinə heyrət etdi. O, göz yaşları içərisində astaca yazı masasından ayrılaraq oğlanı bir ata kimi qucaqladı. Markonun ürəyi Məsihin məhəbbəti vasitəsilə dəyişildi. O, artıq məsihçiləri həbs edib onlara işgəncə verə bilmirdi və tezliklə onun özünü həbs etdilər.

Oğlanla söhbətdən bir ay sonra Marko özünün əvvəllər həbs etdiyi və işgəncə verdiyi məsihçilərin bəziləri olan çirkli həbsxanaya düşdü. O, ağlayaraq öz məhbus yoldaşlarına uşaq və sadə çiçək hədiyyəsi barədə danışdı. O, əvvəllər axtarışında olduğu və hücum etdiyi insanlar ilə birlikdə həbsxanada qalmağı özü üçün fəxr hesab etdi.

*Səxavətlilik imanlı üçün ikinci təbiətdir. İsa öyrətmişdi ki, əsl imanlılar öz sevgilərini göstərməklə tanınacaq. Təkcə sevgimizin əvəzinə bizi sevənlərə deyil. Çox vaxtlar yad insanlara, hətta düşmənlərə səxavət göstərmək İsanın təlimlərinin ən yaxşı tətbiqidir. Bizim hərəkətlərimizə şahid olanlar, bunları görəndə valeh olurlar. Ədalətsiz olaraq işdən çıxarılmış və müdiri üçün dua edən incidilmiş məsihçini təsvir edin. İçkili olan sürücüyə valideynlərinin verdiyi əfv hədiyyəsini təsvir edin. Dünya səxavəti başa düşmür. Amma eyni zamanda, bu, hamıya təsir göstərir. Biz səxavətlə başqalarına verəndə Allahın özünə bənzəmədiyimizi görürük. Allah dünyaya sevgisini göstərmək üçün yeganə Oğlunu verdi və bizə xilas gətirdi. Siz bu gün kiminsə ürəyini Allahın padşahlığına açmaq üçün nə verə bilərsiniz?*

Sizsə düşmənlərinizi sevin, onlara yaxşılıq edin.

*Luka 6:35*

# Böyük müjdəçilik

## **PAKİSTAN:** SƏLİMƏ VƏ RƏHİLƏ

**“Əgər sən çarmıxını daşımağı vəd etmisənsə, tikanlar, dağlar və çətinliklər ilə dolu bir həyat olacaq” – pakistanlı yeniyetmə oğlan mətanətli bir səslə söylədi. Müsəlmançılığın hökmranlıq etdiyi Pakistanda yaşayan Səlimə öz imanını sinif yoldaşı Rəhilə ilə bölüşdü, o da Məsihi qəbul etdi.**

Rəhilənin hirslənmiş ailəsi Səliməni “müsəlmançılığa dönük çıxmış” biri kimi ittiham edirdilər, bu ittiham Pakistanda ölüm cəzası ilə nəticələnə bilər. Səlimə ilə pastoru həbs olundular və onun valideynləri istintaq edildilər və döyüldülər. Polis mühafizəsində qalarkən onu təhqir etdilər, amma o, imanını inkar etmədi. Əslində Səlimə başqalarını da Məsihə gətirmək ümidi ilə həbsxanada sakitcə mahnı oxudu.

Rəhilə evlərindən qaçdı, amma ailəsi onu tapıb evə gətirdi. Ailəsi ona axırıncı dəfə imanından dönməyi və Məhəmmədə qayıtmağı təklif edəndə o, bundan imtina etdi. Onun bu “cinayətinə” görə öz ailəsi Rəhiləni öldürdülər.

Səlimə uzun məhkəmə proseslərindən keçdi. Rəhilənin ailəsi qızlarının ölümünə görə onu günahlandırırdılar. Nəhayət, ittihamlar bitdi. Amma Səlimənin həyatı daha heç vaxt həminki kimi olmayacaqdı. Radikal müsəlmanların onu öldürməsindən qorxaraq, o, məcbur oldu ki, Pakistanın başqa bir hissəsinə köçsün. Amma tikanlar, dağlar və çətinliklər imanını zəiflətmədi. İndi o, müjdəçi kimi xidmət etməyə hazırlaşır. O deyir: “Dağ nə qədər böyük olsa da, İsa qalib gəlməkdə sizə kömək edəcək!”

*Müjdəçilər çox vaxt xüsusi qüvvələrə malik insanlar kimi – bizim xeyrimizə hərəkət edən Allahın iman ordusunda özünəməxsus bir qrup kimi təsvir olunurlar. Həqiqət budur ki, hər bir imanlı müjdəçi olmağa çağırılıb. Allahın ən dəyərli işlərindən bəziləri mətbəx stolu ətrafında, qəhvə içərkən, qonşunun evində baş verə bilər. Bizim tapşırığımız bizi haraya aparsa da, tapşırığımızın özəyi eyni qalır. Biz Məsihin sevgisini bölüşməyə təyin olunmuşuq. Bəziləri üçün ən yaxın dostları ilə imanlarını bölüşmək qəhrəmanlıq şücaəti ola bilər. Başqaları üçün isə mədəniyyətin müxtəlifliyi onların müjdəçilik ərazisini yaratmış olacaq. Bizim tapşırığımızın ölçüsü vacib olan şey deyil. Bizim marağımız ən vacib şeydir. Məsihin xoş xəbərini yaymaq üçün nə qədər uzaqlara getmək istərdiniz?*

Sən Məsihdə malik olduğumuz
hər xeyirli şeyi dərk etdikcə
imanını başqaları ilə paylaşmaqda
fəal olmağın üçün dua edirəm.

*Filimon 6*

# Böyük qiymətlər

**HİNDİSTAN:** Dr. P. P. COB

**"Mən sanki qollarımdan birinin kəsilib atıldığını hiss edirəm" – Dr. P. P. Cob dedi. Bu, onun həyatında ən çətin vəz idi: öz oğlunun dəfn mərasimi. Onun səsindən ağır tonla danışdığı hiss olunurdu. "Amma əlimdə hər nəyim varsa, Məsihin padşahlığına xidmət etməkdə davam edəcəyəm."**

Dr. Cob Hindistanda "Şəhidlərin Səsi" təşkilatına rəhbərlik edir və çox vaxt məhdudiyyət qoyulmuş xalqlarda məsihçiləri ruhlandırmaq üçün səyahətlər edərək həyatını təhlükə altına salır. O, həm də Hindistanda böyük toplantılarda vəz edir və minlərlə insanın Məsihə gəldiyini görüb.

Onun işi öz doğma diyarında olan radikal hindliləri hirsləndirib. 1999-cu ilin iyun ayında Dr. Cob maşınında gedərkən ona bir daş atılaraq maşının şüşəsindən keçib onun alnına dəymişdi, çoxlu qan itirərək ağır yaralanmışdı. Bundan bir həftə sonra Dr. Cobun ən kiçik oğlu Maykl həkim olmaq üçün təhsil aldığı tibb universitetinin yaxınlığından keçərkən böyük sürətlə sürən Fiat maşını Mayklı vurub qaçdı. Onu vuran şəxs heç vaxt tapılmadı. Maykl ağır yaralandı, komaya düşdü və bir gün sonra öldü.

Cobun vəd etdiyi kimi, oğlunun itkisi onu xidmətdən saxlamadı. Mayklın ölümündən sonra Dr. Cob minlərlə insanı Məsihə gətirərək böyük toplantılarda daha çox vəz etdi. Dr. Cobun xidmətinin qiyməti çox baha idi: öz oğlu. Amma o, tək deyil. Allah da başqalarını xilas etmək üçün oğul itirməyin nə olduğunu bilir.

*Təqib olunmuş məbəd üçün irəlidəki yol enişdir və uzun ola bilər. İki min ildən artıqdır ki, Məsihin Müjdəsinə qarşı bir çox insanlar pis niyyətlərlə doludurlar. Bir məsihçi kimi – hətta bizdən belə etmək heç vaxt tələb olunmasa da, qiymət ödəməyə hazır olmalıyıq. Bu, İbrahimin həyatının dərsidir. O, İshaqı – onun vasitəsilə xeyir-duanın gələcəyi insanı qurban gətirmək istəyirdi. Bizim Məsihə həsr olunmağımız üçün qurban verməyə hazırlığımız bizi güclü edir. Qurban ideyası bizim məqsədlərimizi aydınlaşdırır. Qurban bizim xasiyyətimizi möhkəmləndirir. Bizə nəyinsə bahasına başa gələn həsr olunma Məsih üçün ailəmizi, qonşuluğumuzu və dünyamızı dəyişdirir. Biz necə güclü olmağı öyrənirik. Baxmayaraq ki, bizə əziz olan şeyləri itirmək istəmirik – biz istənilən vəziyyətdə həsr olunmamızda ruhdan düşməmək üçün mübarizə aparırıq.*

Uşağa əl qaldırma və ona bir şey etmə. İndi bildim ki, sən Allahdan qorxursan; öz yeganə oğlunu Məndən əsirgəmədin.

*Yaradılış 22:12*

# BÖYÜK SADİQLİK

**Rəbbim, məni Öz sülhünün aləti et.**
**Nifrət olan yerdə qoy sevgi;**
**İnciklik olan yerdə əfvi;**
**Şübhə olan yerdə imanı;**
**Ümidsizlik olan yerdə ümidi;**
**Qaranlıq olan yerdə nuru;**
**Kədər olan yerdə sevinci əkim.**
**Ey İlahi Ağam, mənə kömək et ki,**
**təsəlli almaqdansa**
**daha çox təsəlli verə bilim;**
**başa düşülməkdənsə, başa düşüm;**
**sevilməkdənsə, sevim.**
**Çünki biz verərkən əldə edirik.**
**bağışlayarkən bağışlanırıq.**
**ölərkən əbədi həyat üçün doğuluruq.**

Müqəddəs Assizili Fransisk



**14cü** gün

# Böyük təbəssüm

**SİBİR:** PAUL

**Artıq gec idi, sovet zabiti Paulu neçə saat idi ki, döyüb ona işgəncə verirdi. "Biz artıq sənə işgəncə verən deyilik" – deyə, qəddar bir gülüşlə gülümsünərək cavab verdi. "Biz səni qarın heç vaxt ərimədiyi Sibirə göndərəcəyik. Bu, böyük əzab yeridir. Sən və ailən oraya yaxşı uyğunlaşacaqsınız."**

Paul kədərlənmək əvəzinə gülümsədi. "Bütün dünya mənim Atama məxsusdur. Sən məni hara göndərsən, mən Atamın dünyasında olacağam."

Zabit iti baxışlarla ona baxdı. "Biz sənə məxsus olan hər bir şeyi götürəcəyik."

"Zabit, sizə hündür bir nərdivan lazım olacaq, çünki mənim xəzinəm göylərdə yığılıb." Paul hələ də gözəl təbəssümlə baxırdı.

"Biz sənin gözlərinin arasına güllə atacağıq" – deyə, zabit bu dəfə hirslə cavab verdi.

"Əgər siz bu dünyada mənim həyatımı götürsəniz, mənim əsl sevincli və gözəl həyatım başlayacaq" –deyə, Paul cavab verdi. "Mən ölməkdən qorxmuram."

Zabit Paulun cırıq-cırıq olmuş məhbus köynəyindən yapışıb düz gözlərinin içinə baxaraq qışqırdı: "Biz səni öldürməyəcəyik! Biz səni həbsxanada tək saxlayıb heç kimi qoymayacağıq ki, səni görsünlər!"

"Siz bunu edə bilməzsiniz"- hələ də gülümsünərək cavab verdi. "Mənim elə bir Dostum var ki, kilidli qapıları və dəmir barmaqlıqları keçə bilir. Məni Məsihin sevgisindən heç kim ayıra bilməz."

*Naməlum gələcəyə baxmayaraq, biz bir şeyə əmin ola bilərik: Məsih onu bizimlə birlikdə qarşılayacaq. İstər biz şəxsi sınaqdan, istərsə də camaat qarşısındakı sınaqdan keçək, biz heç vaxt tək olmayacağıq. Buna zidd olaraq, insan olan yoldaşlarımız hansısa məqamda bizi tək qoya bilər. Həyatın səyahətində onların bizimlə gedə bilməyəcəyi yerlər olacaq – su olduqca dərin, onların düşüncələri isə tutqun olacaq. Əzab çəkən ürəklərimizdə yalnız İsanın "dəmir barmaqlıqları" keçmək və çətin vaxtları bölüşmək qabiliyyəti var. Düzdür, O, bizi vəziyyətlərimizdən qurtarmaya bilər, amma onun daimi hüzuru onlardan qurtulmaq üçün bizimlə olacaq. Gülümsəyin, bilin ki, sizdən heç vaxt ayrılmayan Dostunuz var.*

Məsihin məhəbbətindən bizi kim ayıra bilər? Əziyyətmi, sıxıntımı, təqibmi, aclıqmı, çılpaqlıqmı, təhlükəmi, qılıncmı?

*Roma. 8:35*

# Böyük qurban

**İNDONEZİYA:** PASTOR HENDRİK PATTİUAEL

**Onlar bayırda gənc məsihçilərin qışqırıqlarını eşidəndə evə doluşdular. Məsihçiləri öldürürdülər. Pastor Hendrik Pattiuael və həyat yoldaşı İndoneziyada gənclər düşərgəsinə rəhbərlik edirdilər və onlar düşərgədə olan gənclərin qayğısına qalmaqda məsuliyyət daşıdıqlarını hiss edirdilər.**

Düşərgə ruhani inkişaf və ibadət üçün sevinc dolu bir vaxt idi. Sonra onlara hücum etdilər.

Radikal müsəlmanlardan ibarət izdiham onların gizləndiyi binanı dövrələyəndə pastor Pattiuael bayıra çıxdı. Qana susamış izdihamın diqqətini həyat yoldaşından və gənclərdən yayındıran pastora hücum olundu, o birilər isə qaçıb çıxa bildilər.

"İsa, mənə kömək et." Bunlar onun sonuncu sözləri idi.

Həyat yoldaşı onu gələn dəfə tabutda gördü. Onun bədəninə və qollarına xaç şəklində eybəcər yaralar vurmuşdular. Şokda və qəzəbdə qadın Allahı çağırdı. "Sən bunun baş verməsinə necə yol verdin? Sən niyə ərimi qorumadın?"

Amma Müqəddəs Ruh ona hücumdan bir neçə gün əvvəl ərinin sözlərini xatırlatdı: "Əgər sən məni və ya ailəni İsadan çox sevirsənsə, sən Məsihin padşahlığına layiq deyilsən." O, həyat yoldaşına dedi ki, Məsihin padşahlığı üçün ölməyə hazırdır.

Həmin sözləri xatırlayaraq, o qəzəblənməkdən imtina etdi. O, hələ də İndoneziyada öz məbədində xidmət edir. Onun azad ölkələrdə yaşayan məsihçilərə verdiyi məsləhət budur: "Allahı daha ciddi şəkildə axtarın ki, daha çox çətinliyin içərisində dayana biləsiniz."

*Biz çətinliyi axtarmamalıyıq. O, artıq bizim ünvanımızdadır. İsa çox vaxt şagirdlərinə xatırladıb ki, çətinliklər bizim gündəlik həyatımızın bir hissəsidir. Allahı daha ciddi şəkildə axtarmaq həyatlarımızda daha çox çətinliklər axtarmaq deyil. Xeyr, Allah ilə dərin ünsiyyətləri axtarmağın faydası bizi labüd şeylər üçün daha yaxşı hazırlamaqdır. Biz yolumuza çıxan çətinlikləri seçə bilmirik. Amma biz Allah ilə ünsiyyət qurmağı seçə bilərik, bu, bizi çətinlik üçün hazırlayır. Bəzi çətinliklər Məsihin xatirinə həyatlarımızı itirmək ola bilər. Amma bu, həqiqi qurban deyil. Böyük qurban daha sonra gəlməlidir. Biz əvvəlcədən Allah ilə yaxınlığı inkişaf etdirmək üçün istənilən səviyyədə xudbinliyi qurban verməliyik. Biz Məsih ilə gözəl ünsiyyəti əldə etmək üçün hər şeyi qurban verdikdən sonra artıq ən çətin işi etmiş oluruq.*

Beləliklə, ey qardaşlar, Allahın mərhəməti xatirinə sizə yalvarıram ki, bədənlərinizi diri, müqəddəs və Allahı razı salan bir qurban olaraq Ona təqdim edin; bu, sizin ağılla etdiyiniz ibadətdir.

*Roma. 12:1*

# Böyük ağrı

**SUDAN:** SUDANLI OĞLANLAR

**"Bizimlə birlikdə təkrar edin" – deyə, oğlanların üzünə və qarnına yumruqlar vuraraq, həm də təpikləyərək əsgərlər qışqırdılar. "Allah təkdir, şəriki yoxdur, Məhəmməd isə peyğəmbərdir. Deyin bunu!"**

Dörd Sudanlı oğlan ağlayaraq analarını çağırdılar, amma həyatlarını xilas edən bilən, lakin məsihçiliyi inkar edən sözləri təkrarlamaqdan imtina etdilər. Onların qırmızı qanları qara dərilərinin üzərindən axmağa başladı, amma onlar Məsihə imanlarından dönmədilər.

Yaşca bir az böyük olan yeniyetmə oğlanlar kənardan dəhşətli görünürdülər. Onlar islamçıların Cənubi Sudanlı ailələri necə qılıncla öldürdüklərini görmüşdülər. İndi onlar öz dörd dostlarının və qohumlarının – ən kiçiyinin beş yaşı var idi – ölənə qədər döyüldüyünə baxırdılar.

Əsgərlər artıq yaşca bir az böyük oğlanları məcbur etmişdilər ki, isti kömürlərin üzərinə uzansınlar. Onlar həm də müsəlmanlığın kəlmeyi-şəhadətini təkrarlamağı və islama qoşulmağı əmr etmişdilər. Oğlanların heç biri əzablı ağrılara baxmayaraq heç bir söz demədilər.

Həmin gün hücum zamanı on dörd oğlan və on üç qız tutulmuşdu. Qızların harada olduğu heç vaxt məlum olmadı, ola bilsin ki, Şimali Sudanda qul və ya kəniz kimi satılmışdılar. Oğlanların hamısına işgəncə verildi, amma heç biri tabe olmadı. Növbəti gecə yaşca bir az böyük oğlanlar keçən gecənin yaralarını hələ də daşıyaraq qaçdılar. Heç biri imandan dönmədi.

*Ağrı çox vaxt Allahın planında vacib rol oynayır. Əfsuslar olsun ki, bizim diqqətimizi cəlb edən və toplayan ağrının qabiliyyətinə bərabər başqa bir həyat təcrübəsi yoxdur. Uzun müddətli xəstəlikdən və ya qəfil zədələnmədən fiziki ağrı insan bədəninin bütün diqqətini cəlb edir. Beyin çətinlik mənbəyinə bədənin ehtiyatlarını cəlb etmək üçün bütün sinir sisteminə siqnallar göndərir. Eləcə də emosional ağrını rədd etmək mümkün deyil. Xərçəng, xəstəlik, təqib və ya ədalətsizlik kimi acı vəziyyətlərdə sevdiyimiz kimisə itirməyin ağrısı olduqca sarsıdıcı ola bilər. Bizi ağrı ilə tanış edən hər hansı vəziyyət olursa olsun, onu yoluna qoymaq üçün iki seçimimiz var. Biz təslim ola bilərik. Yaxud biz böyüyə bilərik. Ağrını yaşayan insanlar Allahın lütfünün misilsiz xidmətçiləri ola bilərlər. Daha da güclü olmaq üçün gərginlik və məşqlər vasitəsilə əzələləri dözməyən idmançı kimi ağrı da yeni inkişafımız üçün cığırımızdır.*

Çünki bu səbəbə görə Müjdə ölülərə də yayıldı ki, cismən onlar bütün insanlar kimi mühakimə olunduğu halda, ruhən Allah kimi yaşasınlar.

*1 Peter 4:16*

# Böyük müqavimət

**RUMINİYA:** RİÇARD VURMBRAND

**"Mən kommunistlərə valehəm." On dörd il kommunist həbsxanasında olmuş pastorun sözləri qəribə səslənirdi, amma Riçard Vurmbrand səmimi tərzdə onlara bunu söylədi.**

"Bir çox kommunistlər öz "utopiyalarını" müdafiə etmək üçün ölməyə hazır idilər. Onlar öz məsləklərinə mənim məbəddə gördüyüm bəzilərindən daha dərindən həsr olunmuşdular."

Pastor Vurmbrand hər bir düşməndə potensial dostu və potensial məsihçini görürdü. Öz rəqiblərini sevməklə o, təkcə bir çoxlarını Məsihə gətirmədi, eləcə də şəhadətlik etmək üçün imkanlarını artırdı.

"Onlar məni 'murdar yəhudi' adlandıranda və hamıya kitablarımı oxumamağı söyləyəndə insanlar dərhal bu 'murdar yəhudinin' nə demək istədiyini eşitmək istəyirdilər" – deyə, o, gülərək danışır. "Həmişə mənə qarşı duran hər bir kəsi sevə-sevə qəbul edirəm. Sizin deməli olduğunuz fikirlərlə başqaları heç də həmişə maraqlanmırlar. Siz öz imanınızı bölüşməzdən qabaq onlarda həqiqət barədə suallar yaratmalısınız. Bunu etmək üçün siz onların haradan gəldiklərini anlamalısınız və təsirli şəkildə danışmağı bacarmalısınız."

Pastor Vurmbrandın sözləri qürurlu düşüncələrdən irəli gəlməyib, əslində, o özü buna nümunə olub. O və həyat yoldaşı Sabina öz evlərinə nasist məmurunu dəvət etmişdilər, bu, həmin insan idi ki, Sabinanın bütün ailəsinin məhv olduğu həbs düşərgələrində işləmişdir. Həmin məmur onların sevgisini və bağışlamalarını görəndə padşahlığı qazandı.

*Qeyd:* Bu sözlər Pastor Riçard Vurmbrandın 2001-ci ilin fevral ayında ölümündən qabaq sonuncu müsahibələrindən götürülüb.

*İsa öyrədirdi ki, başqaları bizim imanımızı, xüsusilə müqavimət halları yarananda, sevgimizdən tanıyacaqlar. Öz məsihçi ailəmizdə olanlarla rəftarımız necədirsə, düşmənlərimizlə rəftarımız da elə olmalıdır. Əslində, bizim tənqidə cavabımız imanımızı daha çox göstərir. İmanlılar məsihçi imanının bu güclü prinsipini həyata keçirəndə onlar özlərini dünyanın başqa insanlarından fərqləndirirlər. Müqavimətə qarşı təbii cavab ya təkzib etmək, ya da yaxşılıqla əvəzini verməkdir. İmanlılar düşmənlərinin ayağının altını qazımalı deyillər, onları başa düşməyə çalışmalıdırlar. Müqavimətə bu tərəfdən yanaşanda o, imanı göstərmək və Məsihin əmrlərini təqlid etmək imkanı kimi qarşılanır.*

Qonşunu sev və düşməninə nifrət et" deyildiyini eşitmisiniz. Mənsə sizə deyirəm ki, düşmənlərinizi sevin, sizi təqib edənlər üçün dua edin.

*Matta 5:43-44*

# Böyük səyahət

**TİTANİK:** DR. ROBERT BATİMAN

**Dr. Robert Batiman ehtiyatla baldızını xilasedici qayığa mindirdi. “Həyəcanlanma, Enni. Bu, bizim imanımızı sınaqdan keçirəcək. Mən başqalarına kömək etmək üçün qalmalıyam. Əgər biz yer üzündə bir daha görüşməsək, göylərdə yenidən görüşəcəyik.” Qayıq aşağıya qaranlıq, buzlu suya salınan zaman Batiman öz əl yaylığını qadına tulladı və dedi: “Enni, bunu boğazına bağla, yoxsa sənə soyuq olar.”**

Dr. Batiman gəminin dal tərəfində əlliyə yaxın adamı yığaraq, ölümə hazırlaşmağı onlara söylədi. Həmin gün bir az əvvəl o, böyük gəmidə ibadət toplantısı aparmışdı, xidmət onun sevimli himni “Allahım, Sənə daha yaxın” ilə bitmişdi.

Robert Batiman Florida ştatının Ceksonvill şəhərində Mərkəzi Şəhər Missiyasını yaratmışdı, bu, həmişə içkili dənizçilər ilə dolu olan bir yerdə ruhani mayak idi. Onu “Ceksonvilldə olan hər bir kəsdən daha çox insan nuru yayan bir şəxs” adlandırırdılar. Batiman məsihçiliyin ictimai işini öyrənmək üçün İngiltərəyə getmiş və öyrəndiklərini həyata keçirmək üçün ABŞ-a qayıtmışdı.

Amma 1912-ci il, aprelin 12-si gecə Batimanın gəmisi aysberqlə toqquşdu. Batiman gəminin dal tərəfində yığışmış insanlara Rəbbin duasını təkrar etməyi söylədi. Orkestr “Allahım, Sənə daha yaxın” himnini oxuduqca böyük “Titanik” gəmisi dalğaların qoynunda qərq oldu.

*Belə deyilir ki, Allahı şübhəsiz güldürəcək bir şey ona planlarımızı söyləməkdir! Biz Məsihi qəbul edəndə həyatımızın ən böyük maraqlı bir səyahətinə başlayırıq. Səyahəti dəyərli etmək üçün biz özümüzü onun əmrinə – gəminin kapitanına təslim etməliyik. O, daha böyük məqsədlərə doğru şıltaqlıqlarımız və istəklərimiz vasitəsilə idarə edərək, istədiyi kimi həyatımızın səyahətini ahəngləşdirir. Elə vaxtlar olur ki, hətta ən çətin vaxtlarda onun xəritəsi köhnəlmiş görünür və biz onun öz yolunu itirdiyini düşünürük. Girintili-çıxıntılı daşlar qaranlıq dərinliklərdən üzə çıxır. Aysız gecə bizi öz qaranlığının ağuşuna alır. Həyatımızın planlarının idarəçiliyini yeniləşdirmək üçün həmin anlarda biz necə də sınağa çəkilirik. Amma səyahət imanda riskdir, bu, böyük bir şey deyil. Allahın həyatlarımız üçün planları bizi özümüz üçün heç vaxt seçmədiyimiz istiqamətlərə aparır. Amma O, bizim üçün ən yaxşı nə olduğunu bilir.*

İnsanın qəlbində çox amalı var,
amma Rəbbin niyyəti həyata
keçər.

*Sül. Məs. 19:21*

# Böyük iman addımı

**MİSİR:** MƏSİHÇİ GƏNCLƏRİN RƏHBƏRİ

**Məsihçi rəhbər gənclər qrupuna dedi: "Planımız budur". "8:30-da universitetdə toplantının dəvətnamələrini paylamağa başlamalısınız. Gizli polis gəlib sizdən nə etdiyinizi soruşana qədər dəvətnamələri cəld paylamalısınız. Əgər siz onları kiməsə verə bilməsəniz, sadəcə onları hansısa bir yerə qoyun. Allah onları lazımi əllərə çatdıracaq."**

"Siz istəyirsiniz ki, icazəmiz olmadan dəvətnamələri paylayaq?" Misir polisi tərəfindən həbs olunmağı təsvir etmək rəhbərin ətrafına yığışmış narahat oğlanların və qızların fikirlərindən keçdi.

"Bəli, biz balaca imanı məşq etdirməliyik. Biz birinci addımı atmalıyıq və qalan şeylər Allahın əlindədir."

Misirdə məsihçi toplantılarına ciddi nəzarət olunurdu və hökumətin razılığı olmadan keçirilə bilməzdi. 8:30-dan az sonra gənclərin rəhbəri polisə zəng vurdu ki, məsihçi toplantısı keçirmək üçün icazə versin.

"Siz müvafiq anketləri doldurmalısınız və biz sizə ya bir aydan, ya da daha sonra bildirəcəyik."

"Bağışlayın, cənab, axı biz artıq toplantı üçün dəvətnamələri paylamağa başlamışıq" – deyə, məsihçi narahat bir halda cavab verdi.

"İcazəniz olmadan dəvətnamələri niyə paylamısınız? Siz bilirsiniz ki, belə toplantıların keçirilməsinə bizim razılığımız olmalıdır. Yaxşı, dəvətnamələr artıq paylandığı üçün bu dəfə mən toplantıya icazə verəcəyəm."

*İmanımızı hərəkətə qoymaq qeyri-müəyyən səyahət zamanı ilk addım atmaq deməkdir. Bu səyahəti edənlər bizə deyəcəklər ki, əslində, getmək çətin deyil. "Bilmədən getmək" insanı bir az ruhdan salır. İman səyahətində xəritələr yoxdur. Biz Allahın təminatının ulduzunun işığı ilə idarə olunuruq. Bu həyatın əsas baş yolundan görünməyən yerlərə aparan kələ-kötür yollarda maraqlı səyahətdir. İmanlıların icazəsinə əmin olmadıqları toplantıya dəvətnamə paylaması böyük iman tələb etdi. Allah onların iman addımlarını həmin gecə üç yüz insanın Məsihi tanıması ilə qiymətləndirdi. Siz imanda addım atmağa hazırsınızmı?*

İman ümid edilənlərə etibar etmək,
görünməyən şeylərə əmin olmaqdır.

*İbr. 11:1*

# BÖYÜK SADİQLİK

**Ötən müharibə zamanı bizə öyrətmişdilər ki, öz məqsədimizə çatmaq üçün istifadə olunmağımıza icazə verməliyik...Biz bilirik ki, ölkə bizdən azadlığın dəyəri üçün bölüşməyi tələb edəndə bircə cavabımız var – amma Rəbb İsa bizdən dünyaya müjdəçilik üçün dəyər ödəməyi xahiş edəndə biz çox vaxt sözsüz cavab veririk. Biz gedə bilmərik. Biz deyirik ki, bu, həddən artıq bahadır... Müjdəçilər istifadə olunmağın lazım gəldiyi hallar ilə həmişə qarşılaşırlar.**

Müqəddəs Neyt, 1956-cı ildə Ekvador cəngəlliyində
şəhid olmuş müjdəçi



# Böyük fərman

**LAOS:** MƏSİHÇİLƏR

**Səhifənin aşağısında hədələyici qırmızı bir möhür Laosun həmin ərazisindəki rayon kommunist məmurunun nişanı idi. Yerli məsihçilər üçün bu sözlər daha hədələyici idi.**

Sənəddə yazılmışdı: "Əgər hansısa bir insan, qəbilə, ailə məsihçilik və ya başqa dinlərə inanmaqla aldansalar, onlar əvvəlki dinlərinə qayıtmalıdırlar." "Həmin dini yaymaq qadağandır. Əksinə, həmin imanlılar yeni ərazilərə köçüb yaşamalıdırlar. Əgər başqa dinə inanan hansısa kənd və ya ailə varsa,...partiya komitəsinin üzvləri statistik məlumatları toplamalı və həmin insan qruplarının siyahısını tutmalıdırlar...və Tikinti üçün Cəbhə idarəsinə göndərilməlidir. Biz bu rayonda xüsusilə, nə qədər insanın İsaya inandığını, nə qədər insanın məsihçi olduğunu bilmək istəyirik." Sənəd 1996-cı il, 18 iyul tarixində "Tikinti üçün Cəbhənin Komitəsi" tərəfindən imzalanıb.

Çox vaxt laoslu məsihçilərə silah tuşlanaraq məcbur ediliblər ki, məsihçiliyi qəbul etdiklərini inkar edən sənədi imzalasınlar. Bu yaxınlarda da laoslu məsihçilər buna məcbur ediliblər. Ateist hökumətdə, belə görünür ki, İsa Məsihə ibadətdən başqa, istənilən din daha qəbul edilən sayılır.

Hökumətin səylərinə baxmayaraq, məsihçilər cəsarətlə imanlarını bölüşdükcə Laosda məbəd böyüyür.

*İnsan səlahiyyəti Allahın əmrlərinə zidd gedəndə xətt çəkilir; seçim etmək lazım gəlir. Ya biz insan səlahiyyətinə tabe olacağıq, ya da özümüzü Allahın əmrlərinə bağlayıb özümüzü təhlükə altına salacağıq. Sülh bizim başlıca məqsədimiz olduğu üçün insan tələbləri içərisində ümdə məsələlərimizin yerini dəyişə bilmərik. Məsələn, ABŞ hökuməti məktəbdə duanın qeyri-qanuni olduğunu bəyan edib. Amma onlar öz Allahları ilə ünsiyyət qurmaq istəyən şagirdlərdən və müəllimlərdən, həqiqətən, duanı götürə bilməzlər. Başqaları buna oxşar və ya bundan da pis dini məhdudiyyətə sərəncam verə bilər. Amma Allah onların səlahiyyətlərini qəbul etmir, insan ürəyi üzərində yalnız o, padşahdır. Biz iradəmizin hərəkəti kimi arxayıncasına insan səlahiyyətindənsə, Allaha itaət etməyi seçməliyik.*

Peter və başqa həvarilər belə cavab verdi: "İnsana deyil, Allaha itaət etmək daha vacibdir."

*Həv. İş. 5:29*

# Böyük qaçaqmalçı

**ÇİN:** VATÇMEN Nİ

**Çində məbəd rəhbəri olan Vatçmen Ninin yalnız altı saatı qalmışdı. O, həbsxananın qarşısında olan mühafizəçini Məsihə gətirməli idi ki, azadlıqda olan məsihçilərə yazdığı ruhlandırma məktubu onlara çatsın.**

Mao hökumətinin rəhbəri Çində məsihçiliyin yayılması ilə əlaqədar hiddətlənmişdi. Bu "yad kultun" yayılmasının qarşısını almaq üçün bütün xarici müjdəçiləri güclə ölkədən qovmuş və ya öldürmüş, eləcə də minlərlə Çin məbədlərinin rəhbərlərini həbs etmiş, yaxud "islah etmək üçün əmək düşərgələrinə" göndərmişdilər. Amma məbəd hələ də artırdı.

Polis Ninin yazdığı gözəl, güclü ruhlandırma məktublarının həbsxanadan kənarda olan məsihçilərə gedib çıxdığını görəndə onlar mühafizəçilərin sayını iki dəfə artırdılar və heç vaxt Ninin otağının qarşısında eyni mühafizəçini dayanmağa qoymurdular. Onlar növbəni qısaldıb altı saat etmişdilər ki, Ninin mühafizəçini imana gətirməyə vaxtı olmasın.

Ni mühafizəçiyə Atanın sevgisi haqqında danışdı və mühafizəçinin göylərdə əbədi yaşaması üçün Allahın öz bədənindən və qanından keçdiyini ona söylədi. "Kommunizm səni göylərə apara bilməz" – deyə, Ni əlavə etdi. "Yalnız İsa Məsihin qanı bunu edə bilər."

Vəzin beşinci saatında göz yaşı içərisində mühafizəçi Məsihi qəbul etdi. Başqa bir qəlb də padşahlığa daxil oldu və Vatçmen Ninin başqa məktubları da təhlükəsiz mənzil başına çatdı.

*Əgər məsihçi şəhidlər bizə nəsə öyrədirsə, bu, odur ki, biz Müjdəni yaymaq üçün yaradıcı bir enerjidən istifadə etməliyik. Onların bacarıqları, cəsarətləri və hətta gözüaçıqlıqları Xoş Xəbəri yaymaq üçün bizim ruhumuzu oyatmalıdır. Məhdudiyyət qoyulmuş ərazilərə Kəlamı qaçaqmalçılıq etməyə hamının imkanı olmasa da, biz padşahlıq üçün xidmətçilər ola bilərik. Bu, yolun kənarında qonşulara yemək paylamaq ola bilər. Qeyri-imanlı insanlarla görüşmək üçün qolf dərslərinə və ya başqa ictimai dərslərə yazılmaq ola bilər. Şəhadətlik etmək üçün yeni metod bizi həmişə təhlükə altına sala bilər. Amma biz babat həyat tərzindənsə həmişə riskə getməyə hazır olmalıyıq. Bu gün sizin müjdəçilik həyatınız necə təsvir olunur? Dünyəvi, yoxsa babat? Yoxsa Məsih üçün yaradıcı bir enerji ilə dolu?*

Bu məqsədlə də zəhmət çəkirəm
və Onun məndə qüdrətlə
fəaliyyət göstərən qüvvəsi ilə
mübarizə aparıram.

*Kolos. 1:29*

# Böyük əmlaklar

**PERU:** PASTOR ZAPATA

**"Peruda məsihçilər İsaya xidmət etmələrinə görə nəsə əldə etməyi düşünmürlər" – pastor Zapata dedi. "Onlar nəsə verməyi düşünürlər." Sakit dağlıq bir kəndin kənarında pastor Zapata öz qonaqlarına əl ilə düzəldilmiş ağ çarmıxlar cərgəsini göstərdi, onların hər biri kommunist qiyamçıları tərəfindən öldürülmüş məsihçini təmsil edirdi.**

Keçən gecə partizanlar tərəfindən öldürülmüş başqa bir pastorun cənazəsi kiçik kənd evinin içərisində pastor Zapatanın qarşısında yerə uzadılmışdı. Onun cəsədi sadə bir ədyal ilə örtülmüşdü, ətrafında isə şamlar və kədər içində olan ailə üzvləri yığışmışdı.

Bayırda yağışın altında isə həmin mərhum pastorun məbədi xor şəklində izzət ilahiləri oxuyurdu. Onların ayaqqabıları palçıqda batmışdı. Partizanlar onların məbədlərini dağıtmış və bir çoxlarının evlərini yandırmışdı. Amma onlar hələ də izzət ilahisi oxuyurdular.

Məsihçilər təhlükədən kənar deyildilər, çünki partizanlar istənilən vaxt qayıda bilərdilər. Pastorlar çox vaxt ayrılırdılar, çünki pastorlar bütün kəndi marksist basqınına qarşı dayanmaqda ruhlandırırdılar.

Pastor dinləyicilərə xatırlatdı ki, Müqəddəs Kitab Allahın əlindən gələn maddi xeyir-duaları deyil, Allahı axtarmağa bizi səsləyir. "Siz niyə köynək alırsınız?" – deyə, o, insanlardan soruşdu. "Ondan istifadə etmək üçün." "Onda İsa sizi nəyə görə xilas edərək öz qanı ilə satın alıb? Öz padşahlığında istifadə etmək üçün."

Bu kasıb imanlılar hazır idilər ki, Allah onları istifadə etsin.

*Biz imanımıza görə təqib olunanda itkilərimizə həddən artıq diqqətimizi cəmləmək asandır. İmanımıza görə bizi rədd edən keçmiş dostlarımıza görə qüssələnə bilərik. Biz əvvəllər əlimizdə olan biznes imkanlarımızı itirə bilərik. Biz sosial dairəmizdən çıxanda öz halımıza acıyırıq. Amma maddi əmlakdan və ya səthi ünsiyyətlərdən daha çox şeylər itirmiş insanlar var. Bu cəsur imanlılar diqqətlərini artıq itirdikləri şeylərə deyil, Məsihin xidmətinə verilməli olan qalan şeylərə cəmləyirlər. Onların çoxu dini təqibə görə öz məbədlərini, evlərini, işlərini, ailələrini itiriblər. Buna baxmayaraq, onlar Məsihə daha çox şeyləri qurban verməyə hazırdırlar. Onlar yer üzündəki itkilərini başqa bir insanın xilas əldə etmək üçün imkanı hesab edirlər.*

Çünki insanın həyatı var-yoxunun bolluğundan asılı deyil.

*Luka 12:15*

# Böyük "qorxu"

**LAOS:** LU

**Polisin yazılmamış kodu aydın idi: kmulini və ya məsihçiliyi qəbul etmiş başqa qəbilə üzvünü tutsanız, onları həbs edin. Qəbilə üzvünə müjdəçilik edən kimisə tutsanız, onu öldürün.**

"Lu"nun əlləri və ayaqları qandallanıb biabırçı tərzdə kəndin içərisi ilə aparılandan sonra Kommunist polisi onu xəndəyə atdı. "Kəndinizdəki yüz məsihçi məsihçilikdən dönsələr, biz səni buraxacağıq" – onlar dedilər. Amma onlar Məsihdən üz döndərmək istəyən imanlıları tapa bilmədilər.

Sonra polislərin başına faciə gəldi. Polislərdən birinin oğlunun qəzada hər iki ayağı sındı. O biri oğlu isə ciddi xəstələndi. Yeni məsihçiləri döyən və incidən polisin qəfildən ürəyi dayanaraq öldü.

Başqa polislər qorxu içərisində "Lunu" xəndəkdən çıxardılar və evə qayıtmasına icazə verdilər. Hökumətin işçiləri rəhbərin başına gələnləri görəndən sonra kənddə olan məsihçilərə qarşı tədbir görməyə qorxdular.

Allahın gücünü görərək daha çox kmuli xalqı imana gəldi. Sayca yüz məsihçi olan bir yerdə indi onların sayı yeddi yüzdür. Onlar hətta başqa kəndlərə də İsa haqqında danışmaq üçün məsihçiləri göndərirlər. Laosun rəhbərləri qorxu altında idarə olunarkən Cənubşərqi Asiyada məsihçilər onlara qalib gəldilər.

*Qorxu insanın hisslərini oyadan əsas amillərdən biridir. Bu, fond birjalarını və yanacaq müharibələrini idarə edir. Onun cilovlanmayan enerjisi böyük pisliklər üçün və ya böyük yaxşı işlər üçün istifadə oluna bilər. Peşəkar boksçular çox vaxt deyirlər ki, qorxu onların dostudur. Qorxu onları daha yaxşı döyüşçü edir. Bu, onları ayıq saxlayır. Bu, qətiyyətli olmaları üçün onları hissiyyatlı edir. Eyni yolla, Allah bizim qorxumuzdan istifadə edərək Özü üçün daha yaxşı döyüşçü edə bilər. Biz nə vaxt qorxuruqsa, bizim qeyri-mümkün olan işi etməyə potensialımız olur. Niyə? Öz gücümüz ilə qeyri-mümkün olan şey Allahın köməkliyi ilə mümkün olur. Qorxu elə edir ki, biz öz ehtiyatlarımızı tərk edirik və bunun əvəzinə Allaha etibar edirik. Belə olan halda böyük qorxu böyük imana gətirib çıxara bilər.*

Rəbdir nurum, qurtuluşum!
Mən kimdən qorxum?

*Məzmur 27:1*

# Böyük cavahirat

**SUDAN:** PETER

**Mis qandal ərəb dilində "bakl" adlanır. Peter onu elə tutub saxlamışdı ki, sanki müqəddəs bir şey idi. Bu, onun ailəsinin keçmişini və Peterin böyük xeyir-duasını xatırladırdı.**

Onun babası qandalı düzəltmişdi, amma bu, onun peşəsi deyildi. Əslində, onun islamçı ağaları onu məcbur etmişdilər ki, qandalı taxsın. Peterin babası Cənubi Sudanda əsir götürülmüş və Şimali Sudana aparılmışdı, burada o, qul kimi satılmışdı.

Peterin babasını müsəlman ağaları incitsə də və ona əzab-əziyyət versələr də, onların imanını qəbul etməmişdi. O, Məsihə olan öz imanına möhkəm sarılmışdı və onların imanını qəbul etmədiyinə görə bədənində çapıqlar qalmışdı. O, müsəlman olmadığına görə heyvanlardan başqa bir şey görməmişdi.

Ölməzdən qabaq Peterin babası qandalı çıxarıb Peterin atasına vermişdi. "Bizim ailəmiz həmişə qul olmayacaq" – o dedi, "amma biz heç vaxt unutmamalıyıq."

Sonra Peterin atası həmin qandalı Peterə verdi və o da müsəlman ağasından qaçıb azadlığa çıxanda onu özü ilə daşıdı. Bu gün artıq qandal sahibkarlığın rəmzi deyildi, əslində, Allahın qalib gələn gücünün rəmzi idi. Bu, Allahın həmin ailə üzərində əlinin rəmzi idi, onlara azadlıq gətirərək üç nəsil üzərində işləmişdi.

"Mənim xalqımı heç vaxt unutma" – deyə, o, xahiş etdi. "Sudanda təqib olunan məsihçilər üçün dua etməyi heç vaxt dayandırmayın."

*Unutqanlıq dua həyatının birinci düşmənidir. Biz dəstək dualarımızı etməkdə cəldik. Əfsuslar olsun ki, bizim yaxşı niyyətlərimiz az hallarda yaxşı olur ki, ehtiyac içində olanlar üçün dua etmək işimizə yardım etsin. Dünyada təqib olunan insanlara görə dua etməyi yadınıza nə sala bilər? Bəlkə qol saatınızın üzərində kiçik bir qeyd yapışdırmaq sizin yadınıza sala bilər? Gün ərzində siz hər dəfə saatınıza baxanda oradakı qeyd dini təqib altında yaşayan insan qruplarını xatırlatmaqda sizə imkan verə bilər. Dua üçün imkanları buraxmamaqda hər hansı bir metod sizə kömək edərsə, ondan istifadə edin. Güclü imanlılar barədə hekayələr oxumaq heç nəyi dəyişdirməyəcək. Güclü imanlılar üçün dua etmək hər bir şeyi – hətta bu gün dəyişdirə bilər.*

Durmadan dua edin.

*1 Salonik. 5:17*

**26-ci gün**

# Böyük cəsarət

**RUMINİYA:** CAVAN QADIN

**Məhbuslar kommunist mühafizəçilərinin gəlişini eşidəndə, demək olar ki, gecə yarısı idi. Onlar cəld müttəhimin ətrafına yığışdılar, iyirmi yaşlı cavan bir qadına Məsihə imanına görə ölüm hökmü kəsilmişdi. Onlar tələsik halda pıçıltı ilə onunla xudahafizləşdilər. Bu cavan rumıniyalı qadının gözlərində göz yaşı yox idi, mərhəmət deyə qışqırıb səs-küy də salmırdı.**

Həmin gecə bir az əvvəl məhbuslar bu qadına qulaq asmışdılar, onun üzü sevgidən nur saçırdı. "Mənim üçün qəbir göylərdəki şəhərə girmək üçün girişdir" – o dedi. "Həmin şəhərin gözəlliyi barədə kim söyləyə bilər?" Orada kədər adlı şey yoxdur. Orada sevinc və nəğmələr var. Hamı paklığın ağ paltarını geyinib. Biz Allahı üzbəüz görə bilərik. Orada elə bir sevinc var ki, insan dili onu ifadə edə bilməz. Mən niyə ağlamalıyam? Niyə kədərlənməliyəm?"

O, nişanlı idi, amma bu gecə öz yer üzündəki nişanlısı əvəzinə göylərdəki adaxlısı ilə görüşəcəyini onlara söylədi.

Rəhmsiz mühafizəçilər otağa daxil oldular və qadın da getməyə hazır olduğunu göstərərək irəliyə doğru addımladı. O, mühafizəçilər ilə əhatələnərək həbsxana otağından çıxan kimi Həvarilərin duasını deməyə başladı. Bir neçə dəqiqə sonra göz yaşları içində olan məhbuslar güllə səslərini eşitdilər. Mühafizəçilər düşündülər ki, qadının həyatını sona yetirdilər, amma onlar qadını daha yaxşı bir yerə əbədi yaşamaq üçün göndərdilər.

*Cəsarət yer üzündəki adi həyatımızı göylərdəki izah olunmaz gələcəyə aparan bir körpüdür. Göylərdəki həyatın yəqinliyini tamamilə anlayan insanlar yer üzündəki dəyərsiz həyatlarını göylərdəki əbədi vətəndaşlıq üçün asanlıqla dəyişə bilirlər. Cəsarət bizə kömək edir ki, yer üzündə yapışdığımız hər bir şeyi – bizi burada uzun müddət saxlamağa vadar edən bütün şeyləri buraxaq. Ölümdən sonrakı həyata inanmaq üçün bizi cürətləndirir. Bütün bunlara baxmayaraq, biz ölənə qədər yer üzündəki həyat hamımızın həqiqətən bildiyi bir şeydir. Biz əbədiyyətə keçmək üçün Məsihin yol açdığına inanaraq imanda addım atanda cəsarətlənirik. Biz həmin böyük qərarı çıxardıqdan sonra həyata məqsədlə baxıb cəsarətlə yaşaya bilərik.*

Çünki mənim üçün yaşamaq
Məsihdir, ölməksə qazancdır.

*Filip. 1:21*

# BÖYÜK SADİQLİK

**Biz sərhədlərin açılması üçün dua etmirik.**
**Biz göylərin açılması üçün dua edirik.**

Vyetnamda təqibdə olan məbədin duası



28 gün

# Böyük tapşırıqlar

**BUTAN:** PASTOR NORBU PROMİLA

**Pastor Norbu Promila Butanın dağlarında yaşayan qəbilə camaatına vəz edərkən çox məmnun olmuşdu. Yığışmış insanlar xüsusilə diqqətli idilər və Xoş xəbər üçün açıq idilər. Birdən vəzin ortasında hər qapıdan bir polis girib səhnəyə cumdu və Norbunu tutdular.**

Pastor Promila həbsxanaya atıldı və ona işgəncə verildi. Rəhbərlər ona əmr etdilər ki, Müjdəni vəz etmək çağırışından imtina etsin. Onun başında çoxlu yaralar var idi və sonda onu evə buraxanda artıq bədənində həmişəlik bir zədə var idi. O, evə qayıdarkən həyat yoldaşı və uşaqları onun göyərmiş və qan içində olan üzünü görəndə sarsıntı keçirdilər. On gün sonra o, yaralarının təsirindən öldü.

Pastor Promilanın məbədi bu döyüşkən hindu mühitində öz tapşırıqlarından dönmədilər. Pastorun ölümündən az sonra onlar birlikdə görüşdülər və qəbilə camaatı arasında Norbunun işini davam etdirmək üçün könüllüləri çağırdılar. Beş əl yuxarı qalxdı, onlardan biri pastorun həyat yoldaşına məxsus idi. O, beş uşağının qayğısına qalmaqla yanaşı, Allahın çağırışına cavab verdi.

O, sadiqliklə xidmət etdi, başqa işçilərlə birlikdə çoxlu qəbilə camaatının Məsihi əldə etdiklərini gördülər. Allah onun və uşaqlarının ehtiyaclarını ödədi. O inanırdı ki, bir gün ərini yenidən görəcək və Məsihə sadiqliyinə görə mükafatlanacaq.

*Bizim Rəbb üçün etdiklərimiz iş deyil – tapşırıqdır. Tapşırıq heç vaxt bir insanın məsuliyyəti olmayıb. Bu, ayrıca Məsihə və Onun padşahlığına tuşlanıb. Ona görə də xüsusi bir ərazidə Allahın işini hansısa bir insan tərk edə bilər, amma tapşırıq özü heç vaxt ölmür. Allahın işi heç vaxt edilməmiş qalmır. Bu, əbədi olaraq tamamlanana qədər davam edir. İmanlarına görə təqibdən keçməyə hazır olanlar tapşırığın mənasını bizə öyrədirlər. Onlar bilirlər ki, yalnız iki şey əbədiyyət üçün qalır – Allahın işi və insan qəlbləri. Biz bu şeylərdə həyatlarımızı qoymaq istəyəndə əbədi məna daşıyan bir tapşırığa qoşuluruq.*

Əminəm ki, sizdə xeyirli işə başlayan Allah Məsih İsanın zühur edəcəyi günədək bunu başa çatdıracaq.

*Filip. 1:6*

# Böyük qatil – birinci hissə

**BANQLADEŞ:** ENDRYU

**Müjdəçi Endryu gözlərini tüfəngə zilləmişdi, kişinin niyə atəş açmadığını bilmək istəyirdi. Qatil hirsləndi, sonra qorxuya düşdü və sonda otaqdan qaçıb çıxdı.**

Telefon zəng çaldı və Endryu dəstəyi qaldırıb danışarkən başa düşdü ki, bu, bir neçə dəqiqə bundan əvvəl onu öldürmək istəyən kişidir.

"Müsəlman rəhbərlər səni öldürmək üçün mənə böyük mükafat verəcəklərini söyləyiblər" – o dedi. "Mən sənin ofisinə gəlmək üçün Banqladeşin içindən sürə-sürə gəlmişəm. Mükafat mənimki idi. Mən atəş açmaq üçün hazır idim, amma qolumu qaldıra bilmədim. Mən tətiyi çəkə bilmədim." Müjdəçi Rəbbə onu qoruduğuna görə minnətdarlığını bildirdi.

Endru buna bir az gülməli bir şey kimi baxdı. "Yaxşı, bəs indi mən sənin üçün nə edə bilərəm?" – deyə, o cavab verdi.

"Bilirsən, mən hələ də qolumu tərpədə bilmirəm, bu, sənə görədir! Mənə kömək edə bilərsənmi?"

Elə telefonda Endru dua etdi və kişi dərhal qolunu tərpətməyə başladı. Möcüzədən heyrətlənən kişi müjdəçinin ofisinə qayıtdı və müsəlman rəhbərlərin qorxduğu "İsa" haqqında suallar verməyə başladı.

Müjdəçi səbirlə İsanın sevgisinin xoş xəbərini izah etdi, hətta onu öldürməyə gəlmiş insana çay da təklif etdi. Qırx beş dəqiqədən sonra kişi İsanı öz ürəyinə dəvət etdi. Kişinin indi ümdə məsələsi şeytanın işlərini dağıtmaqdır. Bu günə qədər həmin kişi Banqladeşdə müjdəçilik edir.

*Qatil ola biləcək şəxsin qətl cəhdi səhv bir komediya idi. Əgər bu, kino olsaydı, baş qəhrəman Endryu səhnəyə çıxanda auditoriya onu ucadan alqışlayardı. Bütün yaxşı kinolarda olduğu kimi, Endryu sadəcə düşmənin planlarını pozmadı. O, planları, hətta qatil ola biləcək şəxsin tövbə etməsi ilə çay təklif etməsinə qədər alt-üst etdi. Bu, plana uyğun deyildi. Şeytan həmişə çertyojuna qayıtmalı olur ki, bizim məhvimiz üçün planlarını yenidən işləyib hazırlasın. Endryu öz vəziyyətinin qurbanı deyildi, heç siz də öz vəziyyətinizin qurbanı deyilsiniz. Əgər ona atəş açılsaydı, onun ölümü şəhadətlik olardı, siz də həmçinin. Şeytanın planlarından fərqli olaraq, Allahın sizin həyatınız üçün planları pozulmazdır.*

Bilirəm, Sən hər şeyə qadirsən,
Sənin istəyinin qarşısı alınmaz.

*Əyyub 42:2*

# Böyük bəyanat

**RUMINİYA:** SABİNA VURMBRAND

**Sabina Vurmbrand əlini uzadıb ərinin qolunu çimdiklədi. "Riçard" – o, sərt şəkildə dedi. "Dur ayağa, Məsihin üzündən bu biabırçılığı sil. Onlar Onun üzünə tüpürürlər!"**

"Əgər mən dursam, sən ərini itirəcəksən" – deyə, Riçard Vurmbrand diqqətlə həyat yoldaşına baxaraq cavab verdi.

Qadın ərinə baxaraq dedi: "Mənə qorxaq ər lazım deyil."

Kommunist əsgərləri ölkəyə yenicə hücum etmişdilər, bu hadisədən qısa müddət sonra onlar Rumıniyanın din üzrə milli konqresində oturmuşdular. Oraya yığışmış məsihçi pastorlar, kahinlər və bütün denominasiyalardan olan xidmətçilər bir-bir durub İosif Stalini və minlərlə məsihçini həbsxanaya atmış yeni kommunist rəhbərliyini tərifləyirdilər.

Riçard danışmağa çıxan kimi bir çoxları bu tanınmış pastorun da onlara qoşulacağını düşünüb sevindilər. Amma kommunistləri tərifləmək əvəzinə o, xilas üçün yeganə yol olan İsa Məsihi təriflədi. "Bizim ilk sadiqliyimiz kommunist rəhbərlərinə deyil, Allaha olmalıdır" – o, toplantıya söylədi. Bu toplantı bütün Rumıniyada canlı yayımlanırdı və ölkədə olan minlərlə insan Riçardın bu sözlərini eşitdi.

Riçardın vurduğu zərəri anlayan kommunist rəhbərləri səhnəyə doğru qaçdılar. Riçard arxa qapıdan qaçıb çıxdı, amma o vaxtdan bəri onu axtarmağa başladılar. O, bundan sonra on dörd ilini həbsxanada keçirdi.

*Bizlərdən çoxumuza bütün millət qarşısında Məsihi təmsil etmək işi tapşırılmayacaq. Amma biz hamımız gündəlik harada oluruqsa, onu təmsil etməyə çağırılmışıq. Məsələ şəhadətlik edilən auditoriyanın ölçüsündə deyil, bizim təmsil etdiyimizin səmimiliyindədir. Bizim həyatlarımız dediyimiz şeylərdən asılı deyil. Amma işlərimiz əminliyimizi ifadə etmək üçün qərarımızdan asılı ola bilər. Buraya ünsiyyəti itirmək daxil ola bilər. Bu, hətta ailələrimizdən uzaqlaşma ola bilər. İstənilən halda onların görünən yoxluqlarına təəssüflənməkdənsə, əminliyimizin nəticələrinə dözmək daha yaxşıdır. Bu gün Məsihi təmsil etmək üçün nə vaxt və harada imkandan istifadə edəcəksiniz?*

Mən…Məsihin Müjdəsini
yayıb qurtardım.

*Roma. 15:19*

# Böyük yetkinlik

**YAPONİYA:** İBARAQİ KUN

**Onların hər biri ittiham olunub təqsirli bilinərək ölümə məhkum olunduqdan sonra iyirmi altı məsihçi kobud şəkildə düzəldilmiş çarmıxların dayandığı yerə tərəf getdilər. Deməк olar ki, onlar üç ay əvvəl Kiotoda həbs edilmiş və Məsihə iman etdikləri üçün ittiham olunmuşdular. Müttəhimlərdən birinin adı İbaraqi Kun idi.**

Kunun cavan olduğunu görən zabit onu kənara çəkdi və həyatını xilas etmək üçün imandan dönməsini xahiş etdi. Zabitin gözünün içinə baxaraq Kun cəsarətlə dedi: “Cənab, sizin özünüzün məsihçi olmağınız daha yaxşı olardı. Onda siz mənimlə birlikdə cənnətə gedərdiniz.”

Zabit gözlərini zilləyərək cavan oğlanın imanına mat qaldı. Nəhayət, İbaraqi soruşdu: “Cənab, hansı çarmıx mənimdir?”

Heyrətə gəlmiş zabit iyirmi altı çarmıxdan ən kiçiyini göstərdi. Cavan Kun çarmıxa doğru qaçdı, onun qarşısında əyilib qucaqladı. Əsgərlər onun əllərini və ayaqlarını çarmıxa mıxlayanda o, ağrıdan qışqırmadı. O, cəsarətlə Allahın onun üçün qoyduğu yolu qəbul etdi.

1596-cı il, 23 noyabrda iyirmi altı məsihçinin çarmıxa çəkilməsi Yaponiyadakı məsihçilərin güclü təqiblər dövrünün başlanğıcı idi. Növbəti yetmiş il ərzində bir milyona yaxın yapon məsihçi imanına görə öldürülmüşdü. Bir çoxları çox yetkin on iki yaşlı oğlan İbaraqi Kun kimi öz çarmıxlarını qucaqlamışdılar.

*Ruhani yetkinlik doğum haqqında şəhadətnamə ilə ölçülmür. Xronoloji yaşın əminlik ilə çox az əlaqəsi var. Əslində, ruhani yetkinlik hər dəfə bir gün kimi ölçülür. Biz yetkinliyimizi gündəlik imanımızı necə tətbiq edə bilməyimiz vasitəsilə ölçürük. Məşhur imana əks olaraq, ruhani yetkinlik bizim Müqəddəs Kitab barəsində nə qədər bilməyimiz deyil. Bir çox insanlar Müqəddəs Kitab ilə çox yaxından tanışdırlar, amma ruhani yetkinlik üçün yaddırlar. Müqəddəs Kitabın əmrlərinə itaətkarlıq yetkinliyin işarəsidir. Bizə ruhani necə böyüdüyümüzü bilməyə bir sual kömək edəcək. Biz hər gün özümüzdən soruşmalıyıq: “Bu gün dünənkindən fərqli olaraq İsaya bir az daha çox oxşayırıqmı?” Bizim cavabımız inkişafımızın həqiqi əksidir.*

Gənc olduğun üçün qoy heç kim sənə xor baxmasın. Amma sözdə, həyat tərzində, məhəbbətdə, imanda, paklıqda imanlılara nümunə ol.

*1 Timotey 4:12*

BÖYÜK SADİQLİK

# Böyük razılıq

**FİLİPPİN:** CAVAN QIZ

**"Mənim paltarım" – deyə, cavan qız pıçıldadı, bu sözlər onun şişmiş dodaqlarından güclə qopub çıxdı. "Xahiş edirəm, mənim paltarımı verin. Onu əlimdə tutmaq istəyirəm."**

Məsihçilər qızın çarpayısını dövrəyə almışdılar. Böyük daxili yaraları olduğundan həkimlər onun üçün heç nə edə bilməmişdilər. Bir neçə həftə əvvəl imanlılar onun üçün ağ paltar almışdılar ki, yeni həyatını və İsa Məsihdə təmiz ürəyini bayram etsin.

Onun atası qızının Məsihin davamçısı olmaq qərarından razı deyildi. Bir gecə sərxoş halda qızına hücum edərək, onu döyüb təpikləmişdi. O, qızını palçıqlı küçədə yerdə uzanmış halda qoyaraq çıxıb getmişdi.

Qız toplantıya gəlmədiyindən məsihçi dostları onu axtarmağa başladılar. Onlar qızı huşsuz halda qalağın üstündə uzanmış halda tapdılar, onun əvvəlki qar kimi bəyaz paltarı indi qana və palçığa bulaşmışdı. Onu həkimin yanına apardılar, amma yaraları ağır idi.

İndi o, öz ağ paltarını istəyirdi.

"Paltar xarab olub" – deyə, dostları ona cavab verdilər. Onlar çalışdılar ki, onu həmin fikirdən yayındırsınlar, fikirləşirdilər ki, paltarını elə vəziyyətdə görmək qızın ruhunu qırar.

On yaşlı qız sadə imanı ilə pıçıldadı: "Mən İsaya paltarımı göstərmək istəyirəm. O, mənin üçün qan axıtmağa razı idi. Mən də göstərmək istəyirəm ki, Onun üçün qan axıtmağa razıyam."Qısa bir müddətdən sonra qız öldü.

*Allah bizim bacarığımızla maraqlanmır. Biz istedadlı, çoxlu ehtiyatlara malik, varlı ola bilərik. Amma Allahın xidmətində müxtəlif bacarıqlarımızı təklif etmək yararlılığımızı təklif etmək kimi deyil. Bizim bacarıqlarımız özümüzə aiddir – biz Allah üçün bunu və ya onu edə bilərik. Buna əks olaraq, bizim yararlılığımız yalnız Allaha aiddir – biz yalnız təsəvvür edə bilərik ki, Allah öz xidmətində bizi necə istifadə edəcək. Allah üçün yararlı olmaq nəyin bahasına olursa olsun, itaət etməyə razı olmaqdır. Allah istəyir ki, bizim xüsusi bacarıqlarımıza baxmayaraq, ona xidmət etməyə razı olaq. Bizim belə razı olmağımız necə ola bilər? Bu da Allahın hədiyyəsidir. Allah bizə Onun üçün yararlı olmaq "istəməyimizi" – iradəmizi və ya arzumuzu verir.*

Çünki sizdə fəaliyyət göstərən Allahdır, belə ki, Onun xoş məramını həm istəyəsiniz, həm də bunun üçün fəaliyyət göstərəsiniz.

*Filip. 2:13*

# Böyük xatirə

**SUDAN:** CEYMS CEDA

**"Bir az odun yığın!" – deyə, əsgərlər qışqıra-qışqıra danışdılar. Cavan Ceyms Ceda güman etdi ki, onlar yemək bişirmək istəyirlər. O, həmin gün bir az əvvəl Cənubi Sudanda radikal müsəlman əsgərlərinin onun valideynlərini və dörd bacı-qardaşını necə öldürdüklərinə baxaraq dəhşətə düşmüşdü. Onlar Ceymsdən bir işçi kimi istifadə etmək məqsədilə onu öldürməmişdilər.**

Alov tam gur yananda qəfildən Ceymsin qolundan tutub onu alova atmaq istəyəndə o, təəccübləndi və qorxuya düşdü. O, qaçmağa çalışdı. Amma əsgərlər çox güclü idilər və bir göz qırpımında onun əllərini və ayaqlarını bağladılar.

"Sənə xoş xəbərimiz var, oğlan" – bir əsgər cavab verdi. "Biz sənin yaşamağına imkan verəcəyik. Amma sən müsəlman olmaqla bizə qoşulmalısan."

"Mən müsəlman ola bilmərəm" – Ceyms sadə səslə cavab verdi. "Mən məsihçiyəm."

Oğlanım imanını görüb qəzəblənən əsgərlər onu qaldırıb alova tulladılar. Onlar Ceymsin öləcəyini güman edərək, şey-şüylərini yığıb oradan çıxıb getdilər.

Ceyms isə ölmədi. O, bir təhər fırlanaraq alovdan kənara çəkildi və kömək tapdı.

Həkimlər Ceymsin həyatını xilas edə bildilər, amma o, həmişə həmin günün xatirələrini daşıyacaq. Onun bədənində yanmış toxumaların yeri və çapıqlar qalıb, həm də bir qolu qismən alovdan deformasiyaya uğrayıb. Göylərdə həmin çapıqlar şərəf izləri olacaq, Ceyms Cedanın Məsihə arxa çevirmədiyi günü xatırladacaq.

*Bir çox insanlar suvenirləri çox sevirlər. Elə insanlar var ki, səyahətdə olduğu ərazinin aeroportundan və ya qatar stansiyalarından suvenir almasa, dayana bilməz. Amma bizim mənalı həyat təcrübəmizi bizə xatırladan şey nədir? – bu, Məsihə həsr olunmamızdır. Bəziləri mənəviyyatları ilə barışığa gedə bilmədiklərinə görə rədd etdikləri inkişafı xatırlamaq üçün maaşlarına baxırlar. Başqaları sinif otaqlarına baxanda ilk dəfə təqibin nə olduğunu öyrəndikləri vaxtı xatırlayacaqlar. Digərləri isə imanlıların qəbir daşını görüb həsr olunmanın nə olduğunu xatırlayacaqlar. Bu "suvenirlər" İsa Məsihdə imanın qiymətini xatırladan hədsiz dəyərli xatirələrdir.*

Sizi hər dəfə yada salanda
Allahıma şükür edirəm.

*Filip. 1:3*

# BÖYÜK SADİQLİK

**Mənim üçün dua ediləndə bunu fiziki surətdə hiss edirəm. Hətta mən heç nə bilməyəndə və heç bir məktub almayanda elə hiss edirəm ki, sanki alovun yaxınlığında oturmuşam. Bəzən bu, çox soyuq olan həbsxanalarda baş verir. Sanki kimsə mənim üçün dua edir və mənim barəmdə düşünür. Bu, məni çox ruhlandırıb. Bunu izah etmək çətindir… Mən unudulmadığımı hiss edirdim və bilirdim. Bu, ən çətin anlara güc gəlməyim üçün lazımlı bir şey idi.**

İrina Ratuşinskaya – keçmiş Sovetlər Birliyində 1987-ci ilə qədər həbsdə olan məsihçi şair



# Böyük ədalətsizlik

**RUMINİYA:** PASTOR FLORESKU

**Pastor Floresku kommunist zabitləri tərəfindən döyülən oğluna artıq baxa bilmirdi. O özü artıq döyülmüşdü və kommunistlərin həbsxanaya saldıqları ac siçovulların hücumundan qorxaraq iki həftə idi ki, yatmırdı. Rumıniyanın polisləri istəyirdilər ki, Floresku gizlində yığışan məbədin o biri üzvlərinin yerini desin və onları da tutub həbs etsinlər.**

Döyülmələrin və işgəncələrin burada heç bir kömək etmədiyini görən kommunistlər Floreskunun oğlu Aleksandrı gətirdilər, onun on dörd yaşı var idi. Oğlanı döyməyə başladılar. Floreskunun gözləri önündə oğlunu qəddarcasına çəkiclə döyürdülər və pastora deyirdilər ki, başqa imanlıların yerini deməyincə oğlunu ölənə qədər döyəcəklər.

Nəhayət, artıq dəli olmaq dərəcəsinə gəlib çıxmış Floresku onların üstünə qışqırdı ki, dayansınlar.

"Aleksandr, gərək onlara imanlıların yerlərini deyəm, sənin əzablarına daha dözə bilmirəm" – deyə, pastor oğluna dedi.

Bədəni göyərmiş halda ağzından və burnundan qan axan Aleksandr atasının gözlərinin içinə baxdı. "Ata, satqın bir valideyn kimi mənə haqsızlıq etmə. Güclü ol! Əgər onlar məni öldürsələr, mən dodaqlarımda 'İsa' kəlməsi ilə öləcəyəm."

Oğlanın cəsarəti kommunist mühafizəçilərini hirsləndirdi və onlar atasının gözü qarşısında oğlunu döyə-döyə öldürdülər. Təkcə oğul öz imanına sadiq qalmadı, o, atasına da kömək etdi ki, eyni şeyi təkrar etsin.

*Bu dünyada ədalət yoxdurmu? Biz günahsız insana qarşı vəhşilikləri oxuyarkən təəccüb içərisində qalırıq. Biz pislik edənlərin əllərində insanın dəhşətli əzablar çəkdiyini eşidəndə imanda büdrəyə bilərik. Biz gecikən mərhəmət üçün susayanda ruhdan düşə bilərik. Bəs bu dünyada ədalət yoxdurmu? Bizim fəryadlarımıza cavab olaraq, Müqəddəs Kitab "bəli, amma hələ yox" prinsipini öyrədir. Bəli, bəzi pislik edənlər burada və indi ədalətlə üzləşərək cavablarını alırlar. Amma hədsiz ədalətlə dolu olan Allahın güclü əli hələ yer üzünə gəlməlidir. Bu, hələ dövrün axırı üçün saxlanılıb. Biz gözləməkdən yoruluruq, amma Onun qarşısını heç bir şey saxlaya bilməz.*

O, yer üzündə ədaləti quranadək ümidini, cəsarətini itirməyəcək.

*Yeşaya 42:4*

# Böyük cavablar

**KUBA:** TOM UAYT

**Tom Uaytın başına qara başlıq keçiriləndə o bilmirdi ki, bir daha işığı görər. "Məni haraya aparırsınız?" – deyə, o, kubalı mühafizəçilərdən soruşdu. Mühafizəçilər heç nə demədilər.**

Tom yeddi il idi ki, Kubaya məsihçi ədəbiyyatlarını gizlincə keçirirdi. O və başqaları təyyarələrdən kommunist rejimi olan bir adanın ətrafındakı okeana Müjdənin kitabçalarını tullamışdılar. Amma o, heç vaxt Kubada olan imanlılardan kitabçaların gəlib çıxdığını eşitməmişdi.

"Xahiş edirəm, Rəbbim, bizim işimizin kömək etdiyini göstərən təsdiqlər ver."

İndi üstündən altı həftə sonra onu Kubanın kəşfiyyat zabiti, kapitan Santos ilə görüşməyə aparırdılar. Onların təyyarəsi Kubada qəzaya uğradı. Tom və pilot Mel Bayli həbs olunaraq xalqın sabitliyini təhlükə altına salmaqda ittiham olunurdular.

"Bizim camaatımız sahillərdə və sahələrdə minlərlə belə kitabçalar tapıblar!" – deyə, kapitan Santos əlində neçə illər əvvəl tullanmış həmin bağlamalardan birini tutaraq qışqırırdı.

Tom gülməməyə çalışdı. "Çox sağ ol, Rəbbim, duama cavab vermisən. Sənə minnətdaram ki, işim əbəs yerə olmayıb."

Tomun duasının cavabı baha başa gəldi. O, iyirmi bir ay Kuba həbsxanasında oturdu. Amma Kastronun həbsxanasında o, bir çox məbəd üzvləri ilə rastlaşdı və öyrəndi ki, hətta Kastronun rəhbərliyi altında da Məsihin bədəni inkişaf edib. Allah onun duasına cavab verib.

*İmanlılar duaya dəyərli cavab əldə etməyin nə olduğunu bilirlərmi? Əgər biz Allahın dualarımıza cavab verməsini istəyiriksə, biz onun cavablarını istənilən vəziyyətdə almağa hazır olmalıyıq. Duaya dəyərli cavab budur ki, o, bizi prosesə cəlb edir. Biz Allaha dualarımızı veririk, əgər lazım gələrsə, həyatlarımızı da veririkmi? Biz çox vaxt təzyiq altında əzab çəkənlər üçün dua edirik. Yaxşı, bəs əgər biz yemək paylamağa və məbəddən olan xidmətlər vasitəsilə yardım etməyə çağırılsaq, onda necə? Əgər biz ehtiyac anlarında Allahın bizə kömək etməsini istəyiriksə, onda O, bizdən həll yolunun bir hissəsi olmağı xahiş edəndə Ona cavab verməliyik. Elə problem var ki, siz onun üçün dua etmisiniz və hələ aydın cavab almamısınız? Ola bilərmi ki, Allah sizin həll yolunun bir hissəsi olmağınız üçün hazırlığınızı gözləyir?*

Sizlərə elə könül bağlamışdıq ki, yalnız Allahın Müjdəsini deyil, öz canlarımızı belə, sizə verməyə razı idik. Çünki bizim sevimlilərimiz idiniz.

*1 Salonik. 2:8*

# Böyük şahidlər

## **AMMORİYA:** YEDDİ MƏHBUS

**Yeddi il idi ki, radikal müsəlman dindarları "kafirləri" islama inandırmağa çalışırdılar. Amma qaranlıq həbsxanada oturmuş məsihçilər imandan dönmürdülər.**

"Məhəmməd ən böyük peyğəmbərdir"- onlar məsihçilərə izah etməyə başladılar. "O, Məsihdən çox-çox sonralar yaşayıb və Allahın sonuncu peyğəmbəridir."

Məsihçilər diqqətlə qulaq asdılar və cavab verdilər: "Sizin öz qanun sisteminizdə qanunilik şahidlərin sayı ilə təyin edilir, İsa Məsihin gəlişi barədə Musadan vəftizçi Yəhyaya qədər şəhadətliklər olub. Məhəmməd isə yalnız özü barədə şəhadətlik edib."

Məəttəl qalmış dindarlar fərqli hücumlara çalışdılar.

"Şübhəsiz ki, Allah tərəfindən nazil olan bir dindir, çünki bizim imperiyamız məsihçilər tərəfindən idarə olunan torpaqlardan daha böyükdür," – özlərindən razı halda güldülər.

"Əgər bu, doğrudursa, onda Misirin, Yunanıstanın və Romanın bütlərə sitayişi həqiqi iman olardı, çünki bir vaxtlar onların ən böyük imperiyaları var idi. Aydındır ki, sizin qələbəniz, gücünüz və zənginliyiniz imanınızın həqiqiliyini təsdiqləmir. Biz bilirik ki, Allah bəzən məsihçilərə qələbə verir, bəzən isə onları əzabda və işgəncədə saxlayır" – məsihçilər cavab verdilər.

845-ci ildə Yaxın Şərqin Ammoriya şəhərinin yaxınlığında müsəlmanlar nəhayət məsihçilərin Məhəmmədi qəbul etmədiklərini anlayaraq bu fikirdən əl çəkdilər. Həmin yeddi məsihçinin boyunları vuruldu və bədənləri isə Fərat çayına atıldı.

*İsa bizə əmr edib ki, bütün cavabları əldə etməyə çalışmayaq, onların şahidləri olaq. Sizin imansız şəxsə deyə biləcəyiniz ən güclü söz budur: "Mən bilmirəm." Əlbəttə, sizin cavabınız, hətta bir çox imansızların şübhələrinə və suallarına cavabınız ola bilər. Amma həyat təcrübəsi göstərir ki, sizin məlumatınıza həmişə təkziblər olacaq. Əgər siz "cavabları" bilmədiyiniz şəhadətlik məqamına gəlib çıxsanız, belə də cavab verin. Sonra mübahisə edə bilmədiyiniz bir şeyin üzərində fikrinizi cəmləyin: şəhadətliyiniz. Sizin İsa Məsih ilə həyat təcrübəniz və sizin həyatınızda etdikləri danılmazdır. Siz bu mövzu üzrə mütəxəssissiniz. Effektli şəhadətlik sadəcə hekayənizi bölüşməkdir.*

Amma Müqəddəs Ruh üzərinizə enəndə siz qüvvə alacaqsınız və Yerusəlimdə, bütün Yəhudeya və Samariyada, həmçinin, yer üzünün qurtaracağınadək hər yerdə Mənim şahidlərim olacaqsınız.

*Həv. İş. 1:8*

# Böyük yəqinlik

**İNDONEZİYA:** PETRUS

**Bu yaxınlarda verdiyi müsahibədə indoneziyalı məsihçi Petrus heyrətləndirici bir fikir söyləyir: "Bizdə İsa olduğuna görə məsihçi olmaq çətin deyil, düzdür, çoxlu təzyiqlər var." Onun fikirləri bir çoxlarımıza aydın olsa da, Məsihin ardınca getmək Petrusdan böyük qurban tələb edib.**

Hirsli, radikal müsəlmanlardan ibarət izdiham məbəd binasını əhatəyə alıb, pəncərələri sındırır və məsihçilərə qarşı qəzəblərini bildirirdilər. Məbədin pastoru olan Petrusun atası, eləcə də anası, bacısı, əmisi oğlu və məbəd işçisi içəridə idilər. Petrusun atası izdihamı sakitləşdirməyə çalışdı, amma onlar çıxıb getmədilər. O, Allahın müdafiəsini və köməyini xahiş edərək dua etmək üçün yenidən içəriyə girdi.

Qana susayan izdiham binaya od vurdu və içəridən çıxmaq istəyən insanlara hücum etmək üçün gözləyərək öz mahnılarını oxudular. İndoneziya polisi hansısa bir tədbir görməkdə çox qorxurdu. Hərbi xidmətçilər gəlmədilər. Bu, keçən on il ərzində beş yüzdən artıq məbədin yandırıldığı bir ölkədə digər bir məbəd idi.

Petrus bir neçə saat sonra hadisə yerinə gəlib çıxanda məbəd külün içində idi. Onun əzizlərinin cəsədləri elə yanmışdı ki, tanınmaz hala düşmüşdü.

Sonralar hökumət Petrusdan üzr istədi, amma xahiş etdi ki, qisas almasın. Petrusun arzusu qisas almaq deyil, sevməkdir. O, ölkəsində olan müsəlmanların Məsihin padşahlığına gəlməsini istəyir.

*Təqib çox vaxt təbii instinkt ilə ruhani yəqinlik arasındakı vuruşda sonuncu döyüş meydanıdır. İnstinkt özünümüdafiə ilə maraqlanır. Yəqinlik bizim öz maraqlarımızdan üstündür. İnstinkt bizə pislik edənlərdən qisas almağı söyləyir. Yəqinlik bizi təqib edənlər ilə əlaqədar ruhani ehtiyacları bizə xatırladır. Bizlərdən çoxumuz imanına görə əzizlərimizin öldürüldüyünü gördükdən sonra Petrusun yəqinliyini bölüşməkdə instinktiv baxımdan çətinlik çəkər. Amma Petrus üçün Məsihin ardınca getməkdən başqa bir seçim mümkün deyildi. O, necə Məsihin ardınca gedə bilməzdi? Onun hekayəsi təsdiq edir ki, bizim yəqinliyimiz instinktlərimiz üzərində hökmranlıq edə bilər. Amma bu, yalnız təbii meyillərimiz Məsihin güclü sevgisi tərəfindən dəyişiləndə olur – təqibin döyüş meydanının ortasında qələbə.*

Ona görə ki, yaydığımız Müjdə yalnız sözlə deyil, qüvvə ilə, Müqəddəs Ruhla və çox inandırıcılıqla sizə çatıb.

*1 Salonik. 1:5*

# Böyük qatil – ikinci hissə

**BANQLADEŞ:** ENDRYU

**Müsəlman rəhbər öz qonaq otağına girib məsihçi müjdəçinin, Endryunun onun ailəsi ilə birlikdə yemək yediyini görən zaman gözləri kəlləsinə çıxdı!**

O, məəttəl qalmışdı, çünki təzəliklə bu məsihçinin öldürülməsi üçün böyük mükafat təklif etmişdi. İndi Endryu onun ailə üzvlərinə İsa barədə danışırdı. "Burada nə baş verir?" – o qışqırdı. "Bu kafir, Allahın düşməni mənim evimdə nə edir?"

Onun gəlini danışmağa başladı: "Mən ondan xahiş etdim ki, buraya gəlsin, çünki onun İsası sənin oğluna – mənim ərimə şəfa verib." O, tələsə-tələsə başına gələnləri danışdı. "Bilirsən, mənim həyat yoldaşım, on səkkiz il idi ki, xəstə idi, amma bu gün məsihçi Endryu gəlib onun üçün dua etdi. O, əllərini onun üstünə qoydu və o, yaxşı oldu! İsa onu sağaltdı!"

Kişi oğlunun sevincini gördü, oğlu ona xəstəliyin bədənindən necə çıxması barədə danışdı. Neçə ay yataqda yatan oğlu indi ilk dəfə idi ki, ayağa qalxmışdı. On səkkiz ildə birinci dəfə idi ki, ağrısı yox idi.

Kişinin qəzəbi rahatlıq və xoşbəxtlik hissi ilə əvəz olundu. O, həmin gün Məsihi qəbul etmədi, amma həmin ərazidəki məsihçilər üçün müttəfiq oldu və bir çoxlarının həbsxanaya düşməsinin və təqib olunmasının qarşısını aldı. Bir vaxtlar Endryunun başı üçün pul qoyan insan indi onu böyük sevgi ilə qarşılayır.

*Məsihçilik bir növ "özün sınaqdan keçir" həyat təcrübəsidir. Müsəlman ata evə daxil olanda Endryu Allahın üç şəxsiyyəti barəsində vəz etmirdi. O, kişinin arvadını və uşaqlarını müsəlmançılığa inandıqlarına görə günahlandırmırdı. O, müsəlman ailə üçün dua etdikdən sonra yemək yeyirdi. Allahın həqiqi olduğunu təsdiq etmək üçün onların boş yataqları var idi. Buna oxşar olaraq, biz yadda saxlamalıyıq ki, Allahın həqiqətləri aydındır. Əgər biz düzgün şeyləri desək və etsək, təzyiq bizim üzərimizdə deyil. Biz Müjdəni başqalarına bəyan edəndə düzgün şeyləri etmiş oluruq. İsa onların ürəklərini özünə tərəf çəkəcək. Biz Məsihin gerçəkliyinin özü üçün danışmasına imkan verməliyik.*

Mən yerdən yuxarı
qaldırılsam, bütün insanları
Özümə cəzb edəcəyəm.

*Yəhya 12:32*

# Böyük həqiqət

**RUMINİYA:** PASTOR KOÇANQA

**"Bizim sənin başına gətirəcəyimiz şeylərdən qorxmursanmı?" – kommunist polkovniki ona sual verdi, onun səsində istehza və etiraz var idi.**

Cavan pastor Koçanqa öz karyerasında yalnız bircə vəz etmişdi. İndi isə polkovnikin qarşısında dayanmışdı və bilirdi ki, ölüm və həyatın gücü onun əlindədir. O, hörmətlə, amma həvəsli bir tərzdə cavab verdi.

"Cənab, həqiqət heç vaxt qorxulu deyil. Fərz edək ki, sizin hökumətiniz bütün riyaziyyatçıların asılmasına qərar verir. Sizcə, onda iki üstə gəl iki neçə olar? İki üstə gəl iki yenə də dörd olaraq qalacaq.

Bizdə olan həqiqət də riyazi tənlik kimidir. Bu həqiqət belədir: bir Allah var, o da bizim sevən Atamızdır. İsa dünyanın Xilaskarıdır və hər bir kəsi, hətta sizi də xilas etmək istəyir. Biz inanırıq ki, insanları gücləndirən və onlara nur verən Müqəddəs Ruh var, eləcə də gözəl cənnət mövcuddur."

"Sizin əzab vermək üçün nə cür qamçılarınız, alətləriniz olsa da, bu həqiqət həmişə belə olacaq. İki üstə gəl iki dördə bərabərdir."

Koçanqa elə döyülmüşdü ki, tanınmaz hala düşmüşdü və bir daha yenidən görünməmişdi. Başqa məhbuslar onun əzilmiş və qan içində üzünü tanıya bilməsələr də, göylərdə dərhal tanınmış və qəbul olunmuşdu.

*"Həqiqəti söyləyin." Uşaqlar bu əmri erkən yaşlarından öyrənirlər, amma onun hikməti vaxtsızdır. Əgər biz həqiqət bildiyimiz şeyi sadəcə bildirsək, Məsih üçün şəhadətlik etməyə çağırılanda həmişə deməyə sözümüz olacaq. Bir çox insanlar çox vaxt Məsih üçün şəhadətlik edəndə özlərini püxtələşməmiş hiss edirlər, deyirlər ki, "təlimləri" azdır. Biz qorxuruq ki, bizə cavabını bilmədiyimiz teoloji sualları verərlər. Amma Məsihi etiraf etmək dərin teoloji bilikləri tələb etmir. Sadəcə, dini təzyiqlərə məruz qalmış insanlar kimi bildiyiniz şey barədə həqiqəti söyləyin. Məsih barədə şəhadətlik etmək göründüyündən asandır. Biz uşaqlığımızda öyrəndiyimiz prinsipə qayıtmalıyıq. Bizə əmr verilib ki, İsa Məsihi etiraf edək – həqiqəti deyək.*

İnsanlar qarşısında Məni iqrar edən hər kəsi Mən də göylərdə olan Atamın qarşısında iqrar edəcəyəm.

*Matta 10:32*

# BÖYÜK SADİQLİK

**Bu, o demək deyil ki, insan imanına qarşı çıxanları görənə və ona hücumlar edilənə qədər həmin imanın mənaları haqda düşünməyə başlayır. Bu, o demək deyil ki, məbəd hansısa təhlükəli küfr ilə qarşılaşanda düzgün təlimin zənginliyini və möcüzələrini anlamağa başlayır. Bu, əslində tükənməz sərvətləri olan, istənilən vəziyyətə cavab vermək üçün yeni zənginlikləri həmişə hasil edə bilən məsihçiliyin xüsusiyyətidir.**

Uilyam Barkli – *"Gündəlik Müqəddəs Kitab Tədqiqi"*



# Daha böyük müjdəçilər

**RUMINİYA:** PASTOR RİÇARD VURMBRAND

**Qatar stansiyadan yola düşməyə çıxan kimi platformada dayanan məsihçilər paltolarının düymələrini açdılar və yüzlərlə müjdəçilik kitabçalarını çıxardılar. Onlar cəld halda açıq pəncərələrdən içəridəki rus hərbi bölmələrinə kitabçaları tulladılar.**

Rus əsgərlərindən bəzilərinin yaşları on altıdan çox deyildi, onlar gülüb fit çalırdılar, xüsusilə də pəncərədən içəriyə nəsə tullayan gözəl gənc qızlara baxırdılar. Onlar içəriyə tullanmış kitabçaları tutdular, hərbi qatarın içinə atılan kitabçaların nə haqqında olduğunu bilmək istəyirdilər. Dövlət məmuru maşına oturan kimi əsgərlər tez kitabçaları ciblərinə soxdular. Tezliklə onlar qəribə kitabçanı oxuyacaq və "Padşah" barədə daha çox şey biləcəkdilər.

Qatar platformasında isə toplaşmış məsihçilər həyəcan içində olsalar da, gülürdülər. Dövlət məmuru o biri tərəfə gedəndən sonra oğlan paltosunu çıxardı, çünki onun içərisində heç nə qalmamışdı. Onun Rumıniyanın qatar stansiyasına gətirdiyi bütün kitabçalar indi qatarın içində idi, kitabçalar kommunist ölkəsi olan Rusiyanın içərisinə gedib çıxacaqdı.

Qatar müjdəçiliyi Riçard Vurmbrandın müjdəçilik metodlarından biri idi. Ruslara Məsihi çatdırmaq üçün o, məbədin gənclərinə bu metodu öyrətmişdi. Bu "müttəfiqlər" onun ölkəsinin bütün sərvətlərini oğurlayırdı və xalqından olan bir çox insanları öldürürdü, amma buna baxmayaraq, Riçard əsgərləri sevə-sevə qəbul etmişdi. O, hər bir əsgərdə müjdəçilik ərazisini görürdü və qəlbləri qazanmaq üçün imkan axtarırdı.

> Allahın kəlamını vəz edəsən, hansı vaxt olursa-olsun hazır olasan, insanlara tam səbirlə təlim öyrədərək məzəmmət, xəbərdarlıq və nəsihət verəsən.
>
> *2 Timotey 4:2*

*Missiya daha çox yer deyil, münasibətdir – bir insanın həyata yanaşmasıdır. Müjdəçi sadəcə bu qərarı və yeganə məqsədi həyata keçirən şəxsdir və gündəlik həyatda ifadə edəndir. Riçard Vurmbrand missiya adamı idi, onun bu qızğın həvəsi onun məqsədliliyini görən bütün gənclərə yayılmışdı. Bu baxımdan biz hamımız müjdəçilərik – harada xidmət ediriksə, həmin yerdə Məsihin səfirləriyik. Missiyaya başlamaq o deməkdir ki, Allahın padşahlığı üçün yeni imkanlara həmişə ayıq olmalısınız. İşdə su içərkən. Ərzaq mağazasında. Sərnişin qatarında və ya avtobusunda. Məktəbdə. Siz Allahın padşahlığına yardım etməyə qərar verəndə gündəlik dünya sizin missiyanızdır.*

# Böyük miras

**İNDONEZİYA:** STENLİ

**İndoneziyanın ucqar adalarının birində Stenli qayıqdan düşəndə ruhani qaranlığı hiss etdi. İnsanlar cadugərlik və islam ilə məşğul idilər. Stenli yenicə Müqəddəs Kitab məktəbini bitirmişdi və Allahın onun üçün olan çağırışına cavab verməyə hazır idi. O, bu adada yaşayan insanlara Məsihi çatdırmaq istəyirdi.**

Stenli cəsarətlə vəz edirdi. İnsanları Məsihə səsləyirdi və bütləri, eləcə də köhnə həyatlarından qalan “müqəddəs şeyləri” yandırmağı xahiş edirdi. Bir müsəlman öz bütünü yandırdı, amma onun içərisində Quranın yazıları var idi. Radikal müsəlmanlar bunu eşidəndə onlar yerli hökumət orqanlarına xəbər verdilər və Stenli dərhal həbs olundu.

Stenli dəhşətli surətdə döyülməsinə və koma vəziyyətində qalmasına baxmayaraq, oxuduğu məktəbin müəllimi pastor Sivi onu görməyə gəldi və gözlərindən yaş axaraq şəhadətlik etdi. Üstündən çox keçməmiş Stenli yaralarından öldü.

Amma Stenlinin ölümü belə onun xidmətini sona yetirmədi. Özünün yaşadığı doğma kəndində Stenlinin başına gələnlər danışılanda on bir müsəlman Məsihi bir Xilaskar kimi qəbul etdilər. Əlli üç kənd Müqəddəs Kitab məktəbində oxumağa qərar verdilər, onlardan yeddisi öz xahişləri ilə Stenlinin öldüyü kənddə müjdəçilik etməyə göndərildi.

Müjdənin alovunu söndürmək istəyən kəndin məmurları Stenlinin həyatını məhv etdilər. Amma onların bu vəhşiliklərinin içərisində Allahın əli iş görürdü. Bu gün Müjdənin alovları həmin kənddə çox gur yanır.

*“Nuru yanar halda saxla.” Məsihin bütün davamçıları dünyanı tərk edərkən bunu etməlidirlər. Özünü həsr etmiş məsihçi qaranlıqda itib batmış dünyada nuru qoyub gedir. Buna mirası qoyub getmək deyirlər. Biz filmlərdə, idmanda və ya başqa ictimai sahələrdə miras qoyub gedən məşhur insanlar barədə çox eşitmişik. Amma bir çox məsihçilərin həyatı anonimlikdə sönərkən onların sadiq nurları bütün dünyada hələ də gur yanır. Onların iman, saflıq, ümid və sevgi mirası ölümləri vasitəsilə itə bilməz. Əslində, ölüm – alovu hətta sürətləndirə bilər. Belə miras çox vaxt yaşayanlar tərəfindən təqlid olunur.*

Siz dünyanın nurusunuz. Dağın zirvəsində qurulan şəhər gizli qala bilməz.

*Matta 5:14*

# Böyük ailə

## İNDONEZİYA: STENLİNİN ANASI

**Qadın qızı ilə birlikdə Müqəddəs Kitab məktəbini bir ay idi ki, bitirmişdi. Bu məktəb oğlu Stenlinin İndoneziyadakı başqa adaya müjdəçi kimi getməsindən qabaq bitirdiyi həmin məktəb idi. Stenli Müjdəni paylaşdığına görə öldürüldü, amma onun şəhadətliyi bir çoxlarının Müqəddəs Kitab məktəbinə getməsinə və Allahın sevgisini bölüşməkdə Onun çağırışını qəbul etməsinə yol açdı.**

Onlar öz dərslərini bitirdikdən sonra Stenlinin anası və bacısı onun öldüyü kəndə getməyi planlaşdırdılar. Anası ümid edirdi ki, hətta oğlunu ölüncəyə qədər döyən kişilərlə Məsihin sevgisini bölüşsün. Məktəbə gələn qonaq onun planlarını eşidəndə təəccübləndi. “Sən qorxmursan ki, ölərsən?” – o, qadından soruşdu.

Qadın sualı eşidəndə bir az çaşqınlığa düşdü, sanki əvvəllər bunu heç düşünməmişdi. “Nəyə görə ölməkdən qorxmalıyam?” – o, sadəcə, cavab verdi.

Onun Allahın yaxşılığına olan imanı tam idi. Əgər Allah onun oğlunun öldüyü kənddə qadını istifadə etmək istəyirdisə, qoy elə də olsun. Əgər Allah qadının orada ölməsinə yol versə, o, bu çağırışı qəbul edəcək. Qadının ölümü onu sevdiyi Məsihin hüzuruna gətirəcəkdi. Ölüm cəza və ya maneə deyil, sadəcə, Allahın əbədi hüzuruna girişdir.

*Ölümlə üzləşmək bizə gölün kənarında dayanan uşaqları xatırlada bilər. Biz çiyinlərimizi dərhal yığırıq, naməlum şeyin necə olacağından titrəyirik. Görəsən, ağrıdacaq? Görəsən, bunu keçə biləcəyəm? Biz bu qeyri-müəyyənliklərə görə əvvəlcə tullanmaq istəmirik. Biz tullanmaya bilərik. Tarix həyat və ölüm arasında sərhəddən tullanmış ailə üzvləri ilə doludur. Onlar öz məqsədlərinə tamamilə əmin bir tərzdə ölüblər. Əslində, İsa Məsih heç kimin getmədiyi bir yerə gedib. Məsih məsihçi ailəsinin başıdır, bizim ölümümüzün dəhşətini götürüb onu əminlik ilə əvəz edib. Suya atılmaq üçün çağırışı gözləyin. Su əladır.*

Ey ölüm, qələbən hanı?
Ey ölüm, neştərin hanı?

*1 Kor. 15:55*

# Böyük tərəflər

**RUSİYA:** İKİÜZLÜLƏR

**Əsgərlər içəriyə daxil olanda onlar xorla oxuyurdular. Rus əsgərləri imanlıların sifətlərinə vəhşi nəzərlərlə baxarkən xidmət dayandı.**

"Siz burada nə edirsiniz?" – onlar qışqırdılar. "Öz xəyali Allahınıza ibadət edirsiniz?" Məbəd üzvləri skamyalarına qısıldılar, çöldə daha çox əsgərin və silahın olub-olmadığını bilmək istədilər.

"Allaha sadiq olanlar hamısı məbədin sağ tərəfinə çəkilsin" – əsgərlərdən biri dedi, onun üzündə nifrət var idi. "Siz imanınıza görə güllələnəcəksiniz. Kim evə gedib öz həyatını qorumaq istəyirsə, sol tərəfdə dayansın. Siz ölməyi və ya yaşamağı özünüz seçməlisiniz. Amma bu 'Allaha' sadiq qalanlar öləcəklər. Onu inkar edən şəxs azad olacaq."

On dəqiqə bundan əvvəl hamı bir nəfər kimi xorla ilahi oxuyurdu. İndi isə "ölüm-qalım" məsələsi idi. Bəziləri sol tərəfdə dayandılar, sanki üzrxahlıq edərək kədərlə sağ tərəfdə dayananlara baxırdılar. Bəziləri isə sağ tərəfdə dayandı, onlar sonuncu dəqiqələrin dualarını etmək üçün gözlərini bağlamışdılar.

"Sol tərəfdə olanlar, siz azadsınız, gedə bilərsiniz" – bir neçə saniyədən sonra əsgərlərdən biri dedi. Sol tərəfdə düzülmüş insanlar tezliklə öləcək insanlara axırıncı dəfə baxdılar. Yalnız sağda dayanan insanlar qalanda əsgərlər öz silahlarını yerə qoydular. "Biz də məsihçilərik, amma biz ikiüzlülük etmədən xidmət etmək istəyirik" – onlar dedilər.

*Həlledici anlar bizə o vaxt gəlir ki, biz onları az gözləyirik. Biz onlara hazırlaşa bilmərik. Biz onlar gələrkən onları necə varsa, eləcə qəbul etməliyik və nəticələrindən öyrənməliyik. Həlledici anlar istənilən vəziyyətdə xasiyyəti aşkara çıxarır. Ola bilsin ki, imanımıza sadiqliyimizi tələb edən təqibçilər məbədə soxula bilərlər. Ya da biz, sadəcə, kənara çəkilə bilərik. Bizim müəyyən anlarda cavabdehliyimiz bizi ya Məsihəbənzər, ya da şübhəli bir vəziyyətə çəkəcək. Hazır olsaq da, olmasaq da, kənara çəkilməyə qərar verəndə biz öz xasiyyətimiz ilə üz-üzə gəlirik.*

Mənimlə olmayan Mənə qarşıdır
və Mənimlə yığmayan dağıdır.

*Matta 12:30*

BÖYÜK SADİQLİK

# Daha böyük dua

**BOHEMİYA:** CON HASS

**"Ey ən mərhəmətli Məsih, bizə cəsarətli ruh ver ki, hazır olaq. Əgər cismimiz zəifləsə, qoy sənin lütfün qarşıda getsin, çünki biz Sənsiz heç nə edə bilmərik və hər şeydən əvvəl acı ölümlə üzləşə bilmərik. Bizə cəsarət və düzgün iman, möhkəm ümid və kamil şəfqət ver ki, böyük səbir və sevinclə həyatlarımızı sənə verə bilək. Amin", bu sözləri Con Hass öz edamını gözləyərkən yazmışdı.**

Hass on beşinci əsrdə reformasiya gətirmişdi. O, cənnət qəbzlərini (nəticəsi olmayan günah etmək haqqına malik olmaq) satan kahinlərə etirazını bildirmişdi və ədalət üçün Müqəddəs Kitabdakı standartları tələb etmişdi. Hassa söz vermişdilər ki, özünü müdafiə etmək üçün kralın himayədarlığı olacaq. Amma indi o, zindanda ölümünü gözləyirdi və Allaha fəryad edirdi.

9 iyul 1415-ci ildə Hass soyundurulub dirəyə zəncirləndi. Onun ətrafında alov alışmağa başlayan kimi Hass dua etdi: "Rəbb İsa Məsih, mənim səbir və təvazökarlıq ilə bu dəhşətli, biabırçı və əzablı ölümə düçar olmağım Müjdənin və Kəlamın vəzi üçündür."

Onun ətrafında alov yuxarı qalxdıqca Hass öz son nəfəsində Allahı çağırdı: "Yaşayan Allahın Oğlu Məsih, mənə mərhəmət elə."

Hassın şəhadətliyi cənnət qəbzlərinin satılmasının sona yetməsində və məsihçilərin Kəlamdakı təlimlərə qayıtmasında həlledici rol oynadı.

*Dua. Ən çox işi görən budur, amma biz onu ən az edirik. Dua bizim ruhani döyüşə qarşı birinci müdafiəmizdir, amma çox vaxt sonuncu sığınacağımızdır. İmanına görə təqib olunanlar duanın əsas olduğunu öyrədir. Onların sonuncu sözləri döyüş sözləri deyil. Onların yer üzündə sonuncu hərəkətləri müqavimət deyil. Əslində, ittihamçılarını mat qoyaraq və başqalarının qəti imanlarına əmin edərək, dua – ölən nəfəsdir. Tarix göstərir ki, təqib olunmuş müqəddəslər əgər yaşamış olsaydılar, ölərkən etdiyi dualar başqalarına Müjdəni yaymaqda çox güclü təsir göstərməzdi. Sizin həyatınız çətin olanda və "alovlar" ətrafınızda isti olanda duaya tərəf çeviriləcəksinizmi? Başqaları sizin ilk və son müdafiənizin göylərdəki Atanız ilə ünsiyyətiniz olduğunu görəcəklərmi?*

Saleh adamın duası çox güclü
və təsirlidir.

*Yaqub 5:16*

# Böyük ruhlanma

**VYETNAM:** PASTOR NQUYEN LAP MA

**Kommunistlər Vyetnamda hakimiyyəti ələ keçirəndə pastor Nquyen Lap Ma Kan Toda olan Məsihçi Müjdəçilik Birliyi Məbədini atmaq istəmədi. Bu "cinayət"ə görə o və bütün ailəsi ev dustağına çevrildi. Həmin ev kiçik bir kənddə idi, oraya gediş-gəliş mümkün deyildi və ilk on iki il heç bir məktub yollamaq olmazdı.**

Nəhayət, hökumət rəhbərləri məktublara qoyduqları qadağanı götürdülər. Pastor Nquyen Lap Ma öz evinə gələn məktublara görə çox sevindi. "Şəhidlərin səsi" pastor Nquyen Lap Manın hekayəsini və ünvanını çapa verdi. Tələbələr, evdar qadınlar, pastorlar və biznesmenlər ona və ailəsinə ruhlandırıcı məktublar yazdılar. Vyetnam polisi onların üç yüzdən artıq məktub aldıqlarını görəndə məəttəl qaldı.

"Mən hər bir məktubu dualar və göz yaşları ilə oxudum" – pastor Lap Ma dedi. "Mən hər məktubu axıra qədər oxuyub oradakı Kəlamın ayələri üzərində düşünürəm. Sonra mən vyetnam dilində yazılmış bu ruhlandırıcı sözləri və Kəlamdakı ayələri ailəmlə bölüşürəm. Onlarda yazılan sözlərə görə biz çox sevinirik və ruhlanırıq."

"Allah bizi gücləndirib və yardım edib" – pastor davam etdi. "Ona görə də biz Ona ümid etməkdə davam edirik və gözlərimizi Ona dikirik. Biz ölüm anınadək onun rüsvayçılığını ələ salan çarmıxına dözmək üçün Onun ardınca gedirik. Biz yaşadığımız müddətdə Allah bizdən başqa əzab çəkən məsihçilərə də təsəlli vermək üçün istifadə edir." Onlar başqa imanlıları sevinə-sevinə ruhlandırdıqca məktublar onları ruhlandırır.

*Ruhlanma məsihçilər üçün lazımi yanacaqdır. Ruhlanma olmadan, qaçan şəxsin suyu olmadığı kimi heç kim uzun üzücü məsafəni qaça bilməz. Biz səyahətə çıxarkən öyrənirik ki, ruhlanma qarşılıqlıdır. Biz başqalarını ruhlandıranda biz də başqa imanlılardan, hətta Allahın özündən ruhlanma əldə edirik. Azacıq ruhlanma yorğunu qüvvətləndirə və imanı zəifləyənləri gücləndirə bilər. Biz çox vaxt görürük ki, ətrafımızda bizim üçün dua edənlərdən əldə etdiyimiz ruhani həvəslənmə ikinci məsafə üçün bizi cavanlaşdırır. Bəzi hallarda bu, imanımıza görə həbsxanada daha on iki il qalmaqdır. Digər hallarda isə bu, sadəcə, daha bir gün də dözmək bacarığıdır.*

Çünki sizi qüvvətləndirmək üçün sizə ruhani bir ənam çatdırmaq məqsədindəyəm; buna görə də sizi görmək üçün həsrət çəkirəm. Daha doğrusu, mən aranızda olarkən bir-birimizin imanı ilə qarşılıqlı halda ruhlanaq.

*Roma. 1:11-12*

48-ci gün

# BÖYÜK SADİQLİK

**Əgər siz Müqəddəs Kitabda olan üçün ölmək istəmirsinizsə, onda siz Müqəddəs Kitablar üçün pul verməli deyilsiniz. Çünki siz versəniz, biz daha çox Müqəddəs Kitabı qaçaqmalçılıq yolu ilə gətirə bilərik. Və əgər biz çox Müqəddəs Kitablar gətirsək, onda daha çox şəhidlər olacaq.**

Pastor Riçard Vurmbrand – "Şəhidlərin səsi" təşkilatının təsisçisi



49-cu gün

# Böyük ana

**İNGİLTƏRƏ:** SUZANNA UESLİ

**Suzannanın on doqquz uşağından onu iki yaşı olmazdan qabaq ölmüşdü və qızlarından biri eybəcər hala düşmüşdü. Amma o, öz gündəliyində bütün əzabları barədə yazır: "Bunlar mənə ruhani və əbədi xeyrim üçün yardım göstərib. Rəbbim, izzət olsun Sənə."**

Onun atası 1662-ci ildə ingilis qanunlarına tabe olmaqdan imtina etmişdi, bu qanuna əsasən, bütün ruhani şəxslər "Ümumi dua kitabı"na tabe olmalı idi. Bu məsihçilərdən beş mini "təriqətçilər" adlanmış və imanlarına görə ingilis həbsxanalarında ölmüşdülər.

Onun əri də təriqətçi idi, amma İngiltərənin məbədində qalmışdı. Buna görə onun anbarları yandırılmışdı, hirslənmiş məbədi onu tutdurub həbsxanaya salmışdı. Suzanna bu müddət ərzində dəhşətli kasıbçılığa dözmüşdü. Oğru hətta onların inəyinin yelinini kəsmişdi ki, uşaqları üçün süd olmasın.

Bir gün dini təşkilata məxsus qəzəblənmiş adamlar onların damını yandırmışdı. Bütün ailə üzvləri qaçıb canlarını qurtarmışdılar, amma altı yaşlı Con pəncərədən tullanmağa məcbur olmuşdu. O, yıxılsa da, sağ qaldı. Bu oğul Con Uesli böyüyərək Metodist denominasiyasının təsisçisi olmuşdu. Onun o biri oğlu Çarlz Uesli başqa unudulmaz himnlər ilə birlikdə Milad mahnısı "Mələkləri Dinləyin"i yazmışdı.

Suzanna Uesli sadə sözlərlə belə deyir: "Din öz iradəmizi deyil, Allahın iradəsini yerinə yetirməkdir. Cənnət və ya cəhənnəm yalnız bundan asılıdır."

*"Onun çənəsi xalis atasınınkıdır." "O, nənəsinə bir almanın iki yarısı kimi oxşayır." Gözlər, qulaqlar, saçlar, əllər və ya başqa cizgilər bizi ailə üzvlərimiz, hətta əvvəlki nəslimizlə əlaqələndirə bilər. Eləcə də Allahın ailəsinin üzvləri bir-biri ilə əlaqəlidir. Biz məsihçilər sevgi, ümid, sevinc və sülh kimi müxtəlif xüsusiyyətlər ilə əlaqələnirik – bunların hər biri birbaşa göylərdəki mirasımızdan bizə gəlir. Məsihçi imanını bizə ötürən Ueslinin ailəsi kimi bioloji valideynlərimiz və ya nənə-babamız olmasa da, Allah böyütmək və sevmək üçün bizə ruhani ailə verir. Sizin ruhani ananız və ya atanız kimdir? Sizə Məsih barəsində öyrədən insan. Siz kimə ruhani bacı və ya qardaş ola bilərsiniz?*

Səndəki riyasız imanı yadıma salıram. Əvvəlcə nənən Lois və anan Evnikinin saxladığı bu imanı, əminəm ki, sən də saxlayırsan.

*2 Timotey 1:5*

# Böyük hərarət

**RUSİYA:** NADEJDA SLOBODA

**Nadejda Sloboda öz ruh yüksəkliyini heç cür gizlədə bilmirdi. O, təzəliklə Avropadan yayımlanan qısadalğalı radio proqramından Məsih haqqında öyrənmişdi. Rus kəndində ilk məsihçi olan Nadejda bütün dostlarına ürəyini möcüzəli surətdə dəyişdirən Allah haqqında danışmaq istəyirdi. Amma o bilirdi ki, yerli hökumət orqanları Allah və ya məsihçilik haqqında ciddi şəkildə qadağan ediblər.**

Amma Nadejda öz həvəsini saxlaya bilmədi və tezliklə məbəd yarandı. Milis hətta yolları mühasirəyə almaqla məbədin artımının qarşısını ala bilməyəndə Nadejdanı həbs edib dörd illik həbsxanaya saldı. Onun beş uşağı ateist məktəbinə güclə göndərildi, bu, Nadejdaya çox əzab verdi. Amma o özünü Allaha əvvəlkindən daha yaxın hiss edirdi və öz məhbus yoldaşlarına Məsih haqqında bölüşürdü.

Məsih haqqında danışmaqdan imtina etmədiyinə görə onu iki aylıq təkadamlıq, qızdırılmamış kameraya saldılar. Bu, qışın tən ortasına təsadüf edirdi və Nadejdaya yorğan-döşək verməyə icazə yox idi. Onu məcbur etmişdilər ki, soyuq beton döşəmədə yatsın. Ümumi kameraya qayıtdıqdan sonra məhbus yoldaşları ondan necə dözdüyünü soruşdular. O cavab verdi: “Mən soyuq beton döşəmədə Allaha etibar edərək yuxuya gedirdim və mənim ətrafım istiləşməyə başlayırdı. Mən Allahın qollarında dincəlirdim.”

*Bir çox məsihçilər öz ruhani səyahətlərində elə vaxtları yadlarına sala bilərlər ki, onlar sanki həmin vaxtlar Allah və Onun Kəlamını heç vaxt kifayət qədər əldə edə bilmədiklərini hiss edirdilər. Ruhani həvəs ikinci təbiətdir. Coşqunluq isə daimi dostdur. Amma necəsə bu yolda imanımız soyuyur. Ola bilsin ki, bizim ruh yüksəkliyimizi dağıdan təqibdir. Bəlkə bu, şəxsi strategiyadır. Ya da ola bilsin ki, xüsusi bir şey deyil – bu, sadəcə, ruhumuzu əzən adi fəaliyyətlərdir və ümdə məsələlərimizi istifadə edib. Ruhani coşqunluğun alovları indi sadəcə tüstülənən küldür? Sizin həvəsiniz hərəkətsizdirmi? Allah ilə yeni ünsiyyəti alışdırmaq və daxilimizdəki alovu yanacaqla təmin etmək mümkündür. Bu gün ideya üçün sizi isitməyi Ondan xahiş edin.*

Mən fikirləşdim: “Daha Onu yada salmayacağam, Onun adı ilə danışmayacağam.” Onda Onun sözü sümüklərimdə həbs edilən, ürəyimdə yanan bir od oldu. Onu içimdə saxlamaqdan yoruldum, artıq bunu edə bilmirəm.

*Yeremya 20:9*

# BÖYÜK SADİQLİK

## Böyük "görüntü"

**FİL DİŞİ SAHİLİ:** KLOİ

**Zərbələr sanki hər tərəfdən gəlirdi və Kloi özünü müdafiə etmək üçün əlləri ilə başını tutmuşdu. Ona nə qədər adamın hücum etdiyini bilməsə də, huşunu itirdikcə hər zərbənin şappıltı səslərini eşidirdi. Ona hücum edənlər üstünə qışqırır, imanını və İsasını ələ salırdılar. Kloi dua edirdi, səssizcə Allaha fəryad edərək ona güc verməsini istəyirdi.**

Hər həftə Kloi öz vətənində olan Sepikaha adlı kənddə otuz kilometrdən artıq yol gedir. Məsihçilərdən ibarət kiçik qrup Kloi ilə salamlaşır, amma kəndin böyük əksəriyyəti müsəlmanlardır. Kloini döyənlər radikal, döyüşkən müsəlmanlar idilər.

Kloini xəstəxanaya apardılar, burada onun bir çox yaraları sağaldı. Polis Kloidən kimlərin onu döydüyünü soruşanda o dedi ki, heç nə bilmir. Kloi neçə illər idi ki, kor idi.

O, xəstəxanadan çıxdıqdan bir həftə sonra yenə Sepikahaya qayıtdı. O, gözləri ilə görə bilmədiyi insanlara vəz etmək üçün həyatını təhlükə altına salırdı. Onun gözləri kor idi, amma ürəyi aydın görə bilirdi. O, kiçik kənddə İsaya ehtiyac olduğunu və cavan məsihçilərin imanda böyümək istədiklərini görürdü. O, hər həftə Sepikahaya qayıdır. İndi görə bilmədiyi üzləri bir gün göylərdə görəcək.

*Ruhani itkin kişilərin və qadınların ürəklərini görmək üçün rentgen lazım deyil. İllər boyu pis qərarlar çıxarmaq çox vaxt böyük səhnədə görünür – insanların yorğun sifətlərində həkk olunub. Ruhani görüntü ürəklərin "gözlərini" başqalarının ehtiyaclarını görmək üçün istifadə etməkdir. Ətrafınızda olan insanların sifətlərində nə görürsünüz? Ya da heç baxırsınızmı? Bu günki mədəniyyətimizdə liftdə, aeroportda, dükanlarda heç vaxt görmədiyiniz gözlər ilə rastlaşmaq mümkündür. Məsihə ehtiyacı olan insanları görürsünüzmü? Sizin ruhani gözləriniz ətrafınızda ehtiyac içində olanları görməyi öyrənibmi? Allahdan xahiş edin ki, görmək və hərəkət etmək üçün sizin ruhani görüntünüzü inkişaf etdirsin.*

Qoy O, qəlbinizin gözünü nurlandırsın.

*Efes. 1:18*

# Böyük məsəl

## ŞƏRQİ AVROPA: ÜÇ GƏNC AĞAC MƏSƏLİ

**Bir gün meşədə üç gənc ağac razılığa gəlib belə dua etdilər. Onların dua etməkdə məqsədləri bu idi ki, qocalıb çürüməkdənsə hansısa nəcib məqsədlər üçün istifadə olunsunlar.**

Birinci ağac istəyirdi ki, yorğun mal-qaranı uzun iş günündən sonra qidalandırmaq üçün axur olsun. Allah ağacın belə təvazökarlığına görə onu mükafatlandırdı. O, çox xüsusi bir axura – Allahın Oğlunun uzandığı bir axura çevrildi.

İkinci ağac dua etdi ki, qayıq olsun. Duaya cavab gəldi, tezliklə onun gözəl oduncağı çox xüsusi bir sərnişini saxladı – Allah Oğlunu. Ağac İsanın şiddətli fırtınanı sakitləşdirərkən dediyi sözləri eşitdi: "Sakitləş, dayan." Ağac belə bir səhnənin şahidi olduğuna görə öz həyatını dəyərli hesab etdi.

Amma üçüncü ağacdan isə əzab vermə aləti kimi böyük bir çarmıx düzəltdilər. Ağac əvvəlcə öz taleyinə çox peşman oldu. Amma bir gün Nazaretli İsa onun budaqlarına mıxlandı. Qəribə idi, çarmıx o biri çarmıxlardan fərqli olaraq, inilti və lənət eşitmədi. Əksinə, o, Allah Oğlunun sevgi və ilahi bağışlama – tövbə edən oğruya cənnəti açan sözlər təklif etdiyini eşitdi.

Ağac sonra anladı ki, İsanın çarmıxa çəkilməsində onun rolu bəşəriyyətin xilasını təmin edib.

*Şərqi Avropada gizli məbədlərdə üç ağac məsəli çox vaxt imanına görə əzab çəkənlərin ruhlanması üçün danışılırdı. Bu imanlılar dözdükləri şeylərdə məqsədi görməli idilər. Onlar Allahın izzəti üçün istifadə olunmaq istədiklərini söyləyəndə, yəqin ki, onların çox böyük ümidləri və arzuları var idi. Amma belə görünür ki, təzyiq onları Allahın planlarından ayırmışdı. Ədalətsiz əzab belə planda necə rol oynaya bilər? Çarmıxın düzəldiyi ağac kimi onlar da anlayırlar ki, həyatları üçün Allahın başlıca məqsədinə formalaşıblar. Bu nöqteyi-nəzərdən əzab sizin həyatınız üçün Allahın planlarının pozulması deyil, prosesin ayrılmaz hissəsidir.*

Yalnız bununla deyil, çəkdiyimiz əziyyətlərlə də fəxr edirik, çünki bilirik ki, əziyyətdən dözüm, dözümdən Allaha xoş gəlmə, Allaha xoş gəlmədən ümid yaranır. Ümidimiz də boşa çıxmır, çünki Allah məhəbbəti bizə verilən Müqəddəs Ruh vasitəsilə ürəklərimizə tökülüb.

*Roma. 5:3-5*

# Böyük zəiflik

**RUSİYA:** YEPİSKOP MİXAİL

**"Əgər sən imanını inkar etsən və çarmıxı tapdalasan, azadsan" – bolşevik dəstəsi dedi. "Əgər dediklərimizi etməsən, səni öldürəcəyik."**

Yepiskop Mixail rus ortodoks rəhbərlərindən və adi insanlardan ibarət səksən min insanın kommunistlər tərəfindən öldürüldüyünü görmüşdü. Bütün bu əzabların və ağrıların içərisində o, belə qərara gəlmişdi ki, əgər Allah mövcud olsaydı, belə müsibətin baş verməsinə yol verməzdi.

"Mən inanmıram" – o, dəstə ilə qarşılaşarkən belə düşünürdü. "Çarmıxın mənim üçün nə mənası var? Qoy mən öz həyatımı qoruyum."

Amma o, dəstənin əmrini yerinə yetirmək istəyərkən ağzını açanda ağzından çıxan sözlər onu dəhşətə gətirdi. "Mən yalnız tək Allaha inanıram. Mən çarmıxı tapdalamayacağam!"

Dəstə guya padşahın geyimi kimi bir kisəni götürüb onun çiyinlərinə atdı və onun xəz papağını İsanın tikanlı tacı kimi istifadə etdi. Onlardan biri, Mixailin kilsəsinin keçmiş üzvü onun qarşısında diz çöküb dedi: "Yəhudilərin Padşahını salamlayın." Onlar növbə ilə onu döydülər və onun Allahını ələ saldılar.

Yepiskop sakitcə dua etdi. "Əgər Sən mövcudsansa, xahiş edirəm, mənim həyatımı xilas elə." O, döyülərkən yenidən qışqırdı: "Mən yalnız tək Allaha inanıram."

Mixailin imanını nümayiş etdirməsi sərxoş dəstəyə elə təsir etdi ki, onlar onu buraxdılar. O, evinə gəlib çıxanda üzüstə döşəməyə yıxılıb ağlayaraq bu sözləri təkrar edirdi: "Mən inanıram."

*Məsihçi imanı ziddiyyətli fikirlər ilə doludur. Yaşamaq üçün ölmək. Qalib gəlmək üçün uduzmaq. Güclü olmaq üçün zəif olmaq. Əslində, öz uğursuzluqlarımızı qəbul etməyincə, biz Allahın gücünü hiss edə bilmərik. Biz çətinliklərdən və sınaqlardan keçəndə, hətta uzaqdan başqalarının ədalətsiz əzablarının şahidi olanda, Allahın yaxşılığına şübhə etməyə başlayırıq. Bu, insanın təbii reaksiyasıdır. Amma Allah bizim insan zəifliklərimizi rədd etmir. O, bizim zəifliyimizi Öz gücü ilə bərpa edir. Ona görə də biz öz uğursuzluqlarımızda sevinə bilərik, çünki onlar bizə xatırladır ki, insan gücü Allahın gücünü əvəz edə bilməz. Biz uğursuzluqla qarşılaşa bilərik, amma bizim həmişə Allahımız güclüdür. Siz öz zəifliyiniz barədə nə öyrənirsiniz? Bu, Allahın gücü barədə sizə nə öyrədir?*

Amma O, mənə dedi:"Lütfüm sənə kifayətdir, çünki zəiflik olanda qüvvə tam olur."

*2 Kor. 12:9*

# Böyük hikmət

**İSRAİL:** STEFAN

**Şahidlər yalandan ona qarşı şəhadətlik etdilər. "Bu adamın həm Musaya, həm də Allaha qarşı küfr dolu sözlər dediyini eşitmişik. Bu adam dayanmadan bu Müqəddəs məkana və Qanuna qarşı danışır. 'Nazaretli İsa bu məkanı darmadağın edəcək və Musadan bizə əmanət qalan adətləri dəyişəcək' dediyini özümüz eşitmişik".**

Ali şuranın baş kahini müttəhimə dedi: "Nə deyə bilərsən?"

O, sakitcə ayağa qalxdı və mülayim səsi dəyişildi. "Sizin əcdadlarınız İsanın gəlişi haqqında danışan hər bir kəsi öldürdülər. Və siz də öz dini ənənələrinizi qoruyub saxladınız – siz hamınız satqınlar və qatillərsiniz. Sizə mələklər vasitəsilə Allahın qanunu verildi. Bu sanki bükülü bir hədiyyə idi, amma siz onu dəyərləndirmədiniz!"

Bu sözlərə cavab olaraq çığırtılar və lənətlər eşidildi, amma Stefan öz fikrindən dönmədi. O, gözlərini göyə dikib dedi: "Baxın, mən göylərin yarıldığını və Bəşər Oğlunun Allahın sağında dayandığını görürəm!" Onlar qulaqlarını əlləri ilə tutdular, üstünə hücum çəkib şəhərdən kənara çıxardılar. Şaul adlı fariseylərdən biri adamların paltarlarını sakitcə yığdı ki, Stefanın qanı onları ləkələməsin.

Daşlar Stefanın bədəninə dəydikcə o, Allaha yalvardı: "Ya Rəbb İsa, ruhumu qəbul et." Sonra o, diz çöküb hər bir kəsin eşidə biləcəyi bir səslə dua etdi: "Ya Rəbb, bunu onlara günah sayma." Bu, onun son sözləri idi. Sonra o öldü.

Həv. İş. 6:11-7:60-dan parafraz edilmiş halda götürülüb.

*Çətin vəziyyətlərdə soyuqqanlı olmaq ən müdrik hərəkətdir. Yolda başqa maşının qabağımıza çıxıb yolumuzu kəsməsi, məktəbdə aşağı qiymət almağımız və işdə töhmətlənməyimiz kimi xırda şeylər bizi qəzəbləndirir. Amma gərgin qeyri-adi vəziyyətlər vasitəsilə hərəkət etmək təkcə sağlam düşüncəni deyil, daha çox şeylər tələb edir. Bu, ilahi hikməti tələb edir. Yanlış ittihamlar, hətta ölüm təhlükəsi ilə qarşılaşanda Stefan həqiqi hikmətdən istifadə etdi. O, qisas almadı. O öz ittihamçılarını lənətləmədi. O, sadəcə həqiqi bildiyi və fariseylərin inanmaq istəmədikləri şeyə – İsa Allahın Oğludur – yapışdı. Stefan ölərkən onu qucaqlayan həmin İsa Allahdan gələn hikmətə ehtiyacınız olanda sizi də qucaqlayacaq.*

Əgər sizlərdən birinin müdrikliyi çatışmırsa, hər kəsə səxavətlə və məzəmmət etmədən verən Allahdan diləsin və ona veriləcək.

*Yaqub 1:5*

# BÖYÜK SADİQLİK



***Mən ölənə qədər vəz edəcəyəm.***

Çinli pastor Li Deksian – icazə olmadan vəz etdiyinə görə iyirmi dəfədən artıq həbs olunmuş ev toplantısının rəhbəri.

# Böyük məktublar – birinci hissə

**RUSİYA:** MARİYA

Əziz atam və anam, mən sizi Məsihin sevgisi ilə salamlayıram. Mən lap yaxşıyam və xeyir-dualıyam. Sinif yoldaşlarımdan biri Variya Kommunist Gənclər Təşkilatının üzvüdür. Mən ona şəhadətlik etmişəm və artıq hiss edirəm ki, o, yavaş-yavaş anlayır. Təzəliklə o dedi: "Mən səni heç başa düşə bilmirəm. Bu qədər şagird səni incidir, xətrinə dəyir, amma sən onları sevirsən."

Mən ona dedim ki, Allah bizə təkcə bizi sevənləri deyil, hamını sevməyi öyrədib. Xüsusilə də, bizə qarşı sərt davrananları sevməliyik ki, bizdə olan Allahı görsünlər. Variya məni ələ salıb incidənlərə qoşulanlardan biridir, amma bu, mənə kömək etdi ki, onun üçün daha çox dua edim.

Bu gün o, məndən soruşdu ki, onu da həqiqətən sevə bilərəmmi? Biz hər ikimiz qucaqlaşdıq və ağlamağa başladıq. Mən inanıram ki, o, Məsihi qəbul etmək üçün çox yaxındır. Xahiş edirəm, onun üçün dua edin.

Allahı uca səslə inkar edənlərə qulaq asanda elə bilirsən ki, həqiqətən, onlar belə düşünürlər. Amma həyat göstərir ki, onlardan çoxunun ürəklərində, həqiqətən, böyük istək var. Onların ürəyində iniltini eşidə bilərsiniz; onlar nəsə axtarırlar və allahsızlıqları ilə daxili boşluqlarını örtməyə çalışırlar.

Mən tezliklə yenə yazacağam. Evdəkilərə hamıya sevgimi çatdırın.

*Mariya*

Sizə dəfələrlə söylədiyim kimi, indi də göz yaşları içində təkrar deyirəm: bir çoxları Məsihin çarmıxına düşmən olaraq həyat sürür.

*Filip 3:18*

*Allah insanları daxillərində ruhani boşluq ilə yaradıb, bunu da yalnız Özü tamamilə doldura bilər. Biz məsihçiliyə qarşı qatı düşmən olan insanı görəndə biz həmin insanın həyatında nəhəng ehtiyacların olduğunu özümüzə xatırlada bilərik. Düşməninizin döş qəfəsində dərin boşluğu – ürəksiz bir bədəni təsəvvür edin. Bu daxili boşluq bir çox insanları ruhani axtarışa gətirib çıxarır. Onlar ya iman ilə cavab verirlər, yəni həmin boşluğu doldurmaq üçün Məsihin təklifini qəbul etmək istəyirlər, ya da qəzəb ilə cavab verirlər, yəni Məsihi bütünlüklə rədd edirlər. Çox vaxt məsihçinin hüzuru Məsihi rədd edənlərə sadəcə öz həyatlarında olmayan şeyi xatırladır. Onlar şəxsən sizə hirslənmirlər. Onlar sizin təqdim etdiyinizə hirslənirlər.*

# Böyük məktublar – ikinci hissə

**RUSİYA:** MARİYA

Əzin atam və anam, keçən məktubumda yadınızdadırsa, ateist qız Variya haqqında yazmışdım. İndi sizə şad xəbəri çatdırmaq üçün elə sevinirəm: Variya Məsihi qəbul etdi! O, tamamilə fərqlidir və artıq hər bir kəsə açıqcasına şəhadətlik edir.

Variya təzə iman edəndə özünü daxilən təqsirkar hiss edirdi. Məncə o, özünü ona görə pis hiss edirdi ki, uzun müddət Allahın olmadığına inanmış və başqalarına da bunu söyləmişdi. O, elə düşünürdü ki, buna görə əzab çəkməlidir.

Biz birlikdə allahsızların (Kommunist Gənclər Təşkilatının) toplantısına getdik. Baxmayaraq ki, mən ona əvvəlcədən demişdim ki, özünü saxlasın, amma bu, faydasız idi. Kommunist himnini oxumaqdan imtina etdikdən sonra Variya qabağa çıxıb bütün toplantıya müraciət etdi. O, cəsarətlə hamıya Məsihi bir Xilaskar kimi qəbul etdiyini söylədi!

O, hamıya yalvardı ki, günahdan üz döndərsinlər və Məsihə gəlsinlər. Hamı susmuşdu. O, danışığını qurtardıqdan sonra gözəl səsi ilə köhnə himni oxudu: “Mən ölmüş Məsihi bəyan etməkdən, əmrlərini qorumaqdan və çarmıxının gücündən utanmıram.” Onu tutub aparanda mən heç bir kömək edə bilmədim. Bu gün 9 maydır və biz onun haqqında heç nə eşitməmişik.

*Mariya*

*Məsihçiliyin ən böyük düşmənləri dua üçün baş hədəflərdir. Tarsuslu Şaul kimi keçmiş düşmənin Məsihin nümayəndələrindən birinə çevrilməsi mümkündür. Amma dua olmadan bu, yalnız bir mümkünlük kimi qalacaq. Onlardan qorxmaq və ya onlara qəzəblənmək əvəzinə biz cəmiyyətimizdə, ölkəmizdə və dünyanın hər bir yerində qəzəblə Məsihə qarşı duranlar üçün dua etməliyik. Biz imansızlar, hətta ateistlər üçün dua edən vaxt onların enerjiləri Məsihə qarşı deyil, Məsihə doğru tuşlansa, baş verəcək dəyişiklikləri təsvir edə bilərik. Onlar Allahın lütfü barədə güclü şəhadətlik etmək üçün növbəti müjdəçiyə çevrilə bilərlər. Bizim düşmənlərimizin heç biri Allahın təsir dairəsindən kənar deyil və dua onları Onun əlində saxlayır.*

Deməli, kim Məsihdədirsə, yeni yaradılışdır, köhnə şeylər keçibgetdi, təzə şeylər gəldi.

*2 Kor. 5:17*

# Böyük məktublar – üçüncü hissə

**RUSİYA:** MARİYA

Əziz anam və atam, dünən avqustun 2-si mən Variya ilə həbsxanada danışa bildim. O, arıq və solğun idi, amma onun gözləri Allahın sülhündən və səmavi sevincdən parlayırdı.

Mən onun haqqında düşünəndə ürəyim parçalanır. Onun on doqquz yaşı var. Bir imanlı kimi o, hələ ruhani körpədir. Amma Rəbbi bütün ürəyi ilə sevir və dərhal ən çətin yolu seçir.

Xahiş edirəm, onun üçün dua edin. Onlar Variyanın geyindiyi paltarlardan başqa hər bir şeyini ondan alıblar. Biz xeyli şey yığıb onun üçün göndərdik, amma düşünmürəm ki, göndərdiyimiz hər bir şeyi alır.

Mən Variyadan etdiklərinə görə peşman olduğunu soruşanda, o dedi: "Xeyr, əgər onlar məni azad etsələr, yenə də danışacağam. Elə fikirləşməyin ki, mən əzab çəkirəm. Mən şadam ki, Allah məni çox sevir və adına görə dözmək üçün sevinc verir."

Mən Allaha minnətdaram ki, bunu başa düşmək üçün bizim sülhümüz var. Əgər biz Məsihdəyiksə, bizi heç bir peşmançılıq və ya əzablar dayandıra bilməz. Mən yalnız dua edə bilərəm ki, əgər onun yerində olsam, imanım onunku kimi güclü olsun.

Biz indi inanırıq ki, Variya Sibirə əmək düşərgəsinə göndəriləcək. Mən inanıram ki, Allah ona dözmək üçün qüvvət verəcək.

*Sizin Mariyanız*

Rəbbə ümid bağlayanlarsa yeni qüvvət alar, qanad açıb qartal kimi yüksəklərə uçar, qaçanda taqətdən düşməzlər, yol gedib yorulmazlar.

*Yeşaya 40:31*

*Məsihçilik 100 metrlik qısa məsafəyə qaçış deyil. Bu, dözüm marafonudur. Kəlam bizə öyrədir ki, qartal kimi yüksəklərə uçacağımız və qaçanda taqətdən düşməyəcəyimiz vaxtlar var. Amma həyatlarımızda elə vaxtlar var ki, qarşımızda uzun, tənha yollar uzanıb gedir. Həmin vaxtlarda biz yalnız huşumuzu itirmədən daha çox qüvvə əldə edənədək yaxşı irəliləyə bilirik. Bu, əslində təqib altında olanların təsviridir. Təqib zamanı biz, sadəcə, təslim olmadan növbəti addımı atmağı öyrənirik. Sadəcə dözmək Allaha izzət gətirən böyük qələbədir. Əgər siz anlamadığınız bir sınaqdan keçirsinizsə, gözləyin və orada dayanın. Siz hər gün, bəzən dərk etmədən güclənirsiniz. Tezliklə, siz yenidən qartal tək uçacaqsınız.*

# Böyük məktublar – dördüncü hissə

**RUSİYA:** VARİYA

Əziz Mariya, axır ki, sənə məktub yaza bilirəm. Biz sağ-salamat yeni düşərgəyə gəlib çıxdıq, bu yer şəhərdən on beş kilometr uzaqlıqda yerləşir. Mən buradakı həyatı təsvir edə bilmirəm, amma Allaha şükür edirəm ki, kifayət qədər sağlamam və işləməyə gücüm var.

Mənə maşın sexində işləməyi tapşırıblar, yanımda bir bacı da var, amma onun sağlamlığı çox pis vəziyyətdədir. Mən hər ikimizin işini görməliyəm, yoxsa hər ikimizi cəzalandırarlar. Biz gün ərzində on iki-on üç saat işləyirik, yemək də çox az verirlər. Amma mən şikayət etmək istəmirəm.

Mən sənə demək istəyirəm ki, məni Məsihə gətirdiyin üçün çox sağ ol. İlk dəfədir ki, həyatımın məqsədi olduğunu hiss edirəm və kimin üçün əzab çəkdiyimi bilirəm. Buradakıların hər birinə xilasın böyük sevinci barədə danışmaq üçün ürəyim alışıb yanır.

Sakit qala bilmədiyim üçün işdə məni söyüb cəzalandırırlar. Necə sakit qalım axı? Nə qədər ki danışa bilirəm, Onun böyük sevgisi haqda hər bir kəslə bölüşəcəyəm.

Burada çoxlu imanlılar var. Keçən gecə gizlincə çaya gedə bildik, yeddi qardaş və bir də mən vəftiz olduq. Mən bu gözəl günü heç vaxt yaddan çıxarmaram! Xahiş edirəm, mənim üçün ağlama. Mənim burada məqsədim aydındır və imanım da güclüdür.

*Səni sevirəm, Sənin Variyan*

*Bəziləri bunu tale adlandırır. Bəziləri buna qismət deyir. Buna baxmayaraq, çox insanlar özlərini müəyyən səbəbə həsr etmək istəyirlər. Məsihçilər bunu "çağırış" – Allahın onların həyatları üçün məqsədi adlandırır. Biz şəxsi həyatlarımız üçün Allahın məqsədini həyata keçirəndə daha böyük mənzərənin bir hissəsinə çevrilirik. Biz razılaşırıq ki, hər nə ediriksə və hər nə başımıza gəlirsə, İsa Məsihin Müjdəsini irəliyə çəkir. Biz əlaqələnmişik. Faydalıyıq. Vəziyyətlər hər nə cür olursa olsun, həyatlarımızda ilk dəfə biz hiss edirik ki, özümüzdən kənar bir şeyə yardım edirik. Bu məqsəddən yapışdıqdan sonra heç kim sizi məğlub edə bilməz. Sizcə həyatınızda ən böyük məqsədiniz nədir?*

Qardaşlar, bunu sizə bildirmək istəyirəm ki, başıma gələnlər Müjdə yaymağı daha da irəli apardı.

*Filip. 1:12*

# Böyük məktublar – beşinci hissə

**RUSİYA:** VARİYA

Mənim əziz Mariyam, nəhayət sənə yenə də məktub yazmaq üçün imkan tapdım. Mən çox sevinirəm ki, həmin o bacı özünü indi yaxşı hiss edir. Biz başqa bir düşərgəyə köçürülmüşük.

Yadındadır, keçən məktubumda vəftiz olmağımdan yazmışdım. Amma mən Məsihi qəbul etməzdən əvvəl sənin xətrinə dəydiyim üçün heç imkan olmayıb ki, səndən üzr istəyim. Bu gün mənim məsihçi olmağım yalnız sənin bağışlama hərəkətinə görə olub. Xahiş edirəm ki, məni bağışlayasan.

Həm də mənə göndərdiyin bütün bağlamalara görə sənə təşəkkürümü bildirirəm. Ən çox sənə minnətdarlığımı bildirirəm ki, mənə Müqəddəs Kitab göndərmisən. Rəbb mənə öz müqəddəs sevgisinin dərin sirlərini aşkar etdiyi üçün özümü dünyanın ən xoşbəxt insanı hesab edirəm. Dözdüyüm bu əzabları xüsusi lütf sayıram. Mən şadam ki, Allah üçün əzab çəkməyə görə O, mənə böyük imkan verib.

Xahiş edirəm, mənim üçün dua et ki, axıradək sadiq qala bilim. Qoy Rəbb sizi qorusun və mübarizə üçün sizi gücləndirsin. Bizim üçün narahat olmayın. Mükafatımızın göylərdə olduğunu bildiyimiz üçün biz çox şadıq və sevinirik!

*Sənin Variyan*

Belə ki Məsihi və Onun dirilmə qüdrətini, əzablarına şərikliyi də dərk edim və Onun ölümündə Ona bənzəyim ki,...

*Filip. 3:10*

*Variya haqqında bir daha eşidilmədi, amma onun Məsihə olan sevgisi və şəhadətliyi heç vaxt unudulmadı. Variyanın gənc həyatı onu imanına görə həbs etmiş qəddar rəhbərlər tərəfindən sanki söndürüldü. Amma Variyanın mirası onun hekayəsini bilənlərin ürəyində gur yanır. Onun həyatı əzabın gətirdiyi qəribə dostluq səviyyəsi ilə əlaqədar danılmaz sübutlar gətirir. Məsihə görə əzab çəkmək əslində bizi başqa heç bir həyat təcrübəsinin edə bilmədiyi bir üsulla Ona daha yaxın edir. Müqəddəs Kitab bunu Məsihin əzablarına şəriklik – insan həyat təcrübəsinin xüsusi bir səviyyəsi adlandırır. Əzablar vasitəsilə Məsihə yaxın olmaq birinci həyat təcrübəsindən yaxşı başa düşülən bir şeydir. Sizcə öz şəxsi əzabınızın sizi İsa Məsihə yaxınlaşdırması necə olub?*

# Böyük izlər

**SUDAN:** PASTOR YEREMYA LOQARA

**Yeremya Loqara qətiyyətdən başqa heç vaxt istefanın nə olduğunu bilməyib. Müsəlman əsgərlər onun məbədindən altı oğlanı həbs etmişdilər və yanlış olaraq casus olduqlarını iddia edirdilər. Yeremya oğlanların casus deyil, məsihçi olduğunu izah etməyə çalışanda əsgərlər onu da həbs etməyə qərar verdilər.**

İslam əsgərləri pastor Loqaranın qollarını və ayaqlarını bağlayıb yerdən üç metrə yaxın hündürlükdə kəndirdən asmışdılar. Onlar onu qamçıladılar və sinəsinə əridilmiş isti mumu damcı-damcı tökdülər. O, İsanın bağda etdiyi duanı yadına saldı: "Ya Rəbb, əgər bu gün ölmək sənin iradəndirsə, qoy olsun." O, gənc, həssas oğlanların qarşısında dayanarkən Şimali Sudan ərəblərinin işgəncələrinə dözə bilməyəcəyini düşünürdü.

Amma Allahın iradəsi onun bu oğlanlar üçün bir şəhadətlik olaraq yaşaması idi. Onu buraxdılar. Pastor Loqara güman edir ki, oğlanları ola bilsin ki, məcburi olaraq əsgər olmaq üçün öyrədiblər.

Pastor həmin hadisə barədə düşünəndə, o deyir: "Mən İsanın ölümünü xatırlayıram, O, dünyanı xilas etmək üçün öldü. Mən fikirləşirdim ki, mənim ölümüm bu oğlanlara təsir edəcək. Mən dua edirəm ki, mənim əzab nümunəm Allaha sadiq qalmaları üçün onları ruhlandırsın."

*Uşaqlar valideynlərinin izləri ilə getməyi xoşlayırlar. Qumlu sahillərdə onlar atalarının və ya analarının ayaq izlərinin içərisinə öz kiçik ayaqlarını qoymağa çalışırlar. Həmişə etibar edərək yol onları haraya aparırsa, oraya gedirlər. Buna oxşar olaraq, İsanın ayaq izləri də bizi əzablı ərazilər ilə apara bilər. Biz heç vaxt özümüz üçün seçmək istəmədiyimiz sınaqlar və çətinliklər vasitəsilə Onun ardınca gedə bilərik. Amma biz İsanın ardınca getməyə qərar vermişiksə, biz öz talelərimizi seçmək qərarından əl çəkmişik. İsanın ardınca getmək uşaqlarımızın və başqa müşahidəçilərin təqlid etməsi üçün aydın nümunəni verir. Seçdiyimiz yolun böyük əhəmiyyəti var. Ətrafınızdakıların fikrində siz hansı təəssüratları yaradırsınız?*

Kim Onda qaldığını deyirsə,
İsa Məsihin həyat sürdüyü kimi
həyat sürməlidir.

*1 Yəhya 2:6*

# BÖYÜK SADİQLİK

**Allahım, mən səndən xahiş etmirəm ki, həyatımı asanlaşdırasan; xahiş edirəm ki, məni güclü edəsən.**

Yəhudi uşaq – nasistlər tərəfindən bombardman edildikdən sonra Polşada yəhudilər üçün ayrılmış qəsəbədən tapılmışdır.



63-cü gün

# Böyük yerlər

**RUMINİYA:** PASTOR RİÇARD VURMBRAND

**On dörd il həbsxanada əziyyət çəkmiş rumıniyalı pastor Riçard Vurmbrand bir dəfə məhbus yoldaşından eşitdiyi hekayəni danışdı. Bu, onun ən çətin, əzablı vaxtlarında ona yardım etmişdi. Həmin qardaşı ona danışmışdı:**

"Mən bir dəfə sirkə getdim və çox mənalı bir səhnənin şahidi oldum. Snayper atan həyat yoldaşının başına yanan şamı qoydu. Sonra o, səhnənin ortasına çıxıb müəyyən məsafədə dayanaraq, həyat yoldaşının başındakı şama güllə açdı.

"Bu səhnə qurtardıqdan sonra mən qadına yaxınlaşdım və soruşdum ki, heç güllənin həyat yoldaşının başına dəyə biləcəyindən qorxubmu? O cavab verdi: "Nəyə görə? O, məni hədəfə almayıb, şamı hədəfə alıb."

Pastor Vurmbrand bu hekayəni eşidəndə belə fikirləşmişdi: "Niyə mənə işgəncə verənlərdən qorxmalıyam? Onlar məni hədəfə almayıblar. Onlar bədənimi döyə bilərlər, amma mənim əsl varlığım Məsihin daxilindədir. Mən onunla birlikdə göylərdə oturmuşam və ona görə də onlar mənim əsl şəxsiyyətimə toxuna bilməzlər. Bu gözəl nöqteyi-nəzərdən mən onların səylərinin səmərəsizliyini görə bilərəm."

Pastor Vurmbrand neçə illər əzab çəkərək yaşamış və dəfələrlə ölümə yaxın olmuşdur. Amma o, kiçik bir dərsdən ruhlanmış və hətta ruhani çiçəklənmişdi, çünki o bilirdi ki, bədəninə hər nə olsa da, Məsihdə olan yeri təhlükəsizdir.

*Təqib, təsvirolunmaz bir dərəcədə ağrılı olsa da, onun da məhdudiyyətləri var. Nə fiziki əzab, nə də emosional travma bizim kimliyimizin dərin hissələrini dağıda bilməz. Bizim daxildə gəzdirdiyimiz şeylər özümüzün ən dəyərli hissələridir – canlarımızdır. Məsihin Ruhu bizdə yaşayır və bizi emosional, eləcə də fiziki pisliklərdən qoruyur. Doğrudur, düşmənlərimiz bizi vura, hətta bədənlərimizi öldürə bilərlər. Amma düşmənlərimiz bizə zərbə vuranda, onlar həqiqətən Məsihin – bizim daxilimizdə yaşayanın adını pisləyirlər. O, yenidən ölə bilməz. Amma təzyiq nə qədər şəxsi və kəskin olsa da, bu, həqiqətən, daha böyük mənzərənin bir hissəsidir. Döyüş bizi özünə daxil edə bilər, amma bu, pislik və yaxşılıq arasında ümumi şeylər ilə əlaqədardır.*

İnsanlar Mənə görə sizi təhqir edib təqib edəndə, yalan söyləyib sizə hər cür böhtan atanda siz nə bəxtiyarsınız!

*Matta 5:11*

# Böyük qanadlar

**RUSİYA:** QOZBEL İNSAN

**"Mən bir çox illərimi Sovet islah əmək koloniyalarında keçirmişəm" – əl ilə yazılmış məktub belə başlayır. Mətn səliqəli idi, amma əlin azacıq əsdiyi hiss olunurdu. Bu göstərirdi ki, insan yaşlıdır və çox illərini həbsxanada keçirib.**

"Düşərgələrdə məni məcbur etmişdilər ki, yerin altında şaxtada işləyim. İş çox çətin idi və bizim mühafizəçilərimizdə şəfqət və insan mədəniyyəti yox idi. Bir gün şaxtada hadisə oldu. Mənim belim zədələndi və o gündən bəri mən qozbeləm.

'Bir gün' – məktub davam edir. 'Mənim üzümə baxmaqdan əl çəkməyən bir oğlan var idi.' O mənə dedi: 'Dayı, sizin belinizdə nə var?'

Mən əmin idim ki, kobud bir zarafat eşidəcəyəm, amma buna baxmayaraq dedim: 'Qozbeləm.'

Uşaq səmimi bir tərzdə gülüb dedi: 'Xeyr. Allah sevgidir. O, heç kimi eybəcər etmir. Sizin beliniz qozbel deyil. Bu, çiyinlərinizin altında qutudur. Qutunun içində gizlənən isə mələk qanadlarıdır. Bir gün qutu açılacaq və siz mələk qanadlarınız ilə göylərə uçacaqsınız.'

Mən sevincimdən ağlamağa başladım. Hətta indi sizə yazanda da ağlayıram." Məktub belə bitir.

Bir çox təqib olunmuş məsihçilər öz bədənlərində həyat təcrübələrinin əlamətlərini gəzdirirlər. Bəzən Allah bu yaraların altında olan gizli xeyir-duaları, hətta məsum bir uşağın səsi ilə onlara xatırlatmalıdır.

*Göylərdə yalnız bir xatırladan şey var. İsa hətta öz izzətlənmiş diri bədənində də öz təqibinin yara izlərini daşıyır. İsa dirilməsindən dərhal sonra şagirdlərinə yara izlərini göstərdi. Tomas onun böyründə və əllərində olan yaralara toxundu. Bir gün göylərə gedəndə onun mıxlanmış əlləri bizi də qucaqlayacaq. Yaralar Onun əzablarından irəli gəlmiş xeyir-duaları bizə xatırladacaq. Amma bizim çətin həyatlarımızdan yaranan yaralar yeni, göylərdəki bədənimizdə yoxa çıxacaq. Onun xatirinə əzablara, təhqirlərə və ədalətsizliklərə dözənlər öz yaralarını bir-bir Allahın zəngin xeyir-duası ilə dəyişəcək.*

Ölülərin dirilməsi də belədir. Əkilən toxum çürüyər, ondan əmələ gəlib dirilən bədən çürüməz.

*1 Kor. 15:42*

# Böyük qayıtma

**ÇİN:** PASTOR UANQ MİN-TAO

**"Mən buna yol verməyəcəyəm" – çinli pastor Uanq Min-tao yapon əsgərlərinə dedi. "Mən imperatorun şəklini məbədimdən asmayacağam."**

Bir neçə il sonra kommunistlər tələb etdilər ki, öz rəhbərləri olan Maonun şəklini pastor Uanq məbədində divardan assın.

"Mənim məbədimdə hətta İsanın şəkli belə yoxdur" – pastor dedi. "Mən yapon imperatorunun və eləcə də Maonun şəklini asmaqdan imtina edirəm."

Uanq 1955-ci ildə həbs olunmuşdu və iki il şiddətli işgəncələrə məruz qalmışdı və onun beynindən bu fikirləri çıxarmağa çalışmışdılar. İşgəncələrdən dəli olmaq dərəcəsinə gələn Uanq nəhayət xalqa qarşı bütün "cinayətlər"ini qeyd edərək "etiraf" sənədini imzaladı. Etirafdan sonra pastor Uanq həbsxanadan çıxdı.

Amma həbsxanadan kənarda sülh yox idi. O özü-özünə söylədi: "Mən Yəhuda kimiyəm. Mən Məsihi inkar edən Peter kimiyəm." Nəhayət, o, Çin polisinin yanına getdi.

"Mən etirafımı inkar edirəm" – o, onlara dedi. "Mənimlə nə istəyirsiniz edin."

Mühafizəçilər təkcə Uanqı yenidən həbsxanaya salmaqla qane olmadılar. Onlar onun həyat yoldaşını da həbsxanaya saldılar. Həbsxanada olarkən o, məktubunda yazmışdı: "Mənim üçün narahat olmayın. Mən bir çox sərçələrdən daha qiymətliyəm."

Uanq Min-tao yalnız Xilaskarını sevdiyinə görə təqsirkar olaraq həbsxanada öldü.

*Kim İsa Məsihi tutmaq istəyənləri vuran Peter kimi cəsarətli olmaq istərdi? Bəs eyni misalda qarşıdurmadan qorxaraq Məsihi inkar edən Peter kimi zəif insan kim olmaq istərdi? Allah insan olduğumuza görə bizi danlamır. O, bizim zəifliklərimizi qəbul edir və yenidən güclənənədək bizimlə çalışır. Allah Peteri və başqa imanlıları Uanq Min-tao kimi yenidən iman mövqeyinə qaytardığı kimi bizim də güclü cəsarətimizi bərpa edə bilər. Məsihi dəstəkləmək üçün hansısa bir imkanı əlinizdən buraxdığınızı xatırlayırsınızmı? Allahdan xahiş edin ki, sizi bu gün bərpa etsin. O, möhkəm qalmaqda növbəti imkana görə hətta sizi indi bərpa edəcək.*

Allahınız Rəbbə tərəf qayıdın. Çünki O, lütfkar və rəhmlidir, hədsiz səbirlidir, bol məhəbbətlidir.

*Yoel 2:13*

# Böyük mənzərə

**RUMINİYA:** FLOREA

**"Rəbbimiz bizə əmr edib ki, şənbə gününü yadda saxlayaq və müqəddəs tutaq" – Florea həbsxana mühafizəçilərinə sakit tərzdə söylədi. "Mən bu gün işləyə bilmərəm."**

Rumıniyalı məhbuslar hər gün işləməyə məcbur edilmişdilər, amma hər şənbə günü Florea imtina edirdi. İmtina etdiyinə görə mühafizəçilər onu elə pis döymüşdülər ki, o, qollarını və ayaqlarını istifadə edə bilmirdi. O, yalnız öz başını tərpədə bilirdi.

Artıq işləyə bilmədiyi üçün Florea bütün günü həbsxanada oturmağa məcbur edildi. O, yeməyini yemək üçün başqa məhbuslardan asılı idi. Belə vəziyyətdə olmasına baxmayaraq Florea ruhdan düşməmişdi.

Başqa məhbuslar onun vəziyyəti haqqında şikayət edəndə Florea onları ruhlandırırdı: "Əgər mənzərə pisdirsə, çalışın yuxarıya baxasınız". Stefan daşlananda o, yuxarıya baxdı və İsanın Allahın sağında oturduğunu gördü. Bu, Stefanın ürəyinə təsəlli verdi və sizə də təsəlli verəcək." O, məhbus yoldaşlarını ruhlandırırdı ki, vəziyyətlərinə deyil, "yuxarıya" İsaya baxsınlar.

Floreanın məhbus yoldaşlarından biri Riçard Vurmbrand idi. Riçard həbsxanadan çıxandan sonra Floreanın doqquz yaşlı oğlunu tapdı. O, Floreanın oğluna söylədi ki, atası həbsxanada onun üçün böyük xeyir-dua olub.

Oğlan gülümsünüb cavab verdi: "Mən də atam kimi Məsih üçün əzab çəkən və ruhlandıran bir şəxs olmaq istəyərdim."

*Məsihçiliyin müəyyən vəziyyətlərdə üstünlükləri yoxdur. Gözəl ev. Gözəl ailə. Yaxşı sağlamlıq. Yox, məsihçi istənilən və bütün vəziyyətlərə qarşı müəyyən münasibətə malik biridir. Vəziyyətlərə baxmayaraq, insanın münasibəti fərqliliklər yaradır. Səmavi münasibət sınağın içərisində Allahın hüzuruna diqqəti cəmləyir. Çətinliklərimizə diqqətimizi cəmləmək göylərə baxmaqdan bizi saxlayır. Biz özümüzü yük altında hiss edirik. Ruhdan düşmüş, ümidsiz hiss edirik. Buna əks olaraq, çətinliklərimizə Allaha məxsus nəzərlərlə baxmaq Allahın iş başında olduğunu bildirməklə arxayınçılıq gətirir. Biz Allahın hüzurunda dincəlirik, qayğılarımızı necə yoluna qoyacağını gözləyirik. Siz indi hansısa bir sınaqdasınız? Nəyə baxırsınız? Allahdan xahiş edin ki, sizin enerjinizin istiqamətini dəyişdirsin ki, siz çətinliklərdən kənara baxasınız və Onun hüzurunun sizinlə olduğunu hiss edəsiniz.*

Məsih İsa necə düşündü,
siz də elə düşünün.

*Filip. 2:5*

# Böyük zəncirlər

**KUBA:** MƏSİHÇİ MƏHBUS

**"Sənədə qol çək!" – kubalı məmur məsihçi məhbusun əlinə qələmi güclə verərək, qışqırdı. "Sənədə qol çək!"**

Məhbusun qarşısında olan sənəd başqa məsihçilər haqqında ittihamlardan ibarət idi. O biri imanlıları tutmaq üçün onun imzası kifayət idi.

"Mən bu vərəqi imzalaya bilmərəm" – məsihçi məmurun gözlərinə baxaraq sakitcə dedi.

"Nəyə görə?" – kişini söyməzdən qabaq kapitan sakit tonda soruşdu. "Öz adını yaza bilmirsən?"

"Zəncirə görə, dostum. Zəncir bunu imzalamaqdan məni saxlayır."

Məhbusun əllərindən kobud tərzdə tutaraq, məmur onları sifətinin qabağına gətirdi. "Axı sənin əllərin zəncirli deyil, səfeh!" – o qışqırdı.

"Axı, zəncirliyəm" – məsihçi söylədi. "Mən əsrlər boyu həyatlarını Məsihə vermiş insanların şəhadətliklərinin zəncirləri ilə bağlanmışam. Mən, sadəcə olaraq, həmin zəncirdə başqa bir halqayam və ona görə də onu qırmayacağam."

Məmur onu hədələsə və döysə də, məhbus imza atmaqdan imtina etdi.

*Məsihçi şəhidlər dəhşətli vəziyyətlərin içərisində ağlasığmaz tarazlığın zəngin şəhadətliyini qoyub gedirlər. Onlar qəhrəmanların gücünə malikdirlər. Onların sözləri hikmətlidir. Onların sakitliyi dəyişməzdir. Tomas Akvinas yazır: "Səlahiyyətli şəxslər qarşısında şəhidlər tərəfindən deyilmiş sözlər insan sözləri deyil, bu, insanın əminliyinin sadə ifadəsidir, amma sözlər Müqəddəs Ruh vasitəsilə İsanın adını etiraf edənlər tərəfindən bəyan edilib." Həyatbəhəyat, halqabahalqa təzyiq içərisində Müqəddəs Ruhun gücü vasitəsilə deyilmiş sözlər güclü şəhadətçiliyi yaradır. Sizdə də həmçinin, öz səhifənizə əlavə etmək üçün potensialınız var. Siz də imanlıların zəncirində halqasınız. Bu zəncirdə birlikdə qalacaqsınızmı?*

Buna görə bu qədər böyük şahidlər buludu ilə əhatə olunduğumuz üçün… qarşımızdakı yarışda dözümlə qaçaq.

*İbr. 12:1*

# Böyük məktəb

**LİTVA:** NİCOLE SADUNAYT

**Əhval-ruhiyyə tutqun və ağır idi. Litva məhkəməsi Nicole Sadunayt üçün hökm çıxarmağa yığışmışdı. Onun "cinayəti" başqa imanlılar kimi kommunist dövlətində məsihçi olmaq idi.**

Sonra hakim ona danışmaq üçün son söz verdi. O, çox gözləyirdi ki, gənc qadın göz yaşları içində mərhəmət üçün yalvarsın. Bəlkə o, Allaha olan öz gülünc imanından dönər.

Nicolenin gözlərindən yaş axmırdı. Onun üzü parlayırdı və üzündə gözəl təbəssüm yaranmağa başladı. Onun gözləri hətta ittihamçılarına qarşı mehribanlıqla dolu idi.

"Bu, həyatımda ən xoşbəxt gündür" – ittiham olunan qadın söylədi. "Mən həqiqətə və insanlara qarşı sevgimə görə ittiham olunuram."

İndi məhkəmə zalında olan hər bir göz onun üzərində idi. Mənim həsəd oyadan taleyim, izzətli qismətim var. Mənim bu məhkəmə zalındakı ittihamım mənim əsas qələbəm olacaq."

Onun səsində olan yanğı aydın hiss olunurdu. "Mən peşmanam ki, insanlar üçün az şeylər etmişəm. Gəlin bir-birimizi sevək, onda hamımız şad olarıq. Yalnız sevgisi olmayan insan kədərli olacaq."

O, hakimdən diqqətini çəkib məhkəməni müşahidə edən başqa imanlıların gözlərinin içinə baxdı. "Biz pisliyi ittiham etməliyik, amma insanları, hətta səhv edənləri sevməliyik. Bunu yalnız İsa Məsihin məktəbində öyrənə bilərsiniz."

*Məsihə görə təqib olunanlar haqqında öyrənərkən qeydlər edin. Bölmələrə ayırın. Evlərimizin və cəmiyyətlərimizin təhlükəsiz yerlərində məsihçi şəhidlərin hekayələri barədə oxuya bilərik. Biz hətta səhifələri çevirdikcə diksinə bilərik. Amma İsa Məsihin məktəbinə yazılmağa hazırıqmı? Təzyiqin tənha yolunda addımlayanlar ilə yan-yana tədqiq etməyə hazırıqmı? Biz iman, sevgi, müqəddəslik və dözüm haqqında onlardan öyrəndiklərimizi tətbiq etməliyik. Yalnız başqalarının həyat təcrübələri vasitəsilə Məsihin əzablarını dərk edən zaman özümüzü "məsihçilər", yəni "kiçik Məsihlər" adlandıra bilərik. Yalnız onda biz imtahan verməyə hazırıq.*

Mənim boyunduruğumu
üzərinizə götürün və
Məndən öyrənin.

*Matta 11:29*

# BÖYÜK SADİQLİK

**Əzab günahın qarşısını ala bilər, amma günah heç vaxt əzabın qarşısını ala bilməz.**

1800-cü ildə nəşr olunmuş Foksun “Şəhidlər” kitabından əl ilə
yazılmış qeyd  kitabının 1800-cü il nəşrində
olan yazılı qeyd



gün 70

# Böyük bildiriş

**RUMINİYA:** PASTOR RİÇARD VURMBRAND

**"Siz yalan danışırsınız!" – leytenant Qrusi məhbus pastor Riçard Vurmbrandın üstünə qışqırdı. "Öz məsihçi fəaliyyətlərin və məbəddə olan başqaları haqqında bizə danış! Burada siz həbsxanada pozduğunuz bütün qaydaları yazmalısınız."**

Vurmbrand pozduğu bütün həbsxana qaydalarını oturub sakitcə yazdı. Yazıb qurtardıqdan sonra o, bir abzas da əlavə etdi: "Mən heç vaxt kommunistlərə qarşı danışmamışam. Mən Məsihin şagirdiyəm, O, bizə düşmənlərimizi sevməyi öyrədib. Mən onları başa düşürəm və onların tövbə etməsi üçün dua edirəm ki, onlar da mənim imanlı qardaşlarım olsunlar." O, vərəqin aşağısında cəsarətlə qol çəkdi.

Qrusi "bildiriş"i oxudu. O, səhifənin axırına yaxınlaşanadək üzü yumşaldı, Vurmbrandın onu həbs edən və işgəncə verən hökuməti sevdiyini oxuyanda təsirləndi. "Bu sevgi – heç kimin riayət edə bilmədiyi sizin məsihçi əmrlərinizdən biridir."

"Bu, əmrə əməl etmək məsələsi deyil" – Riçard mülayimcəsinə cavab verdi. "Mən məsihçi olanda sanki yenidən doğulmuşdum, sevgi ilə dolu idim. Necə ki, bulaqdan yalnız su çıxır, eləcə də sevən ürəkdən sevgi çıxa bilər."

Növbəti aylarda Vurmbrand Məsihin sevgisi barədə leytenant Qrusiyə çox danışdı, nəhayət o, Məsihi qəbul etdi!

*Məsihdə imanınızı bəyan etmək, sadəcə, başqalarının eşitməsi və qəbul etməsi üçün kifayət qədər ucadan söyləməkdir. Bu, o demək deyil ki, siz insanları təhqir edirsiniz. Bu, o deməkdir ki, siz həddən artıq ünsiyyət sevən insansınız. Siz sadəcə İsa Məsih haqqında başqalarının oxuması üçün açıq kitabsınız və hazırsınız ki, istənilən vaxt sizi oxusunlar. Biz çox vaxt Məsih üçün şəhadətliyimizdə qətiyyətsiz oluruq. Biz insanları incitmək istəmirik. Biz istəmirik ki, bizi pis mənada başa düşsünlər. Amma bizim sakit şəhadətliyimiz kiminsə Məsihə iman etməsi imkanını əldən verə bilər. Sizin üçün bu gün Məsihə imanınızı bəyan etmək nə deməkdir? Siz Allahın lütf xəbərini kimə çatdıra bilərsiniz?*

İndi, ya Rəbb, onların etdikləri hədə-qorxuya bax! Biz qullarına güc ver ki, Sənin sözlərini tam cəsarətlə yayaq.

*Həv. İş. 4:29*

# Böyük görüş

**İSPANİYA:** ANTONİO HERREZUELO

**O, ispan rəhbərlərinin əmri ilə dirəkdə yandırılsa da, Antonio Herrezuelonun ağrısı ruhunda idi. O gördü ki, həyat yoldaşı oxşar ölümdən qaçmaq üçün Məsihi inkar etdi.**

Antonio da arvadı kimi həyatını xilas edə və həbsxanada yaşamağı seçə bilərdi. Ola bilsin ki, bir gün əfv olunub və həyat yoldaşına yenidən qovuşa bilərdi.

Amma o, tövbə etmək istəmədi. Əsgərlər onu aparanadək o, arvadına yalvardı. "Xahiş edirəm, Məsihə qayıt ki, bağışlanasan. Biz göylərdə bir-birimizə qovuşacağıq. Xahiş edirəm, qayıt!"- o, arvadının üstünə qışqırdı. Yer üzündə qovuşmağa ümidi olmasa da, o, əbədiyyətdə həyat yoldaşı ilə birlikdə olmaq istəyirdi.

Ərinin ölümündən sonra ömürlük həbs cəzasını çəkmək üçün onu həbsxanaya qaytardılar. Səkkiz il o, Allah və öz ruhu ilə mübarizə apardı. O, faciəli qərarı barədə heç cür sülh tapmırdı.

On altıncı əsrin hakimləri onu hədələsə də, nəhayət o, açıq-aşkar Məsihdəki imanına qayıtdı, əvvəlki inkarından üz döndərdi. Məhkəmə dirəkdə ölüm cəzası ilə onu ölümə məhkum etdi – bu dəfə ikinci və sonuncu dəfə idi.

O, ölməyə və ərinə qovuşmağa hazır idi. O, ölən zaman yenə də sülhdə idi. Onun ərinə deyəcəyi ilk sözü imana qayıtması idi.

*Göylərdə necə də gözəl bir görüş olacaqdı! Məsihə olan imanlarına görə əzab çəkmiş və ölmüş bütün insanlar lütf və mərhəmətin mayakları kimi parlayacaq. Pis rejim tərəfindən ayrı düşmüş ailələr bir daha görüşəcəklər. Ərlər və arvadlar. Analar və qızlar. Ölkədən sürgün olunan dostlar və qonşular bir-birini yenə görəcəklər. Təqib olunmuş ölkələrdən olan gizli məbədlər və toplantılar öz xilas hekayələrini danışacaq. Hekayələr özü əbədiyyətə– Allahın sadiqliyi barədə nəsillər boyu şəhidlərin şəhadətliklərini danışa biləcək. Bunlara qulaq asmaq üçün göylərdə olacaqsınızmı? Sizin özünüzün danışmağa hekayəniz olacaqmı?*

Bundan sonra mən gördüm ki, hər millətdən, hər tayfadan, hər xalqdan və hər dildən olan, heç kəsin saya bilməyəcəyi böyük bir kütlə taxtın və Quzunun önündə dayanıb. Onlar ağ xalat geyinib, əllərində xurma budaqları tutublar.

*Vəhy 7:9*

# Böyük lütf

**KENİYA:** DUL QADIN

**"Biz bu dəfn mərasimini bitirməzdən qabaq" – onun sözləri minlərlə gələn insanın qulaqlarında aydın şəkildə cingildədi. "Ərim ölməzdən qabaq mənə dediyi sözləri sizə xatırlatmaq istərdim. O, məndən xahiş etdi ki, onu öldürən bütün insanlara deyim ki, bütün qəlbi ilə onları sevərək göylərə gedir. O, onların etdikləri bütün şeyləri bağışlayır, çünki İsa da onları sevir və bağışlayır."**

O, ərinin tabutu qarşısında dayanmışdı. Onun gözləri yaşla dolu idi, amma səsi heç titrəmirdi. Qadının bədənində olan qançırlar yasa gələnlərə göstərirdi ki, o da döyülüb.

Bir məsihçi kimi əri və özü kikuyunun qəbilə əhdini etməkdən imtina etmişdilər. Bu, onların məsihçi imanlarına uyğun bir şey deyildi. Buna görə o, ölənədək döyüldü. Özü də döyülüb xəstəxanaya düşdü.

İzdiham səssiz idi, dul qadının sözlərinin və iradəsinin gücündən sakit halda dayanmışdılar. 1969-cu ildə Keniyada yaşayan bir çoxları imanlarına görə narahatçılıqla üzləşmiş və hücuma məruz qalmışdılar.

"Mən onun dul arvadı kimi mərhum ərimin hüzurunda sizlərə deyirəm ki, onu öldürən heç kimə nifrət etmirəm. Mən qatilləri sevirəm. Bilirəm ki, Məsih onlar üçün də ölüb, ona görə də onları bağışlayıram."

Həmin gün oraya gələnlərdən heç kim dul qadının sözlərini və ya əfv, eləcə lütf nümunəsini yaddan çıxarmayacaqdı.

*Bağışlamaq Məsihə bənzəməyin nə olduğunu göstərən böyük bir nümunədir. Bu, onun lütfünün başqalarına ötürülməsidir. Bu vaxta qədər heç kim İsa Məsihdən çox bağışlamayıb. Qolqofada Onun çiyinlərində olan dünyanın günahları heç bir şeylə müqayisə edilə bilməz. Ona görə də bizə nifrət edənləri bağışlayanda həmin anda İsaya bənzəyirik. Bağışlamaq sizə qarşı edilən səhvləri düzgün etmir. Bağışlamaq sizi düzəldir. Bağışlamaq sizi incidənləri sərbəstliyə buraxmaq deyil. Bağışlamaq o deməkdir ki, siz sərbəstliyə çıxırsınız və qisas fikirlərinin əsarətindən azad olursunuz. Başqalarının səhvlərinə görə onları bağışlamaq sizi Məsih üçün əvvəlkindən daha çox parlamağa imkan verir. Bu gün siz Allahın əfvini harada parladacaqsınız?*

Bir-birinizə dözün və birinizin digərindən şikayəti varsa, bağışlayın. Rəbb sizi bağışladığı kimi siz də bağışlayın.

*Kolos. 3:13*

# Böyük xeyirxahlıq

**RUMINİYA:** BARTO

**Barto acından ölürdü. Əvvəllər kommunist partiyasının məmuru və ittihamçı idi, indi isə o, həmin partiyaya lazım deyildi. O, Rumıniyanın həbsxana düşərgəsində işləməyə məhkum olunmuşdu. Onun mədəsi əvvəllər dolu idi, amma indi boş idi. O bilmirdi ki, nə qədər vaxt belə vəziyyətdə olar.**

Bartonun bu vəziyyətini görən məhbus yoldaşı yanına gəlib öz yemək payını onunla bölüşdü. "Çox sağ ol, dostum" – o, məhbus yoldaşına dedi. "Sən nə qədər müddət burada qalacaqsan?" – yeməyi yedikcə Barto ondan soruşdu.

"İyirmi il" – məhbus cavab verdi. Məhbusun gözləri onun üçün sual doğurdu.

"Nə cinayət işi görmüsən?"

"Mən polisin təqib etdiyi qaçaq pastora yemək verdiyimə görə ittiham olunmuşam" – kişi mülayimcəsinə cavab verdi. Barto fikir verdi ki, məhbusun səsi onun başqalarından eşitdiyi kimi nifrət daşımırdı.

"Belə yaxşı əmələ görə kim sənə belə sərt cəza verib?" – Barto dedi.

Məhbus təvazökarlıqla cavab verdi: "Cənab, siz mənim məhkəmə işimdə ittihamçı idiniz. Məni indi tanımırsınız, amma siz mənim yadımdasınız."

Kişi davam etdi. "Mən məsihçiyəm. Məsih bizə öyrədib ki, pisliyə yaxşılıqla cavab verək. Mən istəyirdim ki, siz biləsiniz ki, ac insana – hətta düşmənə yemək vermək düzgündür və yaxşıdır. İndi bunu sizə göstərə bilirəm." Barto həmin gün anladı ki, onun öz ruhani ehtiyacları fiziki ehtiyaclarını daha çox üstələyib.

*Xeyirxahlıq düşmənlərimizin ürəyinə bir yoldur. Bu, onların qəlbləri üçün nəsə edə bilər. Allah bizimlə münasibətdə seçim strategiyası kimi xeyirxahlıqdan istifadə edir. Bizim Ona qarşı pis hərəkətlərimizin əvəzini ödəməkdənsə bizimlə xeyirxahlıqla davranır. Onun xeyirxahlığı bizi incidənlərə qarşı necə rəftar etməli olduğumuzu göstərən bir nümunədir. Xeyirxahlıq insanların diqqətini zəbt edir. Bu, layiq olmadığı kimi gözlənilməzdir. Barto kimi bizim də düşmənlərə qarşı xeyirxahlığımız şəfqətliliyimizin mənbəyi üçün ruhani aclığı yarada bilər. Amma onların cavablarına baxmayaraq, düşmənlərlə münasibətdə Rəbbin nümunəsini izləməliyik. Bu gün sizin xeyirxahlığınıza kimin ehtiyacı var?*

Yaxud sən Allahın zəngin xeyirxahlığına, həlimliyinə və səbirli olmağına xor baxırsan? Bəs anlamırsan ki, Onun xeyirxahlığı səni tövbəyə yönəldir?

*Roma. 2:4*

# Böyük uşaqlar

**RUSİYA:** HƏBS OLUNMUŞ VALİDEYNLƏR

**Məhdudiyyətlər qoyulmuş ölkələrdə məsihçi uşaqlar çox vaxt valideynləri ilə birlikdə əzab çəkirlər. Ata və analar məbəddəki fəaliyyətlərinə görə həbs olunanda uşaqlar yetim qalırlar. Əgər bəxtləri gətirsə, onların ailə üzvləri və ya dostları qayğılarına qala bilər. Amma ən pisi o idi ki, yetimlər evinə və ya dövlət müəssisələrinə göndərilirdilər. Artıq yatmazdan qabaq Müqəddəs Kitab hekayələri oxunmurdu və yeməkdən əvvəl heç bir ailə duası olmurdu.**

Amma həbs olunmuş valideynlərin uşaqlarından gələn məktublar güclü cəsarəti və çətin ayrılıq vaxtlarında mətinliyi göstərirdi. Onların sözləri yenidən görüş üçün ümid daşıyırdı.

"Anacan, Allah sənə xeyir-dua versin. Bizim müvəqqəti ayrılığımıza görə narahat olma – bu, əbədi çəkməyəcək. Tezliklə sevincimiz qayıdacaq – qoy bu fikir səni ruhlandırsın. Ana, sən qayıdanda edəcəyimiz şadlığı heç təsəvvür edə bilmirəm. Mən dərslərimi yaxşı oxuyuram. İndi gecədir – sabah yeni bir gün olacaq. Günlər uzanır, amma bilirəm ki, tezliklə birlikdə olacağıq. Mən səni qucaqlayıram. Səni sevən qızın."

"Əziz ana, sən evə gələndə mən daha özümü tək hiss etməyəcəyəm. Sənə yalvarıram, ana, ağlama. Mən səni çox sevirəm. Mən sənin üçün balaca bir şeir yazmışam:

Sənin ürəyin qızıldandır,
Sənin ürəyin qoca deyil, cavandır.
Rəbb göylərdən baxır sənə,
Tezliklə birlikdə olarıq yenə."

*Uşaqlar çox vaxt təqibin nəticələrinə gəldikdə ən axırıncı olurlar. Hər həbs olunmuş valideyn üçün arxada qalmış övlad var. İsa dəfələrlə demişdir ki, uşaqların imanı əhəmiyyətlidir. Əgər uşaq çətin vəziyyətdə böyük cəsarət göstərsə, onda bizim bəhanəmiz nə olar? Belə uşaqlar əslində daha çox inciyə bilərlər, amma bunun əvəzində onlar daha çox lütfdə böyüyürlər. Eyni şeyi öz həyatlarımız üçün deyə bilərikmi? Yetkin yaşlı insanlar kimi həyatın gətirdiyi küləklərə və zərbələrə diqqətimizi cəmləyirik. Biz uşaqların möhkəm imanının formalaşmasından faydalana bilərik. Uşaqlara məxsus imanda böyümək üçün hansı yerlərdə sizə böyümək lazımdır? Uşaqları xatırlamaqla bu gündən başlayın.*

Sizə doğrusunu deyirəm: kim Allahın Padşahlığını bir uşaq kimi qəbul etməsə, oraya əsla daxil ola bilməz.

*Mark 10:15*

# Böyük etiraz

**RUSİYA:** BAPTİST MƏSİHÇİLƏR

**Dünya hələ bu vaxta qədər belə etiraz görməmişdi. Dünyada olan üsyanların çoxu qızğın olur, insanların əllərində şüarlar qışqırırlar, lövhələr və bayraqlar yellədilir və hətta daşlar tullanır. Amma 1966-cı il 16 mayda beş yüz sovet baptisti Kommunist Mərkəzi Komitəsinin qarşısına yığışmışdılar. Amma o biri üsyançılardan fərqli olaraq, onlar şüarlar və tələblər ilə qışqırmırdılar.**

Onlar birlikdə dayanıb dua edərək himnlər oxuyurdular. Georgi Vins və Gennadi Kryuçkov onların xeyrinə sovet hökumətinə xahiş təqdim etmişdilər. Onlar xahiş etmişdilər ki, məbədləri rəsmi tanınsın, hökumət müdaxilə etməsin, həbs olunmuş imanlılar buraxılsın və iman haqqında öyrətmək, eləcə də öyrənməkdə sovet vətəndaşlarının azadlığı olsun.

Mayın 17-si səhər əsgərlər və MTK-nın əməkdaşları toplananları əhatə etdi. Günorta saat 1-ə yaxın yavaş-yavaş avtobuslar ətrafı dövrəyə aldılar, əsgərlər hücum edib onları döyərək avtobuslara minməyə məcbur etdilər. Heç kim onlara qarşı döyüşmədi. Əksinə, nümayişçilər əl-ələ verib hücum çəkən əsgərlərin qışqırıqlarına baxmayaraq ilahi oxumağa başladılar. Bütün bunlar camaat qarşısında məsihçilərin möhkəm imanına baxan çoxlu şahidlərin iştirakı ilə oldu. Sonra onları həbs etdilər.

Onlar hətta həbsxanada da dua edib ilahi oxuyurdular. Kommunistlər bu sülhpərvər nümayişçilərin xahişlərini rədd etdilər, amma onların ruhlarını qıra bilmədilər.

*İnsanlar itaətkarlıq ilə zorakılığı qarışdırırlar. Amma bunun həqiqi mənası var. Radikal itaətkarlıq o deməkdir ki, biz Məsihin təlimlərinə əks olan şeylərə qarşı etirazımızı bildiririk. Amma sovet baptistləri kimi biz sülhə çalışırıq, ziyan törətmək istəmirik. İmanına görə təqib olunanlar sülh nümayişini və əzmini bir nümunə kimi göstərirlər. Onlar pisliyə pisliklə cavab vermirlər, amma Məsihin əmrlərinə itaət etməyin nəticələrini sakitcə qəbul edirlər. Əgər siz radikal məsihçi olmaq istəyirsinizsə, siz Məsihin əmrlərinə tamamilə itaət etməlisiniz. Həyatınızın hansı yerində sizi Allah Ona itaət etməyə çağırır? Radikal məsihçi olmaq nə deməkdir?*

Yaxşı işlər görərək hər şeydə özünü nümunə göstər. Təlimdə dürüst və ləyaqətli olaraq tənqid olunmaz sağlam sözlər danış ki, sənə qarşı çıxanlar bizim haqqımızda pis bir söz deyə bilməyib utansın.

*Titus 2:7-8*

# BÖYÜK SADİQLİK

**İnsanı şəhid edən səbəbdir, əzab deyil.**

Müqəddəs Avqustin



gün 77

# Böyük alətlər

**KOMMUNİST HƏBSXANASI:** MƏSİHÇİ PASTOR

**"Niyə bu qədər məsihçi həftədə bir dəfə oxuyur? Niyə yalnız bir dəfə? Əgər oxumaq düzgündürsə, onda hər gün oxuyun. Əgər düzgün deyilsə, onda bazar günü oxumayın."**

Kommunist rəhbərlərinin əllərində olan pastor bir neçə dəhşətli ilini həbsxanada keçirmişdi. Onu Məsihə iman etdiyinə görə tutmuşdular. Oradakı işgəncələrini xatırlasa da, o, diqqətini onlara cəmləməmişdi. Əksinə, Rəbbin hüzurunda olan sevincli vaxtlarından danışırdı. O və məsihçi məhbus yoldaşı həbsxananın ortasında həmd cəmiyyəti yaratmışdı. "Biz həbsxanada olanda, demək olar ki, hər gün ilahi oxuyurduq, çünki Məsih bizim daxilimizdə canlı idi. Kommunistlər bizə qarşı yaxşı davranırdılar. Onlar bilirdilər ki, biz Allahı musiqi alətləri ilə izzətləndirməyi xoşlayırıq, ona görə də həbsxanada olan hər bir məsihçiyə musiqi aləti verdilər. Amma onlar bizə skripka və ya mandolina vermədilər – onlar çox baha idilər. Əksinə, onlar bizim ayaqlarımıza və əllərimizə zəncirlər vurdular. Onlar bizim kədərimizə əlavə olaraq zəncir vurdular. Amma biz aşkar etdik ki, zəncirlər əla musiqi alətləridir" Biz onları birlikdə ritmlə bir-birinə vuranda belə oxuyurduq: 'Bu günləri (çak, çük), bu günləri (çak, çuk) Tanrı yaratdı (çak, çuk), Tanrı yaratdı (çak, çuk).'" Rəbb üçün necə də gözəl sevinc dolu bir səs idi!

*Hələ təqibdən keçməyənlər üçün elə görünür ki, təqib tamamilə itkiyə diqqəti cəmləyib. Azadlıq itkisi. Ümid itkisi. Hətta kiminsə həyatının itkisi. Amma Məsihdə imanlarına görə əzab çəkmiş insanlar itən şeylərə deyil, yeni kəşflərə diqqətlərini cəmləyirlər. Onlar özlərində çatışmayan şeylərə görə peşman olmaq əvəzinə, cüzi azadlıqlarından zövq alırlar. Bu hekayədə kommunistlər imanlıların həyatlarındakı azadlığın və ləyaqətin çox hissəsini oğurlamışdılar. Amma bu cəsur imanlılar yerdə qalan şeylərə – Rəbdə olan sevinclərinə diqqətlərini cəmləyirlər. Əgər hər şeyiniz olanda Rəbbə həmd etmək yaxşıdırsa, onda hər şeyinizi itirəndə də Ona həmd etmək yaxşıdır. Məsihçi sevincinizi itirməmək üçün bu gün nə edəcəksiniz?*

Gəlin Rəbbi mədh edək, bizi qurtaran Qayaya sevincdən cuşa gələrək nida edək.

*Məzmur 95:1*

# Böyük nümunə

**KOLUMBİYA:** ÇET BİTTERMAN

**M-19 kimi tanınan marksist inqilabçı qrupunun üzvləri, kapyuşonlu və silahlı partizanlar on iki nəfər yetkin yaşlı insanı, beş nəfər uşağı tutub bağlamışdılar. Onlar Kolumbiyanın Boqota şəhərində Uiklif Müqəddəs Kitab Tərcüməçiləri mərkəzlərini təmsil edirdilər. "Sizin müdiriniz haradadır? Al Uiler haradadır?" – rəhbər onlardan birinin üstünə qışqırdı. "Bizə Uiler gərəkdir!"**

"Ona dəyməyin" – cəld cavab verildi. "Uiler burada deyil."

Marksist hirsindən onu vurmaq istədi, amma sonra belə dedi. "Yaxşı, onda biz onun əvəzinə səni apararıq. Gəlin, gedək!"

Onların tələbləri bir neçə gün sonra gəlib çıxdı. "Əgər sizin təşkilatınız 19 fevrala qədər Kolumbiyanı tərk etməsə, biz məhbusu öldürəcəyik." Partizanlar hətta prezident Reyqana zəng vurdular və manifestlərinin *Nyu York Tayms* və *Vaşinqton Post* jurnalında çap olunmasını tələb etdilər, yoxsa Çet Bitterman öləcəkdi.

Həmin günlər yaxınlaşdıqca dua zəncirləri yaradıldı. Yerli radio stansiyasına teleqraf gələrək təsdiqlədi ki, Çet partizanlara şəhadətlik edib. Onun arvadı Brenda bir məktub aldı. Bu məktubda ondan ispan dilində Müqəddəs Kitab xahiş olunurdu.

Çet həyatda öz məqsədinə çatdı – Müjdəni haraya lazım idisə, yayımlaya bilmişdi. Terroristlər Çetin cəsədini boş bir avtobusa atmışdılar. Kolumbiyalılar bütün Amerikadakı məsihçilər ilə birlikdə Çetin qoyduğu boşluğu doldurmaq üçün irəliyə addım atmaqla onun ölümünü xatirəyə çevirdilər. Növbəti il Uiklif Müqəddəs Kitab Tərcüməçiləri ilə xidmət etmək üçün ərizələr iki dəfə artdı.

Mən Məsihdən nümunə götürdüyüm kimi, siz də məndən nümunə götürün.

*1 Kor. 11:1*

*Nümunəni izləmək geniş yayılmış icraçı təlim prinsipidir. Şirkətin ümdə məsələləri işçi heyətinin yüksək səviyyəsi ilə formalaşmalıdır. Məsihçiliyə gəldikdə isə, nümunəni izləmək eyni dərəcədə vacibdir. Əslində, İsa bunu əmr edib. O, başqa imanlıların izləmələri üçün məsihçi rəhbərlərin imanı necə yaratmalı olduqlarını nümayiş etdirdi. O, sadəcə, bizə təlimlərini vermədi – O, onları yaşadı. Bizlərdən kimlər Məsihə tam itaətin standartı ilə yaşamağa hazırıq? Əgər itaətdə yaşasaq, öz taleyimizi idarə edə bilməyəcəyik. Biz Məsihin nümunəsini izlədikcə başqaları üçün nümunə olacağıq. Bu gün sizin həyatınızı kim müşahidə edir? Onlar sizin Məsih ilə yaxın ünsiyyətiniz barədə nümunədən nələr öyrənirlər?*

# Böyük hazırlıqlar

**SUDAN:** SUDANLI UŞAQLAR

**Məktəbin həyətində birnəfərlik səngərlər – onlar Cənubi Sudanda çox tez-tez rast gəlinəndirlər. Uşaqların qaçaraq və gülərək oynadığı ərazinin ortasında yarısı yerin altına girmiş quyruğunda pərlər olan böyük metal silindr var. Partlamamış bombadan uşaqlara ondan uzaq durmasını xatırlatmaq üçün bayraq sallanır.**

Müjdəçi qrup bu yaxında Yei kəndinə orta məktəb yardımı çatdırdı. Sudanın əksər ərazilərindəki kimi, bu məktəb də ləvazimatların və ixtisaslı müəllimlərin çatışmamazlığına görə çətinliklə işləyirdi. Ərazidə olan bu xüsusi məktəb müntəzəm olaraq Sudanın islam dövləti tərəfindən bombalanır.

Bu uşaqlar məktəbin həyətində əl ilə iyirmiyə yaxın səngər qazıblar. Onlar bomba atanlar gələndə özlərini qorumaq üçün hazırlaşıblar. Onlar bomba atanların mühərriklərinin səsini eşidəndə, uçan şrapnellərə baxaraq deşiklərə qaçırlar.

Bəziləri deşiklərə sağ-salamat çatmaqda uğurlu olurlar, amma bəzilər isə yox. Müjdəçi qrup uşaqlar üçün nə edə bilər, cavab sadə idi: “Onların təhlükəsizliyi üçün dua edin.”

Müqəddəs Kitab öyrədir ki, çoxları öz imanlarını qorumaq üçün təhlükəsizliyin olduğu yerlərdə yaşayırdılar. Bu uşaqlar üçün öz imanlarına görə əzab çəkmək, yaxud hətta ölmək belə gündəlik həqiqətdir. Bizim üçün onlar Məsihin cəsur əsgərləridirlər.

*Sudandakı uşaqlar yerdə olan döyüşə girməyə hazırlaşıblar. Ən mühümü isə, onlar bir gün cənnətin qapılarından içəri daxil olmağa hazırlaşıblar. Onların düşmən düşərgələrindən gələn qəfil hücumlardan yerdə təhlükəsiz müdafiələri var. Buna baxmayaraq, onların Məsihə olan imanı onları Allahın qollarında əbədi qoruyur. Bəlkə bombaların təklükəsizləşdirildiyi yerdə oynayan uşaqlar kimi, sən də öyrənmisən ki, həyat tez-tez bəladan bir addım aralıda yaşanır. Ola bilsin, sən qeyri-müəyyən anlarda ən yaxşısına ümid edərək, yerdəki həyatını rahat etmək və qorumaq üçün addımlar atmısan. Buna baxmayaraq, sən heç bundan sonrakı həyat üçün onların nümunəsinə də baxmısanmı? Sən İsa Məsih vasitəsi ilə şəxsi ünsiyyət vasitəsi ilə əbədi həyata hazırsan?*

Oğula malik olan şəxsin
həyatı var, Allahın Oğluna
malik olmayan şəxsin isə
həyatı yoxdur.

*1 Yəhya 5:12*

# Böyük inqilab – birinci hissə

**RUMINİYA:** TİMİSOARANIN MƏSİHÇİLƏRİ

**Rumın yazıçısı Konstantin İoanid "Allah var" adlı şeirini yazanda, onun yazdığı sözlərin Rumıniya tarixi üçün nə qədər əhəmiyyətli olduğunu bilməzdi.**

Bir axşam 1989-cu ildə, Məsihçilər Timisoara şəhərində etiraz aksiyası edirdilər. Kommunistlər üçün oyuncağa çevrilən yepiskop Allahın Sözünü sadiqliklə təbliğ edən islahatçı pastor Tokesi işdən çıxartmışdı.

Bir gün Pastor Tokesi öz evini və kilsəsini tərk etməli idi. Polislərin onu köçməyə məcbur etməsindən qorumaq üçün məsihçilər onun evinin ətrafına dolaşdılar.

Əsgərlər güllələməyə başladılar və bir çoxları öldürüldü, bəziləri yaralandı. Sonra möcüzəli bir şey baş verdi. Bütün camaat əsgərlərə qarşı döyüşməkdənsə, diz çökdülər və dua etdilər. Heyrətə gəlmiş əsgərlər sarsıldılar və daha güllə atmaqdam imtina etdilər.

Bu müddətdə bütün kənd toplaşdı və yerli pastor Opera evinin eyvanından camaata müraciət etdi. O, İoanid qardaşın şeirindən oxudu və bütün camaat qışqırmağa başladı: "Allah var! Allah var! Şeir vərəqlərdə adamlara paylandı və sözlərə bəstələnən musiqini bilənlər onu oxumağa başladılar. Tezliklə minlərlə adam onu yenidən və yenidən oxuyurdu.

Bu mahnı Kommunist diktatoru Nikolay Çauşeskinin devrilməsinə və Rumıniyada islahatın başlamasına səbəb oldu.

*İnqilab çox köhnə ideyada– istər azadlıq, istər şəxsi ləyaqət, istərsə də Allahın mövcudluğu olsun, imanın yeni bir intibahıdır. Bu bəlli qanunlar əsarət vaxtında da dəyişilməz qalır. Onların hansısa vaxtlar "gizli şəkildə" toplaşmalarına baxmayaraq, onların mövcudluğu barədə mübahisə olunmazdır. Ruhani inqilab Allahın mövcudluğuna olan imanı dirçəldir – baxmayaraq ki, Allahın Özü heç vaxt ölü olmamışdır. İnqilab Allahın həqiqəti açması ilə başlayır. Bizim hamımıza cəsarət lazımdır ki, Allahın mövcudluğunu təsdiqləmək üçün əsas, qüdrətli və həyat dəyişdirən planda imanımızı diríldək. Biz də inandıqları kimi yaşamağa başlayan digər məsihçilərə qoşulanda inqilabın bir hissəsi oluruq. Ruhani inqilab sənin şəxsi həyatında necə görünərdi?*

Onda siz həqiqəti biləcəksiniz
və həqiqət sizi azad edəcək.

*Yəhya 8:32*

# Böyük inqilab – ikinci hissə

**RUMINİYA:** ON ÜÇ UŞAQ

**1989-cu ildə Timisoarada yüzlərlə adamın səbəbsiz həlak olmalarından sonra, bütün Rumıniyanın müxtəlif şəhərlərində birdən-birə digər nümayişlər baş verdi. Bir etiraz aksiyası vaxtı, on üç yaşlı uşaqlardan ibarət qrup əsgərlərin camaata tərəf gəlməyinin qarşısını almaq üçün öz bədənləri ilə insan səddi düzəltdilər. Əsgərlər buna baxmayaraq irəlilədikdə, uşaqlar diz çökdülər və qışqırdılar: "Xahiş edirik, bizi öldürməyin!"**

Əsgərlər günahsız uşaqlara fikir vermədilər və onları güllələməyə başladılar. Buna baxmayaraq, uşaqlar geri çəkilmədilər. Onlar: "Xahiş edirik, bizi güllələməyin!" – deyərək, yalvarmağa davam edirdilər. Abidə, uşaqların qətlə yetirildiyi yerdə ucaldılıbdır.

Əfsanə bütün Rumıniyada yayıldı ki, əslində mələklər uşaqları əhatə edərək şərə qarşı durmaq üçün onlara lazım olan müqəddəs cəsarəti verməklə inqilaba başladılar.

Qarşıdurmanı dayandırmaq üçün hər şəhərdə, tanklar və qoşunlar çağırıldı. Amma nəhayət, əsgərlər sülhpərvər əhaliyə tabe oldular. Sibiu şəhərində əsgərlər və məmurlar minlərlə adamla birgə tankın üstündəki iki xidmətçinin hamının dua etmək üçün diz çökməklərini xahiş etdikdə onlara qoşuldular. Onlar da camaat kimi dövlətin əlindən cana gəlmişdilər və tezliklə qarşıdurmaya müqavimət göstərmək qeyri-mümkün oldu.

İnanırlar ki, kiçik uşaq qrupunun şəhidliyi ölkəyə kommunist zülmü üzərində qələbə verdi.

*Biz öz imanımızda uşaq kimi olanda, biz Məsihin bizim üçün qoyub getdiyini yerinə yetirməyi dərindən arzulayırıq. Uşaqlar kimi, biz vaxtı tutmalıyıq və ondan yaxşı istifadə etməliyik. Rumıniyalı uşaqlar uğursuzluqla öz həyatlarına görə yalvardılar, amma öz tapşırıqlarında məyus olmadılar. Sənin tapşırığında sədaqətliliyini təhlükəyə atan elə bir şərait, yaxud nəticə varmı? Məsihin işini görmək üçün özündə hansı qurbanları verməyə hazırsan?*

"Sizə doğrusunu deyirəm: əgər siz yolunuzdan dönüb uşaqlar kimi olmasanız, Səmavi Padşahlığa əsla daxil ola bilməzsiniz."

*Matta 18:3*

# Böyük addım

## NASİST TOPLU DÜŞƏRGƏSİ: MERİ SKOTSOBAUF

**"....yeddi, səkkiz, doqquz – sən! İrəli çıx!" Nasist nəzarətçisi qadına çığırdı. Komendant ötən gecə qurtulan iki qadına görə hər on nəfərdən bir məhbusu cəza kimi edam etməyi əmr etmişdi.**

"Xahiş edirəm, mənə mərhəmət edin! Mənim övladım var." – deyə, onuncu qadın yalvardı.

Meri Skotsobauf sırada ondan sonra dayanmışdı. Meri öz qəlbində eşitdi: *"İrəli çıx və onun yerinə ölməyi arzuladığını de."* O, daxilindəki səsə cavab verdi: "Nə üçün? O, məsihçi deyil. O, yəhudi kommunistdir. Nasistlər devriləndə və kommunistlər hakimiyyətə gələndə, onlar da nasistlər kimi pis olacaqlar."

Meri xatırlayırdı ki, o gün Müqəddəs Cümə günü idi (İsanın çarmıxa çəkildiyi gün idi). Səs dedi: *"Bu gündə Mən yaxşı adamlara görə yox, pislərə görə, günahlı insanlara görə öldüm."*

Sonra Meri irəli addımladı: "Mən ölmək istəyirəm."

Məmur güldü. "Əgər sən onun yerinə ölmək üçün o qədər səfehsənsə, onda yaxşı, irəli gəl. Onun növbəsi tezliklə gələcəkdir."

Meri edam edilməyə və sobalarda yandırılmağa gedərkən, onlara dedi: "Allah Öz xalqını Misirdəki əsarətdən çıxardanda, bizim Müqəddəs Kitabımızda yazılıbdır ki, O, onlardan öncə alov şəklində gedirdi. Mən dua edirəm ki, mənim bədənim yanarkən, o, sizi Allaha aparan yol üçün alov sütunu olsun."

*Bir addım irəliyə tam fərqlilik edə bilər. Məsihçilər öz həyatlarını çox vaxt təhlükəsizlik və qeyri-müəyyənlik arasındakı möhkəm tərzdə tarazlaşdırılmamış çıxıntıda yaşayırlar. Naməlum yerə doğru irəliyə kiçik addım atanlar həmişə Allahın sadiqliyini görüblər. Nuh, Musa, İbrahim, Debora, Rut, Məryəm, Paul. Müqəddəs Kitabdakı bu siyahı məşhur dəhlizlərin tarix sahibkarlarının adını hələ çəkmədən davam edir. Bir iman addımı onların həyatlarını adidən qeyri-adiyə dəyişdi. Bu gün Allah səni irəli iman addımı atmağa çağırırmı? Qulaq as. İrəli addımlamağa hazırlaş. Sənin itaətkar kiçik addımın digərlərinə Allaha gedən yolu göstərə bilər.*

Kişiyə addım atdıran Rəbdir.
Bəs tutduğu yolu insan necə anlasın?

*Sül. Məs. 20:24*

# BÖYÜK SADİQLİK

**Ş¬əhid, Allahın irad əsində öziradəsini itirmiş bir şəxsdir, o, Allahın alətinə çevrilmişdir. Əslində o öz iradəsini itirməyib, əksinə tapıb, çünki o, Allaha itaətkar olaraq azadlıq əldə edib. Şəhid daha özü üçün heç nə istəmir, hətta şəhidlik izzətini belə arzulamır.**

T. S. Elliot – *"Məbəddə qətl" pyesindən* qətlə yetirilibdir.



**84cü gün**

# Böyük məxfilik

## ROMA KATAKOMBALARI

**Erkən məsihçilər iki şeyə görə tanınırdılar: yerin altındakı dua və yerin üstündəki təqiblər. Roma İmperiyasında bütün dünya məsihçilərə qarşı idi. Markus Aurelius Antonius eramızın 162-ci ilində "Özünü məsihçi adlandıranların hamısı ən ağrılı ölümə layiqdirlər!" adlı fərmana imza atdı. Məbəd üçün demək olar ki dörd əsr böyük məxfilik dövrü başladı. Məbəd sözün hərfi mənasında Rumıniya katakombaları yaradaraq yerin altına keçdi.**

Otaqların və dəhlizlərin nəhəng şəbəkələri Romanın altında ölüləri dəfn etmək üçün tikilmişdilər. Amma bu yerlər erkən məbədin gizli toplantılarının yerinə çevrildi. İmanlılar onlara maneçilik olmayan və mühafizəçilər tərəfindən müdafiə edilməyən ibadət və dua yeri tapa bilirdilər.

Katakombalar erkən məsihçilərin Məsihə ibadət etmək üçün yer tapmalarında həsr olunduqlarını göstərirlər. Onların məzarlarındakı sınmış və yanmış sümüklər onların əzab çəkdiyi təqiblərin gərginliklərini göstərir. Ola bilsin, ən əhəmiyyətli olanları divarlarda həkk olunan qələbə və sülhün gizlin qeydləridir. Onlara yerin üstündə göstərilən qəddarlıqlara baxmayaraq, yerin altında onlar divarları öz imanlarının və sülhün simvollarını çarmıx vasitəsi ilə bəzəyirdilər.

Məzarlarda belə cür yazıları görmək heç də qeyri-adi deyildir: "*Sülhdə* və Məsihdə qalib", yaxud "Çağırılmış olaraq o, sülh içində getdi", yaxud "Burada Məryəm yatır, o, *sülh* arzusunda burada yatır." Onların qələbəsinin açarı gizli deyildir: İsa Məsihdə kamil sülh.

*Çox insanlar öz imanlarını həyatları boyu gizli saxlayıblar. Onlar iddia edirlər ki, din şəxsi işdir – o, Allah ilə yalnız onlar arasında olan bir şeydir. Buna baxmayaraq, erkən məbədlərdə bu, belə deyildir. İmanlılar öz imanlarında elə açıq idilər ki, onlar asanlıqla tapılırdılar və təqib edilirdilər. Roma katakombaları gizli ibadət yeri kimi xidmət edirdi; amma yerin üstündə onların sədaqətliliyi gizli deyildir. Buna görə də onlardan çoxu imanlarına görə şəhid olmuşdular. Yerin altındakı müntəzəm və açıq dua onlara yerin üstündə keçirdikləri təqiblərdə* sülh *verirdi. Sənin imanın Məsihçi həyatın boyu "yer altında" olub? İndi gizlində olanın üzə çıxması vaxtıdır. Nəticənin nə olmasından asılı olmayaraq, məsihçiliyi gizli saxlama.*

Elə gizli bir şey yoxdur ki,
aşkara çıxmasın və elə örtülü
bir şey yoxdur ki, aydın
olmasın.

*Mark 4:22*

# Böyük arxayınlıq

**NYU YORK ŞƏHƏRİ**

**"Və mən, əziz qardaşlarım və bacılarım, istəyirəm biləsiniz ki, mənimlə baş verən bütün şeylər Xoş Xəbərin yayılmasına kömək etmişdir.....Və mənim həbs olunmağıma görə, buradakı məsihçilərin çoxu inam əldə ediblər və Məsih barədə digərlərinə deməkdə daha cəsarətli olublar..... Çünki sizə yalnız Məsihə iman etmək deyil, Onun uğrunda əzab çəkmək üstünlüyü də ehsan olundu. (Filip. 1:12, 14, 29)**

Əgər Amerikada olan məsihçilər müjdələməkdə daha çox fəal olsaydılar, Birləşmiş Ştatlar öz sərhədləri daxilində təqiblərin artdığını görərdimi? Metro xidmətləri, Nyu York şəhərinin ən çətin yerlərində işləyən müjdəçi xidmətləri bu effekti öz xidmətlərində görüblər. Onların müjdəçiliyi şəhərdə daha dərindən başa düşülürdüsə, deməli, onlar daha çox qarşıdurma ilə üzləşmişdirlər. Müəyyən işçi üzvləri öz tapşırıqlarını yerinə yetirərkən döyülmüşdülər, bıçaqlanmışdılar və zorlanmışdılar. Qrupun bir üzvü hətta öldürülmüşdü.

Onların direktoru Pastor Bill Uilson bir neçə dəfə bıçaqlanmış və döyülmüşdür. Buna baxmayaraq, bu şər hədələr onu sevdiyi insanlardan heç də uzaqda saxlamamışdır. O, həmçinin, evsiz adamlara xidmət edərkən vərəm xəstəliyinə də yoluxmuşdu.

Nyu Yorkun Broklin şəhərində ən kasıb yerlərdən birində yaşayan on beş yaşlı Debbi ölkə daxilində təqiblə üzləşən bir çox gənc adamlara danışır. O deyir: "Mənim məktəbimdə məsihçi olduğunu demək çox çətindir. Məni davamlı olaraq narahat edirlər və quldur dəstələrindən birinə qoşulmağa təzyiq edirlər."

*Qadağalar qoyulmuş bir çox ölkələrdə, məsihçilər İsaya inandıqlarına görə təqib edilmirlər, amma digərlərinə Onun barəsində dediklərinə görə təqib edilirlər. Bu ölkələrdə müjdəçilik təqib yaradır ki, bu da Məsih üçün daha güclü şahidlər yaradır. Onları məhv etməyi nəzərdə tutan şey, əslində, onları daha çox sarsılmaz edir. Oxşar olaraq da, Amerikadakı və digər açıq ölkələrdəki müjdəçilik də hər zaman təhlükəsiz deyildir. Buna baxmayaraq, bu həqiqət bizim işimiz üçün ruh yüksəkliyimizi söndürməlidir? Əsası dini təməl üzərində qurulmuş Amerika kimi ölkə, əzab çəkməyə və təqib olunmağa tamamilə öyrəşməyibdir. Bizi təhlükəsiz saxlamaq üçün bu prinsipdən qoruyucu vasitə kimi istifadə etməkdənsə, biz ona bizi daha cəsarətli etmək üçün etibar etməliyik. Azad demokratiyada yaşayan bir şəxs kimi, digərləri ilə öz imanını cəsarət və etibar ilə bölüşməkdə sənin daha çox səbəbin var. Bu gün sən danışacaqsan?*

Məsih sayəsində Allah hüzurunda belə etibarımız var.

*2 Kor. 3:4*

# Böyük həsr olunma

**HİNDİSTAN:** QLEDİS STEİNES

**Qledis Steinesin acıqlı və qəzəbli olmağa bütün səbəbləri var idi. Heç kim onu Hindistanı tərk etməkdə təqsirləndirə bilməzdi. Amma Hindistanın Manoharpur şəhərində olan fanatik hindular onun ərini və iki oğlunu öldürəndə, Qledis və onun on üç yaşlı qızı Ester qalmağa qərar verdilər. O, ərazidəki cüzamlılarla işini davam etdirdi.**

Onun əri Qraham və iki balaca oğulları Filip və Timotey məbədin kənarında öz cip maşınlarında yatarkən qətlə yetirilmişdilər. Onlar oraya imanlılara xidmət etmək üçün getmişdilər. Amma o dəhşətli gündə günəş çıxmamışdan əvvəl, təqribən yüz nəfərdən ibarət olan hindu qrupu onların maşınlarına benzin tökdü və onu yandırdılar. Yaylarla və oxlarla silahlanan hindular sonra onların oradan qurtulmalarının qarşısını almaq üçün maşını əhatə etdilər.

Qledis dedi ki, Qraham heç vaxt hindular arasında müjdəçiliyə başlamamışdır. O, sadəcə, Məsihin sevgisini nümayiş etdirmək üçün ora getmişdir. Nəticədə, avstraliyalı cütlük bir çoxlarının məsihçiliyə gəldiklərini və öz bütlərini yandırdıqlarını görmüşdülər. Onların şəhadətinin təhlükələri onları heç vaxt İsa Məsihin sevgisini nümayiş etdirməkdən saxlamamışdır.

Qraham, Filip və Timotey üçün olan yas mərasimində, Qledis və Ester bu mahnını oxudular:

O yaşadığı üçün mən sabah ilə üzləşə
bilərəm,
O yaşadığı üçün mənim bütün qorxularım
yox olubdur,
O gələcəyi əllərində saxladığı üçün
Və O yaşadığı üçün həyatda yaşamağa dəyər.

*"O yaşadığı üçün" Sözləri U. C və Qloriya Qaiter. Musiqisi U. C. Qaiter.*

*Son dərəcə həsr olunma heç vaxt təhlükədən qorxmur. O, narahatlıqlar tərəfindən zəifləmir. O, hətta nəticələrin də qayğısına qalmır. Həsr etmə yalnız bir şey bilir – tapşırıq əlin altındadır. Bir çox insanlar üçün xaricilərə düşmən olaraq öz ailələrini itirmək öz tapşırıqlarından boyun qaçırmaq üçün ağıllı bir bəhanə olardı. Amma bu, son dərəcə həsr edilmişlər üçün belə deyildir. Onların sınaqlar tərəfindən viran olunmalarına baxmayaraq, irəli getmək qətiyyəti geri çəkilməzdir. Bizim, əzablara baxmayaraq tapşırığımızı davam etdirməkdə, lazımi ruhani gücü yalnız Allah verə bilər. Sən Allahın işində işləyib işləməməyini müəyyən etməyə çalışırsan? Səni bundan yayındıran nə isə baş veribdir? Allahdan bu tapşırıqda qalmaq üçün gündəlik bələdçilik istə.*

Ruha görə yaşayanlar isə Ruhla bağlı şeylər barədə düşünür.

*Roma. 8:5*

# Böyük yeniyetmə

**KUBA:** ROZA

**"Mən, hətta *Allahın* adını da çəkə bilmədiyim kommunist ailəsində dünyaya gəlmişəm. Mənim valideynlərim ateistdirlər. Mənim atam Kuba Kommunist Partiyasında rəhbərdir. Anam isə İnqilabı Müdafiə edən Komitənin katibəsi idi. Sən deyə bilərsən ki, mənim evim kommunizm üçün yuvadır. Amma mənim nənəm Allahı sevir və mənə Rəbb haqqında öyrədibdir. O, Allahın Sözünün toxumlarını məndə əkibdir. Bir neçə məqamda mən onunla kilsəyə getməyə çalışmışdım, amma mənim valideynlərim icazə verməmişdilər."**

"Bir gün mən Rəbb İsa Məsihi öz Xilaskarım kimi qəbul etdim. Mənim həyatım dəyişməyə başladı. Hətta mənim geyim tərzim də dəyişdi. Mənim anam bunu qəbul etmirdi. O, əvvəllər məni heç vaxt döymürdü, amma indi isə o, tez-tez döyür. Atam biləndə ki, mən məsihçiyəm, o, mənə dedi ki, ya Allahı seçim, ya da ki, onu. Mən Allahı seçdim, çünki mən başa düşmüşdüm ki, yalnız O, yeganə biridir ki, Onun üçün yaşamağa dəyər.

"Baxmayaraq ki, mənim on dörd yaşım var, mən evimdən çox uzaq yerdə oxumalıyam. Mən ilk dəfə bu yerə gələndə burada yeganə məsihçi idim. Amma mən Allahın Sözünü əkdim və indi biz dörd nəfərik. Biz Allahın Sözünü bölüşmək üçün gizlicə ağacın altında görüşürük. Biz səpməkdə və gözləməkdə davam edirik, inanaraq ki, tezliklə çoxalacaqdır."

*Nənəsinin təsiri olmasaydı, Rozanın uşaqlığı kommunist və ateizm təlimində nəzərdə tutulmuş kimi ola bilərdi. O, müstəsna gəncdir, çünki o, onunla Məsihi bölüşmək riski edən nənəsinin ayaq izləri ilə getdi. İndi Roza öz məktəbindəkilər ilə də Allahın Sözünü bölüşərək və əkərək eyni riski edir. O, fərqlilik etmək üçün hazırda bir imanlı üzərində işləyir. Amma Roza da Fidel Kastronun hakimiyyəti altında yaşayan bir çox Kuba gəncləri kimi aşkar edibdir ki, iman nəticələr ilə gəlir. Amma o inanır ki, çətinliklərə baxmayaraq, onun toxumlarından bəziləri bəhrə verəcəkdir. Kimlərin həyatında sən Allahın Sözünün toxumlarını əkəcəksən və məhsulu gözləyəcəksən?*

Münbit torpağa səpilənsə odur ki,
kəlamı eşidir, anlayır və doğrudan da,
səmərə – bəzisi yüz, bəzisi altmış,
bəzisi otuz qat səmərə verir.

*Matta 13:23*

# Böyük qaliblər

**RUMINİYA:** PASTOR RİÇARD VURMBRAND

**"Mənim arvadım o biri otaqda yatır, çünki o, xəstədir." – deyə, Pastor Riçard Vurmbrand başladı. "Biz hər ikimiz yəhudiyik. Onun ailəsi sizin indicə əllərində hələ də övladları olan yəhudilərin öldürüldüyündən qürrələnən nasist düşərgəsində məhv olub. Ola bilsin ki, sən mənim arvadımın ailəsini qətlə yetirmisən."**

Bunu eşidərək, pastorun qonağı olan əsgər çox qəzəbləndi və getmək üçün qalxdı. Amma Riçard onu saxladı. "Dayan, mən bir təcrübəni təklif etmək istəyirəm. Mən arvadıma sənin kim olduğunu və nə etdiyini demək istəyirəm. Amma mənim arvadım sənə lənət etməyəcəkdir və hətta sənə qəzəblə baxmayacaqdır. O, səni qəbul edəcəkdir."

Kişi ağzıaçıq, amma səssiz əyləşdi.

Pastor davam etdi: "Əgər sadəcə insan olan mənim arvadım səni bağışlaya bilirsə – onda İsa səni nə qədər çox sevəcək və bağışlayacaqdır?"

Kişi sifətini əlləri ilə örtdü. "Mən nə etmişəm? Mən bu qədər qan təqsiri ilə necə yaşamağa davam edə bilərəm? İsa, xahiş edirəm, məni bağışla." Əsgər davam edərək öz həyatını Məsihə verdi.

Sonra Riçard davam etdi və öz arvadı Sabina ilə danışdı: "Bu kişi sənin bacılarının, qardaşlarının və valideynlərinin qatilidir." – deyə, onu təqdim etdi. "Amma indi o, tövbə edibdir." Sabina əllərini onun boynuna salıb qucaqladı və onun yanağından öpdü.

*"Məhəbbət hər şeyə qalib gəlir" məşhur məsəldir. Amma məsihçilər bu məsəlin həqiqətini bilavasitə bilirlər. Biz öz qəzəbimizin mərhəmətində olanda, biz nifrət ilə məhv oluruq. Amma öz həyatlarımızı (sevgi olan) Allaha idarə etməyə izin verəndə, biz qəzəb kimi olan öz təbii emosiyalarımızın ona itaət etdiyini görürük. Biz hətta bizi əvvəllər qıcıqlandıran vəziyyətlər barədə məyus olmadığımızı görürük. Məhəbbət bizim daxilimizdə Məsihin xarakterinə zidd olan hər şeyə qalib gəlməlidir. Son nəticə isə odur ki, biz məhəbbət ilə o qədər alovlanırıq ki, hətta ən pis düşmənimiz belə bu dəyişiklikdən faydalanır. Sən hirs və intiqam hissi üzərində qələbə əldə edirsən? Məhəbbət Allahından bu gün qəzəb üzərində qələbə çalmağı istə.*

İndi isə üç şey qalır: iman, ümid, məhəbbət. Amma bunların arasında məhəbbət üstündür.

*1 Korinf. 13:13*

# Böyük səmimiyyət

**KAMBODCA:** YENİYETMƏ QIZ

**Xmer Ruc kommunist partiyasının əsgərləri öz silahlarını yellədərək və təhqiredici sözlərlə qışqıraraq və qorxudaraq otağa soxuldular. 1975-ci ildə Xmer Ruc kommunist partiyası Kambodca hakimiyyətini ələ keçirəndə, minlərlə məsihçi qətlə yetirildi. Məsihçilər hətta timsahlara da atılırdılar ki, əsgərlər "öz güllələrinə qənaət etsinlər."**

Kiçik toplantının heç bir üzvü tərpənmədi. Məmur pastora tərəf yeridi, onun oxuduğu Müqəddəs Kitabı götürdü və yerə atdı. "Biz sizi buraxacağıq." – o dedi: "amma birinci siz bu yalanlar kitabının üstünə tüpürməlisiniz. İmtina edən hər bir kəs güllələnəcəkdir."

Başqa bir əsgər kişinin qollarından tutdu və onu irəliyə çıxmağa məcbur etdi. "Ata, xahiş edirəm, məni bağışla." – deyə, o, Müqəddəs Kitabın atıldığı yerin yanında diz çökərək dua etdi və onun üstünə yüngülcə tüpürdü.

"Oldu, sən gedə bilərsən." Sonra məmur əlini qadına tuşladı. O da Müqəddəs Kitabın yanında diz çökdü. O, Müqəddəs Kitabı bir az yaş etdi ki, məmuru razı salsın.

Yeniyetmə qız qəflətən ayağa qalxdı və Müqəddəs Kitaba doğru yeridi. Gözü yaşla dolu o, diz çökdü və Müqəddəs Kitabı götürdü və paltarının ətəyi ilə onu silərək təmizlədi. "Onlar Sənin Sözünə nə etdilər?" – o dedi. "Xahiş edirəm, onları bağışla." Əsgər tapançasını onun başının arxasına tərəf endirdi və tətiyi çəkdi.

Əvvəlcə getməyə icazə verilən məsihçilər də güllələndilər. Onların hərəkətləri onları xilas etmək üçün az şey etdi.

*Bir nəcib hərəkətin qərarı imanlı toplantısını daha çox ruhlandıra bilər, nəyinki, saysız xəyanətlər. Bu hekayədəki yeniyetmə Məsihlə birləşməyin nə olduğu barədə vəhyi göstərir. Öz zəif qardaş və bacılarını məzəmmət etmək əvəzinə, o, Müqəddəs Kitaba zərif qayğı göstərərək adicə bir nümunə göstərdi. Təsəvvür et, əgər o məbəddə olan bütün insanlar eyni düşüncə tərzi ilə hərəkət etsəydilər, necə olardı. Məsih üçün necə də güclü şəhadət olardı! Biz nə vaxt birlikdə hərəkət ediriksə, onda biz daha güclü oluruq. Zəriflik və şəfqət güclü nümunə ilə qarışanda, o, zəif olanları da daha böyük həsrolunmaya aparacaqdır. Əgər sən öz həsrolunmalarında mübarizə aparan başqalarına görə məyus olursansa, yadda saxla ki, Allah səni zəif olanlarla birləşməyə və onlara kömək etməyə çağırır.*

Məsihdə bir ruhlandırılma,
məhəbbətdən yaranan bir təsəlli,
Ruha bir şəriklik, bir rəhm və
mərhəmət varsa, həmfikir olub bir-
birinizə eyni məhəbbəti göstərərək
canbir və həmrəy olmağınızla
sevincimi bütövləşdirin.

*Filip. 2:1-2*

# BÖYÜK SADİQLİK

**Məsihçilərin təqibi insan hüquqlarından ibarət deyildir,o kamilləşmə mərhələsidir.**

Stiv Kleari



gün

# Böyük dözüm

**ŞİMALİ KOREYA**

**"Hədiyyə sənin üçündür."**

Bu, nədir? – deyə, müjdəçi Şimali Koreyaya getməyə hazırlaşan dostundan soruşdu.

"Sadəcə, bunu götür. Onu açanda biləcəksən nədir."

Bir biznesmen adı altında müjdəçi Şimali Koreyaya səfər etdi. Onun üçün uzun müddət mürgüləməyi sevən bir kommunist bələdçisi təyin edilmişdi.

Öz imkanını görərək, müjdəçi onun "bələdçisi" yatarkən mehmanxananı sakitcə tərk etdi. O, yaxınlıqdakı kəndə daxil oldu və kiçik qrup imanlılar ilə görüşdü. Onlar gənc müjdəçinin həsr olunmuş bir xidmətçi olduğunu dərk edəndə, dedilər: "Sən bizi vəftiz etməlisən! Biz kiminsə bizi vəftiz etməsini gözləyirdik!"

Müqəddəs Kitaba malik olmağın on beş illik həbsdə yatmaq demək olduğu ölkədə, formal vəftiz olunma hansısa ölüm demək ola bilərdi.

Hər hansı gölsüz, yaxud yaxınlıqdakı çaysız, müjdəçi, sadəcə iman simvolu kimi, hər bir imanlının üzərində bir-bir dua etdi. Amma onu heyrətləndirən şey bu idi ki, onlar qane deyildilər. "Biz qırx il Rəbbin süfrəsini etməyi gözləmişdik."

İmanlılardan biri cəld düyü keksi gətirdi. Müjdəçi fikirləşdi: "Onlar susuz vəftiz olundular, bəlkə onlar Rəbbin süfrəsini içkisiz də keçirə bilərlər." Sonra o, dostunun ona Şimali Koreyaya getməzdən əvvəl verdiyi "hədiyyəni" yadına saldı. O, cəld öz səyahət çantasını götürdü və bağlamanı – şərab butulkasını çıxartdı. Dinməz, hər bir kəndli Allahın münasib vaxtda verdiyi hədiyyəsinə görə həmd edərək açıqca hönkürdülər.

*Müasir mədəniyyətdə əksər insanların həyatı təqvimsiz və saatsız təsəvvür etmədikləri bir vaxtda, Allah Öz vaxtını qoruyur. O, təcililiyin zülmü ilə işləmir. Amma biz Onun vaxtı içində xoşbəxt yaşamaq üçün səbirli olmağı öyrənməliyik. Səbirlilik, bizim sübutu görmədiyimiz halda belə, Allahın fəaliyyətdə olduğuna etibar etməyimizdir. Səbirlilik yubanmış zövqün prinsipidir. Həyatımızda Allahın xeyir-dualarını gözləyəndə, biz onları daha çox dəyərləndiririk. Nəyi gözləyiriksə, onu daha çox dəyərləndiririk. Bunun Rəbbin süfrəsindəki düyü keksi, yaxud həyatımızdakı müəyyən bir ehtiyac olmasından asılı olmayaraq, Allahın vaxtı dəqiqdir. Sənin həyatındakı Allahın vaxtı barədə səni nə narahat edir? Bu, Ona etibar etmək vaxtındır?*

Ey xalq, hər zaman
Ona arxalan.

*Məzmur 62:8*

# Böyük müjdəçilik

**UQANDA:** YEPİSKOP HANNİNQTON

**"İşgəncə verən şəxs üçün yeganə xilas olma şansı məsihçi məhbus vasitəsi ilə ola bilər. Onlar heç vaxt məbədə getmirlər, yaxud Müqəddəs Kitabı oxumurlar. Amma məsihçi məhbus hətta döyüldüyü vaxtda belə onlara sevgi göstərə bilər." Gizli məbəd üzvü buna inanır.**

İşgəncə təhlükəsi altında Məsihə illərlə xidmət edən başqa bir qadın dedi: "Bütün Məbəd tarixi boyu çox məsihçi məhbuslar onlara işgəncə verənləri göylərə aparmışdılar. Roma həbsxanasında Paulun orada həbsdə olduğu müddətdə orada iman edənlərin adları yazılmış bir xatirə lövhəsi var. Əgər Paul onlara onu döymək imkanı verməsəydi, onlar indi cəhənnəmdə olmuş olardılar. O dayandı. "Əgər işgəncə verənlərin nəticəsi xilasdırsa, onda mən əzab çəkməyə eitraz etmirəm."

Yepiskop Hanninqton Məsihin müjdəsini Uqandadakı adamyeyənlərə gətirəndə təhlükənin yüksək olduğunu bilirdi. Yepiskopun gəldiyindən bir neçə həftə sonra, adamyeyənlər onun müjdəsindən imtina etdilər və onu edam etdilər. Hanninqton öləndən əvvəl adamyeyənlər yüksək səslə deyilən bu sözləri eşitdilər: "Düşmənlərinizi sevin, sizinlə pis rəftar edən və sizi təqib edənlər üçün dua edin."

Yepiskopun iki oğlu atalarının ölümündən sonra həmin kəndə xidmət etməyə gəldikləri vaxt onlar da bu sözlərlə başlamışdılar. Onlar atalarını öldürən həmin adamlara müjdələməyi davam etdirməyə qərar vermişdilər.

*Bəziləri fərz edirlər ki, Məsihin ölümü və dirilməsi, öz sevimli müəllimlərinin xatirəsini yaşatmaq arzusunda olanların sadəcə bir yalanı idi. Amma Onun şagirdlərinin və onlardan sonra gələn daha çox nəsillərin əksəriyyətinin şəhid olması bunu necə başa salır? Onların öz həbs olunmaları zamanı və sözsüz ki, ölümlərindən əvvəl öz səfehliklərini etiraf etmələri ağlabatan görünür. Nə üçün onlar güman edilən hiyləni könüllü olaraq bu qədər daşımalı idilər? Əslində, tarix onlara əzab verənlərin son dəqiqələrdə də imana gəlməsi üçün onların səy göstərdiklərini qeyd edir. Onların böyük müjdəçilikləri əminliklərinin sübutu idi: Bu, Allahın həqiqi Xoş Xəbəri idi. Sən Xoş Xəbər barədə nə qədər əminsən? Sən onu ən çətin vəziyyətlərdə belə yaymağa hazırsan?*

Mən Müjdədən utanmıram, çünki o, iman edən hər kəsin – əvvəlcə yəhudinin, sonra da yunanın xilası üçün Allahın qüdrətidir.

*Roma. 1:16*

# Böyük müjdəçilik sahələri

## YAPONİYA: FRANSİS XAVİER

**Gözəl dağlar ilə əhatə olunmuş Yaponiya Məsihin sevgisini və əfvini Yaponiyaya gətirməkdə ən birinci olmalarını təhlükəyə qoyan cəsur məsihçi qardaş və bacıların imanı ilə xeyir-dualanmışdır.**

1549-cu ildə Fransis Xavier Yaponiyaya gedən ilk müjdəçi idi. Onun xidməti altında bir çoxları iman etmişdir və məbəd tez böyüyürdü. Amma Yaponiya məmurları məsihçiləri təhlükə kimi görürdülər və şiddətli təqib başladı. Məsihçilərə qarşı müqavimət elə artmışdı ki, sanki kələ-kötür dağ Yaponiyanın səmasına ucalmışdı və imanlıların üzərinə kölgə salırdı. Unzen kimi şəhərlərdə məsihçilər vulkanlı lavalarda qaynadılırdılar. Digərləri Naqasaki şəhərində taxta çarmıxlar üzərində çarmıxa çəkilirdilər. Yapon əsgərləri 1637-ci ildə bütün tanınmış məsihçiləri, təqribən, otuz min nəfəri bir yerə yığaraq hər birini öldürdülər.

Bundan sonra məbəd canını qurtaran insanları qorumaq ümidi ilə gizli toplaşmağa başladı. Məbəd bir neçə il əziyyət çəkdi. Amma Allahın lütfü ilə kilsə yaşayırdı. Sadiq müjdəçilər gəlməyi dayandırmadılar. Onlar dağ kimi qarşılarında duran təqib haqqında eşitdilər və qalan bir neçə sadiq imanlıya xidmət etmək çağırışına cavab verdilər.

İndi Yaponiyada 1.7 milyon fəal məsihçi var və hər gün məbəddə imanlıların sayı artır. Xavier və müasir müjdəçilər xalqın dəyişməsi üçün dağ boyda qarşıdurmanı aradan qaldıran xardal toxumu boyda olan imanı təmsil edirlər.

*Həyat mücərrəd baxışlar ilə doludur. İmanlılar tez-tez onların inamlarını qəbul etməyən dünyəvi ailə üzvləri tərəfindən dağ boyda müqavimətlər ilə üzləşirlər. Bir çox məsihçilər iş yerlərində ateizmin hündür dağı ilə rastlaşırlar. Öz dövlətlərindən olan hündür təqib zirvələri qadağan olunmuş ölkələrdə imanlıların üzərinə kölgə salır. Buna baxmayaraq, məbədin bu gün üzləşdiyi hər bir müqavimət dağının o biri tərəfində gözəl mənzərə var. Xoş Xəbərə ac olan minlərlə kişilərin, qadınların və uşaqların mənzərəsi. İman digərlərinin xilas olması üçün yolu təmizləyə bilər. Səndən qabaq bir çox məsihçilər həqiqəti nümayiş etdirmək üçün təqib olunmuşdular. Dağları tərpədən iman ilə sən onların işini davam etdirəcəksən? Bu gün sən hansı müqavimət dağına diqqətini yönəldəcəksən?*

Sizə doğrusunu deyirəm: bir xardal toxumu qədər imanınız olarsa və siz bu dağa "buradan oraya köç" desəniz, o köçər.

*Matta 17:20*

# Böyük ərazilər

**RUSİYA:** ZOYA KRAXMALNİKOVA

**Rusiya həbsxanasında həbs olunan kahin Zoyanı satmışdı. O özünün həbsxanadan azad ola bilməsi və öz əzablarından qurtula bilməsi üçün Zoya barədə yalan ittihamlar etmişdi. İstintaq zamanı, Zoya ona qarşı hər hansı bir söz deməkdən imtina etdi. O dedi: "Yəhuda İsanı satanda, o, xain adam idi. Amma İsa onu Getsemani bağında 'dostu' adlandırdı. Biz Məsihin nümunəsindən öyrənməli və bizi satanlara qarşı elə rəftar etməməliyikmi?"**

Zoya Kraxmalnikova Məsihi digərləri ilə bölüşdüyünə görə altı ilini Rusiya həbsxanasında keçirmişdi. Onun oradakı vaxtı ona Allahın Sözü və həyatın sərt həqiqətlərinə onun necə tətbiq edilməsi üçün unikal qavrama verdi.

"Həbsxanada hər kamera qapısında Yəhudanın deşiyi adlanan deşik var. Onun vasitəsilə nəzarətçilər səni hər beş dəqiqədən bir idarə edə bilərlər. Onlar sənə nəzarət edərək və göstəriş verərək sənə diqqətlə baxırlar. Bu, mənə onu başa düşməkdə kömək etdi ki, əgər kommunistlər belə səylə gözlərini məndən çəkmirlərsə, Allah və Onun mələkləri də, hətta onlardan daha çox mənə nəzər salmayacaqdırlarmı?"

Zoya kinin onun qəlbinə dolmasına çox asanlıqda izin verə bilərdi. Amma o, Müqəddəs Yazılardan dərslər götürdü və onları birbaşa öz həyatına tətbiq etdi. Onlar çətin dərslər idi. Amma onlar onun həyatını və onun ətrafında olanların həyatını daha da işıqlı etməyə xidmət etdilər.

*Uzunmüddətli səyahətə qablaşdırmadan getmək çox ağlasığmaz bir fikir kimi gəlir. Kim hazırlaşmadan səyahət edər? Amma məsihçilər hər gün öz uzun və çətin səyahətləri üçün kifayət qədər ruhani hazırlıqsız ruhani səyahət edirlər. Biz Allahın Sözü ilə qəlblərimizdə hazır olmalıyıq ki, onları lazımi yerlərdə tətbiq edə bilək. Bizlərdən çoxları ruhani sınaqlarda uğur qazanmaq üçün mübarizə aparır, çünki biz Allahın prinsiplərini qabaqcadan öyrənməmişik. Ona görə də biz Zoya kimi Allahın Sözünü öz vəziyyətimizə tətbiq edərək qələbə çalmaqdansa, özümüzü məğlub olmuş kimi hiss edirik. Sənin Məsihdə imanın səni ekstremal yerlərə götürə bilər. Sən səyahətə hazırsan? Allahın Sözünün səndə bol olmasından əmin ol – o, sənə gərək olacaqdır.*

Özünü Allaha sınaqdan keçmiş,
həqiqət kəlamını doğruluqla
işlədən alnıaçıq bir işçi kimi
təqdim etməyə çalış.

*2 Timotey 2:15*

# Böyük partizan

**PERU:** XUAN

**Xuana terrorçu fəaliyyətlərinə görə Migel Kastro həbsxanasında on beş il cəza çəkmək hökmü verilmişdi. Xuan terrorçuların necə düşündüklərini anlayırdı. O, "Parıldayan yol" adı ilə tanınmış kommunist qrupunun milisioneri idi. Onun ən böyük tapşırığı başqalarına necə öldürməyi və məhv etməyi öyrətmək idi. O, yüksək rütbəli məmur idi, eləcə də dinamit, silahlar və tam məhv etmə üzrə mütəxəssis idi. Onun işi onu ruhlandırırdı və ona şövq verirdi.**

Xuan, hətta həbsxanada da öz işini davam etdirirdi. O, milis xidmətinə Fernando adlı cavan oğlanı qəbul edəndə gördü ki, bir çox marksist ideyaları ona təsir etmir. Fernando isə öz növbəsində, Xuana ağıllı bir sual verdi: "Dostum, əgər bu gecə ölsən, əbədiyyəti harada keçirəcəksən?"

Xuan başqalarının saysız-hesabsız ölümünü görmüş və ya müşayiət etmişdi, amma öz ölümü barədə heç vaxt düşünməmişdi. Fernandonun sualı onu narahat etməyə başladı. Fernando hər gün ona Məsihin sevgisi və qurbanı barədə danışmaqda davam etdi. Nəhayət, Xuan məsihçi oldu.

Fernando yeni şagirdini ruhlandırdı: "Öz həyatını necə ki inqilaba vermişdin, eləcə, bu gün onu Rəbbin olan Məsihə ver."

Sonralar Xuan həbsxanada pastorluq etdi. Əvvəllər o, milis məktəbinə insanları qəbul edirdi; həbsxanada isə o, bazar günü dərsləri təşkil etdi. Başqalarının əbədi həyatı tapmasına kömək etməklə onun ölüm tapşırığı dəyişildi.

*İnsanların qızğın həvəsləri onlara ruhlanma və şövq verir. Bəzi insanların öz işlərinə görə qızğın həvəsləri var. Başqalarının öz ailələri barədə qızğın həvəsləri var. Amma elələri də vardır ki, Məsihin işinə qarşı birbaşa müqavimət göstərən işlərə qızğın həvəsləri var. Məsihçiləri təqib edənlər laqeydliyə görə ittiham oluna bilməzlər. Onların amansız qətiyyətləri əgər səhv istiqamətə tuşlanmasaydı, demək olar ki, heyranedici olardı. Amma Allah köhnə həyatları yeni həyatlara dəyişmək işi ilə məşğuldur. Xuan əvvəllər marksizmə görə hiss etdiyi həmin qızğın həvəslə insanları Məsihə qəbul etməyə başladı. Allah onun inadlı həvəsini Məsih üçün qızğın həvəsə çevirdi. Sizin ruhani həsr olunmanız üçün rəqabət aparan hər bir şeyi, Allaha dua edin ki, dəyişsin. Ondan xahiş edin ki, Öz padşahlığını inkişaf etdirmək üçün sizə yanar istək versin.*

Amma mənə fayda gətirən nə varsa, Məsih uğrunda ziyan saymışam.

*Filip. 3:7*

# Başqa böyük seçim

**FİLİPPİN:** PETER

**Peter hiss etdi ki, risk etməyə dəyər. O, insanların Məsih barədə eşitməyə ac olduğu ucqar kəndlərdə, Filippində müjdəçi olan öz dayısı Maykl ilə səyahət etməyi sevirdi.**

Kəndlərə olan səyahətlər macəralı idi və bəzən də saatlarla sona qədər qalın meşələrlə səyahət etmək təhlükəli idi. Filippindəki adamlar Kommunist partiyasının qolu olan Yeni Adamların Ordusu ilə uzun illər qorxudulmuşdular. Peter və onun dayısı tez-tez təhlükədən qorunmaq üçün gizlənməli idilər. Peter uşaqları sevirdi və onlar Allahın nə qədər çox sevdiyini nəhayət ki başa düşəndə, uşaqların gözlərinin işıqlandığını görməkdən həzz alırdı.

Pasxa bayramından iki gün əvvəl cümə günü Yeni Adamların Ordusu onun dayısı Mayklın xidmətinə son qoymağı düşünürdü. Beləliklə, onlar Peteri tutdular və hədələdilər ki, dayısı Məsih barədə danışmağı dayandırsın, yoxsa Peteri ölüm gözləyirdi. Peterin valideynləri cavab verdilər: “Biz Maykla öz işini dayandırmağı deyə bilmərik. Amma sizə yalvarırıq, bizim oğlumuzu qaytarın. O, heç bir pis iş görməyibdir.”

Nəhayət ki, əlləri arxasına bağlanmış vəziyyətdə Peter valideynlərinin əsgərə belə dediklərini eşitdi: “Yaşamaq Məsihdir, ölməksə qazanc.” Və həmin o sözlər ilə Peter həmin cümə günü öz Xilaskarı ilə görüşmək üçün göylərdəki evinə getdi. Onun dayısı Maykl hələ də dağ kəndlilərinə Məsihin sevgisinin qüdrəti və öz gənc, sadiq bacısı oğlu Peter barədə danışır.

*Risklər hamısı seçimlərdən ibarətdir. Bəzi adamlar cismani işlərini mərc çəkərək öz talelərini riskə qoymağı seçirlər. Futbol oyununun nəticəsi. Qalibin qaçış meydanında neçə dəfə dövrə vurması. Hansısa oyunçunun bir gündə topu səbətin içinə neçə dəfə atması. Digərləri isə əbədi mənası olmayan narkotik və alkoqol ilə özlərinə xidmət edən işləri seçərək öz həyatlarını təhlükəyə qoyurlar. İsa insanları birlikdə başqa seçim etməyə çağırır. O deyir ki, Onun iradəsini yerinə yetirməklə səmavi mükafatı əldə etmək üçün biz yerdəki təhlükəsizliyimizi təhlükəyə qoymağı seçməliyik. Onun iradəsini yerinə yetirmək qaçış yarışındakı ödənən puldan, yaxud qəbul etdiyin narkotikdən aldığın süni həzdən daha böyükdür. İmanına görə risk etdiyin üçün İsanın mükafatını təcrübədən keçirmisən? Nə üçün, yaxud nə üçün yox?*

Kim Onun iradəsini yerinə yetirmək istəyirsə, təlimimin Allahdan olduğunu, yoxsa Özümdən söylədiyimi biləcək.

*Yəhya 7:17*

# BÖYÜK SADİQLİK

**Biz daha yaxşı məsihçi olmaq üçün dua etmirik, lakin biz Allahın istədiyi cür məsihçilər olmaq üçün dua edirik; Məsihə bənzər məsihçilər. O məsihçilər ki, Allahın izzəti üçün könüllü olaraq çarmıxı daşıyacaqlar.**

Rumıniyadakı gizli məbəddən gizlicə çıxarılmış məktub.



gün 98

# Böyük himn

## ŞİMALİ KOREYA: QOKSAN KƏND SAKİNLƏRİ

**Gənc, qəhvəyi gözlü qız anasına tərəf baxdı. Onun anası nə qərar verəcəkdir?**

Bu səhər erkən gənc qızın anası, onların pastoru və Şimali Koreyanın Qoksan kəndindən iyirmi altı nəfər tutuldu və kommunistlərin çığıran izdihamı qarşısına aparıldılar.

Mühafizəçilərdən biri əmr etdi ki, pastor Kim və digər məsihçilər, "Məsihi inkar etsinlər, yoxsa öləcəklər." Sözlər onu qorxutdu. Onlar ondan Məsihi inkar etməyi necə soruşa bilərdilər? O öz qəlbində bilirdi ki, O, həqiqi idi. Onlar hamısı sakitcə inkar etdilər.

Sonra kommunist mühafizəçilər yetkin məsihçilərə birbaşa qışqırdılar: "Məsihi inkar edin, yoxsa biz sizin uşaqlarınızı asacağıq." Gənc qız öz anasına tərəf baxdı. O, anasının onu sevdiyini bilərək onun əllərindən möhkəm tutdu. Sonra onun anası aşağı əyildi. Əminlik və sülh ilə o pıçıldadı: "Mənim əzizim, bu gün mən səni cənnətdə görəcəyəm."

Uşaqların hamısı asıldılar.

Qalan məsihçilər sonra səkiyə aparıldılar və böyük buxar vərdənəsinin qarşısında uzanmağa məcbur edildilər. Kommunistlər onlara sonuncu şansı verdilər. "İsanı inkar edin, yoxsa məhv olacaqsınız." Məsihçilər artıq öz övladlarını vermişdilər; geriyə yol yox idi.

Sürücü ağır cihazı işə salanda, kəndlilər həzin nəğmələr oxumağa başladılar. "Məsihə daha çox sevgi, Sənə daha çox sevgi."

*Daha çox. Allah Öz Oğlunu yerə göndərəndə O, bunu etdi. Daha çox. İsa çarmıxa çəkiləndə O, bunu etdi. Daha çox. Məsihçilər Məsih üçün sevgini verəndə bunu edirlər. Onlar çox verən üçün daha çox vermək istəyirlər. Yalnız əldə etdiyimizi verməyi dəyərləndirən dünyəvi zəmanədə imanlılar yeni standart qoyurlar. "Ona daha çox sevgi" adi bir himn deyildir. O, hüdudsuz həyat tərzidir. Hər bir gün İsa Məsihə daha çox sevgini necə verməyi kəşf etmək yoludur. Bəzi imanlılar üçün bu yol onların ölümünə aparıbdır. Başqaları üçün "Ona daha çox sevgi" maddi qurban olubdur. Sənin üçün "Ona daha çox sevgi" sənin gündəlik həyatında nə məna kəsb edir?*

Çünki Allah dünyanı elə sevdi ki, vahid Oğlunu verdi; bunu ona görə etdi ki, Ona iman edən hər kəs həlak olmasın, amma əbədi həyata malik olsun.

*Yəhya 3:16*

# Böyük film

**PAKİSTAN**

**İndi hər kəs kinonu görmək istəyirdi. Onlar bu barədə bazarda və hətta məsciddə də pıçıldaşırdılar. "O nə haqqındadır?" O, elə pis bir şeydir ki, insanlar onu əldə etdiklərinə görə həbs olunmalıdırlar?"**

Haqqında danışılan film *"İSA"* filmi idi – İsa Məsihin həyatını, xidmətini, ölümünü və dirilməsini təsvir edən yüksək keyfiyyətli film. Film İsanın hekayəsini canlandıraraq böyük ekranda xilas planını göstərir. Pakistanın Cakobabad şəhərində iki nəfər filmi və məsihçi materiallarını yaydıqlarına görə həbs olunmuşdu. Hər iki kişi döyülmüşdü və yerli mollalar, müsəlman dini rəhbərlər təkid etmişdilər ki, onlara və materialları paylamaqda cəlb olunan digərlərinə qarşı olan ittihamlar qeydə alınsın. Bütün məsihçilərə qarşı hərəkət etmək üçün onlar şəhərdəki müsəlmanları dəstəkləyərək bir addım irəli getdilər. Tezliklə yerli pastorun əmlakları qarət edildi və məsihçi məktəbi yaxınlığında atəşlər açıldı. Şəhərdə zorakılıq sanki son həddə idi.

Buna baxmayaraq, vəziyyət tezliklə dəyişməyə başladı. Kinoya baxmağı qadağan etmək əvəzinə, şəhərdə hər kəs "günahlı" filmi görmək istədi. Onlar bilmək istəyirdilər ki, bu filmi nəyə görə bəyənmirlər. Filmin qanunsuz surətləri çıxarılmağa başladı və nəhayət, *"İSA"* filmi, hətta yerli televiziyada da göstərildi. Şəhər hakimi kinoya baxdı və onun anti-islam olduğunu elan etdi.

*Mollaların əvvəlcədən düşünmədikləri səyləri vasitəsilə xoş xəbər bütün əhaliyə çatdırıldı. Onlar "İSA" filmini öz ölkələrindən yox etməyi nəzərdə tutmuşdular. Amma əksinə onların hərəkətləri xidmətin inkişaf etməsinə səbəb oldu. Allah şəri adi üsullar ilə xeyirə çevirmir. O Öz xidmətçilərinin səylərinə xeyir-dua verir, amma bizim gözlədiyimiz yollarla yox. Qadağan olunmuş ölkələrdə məsihçilər bunu çətinliklərdən keçərək öyrənirlər, amma onlar Allahın sirlərinin öz ölkələrində fəaliyyətdə olduğunu görəndə sevinirlər. Allah, hətta bizim anlamadığımız vəziyyətlərdə belə yol açır. Belə vaxtlarda elə görünə bilər ki, hər şey səhv istiqamətdə hərəkət edir. O vaxtlar sənin Allaha daha çox etibar etdiyin vaxtlardır? O, hətta sənin nə etməli olduğunu bilmədiyin halda belə, O, nə etdiyini bilir.*

"Çünki Mənim fikirlərim sizin fikirləriniz deyil, sizin yollarınız Mənim yollarım deyil" Rəbb belə bəyan edir.

*Yeşaya 55:8*

# Böyük əfv

**PERU:** RİKARDO

**Kağız çirkli idi, ucları cırılmışdır. Qara mürəkkəb vərəqdə yazını demək olar ki, oxunulmaz bir tərzdə yazmağa başladı. Ən aşağıda məktuba imza yazıldı – Rikardo.**

"Mən Perudakı kommunist partizan düşərgəsindən yazıram. Bu yaxınlarda mən özümü ruhlandırmaq üçün bir neçə radio proqramı axtardım. Mənim yoldaşlarımın nifrət dolu proqramları mənə mənasız gəlirdi. Sonra mən sizin proqramla tanış oldum: 'Marksist Dilində Müjdə'. Siz dediniz ki, dahi müəllim olan İsa düşmənini bağışlamaq barədə danışmışdır."

"Ayə mənim daxilimin dərinliklərinə işlədi. Birdən mən sülh hiss etdim və uşaq kimi hönkürməyə başladım. Mən başa düşmürdüm ki, nə baş verir.

Mənim valideynlərim mülkədarın istismarının qurbanları olmuşdular və mən ömrüm boyu zənginlərə nifrət edirdim. Amma hansısa səbəbə görə daha nifrət etmirəm. Mən bunu başa sala bilmirəm. Mənim üçün nifrət etməmək *mümkündür*?

İlk dəfə idi ki, sizin proqrama qulaq asırdım. Mən necə də xoşbəxt oldum. İndi mən bir proqram belə ötürməyəcəyəm. Mən sizin danışdığınız kitabı oxumaq istəyirəm."

Sonra Rikardo məbədə getmək üçün partizanları tərk etdi. İki ildən sonra o öz keçmiş yoldaşlarına Xilaskar barədə danışmaq ümidi ilə düşərgəyə qayıtdı. O vaxtdan bəri onun barədə heç bir şey eşidilməyibdir. Əgər o ölübdürsə, o, bunu onu öldürənlərə sevgi ilə etmişdir.

*İnsan təbiətinin ən zəhərli emosiyası nifrətdir. O, öz qabını yeyən turşu ilə müqayisə edilmişdir. Nifrət edənlər tezliklə öz kinləri vasitəsilə məhv olduqlarını görürlər. Buna baxmayaraq, imanlının ruhani təbiəti vardır ki, öz təbii meyilləri üzərində qələbə çala bilər. İsa insanlara düşmənlərini necə sevməyi öyrədir və nəticə etibarı ilə onlar dəyişirlər. Dəyişilmə elə tez baş verə bilər ki, yeni iman etmiş insan illərlə yığılmış nifrətin haraya getdiyini belə bilmir! Sən öz canını nifrət ilə zəhərləyirsən? Qisas fikirləri səni gecələr oyaq saxlayır? Nifrətdən şəfa almaq üçün İsaya dön. Səni incidənləri bağışla, bu gün və sabah üçün ümid tap.*

Kim "mən Allahı sevirəm" deyir, amma öz qardaşına nifrət edirsə, yalançıdır. Axı gördüyü qardaşını sevməyən görmədiyi Allahı sevə bilməz.

*1 Yəhya 4:20*

# Böyük cavahirat

## RUMINİYA: DOBROQEYA KƏNDLİLƏRİ

**Nikolay Çauşeskinin "kollektivləşdirmə" adlı gözlənilməz bir fikri var idi. Rumıniyanın kinli diktatoru kimi o, yəqin ki, fikirləşirdi ki, insanların bütün mülklərinin dövlətə təslim edilməsi hamının yaxşılığı üçün olan yaxşı bir ideya idi.**

Fermerlər, torpaq sahibləri və kəndlilər hər şeyi itirdilər: tarlaları, qoyunları, mal-qaranı, evləri və mebelləri. Rumıniyanın nə vaxtsa inkişaf edən kənd təsərrüfatı məhv olmuşdur. İndi hər bir fəhlə dövlətin tarlasında acınacaqlı maaş üçün dövlətin quluna çevrilmişdir. Yalnız çörək əldə etmək üçün ailələr növbəyə düzülürdülər.

İnsanları onun strategiyasına qarşı çıxmaqdan saxlamaq üçün, diktatorun özü ilk başlanğıcda kömək etdi. Rumıniyanın Dobroqeya vilayətində bütün kəndlilər şəhərin mərkəzində birlikdə toplaşdılar və könüllü olaraq onların mülklərindən imtina etmələrini xahiş etdilər. Heç kim könüllü hərəkət etməyəndə, Çauşeski öz tapançası ilə on nəfəri güllələdi. Yenə səsvermə keçirildi: "Kim öz mülkündən könüllü olaraq imtina etmək istəyir?"

Onlar hərbi mahnı çaldılar və kommunizmi tərifləyən şüarları oxudular. İnsanlar rəqs etməyə məcbur olunduqca, onların sosializmi sevinclə qəbul etməsini təbliğ edən video düzəldildi. Hər şeyini itirmiş bir fermer sonradan məlumat verdi: "Onlar fikirləşdilər ki, hər şeyi götürdülər. Amma bir mühüm şeyi – bizim himnlərimizi qoydular. Beləliklə, biz oturduq və Rəbbə həmdlər oxuduq."

*İnsanlar, adətən, yeni insanları danışdırmaq və bir-birlərini tanımaq üçün oyunlar oynayırlar. Ən aşkaredici suallardan biri: "Əgər onlar səhralıqda olsaydılar, özləri ilə nə götürərdilər" – sualıdır. İnsanların əksəriyyəti qərar verməkdə çətinlik çəkirlər və onlara xatırlatmaq lazımdır ki, bu, sadəcə, bir oyundur. Amma Rumıniya xalqının oyun oynamaq üçün cah-cəlalları yox idi; onlar həqiqi həyatı təcrübədən keçirirdilər. Onların dövləti onlara hətta bir əmlaka belə icazə vermirdi. Amma kəndlilər dərk etdilər ki, fikir vermədikləri o himnlər kəndə sevinc gətirdi, bu himnlər indi onların tərk edilmiş adasına bənzəyirdi. İnsanlar himnləri yüksək qiymətləndirirdilər və Allah da insanları yüksək qiymətləndirdi.*

Çünki siz Allahınız Rəbbin müqəddəs xalqısınız. O, sizi yer üzündəki bütün xalqlar içərisindən Özünə məxsus xalq olaraq seçdi.

*Qan. Tək. 7:6*

# Böyük ianə

**LİVAN:** MƏRYƏM

**Müsəlman fanatlar qəflətən Livanın kəndinə hücum edəndə Məryəmin yalnız on yeddi yaşı var idi. Məryəm və onun valideynləri çox ağır seçim ilə üzləşdilər: "Müsəlman ol, yoxsa güllələnəcəksən."**

Məryəm cəsarətlə kişiyə dedi: "Mən Allahı seçirəm. Güllələ." Məryəm və onun ailəsi güllələnib öldürüldülər. İki gündən sonra Qırmızı Xaç kəndə çatdı və möcüzə ilə qarşılaşdılar. Məryəm sağ idi – güllə yarasından iflic olmuşdu.

Viran edilmiş və dərdli. Məryəm öz imanından yapışmışdı və dua edirdi. Nəhayət ki, qəribə bir sülh onun üzərinə gəldi. O, Allaha bu əhdi etdi: "Hamının görüləsi işi var. Mən heç vaxt ərə gedə bilmərəm, nə də ki, fiziki iş görə bilərəm. Ona görə də mən öz həyatımı mənim atamı, anamı və məni də öldürməyə çalışanlara, müsəlmanlara verəcəyəm. Mənim həyatım onlar üçün dua olacaqdır."

Onun duaları və Məsih üçün inkar edilməz şəhadətliyi bir çox müsəlmanları Allahın Oğluna imana gətirdi. 1990-cı ildə Livanda vətəndaş müharibəsinin amansız ili idi. Minlərlə insan qətlə yetirildi və yaralandı və yüzlərlə insan qaçdı. Amma Məryəmin yaralanmış həyatının qurbanı bir çox məsihçiləri qalmağa və Məsihə görə dayanmağa ruhlandırdı.

*Allaha xidmət etmək üçün bizim verdiyimiz hədiyyə ölçüyəgəlməzdir. Bütün həyatımızı Allaha qurbanlar kimi nəzərdən keçirdikdə, Onun səltənətinə fayda vermək üçün bizim mənbələrimiz məhdudiyyətsizdirlər. Məryəm kimi təqib olunanların çoxlarının hekayələri eynidir. Onlar ibadət olaraq öz həyatlarını qurban verirlər və bunu etməkdə davam edirlər. Lisieuksalı Tereza bir dəfə demişdir: "Başqaları üçün sevinclə daşınan əzablar, insanları vəzlərdən daha çox imana gətirir." Məhisçilərin əksəriyyəti Allaha xidmət etmək üçün adi bəhanələri asanlıqla tapacaqlar: "çox məşğulam" və "çoxlu işim var". Amma Allah Onun şahidi olmaq üçün unikal yollar göstərə bilər.*

Lakin sizin imanınızın qurban və xidməti üzərinə içmə təqdimi kimi töküləcəyəmsə də, sevinirəm və hamınızın sevincinə şərikəm.

*Filip. 2:17*

# Böyük qəm

**RUMINİYA:** ARXMANDRİT QİUŞ

**Cilavanın kommunist həbsxanası xüsusilə sərt idi. Sınıq pəncərələr sərt küləyi içəri buraxırdı. Məhbuslardan bəziləri ölüncəyə qədər donmuşdular. Cilavada məsihçilərə heç kimin yazığı gəlmirdi. Əslində, onlar tez-tez qəddar nəzarətçilər tərəfindən "xüsusi" döyülmələrə tab gətirirdilər.**

Yeni məhbuslardan biri olan Arxmandrit Quiş Rumınıyanın Liberti şəhərində pastor idi. Arxmandrit öz yeni "evinə" həyəcanla baxdıqca, tanış bir sifət gördü – Libertidə onunla xidmət edən bir kişi. Bu, pastor Riçard Vurmbrand idi. "Necə ola bilər, o, hələ də sağdır?" – Arxmandrit fikirləşdi. "Səkkiz ilə yaxındır ki, heç kim onun haqqında bir şey eşitməmişdir." İki sadiq pastor qucaqlaşdılar. Arxmandrit gülümsədi, tab gətirəcəyi dəhşətli əzablarda ona kömək edəcəyi köhnə dostuna görə minnətdar idi.

Amma pastor Vurmbrand gülümsəmədi. O, belə yaxşı pastoru həbsdə görməyə kədərləndi. O, onun barəsində narahat olmağa başladı. O, soyuğa və qəddar rəftarlara tab gətirəcəkmi? O da digərləri kimi ağlını itirəcəkmi? Səkkiz il həbsdə olandan sonra Vurmbrand nəyin baş verəcəyini bilirdi.

İki dost sakitcə oturdular. Nəhayət, Riçard gərginliyi dağıtdı və mülayimcəsinə soruşdu: "Sən qəmginsən?" Onu heyrətləndirərək Arxmandrit sadəcə cavab verdi: "Qardaş, mən yalnız bir qəm bilirəm: bu, İsaya tamlıqla verilməməkdir."

*Məsihçi şəhidlərin həqiqi hekayələrini emosional olaraq tükənmiş hiss etmədən oxumaq çətindir. Belə dəhşətli ölümlə ölənlər günahsızlara olan qəmginlik və təəssüf hissi təbii reaksiyalarından biridir. Amma hekayələrin qəhrəman kişi və qadınları birlikdə başqa cür hay vermənin olmasını arzulayardılar. Onlar ümid edirdilər ki, onların qurbanları digərlərini də buna bənzər əhdə doğru ruhlandıracaqdır. Sözsüz ki, onların ölümü bizim qəlblərimizə toxunur. Amma öz kiçik imanımız bizim qəlblərimizi iki yerə bölməlidir. Bu, həqiqətən, kədərlidir. Sən öz təkəbbürünə görə cismani rəğbətdən uzaqda tövbəyə doğru rəğbətə çağırılırsanmı? Oxuduğunun nəticəsi olaraq səndə ilahi qətiyyətlilik hissi var? Allahdan Onun üçün yaşamağa görə qərarı hərəkətə gətirməyi dilə.*

Amma indi kədərinizə görə yox, bu kədər hissinin sizin tövbə etmənizə səbəb olduğu üçün sevinirəm. Allah istəyən tərzdə kədərləndiniz, buna görə də bizdən heç bir şeydə ziyan görmədiniz.

*2 Kor. 7:9*

# BÖYÜK SADİQLİK

**İman hərəkətə püskürməyincəyə qədər,**
**hətta ada belə layiq deyildir.**

Katerin Marşal



105 gün

# Böyük bağışlama

**RUMINİYA:** DEMETER

**Demeter uzun illər kommunizm həbsxanasında əzab çəkmişdir. O, həbsxanaya salındığı müddətdə ruhda güclü qalmışdır, amma onun bədəni dağılmağa başlayırdı. Orada xüsusi həbsxana nəzarətçisi var idi, o özünü Demeterin onurğa sütununa çəkic ilə vurmaqla əyləndirirdi ki, bu da Demeteri həmişəlik iflic etmişdi. Amma Demeterin Məsihə bənzər davranışı heç vaxt dəyişmədi və o, nəhayət, həbsdən azad edildi.**

İyirmi ildən sonra o, evinin giriş qapısının döyüldüyünü eşitdi. Onun onurğa sütununa qəddarcasına vuran və onu uzun illər iflic etmiş həbsxana nəzarətçisini qarşısında görəndə o, heyrətə gəldi. Yenə də Demeter öz imanını ifadə etməkdə dəyişmədi.

Demeter salam verməzdən əvvəl, keçmiş nəzarətçi dedi: "Mən dərk edirəm ki, sənə etdiklərimə görə heç vaxt bağışlana bilmərəm. Bunlar çox iyrənc idi. Amma xahiş edirəm, sadəcə olaraq, mənim üzr sözlərimə qulaq as və sonra mən gedəcəyəm."

Demeter o adama şəfqət və təəccüblə gözlərini dikdikcə bir anlıq dayandı. O, mülayimcəsinə cavab verdi: "İyirmi il mən hər gün sənin üçün dua etmişdim. Mən səni gözləyirdim. İyirmi il əvvəl mən səni artıq bağışlamışdım." Əgər biz hamıya sevgi və bağışlanmanı könüllü olaraq göstərsək – hətta bizi incidənlərə belə – onda Məsihin sevgisi hər şeyə qalib gələr.

*İnsanların əksəriyyəti heç vaxt düşünülmüş fiziki əzab çəkməyəcəklər. Amma başqalarının bizə vurduğu emosional yaralar da onun kimi viranedici ola bilər. Xoş olmayan sözlərin, dostun səni satmasının, acı boşanmanın xatirələri bizimlə həyat boyu qala bilər. Biz kin saxlamağa sövq olunuruq, hətta, ola bilsin, incidən insana qarşı dəqiq qisas almaq istəyirik. Bağışlanma bizə təbii olaraq gəlmir, lakin o, Allahın təbiətinin ayrılmaz bir hissəsidir. Əgər biz Allahın lütfünü dadmışıqsa, onda biz başqalarına da Allahın bağışlanmasını bölüşməkdə izin verə bilərik. Bağışlanma digərinin bunu səndən istəməsindən asılı deyildir. Bu, itaətkarlıq və həmçinin, iman addımıdır. Allahdan həqiqi bağışlanma möcüzəsinin baş verməsi üçün qəlbini açmağını dilə.*

Bir-birinizə dözün və birinizin digərindən şikayəti varsa, bağışlayın. Rəbb sizi bağışladığı kimi, siz də bağışlayın.

*Kolos. 3:13*

# Böyük görüş

**ŞƏRQİ AVROPA:** CON LUQAYANU

**Şərqi Avropada olan gənc məsihçi Con Luqayanunun məhkəməsi dinləniləndən sonra o, həbsə qayıtdı. Onun kamera dostları həyəcanla soruşdular: "Nə oldu?"**

O cavab verdi: "O mələyin İsanın anası Məryəmə baş çəkdiyi gün kimi oldu. Burada o əyləşərək fikirləşdiyi vaxtda Allahın nurlu mələyinin ecazkar xəbər verdiyi gənc ruhani qız idi. O, Allahın Oğlunu öz bətnində daşımalı idi."

Bu hekayənin Conun məhkəmə otağındakı təcrübəsi ilə necə əlaqələndiyini bilmək istəyən digər məhbuslar diqqətlə qulaq asırdılar.

Con Məryəmin hekayəsi vasitəsilə Allahın sülh müjdəsini bölüşməyi davam etdirdi. "İsanın ona verdiyi bütün sevincdən, Məryəm bir gün çarmıxın önündə dayanmalı və onun əzab çəkməsini və dünyanın günahına görə ölməsini seyr etməli idi. Allah İsanı diriltdi və indi O, göylərdədir. Məryəm bilirdi ki, bir gün o, göylərdə olanda yenidən İsa ilə birgə olacaqdır və əbədi sevinci əldə edəcəkdir."

Digər məhbuslar bunu eşidərək çaşdılar. "Amma biz səndən məhkəmədə nə baş verdiyini soruşduq?" – deyə, onlar Cona xatırlatdılar.

Con onlara baxdı, onun üzü sülh ilə işıldayırdı və o dedi: "Mənə ölüm hökmü verilibdir. Bu, gözəl xəbər deyilmi?" Con başa düşdü ki, mələklərin Məryəmə gətirdikləri xəbər acı şirin idi – İsa əzab çəkəndən sonra göylərdə sevinc olacaqdır. O, İsanın hüzurunda öz əbədi sevincini səbirsizliklə gözləyirdi.

*Bir çox mədəniyyətlərdə, ölüm qadağan olunmuş mövzudur. İnsanlar tez-tez öz ölümlərinin qaçılmazlığından özlərini hər şeydən uzaqlaşdırırlar. Onlar "öldü" əvəzinə "rəhmətə getdi" kimi ifadələrdən istifadə etməyi daha çox xoşlayırlar. Biz vəsiyyətnamə yazmağı və ya həyat sığortasını düzəltməyə müqavimət edirik, fikirləşərək ki: "Bu, heç vaxt mənimlə baş verməyəcəkdir." Şirkətlər bizə əbədi gənc qalmanı vəd edən məhsullarını satmaqla nəhəng mənfəət əldə edirlər. Allah bizə ölümə məhəl qoymamaq seçimi vermir, lakin onunla üzləşmək üçün bizə açar verir. Məryəmin mələk qonağı çarmıxın önündə onun böyük əzab çəkəcəyini deməkdən boyun qaçırmadı. Buna baxmayaraq, onun kədərinin daşına bilinməsi üçün ona həm də dirilmə ümidi verilmişdir. Məsihçilər olaraq, Allahın əbədi həyat vədi bizim öz ölümümüzü həm gerçək olaraq, həm də cəsarətlə qəbul etməyə kömək edir.*

Çəkdiyi ölüm əzabına görə
Onun başına izzət və əzəmət
tacı qoyuldu.

*İbr. 2:9*

# Böyük müdafiə

**RUSİYA:** CORC JELTONOŞKO

**Corc Jeltonoşko bilirdi ki, onun yaşadığı dövlət insanların Məsihin müjdəsini yaydıqlarını istəmirdi, amma onda Məsihin əmrini yerinə yetirməkdə güclü iman var idi – hətta bu, onun dövlətinin qanunlarına zidd getsə də.**

Polisin onun qapısına gəlməsi onun üçün böyük bir sürpriz deyildi. O başa düşdü ki, onun payladığı ədəbiyyatlara görə onun xidməti haqqında məlumat tapmaq qaçılmaz idi. Onun məhkəmə günü gələndə, ona dövlət tərəfindən təyin edilmiş kommunist vəkil verildi. Corc cəsarətlə hakimə dedi: "Mən vəkil istəmirəm. Mən doğru olduğumu hiss edirəm və mənim salehliyimə müdafiə lazım deyildir."

Hakim ondan soruşdu: "Sən özünü təqsirkar sayırsan?"

O cavab verdi: "Xeyr. Allahın sevgisinin xoş xəbərini yaymaq bütün məsihçilərin borcudur."

Onda hakim onu daha çox dövlətin idarə etdiyi kuklalara bənzəyən "qeydiyyatdan keçmiş kilsələrin" cərgəsinə qoşulmağa dəvət etdi. Dövlət kilsəsi Allahın əmrlərinin ardınca deyil, dövlətin əmrlərinin ardınca gedirdi.

Hakimin qanı qaralmağa başlayırdı. "Siz ibadət etmək üçün harada toplaşırsınız?" – deyə, o tələb etdi.

Corc cavab verdi: "Həqiqi imanlılar hər yerdə ibadət edirlər."

Ona üç illik həbs cəzası verildi, orada Corc Jeltonoşko öz işini və ibadətini davam etdirirdi. O, doğru idi. Salehliyə müdafiə lazım deyildir.

*"Doğru işi" görmək, ola bilsin, məşhur şüardır. Onu demək daha asandır, nəinki etmək, buna baxmayaraq, Allahın gözündə doğru olan tez-tez insanların fikirləri ilə toqquşur. Səhv və doğru arasındakı mübahisə tez-tez sinif otağında, iş yerində və hətta məhkəmə zalında, yaxud məbəddə baş verir. Biz nəyin doğru olduğunu bizə deməyi öz ətraf çevrəmizə etibar edə bilmərik. İnsanlar salehlik ilə güzəşti qarışdırmaq üçün bizi inandıra bilərlər. Allahın Sözü hər bir vəziyyətdə nəyin düz olduğunu müəyyən etmək üçün tək müdafiədir. Digərləri, ola bilsin ki, başa düşməsin, yaxud bizim etdiyimiz seçimlər ilə razılaşmasınlar. Amma Allah bizim nəyin doğru olduğunu etməyimizə bağlı qaldığımızı mükafatlandıracağını vəd edir. Bizi müşahidə edənlər işığı görəcəklər və bizim saleh işlərimizin istiliyini hiss edəcəklər.*

Yolunu Rəbbə ver, Ona güvən, O edəcək. Rəbb sənin salehliyini nur kimi aydınlaşdıracaq, Həqiqətini gündüz günəşi tək çıxaracaq.

*Məzmur 37:5-6*

# Böyük alov

**SİBİR:** VİKTOR BELIX

**"İsanın mənim qəlbimdə yandırdığı sevgi alovları ilə mən Sibirin buzunu əritdim. Halleluya!"**

Yepiskop Viktor Belıxın üzü bu sözləri danışdıqca nur saçırdı. O, ən pis vəziyyətdə belə Allaha öz qəlbini verməyin qüdrətli sirrini öyrənmişdi. İyirmi il o, kommunist Rusiyasında təkadamlıq həbs kamerasında baş çəkilmədən, öz ailəsindən, dostlarından heç bir məlumat almadan əzab çəkmişdi.

Hər axşam onun kiçik kamerasına sadə saman çöpündən döşək qoyulardı və səhər döşək oradan götürülərdi. Ona cəmi yeddi saat yatmağa icazə verirdilər. Günün qalan on yeddi saatını isə o, kiçik və acınacaqlı vəziyyətdə olan otağında gəzməli idi və əgər dayansaydı, yaxud dözməsəydi, nəzarətçilər onu döyərdilər və o, davam edənə qədər onun üstünə su tökərdilər. Belə dəhşətli sınaqdan iyirmi il sonra onu buzların heç vaxt əriмədiyi Şimali Sibirə məcburi əmək düşərgəsinə dörd illik göndərdilər. O orada yalnız ona görə sağ qaldı ki, Allahın alovunun bütün ağrı-acını və qəzəbi əritməsinə izacə vermişdi.

Belıxın vəziyyəti nadirdir, amma İsa Məsih vasitəsi ilə onun qərarı əzab çəkən hər bir kəs üçün mümkündür. İsa Belıxın qəlbində məhəbbət alovunu – onu iyirmi il isti saxlamağa qadir olan ilahi bir alovu yandırmışdır.

*Alov. Sadəcə sözün özü güclü təsəvvürləri alovlandırır. O, izdihamlı binalardan qışqırılanda təhlükəni nəzərində tutur. O, şaxtalı gecədə çadırda istirahət edərkən rahatlıq verir. O, "isti" anlar və ya "coşqun" əhval-ruhiyyə zamanı güclü emosiyalar ilə əlaqəlidir. Alov həmçinin, ərimə prosesi vasitəsi ilə metalların təmizlənməsi və möhkəmləndirilməsi üçün də istifadə edilir. Alov həmçinin, qaranlığı işıqlandırır və yox edir. Bütün bu təsvirlərdə bir şey daimi qalır. Alov dəyişmək ilə əlaqələnir. Alov ilə qarşılaşma zamanı olduğu kimi, Allah ilə qarşılaşma da həyat dəyişdiricidir. Məsihin alovlu sevgisi Belıxı yandırdığı, təmizlədiyi, təsəlli verdiyi və ən başlıcası – azad etdiyi kimi, səni də elə edibdirmi? İnsan qəddarlığı heç vaxt Allahın sevgisini söndürə bilməz. Allahın sevgisinin alovu səndə yaşayırmı?*

Çünki Allahımız yandırıb-yaxan alovdur.

*İbr. 12:29*

BÖYÜK SADİQLİK

# Böyük nüfuz

**YERUSƏLİM:** YAQUB

**Yaqub "Saleh" sadiq olaraq İsanın dirilməsindən sonra yeni yaranmış kilsənin başçısı kimi xidmət edirdi. Heç bir imansız onun təlimlərinə ya iman etmədən, ya da onun hüzurundan qaçıb getmədən davam gətirə bilmirdi.**

Bu səbəbə görə, baş kahin və digər yəhudi rəhbərləri Yaqubu məbədin ən yüksək yerində qoydular və ona bütün insanlar yığışmazdan, yaxud yerə atılmazdan əvvəl İsanı və Onun dirilməsini inkar etməyi dedilər. Bu, Yaquba əsir olan auditoriyaya təbliğ etmək üçün yalnız daha bir fürsət verdi.

"Ey bütün insanlar, qulaq asın! İsa vəd olunmuş Məsihdir, Allahın Oğlu və bizim Xilaskarımızdır! O, Allahın sağ tərəfində oturubdur, ölüləri və diriləri mühakimə etmək üçün yenidən gələcəkdir!"

Aşağıda bəziləri Allahı alqışlamağa və İsanın adını ucaltmağa başladılar; digərləri onun cəsurluğuna və imanına heyrətlənirdi. O, doğrudan da, saleh adam idi! Dərhal onu kimsə dayandığı yüksək yerin kənarından yerə itələdi ki, ölsün.

İzdiham tələsdi; sonra kimsə qışqırdı: "Baxın! O sağdır!" Yaqub ölməmişdir, amma dizləri üstə duada idi. Çoxları onu daşlamaq üçün daşlar yığanda bir kahin irəli qaçdı və: "Siz nə edirsiniz?" – deyə, yalvardı. "Bu Saleh adam bizim üçün dua edir və siz ona zərər gətirəcəksiniz?" O, bunu deyərkən, onun arxasından böyük bir çubuq ilə başqa bir adam gəldi və Yaqubu başından vuraraq onu dərhal öldürdü. O, yıxıldığı yerdə basdırıldı.

*Tarixdə oxunan hər bir hadisənin arxasında bir hekayə vardır. Xırdalıqlar, incə fərqlər və vəziyyəti hiss etmək, ola bilsin ki, itirilibdir, amma tarixdə yazılan faktları oxuyaraq onları təsəvvür etmək asandır. Yaqub haqqında olan bu hekayə onun şəxsiyyətinin əslini və İsa üçün səmimi şahid olduğunu tutur. Onu lap yaxşı tanıyanlar onun Məsihə olan bağlılığını bilirdilər. Və onu heç tanımayanlar da ruhlandırıcı təbliğçi kimi onun şöhrəti barədə eşitmişdilər. Onun ölümü Məsihdə sarsılmaz iman şahadətlərindən daha biridir. Məsihçi tarixi Məsihin ardıcıllarının sadiqliyini mübahisə edilməz dəlillər ilə şahadət edir. Tarix sənin barəndə nə deyəcəkdir? Sənin imanın barədə indidən hansı hekayənin nəsillər tərəfindən danışılmasını istəyirsən?*

Bunun üçün qoy Allahın iradəsinə görə əzab çəkənlər yaxşılıq edərək həyatlarını sadiq olan Yaradana həvalə etsinlər.

*1 Peter 4:19*

# Böyük vəftiz

**SLOVAKİYA:** ANNMARİ

**Gənc məsihçi Annmari gizli məbəd ilə əlaqəsi olduğuna görə bir ay idi ki, həbsdə idi. O, müntəzəm olaraq bir otağa gətirilirdi, orada bir mühafizəçi onu döyürdü ki, ondan məsihçilər və öz kilsəsində olan digər məsihçilər barədə məlumat əldə etsin.**

Allahın lütfü ilə o, müqavimət göstərə bilirdi. O, hətta bu anlardan, mühafizəçiyə İsanın sevgisi barədə demək üçün istifadə edirdi. Mühafizəçi qəzəbləndi: "Əgər sən mənə gizli məbədin sirlərini deməsən, sənin bütün sevgini döyüb çıxaracağam."

Annmari cavab verdi: "Mənim istədiyim oğlan var, o, hamıdan şirindir. O, sevgidir. Onun sevgisi həzz axtarmır, amma başqalarını sevinc ilə doldurmağı axtarır. Bu oğlan dostumu tanıyandan bəri mən də yalnız sevə bilirəm. İndi səndə nifrət var. Sənə yalvarıram ki, Sevgini sevəsən."

Mühafizəçi elə qəzəblənmişdi ki, onu huşunu itirənə qədər döydü. O özünə gələndə mühafizəçini sanki dərin fikrə getmiş kimi sakitcə oturmuş gördü. Nəhayət, o soruşdu: "Sənin oğlan dostun kimdir?" Annmari ona İsa haqqında və Onun nə üçün gəldiyi barədə hər şeyi danışdı.

O, İsanın onun da dostu olmağı necə etməsini soruşanda, ona tövbə etməli və vəftiz olmalı olduğunu dedi. "Onda məni dərhal vəftiz et, yoxsa səni güllələyəcəyəm" – deyə, o, tələb etdi.

Annmari onu vəftiz etdi və sonra o, əvvəllər döydüyü adamlar ilə birlikdə məhbus oldu.

*İnsanlar aşiq olanda, onlar bunu hamıya bildirirlər. Onlar öz ailələrinə, dostlarına, qonşularına və onları dinləyəcək hər kəsə deyirlər. Sevgi onları elə bürüyür ki, onlar öz sevgililəri barədə danışmağı saxlaya bilmirlər. Eyni yolla da birinin vəftizi, Məsih və onun cəmiyyəti ilə tanınmağı ictimai olaraq elan etməkdir. Yetkin adamın vəftizi buna şahid olan hər bir kəs üçündür – hətta digər kamerada olan məhbus üçün olsa da – o kəs nəyin bahasına olursa, olsun, Məsihin ardınca getməyə hazırdır. Bizim Məsihə olan sevgimiz dünyaya olan öhdəliyimizi elan etməyə oyadır. Hətta əgər hədələnmiriksə, İsaya olan sevgimizi başqalarına deməyə cəsarətimiz var?*

Bu nümunəyə uyğun olaraq, vəftiz indi sizə İsa Məsihin dirilməsi ilə xilas gətirir. Vəftiz cismani çirki yumaqdan ötrü deyil, təmiz vicdanla Allah qarşısında söz vermək üçündür.

*1 Peter 3:21*

# BÖYÜK SADİQLİK

**İman heç vaxt passiv deyildir. O, cavab tələb edir. O, tapşırıq istəyir. O, Müqəddəs Ruhun hüzurunun və qüdrətinin olduğunu nümayiş etdirir.**

Pastor Riçard Vurmbrand



112-cü gün

# Böyük cəsurluq

**RUMINİYA:** ANA VƏ QIZI

**Bütün məhbuslar anası ilə həbs olunan balaca qıza görə məyus idilər. Hətta həbsxananın direktoru dedi: "Nə üçün öz qızına yazığın gəlmir? Əgər sən məsihçi olduğundan imtina etsən, hər ikiniz evə gedə bilərsiniz."**

Qadının ürəyinin daxildən parçalandığı məlum idi. O öz pastorunun həbsinə etiraz etdiyinə görə öz övladı ilə həbs olunmuşdu, amma o, qızını əzablardan qorumaq üçün öz imanını inkar etməyə razılaşmışdı. İki həftədən sonra kommunistlər onu məcbur etdilər ki, səhnənin qarşısında minlərlə insanın önündə: "Mən artıq məsihçi deyiləm." – deyə, qışqırsın.

Onlar evə qayıdanda balaca qız anasına tərəf döndü və dedi: "Ana, İsa bu gün səndən razı deyil." Ana bunu öz sevgisindən ötrü etdiyini başa salmağa çalışdı. Balaca qız öz yaşından böyük kimi inamla anasına baxaraq dedi: "Söz verirəm ki, əgər biz bir də İsaya görə həbs olunsaq, mən ağlamayacağam."

Ana öz qızına qarşı fəxr və sevgi, öz zəifliyinə görə töhmət hissi ilə dolaraq hönkürdü. O, Allahdan çətin qərarlarda güc üçün ağlayarkən həbsxananın direktorunun yanına getdi və dedi: "Sən məni məcbur etdin ki, qızımın xətrinə imanımı inkar edim, amma o, məndən daha da cəsarətlidir." Onların ikisi də həbsxanaya qayıtdılar və balaca qız öz sözünün üstündə durdu.

*İsrailli Yeşua Allahın seçilmiş xalqını Musanın dayandığı yerdən irəliyə doğru aparmaq kimi çətin vəziyyətlə üzləşdi. Təhlükəli idi? Şübhəsiz! Yeşua narahat idi? Yəqin ki. Yeşua Allahın onunla olacağı vədini almışdır, bu hekayədəki uşağa verilən eyni cəsarəti Allah ona da vermişdir. Amma Yeşua və bu qız həyatda erkən başa düşdülər ki, məqsədə nail olmaq üçün Allahın hüzuruna ehtiyacları var. Allah bizə əmr edir ki, bizi heç vaxt tərk etməyəcəyi barədə cəsarət və bilik ilə özümüzü gücləndirək. Sınaqlarla üzləşəndə, cəsarət çox vaxt yox olur. Çətinliklər anında, Allahın həmişə səninlə olacağı vədinə etibar et. Bu gün itaətkar və cəsarətli ol.*

Sənə möhkəm və cəsarətli olmağı əmr edən Mən deyiləmmi? Qorxma və ruhdan düşmə, çünki Allahın Rəbb gedəcəyin hər yerdə səninlədir.

*Yeşua 1:9*

# Böyük məsləhət

**ALBANİYA:** VALERİİ NASARUK

**Dünyada özünü ilk ateist dövlət elan edən Albaniyada Valerii Nasaruk adlı gənc məsihçi öz əlində cəsarətlə çarmıx tatuajı etdiyinə görə həbs olunmuşdur. O, əl ilə salamlaşanda hamıya İsaya iman etdiyini bildirmək istəyirdi. Amma Valeriiyə başqalarına Allahın sevgisi barədə sözlə danışmağa icazə verilmədiyi üçün o, məyus idi.**

Məhkəmə vaxtı hakim Valeriinin anasından xahiş etdi: "Oğluna de ki, öz yolunu dəyişsin ki, azadlığa çıxsın."

O, gözü yaşla dolu cavab verməzdən əvvəl bir az fikirləşdi: "Valerii, mənim sənə məsləhətim – möhkəm dayan və Məsihi inkar etmə, hətta əgər bu, sənin ölümün demək olsa da."

Gizli kilsəyə yazdığı sonrakı məktubunda anası yazırdı: "Mənə çox ağır olan o məhkəmədə iştirak etdim. Kaş mən onun yerində olardım. Ən çətin şey məhkəmədə məndən Valeriinin fikrini dəyişməsini istəmələri idi. Amma mən bunu edə bilmədim. Dünya onun həbs cəzasına görə bizi, onun valideynlərini ittiham edir, deyirlər ki, bizim təsirimizin nəticəsidir. Hətta bəzi məsihçilər mənim niyə etdiyimi, nə üçün etdiyimi başa düşmürdülər, amma sonra mən başa düşürəm ki, İsanı da başa düşmürdülər. Mən depressiya ilə mübarizə aparanda, yadıma salıram ki, Peter İsaya öz həyatını xilas etməyi məsləhət görmüşdü. Allah hər şeyi daşımaqda mənə güc verir. Xahiş edirəm, mənim üçün dua edin."

*Allah bizi sevir və bizim həyatlarımız üçün böyük planları vardır. Problem budur ki, başqalarının da bizim üçün planları vardır. Bunu et. Onu et. Buna cəhd et. Ona cəhd et. Məsləhət sözləri ucuz və doludur. Vaxt gəlir ki, sözlər dəyərli olurlar. Başqa bir imanlı istənilən vaxt bizi nəticələrə baxmayaraq Allahın həyatlarımızdakı çağırışını davam etdirməyə ruhlandıranda, biz saleh bir adamdan eşitdiyimizi bilirik. Buna əks olan hər bir şey hətta, yaxşı məqsədlə olsa belə, pis məsləhətdir. Ruhani bələdçilik üçün sən kimə qulaq asırsan? Yada sal və etibar etdiyin dostundan aldığın ruhani məsləhəti yaz. Buna necə əməl etmisən?*

Mənsə Rəbbimiz İsa Məsihin çarmıxından başqa şeylə əsla öyünmərəm. Bunun vasitəsilə dünya mənim üçün çarmıxa çəkildi, mən də dünya üçün çarmıxa çəkildim.

*Qalat. 6:14*

# Böyük diqqət mərkəzi

**ÇİN:** ME LİNQ

**"Mən qəlbimi insan qorxusundan təmizlədim və Allahı görməyi öyrəndim."**

Mi Linq kommunist Çində məsihçi fəaliyyətinə görə həbs olunanda hələ gənc idi. İstintaq vaxtı polis onu gizli kilsədəki dostlarını satmağa məcbur edirdi.

Birinci dəfə Me Linq dəhşətli dərəcədə qorxurdu və o, həmin dəhşətli yerdə Allahın onun üçün olan məqsədini görə bilmirdi. Amma sonra o, pastorunun öyrətdiyi şeylərdən bu sözləri xatırladı: "Həqiqi əzab yalnız bir dəqiqə çəkir və sonra biz əbədiyyəti öz gözəl Xilaskarımız ilə birlikdə keçiririk."

Ondan soruşanda ki, bu dəhşətli vaxtlardan necə keçirdi, o cavab verdi: "Mən gözlərimi yumanda kişilərin qəzəbli sifətlərini, yaxud istifadə etdikləri işgəncə alətlərini görmürdüm. Mən öz-özümə Məsihin vədini təkrarlayırdım: 'Nə bəxtiyardır ürəyi təmiz olanlar! Çünki onlar Allahı görəcək.' (Matta 5:8) Mən həmçinin, dərk etdim ki, qəlbimi insan qorxusundan təmizləyəndə, mən həqiqətən, Allahı görməyi öyrəndim. Mən, məndən öncə gedənlərdən cəsarət aldım və hər şey yox olana qədər diqqətimi Ona yönəltdim. Məmurlar mənim gözlərimi yumub Onu düşündüyümü biləndə, onlar mənim göz qapaqlarımı açıq halda şəffaf lentlə bağladılar. Amma artıq çox gec idi, çünki mən Onu təsəvvür edə bilirdim."

*Biz sənətlərinin böyük diqqət tələb etdiyi adamlara hörmət edirik. Savadlı neyrocərrah, Olimpiya atleti və böyük biznesmenin bir ümumi xüsusiyyəti var: "Onlar diqqətlərini bir yerə cəmləyiblər. Diqqəti bir yerə cəmləmə prinsipi dərrakəni, atletik cəldliyi, yaxud xarizmanı üstələyir. Diqqəti cəmləndirmədən, bu insanlar sadəcə ağıllı, atletik, yaxud ən yaxşı halda maraqlı adamlar olardılar. Onların diqqətlərini cəmləmə bacarıqları onların uğurlarına böyük dəstək verir. Cismani diqqəti cəmləməni inkişaf etdirmək cismani uğur gətirə bilər, bəs əbədiyyətin məsələləri barədə necə? Əgər sən müvəqqəti şeylərə daha çox diqqətini yönəldirsənsə, onda sən məqsədi nəzərindən qaçıracaqsan. Bu gün sən diqqətini Məsihə və Onun xoş xəbərinin yayılmasına cəmləmək üçün nə etməlisən?*

Dünyəvi şeyləri deyil,
ucalardakı şeyləri
düşünün.

*Kolos. 3:2*

# Böyük məktublar

**UKRAYNA**

***"Molodoy qruzin"* adlı sovet qəzeti üç məsihçinin həbs olunması barədə məlumat vermişdi. Onların cinayəti bütün Sovet İttifaqındakı insanlara İsa Məsihin təlimlərini başa düşməyə kömək etmək üçün xüsusi məktublar təşkil etməyə başlamaları idi.**

Onlar Müqəddəs Kitabı və ya məsihçi kitablarını çap edə bilmədiklərinə görə bu məktubların çoxlu nüsxələrini göndərməyə başladılar, həm də məktubları alanlardan xahiş etdilər ki, nüsxələrini çıxarıb paylasınlar. Xoş Xəbəri bu yaradıcı üsul ilə yaymaqla minlərlə məktub Sovet İttifaqının bir çox ərazilərinə çatdı. Xüsusilə uşaqlar onları xoşlayırdılar, çünki onlara məbədə getməyə icazə verilmirdi və məktublar onların məsihçi təlimində ayrılmaz hissələrə çevrilmişdir.

Buna əlavə olaraq, bu məktublar o dövrdə bütün ölkədə məsihçilərin imanlarını dəstəkləməyə kömək etdi. Dövlətin təzyiqindən və məbədlərinə maneçilikdən sonra onlar nəsə cəsarətli və yeni bir şeyə cəhd göstərməyə hazır idilər. Onlar səmimi qəlbdən istəyirdilər ki, hamı Allahın sevgisi haqqında bilsin və onların üzərinə qoyulan qadağalara baxmayaraq, onların heyranedici sadəlikləri bütün Tbilisi şəhərində və hətta Ukraynanın bəzi ərazilərində də yayılmağa imkan verdi!

Başqa bir qəzet məqaləsi yazırdı: "Məsihçilər bütün şəhərə öz yazıları ilə yayılıblar." Bu idarə edilmiş səyi, "imanlılar tərəfindən hücumedici" kimi təsvir edirdi.

Bu cür adi məktubun belə uzaqlara çatacağını kim qabaqcadan deyə bilərdi!

*Məsihçilərə qarşı əlliillik qəddarlıqdan sonra, sovet məmurlarına məktublar təhlükəli göründü. Onların qorxaq münasibətləri Allahın Sözünün qüdrətini nümayiş etdirdi. Təzyiq insan cəhdinə təslim olmur. O, şəfqət hissləri ilə yumşalmır. O, yalnız Allahın —hər bir imanlının həyatında canlı və fəal olan qüdrətli Sözünə qarşı müqavimət göstərir. Şeytan Allahın Sözündə olan qüdrət qarşısında titrəyir. Biz də düşmənlərimiz kimi onun qüdrətindən agahıq? Əgər Müqəddəs Yazıları oxuyub bu qüdrəti hiss etdiyin vaxtdan uzun müddət keçibsə, Allahdan ikinci imkanı istə. Allahdan xahiş et ki, Öz qüdrətini göstərsin və bu gün həyatında Sözün təsirini təcrübədən keçir.*

Ya Rəbb, sözün əbədidir,
göylərdədir, dəyişməzdir.

*Məzmur 119:89*

# Böyük könüllü

**ÇİN:** KVANQ BACI

**Ağır zəhmət tələb edən işdən və acından ölməkdən azacıq fərqli olan bir pəhriz təklif edəndən sonra, Çinin həbsxana mühafizəçiləri tələb etdilər ki, kimsə ayaqyolularını hər gün təmizləsin. Həbs olunmuş qadınlardan heç kim danışmadı.**

Nəhayət, Kvanq bacı irəli addımladı və murdar işi görməyə könüllü razı oldu. O, həbsdə olan və bir daha heç vaxt görə bilməyəcəyi digər qadınlar ilə öz imanını bölüşmək üçün bunu böyük imkan hesab etdi. Həbsdə olduğu müddətdə o, yüzlərlə qadını Məsihə gətirdi.

Kvanqın Allaha həsr olunması onu tanıyanların hamısına aydın idi, amma bu, çox əzablar vasitəsi ilə başa gəlmişdi. Onun həbs olunmasından əvvəl o və həyat yoldaşı bütün Çini səyahət edib kiçik ev toplantılarını könüllü surətdə təşkil edirdilər.

Kommunist məmurları Kvanqın fəaliyyətinin üstünü açanda, onun on iki yaşlı oğlunu ölənə qədər döydülər. O, yenə də Məsihi inkar etməkdən imtina etdi və hətta öz azadlığından sonra da ev toplantıları yaratmaq hərəkatını davam etdirdi.

Nəhayət, 1974-cü ildə kommunistlər "Kvanq Ana" nümunəsi düzəltməyi qərara aldılar ki, indi onun məbəd üzvləri onu tanıyırlar. O, ömürlük həbs cəzasına məhkum olunmuşdur, sanitariya vedrəsi qoyulmuş yeraltı kamerada saxlanılırdı və ona yalnız çirkli düyü yedizdirilirdi.

O, möcüzəvi yolla on ildən sonra azad olundu və həmişə keçmiş həbs vaxtlarına bir hədiyyə kimi baxdı – bu onun üçün Məsihin sevgisini başqa yolla heç vaxt eşidə bilməyənlər ilə bölüşməkdə xüsusi fürsət idi.

*Könüllülük bəzi adamlar üçün, demək olar ki, peşəkar bir sənətdir. Onlar öz uşaqlarının məktəblərində könüllü işləyirlər, valideyn-müəllim gecələrində kömək edirlər və uşaqlarının futbol komandalarına təlimat verməkdə kömək edirlər. Elə də çox tanınmayan fürsətlər üçün könüllülük etmək çətin ola bilər. Tez-tez könüllülük ruhu heç harada tapılmır. Qocalar evləri, uşaq evləri və sığınacaqlar bir çox insanların öz vaxtlarını sərf etmək istədikləri ən axırıncı yerlərdir. Pis qoxu verən, ruhdan salan mühit və narahatçılıq onları uzaqlaşdırır. Amma səncə, İsa Öz vaxtının əksər hissəsini harada keçirərdi? Demək olar ki, hər hansı könüllülük işinə lazımi və heyranedici iş daxildir, amma ən az səyahət edilən yerlər və uğurları az olan insanlar üçün imkanlara diqqətlə qulaq as. Gələn dəfə biri sənin yoluna çıxana qədər birinci könüllü olmağa çalış.*

Dediyiniz və etdiyiniz hər şeyi
Rəbb İsanın adı ilə edin, Onun
vasitəsilə Ata Allaha şükür edin.

*Kolos. 3:17*

# Böyük auditoriya

**RUMINİYA:** PASTOR RİÇARD VURMBRAND

**Rumıniyalı pastor Riçard Vurmbrand işıq və səsdən məhrum edilmiş kamerada tənha yerləşdirildiyi vaxtda belə, o, görünməyən dinləyicilərə təbliğ etməyi davam etdirirdi.**

Onun həbsdən möcüzəli yolla azad olmasından və nəhayət ki, Birləşmiş Ştatlara miqrasiya olmasından sonra, pastor Vurmbrand öz həbs həyatını təsvir edən bir neçə kitab və tənha kamerada qaldığı müddətdə yazdığı və yadda saxladığı vəzləri qələmə aldı. Bir neçə ildən sonra o, bu məktubu aldı:

"Əziz Pastor Vurmbrand,

Mən imanlı ailədə böyümüşdüm, amma Allahdan uzaqlaşmışdım və nəhayət ki, burada Kanadada həbsxanaya düşdüm. Allaha qayıtmaq istəyirdim, amma bunu necə etməyi bilmirdim və beləliklə, dua etdim: "Allahım, əgər dünyada haradasa Səni tanıyan başqa bir məhbus da varsa, xahiş edirəm, onun fikirlərini mənə gətir." Mən daxilimdə: "Sakit və arxayın otur və Allah səni eşidəcəkdir" – deyə, bir səs eşitdim.

Möcüzəli yolla, hər gecə mən elə bil uzaqdan gələn vəzlər eşitməyə başladım. Tövbə etdim və həbsdən azad olandan sonra, məsihçi kitab evində gözüm sənin "*Tənha həbsxanada vəzlər*" adlı kitabına sataşdı. Dərhal mən bu vəzlərin həbsdə eşitdiklərim ilə eyni olduğunu bildim. Onları təqdim etdiyiniz üçün çox sağ olun!"

Pastor Vurmbrand başqa ölkədən də iki məktub aldı ki, onlar da, demək olar ki, buna bənzər hekayələr idi. Həqiqətən, mələklər bu vəzləri Allaha fəryad edən digərlərinə aparmışdılar.

*Belə deyirlər ki, məsihçilər imanlarının azlığına görə çox vaxt mələkləri işsiz qoyurlar. Çox vaxtlar isə imanlılar hərdənbir olan xeyir-dualar ilə yaxşı həyat sürməklə kifayətlənirlər. Amma Allah bizim üçün yaxşı olan şeylərdən daha da böyük şeylər vermək istəyir. O, bizi daha yaxşı şeylərə gətirmək istəyir və hətta ən yaxşısını vermək istəyir; amma O, ən yaxşı xeyir-dualarını iman ilə xahiş edənlər üçün saxlayıb. Əgər Allah artıq bizim ehtiyaclarımızı bilirsə, onda nə üçün Ondan diləməliyik? Biz imanla istəməliyik ki, Ondan asılı olduğumuzu nümayiş etdirək. Sən Allahın sənə verdiyi yaxşı şeylər ilə kifayətlənmisən? Onda daha yaxşını iman ilə dilə. Özünü Onun sənin üçün olan ən yaxşısından aşağıya qoyma.*

Əldə edə bilmirsiniz, çünki diləmirsiniz.

*Yaqub 4:2*

# BÖYÜK SADİQLİK

**Əgər bütün bəşəriyyət saleh olsaydı və yalnız bir nəfər günahlı olsaydı, Məsih bu bir nəfər üçün də olsa belə, gəlib eyni əzabı çarmıxda çəkərdi. O, hər bir fərdi çox sevir.**

Müqəddəs Avqustin



**119** gün

# Böyük "qorxaq"

**TARSUS:** YƏHYA MARK

**"O, bizim ilə gələ bilməz! Paul təkid etdi. "O, qorxaqdır və xidmətə yaramır."**

Barnaba cavab verdi: "Ola bilsin sən ondan əlini üzmüsən, amma Allah üzməyibdir."

Paul hələ də qərarında dönməz idi. "Sən mənim əlimi məcbur edə bilməzsən, Barnaba. Mən yalnız etibar etdiyim adamları gətirə bilərəm. O, imanı bölüşmək üçün bu səyahətə dəvət olunmur."

"Onda mən də getmirəm. Bu, sənin qərarındır, Paul. Allah sənə səyahət üçün istiqamət veribdir. Gəl sülh içində ayrılaq. Məbəd səndən qorxanda, Allahın lütfü ilə mən sənin yanına gəldim və sənin Allahın padşahlığı üçün böyük işlər edəcəyini onlara göstərdim. Yəhya Markda da Allahın eyni çağırışı vardır."

Paul qətiyyətsiz idi. "Onda qoy belə olsun. Buna özüm inana bilməsəm də, ümid edirəm ki, sən düzsən, mənim köhnə dostum." Beləliklə, Paul və Barnaba yolda aralandılar.

Nəhayət ki, Paul və Yəhya Mark Romada birlikdə həbsxanaya düşdülər və Paul öz gənc dostunu Məsihdə sadiq xidmətçi kimi tapdı. Yəhya Mark Markın İncilini yazıbdır və Paul ilə o, həbsdə gündəlik çətinliklərlə üzləşərkən qorxaqdan tamamilə fərqli bir insan olduğunu sübut etdi.

Ən çətin anlardan keçərək, Mark öz yolunda möhkəm qaldı, bunu Paul ölümündən bir az əvvəl Timoteyə yazdığı qısa məktubunda bildirmişdi.

*Həvarilərin İşləri 15:41; 2 Timotey 4:11*

*Allah iki həqiqətdən birini nümayiş etdirməkdən ötrü tez-tez bizim yolumuza sınaq vəziyyətləri gətirir: O, bizim ruhani inkişafımızda haraya qədər gəldiyimizi göstərmək üçün sınaqlardan istifadə edəcəkdir, yaxud həyatımızda problemlərə izin verəcək ki, bizim dəqiq harada daha çox böyüməmiz gərək olduğunu göstərsin. Yəhya Markın adi qorxaqdan sadiq ardıcıl olmasına dəyişməsi bizə ruhani böyümənin bir proses olduğunu xatırladır. Biz daha da güclü olmağı arzu etdiyimiz keçmiş səhvlərə baxa bilərik. Amma keçmişdəki hərəkətlər bizim gələcəyimizə təsir etməməlidirlər. Mark kimi sənin də Məsihə sadiqliyini göstərmək üçün ikinci imkana ehtiyacın var? Ruhani böyüməyin üçün imkanlara görə dua et.*

Markı da götür özünlə gətir,
çünki o, etdiyim xidmətdə
mənə yardım edir.

*2 Timotey 4:11*

# Böyük vəz

**ÇİN**

**"Onları güllələyin və biz sizin yaşamağınıza izin verəcəyik!"**

Pastor saxlanıldıqları Çin həbsxanasında kommunistlər ilə razılığa gəldi. Amma onun qarşısında dayanan iki məsihçi qız öz imanlarından imtina etməmək qərarında idilər. Bu səhnəyə baxan bir məhbus onların sifətlərini solğun, amma hədsiz gözəl – kədərli, lakin şirin təsvir edirdi. Onlar öz arxalarını Məsihə çevirməkdənsə, ölüm ilə üzləşməyi qərara aldılar.

Pastor fikirləşdi: "Nə üçün bizim üçümüz də ölməliyik? Əgər mən səni öldürsəm və onları yaşamağa qoysam, onda mən məbədlər ilə işləməyi davam etdirə bilərəm."

Qızlar aram səslə onunla danışdılar: "Bizi güllələməzdən əvvəl bizim üçün etdiyiniz hər bir şeyə görə sizin hamınıza təşəkkür etmək istəyirik. Siz bizi Məsihə gətirdiniz, vəftiz etdiniz və bizə Rəbbin Süfrəsini verdiniz. Qoy Allah etdiyiniz bütün yaxşı şeylərə görə sizi mükafatlandırsın. Siz həmçinin, bizə öyrətdiniz ki, məsihçilər bəzən zəifdirlər və dəhşətli günahlar işlədirlər, amma onlar yenidən əfv oluna bilərlər. Siz edəcəyiniz işə görə peşman olanda, Yəhuda kimi ümidinizi itirməyin, lakin Peter kimi tövbə edin. Və yadda saxlayın ki, bizim sizin barənizdəki son fikirlərimiz nifrət və qəzəb yox, sevgi və bağışlanmadır. Bizim hamımız qaranlıq anlardan keçirik. Biz sevinərək ölürük."

Amma pastorun qəlbi artıq sərtləşmişdi və o, onları güllələdi. Ondan dərhal sonra kommunistlər onu da güllələdilər.

*Qəfil ölüm ilə üzləşən adamların fikirləri öz dostlarına və ailələrinə, yaxud həyata keçməyən arzularına yönəlmiş ola bilər. Onların həyatlarını görənlərin bəziləri xatırlayır: "onların gözləri önündə parlaq işıq vardı". Amma bu tam xatırlama son xəyanətə – dost kimi tanıdığın adam tərəfindən qətlə yetirilməyə qurban olanların diqqətini yayındırır. Dost sandığın adama qəzəb, hirs və nifrət bunların hamısı bəraətli görünərdi. Ümumiyyətlə, bağışlanma burada amil ola bilərmi? Məsihçilər kimi, biz hər bir vəziyyətdə, hətta həyat və ölüm olan vəziyyətdə bağışlanmanı seçməliyik. Hekayədəki qızlar kimi, sənin xəyanət edən vəzçiyə reaksiyan effektli vəz ola bilər. Sənin bağışlanmanı seçmən başqası üçün İsaya aparan yolu necə göstərə bilər?*

Bir-birinizə qarşı xeyirxah, rəhmli olun və Allah Məsihdə sizi bağışladığı kimi, siz də bir-birinizi bağışlayın.

*Efes. 4:32*

# Böyük qalxanlar

**PAKİSTAN:** TAHİR İQBAL VƏ RAYMOND LULLİ

**"Mən kəndiri öpəcəyəm, amma heç vaxt imanımı inkar etməyəcəyəm!" – deyə, Tahir İqbal ucadan qışqırdı. Əsgərlər iflic pastoru əlil arabasından qaldırdılar və kəməndi onun boynuna saldılar. Bu gün o, Məsih ilə birlikdə göylərdə azad gəzir.**

Pakistanda çoxlu həyat təcrübəsinə malik keçmiş başqa bir pastor öz evinin həyətində güllə səsləri eşitdi. Güllə düz onun yanından keçdi və onun stulunun arxasında divara girdi. O, müsəlmanların üstünlük təşkil etdiyi millətdə Məsihi bölüşə bilmək üçün daha bir günə görə Allaha minnətdarlıq etdi.

Raymond Lilli Oksford professoru olaraq öz rahat işini buraxdı və həyatının əksər hissəsini müjdəyə görə əzab çəkərək keçirdi. O yazmışdır: "Bir vaxtlar mən kifayət qədər zəngin idim və bu həyatın xoşa gələn şeylərindən azadlıqla dadırdım. Amma bütün bu şeyləri mən sevinərək tərk etdim ki, həqiqətin biliyini yaya bilim. Mən həbslərdə olmuşam; Mən qamçılanmışam... indi, yaşlı və kasıb olsam da, mən ümidimi itirmirəm; Əgər ölümə qədər davam etmək Allahın iradəsidirsə, mən hazıram."

Belə imanlıların "iman qalxanı" haqqında özünəməxsus bilikləri var. Onlar dərk ediblər ki, bu, onların əzablarının qarşısını almayacaqdır, amma lazım gəlsə, onlara cəsarət verəcəkdir. İman qalxanı onlara nəyin bahasına olursa, olsun, Məsihə görə ruhani döyüşü davam etdirmək üçün qətiyyət vermişdir.

*Birinci əsrin döyüş silahına bir əldə qalxan və digər əldə isə qılınc daxil idi. Biri ilə əsgər düşmənə doğru irəli gedə bilirdi. Digəri ilə onlar hücum edirdilər. Bizim bugünkü ruhani döyüş silahımız ilə əlaqədar olaraq biz tozlu "iman qalxanını" bir küncdə saxlanılmış tapacağıq? Biz Allahın təklif etdiyi iman qalxanı vasitəsi ilə Onun müdafiəsindən çıxanda, düşmənlərimizin hücumlarına məruz qalırıq. İmansız qorxudan və çətinlikdən yan keçmək qeyri-mümkündür. Biz ilk müqavimət işarələrindən Müjdənin yayılmasını saxlayırıq. Təsir etmə aləmində Müjdənin yayılmasından səni nə saxlayıbdır? Öz iman qalxanını sarsıdıcı qarşıdurmada harada tərpətmək lazımdır?*

Bütün bunlara əlavə olaraq şər olanın bütün yanar oxlarını söndürə bilmək üçün iman qalxanını əlinizə götürün.

*Efes. 6:16*

# Böyük lütf

**RUMINİYA:** PASTOR RİÇARD VURMBRAND

**Pastor Vurmbrand digər məhbusların arasından keçərək döşəmədə hərəkətsiz halda oturan başqa bir pastorun yanına gəldi. O, təzəcə kameraya atılmışdı. Onu pis döymüşdülər. Vurmbrand onun gecəni sağ qalacağını bilmirdi.**

Məhəbbətlə dolu şəfqətli pastor Vurmbrand döyülmüş pastorun yanında əyləşdi və ondan soruşdu: "Mənim qardaşım...sən dua edə bilərsən, 'Ata onları bağışla?'

Kişi ağrıyan, şişmiş, əzilmiş sifətinə toxunaraq titrəyirdi. Danışmaq çətin idi. Sözlər yavaş-yavaş çıxdı: "Mən bacarmıram."

Pastor Vurmbrandın kişiyə qarşı rəğbət hissləri təzəcə gəlmişdi ki, döyülmüş pastor yenidən danışmağa başladı. Gözlərində yaşlarla o dedi: "Mənim duam "onları bağışla" yox, mənim duam ...Ata, onları və *məni* bağışladır." Əgər mən daha yaxşı pastor olsaydım, ola bilsin, daha çox imana gəlmiş işgəncə verənlər olardı."

Bu üzülmüş pastor öz düşmənlərinin Məsihə gəlməsi imkanını qaçırdığına görə narahat olduğunu bildirdi. Hər iki pastor Rumıniya Kommunist Gənclər Təşkilatının gənc üzvünün bir dəfə həbs olunduğunu və məsihçi adlanan bir polis məmuru tərəfindən mərhəmətsizcəsinə döyüldüyünü anladılar. Bu hadisə onun ürəyini bütün həyatı boyu Məsihə qarşı bərkitmişdir. Müjdə üçün qaçırılmış bu fürsət axırda keçmiş Rumıniya Kommunist xalqının diktatoru oldu. Nikolay Çauşeski pastor Vurmbrand və onun döyülmüş pastor dostu da daxil olmaqla saysız-hesabsız məsihçilərin əzab çəkməsində məsuliyyətli idi.

*Kənar insanlarla müdrikliklə rəftar edin və hər fürsətdən istifadə edin.*

*Kolos. 4:5*

*Əldən qaçırılmış fürsətdən daha böyük peşmançılıq yoxdur. Təəssüf ki, həyat tez-tez övladın dünyaya gəlməsi, Milad səhəri, yaxud evə getmək üçün son təyyarəni ötürmək kimi qaçırılmış fürsətlər gətirir. Amma heç bir şey digər şəxsin əbədi taleyini dəyişmək ilə müqayisə oluna bilməz. Biz heç vaxt bilmərik ki, qatarda bizim böyrümüzdə oturan adi görünən bir adam – əgər biz nəsə desəydik, bir gün Məsih üçün dünyaya təsir edə bilərdi. Eynilə bizim sükutumuzu pozmaq da qərarından dönməyən məsihçi rəqibini ətrafına fırlada bilər. Keçmişində sən çoxlu qaçırılmış müjdə imkanları saya bilərsən. Amma sənə verilmiş hər bir gündə imanını bölüşmək üçün fürsəti tutmaqla gələcəyini dəyişə bilərsən.*

# Böyük həsr olunma

**ÇİN:** LİU KSİAOBO

**Liu Ksiaobo kommunist zülmkarlarının günahlarını fikirləşərək öz həbs kamerasında hirsindən boğulurdu. Çindəki Tiananmen Meydanındakı etiraz aksiyasının rəhbəri kimi, onun səyli duaları Çin kilsəsinin dövlətin boğucu məhdudiyyətlərindən sülh yolu ilə azad olunması idi. O, kommunistlərin Allahın sevgisini və mərhəmətini elan edən sülhməramlı məsihçilər tərəfindən məğlub edildiyini təsvir etmişdir. Amma bunun hamısı pis sonluqla tamamlandı.**

O, bir-bir, öz cəsarətli dostlarının vəhşiliyin, zorakılığın sona yetdiyi vaxta qədər dözməsinə baxdı. Və indi o, həbs edilmişdir. Allah belə bir şərin onları məhv etməsinə necə icazə verə bilər? Onun insani fikirlərinin düşündüyü şeyləri onların səyləri yerinə yetirmədi.

Sonra yanındakı məhbus məsihçi vasitəsi ilə ona Allahın ilhamı gəldi. Onların imana gəlməsindən sonra özünün günahlı olduğunu dərk edəndə, o yazdı: “Günahı hiss etməyən biri Allahın səsini necə eşidə bilər? Kommunistlərin günahlı işlər gördüklərinə görə onlarla vuruşmaq əvəzinə, mən özümü onları Məsihə qazanmaq üçün həsr etməliyəm, hətta bu, mənim ölümüm bahasına olsa belə. İsa çarmıxa günahlı insanları sevdiyinə görə mıxlanmışdır. Mən özümü kommunistləri sevməyə həsr etməliyəm. Əgər belə olmasa, bizim hamımız yüksəkliyə qalxmaq əvəzinə, dərin uçurumun dibində qalacağıq.”

*İnsanlar tez-tez fikirləşirlər ki, onlar Məsihə həsr olunanda həyat asan olacaqdır. Hər şey onların istədiyi kimi gedəndə onlar bu şeylərin qədrini bilməyə bilərlər. Əvvəl-axır onlar “Allahın iradəsini yerinə yetirirlər”, düzdür? Nə üçün onların səyləri uğur qazanmasın? Amma tezliklə problemlər ortaya çıxır. Ola bilsin, onlar öz imanlarına görə fiziki zərərdən əzab çəksinlər. Biz məsihçi hesab olunduğumuzu seçəndə, tez-tez Məsihin nə qədər düşmənləri olduğunu kəşf edirik. Düşmənlərimiz ilə necə rəftar etməyimiz bizim Məsihə bənzərliyimizin sınağıdır. Düşmənlərinizin xilası üçün onlara dua etməyə razısan? İsanı onlarla bölüşərsən? Əgər biz müqavimət göstərənləri Məsih üçün qazanmasaq, bəs onda bunu kim edəcəkdir?*

Sizi lənətləyənlərə xeyir-dua verin, sizi incidənlər üçün dua edin.

*Luka 6:28*

# Böyük təzad

**RUSİYA:** KLAVDİYA VASİLYEVNA

**Məxfi Sovet polisinin sənədləri göstərir ki, Moskvanın kənarındakı Butovo şəhərində qırx dörd min adam iki yüz nəfərdən ibarət qruplarla güllələnib və məxfi olaraq basdırılıblar. Bir gecə qətl vaxtı Klavdiya Vasilyevna öz evinin qapısını öz məsihçi imanına görə güllələnməli olan, amma oradan qurtula bilən işgəncə verilmiş qadına açdı. O, Klavdiyaya onu gizlətmək üçün yalvardı.**

Qorxu içində olan Klavdiya imtina etdi. O, qapını örtdü və qadının ölüm hökmünü möhürləyərək onu bayırda qoydu. Əlli ildən çox Klavdiya qadının simasını unutmağa çalışmışdı.

Klavdiyanın mübarizələrinə qarşı, Rumıniyanın məbəd üzvləri Sovet həbsxanasına gedən yolda qaçmış iki alman əsgərinə kömək etdiklərinə görə ürəklərindəki sülhdən həzz alırdılar. Onlar pastor Riçard Vurmbrandın məbədində sığınacaq axtarırdılar. İkinci Dünya Müharibəsinin sonunda, Rumıniya qəddar alman nasistləri tərəfindən idarə olunurdu. Almaniya müharibəni uduzduğuna görə, Rusiya ordusu Rumıniyaya daxil oldu və almanları müharibə məhbusları kimi tutmağa başladı. Almanı gizlətmək, yaxud kömək etmək ölüm ilə cəzalanırdı.

Əsgərlər hələ də alman hərbi geyimlərində idilər və ölümə namizəd idilər. Məbəddəki ailələr onlara kömək etməyə razılaşdılar, çünki onların işi mühakimə etmək deyil, lakin onlara ölüm təhlükəsində olan hər bir şəxsə kömək etmək idi. Bu müddət ərzində onlar Məsihin onların yerində olsaydı nə etmiş olduğunu bilərək, alman uşaqlarına da kömək etdilər.

*Məsihçilər tez-tez öz bədənləri üçün əziyyət və canları üçün əziyyət arasında seçim etməli olurlar. Bu, cismani əziyyət və əbədi peşmançılıq arasındakı fərqdir. Fədakar məsihçilər dünyadakılardan elə fərqli həyat yaşayırlar ki, bəzən onları əlaqələndirmək çətin olur. Onların vəziyyətləri çox vaxt həddən artıq təhlükəli olur. Hətta bizim müqayisə edilə bilən adi vəziyyətlərimizdə biz qeyri-adi cəsarət tələb edən qərar verməklə üzləşə bilərik. Biz əbədi əhəmiyyət yerinə cismani təhlükəsizliyimizi seçəcəyik? Biz ruhani qazanc ilə nəticələnən cismani riski edəcəyikmi? Sənin bacardığından çox cəsarət tələb edən vəziyyətlər ilə üzləşəndə, Allahdan kömək dilə. O, sənə vaxtında düzgün qərar vermək üçün lazım olan müdrikliyi verəcəkdir.*

Nöqsansız və saf olaraq bu əyri və azmış nəsil arasında Allahın ləkəsiz övladları olasınız. Onların arasında dünyanın nuru kimi parlayın.

*Filip. 2:15*

# BÖYÜK SADİQLİK

**Çünki sizə yalnız Məsihə iman etmək deyil,
Onun uğrunda əzab çəkmək üstünlüyü
də ehsan olundu.**

Filipililərə. 1:29



126 gün

# Böyük səyahətlər

**ÇİN:** BOB FU

**Çin professoru Bob Fu və onun həyat yoldaşı uzaq bir kənddə gizli Müqəddəs Kitab dərsləri keçirdilər. Əhalinin Allahın Sözünə olan aclığı onu heyrətləndirməkdə davam edirdi.**

Yadda qalan bir səyahət on iki saatlıq avtobus səyahəti idi. Məbəd rəhbəri sınmış pəncərənin qarşısında saatlarla durmuşdu ki, yağışı saxlasın ki, Fu dincələ bilsin. Növbəti gecə onlar mikroavtobusu əyri-üyrü, palçıqlı yolla ilişib qalana qədər sürdülər; sonra onlar traktoru güclü yağış altında ilişib qalana qədər saatlarla sürdülər. Ondan sonra onlar bütün gecəni palçıqlı tarlada sürüşərək və yıxılaraq ay işığında yeridilər.

Səhəri gün erkən onlar mehribanlıqla qarşılandıqları yerə çatdılar. Kəndlilər toplantı başlamazdan iki saat əvvəl ev toplantısına gəlib dua edərdilər. Bəziləri, sadəcə olaraq, Allahın Sözünü eşitmək üçün səksən kilometr yolu ayaq ilə gələrdilər. Evdə stullar yox idi, buna görə də məbəd üzvləri daşların, yaxud taxta parçalarının üstündə oturmalı olurdular. Bu ərazidə onların başqa xeyirduaları da var idi: polis üçün onları izləmək çətin idi. Bir neçə gün onlar azad ibadət edə bilərdilər!

Hər biri ibadət etmək üçün çətin səyahətlərə üstün gəlmişdir və onların heç biri bunu qurban saymırdı. Onların, sadəcə olaraq, bütün daxili varlığı ilə ibadət edən Davud kimi istəkləri var idi.

*Qapalı ölkələrdəki insanlar üçün məbəd seçim deyil; o, mühümdür. Bunun qarşısında, azad ölkələrdə bir çox insanlar məbədə gedib getməyəcəkləri barədə hər həftə qərar verirlər. Onların vaxtı var? Yağış yağır? Bəlkə ondansa çox yatsınlar? Görəsən vəz nə barədədir? Ayıb olsun ki, biz tez-tez məbədin bizim vaxtımıza layiqli olub olmadığı barədə suallar ilə qərar verməyə çalışırıq. Davud və digərləri üçün Allah ilə görüşə getməyi fikirləşmək lazım deyildir. Sözün düzü onlar heç bir şeyə imkan verməzdilər ki, onları bundan saxlasın. Axırıncı dəfə nə vaxt Allahdan xahiş etmisən ki, sənə belə ibadət etmək üçün istək versin? Ondan bu gün istə və bu həftə məbəddə iştirak etmək üçün və Allah ilə görüşmək üçün plan qur.*

Ey var olan Allah, mənim qəlbim Sənin üçün susayıb. Ay Allah, nə vaxt gəlib hüzurunda görünüm?

*Məzmur 42:2*

# Böyük bəstəkar

**RUSİYA:** NİKOLAY MOLDOVAY

**İçkili rus mühafizəçiləri bir şaxtalı qış axşamı soyuq kameraya daxil oldular. Bir məhbus, Nikolay Moldovay şair, bəstəkar və həmçinin, sadiq imanlı və pravoslav kilsəsində müjdəçi hərəkatının rəhbəri idi. O öz xidmətinə görə qəddar rus həbsxanasında beş illik həbs cəzasına məhkum edilmişdir.**

"Qarnın üstə uzan" – deyə, mühafizəçi Nikolaya qışqırdı. Öz nazik köynəyində və alt paltarında o, buz kimi soyuq döşəməyə uzandı. Sonra mühafizəçilər öz ağır ayaqqabıları ilə bir saat onun belinə, ayaqlarına çıxdılar.

Mühafizəçilər gedəndə, yanındakı məhbus Nikolayın necə pis zədələndiyini görmək üçün yanına əyildi. Onları təəccübləndirən Nikolayın bu sözləri deməsi oldu: "Mənim üstümdə gəzdikləri vaxt mən yeni bir himn yazdım." O, oxumağa başladı: "Qoy mən gələcək cənnət haqqında yalnız danışmayım, amma qoy mən cənnəti və müqəddəs ziyafəti burda da görüm."

Nikolay həbsdən azad olunandan sonra, kommunist milisi onun evini axtardı və Nikolayın illərlə üzərində işlədiyi unikal əlyazmalar kitabını müsadirə etdi. Yüz saatlarla olan dəyərli iş, yazı və həsr etmələr dərhal götürülmüşdür. Bundan sonra Nikolay başqa bir himn bəstələdi: "Mən minnətdarlıqla mənə verdiyin hər şeyə görə Sənə səcdə qılıram, amma həmçinin, məndən götürdüyün hər bir əziz şeyə görə də. Sən hər şeyi gözəl edirsən və mən Sənə etibar edəcəyəm."

Bu gün Nikolay Moldovayın mahnıları öz ölkəsinin hər bir yerində oxunur.

*Deyirlər ki, həyat baş verən şeylərin on faizidir və doxsan faiz baş verən şeylərə münasibətindir. Buna aid olaraq, həyatın həqiqi vəziyyətləri insanın ona qarşı necə münasibət bəsləməsi qədər əhəmiyyət kəsb etmir. Vəziyyətlər hər bir şəxsin nəzarəti xaricindədir. Amma münasibət, yaxud ona cavab seçimdir. Həyat bizə ahəngsiz sözlər və qəmli nəğmələr gətirə bilər. Allahın köməkliyi ilə isə biz sözləri elə yerləşdirə bilərik ki, o, ibadət və qələbə nəğməsi yarada bilər. Biz həyatımızın ən çılğın vaxtında nəğməni eşitməyi seçə bilərik. Həyatında olan hazırkı vəziyyətləri necə təsvir edə bilərsən? Vəziyyətinə olan münasibətin necədir? Öz ahəngini dəyişmək üçün nə etməlisən?*

Dinləyin, ey padşahlar! Qulaq asın, əmirlər! Mən Rəbbi tərənnüm edəcəyəm, İsrailin Allahı Rəbbə nəğmə söyləyəcəyəm!

*Hakim. 5:3*

# Böyük zorakılıq

**İSGƏNDƏRİYYƏ:** YƏHYA MARK

**Markın müjdəsini yazandan sonra, Yəhya Mark bütün Şimali Afrika və Misirdə iman toxumu əkərək səyahət etdi və nəhayət ki, İsgəndəriyyədə məskunlaşdı və orada kilsə yaratdı.**

B.e. 64 –cü ilində, aprelin 21-i Mark Pasxanın bir hissəsi olan Məsihin əzablarını və ölümünü xatırlayan mövzu barədə vəz etdi. Onun yerli kahinlər ilə ünsiyyəti pis idi və onlar bu günü seçdilər və ümumi əhalini ona qarşı qalxmağa təhrik etdilər.

Üsyankarlar məbədə hücum etdilər və Yəhya Markı yaxaladılar. Qarmaqlardan və kəndirlərdən istifadə edərək onu toplantıdan çıxarıb, küçələrlə sürüyərək şəhərdən kənara çıxartdılar. Onu sürüdükləri yerdə onun qan izləri və daşlara dəyərək bədənindən qopan hissələri qalmışdı. Onlar onu sürüdükcə və lağa qoyub güldükcə həqiqətən, onun bədəninin hər bir yerindən qan axırdı. O, son sözlərində öz ruhunu Xilaskarın əllərinə verdi və öldü.

Hətta Markın ölümü ilə belə izdihamın zorakılığa olan susuzluğu yatmadı və kahinlər onun cəsədinin dəfn olunması əvəzinə yanmasını istədilər. Qəflətən fırtına qopdu, kütləni hər bir tərəfə səpələdi və Markın cəsədi onun öldüyü yerdə qaldı. Bir qrup məsihçi sonra gəlib cəsədi götürdülər və Markı münasib bir yerdə dəfn etdilər.

*İsa heç vaxt hərbi əməliyyata rəhbərlik etmirdi, heç vaxt üsyana təhrik etmirdi və heç vaxt müharibə sözləri danışmırdı, buna baxmayaraq, onun ardıcılları sərt müqavimətlərlə üzləşiblər və hələ də üzləşirlər. İsanın müjdəsi məhəbbətdən, sülhdən və barışıqdan danışır. Buna baxmayaraq, cəmiyyət və dövlət məmurları müjdəyə qadağa qoyublar, elə bil ki, o, müharibə bəyannaməsidir. Həqiqətdə, biz müharibədəyik – Xilaskarımız və şeytan ruhani mübarizədədirlər. Məsihçiliyə son qoymaq üçün şər əlindən gələn hər bir şeyi edəcəkdir. Döyüş bitəndən sonra sən qələbə çalanların tərəfində olacaqsan?*

Çünki mübarizəmiz qandan və ətdən ibarət olan insanlara qarşı deyil, şər başçılarına və hakim olanlara, bu qaranlıq dünyanın hökmranlarına, səmadakı ruhani şər qüvvələrə qarşıdır.

*Efes. 6:12*

# Böyük xeyirxahlıq

**RUMINİYA:** ƏFV EDƏN YƏHUDİ QADIN

**Rumıniyalı pastor və onun həyat yoldaşı faşistlərin onların ölkələrini zəbt etdikləri müddətdə sovet əsgərlərini gizlətmişdilər. İndi isə faşist əsgərlərinə sığınacaq lazım idi.**

Üç alman məmuru onların evlərinin arxasındakı kiçik bir binada gizləndilər. Pastorun həyat yoldaşı onlara gizlicə yemək aparırdı və gecə vaxtı onların zibil qutularını boşaldırdı. Bir yəhudi kimi, o, onların hərəkətlərinə görə nifrət edirdi – onlar onun bütün ailəsini məhv etmişdilər. Amma məsihçi kimi o, qaçqınlara yardım etməyə və onlara fiziki və ruhani dəstək olmağa məcburiyyət hiss etdi.

Xeyirxahlıq göstərmək komandirdə maraq oyatmışdı: "Görəsən nə üçün yəhudi qadın alman əsgəri üçün öz həyatını riskə atır? Mən yəhudiləri xoşlamıram və Allahdan qorxmuram. Sənə deməliyəm ki, alman ordusu Buxaresti yenidən zəbt edəndə və əminəm ki, bu, olacaq, mən bu xeyirxahlığı sənə heç vaxt geri qaytarmayacağam."

Pastorun həyat yoldaşı onun soyuq ürəyinə görə ruhdan düşmədi. O, ona təbliğ etməyə davam etdi: "Hətta ən pis cinayətlər İsa Məsihə iman vasitəsi ilə əfv olunur. Mənim səni bağışlamağa heç bir səlahiyyətim yoxdur, amma əgər sən tövbə etsən, İsanın səlahiyyəti var."

Məmur cavab verdi: "Səni başa düşdüyümü deməyəcəyəm. Amma ola bilsin, əgər daha çox insanda pisliyə yaxşılıqla cavab vermək ənamı olsaydı, onda daha az qətl olardı."

Məmur tezliklə Almaniyaya qaçdı, hələ də tövbə etməmişdir. Amma pastor və onun həyat yoldaşı həqiqi məsihçiliyi göstərmək üçün öz üzərilərinə düşən tapşırığı yerinə yetirdilər.

*İsa müxtəlif nəticələr hasil edən müxtəlif cür torpaq növünə toxum səpən əkinçi məsəli barədə bölüşmüşdü. Onun hekayəsində, toxum Allahın Kəlamıdır. Bağın kənarında olan tapdalanmış toxumları acgözlüklə udan quşlar kimi, iblis də Allahın Kəlamını onu eşidənlərdən oğurlamaq istəyir. Bunun əksinə, münbit torpağı təsvir edənlər isə Allahın Kəlamını qəbul edənlər və ona cavab verənlərdirlər. Biz Müjdəni digərləri ilə bölüşəndə, biz onların qəlbində hansı cür torpağın olduğunu bilmirik. Biz onların cavab verəcəyi müsbət, yaxud mənfi münasibətə cavabdeh deyilik. Sən kiminsə Müjdəyə hay vermədiyinə görə məyussan? Sən öz üzərinə düşən işi görmüsən. İndi isə qoy Allah Öz işini görsün.*

İnsanlara deyil, Rəbbə qulluq etdiyiniz kimi ürəkdən qulluq edin.

*Efes. 6:7*

# Böyük vəz etmə

**RUMINİYA:** PASTOR RİÇARD VURMBRAND

**1991-ci ildə, kommunist Rumıniya dövləti yeni maska taxdı. Onlar onların etdiyi işlərə nifrət edən vətəndaşların çoxluğundan qorxdular. Onlar Rumıniya pastorlarına, hətta cəmiyyət içində də təbliğ etmələri üçün yalvardılar. Amma onlar pastorlara xüsusi şeyləri təbliğ etməyi əmr etdilər – düşmənini sev – yəni ki, insanlar onları bağışlasınlar. Onlar düşündülər ki, öz xeyirləri üçün məsihçi Müjdəsini manipulyasiya edə bilərlər.**

Məsihçilər sevinərək çağırışı qəbul etdilər və baxmayaraq ki, onlar bilirdilər ki, dövlətin niyyəti özünü qorumaq üçün idi, onlar açıqca təbliğ etməyə başladılar. Amma bəziləri fikirləşdi: "Nə üçün biz zülm edilənlərə onlara zülm edənləri sevməyi öyrətməliyik?" Onlar fikirləşirdilər ki, bu bağışlanma müjdəsi dövlətin əlini möhkəmləndirəcəkdir.

Pastor Riçard Vurmbrand bu atmosfer olan vaxtda iyirmi beş illik sürgünlükdən sonra Rumıniyaya qayıtdı. O, Rumıniya televiziyasında "düşmənlərinizi sevin" müjdəsini təzyiq ilə təbliğ etməyə dəvət edilmişdir.

Məbəd onun sözləri ilə ittiham edilmişdir: "Sevgi, sadəcə sevgi olduğuna görə, özünü bütün risklərə – hətta pis adam tərəfindən sui-istifadə riskinə də atır ki, hamını qazana bilsin. Biz düşmənini sev təlimini öyrətməyi dayandırmamalıyıq, hətta hansısa müddətdə Allaha nifrət edənlər bizim hesabımıza bundan sərfələnirlərsə də. Biz inanırıq ki, Allah *Sözdür* və sonda bu Söz, hətta Allaha nifrət edənlərin də ürəklərini dəyişəcəkdir."

*Müqəddəs Kitab düz axırıncı fəslə qədər.....sonu sürprizlərlə dolu hekayələrdən ibarətdir. Şərin nəzarəti ələ keçirdiyi və bütün vəziyyətlərin salehlərə qarşı durduğu görünəndə, Allah salehə qələbə verir. Xoşbəxtlikdən Allah həm də bizim həyatlarımızın müəllifidir. Ssenarinin necə inkişaf etməsinə sual verməki bizim işimiz deyil. Biz elə hiss edə bilərik ki, Allahın işi üçün effektiv istifadə edilmirik. Biz hətta müjdəçilik üçün ən yaxşı səylərimizin də başqaları tərəfindən pozulduğunu hiss edə bilərik. Buna baxmayaraq, bizim rolumuz Onun müjdəsini sadiqliklə təbliğ etmək və çətin vəziyyətləri Onun əllərinə verməkdir. Allah hələ də hekayəni yazır və ən yaxşısı hələ də qarşıdadır!*

Baxın, siz mənə qarşı pis fikrə düşdünüz, lakin Allah onu yaxşı işə çevirdi ki, bu gün gördüyünüzü etsin və çoxlu adamın həyatını qorusun.

*Yaradılış 50:20*

# Böyük xatirə

**TİBET:** UİLLİYAM SİMPSON

**"Sənin oğlun öldürülübdür."**

Cənab Simpsona o gün dəhşətli xəbər çatdı. Onun müjdəçi oğlu Uilliyam Tibetin sərhəddində uşaqlara Allahın Sözünü öyrətdiyi kiçik bir məktəb tikmişdi. Uilliyamın atası yaxınlıqda yaşayırdı və dərhal xəbərdən sonra məktəbə qaçdı. Ətrafa baxanda oğlunun xidməti ilə bağlı xatirələr onun gözünün önündən gəlib keçdi.

Uilliyam Tibet əhalisi ilə Müjdəni bölüşmək üçün altı min beş yüz kilometr yolu atla gedərdi. Müsəlman fanatlar Tibet şəhərində əlli min nəfəri amansız tərzdə öldürmüşdülər, lakin hətta bu, onun oğlunu qorxutmamışdı.

Uilliyam yazmışdı: "Bütün çətinliklər, tənhalıq, ürək ağrıları, əzablar, uzun yolda soyuq və yorğunluq, ruhdan düşmək, ağır itkilər, sövq olunmalar və sınaqların heç biri "böyük sevincin xoş yeniliklərini" bölüşməyin izzəti və sevinci ilə müqayisə olunmağa dəyməz."

Uilliyamsın atası dağıdılmış məktəbin içi ilə gəzdi və öz oğlunun doğranmış bədənini yerdə tapdı. Sonradan o öyrəndi ki, müsəlman ordusunun qaçaqları məsihçi məktəbinə, onu yaradana mərhəmət göstərməyərək hücum etmişdilər.

Özü də müjdəçi olan cənab Simpson məsihçi Uilliyamın digərlərinə göstərdiyi nümunəyə görə çox fəxr edirdi. Oğlunun cəsədinin altında onun qanına bulanmış bir parça vərəq var idi. O, ehtiyatla onu götürdü və bu sözləri oxudu: "Mənim xatirəmə".

*Abidələr dünyanın hər bir yerinə səpələnibdir. Hər biri sınaqlar içində qəhrəmanlıq, cəsurluq və şəxsi qurban hərəkətinin xatirəsini qeyd edir. Tarixdə müxtəlif eralardakı insanların ucaldılmış abidələri və xatirələri vardır. Bu, insan təbiətinin bir hissəsidir. Biz, bizim ideal azadlığımız, ədalətimiz, sevgimiz və şərəfimiz uğrunda böyük qiymət ödəmiş insanları unutmağı arzulamırıq. Bizim qəlblərimiz Məsih və Onun Müjdəsi uğrunda şəhid olan məsihçilərin xatirələrini saxlayır. Heç bir hərbi mükafat onların dəfnlərində təltif olunmur. Onların yerinə heç bir heykəl ucaldılmır. Onları yada salmaq və onları ilhamlandıran Allahı mədh etmək üçün bu gün vaxt ayır.*

Sizi hər dəfə yada salanda
Allahıma şükür edirəm.

*Filip. 1:3*

# BÖYÜK SADİQLİK

**Əgər siz bizə həqiqi Məsihin cəmiyyəti olduğunuzu göstərə bilsəniz, biz dərhal sizin tərəfinizə keçərdik. Çünki biz Məsih ilə olmağı arzulayırıq. Amma siz həqiqətlərə görə sübutlar ilə gəlmədiniz. Siz bizi zindana saldınız. Siz bizim həyatlarımızı götürə bilərsiniz, amma imanımızı yox.**

Yepiskop Con Balan – Rumıniyanın Pravoslav Kilsəsinə və kommunist rəhbərlərinə verdiyi cavabı



133-cü gün

# Böyük "rəmz"

**KUBA:** TOM UAYT

**Məsihə olan imanlarına görə həbsdə əzab çəkənlər üçün Rəbbin süfrəsi dəyərli andır; amma həbsxana mühafizəçilərinin nəzarəti altında bunu etmək nadir hallarda olur.**

Tom Uayt və Mel adlı pilot kommunist Kuba üzərindən balaca təyyarə ilə uçurdu və ora Fidel Kastronun diktatorluğu altında zülm çəkən insanlara Məsihin müjdəsini çatdıran minlərlə kiçik vərəqələr tökürdülər. Onlar tufana düşdülər və məcbur oldular ki, təyyarəni qəza şəraitində yerə endirsinlər. Baxmayaraq ki, Tom və Melə zərər dəyməmişdir, onlar Kubada endilər və kommunist mühafizəçiləri silahlar ilə onları gözləyirdilər. Tom və Mel iyirmi dörd illik həbs cəzasına məhkum olundular.

Toma həyat yoldaşı Ofeliyanın xahişi ilə iki dəfə baş çəkməyə izin verilmişdir. O, rezin ilə bağlanmış balaca bir plastik qutuda quru toz halında olan üzüm içkisini gizlicə gətirdi. Tom içkini həbs kamerasına apardı ki, orada digər məsihçilər də mühafizəçilər nəzarət etməyən müddətdə Rəbbin süfrəsini qəbul edə bilsinlər.

Tom və Ofeliya Uayt hər ikisi bir şeyi başa düşmüşdür. İsa Məsihi və Onun çarmıxda tökdüyü qanı qeyd etmək onların nikahlarının və tapşırıqlarının toxunulmazlığını saxlayan ən güclü simvol idi.

Tom və Mel on səkkiz aydan sonra azad oldular. Bu gün Tom və Ofeliya Məsihin onlar üçün etdiyi qurbanı Tomun "Şəhidlərin səsi" təşkilatını idarə etdiyi Oklahomada qeyd edirlər.

*Məsih şagirdlərinə iki ənənəni qeyd etməyi göstərmişdir: vəftiz və Rəbbin süfrəsi. Onlar Məsihə olan həsrolunmanın simvollarıdır. Nə qədər çox məsihçi ənənələri olsa da, buna baxmayaraq, onlar adi məsihçi ənənələri kimi qalmamalıdırlar. Biz, ola bilsin ki, Rəbbin süfrəsini qeyd etmək üçün öz həyatlarını təhlükəyə qoyan imanlıları başa düşmərik, çünki bu ənənə bizim mədəniyyətimizdə təhlükədə olmayıbdır. Amma imanlarına görə təqib olunanlar öz ümdə məsələlərinin yenidən təşkil olunduğunu görüblər. Simvollar həsr edilmənin dəyərli ifadələrinə çevrilir. Məsihçi simvolu olan vəftiz və Rəbbin süfrəsi sənin üçün nə məna kəsb edir? Gələn dəfə məsihçilərin vəftizinə baxanda və Rəbbin süfrəsində iştirak edəndə sevincinizi nə qədər artıracaqsınız?*

Sonra İsa çörək götürdü, şükür edib onu böldü və şagirdlərə verərək dedi: "Bu, Mənim sizin üçün verilən bədənimdir. Bunu Məni xatırlamaq üçün edin".

*Luka 22:19*

# Böyük qurban

**RUMINİYA**

**Rumıniyanın Qheria şəhərindəki həbsxanada, qaydaları pozan məhbusların adlarının qeyd edildiyi siyahıdan adlar seçilir və hər birinə iyirmi beş qamçı vurulurdu. Orada ağrılı cəzanın həyata keçirilməsi üçün xüsusi gün təyin edimişdi. O gün, məmur kamera-kamera gəzər və döyülməli olanları toplayardı.**

Mühafizəçilər müntəzəm olaraq dəyişildiyinə görə və məhbuslar çox olduğuna görə, bütün otaq yoldaşlarını ad ilə tanımaq qeyri-mümkün idi. Hər dəfə mühafizəçi döymək üçün onun kamerasından kimisə çağıranda, bu məsihçi dustaq irəli çıxar və deyərdi: "Mən oyam". O, yenidən və yenidən başqasının yerinə qəddarcasına qamçılanardı.

Axırda, bu məsihçi məhbus qurbancasına döyülmədən sonra ölümə yaxın olanda, başqa məhbuslar ona təsəlli verməyə çalışırdı. Onlar ona dedilər: "Qardaş, indi xoşbəxt ol. Tezliklə hər şey bitəcəkdir. Sən göylərdə olacaqsan. Orada daha ağrı olmayacaq, yalnız sevinc olacaq!"

O döndü, sevgi ilə onlara baxdı və dedi: "Qoy Allah mənə Öz istədiyi kimi etsin... amma əgər O, məndən soruşsaydı, mən Ona deyərdim ki, məni cənnətə aparmasın. Mən həbsdə qalmağı üstün tutardım. Çünki mən bilirəm ki, yuxarıda təsviredilməz sevinc var, amma göylərdə bir şey çatışmır: özünü kiməsə görə qurban etmək."

*Bölüşməkdənsə daha çox yığıb saxlamağı qiymətləndirən dünyada, Müqəddəs Kitabın qurban prinsipi qəribə bir fikir kimi görünür. "Nə qədər çox bacarsan, bir o qədər çox əldə et və bacardığın qədər tez et" fikri dünyəvi oyunun adıdır. Müqəddəs Kitab uğurun başqa mənasını öyrədir. Bu, qurban adlanır – öz həyatını başqasına görə qurban etmək. Bu, təbii deyil. Bu, hətta bizim alçaq təbiətimizə cəlbedici gəlmir. Bunu bir dəfə biz cəhd etsək, bu qarşısıalınmaz həyat tərzi olacaqdır. Bizim daxilimizdəki Allahın Müqəddəs Ruhu bizə özümüzü başqalarının arxasında ikinci qoymağa kömək edir. Sözün düzü, Onun Ruhu bunu istəməyə bizə kömək edir. Başqalarının ehtiyaclarını öz ehtiyaclarından qabağa qoymaq istəyirsən?*

Heç kəsin məhəbbəti dostları uğrunda canını qurban verən adamın məhəbbətindən üstün ola bilməz.

*Yəhya 15:13*

# Böyük əfsanə

**İSRAİL:** QORUNUN HEKAYƏSİ

**Qədim əfsanədə İsa Qorun adlı ardıcılına dedi: "Get Karmel Dağında çadır qur və orada dua etmək üçün qal." Qorun İsanın dediyi kimi etdi.**

Bir gün Qorun yaxınlıqdakı kəndə getdi və soruşdu: "Xahiş edirəm, mənə ədyal verin. Siçovullar mənim köhnə ədyalımı gəmiriblər və mən yata bilmirəm." Kəndlilər sevinclə ona ədyal verdilər, amma Qorun təkrar olaraq geri dönürdü. Çünki eyni şey baş verirdi. Nəhayət, bir nəfər məsləhət gördü: "Biz sənin problemini bir dəfəlik həll etmək üçün sənə pişik verəcəyik."

Bir neçə gündən sonra Qorun geri qayıtdı. "Pişik üçün mənə bir az süd verə bilərsiniz?" Ehtiyacın davam edəcəyini dərk edən kəndlilər ona inək verməyi qərara aldılar.

Qorun yenidən qayıtdı: "İnəyi yedizdirmək üçün mənə nəsə lazımdır." Onlar ona torpaq sahəsi verdilər. Sonra Qorun torpaq üçün işçilər istədi, sonra işçilər üçün ev tikməyə ləvazimatlar və s.

İllər sonra İsa öz sevimli şagirdini görməyə getdi. Kök bir adam onu qarşıladı və soruşdu: "Sən nə işlə əlaqədar buraya gəlmisən? Sən nə almaq istəyirsən?" Qorun indi zəngin iş adamı idi, hətta öz müəllimini tanımadı.

Məsihçilər təqib olunan ölkələrdə dövlət məmurlarının tez-tez məsihçiləri öz imanlarından və xidmətlərindən dönüb daha mühüm işlər və daha çox pula şirnikləndirməyə çalışmaları kimi hekayələr danışırlar.

*Bəzən bizə elə hekayə lazımdır ki, biz bəzi şeyləri başqa gözlə görə bilək ki, bizə nəyin mühüm olduğunu və qarşıdakı məqsədə diqqətimizi yönəltməyimizi xatırlatsın. Ola bilsin bizə pişik, yaxud inək təklif edilməz, amma bizim düşmənimiz bizi yoldan çıxartmaq üçün tez-tez bizi başqa yollarla sınağa çəkir. O öz ölkəmizdə bizə təhlükəsizlik təklif edir ki, biz başqa ölkələrə Xoş Müjdə ilə getməyə müqavimət göstərək. O, Allahın xeyir-dualarından – həyat yoldaşı, ailə, yaxud iş kimi xeyir-dualardan sizi yayındırmaq üçün istifadə edəcək ki, biz həyatın qayğıları ilə boğulaq və bizə verilən tapşırığa etinasızlıq edək. Bu hekayə sənə həyatında Müəllimdən uzaqlaşdıra biləcək olan hansı şeyi açır? Sən cismani şeylər ilə çox məşğul olaraq öz ruhani tapşırığına qarşı etinasızlıq edirsənmi?*

Özünüzə fikir verin! Qoy ürəkləriniz eyş-işrət və sərxoşluqla, bu həyatın qayğıları ilə yüklənməsin. Qoy qiyamət günü bir tələ kimi üzərinizə qəflətən gəlməsin.

*Luka 21:34*

# Böyük vaxt

**Bir dəfə bir kişi gecə vaxtı uzaq şəhərə gedərkən yolda nəyəsə dəyib yıxıldı. Aşağı baxaraq o, daşlarla dolu kisəni gördü. Ətrafa baxdı və qaranlığa gözlərini zilləyərək kimin onları saldığı üçün baxdı. Heç kimi görməyərək o, həmin kisəni qaranlıq gecədə öz uzun səyahəti boyunca götürməyi qərara aldı.**

Vaxtı öldürmək üçün o, balaca daşları yolun kənarında olan çaya atmağa başladı. Şarap...şarap.... səs darıxan səyahətçi üçün zərərsiz əyləncə idi. O, təyin olunan yerə çatanda, onun kisəsində təkcə iki daş qalmışdı. Şəhərə daxil olaraq o, meydanın çıraqlarına yaxınlaşdı. Qalan iki daşı ovcunda tutaraq sarı lampa işığında onlara baxdı və daşların qeyri-adi tərzdə parıldadığını, bərq vurduğunu gördü. O, daha diqqətlə baxdı. Onu təəccübləndirən və məyus edən balaca daşların, əslində, brilyant olması idi!

Öz məhbus dostlarının çoxunu Məsihə gətirən müdrik məhbus pastor bu kiçik hekayəni saysız-hesabsız hallarda danışmışdır. O, əzablar vasitəsi ilə öyrənibdir ki, Allahın Padşahlığını inkişaf etdirmək üçün hər dəqiqə istənilən şəraitdə istifadə edilə bilər. O, tez-tez digərlərinə öyüd-nəsihət verir: “Sən itmiş pulu yenidən əldə edə bilərsən, amma itmiş vaxtı yox. Öz vaxtını Allahın xidmətində müdrikcəsinə istifadə et.”

*İldə otuz iki milyon saniyə var və bizim yaşadığımız hər bir saniyə Allahın Öz məqsədləri üçün bizə verdiyi dəyərli hədiyyədir. Əgər biz onları səmərəsiz istifadə etsək, saniyələr Allaha qayıdır, amma onlar bizə geri dönməyəcəklər. Onlar çayın dibində lildəki brilyantlar kimi həmişəlik getdilər. İsa, hətta çarmıxa çəkildiyi müddətdə də, öz son nəfəsini quldura xilas təklif etmək və anasına təsəlliverici sözlər deməklə keçirdi. O, hətta onu öldürənlərə bağışlanma təklif etməklə xidmət etdi. O gün göylərdə İsaya qoşulan quldur üçün o vaxtın nə qədər dəyərli olduğunu təsəvvür et. Sən öz dəyərli vaxtlarını məqsəd ilə doldurursan? Allahdan öz vaxtını səmərəsiz keçirməmək üçün onu necə doldurmağı dilə.*

Bizə öyrət nə qədər ömrümüz var,
qoy qəlbimiz hikmətli olsun.

*Məzmur 90:12*

# Böyük risklər

## ÇİN: İKİ MƏBƏD TİKƏN İNSAN

**İki qadın həftəbəhəftə gizli ev toplantılarında iştirak etmək üçün səyahət edirdilər. Onlar öz kəndlərində məbədin olmadığına görə yorulmuşdular və məyus idilər.**

Bir ay yaxınlıqda məbəd üçün dua edəndən sonra, bir qadın, nəhayət ki, dedi: "Bəlkə Allah gözləyir ki, biz məbəd tikək. Əgər bizim özümüz nəsə etmək istəmiriksə, nə üçün O, bizim müntəzəm şikayətlərimizə qulaq asmalıdır?"

Beləliklə, onlar risk etməyə qərara aldılar. İki qadın və onların həyat yoldaşları Çinin Anhui vilayətindəki öz balaca kəndlərində məbəd tikdilər. Dövlət onları hədələdi ki, dini qurumda qeydiyyatdan keçməsələr, dərhal binaları dağıdılacaqdır. Onlar deyilənlərə tabe oldular və xoşbəxtlikdən onların kənd ərazisi başqa şəhər məbədləri qədər nəzarət olunmurdu. Onlar hətta digər ev toplantısı pastorlarını da yazılı icazə olmadan bölüşməyə dəvət edirdilər.

Qadınlar yerli xəstəxanalara baş çəkməklə və sağalmağa ümidi olmayan xəstələr tapmaqla müjdəçilik edirdilər. Sonra onlar dua edər və Allahdan onların şəfasını istəyərdilər. Bir ildə təzə açılmış məbəd üzvləri iki yüz nəfərdən çox oldu!

Bacılardan biri dedi: "Biz düz iyirmi gün bir adam üçün dua etdik və o, son günə qədər şəfa almadı. Ailə bizi hədələməyə başladı. Onlar bizə dedilər ki, allahlarını qəzəbləndiririk. Amma sən Allah üçün risk etməyi istəməlisən."

*İsa Məsihin müjdəsi mübahisəli, aydın və sadədir. Başqa nə üçün iblis məsihçiliyi qadağa qoyulmuş ölkələrin ən üstün siyahısında bir nömrəli din kimi ayırır? Misal üçün, buddistlərdə qadağa qoyulmuş ölkələrdə gizli məsihçi məbədi üçün geniş sistem yoxdur. Yeni era meditasiya ekspertləri təqib edilən ölkələrdə öz həyatları üçün qorxmurlar. Məsihçilik isə mübahisəlidir. Çünki o, düşmən üzərində qüdrətlidir. Şeytan yalan dinlər üzərində öz vaxtını itirmir. Sən şeytanın narahat olduğu ruhani risksən? Yoxsa sən onu təhlükəsiz oynayırsan? Sən imanına görə onun planlarına təhlükəsən? Əgər belədirsə, onda mübahisələr gözlə. Lakin həqiqətin bir hissəsi olduğuna görə sevin!*

Məsih İsada möminliyə yaraşan bir həyat sürmək istəyənlərin hamısı təqibə məruz qalacaq.

*2 Timotey 3:12*

# Böyük sevgi

**RUMINİYA:** YƏHUDİ MƏSİHÇİLƏR

**2-ci Dünya Müharibəsinin sonunda alman əsgərləri bilirdilər ki, sovetlər onları Sibirdəki fəhlə düşərgəsinə aparacaqlar və onların çoxu orada öləcəkdir. Sovet ordusu şəhəri elə təzəcə faşistlərdən almışdı ki, iki əsgər imkan tapdı və qrupdan qaçdı. Onlar Rumıniyanın Buxarest şəhərinin qaranlıq küçələrində qorxu içində dolanırdılar.**

Lüteran məbədini tapanda, onlar sevindilər. Çünki Rumıniya lüteranları alman nəslindən idilər. Lakin onlar biləndə ki, içəridəki adamlar yəhudidirlər, onların qorxuları qayıtdı.

Pastor dərhal onların qorxularını yatızdırdı. "Biz yəhudilərik, amma həmçinin, məsihçilərik və biz heç kimi düşmənin əlinə verməyi düşünmürük."

Həmin vaxtda, əgər hansısa rumıniyalının almanı gizlətmiş olduğu bilinsəydi, onlar dərhal ölümə təslim edilməli idilər. Lakin xeyirxah pastor üçün almanlar – hələ də öz faşist geyimlərində – Xilaskara ehtiyacı olan canlar idilər. O, təqib edilmiş yəhudilərə kömək etdiyi kimi, onlara da kömək edəcəkdir.

O onlara dedi: "Biz almanların işğalı altında çox əzab çəkmişik. Siz şəxsən təqsirkar olub olmasanız da, biz sizin hakiminiz deyilik. Biz sizə öz evimizi və mülki paltarlarımızı təklif edirik ki, Almaniyaya gedib çıxa biləsiniz. Biz bunu ona görə edirik ki, Allahın sizə olan böyük sevgisini və mərhəmətini sübut edək. Yalnız O, sizə təqsirlərinizdən azadlıq verə bilər."

*Sevgi insanları qəribə şeylər etməyə vadar edir. İki aşiq olan cütlük öz müstəsna həsr olunmalarını nümayiş etdirmək üçün böyük məsafəni gedəcəklər. Buna bənzər olaraq da, ana da öz övladını dünyada heç kimin sevmədiyi kimi sevir. Amma Məsih və imanlılar arasındakı sevgi onların ikisi arasındakı sevgi kimi deyildir. Bu, ən qəribə sevgidir. Çünki bu, müstəsna olmağa can atmır. Sözün düzü, bu, yeganə sevgi münasibətidir ki, digərlərini daxil etməklə böyüyür. Məsihə həsr olunmamızı göstərmək üçün biz digərlərini məsihçi sevgisi ilə sevməliyik. Əgər biz bizi sevməyənləri seviriksə, onda biz Məsihin müstəsna sevgisini göstəririk. Bu gün Allah səndən Öz xatirinə kimi sevməyi xahiş edir?*

Sizsə düşmənlərinizi sevin, onlara yaxşılıq edin və heç bir şey ummadan borc verin.

*Luka 6:35*

# BÖYÜK SADİQLİK

**Allah bizi nə qədər dözdüyümüzə görə yox, lakin nə qədər sevə bildiyimizə görə mükafatlandıracaqdır. İmanlarına görə həbsxanalarda əzab çəkən məsihçilər sevə bilirdilər. Mən bunun şahidiyəm ki, onlar həm Allahı və həm də insanları sevə bilirdilər.**

İmanına görə həbs edilmiş, gizli məbədin keçmiş pastoru.



gün

**140**

# Böyük qəhrəman

**RUSİYA:** VANYA MOİSEYEV

**Sovetin Qırmızı Ordu əsgəri olaraq Vanya Moiseyev imanını bölüşdüyünə görə müntəzəm olaraq töhmətləndirilirdi. Onun polkundakı adamların çoxu onun şəhadəti vasitəsi ilə Məsihə gəlmişdir. Onun komandiri ona imanı barədə danışmamağı əmr edəndə, o cavab verdi: "Əgər oxumağı qadağan etsəydilər, onda bülbül nə edərdi? O bunu bacarmazdı və mən də bacarmaram."**

Vanyanı tanıyan hər bir kəs onun imanının yoluxucu olduğunu bilirdi. Tezliklə o, həbs edildi və amansız işgəncəyə məhkum edildi. O, anasına yazaraq dedi: "Mən bilirəm ki, biz yəqin ki, bir-birimizi görməyəcəyik, amma mənim üçün ağlama. Mələk mənə göylərdəki Yerusəlimi göstərdi və ora gözəldir. Xahiş edirəm, ana, əlindən gələn hər şeyi et ki, məni orada görəsən."

O, davam edərək onu əmin edirdi ki, Allah ona mələklər göndərməklə onu ruhlandırırdı. O, mələklərlə olan müxtəlif görüşlərini təsvir etdi. "Mələklər şəffafdırlar. Əgər biri sənin qarşında dursa və adam arxanda dursa, mələyin hüzuru insanı görməyin qarşısını almır. Əksinə, sən onu daha yaxşı görürsən. Sən mələk içərisindən görəndə, onda sən başa düşürsən və hətta əzab verənə də minnətdar olursan."

Sonda Vanya imanına görə iyirmi bir yaşında öldürüldü. O, ilhamlandırıcı həyatına görə bütün Şərqi Avropada qəhrəmana çevrilən gənc şəhid idi.

*Mələklər hər yerdədirlər. Onların bənzəri kitablardadır, yolka oyuncaqları kimi ağacdan asılır, şamdanlar formasında və peçenye kəsmək üçün mələk formasında fiqur kimi düzəldilir. Bir çox insanlar mələkləri –Allahın səmavi müjdəçilərini görmədiklərinə görə peşmandırlar. Buna baxmayaraq, mələklər tez-tez nəzərdən qaçırılırlar. Bizim tərəfimizdən qəbul edilməyə ehtiyacı olan xoşagəlməyən bir adam mələk ola bilər. Bizi incidən düşmən görmək istədiyimiz mələk kimi bir varlıq ola bilər. Və hətta həmin insanın adi bir insan olduğu müəyyən olunsa da, o şəxsi sevməyimiz bizi bir addım göylərə yaxınlaşdıracaqdır. Vanya kimi, həyatına səmavi nəzərlər ilə baxırsan? Öncə yalnız düşmən gördüyün yerdə indi mələyi axtarırsan? Bü gun sevmək üçün mələklər axtar.*

Qonaqpərvər olmağı da unutmayın, çünki belə davranan bəziləri bilmədən mələklərə qonaqpərvərlik göstərmişlər.

*İbr. 13:2*

# Böyük yeməklər

## ŞƏRQİ AVROPA: AC MƏHBUS

**Həbs edilmiş məsihçi ac və əsəbi idi. Leytenant onu yenidən sorğu-suala tutmağa gəlmişdi və o, sorğu-suala tutulmaq əhval-ruhiyyəsində deyildi. O fikirləşdi: "Nə üçün mən sorğu-suala tutulan şəxs olmalıyam?"**

Beləliklə, o, məmura suallar verdi: "Sən Allaha inanırsan? Sən öləndən sonra nə baş verəcəkdir? Bu gözəl dünya necə yaranıbdır? Nəhayət, o, maraqlanan məmur ilə tam xilas Müjdəsini bölüşə bildi. Məhbusu heyrətləndirən şey leytenantın dərhal öz həyatını Məsihə verməsi idi!

Məmur həmçinin, öz günorta yeməyini ac məhbuslara verdi. Məsihçi minnətdar idi ki, o, əsəbi əhval-ruhiyyəsi olanda da Allah onu qidalandırır və istifadə edirdi.

Başqa bir vaxt, həmin bu adam tənha həbsxanada idi və həm də ac idi. Sonra o, İsanın: "Təqib olunan zaman sevinin, çünki bu, xeyir-duadır" – dediyi sözləri xatırladı. O, dərhal qalxdı və Allaha həmd etməyə və öz balaca kamerasında rəqs etməyə başladı. Tezliklə onun sevinməsi mühafizəçinin diqqətini cəlb etdi.

Mühafizəçi onun nə etdiyini yoxlayanda, o, məsihçinin dəli olduğundan əmin idi. Mühafizəçiləri öyrətmişdilər ki, dəli olanlar ilə nəzakətlə davransınlar və beləliklə, o, məsihçiyə bir az pendir və bir çörək gətirdi.

Yenidən, Allah təmin etdi. Məsihçi məhbusa bir fikir gəldi: "Məsihdə axmaq olmaq, heç nəyi dəyişdirə bilmədiyi şeylər barədə dəlicəsinə qəzəbli olan "müdrik" adam olmaqdan daha yaxşıdır."

*Çox insanlar öz aləmlərini davamlı nəzarət altında saxlamağa ehtiyacları olan – "Nəzarət etmə fanatlarıdırlar." Təəssüf ki, elə şeylər var ki, o, hamının nəzarəti xaricindədir. Nə isə barədə hansısa şeyi etməyi dərk etmək və nəzarət edə bilmədiyimiz şeylər uğur üçün sirdir. Misal üçün, biz başqalarının nə dediklərinə nəzarət edə bilmərik, amma bizi təhqir edənlərə dua etməyi seçə bilərik. Bizim nəzarətimiz xaricində olan şeylər barədə narahat olmaq, sadəcə olaraq, insan təbiətidir. Bizim nəzarət edə bilmədiyimiz şeyi biz manipulyasiya etməyə çalışırıq. Amma Allah vəziyyətləri manipulyasiya etməyi dayandırmağı və Ona etibar etməyi söyləyir. Hekayədəki məhbus kimi, Allah bizə, sadəcə olaraq, Onun Sözünə tam itaət edərək onu həyatda tətbiq etməyimizi xatırladır. O, qalan şeylərin qayğısına qalacaqdır.*

Bəşər Oğluna görə insanlar sizə nifrət edəndə, sizi cəmiyyətdən qovub təhqir edəndə, adınızı bədnam edəndə nə bəxtiyarsınız!

*Luka 6:22*

# Daha böyük məktublar – birinci hissə

**ROMA:** PLİNİ

**Aşağıda verilən Plini adlı hökmdarın Roma imperiyasına yazdığı məktubdur, bu məktub Məsihin çarmıxa çəkilməsindən təxminən yüz il sonra məsihçiliyin artması barədə yazılıb:**

Mən heç vaxt heç bir məsihçinin məhkəməsində iştirak etməmişəm və metodlardan və bizim istintaqlarımızda istifadə olunan məhdudiyyətlərdən və işgəncələrdən xəbərsizəm. Biz yaşa və ya cinsə görə insana hörmət edirik? Əgər məsihçi öz dinindən tövbə edərsə, onda biz hələ də onu cəzalandırırıq, yoxsa əfv edirik?

Hal-hazırda, mən işimi belə görürəm – mən onları öz dinlərinə görə sorğu-sual edirəm; əgər onlar məsihçi olduqlarını desələr, mən daha böyük cəza ilə hədələyərək sorğu-sualı təkrar edirəm. Əgər onlar hələ də inad etsələr, mən onların edam olunmasını əmr edirəm. Mən inanmıram ki, onların inadkarlığı cəzasız qalmalıdır.

Mən bu yaxınlarda öz imanlarını inkar edən bir qrup məsihçini sorğu-sual etdim. Mən bu hadisədən iki qadın məhbusa işgəncə verən şəxsin köməyi ilə əsl həqiqətin üzə çıxmasının mühümlüyünü daha yaxşı görə bildim. Amma mən mənəvi cəhətdən pozulmuş və hədsiz mövhumatdan başqa heç bir şey kəşf etmədim.

Ona görə də mən əvvəlcə səndən məsləhət almağın müdrik olduğunu fikirləşdim. Bu məsələni, xüsusilə təhlükəyə məruz qalmış sayları nəzərə alsaq, sənə tapşırmağa dəyər. Bu yoluxucu mövhumat yalnız şəhərlərlə məhdudlaşmır, lakin bütün kəndlərə də yayılmışdır.

Buna baxmayaraq, buna əlac etmək hələ də mümkün görünür.

*Məsihçilər öz məsihçiliklərindən asanlıqla "müalicə olunurlar"? Sıxışdırmalar gələndə əksər məsihçilər Məsihə sağalmaz dərəcədə sadiqdirlər, yoxsa sadəcə olaraq, azca qızdırmaları var? Təqib həqiqəti kəşf etmək üçün tək doğru yoldur. Yalnız Allah insanın ürəyini bilir. Amma təqib bizim özümüzün həqiqi kim olduğumuzu təqdim edir və Məsihi tərk edib-etməyəcəyimizi, yaxud sadiq qalacağımızı müəyyən etməyə kömək edir. Əgər biz həqiqətən Məsihə sadiqiksə, onda Onun naminə tab gətirmək üçün O, bizə lazım olan qüvvəni verəcəkdir. Əgər biz İsanın şəxsiyyətindən daha çox ideologiyaya bağlıyıqsa, onda özümüzü təzyiq altında tərəddüd edən görəcəyik. Sən Məsih üçün sağalmazsan, yoxsa sənin imanının "hədsiz mövhumat" olduğu üzə çıxacaqdır?*

Allahımızın ismini unutmuş olsaydıq, yad allaha əl açmış olsaydıq, Allah bunu araşdırmazdımı? Çünki qəlbin hər sirrini bilən Odur.

*Məzmur 44:20-21*

# Daha böyük məktublar – ikinci hissə

**ROMA:** ERKƏN MƏSİHÇİLƏR

**"Tökdüyün məsihçi qanı sənin əkdiyin toxumdur; o, torpaqdan çıxır və daha da çoxalır."**

Erkən məbəddəki məsihçilər qəddar dövlət hakimləri tərəfindən davamlı təqiblərə baxmayaraq çiçəklənirdilər. Onların qardaşlarına və bacılarına işgəncələr verilir, şikəst olunur, yandırılır və Məsihin naminə şəhid olurdular. Hər bir imanlı şəhid qalan digər imanlıya daha çox cəsarət verirdi. Onlar öz həyatları üçün keçmiş qorxularına baxır və İsanın təsvir etdiyi kimi Məsihi qəbul etmək üçün hazır olan yalnız ağ tarlaları görürdülər. Onlar təqibə rəhbərlik edən hakimlərə və nüfuzlu şəxslərə aşağıdakı cəsarətli cavabı verdilər:

İndi isə, ey hakimlər, ədalət göstərməkdə davam edin və nə qədər tez-tez məsihçi qurbanları etsəniz, insanların fikirlərinə görə saleh olacaqsınız.

Çarmıxa çəkin, işgəncə verin, ittiham edin və bizi toza çevirin. Sizin ədalətsizliyiniz bizim təqsirsizliyimizi təsvir edən sübutdur, çünki bunun sübutu odur ki, Allah bizə əzab çəkməyə icazə verir.

Lakin ən pis şeyi edin və məsihçilərə işgəncə vermək üçün öz ixtiralarınızı edin. Amma siz bununla dünyanı cəlb edirsiniz və onu vadar edirsiniz ki, bizim imanımıza daha çox sevgi göstərsin. Siz bizi nə qədər çox biçsəniz, biz bir o qədər tez böyüyəcəyik.

Tökdüyünüz məsihçi qanı sizin əkdiyiniz toxumdur; o torpaqdan çıxır və daha da çoxalır.

*Bu sözlər əsrlər əvvəl yazılsa da, bu Müjdə bu gün də yerinə yetməkdədir. Dünyanın qırx ölkəsindən çoxu hal-hazırda dini təqiblərlə üzləşir. Amma bu ölkələrdən çoxunda məbəd hər fəsil yeni imanlılar ilə çiçəklənir və öz üzvləri arasında cəsarətdə artırlar. Təqib İsanın ardıcıllarının sayını azaltmaqla öz məqsədinə nail olmayıb. Sözün düzü, o, tez-tez qurban etməyə hazır olanların sayının artmasına xidmət edibdir. Məsihin ardıcılı kimi, biz qarşıdurmaya Məsihi qəbul etmək üçün canlarla dolu tarlalara nəzarət edən nəhənglər kimi baxa bilərik. Yaxud biz qarşıdurmaya adi müqəvvalar – saxtalaşdırılmış qorxu surətləri kimi baxa bilərik. Məsihə görə işləmək üçün məhsul tarlasına daxil olacaqsan?*

Mən sizə deyirəm: başınızı qaldırıb tarlalara baxın; məhsul bar verib, biçilməyə hazırdır.

*Yəhya 4:35*

# Böyük artım

## ÇİN: EV TOPLANTILARI

**Həmd nəğmələri havanı bürüyürdü. “Səhər saat dörddür. Onlar haradan gəlirlər?” – deyə, bir adam az qala təəccübündən güldü.**

“Məhsul boldur, mənim dostum. Bu gün uzun olacaqdır, lakin padşahlıq üçün yaxşı gün olacaqdır.” –pastor gülümsəyərək dedi. “Gəlin işləməyə gedək.”

Çaydakı imanlılar dənizinin, elə bil ki, sonu yox idi. Pastor onları vəftiz edərək şəfqətlə danışdı, hər birinin əlləri yuxarı, Məsihdə yeni həyata qalxmışdır.

Allah Çində qüdrətli yolla işləyir. Məbəddə gündəlik olaraq imanlıların sayı artır. Altı il əvvəl Şimali Şanxi şəhərində, bir neçə yüz məsihçi ev toplantısına gedirdi. İndi o rəqəm yeddi minə çatıbdır. Əlli min imanlı olan başqa bir şəhərdə ağır təqiblər var, amma hər həftə gizli toplantıda üç min sadiq imanlı toplaşır.

Bir pastor dərin mənalı şərh etmişdir: “Biz imanlılar əvvəlkindən daha güclüyük. Onlar Məsihin bayrağını nə qədər çox yerə salmağa çalışsalar da, o, bir o qədər yüksəyə qalxacaqdır.”

Əsrlərlə, Çindəki məbəd davamlı olaraq təqiblərdən əzab çəkmişdir. Dövlət böyüməni saxlamaq üçün “ağır zərbə” qaydasını təşkil etmişdir. Bugünkü gündə gizli kilsənin üzvlərinin sayı Çinin Kommunist Partiyasının üzvlərinin sayından daha yüksək zənn edilir!

*Böyümə sağlamlığın nişanıdır. Sağlam məbədlər sağlam bitkilərin böyüdüyü kimi böyüyür. Qidalanma, işıq, su və yaxşı torpaq sağlam bitki üçün tələblərdir. Eyni yolla da məbədin böyüməsi üçün xüsusi tərkib hissələri lazımdır. Sağlam məbədin böyüməsi üçün nəzərə çarpmayan tərkib hissələrindən biri kifayət qədər təqibin olması ola bilər. Təqib imanlını təmizləyir və ona imanının dəyərini qiymətləndirməyi öyrədir. Bu hekayədə pastorun təsvir etdiyi kimi, məbəd nə qədər çox təqib edilsə, bir o qədər çox üzvlər Məsihin möhkəmliyinə şəhadətlik etmək üçün qalxacaqdır. Sən təqibə görə acıqlısan, yoxsa daha yaxşısan? Sən ondan padşahlığın böyüməsi üçün öz yaxşı imkanın kimi istifadə edirsən?*

Müjdə onu eşitdiyiniz, həqiqətdə Allahın lütfünü dərk etdiyiniz gündən bəri sizdə olduğu kimi, bütün dünyada da bəhrə verməkdə və yayılmaqdadır.

*Kolos. 1:6*

# Böyük "mələk"

**RUMINİYA:** ANCELA KAZAKU

**Ancela Kazaku faşistlərin zorla soxulduqları 2-ci Dünya Müharibəsi dövründə Rumınıyada yaşayan adi bir qadın idi. Çox qısa bir müddətdə yəhudilər və məsihçilər üçün həyat dəhşətli oldu. Ancela yəhudi uşaqlarını yəhudilər üçün ayrılmış qəsəbələrdən oğurlamaqla və şəhərin ətrafındakı məsihçi olan məhbus qadınlara qida və geyim qaçaqmalçılığı etməklə məşğul idi.**

Sonra faşistlər onun ölkəsindən çıxarılanda və sovet ordusu ölkəyə basqın edəndə, Ancelanın hələ də Allahın sevgisini sovet əsgərləri ilə dolu olan qatar stansiyalarında rus dilində Müqəddəs Kitab və İncili paylamaqla başı qarışıq idi.

Pastor Riçard Vurmbrand 1951-ci ilin qışında Tirqul-Okna həbsxanasında olanda, ağır xəstə idi. Onun skelet bədəni rəsmi məlumata görə qışın uzun sürən şiddətli soyuğundan titrəyirdi. Hər bir məhbusa yalnız bir yorğan icazə verilirdi və yemək cüzi idi. Çünki heç kim şaxtalı, çoxlu qarda həbsxanaya gedib çıxa bilmirdi.

Bu çətin vaxtlarda pastor Vurmbrand həddən artıq böyük ehtiyacı olan qida və isti paltarlar aldı və pastor onları sevinclə digərləri ilə bölüşdü. Onun fikrincə, mələk tərəfindən çatdırılmış olan bu bağlama, yəqin ki, onun həyatını xilas etdi.

Bir daha Ancela bacı (rumın dilində "mələk" deməkdir) öz Atasının işini görməkdə çox məşğul idi. Adi? Ola bilər. Amma Allah adi insanlardan Öz mərhəmət mələyi kimi istifadə etməkdən məftun olur.

*Neçə illər əvvəl, müxtəlif cür zorakılıq hərəkətləri barədə mətbuatda artan xəbərlərə cavab olaraq, "təsadüfi xeyirxahlıq hərəkətləri" adlı maşın üçün yapışqan etiketlər peyda olmağa başladı. Yad bir adama xeyirxahlıq, mərhəmət hərəkəti, ticarət mərkəzində kiməsə maşın yerini vermək, yaxud mağazada satıcı ilə ünsiyyət qurmağa vaxt ayırmaq əhəmiyyətsiz görünə bilər. Allah səndən hətta ən sadə xeyirxahlıq hərəkətini dəyişərək kiminsə həyatında qüdrətli lütf ənamı kimi istifadə edə bilər. Allahdan bu gün Onun adı ilə təsadüfi bir xeyirxahlıq hərəkəti etməkdə sənə kömək etməyi istə. Sən bunu heç vaxt bilə bilməzsən, amma sən kiminsə "mələyi" ola bilərsən.*

Beləliklə, Allahın seçilmişləri, müqəddəsləri və sevimliləri kimi ürək mərhəməti, xeyirxahlıq, itaətkarlıq, həlimlik və səbrə bürünün.

*Kolos. 3:12*

# BÖYÜK SADİQLİK

**Pələngin tüklərini qırxmaqla onun zolaqlarını silmək mümkün olmadığı kimi, mən də məsihçiyəm. Mənim hələ də toplantılarım var. Birinci dəfə mənim evimdə yalnız beş toplantı olurdu; indi onun sayı daha da çoxalıbdır.**

Xanım Vo Thi Mahn. İmanına görə həbs edilmiş vyetnamlı nənə.



147 gün

# Böyük bolluq

**NİGERİYA:** ROZA

**"Tələsin, şkafa girin. Mənim səsimi eşitməyənə qədər səs çıxartmayın. Başa düşürsünüz?" Roza öz məktəb yaşına çatmamış uşaqlarının zəif səslərini eşitdi: "Oldu, ana", sonra o, qapını qıfılladı və gecikməməsi üçün dua edərək qızının məktəbinə doğru yollandı.**

Şəriətin, yaxud islam qanununun elan etdiyinə görə, Nigeriya dövlətinə əsasən məsihçi qrupuna qarşı, onların qanuna qarşı çıxdıqlarına görə zorakılıq qalxdı. Rozanın böyük qızı bu qiyam vaxtı hələ də məktəbdə idi və Roza əmin idi ki, o, orada təhlükəsiz olmayacaqdır. O, məktəbə çatanda, onun qızı təhlükəsizlik üçün hərbi bazaya götürülmüşdü. Nəhayət ki, Roza onu tapdı və onlar iki balaca uşağın gözlədiyi evə sağ-salamat qayıtdılar.

Sonrakı gün onun əri məsihçi toplantısına gedəndə, o, sonuncu dəfə idi ki, onu sağ görürdü. Onların qiyamı zamanı təxminən 260 məbəd məhv edildi və 460-dan çox məsihçi öldürüldü.

Ərinin qətlindən bir ay sonra Roza Həvarilərin İşləri kitabında öz təsəllisini tapdı. O dedi: "Stefanın daşlanmasına izin verən həmin Allah Peterin həbsdən qurtulmasına da izin verdi. Allah sadiqdir və Onun lütfü yetərlidir." Bu gün Roza şəhid olmuş ərinin pastorluq etdiyi məbəddə işləyir və öz üç övladına baxır.

*Deyilibdir ki, Allah heç vaxt lütfünün bizə yardım edə bilmədiyi yerə aparmayacaqdır. Biz dərk etməliyik ki, bəzən Onun planı xəstəlikdən, ölümdən, yaxud zülmdən möcüzəli yolla xilas olmaq deyildir. Buna baxmayaraq, Onun lütfü yetərlidir və O, bizi tərk etməyibdir. Biz etibar etməliyik ki, Allah bizi heç vaxt Onun lütfünün kifayət etmədiyi yerdə xidmət, yaxud iş yerinə aparmayacaqdır. Bəzən Onun planı bizi ağır sınaqdan xilas etmək əvəzinə, bizi onlardan Öz gücü vasitəsilə keçirməkdir. Sən elə bir nöqtəyə gəlib çıxmısan ki, orada tamlıqla Ona arxalanırsan? Sən, ola bilsin ki, heç vaxt Allahın lütfünün sənin malik olduğun yeganə şey olmadığına qədər yalnız ona ehtiyacın olduğunu demirsən.*

O, mənə dedi: "Lütfüm sənə kifayətdir."

*2 Kor. 12:9*

# Böyük görüntü

**İNDONEZİYA:** DOMİNQQİS

**İyirmi yaşlı Müqəddəs Kitabı öyrənən tələbə "Allahu əkbər" (Allah qüdrətlidir) qışqırığını eşidənə qədər yatmışdı. Radikal müsəlmanlar onun otağına daxil oldular və onu az qala huşunu itirənə qədər döydülər. Dominqqis qurtulmaq üçün vuruşduqca, az qala onun başını kəsərək boynunun arxasından oraq vuruldu. Hücum edənlər onun tezliklə ölməsini güman edərək, onu sel kimi axan qanının içində tərk etdilər.**

Dominqqis dedi ki, onun ruhu bədənini tərk etdi və mələklər tərəfindən cənnətə aparıldı və yerdə hərəkətsiz qalan cəsədinə şəhadətçilik etdi. O, daha qorxu, yaxud ağrı hiss etmirdi, lakin Məsih ilə öz yeni həyatını gözləyərək sülh hiss edirdi. Sonra o eşitdi: "Mənə burada xidmət etməyinin hələ vaxtı deyil."

Dominqqisin eşitdiyi sonrakı səs İndoneziyanın təcili tibbi yardım işçilərinin səsləri idi. Onun məsihçi, yaxud müsəlman olduğunu bilmədiklərindən onun bədənini hara götürəcəklərini müzakirə edirdilər.

Dominqqis danışmaq üçün Allahdan qüvvət istədi. Nəhayət: "Mən məsihçiyəm" sözləri onun ağzından çıxdı. "Ölü" tələbənin onların sualına cavab verdiyini eşitdikdə işçilərin üzlərindəki ifadəni təsəvvür edin.

Bu gün Dominqqis tamamilə sağalıbdır. Fiziki olaraq onun çapıqları qalıbdır, lakin ruhunda onun yeni doğuluşu və bağışlanma müjdəsi vardır. Dominnqis Allaha daha yaxın olduğunu bildirmişdir və indi o, fəal olaraq öz müsəlman qonşuları, hətta ona hücum edənlər üçün dua edir.

*Qeyri –müəyyən zorakılıq və hədə-qorxu dünyasında, məsihçilər gələcək ilə qorxusuz üzləşməyə əmr ediliblər. Qorxu yalnız pis vəziyyəti heç bir təzyiqi yüngülləşdirmədən ağırlaşdırır. Biz yer üzündə gələcəyin qeyri-müəyyənlikləri ilə üzləşə bilərik, çünki biz bilirik ki, bizim əbədi təyin olunduğumuz yer təhlükəsizdir. Biz bilirik ki, bizim səmavi gələcəyimiz Dominqqisin aydın gördüyü kimi, Məsih ilə əbədiyyətdir. Bunlardan əlavə, biz sadəcə cismani bədəndən ibarət deyilik ki, şikəst olaq və ölək. Sənin bədənin məhv olunandan sonra da həyatın davam edəcəkdir. Sənin həqiqi gələcəyin bu yer üzündə baş verənlər yox, əbədiyyətdə nə baş verənlərdir. Gələcəyin barədə hansı qorxuların var? Onları Allaha etibar edə bilərsən və gələcəyin ilə qorxusuz üzləşə bilərsən?*

Rəbdir nurum, qurtuluşum! Mən kimdən qorxum? Rəbdir ömrümün qalası, Mən kimdən vahimələnim?

*Məzmur 27:1*

# Böyük mahnı oxuma

**ŞİMALİ KOREYA:** Sun Ok Li

**"Özüm məsihçi olmayana qədər bu məhbusların nə oxuduqlarını heç vaxt bilmirdim."**

Sun Ok Li 1987-ci ildən 1992-ci ilə qədər Şimali Koreyada məhbus idi. O, Cənubi Koreyaya qaçmayana qədər məsihçi deyildi. O, ilk dəfə Məsihi qəbul edəndə, həbsxanada gördükləri və eşitdiklərinin xatirəsindən dolmuşdu.

Bu, məsihçilərin ölümə gedərkən mahnı oxumaqları kimi sadə şeylər idi. O vaxt o, bunları başa düşmürdü və fikirləşirdi ki, onlar dəlidirlər. Ona danışmağa icazə vermirdilər və buna görə də onun məsihçilər ilə danışmağa heç vaxt imkanı olmurdu. O, "Amin" sözünü eşitdiyini xatırlayır.

"Mən orda olarkən, heç bir məsihçinin öz imanını inkar etdiyini görmədim. Heç bir nəfərin belə yox. Bu məsihçilər sakit olanda, mən onların "Mən inanmıram" deyərək və məmurun nə istədiyini edərək öz həyatlarını riskdən qurtarmadıqlarını başa düşmürdüm. Mən hətta çoxlarının təpiklərin və zərbələrin artmasında himnlər oxuduqlarını da görürdüm. Məmur onları dəli adlandırırdı və onları elektrik otağına aparırdı. Mən heç birinin oradan sağ çıxdığını görmürdüm."

Onunla qalan nəğmələr idi. Ola bilsin ki, bu dəyərli müqəddəslərin oxumaqları idi ki, onun ruhuna toxum əkdi və nəhayət ki, bu da onu Məsihə gətirib çıxardı.

*Casuslar kimi, məsihçilik ilə maraqlananlar imanlılara diqqətlərini yönəldirlər ki, özləri üçün həqiqətə qiymət verə bilsinlər. Onlar müşahidə edirlər. Onlar əqli qeydlər edirlər. Məsihçilər sınaqlardan keçəndə, bu səssiz müşahidəçilər tez-tez imanlıların yıxılmasına ümid edirlər ki, əmin olsunlar ki, məsihçilər də hamı kimidirlər. Amma məsihçilər çətinliklər vasitəsi ilə gülümsəyəndə, onlar çıxılmaz vəziyyətdə qalırlar. İmanlılar ağlamaq əvəzinə əl çalanda, onlar heyrətlənirlər. Məsih ardıcılları kədərin içində nəğmələr oxuyanda, onlar izah edə bilmədikləri şeylərə cəlb olunurlar. Əgər sən indi sınaqdan keçirsənsə, səndə Məsih üçün şəhadət etməyə misilsiz imkan var. Dua et ki, sənin sevincli nümunən digərlərini ilhamlandırsın.*

Nə cür əziyyət çəksək belə,
təsəllim bol, sevincim
hədsizdir.

*2 Kor. 7:4*

# Böyük mətanət

**TÜRKMƏNİSTAN:** ŞAQELDİ ATAKOV

**"Onu mənəvi olaraq sındır, yaxud fiziki olaraq məhv et!" Türkmənistan bürokratının bu küçə vaizçisi üçün daha səbri yox idi.**

Şaqeldi Atakova prezident Səfərmurad Niyazovun 23 dekabr 2000-ci il amnistiyası altında azadlıq təklif olunmuşdu və ona deyilmişdi ki, prezidentə sadiqliyinə görə and içsin və müsəlman duasını söyləsin.

Şaqeldini əvvəllər dövlət məmurları hədələmişdilər ki, bir daha təbliğ etməsin. O, 1998-ci ilin dekabrında həbs edildi və iki illik həbs cəzasına məhkum edildi. Lakin ittihamçı hökmlərin "çox yumşaq" olduğunu söyləyərək müraciət etdi. Şaqeldi ağır döyülməklərdən o qədər yorulmuşdu ki, o, uşaqlarından ona toxunmamağı xahiş etdi.

2000-ci ilin fevralında, onun həyat yoldaşı və beş övladı öz evlərindən zorla çıxardılmış və ucqar Kaaxkaya kəndinə göndərilərək, "kənd həbsi" altında saxlanılmışdı.

Onun ailəsi 2001-ci ilin fevralında ona baş çəkəndə, Şaqeldi onlar ilə xudahafizləşdi. Onun arvadı fikir verdi ki, "görüş vaxtı o, qançırlanmış və döyülmüş, böyrəkləri və qara ciyəri ağrıyırdı və o, sarılıqdan əziyyət çəkirdi. O, zorla yeriyirdi və tez-tez huşunu itirirdi." O, daha bundan artıq dözməyi gözləmirdi.

Buna baxmayaraq, Şaqeldi hələ də qırılmamışdı. O, əldən düşmürdü və azadlıq onun əlinin içində olsa da, əgər bu Məsihə sədaqətini tərk etmək adlanırsa, o bunu qəbul etməyəcəkdi.

*İnsanlar qidasız həftələrlə yaşaya bilərlər, amma susuz çox müddət qala bilməzlər. Eyni yolla da bizim ruhumuzun da ruhani qidaya ehtiyacı vardır. Biz bir neçə gün, ay və hətta illər belə yoldaşsız yaşaya bilərik – bizim ruhumuz tənhalığa baxmayaraq, tab gətirə bilər. Biz sülhsüz, uzun sürən xəstəliyə tab gətirə bilərik – bizim ruhumuz məyus olsa da biz sağ qalacağıq. Əgər biz İsa Məsihə ümidsiz uzun müddət dözməyə çalışsaq, bizim canlarımız zəifləyəcəkdir. Biz Allahın Öz övladlarına gözəl ənamı olan ümidsiz yaşaya bilmərik. Əgər sən elə hiss edirsən ki, daha davam edə bilmirsən, Allahdan səni ruhlandırmasını və hərəkətə gətirməsini dilə. İsa Məsihə olan güclü ümidlə sən hər şeyə tab gətirəcəksən.*

İmandan yaranan əməllərinizi, məhəbbətdən doğan zəhmətinizi və Rəbbimiz İsa Məsihə bağladığınız ümidin verdiyi dözümü Atamız Allah qarşısında daim yada salırıq.

*1 Salonik. 1:3*

BÖYÜK SADİQLİK

# Böyük sədaqət

**LAOS:** EZEKİYA

**1997-ci ildə məsihçi olmasından qısa müddət sonra Ezekiya təlim və müjdəçilik dərsləri almaq üçün yerli sakinlər tərəfindən "Məbəd" adlanan yerə getdi. Sonra o, atasının evinə qayıtdı və dərhal otuz beş qohumu və kəndlilər ona yaxınlaşıb tələb etdilər ki, nə üçün məsihçiliyi qəbul etdiyini söyləsin. O, onlara dedi: "Mənim günahlarımdan xilas olmağım və əbədi həyata malik olmağım üçün İsa yeganə yoldur."**

İzdiham daha da qəzəbləndi və Ezekiya onlarla müzakirə etməyə çalışdı. Nəhayət ki, onlar onun saçından tutdular və o, huşunu itirənə qədər onun sifətindən vurmağa başladılar.

Ezekiyanın dostu onu evinə apara bildi və o, orada bədəni bərpa olanadək dörd gün qaldı. Ezekiya heç vaxt atasının evinə qayıda bilmədi, amma o, Laosda xilasın Xoş Müjdəsini kəndbəkənd gəzərək daşımaqda davam edir.

Onun başına gələn birinci hadisədən bəri, Ezekiya müxtəlif vaxtlarda on dəfə döyülübdür, bəzən davamlı əzabdansa ölümü arzu edibdir. O, şəhadət edir: "Məsih ilə getməyimdə yetkinləşdikcə, bu çətinliklərə tab gətirməyə daha çox imanım var. Keçdiyim sınaqlar imanımın qüvvətlənməsinə xidmət edibdir və mən Allahın sadiqliyini məni qurtarmağında görürəm. Allaha minnətdaram ki, otuz nəfəri İsanın xilas edən biliyinə gətirmişəm."

*Allahın Öz övladlarına olan sədaqəti qarşılıqlı münasibətdən asılı deyildir. Əgər bu, elə olsaydı, onda bizi çoxdan tərk edərdi. Əksinə, Allah bizim zəifliyimizdən agahdır və bizi buna baxmayaraq sevməyi seçir. Biz məsihçi şəhidlərin hekayələrini Allahın Öz övladlarına olan sadiqliyinin nurunda oxuyanda diqqətli olmalıyıq. Şəhidlər bizə ilk olaraq xatırlatmalıdırlar ki, onların hekayələri onlar barədə deyildir. O, Allah barədədir! Biz Məsihi inkar etməkdənsə, könüllü olaraq qamçılanmağa tab gətirən çoxlu imanlılar barədə oxusaq da möcüzəli yekun şəxsin son dərəcə sadiqliyi barədə deyil, lakin izzətli Allahın son dərəcə sadiqliyi barədədir. Sənin sadiqliyin büdrəyə bilər, lakin Onun sənə olan möhkəm sədaqəti heç vaxt tükənmir. Bu gün Allahın sədaqətinə görə Ona minnətdarlıq etməyə vaxt ayır.*

Biz sadiq qalmasaq da, O, sadiq qalacaq. Çünki Öz təbiətinə zidd davrana bilməz.

*2 Timotey 2:13*

# Böyük şəraitlər

**RUMINİYA:** SABİNA VURMBRAND

**Gənc yəhudi həkim çox kədərli idi. Bir gecə Sabina Vurmbrand bir az təsəlli verməyə çalışdı: "Allah İbrahimə söz vermişdi ki, yəhudi xalqının işıqlı gələcəyi olacaqdır. Onlar dəniz kənarındakı qum və göylərdəki ulduzlar kimi olacaqdır."**

Həkim göz yaşları ilə ona baxdı və dedi: "Sahildəki qum kimi, biz kommunistlərin ayağı altında tapdalanırıq. Allah haqqında daha mənə heç nə danışma."

Bir neçə gündən sonra Sabina xəstələndi. Həbsxananın xəstəxanasında ölümə yaxın bir vəziyyətdə yatdığı müddətdə, həbsxananın direktoru gəldi. O dedi: "Biz kommunistlərin dərmanı və xəstəxanaları var və biz sənin Allahından daha güclüyük. Bu xəstəxanada sən Allahın adını çəkməməlisən." Yalnız Sabina Allahın varlığı barədə danışmağa cəsarət edirdi. Digər qadınlar əslində onun direktora qulaq asmadığına görə özlərindən çıxmışdılar.

Sonrakı gün onlar Sabinanın işə qayıtmasına məcbur etdilər. Allah möcüzəli yolla onun bədəninə toxundu və o, tamamilə sağaldı. Xəbər bütün həbsxanaya yayıldı və bu xəbər kədərli gənc həkimin də qulağına gəlib çatdı.

O, həmin gün axşam Sabinaya yaxınlaşdı və dedi: "Əgər sənin Allahın sənin bədənini bərpa edə bilərsə və bu cür cəhənnəmin içərisində sənə sülh verə bilərsə, onda mən inanmalıyam ki, O, həqiqidir. Başqa heç bir qüvvə bunu yerinə yetirə bilməzdi. Mən necə xilas ola bilərəm?"

*Biz həyatımızın uçurumda olduğunu hiss etdiyimiz anda əmin olmalıyıq ki, insanlar bizim oradan necə çıxmağımızı müşahidə etmək üçün bizə baxırlar. Məsihçilik, xüsusilə biz mübarizə aparan vaxtda maraqlı tamaşaçıları cəlb edir. İnsanlar bizim imanımızı müşahidə edirlər ki, Allahın nə edəcəyini müəyyən etsinlər. Onlar bizim böhran keçirdiyimizə böyük maraqla baxırlar. Əgər sınaqlar vaxtı biz imanla yaşasaq, onda insanlar bizim həyatımızdakı sübutu yalana çevirə bilməzlər. İnsanlar sənin həyat tərzində nə görürlər? Sənin həyatdakı vəziyyətlərə qarşı reaksiyan başqalarına Allah barədə nə deyir? Əgər sən həyatının quyuda olduğunu hiss edirsənsə, yadda saxla ki, insanlar onun öhdəsindən necə gələcəyinə baxırlar.*

Lakin bizi Sevənin vasitəsilə bütün bunlarda tam qələbə qazanırıq.

*Roma. 8:37*

# BÖYÜK SADİQLİK

**Ağrılı fikirlərə və xatirələrə baxmayaraq, mənim qəzəb üçün vaxtım yoxdur. Mənim həyatım çoxlu xoşbəxtliklərlə, çoxlu sevən, qayğıya qalan adamlarla doludur, buna görə də nifrət xərçəngi ilə məhv olmağıma imkan yoxdur. Mən sevinirəm. Mən oxuyuram. Mən gülürəm, mən mədh edirəm, çünki mən bilirəm ki, mənim Allahım Şeytanın icad etdiyi bütün şər və məhv etmə qüvvələri üzərində hökmranlıq edir. Və bunlardan daha yaxşısı isə – mənim Allahım mənim daxilimdə ən yüksək yerdə hökmranlıq edir!**

Pastor Nobl Aleksandr, iyirmi iki il Kubada həbsdə olmuşdur.
– *Mən azad öləcəyəm*.



**154cü gün**

# Böyük xahiş

**ÇİN:** ZANQ RONQLİANQ

**Zanq Ronqlianq Çinin ən böyük ev toplantısından birinin rəhbəridir, hər həftə toplantıya təqribən on milyon çinli imanlı gəlir. 1998-ci ildə Zanq və on beş milyon gizli imanlıları təmsil edən başqa ev toplantısı rəhbərləri "Ev Toplantısı İmanlılarının Etirafı" adlı sənədə qol çəkdilər, bu sənəddə onlar ictimai tərzdə kommunist dövlətini qeydiyyatdan keçməmiş ev kilsələrini narahat etməməyə çağırdılar.**

Bu sənədi ictimaiyyətə bildirdikdən bir neçə ay sonra Zanq və başqa ilahi oxuyanlar həbs edildilər. Zanq sonradan gələcək yeddi ildə özünü "yaxşı aparmağı" təmin etməklə azad oldu. Zanq indi özünün müxtəlif qohumlarına xidmət etməklə səyahət edir. O özünü dövlətin istədiyi kimi "yaxşı aparmadığına" görə, heç vaxt eyni çarpayıda bir neçə gecədən artıq yatmır.

Paul Romalılara 13-cü fəsildə hakimiyyətə tabe olmağımız barədə yazanda, hamı kimi o da risklərdən xəbərdar idi. Buna baxmayaraq, romalıların onu təqib etmələrinə baxmayaraq, onların qanunlarına müraciət edərək müjdəni Romanın özünə aparmışdır. Baxmayaraq ki, bu onun son səyahəti idi, Roma vətəndaşı kimi ittiham olunması xahişi onun Müjdəni Romaya qədər aparmasına imkan verdi.

Paul kimi, Zanq da öz rəsmi xahişini edəndə böyük risk etdi. Onun şəxsi risklərinin nəticələri isə bir çoxlarının Məsihi tanımasına imkan yaratdı.

*Paul kimi Çindəki məbəd rəhbərləri bilirlər ki, Allah hökuməti təyin edir. Lakin onlar, həmçinin, bilirlər ki, Allah şər hakimiyyətin ədalətsizliyini nəzərdən qaçırmayacaq. Belə deyilir ki, romalılar Paulun boynunu vurublar. Oxşar olaraq, Çindəki imanlılar da Məsih naminə hazırkı hakimiyyətə görə böyük ədalətsizlikdən əzab çəkirlər. Əgər Çinə ədalət gətirmək üçün həyatları ilə risk etmək lazımdırsa, onda belə pastorlar ölməyə hazırdırlar. Ədalətin yerinə yetməsini görmək üçün sənin istəyin nə qədər güclüdür? Allahın Sözünü azad təbliğ etmək hüququnu nə qədər çox dəyərləndiririk? Onlara zülm edənlərə görə Allahın ədalətini axtarmaq üçün bizi ilhamlandıran Çindəki imanlılar üçün bu gün dua edin. Allahdan xahiş edin ki, Onun Padşahlığını genişləndirmək üçün həmin imanlıların işlərini dəstəkləməyə görə sizə yollar göstərsin.*

Rəbb salehliyi və ədaləti
sevir, yer üzü Onun
məhəbbəti ilə dolur.

*Məzmur 33:5*

# Böyük peyğəmbərlik

**ROMA:** PETER

**Üçüncü dəfə Məsih Peterdən soruşdu: "Ey Yəhya oğlu Şimon, Məni sevirsənmi?"**

Peter kədərləndi. O, üç dəfə Məsihi inkar etmişdir; indi İsa üç dəfə onun sevgisinə sual verdi. Bu dəfə o, yavaş cavab verdi, sanki öz ürəyindəki sözlərin əhəmiyyətini götür-qoy edərək, "Rəbb, sən hər şeyi bilirsən. Sən bilirsən ki, mən Səni sevirəm."

"Quzularımı otar." İsa üç dəfə təkrar etdi. Yalnız bu dəfə o əlavə etdi: "Sən cavan olanda qurşağını özün bağlayıb istədiyin yerə gedərdin, amma qocalanda əllərini uzadacaqsan və başqası sənin qurşağını bağlayıb istəmədiyin yerə aparacaq." Sonra İsa dedi: "Ardımca gəl" (Yəhya 21:15-19 parafraza edilib).

Neron Peteri yetmiş yaşı olanda təqib edirdi. Deyilənlərə görə, Peterin dostları və yerli imanlılar onu Romaya qaçmağa məcbur etdilər. Birinci dəfə o imtina etdi, lakin axırda o, qaçmağa məcbur edildi. Tərk etmək üçün şəhər darvazasına yaxınlaşanda, o, vəhy ilə İsanın şəhərin içinə girdiyini gördü. O, dizləri üstə yıxılaraq Ona səcdə qıldı. "Rəbb, Sən hara gedirsən?" "Mən yenidən çarmıxa çəkilmək üçün gəlmişəm. Ardımca gəl."

Peter döndü və "özünün istəmədiyi yerə getdi." O, Neron ilə üzləşməyə getdi. Hakimiyyət onu həbs edəndə, o öz Rəbbinin qaydası ilə başı aşağı çarmıxa çəkilməsini xahiş etdi.

*Bu hekayədə əsas məna İsanın, həqiqətən, ikinci dəfə çarmıxa çəkilməsi barədə deyil. İsa bir dəfə hamı üçün öldü və dirildi. Daha doğrusu, bu hekayə bizə xatırladır ki, İsa bizim ağrılarımızı və əzablarımızı o qədər yaxşı başa düşür ki, elə bil Onun Özü ondan keçir. Peterin vəziyyətində Müqəddəs Kitab deyir ki, İsanın erkən peyğəmbərliyi Peterin çarmıxa çəkilməsinə istinad edirdi. İsadan başqa kim Peterin əzablı çarmıxını başa düşə bilərdi? İsa əzab çəkmək barəsində təcrübəlidir. O, bunun nə olduğunu bilir və bizimlə birgə getmək istəyir. Əgər həyatınızda ağrı varsa, İsa başa düşür. Əgər sən qəlbən yaralanmısansa, İsa da ondan keçibdir. Bu gün duada izin ver, O, sənin yükünü və kədərini Öz üzərinə götürsün.*

İsa bunu ona görə söylədi ki, Peterin necə öz ölümü vasitəsilə Allahı izzətləndirəcəyinə işarə etsin. Bunu söylədikdən sonra ona "ardımca gəl" dedi.

*Yəhya 21:19*

# Böyük pastorun həyat yoldaşı

**RUMINİYA:** SABİNA VURMBRAND

**Gözəl Rumıniyanın şəhər kənarı ilə zorakılıq işlədən faşist və kommunistlərin əllərində əzab çəkən məsihçilər və yəhudilər arasında kəskin fərq var idi. Sabina Vurmbrand üçün sınaqlar üç qat idi: O, məsihçi və yəhudi kimi dünyaya gəlmişdi və məşhur pastorun həyat yoldaşı idi.**

Bir gün o, anasının, atasının, üç kiçik bacısının və doqquz yaşlı qardaşının toplandığı düşərgədə vəhşicəsinə qətlə yetirildiklərini öyrəndi. Həmin gün onun imanı canlandı və həqiqi oldu.

Allahın lütfü ilə dolaraq Sabina dedi: "Mən qəmgin sifətdə olmayacağam. Mən Allaha şən imanlı, toplantıya cəsarət nümunəsi və ərimə sülh içində olan arvad olmağa borcluyam."

Sabina heç vaxt özünün şəxsi kədərinə və əzabına imkan vermirdi ki, ətrafındakılara ictimai ilhamlandırıcı olmaqdan onu saxlasın. Onun düşüncəsində, onun seçimi yox idi. Ölüm və əzab, xüsusilə də gizli toplantı üzvləri arasında geniş yayılmışdır. Pastor arvadı olduğuna görə, ona çox gözlər baxırdı. Əgər o, ümidini itirsə, onlarda hansı ümid olardı?

Sonra Sabina iki ilini qadınların ən çox alçaldıldığı və həbsxanalar içərisində ən çox qəddar davranışların olduğu kölə düşərgəsində keçirdi. Hətta həbsxanada da o, hamı ilə mehriban olmasına görə tanınırdı və o, həmişə xoş sözlər deyirdi.

Rumıniyanı tərk etməzdən əvvəl, Allah Sabinaya onun mükafatını verdi. O və əri Riçard onun ailəsinin qatilini Məsihə gətirdilər!

*Pastorluq etmək pastorlar ilə onların həyat yoldaşları arasında şəriklilikdir. Biri digərinin xidməti və ruhlandırması olmadan tam deyildir. Allah heç bir məsihçini tənha guşədə işləyib və yaşamağa çağırmır – O, cəmiyyət içinə çağırır. Başqa məsihçilərin xidmətimizdə bizimlə birgə gəlməsinə və vaxtaşırı bizə müdriklik verməsinə və ruhlandırmasına ehtiyacımız var. Biz bunu tək etməli deyilik – nə də ki belə etməyə cəhd etməliyik. Öz təsir dairən barəsində düşün. Ruhani xidmətdə sənin həmkarın kimdir? İş yerində, evində, yaxud məktəbində effektiv şahid olmağın üçün kim sənin üçün dua edir? Allahdan dilə ki, səni ruhlandıran və lazım gələndə möhkəmləndirən məsihçi yoldaşa istiqamətləndirsin.*

Qardaşımız, Məsihin Müjdəsini yaymaqda Allahın əməkdaşı olan Timoteyi sizi imanda möhkəmləndirmək və ruhlandırmaq üçün göndərdik.

*1 Salonik. 3:2*

# Böyük qüvvət

**İNDONEZİYA:** FRİTZ

**Fritz başına vurulan hər bir zərbəni hiss edir və güc üçün dua edirdi. Müsəlman hücumçular onu əhatə etdilər və növbə ilə onun sifətinə döydülər. Müsəlman hücumçulardan biri bunun məsihçi pastordan qurtulduqlarını fikirləşərək böyük bir bıçaq götürdü. Birinci dəfə bıçaq Fritzə girəndə onun əlindən gələn şey yalnız: "İsa!" – deyə, qışqırmaq idi. O, təkrar olaraq bıçaqlanırdı. Və hər dəfə o: "İsa" – deyə, qışqırırdı. Hücumçular ölmək bilməyən pastora daha da çox əsəbiləşirdilər!**

Radikal müsəlmanlar hh  skamyaları və kafedranı yerindən çıxartmağa və onları yandırmağa davam edirdilər. Müsəlmanlardan ikisi Fritzi tutdu və alışıb yanan taxtaların üstünə atdılar. Öz hücumlarından razı qalaraq onlar qaçdılar. Fritz ondan sonra olan şeyləri elə də yaxşı xatırlamır, lakin o, bir şeyi bilir: Onun başında bir tük belə yanmamışdı.

Hücumdan qısa bir müddət sonra Fritz İndoneziyanın həmin ərazisində olan ən böyük xəstəxanalardan birinə gətirildi. Lakin onun məsihçi olduğu bilinəndə, ona yardım etməkdən imtina etdilər. O, başqa bir xəstəxanaya gətirildi, lakin qulluq edən həkim dedi ki, əgər o, gecəni sağ qalsa, onda həmişəlik beyin zədəsi ilə yaşayacaq.

Uzun müddətli müalicədən sonra Fritz indi yeni bir məbəddə yenidən təbliğ edir. Onun üçün heyrətamiz olan, Fritzə hücum edən müsəlmanlardan birinin ondan yalnız bir sual: "Bu İsa kimdir?" – soruşmaq üçün onu axtarmağa başlaması oldu.

*Daimi "Ekspert" hesab edilməkdən kim həzz almaz? Bu mexanik, riyaziyyatçı, alətlər, dülgərlik, incəsənət, marka toplamaq, yaxud idman ola bilər – hamı ən azı bir sahədə ekspert hesab edilə bilər. Biz, bizə tanış olan mövzular barədə suallar aləmini sevirik. Lakin kimsə bizdən soruşsaydı ki: "Bu İsa kimdir?" – biz "ekspert" kimi hazır olardıq? Hər bir məsihçi özlüyündə müjdəçi deyildir. Lakin hər bir məsihçi imkan düşəndə xilas planını bölüşməklə müjdəçilik edə bilər. Əgər qeyri-imanlı dostun sənə o sualı versəydi, sən necə cavab verərdin? Əgər əmin deyilsənsə, bunu bilən insanla danış.*

Daxilinizdə olan ümid barəsində sizdən hesabat istəyən hər kəsə cavab vermək üçün hazır olun.

*1 Peter 3:15*

# Böyük gənclər qrupu

**RUSİYA:** PASTOR SEREBRENNİKOV

**Yerli qəzet bu səhnəni "vəhşilik" kimi təsvir etdi. Bu, qətl səhnəsi, yaxud bədbəxt maşın qəzası deyildi; bu, Müqəddəs Kitab dərsi idi.**

Hekayə 1960-cı ildə kommunist Rusiya qəzetində çıxdı. Bir hissəsində deyilirdi: "Gənc oğlanlar və qızlar ruhani nəğmələr oxuyurlar. Onlar mərasim olaraq vəftiz olunurlar və düşmənə qarşı şər, xain sevgi təlimini saxlayırlar!" Hekayə şokedici həqiqəti aşkara çıxartdı ki, Kommunist Gənclər Təşkilatında gənc insanların çoxu gizlicə məsihçi idilər.

"Biz ilk məsihçilər kimi öz Xilaskarımıza inanmalıyıq." – Pastor Serebrennikov öz gənclər qrupunda dedi. "Bizim üçün ən başlıca qanun Müqəddəs Kitabdır. Biz başqa şeyi tanımırıq. Biz insanları günahdan xilas etməyə tələsməliyik, xüsusilə də gəncləri."

Kommunistlər, pastorun imana gətirdiyi adamlardan birinin məktubunu tapanda pastoru həbs etdilər. Yeniyetmə qız yazmışdı: "Sevimli Rəbbimizdən sizə xeyir-dualar göndərirəm. O, məni nə qədər çox sevir!"

Qəzet redaktorları ki, kommunist tələbələrin Məsihin ardınca getməyi necə seçdiklərini bilmək istəyirdilər və kommunist məktəbini "gücsüz" və "işıqdan məhrum" olmaqda ittiham edirdilər. Onlar deyirdilər ki, məsihçilik "onların laqeyd müəllimlərinin nəzarəti altından öz şagirdlərini əlindən qapa bilər."

Bu, müəllimlərin laqeydliyi deyildir. Bu, pastor Serebrennikov tərəfindən təqdim olunan Məsihin sevgi çağırışı idi və bu gənclər qrupunun üzvləri – məsihçilər idi ki, qaranlıq ölkədə öz işıqlarını saçırdılar.

Siz dünyanın nurusunuz. Dağın zirvəsində qurulan şəhər gizli qala bilməz. Heç kim çırağı yandırıb qabın altına qoymaz. Əksinə, çıraqdana qoyar ki, evdəkilərin hamısını işıqlandırsın.

*Matta 5:14-15*

*"Məndə olan bu balaca işıq, qoy o nur saçsın...." Bu tanış uşaqlıq mahnısının sadə musiqisi var və yadda saxlamaq üçün sözləri çox deyil – bu mahnı oxunulduqdan neçə günlər sonra da kiminsə yaddaşında qala bilər. Gənc uşaqlar üçün mahnını yadda saxlamaq asan gəlir, lakin onu yaşamaq, xüsusilə də biz yaşlaşdıqca daha çətindir. Nurumuzun işıq saçması və Allaha şərəf gətirməsi üçün gündə bizim neçə dəfə şansımız vardır? İki, yaxud üç? On? İyirmi? Dəqiq rəqəm mühüm deyildir. Mühüm olan bizim hər gün üzləşdiyimiz hadisəyə reaksiyamızdır. Kim bilir? Bəlkə sənin işığın başqalarının evə olan yolu tapmaq üçün ehtiyacları olduğu şeydir.*

# Böyük "satış"

RUMINİYA: SABİNA VURMBRAND

**Təkrarolunma əsəbiləşdirici idi və Sabinanın əsəbləri artıq pozulmaq üzrə idi. Lakin məmur qəddar idi. "Bizdə səni danışdırmaq üçün sənin xoşuna gəlməyəcək üsullar var. Bizimlə ağıllı olmağa çalışma. Bu, bizim vaxtımızı boş yerə itirir."**

Onların sualları başqa məsihçilərin adlarını öyrənmək məqsədilə idi – onlar imanda analıq etdiyi və təqiblə üzləşəndə güclü olmağa ruhlandırdığı imanlılar idilər. İndi güclü olmaqda onun növbəsi idi, lakin sorğu-sual sessiyalarına daha artıq dözəcəyini fikirləşmirdi.

Sonrakı sessiya daha yumşaq, hiyləgər yaxınlaşma ilə oynanıldı. Sorğu-sual edən tək idi və gülümsəyirdi. "Əziz qadın, sənin cəmi otuz altı yaşın var, bütün həyatın hələ qarşıdadır. Bizə sadəcə o satqınların adını ver." Sabina səssiz idi.

O davam etdi: "Gəl əməli olaraq danışaq. Hamının öz qiyməti var, ona görə də, nə üçün öz qiymətini deməyəsən? Sadəcə, bizə nə istədiyini de. Sənə və ərinə azadlıq? Yaxşı ev və məbəd? Biz sənin ailənin qayğısına yaxşı qalacağıq." Sabina tam əminliklə cavab verdi: "Çox sağ ol, amma mən artıq özümü satmışam."

"Eləmi?" – sorğu-sual edən sözünü kəsdi. "Neçəyə və kimə?"

"Allahın Oğlu əzab çəkmişdir və mənə görə Öz həyatını vermişdir. Onun vasitəsi ilə mən cənnətə çata bilərəm. Sən ondan daha yüksək qiymət ödəyə bilərsən?"

*Biz gənclərin bundan keçmələrini gözləyirik. Biz deyirik ki, bu, böyümə mərhələsidir. Amma biz heç vaxt fikirləşmirik ki, bu, bizi yetkin olana qədər təngə gətirəcəkdir. Öz tay-tuşları tərəfindən qəbul edilmək istəyi. Bu, bizim öz dəyərimizi güzəştə getməyə sövq olunduğumuz vaxt hamıya tanış olan kiminsə və ya nəyinsə tərəfindən "alınmaq" hissidir. Bu baş verəndən sonra, biz özümüzü aldanmış hiss edirik. Ağılsız kimi. Özümüzü ucuz hiss edirik, öz dəyərimizi satmış kimi hiss edirik. Amma Məsih bizim dərdlərimizi udmaq üçün ən sonuncu qiyməti ödədi. Əgər hamının qiyməti varsa, O, bir dəfə və həmişəlik bizim yerimizə ödədi. Onun tökdüyü qan Onun gözləri önündə bizi dəyərli edir. Sən artıq alınmısan və sənin üçün qiymət ödənilibdir, buna görə də özünü ucuz qiymətə satma. Bu gün özünə bunu xatırlat.*

Siz çox baha qiymətə
satın alınmısınız, insanlara
qul olmayın!

*1 Korinf. 7:23*

# BÖYÜK SADİQLİK

**Təqib edilmiş qardaşını xatırlamayan məbəd, heç məbəd deyildir.**

Gizli məbəd üzvlərini qorumaq üçün dəhşətli işgəncələrə tab gətirən Lüteran pastor.



161 gün

# Böyük alətlər

**BİRLƏŞMİŞ ŞTATLAR**

**Qatar qəzasının tüstüsü əzilmiş maşınların arasında qırılmış bədənləri olan və qanı axan sərnişinlərin əzablarının güclü qışqırıqları kimi kəskin idi. Yaralılar və ölənlər arasında toqquşmadan zədələnməyən cərrah gəzirdi. Onun baqajı isə qarışıqlıq içində itmişdi və o qışqırırdı: "Mənim alətlərim! Mənim alətlərim! Alətlərim məndə olsaydı!"**

Tibb alətləri ilə, o kişi çox həyatları xilas edə bilərdi. Boş əlləri ilə o, faktiki olaraq, köməksiz olaraq bir çoxlarının ölməsinə baxırdı.

Bu günün təqib olunan məbədi cərrah kimidir. Onlarda kommunizm və Məsihsiz islamın dağıntılarında ilişib qalmış çoxlarının həyatını xilas etməyə istək və bilik vardır. Onlarda çatışmayan şey alətlərdir.

"Qardaşlarının və bacılarının fəryadlarını əsir düşmüş ölkələrdə eşit!" – Pastor Riçard Vurmbrand ilk dəfə Birləşmiş Ştatlara gələndə yazmışdır. "Onlar qaçmaq üçün rica etmirlər; onlar təhlükəsizlik üçün, yaxud asan həyat üçün rica etmirlər. Onlar sadəcə öz gənclərini – gələcək nəsillərini ateizm ilə zəhərləyənlərə əks təsir göstərmək üçün alətlər istəyirlər. Onlar Müqəddəs Kitab istəyirlər. Əgər onlarda bu yoxdursa, onlar Allahın Sözünü necə yaya bilərlər?"

Qadağa qoyulmuş ölkələrdəki məsihçilər özlərini bu alətlər ilə təmin edə bilmirlər. Onlar yardım üçün azad ölkələrdəki məsihçilərə arxalanırlar. "Bizə lazım olan alətləri verin" – bir məsihçi bizə dedi: "və biz onları istifadə etmək üçün qiyməti ödəyəcəyik!"

*Müəllim üçün tabaşir, tibb bacısı üçün iynələr, valideynlər üçün səbir və fermer üçün traktor. Hər bir şəxs, çağırışından asılı olmayaraq, bu alətlərdən istifadə edir. Bu, kompyuter kimi mürəkkəb ola bilər, yaxud bizim əllərimiz kimi primitiv ola bilər. Lakin bizim həyatlarımız bu alətləri ilə güclü surətdə dəyişir. Məsihçilər olaraq biz öz ruhani alətlərimizi tanıyırıq, çünki biz onlar barədə Allahın Sözündə, Müqəddəs Kitabda oxuyuruq. Bəs şəfqət, bağışlanma, sevgi, bölüşmə və Allahın təklif etdiyi bütün o ənamlar və istedadlar barədə heç vaxt oxumayanlar barəsində necə? Sən bu ruhani həqiqətləri xəsis qızılları ehtiyat üçün gizlətdiyi kimi gizlədərək, özündə saxlaya bilməzsən. Ehtiyacı olanlar ilə öz alətlərini könüllü olaraq bölüş.*

Bəs onlar iman etmədikləri
Şəxsi necə çağıracaqlar?
Barəsində eşitmədikləri
Şəxsə necə iman edəcəklər?
Vəz edən olmasa, necə
eşidəcəklər?

*Roma. 10:14*

# Böyük səfərlər

**VYETNAM**

**Qatarın təkərlərinin hər bir taqqıltısı vyetnamlı məsihçi qadının zəif bədənini möhkəm taxta oturacaqda ağrılı halda tərpədirdi. Lakin o, xidmətdə idi.**

Onun Şimali Vyetnamda rəhbərlik etdiyi məsihçilər üçün ruhani qidaya ehtiyacı var idi. Üç məbəddən olan adamlar, onların rəhbərlərinin uğurlu olması və dəyərli Müqəddəs Kitabları geri gətirə bilmələri üçün dua edirdilər.

Onun öz evindəki işi yorucu idi. O, ərazidə yeganə yetkin məsihçi idi və o, heç nədən yavaş-yavaş öz şəxsi şəhadəti ilə canları qazanaraq üç məbəd yaratmışdır. Onun nə maşını və nə də ki, velosipedi var idi. O öz kiçik ev toplantısına ya piyada gedirdi, yaxud da balaca taxta qayıqdan istifadə edirdi.

O, polis hədələri və təhlükələri ilə üzləşmişdir və onun buddist valideynləri onun imanına görə narahat idilər. İndi o, ona kömək üçün bir imanlı axtarmaq ümidi ilə üç gün səkkiz yüz kilometr yolu qatar ilə getməli idi. Nəhayət ki, o, Ho Çi Minh şəhərinə çatdı.

Orada o, ona şimaldakı məsihçilər üçün Müqəddəs Kitablar verən qərb ölkələrindən olan məsihçilərlə görüşdü. Onlar ona həmçinin, üç məbəddə xidmət etmək üçün velosiped də verdilər. Oranı tərk etməzdən əvvəl, onlar onun yolu və xidməti üçün Allahın xeyir-dualarını diləyərək birgə dua etdilər.

O, getməzdən əvvəl onlardan biri – "Sənin neçə yaşın var?" – deyə, soruşdu. Qadın üzünə düşən saçını kənara çəkərək pıçıldadı: "Mənim iyirmi iki yaşım var."

Bunların hamısına səy göstərərək özünü həsr et ki, sənin inkişafın hamıya aşkar olsun.

*1 Timotey 4:15*

*Böyük istedadlı uşaqlar öz yaşlarından kənar xüsusi bacarıqlara malikdirlər. Biz on beş yaşında universitet bitirən, on iki yaşından əvvəl simfoniya yazan, yaxud on altı yaşında idmanda fərqlənən kimisə tanıya bilərik. Tez-tez bizim cavabımız paxıllıqdır; biz öz gəncliyimizdə nəsə böyük bir şey edə bilməyimiz və buna görə tanınmağımızı da arzu edirdik. Vyetnamlı məsihçi qadın sadəcə onu etdi, amma yəqin ki, onda öz yaşıdlarındakından artıq xüsusi qabiliyyət yox idi. Buna baxmayaraq, onda İsanın ardınca getmək və Onu öz ölkəsindəki insanlara gətirmək istəyi var idi. Məsih səni də Onun üçün səyli olmağa çağırır. Allahın məhəbbətini bölüşmək o qədər sadədir ki, o, heç bir xüsusi qabiliyyət tələb etmir – yalnız sənin bu iş üçün yararlı olmağın lazımdır.*

# Böyük təlimat

**FRANSA:** FRANZ RAVENNAS VƏ MARTİN QUİLLABERT

**"Sən ölüm hökmünü eşidəndə, bunu Öz toy ziyafətinə dəvət edən izzət Padşahının dəvətnaməsi kimi qəbul edəcəksən."**

Təlimatlar çətin idi, amma aydın idi. Fransız müəlliflər olan Franz Ravennas və Martin Quillabert ölüm hökmü ilə üzləşən məsihçilər üçün təlimat kitabçası yazmışdılar. Onların Fransa İnqilabı dövründə "nəşriyyatları" həbsxana kamerası idi. Onlar öz kameralarını "cənnət üçün dəhliz" kimi görürdülər.

Təlimat bu sözlərlə davam edir: "Onlar sənin hökmünü oxuyub qurtarandan sonra, səndən əvvəl gedən çoxlu şəhidlər ilə birlikdə deyəcəksən: 'Minnətdaram, Rəbbim.' Sevinc ilahilərini oxu. Onlar sənin əllərini bağlayanda müqəddəs Paulun dediyi sözləri söylə: 'Mən Rəbb İsanın adı uğrunda təkcə əl-ayağımın bağlanmasına deyil, ölümə də hazıram.'

Güllələnməyə gedərkən mühafizəçilərə Kəlamdan Məsihə görə əzab çəkməyin və ölməyin ləzzəti haqqında danış. 'Məsihin məhəbbətindən bizi kim ayıra bilər?' (Roma. 8:35)

Edam edən şəxslə qarşılaşanda böyük şəhid İqnatiusun sözlərini xatırla: 'Xilaskarım üçün öldürüləcəyim xoşbəxt an nə vaxt gələcək? Mən nə qədər gözləməliyəm?' Eləcə də, təqibçilər üçün dua etməyi yadda saxla."

Ravenna və Quillabertin boyunları vuruldu. Onların sözləri azad ölkələrdə yaşayan məsihçilərin təsəvvürü üçün həddən artıq böyük bir şeydir, amma qadağalar qoyulmuş ölkələrdə bu nümunə hələ də istifadə olunur.

*Bizim yaşadığımız hər gün xəbərdarlıq ilə birlikdə yaşanmalıdır: Ehtiyatlı ol! Bizə verilən hər bir saniyədə faciə dəqiq bir imkandır. İstər maşın sürərkən, istər yol keçərkən, istərsə də gündəlik işimizi görərkən biz hadisədən, xəstəlikdən və ya məqsədli zorakılıq hərəkətindən təhlükəsiz deyilik. Biz bu dünyanın şərindən müdafiə olunmuş tərzdə yaşaya bilməsək də, Allahın bizə verdiyi vədlə yaşaya bilərik: Heç bir şey, tamamilə heç bir şey bizi İsada olan sevgimizdən ayıra bilməz. Ola bilsin ki, siz öz imanınıza görə heç vaxt ölməyəcəksiniz, amma siz ikrah olunma və başqa ağrılı təqiblər ilə üzləşə bilərsiniz. Allahın sevgisi bu gün sizin qarşınıza çıxan hər bir şeyin öhdəsindən gəlməyə kömək edəcək və yol göstərəcək.*

Çünki əminəm ki, nə ölüm, nə həyat, nə mələklər, nə başçılar, nə indiki, nə də gələcək şeylər, nə qüvvələr, nə ucalıq, nə dərinlik, nə də başqa bir məxluq bizi Rəbbimiz Məsih İsada olan Allah məhəbbətindən ayırmağa qadir olmayacaq.

*Roma. 8:38-39*

# Daha böyük alətlər

**İRAN**

**"Biz gilik, O isə dulusçudur."**

Bir imanlı pəncərənin qabağında dayanıb gecəyarısı küçəyə baxırdı ki, ibadət edənlərə mane olan polisin ətrafda gəzişib-gəzişmədiyini görsün. Məsihçilər İranın cənubunda gizlicə yığışmışdılar. Xarici qonaq təhlükəni bir az da artırırdı, çünki İran polisi məsihçilərin xarici adamla ünsiyyət qurduğundan xəbər tutsaydı, bərk qəzəblənərdi.

Bir imanlı yenicə polis məntəqəsindən azadlığa buraxılmışdı, onun bədənində olan qançırlar onunla necə rəftar edildiyini göstərirdi. Polis ona yaxından nəzarət etsə də və onun məsihçi işindən xəbərdar olsa da, o, həbsdə olmadığı vaxtda xidmət etdiyi qədər xidmət edirdi.

O, böyük həvəslə danışırdı və oraya toplaşmış məsihçiləri nəyin bahasına olursa olsun, Məsihə bənzəməyə çağırırdı. Onların hamısı bilirdi ki, ödəniş olduqca yüksək ola bilər, onların hamısı həbs edilmiş, döyülmüş və ya öldürülmüş məsihçiləri tanıyırdılar. Digərləri, sadəcə, yoxa çıxmışdılar.

Heyranedici ibadət uzun idi və Allahın hüzuru var idi. Toplantıdan sonra heyrətə gəlmiş xarici qonaq toplantıda danışan həmin imanlıdan xahiş etdi ki, həbsxanadakı həyat təcrübələri və çəkdiyi əzablar barədə ona danışsın. Xarici qonaq ona dedi: "Sən bu çətinliklərin içərisində ümid və sevinc ruhunu necə saxlaya bilirsən?"

"Bu sınaqlar Allahın əlində bir alətdir" – deyə, iranlı imanlı cavab verdi. "Mən kiməm ki, məni daha da müqəddəs etmək üçün Allahın istifadə etdiyi alətləri tənqid edim?"

Yenə də, ya Rəbb, Sənsən Atamız: biz gilik, Sən isə dulusçu, biz hamımız Sənin əlinin işiyik.

*Yeşaya 64:8*

*Gələcək insanları özünə cəlb edir. Əsrlər boyu biz gələcəyimizi bildiyini iddia edən ulduz fallarına və başqa şeylərə müraciət etmişik. Biz vaxtı geriyə qaytarmaq və irəliyə aparmaq barədə kitablar yazmışıq və filmlər çəkmişik. Biz həyatımız boyu etdiyimiz səyahətlərdə başımıza nələrin gələcəyini əvvəlcədən bilmək istəyirik. Gil dulusçudan ondan nə düzəldəcəyini soruşa bilmədiyi kimi, biz də Rəbbimizdən başımıza nə gələcəyini soruşa bilmərik. Amma biz Allaha etibar edə bilərik ki, Allah həyatlarımızda nə isə gözəl və müqəddəs bir şey yaradacaq. Biz iman ilə bilirik ki, biz Allahın əllərinin məhsullarıyıq. Həyatınızın hansı sahələrində sizi incəsənət əsərinə çevirməsi üçün Allaha, Usta Dulusçuya etibar etməyiniz lazımdır?*

BÖYÜK SADİQLİK

# Çarmıx üçün böyük sevgi

**ROMA:** ANDREY

**"Əgər sən bu İsadan inkar etməsən, çarmıxda öləcəksən." – hökmdar Aeqaeas hirsləndi. Bu məsihçi bütün Yunan əyalətlərinin başçılarına və hətta onun öz arvadına da məsihçiliyi yaymaqla Romanın gözündə özünə şəxsən biabırçılıq gətirmişdir.**

"Əgər mən çarmıxda ölməkdən qorxsaydım, onda mən əzəməti və Məsihin çarmıxının izzətini təbliğ etməzdim." – deyə, Andrey cavab verdi.

"Onda sən onu əldə edəcəksən! Onu çarmıxa çəkin!"

Andrey X formasında olan çarmıxa yaxınlaşdıqca, sevinclə elan etdi: "Ey sevimli çarmıx! Mən sənin burada ucalmana sevinirəm. Sənin qarşına sakit vicdan və sevinclə gəlirəm və dua edirəm ki, çarmıxa çəkilənin şagirdi olan mən də çarmıxa çəkilim. Çarmıxa yaxınlaşdıqca, mən Allaha yaxınlaşıram."

Andrey üç gün çarmıxa bağlanaraq, ondan asıldı, o, qarşısında olan insanlara təbliğ edir və onlara nəsihət verirdi. "Qəbul etdiyiniz Kəlamda və təlimdə möhkəm durun, bir-birinizə öyrədin ki, Allah ilə əbədiyyətdə yaşaya biləsiniz və Onun vədlərinin bəhrəsini əldə edə biləsiniz."

Andrey elan edirdi: "Ey Rəbb İsa Məsih! Burada sənin adın naminə üç gün asılan xidmətçini qoyma ki, yenidən azad olub insanların arasında yaşasın; məni Öz padşahlığına qəbul et." Sonra öz yalvarışını bitirərək ruhunu Allaha verdi.

*Çini qab. Dəyərli gümüş. İyirmi dörd karatlıq qızıl. Hətta platin. Çarmıx bu gün çoxsaylı modellərdə düzəldilir. Zərgərlik məmulatları. Divardan asmaq üçün şəkillər. Hətta arxadan görünən güzgü bəzəyi. Hər yerdə olan çarmıx. Özünün bütün məşhurluğuna baxmayaraq, nə qədər məsihçi dayanıb çarmıxın nə demək olduğunu fikirləşibdir? Əslində çarmıx işgəncə alətini təmsil edir – öz evində dar ağacının, yaxud elektrik stulunun olmasını təsəvvür et! Çarmıx bizə Məsihin ağrılı ölümünü xatırladır. Ondan əlavə, o, nə vaxtsa Allah ilə Onun xalqını ayrı salan günah üzərinə düşən körpünü təmsil edir. İsa Çarmıx vasitəsi ilə bizi Allaha geri qaytardı. Bu dəqiqə çarmıxın sənin üçün nə demək olduğunu fikirləş.*

Gözümüzü imanımızın Banisi və Kamilləşdiricisi olan İsaya dikək. O, qarşısına qoyulan sevincə görə rüsvayçılığı heç sayıb çarmıxa çəkilməyə tab gətirdi və Allahın taxtının sağında oturdu.

*İbr. 12:2*

# Böyük xilasedici iş

**NİDERLAND:** DÖRK UİLLEMS

**On altıncı əsrdə Niderlandda, ispan katoliklərinin hakimiyyəti dövründə Dörk Uilliems "Anabaptist" damğası almış və həbs edilmişdir. İndi isə o, öz həyatını xilas etmək üçün qaçırdı.**

O, kiçik bir pəncərədən qaçdı və köhnə əskilərdən düzəldilmiş kəndir ilə özünü aşağı saldı. Həbsxana divarlarının kənarındakı buzlaşmış gölməçəyə düşərək, o, yıxılıb-yıxılmayacağını düşünərək çox ehtiyat ilə buzun üstünə ayağını qoydu. Lakin aylarla həbsxanadakı aclığın indi ona yaxşı xeyri oldu. O, heç əlli kilo deyildi.

O, gölməçənin o biri tayına çatanda, bir çığırtı gecənin səssizliyini pozdu. "Tez dayan!" – deyə, mühafizəçi Dörkün elə təzəcə çıxdığı pəncərədən düşərək qışqırdı. Dörk azadlığa çox yaxın idi. O, getməyə davam edirdi.

Mühafizəçi buzun üzərində dayanaraq yenidən qışqırdı. O, cəld Dörkün ardınca qaçdı, lakin onun üçüncü addımında buz çatladı. Mühafizəçi şappıltı ilə sınmış buzun içərisinə yıxıldı. Onun çığırtıları indi soyuqdan və qorxudan yaranan güclü qışqırıqlara dəyişilmişdi. "Xahiş edirəm, mənə kömək edin! Mənə kömək edin!"

Dörk qarşıdakı azadlığa baxaraq dayandı. Sonra o döndü və cəld geri – həbsxana gölməçəsinə qayıtdı. O, qarnı üstə uzandı və əllərini az qala donmuş mühafizəçiyə uzatdı. Kinayəli minnətdarlıq ilə mühafizəçi Dörkdən yapışdı və ona öz kamerasına geri dönməyi əmr etdi.

Bu qəhrəmanlığına baxmayaraq, Dörk öz imanına görə dirəkdə yandırıldı.

*Sadiq məsihçi adi hisslər ilə yaşamır. Onlar ağlagəlməz olan nəticəni tam bilərək edirlər. Onlar təsəvvür edilməz şeyi onun nəticələrindən tam agah olaraq edirlər. Onlar qeyri-mümkün şeyi adi bir şey kimi edirlər. İmanlılar daha yüksək çağırışa əsasən yaşayırlar. Onların hərəkətləri və reaksiyaları bəzən o qədər qeyri-təbiidir ki, onlar yanlış başa düşülürlər. Bəziləri üçün Dörkün böyük xilasedici işi qeyri-təbii seçim kimi görünür. Hətta, ola bilsin ki, bir az da axmaqlıq kimi. Buna baxmayaraq, Dörk inanırdı ki, o, sadəcə Müqəddəs Kitaba əsasən hərəkət edir. O, başqasının ehtiyacını öz ehtiyacından qabağa qoydu. Biz qurbanlar edəndə, ola bilsin ki, bu dünya üçün həmişə məna kəsb etməyəcəyik, lakin biz bilirik ki, biz səmavi baxışda irəliləyiş edirik. Sən tez-tez daha çox adi hissə əsasən yaşayırsan? Yoxsa sən nəyin bahasına olursa olsun, Allahın əmrlərinin ardınca getməyə söz vermisən?*

Bütün qəlbinlə Rəbbə güvən,
öz idrakına etibar etmə.

*Sül. Məs. 3:5*

# BÖYÜK SADİQLİK

**Mən kommunist sisteminə nifrət edirəm, lakin mən insanı sevib, günaha nifrət edirəm, günahlı insanı isə sevirəm. Mən kommunistləri bütün qəlbimlə sevirəm. Kommunistlər məsihçiləri öldürə bilərlər, lakin məsihçilərin onlara qarşı olan sevgisini öldürə bilməzlər. Məndə kommunistlərə, yaxud mənə işgəncə verənlərə qarşı zərrə qədər də olsa qəzəb, yaxud inciklik yoxdur.**

Kommunizm dövründə imanına görə həbs edilmiş keçmiş məhbus.



168 gün

# Böyük təhlükəsizlik

**MİSİR:** ƏHMƏD

**"Nə üçün öz övladını təhlükə altına salırsan?" – deyə, üç misirli məmurlardan biri soruşdu.**

Əhməd öz imanını bölüşdüyünə və məsihçi ədəbiyyatları payladığına görə dəfələrlə həbs edilmişdir. Lakin o, hər bir sorğu-sualı Məsih üçün imkan kimi görürdü.

"Mənim övladlarımın təhlükəsizliyi məndən gəlmir" – o, sakitcə məmura dedi. "O, Allahdan gəlir."

"Nə üçün sən hökumətə itaət etmək istəmirsən?" – baş məmur soruşdu.

"Mən İsa barədə bölüşməyi dayandırmayacağam, çünki O, Həqiqət Yoludur." – Əhməd cavab verdi. "İsa mənim qəlbimi dəyişibdir."

Məmur onu gizlicə çap edilmiş məsihçi ədəbiyyatları barədə sorğu-sual etdi. Onlar həmçinin, xüsusi məsihçilər haqqında və onların işləri barədə də sual verdilər. Hər iki halda Əhməd dinməz dayandı.

"Mən onlara heç nə demədim" sonradan Əhməd dedi. "Mən Məsihin Bədəninə satqın ola bilmərəm." Onlar başqa məsihçiləri izləməyi və sonra onlara xəbər verməyi ondan xahiş edəndə, o, onlara dedi: "Bu, mənim işim deyil."

Başqa bir vaxtda, Əhməd həbs edilmişdi və məsihçi ədəbiyyatları ilə dolu çamadanı daşıdığına görə Türkiyədə polis tərəfindən sorğu-sual edilmişdir. "Əgər sən bizim suallara cavab verməsən və bizə kömək etməsən, Türkiyə dövlətinə problem yaratdığına görə səni həbs edəcəyik" – polis dedi.

"İsa bizə hakimiyyətlər üçün problem yaratmağı söyləmir." – deyə, Əhməd cavab verdi. "O, bizim Onun sevgisi və bağışlanması barədə şəhadət etməyimizi istəyir."

İblisin hiylələrinə qarşı dura bilmək üçün Allahın verdiyi bütün zireh və silahlara bürünün.

*Efes. 6:11*

*Problem yaradanlar. Onlar dərs vaxtı söhbət etməyi dayandırmayan uşaqlardırlar. Onlar məktəbdə başqasının nahar pulunu oğurlayan dalaşqan uşaqlardır. Onlar iş yerində başqalarına böhtan atan və şayiələr yayan qeybətçilərdirlər. Məsihçilər problem yaratmaq üçün çağırılmayıblar. Sözün düzü, İsa bizi sülh yaradanlar adlandırır. Bu qaydanın bir istisnası var: Biz şeytan və onun planları üçün problem yaradanlar olmalıyıq. Biz iblisin padşahlığı üçün adi zərərsiz olmağımıza imkan verə bilmərik. Dua bizim ən təsirli silahımızdır. Sənin duaların nə qədər tez-tez şeytanın işlərini puç edir? Bu gün İsanın adı ilə düşmənin planlarına qarşı dua et.*

# Böyük itaətkarlıq

**ÇİN:** PASTOR VƏ ONUN ANASI

**Pastor sorğu-sual edilirmiş və tez-tez döyülürmüş, lakin bu gün mühafizəçi söhbət etmək üçün onu otağa apardı. O dedi: "Mən sənin imanın haqqında maraqlanıram və xahiş edirəm ki, mənə On Əmri deyəsən."**

Təəccüblənərək pastor On Əmri bölüşməyə başladı. O, "Anana və atana hörmət et" deyilən yerə çatanda, məmur onu saxladı. "Burada dayan. Siz məsihçilər inanırsınız ki, Allah 'Anana və atana hörmət et' əmrini çox vacib əmr kimi seçibdir. Xahiş edirəm, küncə baxın." Pastor çevrilərək yaşlı bir qadının qandallanmış və bir topa əskinin altında qançırlanmış olduğunu gördü. O qadın pastorun anası idi.

Mühafizəçi soruşdu: "Ananın nə qədər əzab çəkdiyinə bax. Əgər sən bizə gizli məbədin sirlərini desən, sən və anan azadlığa çıxa bilərsiniz. Əgər o, bizim işgəncələrimizdən ölsə, sən ona hörmət etmək əmrinə əməl etməmiş olacaqsan və onun qanı sənin üzərində olacaqdır."

Pastor huşu qayıtmağa başlayan anasına tərəf döndü. "Əziz ana, mən nə etməliyəm?"

Məhəbbətlə o cavab verdi: "Sən balaca oğlan olandan bəri sənə Məsihi və Onun məbədini sevməyi öyrətmişəm. Allaha xəyanət etmə. Mən müqəddəs ada görə ölməyə hazıram."

Pastor geri mühafizəçiyə baxdı və yenilənmiş cəsarətlə dedi: "Siz çox doğru idiniz, kapitan. Hər şeydən öncə, insan anasına hörmət etməlidir."

*Skeptiklər məsihçiliyi alçaltmaq üçün tez-tez bu sualı verirlər: "Nə üçün dünyada bu qədər əzablar var?" Onlar sevən Allahın günahsız insanların əzab çəkməsinə izin verdiyi ilə barışa bilmirlər. Hətta onlar əzablara məruz qalan məsihçiləri Allahın planlarının düz getmədiyinə də inandırmağa çalışırlar. Əzablar, doğrudan da, Allahın planının bir hissəsidir? Bu suala cavab üçün İsanın yerdəki həyatına bax. Onun çarmıxdakı əzabları Allahın planının əsası idi ki, o da bizim xilasımız və Onun izzəti ilə nəticələndi. Sən Allahın planına görə əzab çəkəndə, sən İsanın gəzdiyi yerdə gəzirsən: çarmıxa, məzara və – sonda – göylərə. Allaha hətta öz ağrılarınızda belə Onun nə etdiyini bildiyinə etibar edəcəksənmi?*

Əksinə, Məsihin əzablarına nə qədər şərik olursunuzsa, o qədər sevinin ki, Onun izzətli zühurunda hədsiz sevinəsiniz.

*1 Peter 4:13*

# Böyük nümunələr

**BİRLƏŞMİŞ ŞTATLAR:** SOFİYANIN ANASI

**1996-cı ildə bizim qızımız Sofiyada onun həmişəlik beyin zədəsi almasına səbəb olan uzunmüddətli ürəkkeçmə baş vermişdi. O, aylarla əzab çəkirdi, bəzən ara vermədən iki-üç gün ağlayaraq ağrı içində qovrulurdu. O, nə bizi tanıyırdı, nə də ki, bizə cavab verirdi.**

"Bir tibb bacısı başa düşə bilmirdi ki, biz Allahın buna yol verdiyi üçün nəyə görə Allaha qəzəblənmirik. Mən onu başa salmağa çalışırdım ki, biz Onun xidmətçiləriyik və Allahın bizə Öz Oğlunda verdiyi böyük hədiyyədən imtina edə bilməyəcəyik. Sofiyanın ürəkkeçməsindən dörd ay sonra, o öldü.

O ölən günü mən "Şəhidlərin səsi" məqaləsində öz körpəsinin yanında oturan döşləri kəsilmiş sudanlı bacıların şəkillərini gördüm. Onun təqibçiləri bu dəhşətli işləri ona edərək işgəncə vermişdilər, onu məcbur etmişdilər ki, körpəsinin aclıqdan ölməsini öz gözləri ilə görsün. Onun olduğu yerdən min kilometrlər aralıda mən onun ağrısını başa düşürdüm və ağlayırdım, mən düşünürdüm ki, özümə yazığı gəlmək içində vurnuxmağıma yol verməyəcəyəm.

O qadın və onun kimi digərlərinin bizdə olduğu kimi tibbi yardımları, cəmiyyətləri və sevən qardaşları yox idi. Buna baxmayaraq, onlar çox şeyə tab gətirmişdilər və mən də Allahın lütfü ilə tab gətirə bilərəm.

Mənə Rəbb İsa Məsihin belə canlı məktubları lazımdır ki, gerçəkliyi, yəni İsanın yaşadığını və bu dünyanın mənim evim olmadığını ifadə edə bilim."

*Allahın hüzurunun Müqəddəs Ruh Şəxsiyyəti vasitəsi ilə yaxın olduğu vaxtda, bizə tez-tez imanımız üçün üstlərində dəri olan ruhani ruhlandırıcılara ehtiyacımız vardır. Əsrlər boyu həqiqi ilham nümunələri olan şəhidlər və başqa imanlılar bizi inanmağa ilhamlandırır ki, bəlkə biz də onlar kimi cavab verək. Biz onların keçirdikləri müsibətləri keçirməsək də, onların mətanətini və cəsarətini gündəlik həyatımıza qəbul edə bilərik. Əgər sən hansısa böyük iman hekayəsi ilə ilhamlanmısansa, onu başqaları ilə bölüş. Nümunəni başqalarına ötür. Başqalarına öyrət ki, irəlidə gedənlərdən güc əldə etsinlər, hamıya nümunə kimi onların imanlarını yaşasınlar.*

Xidmətimizin nəticəsi olan bir Məsih məktubu olduğunuz aydın görünür; bu məktub mürəkkəblə yox, var olan Allahın Ruhu ilə daş lövhələrə deyil, ət ürəklərə yazılıb.

*2 Korinf. 3:3*

# Böyük imtina

**RUSİYA:** SERGEY MEÇEN

**"Məsihçilik elə bir təlim deyildir ki, onu kitablardan, yaxud vəzlərdən əldə edə biləsən", Moskvadakı Maroseyka Kilsəsinin rəhbəri Sergey Meçen təbliğ edirdi. "İsa deyib: "Mən həqiqətəm." Həqiqət xüsusi növ həyatdır ki, sən Məsihin nümunəsini izləməklə ona nail olursan."**

1923-cü il idi və Rusiyanın yeni kommunist hakimiyyəti məsihçilik cildinə girmiş, lakin sosializmdən başqa heç bir şey olmayan "Yaşayan Kilsə" adlı kilsə təşkil etdilər. Pastor Sergey yazılmış duaları oxumaqdan və kommunistlərin təsdiq etdiyi gücsüz, zəif Allah ideyasını təbliğ etməkdən birbaşa imtina etdi. O, buna görə əzab çəkəcəyini bilərək, öz xalqına həqiqəti təbliğ etməyə davam edirdi.

Sergey beş il həbs edildi və kommunistlər onun məbədini bağladılar. Amma onun həbsdəki müddəti yalnız onu xidmət üçün daha tamlıqla hazırladı. Azadlığa çıxdıqdan dərhal sonra o, gizli məbəd ilə öz işini yeniləşdirdi. O, onun keçmiş pastoru, arxasını Allaha çevirən adam onu satana qədər, Sergey hər gün saatlarla sadiqcəsinə xidmət edirdi. Hakimiyyət o pastoru professor vəzifəsi ilə mükafatlandırdı.

Sergey tez-tez İsanın "yaxşı çoban öz qoyunları üçün həyatını verir" sözlərini oxuyurdu. O, heç vaxt öz qardaşını satmayacağına qərar verdi. Onun davamlı məsihçi işlərinə görə, Sergey Meçen 1941-ci ildə güllələnmə dəstəsi tərəfindən edam edildi. Onun həyatı ötüb keçdi, lakin onun müjdəsi qalır: "Həqiqət kiminsə ehtiyacına yardım etmək üçün dəyişmir."

*Allah qutuda gəlmir. O Özünün bütün izzətində və tamlığında gəlir, belə olmasaydı, O, heç Allah olmazdı. Bəziləri Allaha qarşı olmadıqlarını deməkdə tələsirlər, bunu onlar təbliğ etmək istədikləri allah olana qədər edirlər. Elə bil ki, onlar ruhani kafedədirlər, onlar istədiklərini seçirlər və Allah barədə fikirlərdən həzz alırlar və qalan şeyləri qabaqdan qalan yemək kimi uzaqlaşdırırlar. Allahın xasiyyəti və təbiəti insani keflər ilə dəyişmir. Biz Allahı başqa bir formaya salmağa çalışa bilərik, amma son nəticədə biz uğursuzluğa məruz qalacağıq. Allahın xasiyyətini və təbiətini istənilən məqamda uzaqlaşdıran hər bir kəsdən kənara dur. Küfr görəndə onu tanıya bilirsən?*

Siz qısa bir müddət əzab çəkdikdən sonra sizi İsa Məsihdə Özünün əbədi izzətinə çağırmış, hər cür lütf verən Allah Özü sizi bərpa edəcək, möhkəmləndəcək, qüvvətləndirəcək və sarsılmaz təmələ oturdacaq.

*1 Peter 5:10*

# Böyük rahatlıq

**RUMINİYA**

**Pastor, arvadı və altı uşağı səhər yeməyi yeyərkən Məzmur 23-ü yenicə oxumuşdular. Qəfildən polis pastoru həbs etmək və evi araşdırmaq üçün içəri girdi.**

Polis ondan soruşdu: "Sənin deməyə sözün yoxdur? Kədər, ya da peşmançılıq hissi keçirmirsən?" Pastor ehtiyatla cavab verdi: "Sən bizim bu gün etdiyimiz duaya cavabsan. Biz indicə oxumuşduq ki, Allah düşmənlərimizin önündə bizim üçün süfrə açır. Bizim süfrəmiz var idi, amma düşmənimiz yox idi. İndi sən gəldin. Əgər süfrədə olanlardan nəyisə istəsən, mən səninlə bölüşə bilərəm. Sən Allah tərəfindən göndərilmisən."

"Sən belə səfeh sözləri necə deyə bilərsən? Səni həbsxanaya aparacağıq və orada öləcəksən. Sən uşaqlarını bir daha görməyəcəksən." Özünü rahat aparmaqda davam edən pastor dedi: "Biz onun haqqında da bu gün oxumuşuq: "Ölüm kölgəsinin dərəsində gəzsəm belə, şərdən qorxmaram."

Polis qışqıraraq dedi: "Hər bir kəs ölümdən qorxur. Mən bunu bilirəm, çünki insanların üzündə görmüşəm."

"İtin kölgəsi insanı dişləyə bilməz və ölümün kölgəsi insanı öldürə bilməz. Siz bizi öldürə və ya həbsxanaya sala bilərsiniz, amma heç bir pis şey başımıza gələ bilməz. Biz Məsihdəyik və əgər biz ölsək, O, bizi öz dünyasına aparacaq."

*Sülh. Narahat və azğın müasir iqtisadiyyatda sülh məşhur fond kimi dəyərlidir. Xoşbəxtlikdən bütün imanlılar İsa Məsih ilə Allahın hədiyyəsində səhmdarlardır. Amma bir çox insanlarda bu sülh çatışmır. Bəziləri əmrləri alıb bərk narahat olurlar, Allahdan kənarda sülh axtarmağa çalışırlar. Onlar hansı yaxşı hissi əldə etsələr də, həmin hiss müvəqqəti olacaq. Sonra onlar yenə narahatçılığa və həyəcana qayıdacaqlar. Əksinə, Allahın sülhü əzablarımızda dincliyi əldə etməyimiz üçün bizə imkan verir. Heç bir sınaq sizin Ona olan etibarınızı əlinizdən ala bilməz. Bu hekayədə olan həlim pastor kimi fəlakət xəbərdarlıq etmədən baş versə də, siz Allahın kamil sülhü ilə hazırlaşmış olacaqsınız.*

Ağlı Sənə yönəlmiş adamlara Sən kamil sülh verirsən, çünki onlar Sənə güvənir.

*Yeşaya 26:3*

# Böyük fikirlər

## RUSİYA: KNYAZ VLADİMİR

**"Knyaz, tərpən!" – mühafizəçi gənc oğlanın qolundan yapışaraq güldü. "Gəl, görək yeni yerini necə bəyənəcəksən." Mühafizəçilər knyaz Vladimiri onun təmtəraqlı Qika evindən xoşagəlməz həbsxana kamerasına apardılar. O gördü ki, bir küncdə məhbuslar ölmüş arıq bir məhbusun paltarlarını və ədyalını çıxarırlar. Arxada isə işgəncə verilən məhbusların qışqırıq səsləri eşidilirdi.**

Bu yer onun dəbdəbəli evindən olduqca uzaq idi. Amma knyaz Vladimir ona təsəlli verən və rəhbərlik edən Məsihə imanından möhkəm yapışaraq həbsxananın ağır şəraitlərində sağ qaldı. Vladimirin məhbus yoldaşı deyirdi: "Mən kommunist həbsxanalarından başqa heç bir yerdə belə pak dualar və əbədi dəyərə malik düşüncələr eşitməmişəm."

Vladimirin həmin vaxtlarda əbədiyyət barədə düşüncələri böyük gücə malik bir kitabda nəşr olunmuşdu. O yazırdı: "Əzablardan yaranmış sevinci bölüşən insanlar xeyir-dualıdır. Başqalarına görə özünü inkar edən şəxs Məsihi geyinir. Sizə yaxınlaşmağa cürət etməyən insanı axtarın. Sizdən xahiş etməyən insana verin. Sizi kənara itələyən insanı sevin. Qoy mənim sevincim heç vaxt başqalarının əzab çəkməsindən gəlməsin. Qoy mənim əzablarım başqalarına sevinc gətirsin."

Kim fikirləşərdi ki, belə "pak dua və əbədi dəyərə malik düşüncə" rəhmsiz kommunist zindanlarından sağ çıxan taxt-tacdan salınmış knyazındır?

*Mənfi düşüncələr bizə hərtərəfli təsir göstərə bilər. Əgər biz ağlımızı əzablarımıza tuşlasaq, nəticədə daha da hirsli və kinli olarıq. Əgər biz böhranın içərisində müsbət tərzdə düşünməyi seçsək, onda biz özümüzü vəziyyətlərimizdən yuxarıya qaldıra bilərik. Təkcə biz özümüzü ruh düşkünlüyündən və vəziyyətlərimizdən xilas etmirik, eləcə də başqalarına kömək edirik. Vladimir öz əzablarında sevinc hissi keçirirdi. Siz çətinliklərdən keçərkən mənfi tərzdə düşünməyə meyil edirsinizmi? Yadda saxlayın, siz həyatınızda baş verənləri idarə edə bilməzsiniz. Amma siz öz münasibətinizi idarə edə bilərsiniz. Mənfi tərzdə düşünməkdən imtina edin. Allahdan xahiş edin ki, sizə çətinliklərinizdə müsbət baxışlar versin və başqalarına kömək etmək üçün gözlərinizi açsın.*

Onda Allahın ağlagəlməz sülhü ürəklərinizi və düşüncələrinizi Məsih İsada qoruyacaq.

*Filip. 4:7*

# BÖYÜK SADİQLİK

**Ürək Onda rahatlanana qədər narahat olur.**

Müqəddəs Avqustin



175 gün

# Böyük müqəddəs

**ROMA:** MÜQƏDDƏS NİKOLAS

**"Eləmə" – o biri məhbusu öldürmək üçün qılıncını qaldıran əsgəri görən Nikolas qışqırdı. "O, ölümə layiq heç bir iş görməyib." Həmin məhbus İsa Məsihə iman etdiyi üçün öldürüləcəkdi. Qılınc məhbusun bədəninə daxil olmazdan qabaq, Nikolas qoçaqcasına əsgərin qılıncından yapışdı.**

"Sən deyən kimi olsun, Nikolas...bu gün öldürüləsi adam çoxdur." Əsgər uzaqlaşıb gedərkən yerə tüpürdü və öz vəzifə öhdəçiliyini başqa yerlərdə icra etdi.

Nikolas tarixin ən çətin vaxtında Məsih barədə danışmışdı. 303-cü ildə imperator Diokletian məsihçilərin ən amansız təqiblərindən birinə başladı. O qədər məsihçi öldürülmüşdü ki, əsgərlər yorulmuşdular və növbə ilə işləyirdilər.

Nikolas isti dəmirlərlə damğalanmışdı. Mühafizəçilər onu amansızcasına döymüşdülər, amma o, sağ çıxmışdı. O, həm də İsanın Allah Oğlu olduğunu inkar etmədiyi üçün başqa işgəncələrə də tab gətirmişdi. Onun üçün bu qədər gerçək olan Şəxsi necə inkar edə bilərdi? Nikolas böyük ədalətsizlik dövründə əzmlə dayandı.

Həbsxanadan azadlığa çıxdıqdan sonra o, qalan həyatını yetimlər evi təşkil etməklə və kasıb uşaqları müdafiə etməklə keçirdi. O, Məsihin Müjdəsini yaradıcı yollar ilə irəliyə aparmağa özünü həsr etmişdi. Hətta bir dəfə o, coraba bükülmüş pulu iki kasıb qızın evinin pəncərəsindən içəriyə tullamışdı ki, qızlar fahişəxanaya satılmasınlar.

*Ölümündən çox-çox illər sonra Nikolas böyük sevgi ilə müqəddəs Nikolas adlandırıldı. Bir çox uşaqlar üçün Milad bayramından bir gün əvvəl ilin ən sehrli gecəsi olur, onlar Santa Klausdan, müqəddəs Nikolasın karikaturasından hədiyyə gözləyirlər. Müqəddəs Nikolas əslində uşaqların hətta düşündüklərindən də böyük qəhrəman və sevgi ilə dolu bir şəxs olub. Öz həyatınızın hekayəsi barədə düşünün. İnsanlar sizin İsa Məsihə olan imanınız barədə həqiqəti bilirlərmi? Yoxsa onlar sizi sadəcə mehriban və qeyri-adi tərzdə tərbiyəli bir insan kimi tanıyırlar? Santa Klaus həqiqətən mövcud olmasa da, müqəddəs Nikolas mövcud olub və siz də mövcud olmalısınız. Siz, ola bilsin ki, özünüzü müqəddəs kimi hiss etmirsiniz, amma dünyaya əzmli məsihçilərin əsl nümunələri lazımdır. Bu gün imanınızı həqiqi tərzdə yaşamaq üçün nə edəcəksiniz?*

Rəbbi sevin, siz ey bütün möminlər! Rəbb həmişə Ona sadiq qalanı qoruyur.

*Məzmur 31:23*

# Böyük hazırlıq

**BET-LEXEM:** İSANIN ANASI MƏRYƏM

**“Mən ilk körpəmi belə dünyaya gətirəcəyimi təsəvvür etmirdim” – gənc qadın sancıları zamanı bu sözləri söylədi. “Sən əminsən ki, bu təmizdir?” – o, nişanlısı Yusifdən soruşdu.**

“Əzizim, bilmirəm” – o, narahat halda dedi. “Amma başqa şeyimiz yoxdur. Biz bilirik ki, Allah bu körpəni qoruyacaq. Yəqin ki, bizi buraya gətirməkdə Onun planı var.”

Yenidən sancı gələndə o, nişanlısına dedi: “Dərindən nəfəs almağa çalış.” Yaş əski ilə Məryəmin üzünü sildi. “Bir az da döz... bir neçə dəqiqə qalıb.”

O, dişlərini biri-birinə sıxaraq dedi: “Mən istəyirdim ki, uşağımı öz evimdə dünyaya gətirim. Anam yanımda olardı və mənə kömək edərdi.”

“Mən sənə kömək edərəm” – Yusif dedi. “Biz birlikdəyik və Allahın da burada olduğunu bilirik.” Sonra o, yüngülcə zarafat etdi: “Əgər bizə daha çox kömək lazım olsa, yanımızda inəklər və qoyunlar var.”

Sancılar keçib gedəndən sonra Məryəm nişanlısına baxıb gülümsündü. Növbəti sancı zamanı Məryəm uşağı dünyaya gətirməyə başladı. Tezliklə onun oğlu dünyaya gəldi. Onlar mələyin dediyi kimi uşağa İsa adını qoydular.

Biz bəzən Yusif və Məryəmin Padşahların Padşahını dünyaya gətirərkən keçirdiyi çətinlikləri unuduruq: doğuş otağı üçün tövlə, Misirə sürgün, kasıbçılıq və rüsvayçılıq. Amma onlar Allaha olan sevgilərinə görə hər bir şeyə dözməyə hazır idilər.

*Biz Müqəddəs Kitabı oxuduqca düşünə bilərik ki, Allahın vədləri mələyin qasidlik etdiyi kimi aydın əlamətlər ilə verilsəydi, inanmaq daha asan olardı. Amma belə aydın əlamət əldə edən Məryəmin də şübhələri var idi. Mələk Cəbrayıl Məryəmə deyəndə ki, Allahın Oğlunu dünyaya gətirəcək, yəqin ki, onun üçün bu, ağlasığmaz bir şey idi. O, Cəbrayıla dedi: “Axı bu, necə olacaq, mən ki bakirəyəm?” Narahatçılıqlarına baxmayaraq, Məryəm könüllü olaraq Allahın vədinə inandı və Ona itaət etdi. Onun könüllü olaraq razılığı Allahın dünyaya xilas planını gətirdi. Allah şübhələrinizə baxmayaraq sizi hazır olmağa səsləyirmi? Məryəm kimi sizin də itaət etməyə hazırlığınız Allahın padşahlığında əbədi təsiri göstərə bilər.*

“Mən Rəbbin quluyam, qoy mənə sənin dediyin kimi olsun.”

*Luka 1:38*

# Böyük poeziya

**RUMINİYA:** DUMİTRU BAKU

**Dumitru Baku 1950 və 1960-cı illər ərzində məsihçi məhbus idi. Bir çox başqaları kimi, onun cinayəti də, sadəcə, məsihçi olmaq idi. Dumitru Allaha sevgi şeirlərini yazmaq üçün iyirmi ilini həbsdə keçirmişdi. Şeirlər kiçik sabun parçalarının üzərində diqqətlə yazılmışdı, ya da divarlara Morze kodu ilə tıqqıldadılmışdı ki, başqaları da öyrənsin və bir kameradan o birinə ötürülə bilsin.**

"Bədənlərimizi zəiflədən ağrılar ürəklərimizə sahib ola bilməzlər" – Baku azadlığa buraxılandan sonra dedi. Nifrət əvəzinə biz məhəbbət, dərrakə və hikmət yetişdirirdik."

Burada onun siçovullar, taxtabitilər və bitlər qaynaşan bir nəfərlik kamerada yazdığı poemalarından biri verilib:

İsa ötən gecə otağımda zühur etdi;
O, hündür idi; qəmli idi, amma ah, necə də nurlu idi.
Sevdiyim ay işığı birdən qaranlıqlaşdı,
Təəccüblə və heyranlıqla Ona baxdım.
O, vurnuxduğum yatağımın yanında dayandı.
Və səssizcə bildirdi ki, necə əzab çəkib.
Əllərində və ayaqlarında olan çapıqlar hamısı bədənində idi,
Böyründə, ürəyinin döyündüyü yerdə də çapıq var idi.
O gülümsündü və getdi. Mən daşın üstünə yıxıldım.
Və yalvardım: "Əziz İsa, məni tək qoyma."
Barmaqlıqlardan yapışanda ovuclarımda ağrını hiss etdim və dedim:
Xeyir-dualı hədiyyə, xeyir-dualı çapıqlar.

*Çirkli həbsxana və əsas azadlıq itkisi, adətən, bədii ruhlanmanın elementləri deyil. Dumitru Allahı izzətləndirmək üçün əzablarını imkanlara çevirməyi və Məsih üçün başqalarının həyatına təsir göstərməyi bacardı. O, Məsihin onun üçün çəkdiyi əzablarına baxanda öz əzabları solğunlaşdı. Dumitrunun qarşılaşdığı şeylər ilə bir çox imanlılar qarşılaşsaydılar, özlərini hirsli, incimiş və məyus hiss edərdilər. Bəziləri Allahın onların qayğısına qaldığına şübhə edirlər. Allahı izzətləndirən şeir misraları yazmaq həmin insanların heç ağıllarına da gəlmir. Amma Dumitru öz həbsxana kamerasına deyil, Məsihə diqqətini yönəltdi və şükranlar ilə doldu. Əzab anlarında necə reaksiya verirsiniz? Siz əzab çəkməyə çağırılsanız, ona xoşbəxtliyinizə maneələr kimi, yoxsa Allahı izzətləndirmək və Ona xidmət etmək imkanları kimi baxarsınız?*

Çünki hansı şəraitdə yaşasam,
ondan razı qalmağa alışmışam.

*Filip. 4:11*

# Böyük müdafiəçi

**RUMINİYA:** ANUTZA MOYSE

**Sovet kommunistləri Rumıniyanı işğal edəndən sonra onlar almanları faşizmin tərəfdarları kimi təqib etdilər. Anutza Moyse qərara gəldi ki, yəhudi və məsihçi olduqlarına görə nifrət edilən insanlara sığınacaq versin. O təklif etdi ki, bu insanların kommunistlərdən gizlənməsinə yardım etmək istəyir. Onlar qadının bu təklifinin həqiqi olduğuna inana bilmədilər.**

“Siz bilmirsiniz ki, sizi həbsxanaya göndərən insanlar biz olmuşuq?” – onlardan biri soruşdu.

“Əlbəttə, bilirəm” – Anutza dedi. “Amma mən məsihçiyəm və Allah düşmənçilik etməyimə icazə vermir. Mən sizi bağışlamışam və indi sizə kömək etmək imkanım var. İsa sizi sevir, ona görə mən də sizi sevəcəyəm.”

Qadının məhəbbəti onları heyrətə saldı və bir çoxları onun nümunəsinə görə Məsihi əldə etdilər. O, Riçard və Sabina Vurmbrand, eləcə də başqaları birlikdə faşist ölüm düşərgələrində öldürülmüş insanların övladlarını boya-başa çatdırdılar.

Sonralar Anutza Norveçə köçdü, burada o, yəhudi imanlılara xidmət etmək üçün fəaliyyət göstərdi. Bu xidmətində o, 10000 $ topladı və keçmiş pastoru Riçard Vurmbrandın Rumıniyadan çıxması üçün pul ödədi. Anutza eləcə də Vurmbrandların və onların oğulları Mihayın Qərbə getməsi üçün səfərləri təşkil etdi. Anutzanın pastoruna məhəbbəti və tərəfdarlığı olmasaydı, böyük təsirə malik pastor və “Şəhidlərin Səsi”nin təsisçisi kommunist həbsxanasında ölmüş olardı.

*Allah bizə Onun ardınca getməyi söyləyəndə və biz Ona cavab verəndə bunun mənası O, haraya istəyirsə, oraya getmək və nə istəyirsə, onu etməkdir. Anutza öz çağırışına ciddi yanaşdı, o, düşmənlərinə sevgi göstərdi və bağışladı. Keçmişdə ona əziyyət verən insanlara sığınacaq vermək qeyri-adi görünə bilər, amma Anutza bunu edə bildi. O, itaətkarcasına nifrət və qisas üzərində bağışlamanı seçdi və Məsihin sevgi nümunəsini izlədi. Allah sizə nə etməyi söyləyib? Əbədi əhəmiyyətə malik işi görmək üçün imkanı əldən buraxmayın.*

Düşmənlərinizi sevin, sizə
nifrət edənlərə yaxşılıq edin.

*Luka 6:27*

# Böyük istək

**İRAN:** TƏQİB OLUNMUŞ PASTOR

**"Bəzən mən həmin təqib günləri üçün darıxıram!"**

Bu sözləri Qərbə qaçıb getmiş iranlı pastor demişdi. İranda həbslər və polisin təqibləri gündəlik həyatda baş verən şeylər idi. O, imanına görə hətta öz evini və işini itirmişdi. İndi o, haraya istəyirsə, gedib yaşaya bilərdi və ibadət edə bilərdi. O, təqib günləri üçün necə də darıxmışdı.

"Bəzən mən həmin təqib günləri üçün darıxıram, çünki mən çox fəal idim. Mən hər gün hiss edirdim ki, İsa mənimlədir."

Pastor İran-İraq müharibəsində cəbhə bölgəsinə yaxın bir yerdə məbəd yaratmışdı. O, taksi sürməklə pul qazanırdı və sərnişinlərinə Məsih haqqında danışmaqla məbədini böyüdürdü. İki il ərzində doqquz dil qrupundan insanları Məsihə gətirdi. Çoxlu əsgər hər həftə onlarla ibadət edirdi və o, imana gəlmiş on beş müsəlmanı vəftiz etdi.

Pastor və həyat yoldaşı hər bir şey üçün Allaha etibar edirdi. Müharibənin bombaları onların ətrafına düşəndə onlar dua edirdilər ki, Allah onları qorusun. Onların kifayət qədər pulları olmayanda Allahın təminatçılığı üçün dua etdilər. Hər gün Allah onlara cavab verirdi.

Onların xidmətləri mükafatlandı. Onun məbədinin on üzvü pastor oldu. Hətta indi də pastor cəbhə bölgəsində xidməti zamanı bəhrələri görə bilir.

*Əgər siz heç vaxt sevməmisinizsə, onda siz ürəyin qırılmasının nə olduğunu anlaya bilməzsiniz. Əgər siz heç vaxt əzizlərinizi itirməmisinizsə, siz yas tutanları çox da başa düşməyəcəksiniz. Siz həyatınızda heç vaxt yaşamadığınız hansısa böyük istəyi anlaya bilməzsiniz. İmanına görə təqib olunan insanlar xüsusi bir istəyi təsvir edirlər. Onlar daha çox təqib üçün deyil, təqibin onlara gətirdiyi ünsiyyət üçün darıxırlar. Onlar daha çox işgəncə üçün deyil, işgəncənin onlara öyrətdiyi şeylər üçün darıxırlar. Son nəticə əzabdan çox-çox üstündür. Əgər siz İsa ilə daha dərin ünsiyyəti yaşamaq istəyirsinizsə, siz itaətkarcasına Onun üçün qurban verməyə hazır olacaqsınız. Bu da bir növ əzabdır.*

Çünki müvəqqəti, yüngül əziyyətlərimiz bizə heç bir şeylə müqayisə edilməz dərəcədə böyük və əbədi izzət qazandırır.

*2 Kor. 4:17*

# Böyük bəyannamə

**RUSİYA:** PETER SİMENS

**Peter Simens üç gün huşsuz halda qaldıqdan sonra həbsxananın his bağlamış döşəməsində yerə uzanmışdı. O, Müjdəni uşaqlarla bölüşdüyü üçün həbs olunmuşdu. Mühafizəçilər məhbus yoldaşlarına tapşırmışdılar ki, onu döysünlər. Ona hücum edəndə Peter səssizcə dayanmışdı.**

Onun ağlının başında olduğunu görən məhbuslardan biri dedi: "Biz səni döyərkən niyə qışqırmadın?"

"Mən bilmək istəyirdim ki, siz özünüz məni döyürsünüz, yoxsa mühafizəçilər bunu sizə söyləyib"- Peter dodaqlarından qan axaraq cavab verdi. "Əgər siz özünüz məni döyürdünüzsə, buna görə qışqırsaydım, siz həbsxanada pis davranışa görə cəzalandırılardınız. Mən isə sizin əzab çəkməyinizi istəmirəm, çünki İsa sizi sevir, mən də sizi sevirəm."

Peterin incə bəyanatı onun kamerasında olan qəddar cinayətkarların ürəklərini fəth etdi. Onlar başqa kameralara da xəbər göndərdilər ki, Peter haraya köçürülsə də və ya mühafizəçilər vadar etsələr də, heç kim ona toxunmasın.

Edam olunmağı gözləyən məhbuslar Peterin hekayəsini eşidəndə ondan kömək istədilər. Peter ürəyiyumşaq mühafizəçilər vasitəsilə İsanın sevgi hekayəsini onlara bölüşdü. Peterin xidmətinə görə bəziləri edam olunmazdan qabaq Məsihi qəbul etmişdilər. Onun Məsihin sevgisini göstərən canlı nümunəsi başqaları üçün böyük imkan yaratdı. Müjdəni heç vaxt eşitməyənlər onu qəbul etdilər.

*Deyilən söz güclü ola bilər. Kimsə ehtiyacda olanda öz vaxtında verilən məsləhət, sevgi və ya ruhlanma çox irəliyə gedə bilər. Bəs kimsə ruhani ehtiyacda olanda necə? Peter Simensin sözləri onun Məsihə olan sevgisindən doğulmuşdu. Həmin sevgi ona kömək etdi ki, düşmənlərinin Müjdəni eşitməli olduqları vaxtda Məsihin sevgisi barədə onlara cəsarətlə danışa bilsin. Peter Allahın rəhbərliyinə itaət edirdi və Allah Peterin bir çox məhbus yoldaşlarının əbədi talelərini dəyişdirmək üçün onun sözlərindən istifadə etdi. Allah sizi İsaya gətirmək üçün kiminsə sözlərindən istifadə edibmi? Allah sizə İsa haqqında kiməsə söyləməyi tapşıranda həmin vaxt Ona itaət edəcəksinizmi? Nümunənizin və sözlərinizin yaradacağı əbədi fərqlər barədə düşünün.*

Yerində deyilən sözlər, gümüş oymalar içində qızıl almalara bənzər.

*Sül. Məs. 25:11*

# BÖYÜK SADİQLİK

**Təqib bizi evlərimizdən uzağa aparmır. Təqib kömək edir ki, biz həqiqi “evimizə” gedək.**

Pastor C. Kolau



182 gün

# Böyük peşmançılıq

**ŞƏRQİ AVROPA:** MƏŞHUR MÜJDƏÇİ

**"Yeniyetmə heç vaxt geriyə qayıtmadı."**

Məşhur müjdəçi həbsxananın barmaqlıqları arxasından danışırdı. Bütün Şərqi Avropada tanınan güclü vəzçi necə sülh tapa bilmədiyi barədə danışırdı. Bu kişi minlərlə insanı Məsihə gətirmişdi, belə ki başqa məsihçi məhbuslar onun uğursuzluq hissini anlaya bilmirdilər.

"Mən müjdəçilik toplantısında vəz edirdim" – deyə, o izah etdi. "Mən ürəyimi açıb tökdüm və sonra iki yüz adam Məsihi qəbul etmək üçün qarşıya çıxdı. Mən çox sevindim, amma eyni zamanda yorulmuşdum. Mən çıxıb getməyə hazırlaşarkən bir cavan oğlan mənə yaxınlaşdı. 'Pastor, mən sizinlə söhbət etməliyəm' – o dedi. Mən ona dedim ki, yaman yorulmuşam və səhər gəlsə, yaxşı olar. O, heç vaxt gəlmədi. Bir az sonra həmin axşam kommunistlər məni həbs etdilər. Məni dayanmadan beş gün ərzində gecə və gündüz istintaq etdilər. Mən onların bütün suallarına cavab verdim. Əgər mən cavab verməsəydim, mənə işgəncə verərdilər və döyərdilər, bunlardan qorxduğum üçün cavab verirdim. Kommunistlərdən qorxduğum üçün mən dayanmadan beş gün gecə-gündüz danışa bildim.

Amma Allaha olan sevgimdən isə həyat yolunu axtaran yeniyetmə oğlana beş dəqiqə danışa bilmədim. Həmin gün iki yüz insanı Məsihə gətirdiyimi deyərək Allahın qarşısında necə dayanacağam? Halbuki iki yüz bir insan ola bilərdi."

Nə qədər ki gündüzdür, Məni
Göndərənin işlərini görməliyik.
Tezliklə gecə gəlir, o zaman heç
kim işləyə bilməz.

*Yəhya 9:4*

*Biz, ola bilsin ki, başqaları ilə Məsihi bölüşmək üçün Allahın qarşımıza qoyduğu imkanları diqqətdən qaçıra bilərik, düşünə bilərik ki, biz sonra imkan tapıb danışarıq və ya daha münasib vaxtımız olar. Amma ola bilsin ki, bizim o biri imkanımız heç vaxt olmasın. Biz bu müjdəçi kimi Allahın bizə verdiyi imkanı rədd edəndə həyatda bir dəfə olan hədiyyənin – vaxtın tez keçdiyini görəcəyik. İnsan, ola bilsin ki, yalnız bir dəfə Allahın Onun Oğlu vasitəsilə olan əbədi həyat hədiyyəsi barədə eşitmək istəyər. Göylərdə Allah sizdən soruşa bilər ki, nəyə görə imkan olan zaman Müjdəni kiminləsə bölüşməmisən. Siz necə cavab verərdiniz?*

# Böyük hədiyyə

**ÇİN:** GƏNC QIZ

**"Mən sənə qeyri-adi bir hədiyyə barəsində danışmaq istəyirəm" – çinli ata gözəl, qara saçlı qızına dedi. Qızı böyük maraqla gülümsündü. Qız müdrik atasının Allah haqqında xüsusi dərslər keçməsini çox sevirdi. Atası Məsihi çox sevirdi və onun xeyirxahlığı və şəfqəti onu tanıyan hər bir kəsə təsir edirdi.**

O, cırılmış Müqəddəs Kitabını götürdü və dedi: "Bu hədiyyə Filipililərə 1:29-da yazılıb. Burada deyilir: 'Çünki sizə yalnız Məsihə iman etmək deyil, Onun uğrunda əzab çəkmək üstünlüyü də ehsan olundu.' Bizə verilən nəsə 'hədiyyə' adlanır. Ayədə olan iki hədiyyə iman və əzabdır. Allaha imandan yaranan əzab qiymətli hədiyyədir, bunun dəyəri yalnız göylərdə tamlığı ilə başa düşülə bilər."

Qızı gülümsündü. "Çox sağ ol, ata" – deyə, o yaxınlaşıb atasını qucaqladı. "Mən başa düşürəm."

Gənc qız böyüyüb on dəfədən artıq həbs olunmuş və imanına görə az qala ölənə qədər döyülən pastor Li Deksianın həyat yoldaşı oldu. O, həyat yoldaşının işini mətanətlə dözərək davam etdirir, çünki o, gənc yaşlarından Allaha məqbul əzabın hədiyyə olduğunu öyrənib. Pastor Li və onun həyat yoldaşı kommunist ölkəsi Çində saysız-hesabsız insanı Məsihə gətirib və daim həbs olunma təhlükəsi altında işləməkdə davam edirlər.

*İman və əzab hədiyyələri birlikdə olan şeylərdir. Onları nəinki ayırmaq mümkün deyil, eləcə də hər bir hədiyyə bir-birini gücləndirir. Əgər bizə Məsihə iman etmək hədiyyəsi verilibsə, biz Məsihin ardınca getməliyik. Məsihin ardınca getmək risk etmək, məşhur fikirlərə qarşı çıxmaq, səhv başa düşülmək və hətta fiziki və emosional ağrıdan əzab çəkməkdir. İman çox vaxt əzaba aparıb çıxarır. Biz İsanın keçirdiyi əzablara oxşar əzablar keçirəndə Onu daha zəngin və daha dərin yollarla tanımağa başlayırıq. Dövrə yenidən başlayır, çünki əzab bizim imanımızı gücləndirir. İsaya olan imanınızı azaltmadan həyatınızdan əzabı çıxara biləcəyinizi düşünməyin.*

Ey qardaşlarım, müxtəlif sınaqlarla üzləşəndə bunu böyük bir sevinc hesab edin.

*Yaqub 1:2*

# Böyük müəllif

**HİNDİSTAN:** UİLYAM KAREY

**“Onlar, sadəcə, bunu edə bilmirlər” – ucadan qışqırdı. “Sən görmürsən ki, bu, necə səhvdir?”**

“Bu şəhərdə olan əksər insanlar bunu etməyi doğru şey sayırlar” – əsəbiləşmiş dövlət məmuru cavab verdi. “Bu, onların dinlərinin bir hissəsidir.”

Uilyam sual verdi: “Sağ qadını ölmüş ərinə bağlayıb birlikdə yandırmaq necə düzgün bir şey ola bilər?”

Məmur əllərini qaldırıb dedi: “Uilyam, tək bir insan bunu dəyişə bilməz. Bilirsən, bəsdir, get öz sürünün qayğısına qal.”

Onun məbədi deyəndə ki, imansızları “yalnız Allah” bütpərəst ölkələrdə imana gətirə bilər, Uilyam onların fikrini qəbul etməyib məbəd tarixində ən uğurlu müjdəçilik səyahətlərindən birinə çıxdı. Bundan əlavə o, bir neçə dil öyrənib, müasir müjdəçilik hərəkatı üçün mənbə olan bir kitabı nəşr etdi. O, eləcə də Əhdi-Cədidi otuz dörd dilə, Əhdi-Ətiqi səkkiz dilə tərcümə etdi.

Uilyam Karey Hindistanda sağ qadınları ölmüş ərləri ilə birlikdə yandırma adətinə qarşı neçə illər mübarizə apardı. Nəhayət, o, dövlətin müqavimət göstərməsinə baxmayaraq, bu adətin qadağan olunmasına nail oldu.

Karey fərqlər yaratmaq üçün çətinliklərlə üzləşərək, həyatını Məsih üçün yenilikçi olaraq keçirdi. Onu başqalarını “Allahdan böyük şeylər gözləyin, Allahda böyük şeylər etməyə çalışın” (Yeşaya 54:2-3-ə əsaslanıb) deməklə ruhlandıran bir insan kimi tanıyırlar.

Uilyam Karey elə belə də etdi.

*Bir çox insanlar imanlarını bölüşərkən aşağıdakı kateqoriyalara bölünürlər: fəal, yavaş, hərəkətsiz. İsa məsihçilərə dünyaya getməyi və şagirdlər etməyi söyləyəndə bəziləri buna böyük həvəslə cavab verdilər. Uilyam Karey kimi onlar da Müjdə üçün fəaldırlar. Digərləri isə tam ürəklə cavab vermirlər, onlar ya yaşlarına görə, ya da iş qrafiklərinin dolu olduğuna görə yavaş hərəkət edirlər. Kədərli burasıdır ki, bir çox imanlılar hərəkətsiz məsihçilərdir. Onlar əmri eşidirlər, amma düşünürlər ki, kimsə başqa adam bunu yerinə yetirəcək. İsanın məsihçiliyə çağırışına cavabınızı hansı kateqoriya daha yaxşı təsvir edir? Başqaları ilə imanınızı bölüşmək üçün Allahdan xahiş edin ki, arzunuzu yeniləşdirsin. Əgər siz Onun cavabından böyük şeylər gözləyirsinizsə, onda Onun adı ilə böyük şeylər etməyə hazırlaşın.*

İsa yaxınlaşıb onlara dedi: “Göydə və yer üzündə bütün səlahiyyət Mənə verilmişdir. Beləliklə, gedin, bütün millətləri Mənim şagirdim edin.”

*Matta 28:18-19*

# Keçmişdə olan böyük şəhidlər

**ROMA:** KİRSANTES

**"Oğlum, sən bu İsanın gerçək olduğuna inana bilməzsən" – Kirsantesin atası dedi.**

"Ata, mən Onun gerçək olduğunu bilirəm" – deyə, məsihçi cavab verdi. "Mən inanıram ki, İsa sənin və mənim kimi günahkarları xilas etmək üçün dünyaya gəldi. O, dünyanın nurudur. Sənin ibadət etdiyin bütlərə heç bir ümid yoxdur."

Bir cəza olaraq, Kirsantesin atası neçə gün onu qaranlıq bir otağa salmışdı, amma onun Allaha izzət ilahiləri oxuduğunu hələ də eşidirdi. Kirsantesi imandan döndərmək üçün atası onun ətrafına dünyəvi əyləncələri və qızları qoymuşdu, amma o, möhkəm dayanmışdı. Sonra atası qeyri-adi gözəlliyi olan fahişə qadını, Dariyanı onun yanına gətirdi ki, oğlan Məsihi unutsun. Əksinə, Kirsantes onu imana gətirdi və o, vəftiz oldu.

Sonralar Kirsantes və Dariya evləndilər, başqalarını imana gətirməklə gözəl və möcüzəli xidmətdən zövq aldılar. Roma əsgərləri onların əl-qolunu şəhadətlik etdiklərinə görə bağlayanda, kəndirlər əllərindən yerə düşdü. Hökmdar əsgərlərə əmr etdi ki, Kirsantesi dirəyə bağlasınlar və çubuqla döysünlər, amma zərbələr onun bədənində heç bir iz qoymadı. Nəticədə əsgərlər və hökmdar Allahın qüdrətini etiraf edərək Kirsantesin ayaqlarına düşdülər.

Bütlərə ibadət edilən ölkələrdə Kirsantes seçilirdi, çünki o, daşlara, taxtadan yonulmuş bütlərə inanmırdı, diri olan Allaha iman edirdi. Onun bu dözümlülüyünə görə çoxlu sayda bütpərəst imana gəldi.

*Məsihin Müjdəsi yeni deyil. O, əsrlər boyu insanların həyatlarını dəyişdirmişdir və Məsih qayıdana qədər dəyişməkdə davam edəcək. Qədim hekayələr bu günün hekayələridir. Əl ilə tikilmiş paltarlar və çarıqlar geyinmiş məsihçi şəhid ilə şəhadətliyini internetlə göndərən müasir, mavi cinsli imanlının ürəyi eynidir. Nəsillərin məsafəsi iman mirasını qoyub gedənlər ilə bu gün həmin mirası ötürənləri bir-birindən ayırmır. Hekayənin süjetində harada yerləşirsiniz? Siz qədim müqəddəslərin şəhadətlikləri ilə öz şəhadətliyinizi bir sıraya qoyursunuzmu? Bu gün bütünlüklə Məsih üçün yaşayın və sabah üçün miras qoyun. Siz evinizin, iş yerinizin, cəmiyyətinizin, hətta bütün ölkənizin Məsih üçün dəyişilməsində kömək edə bilərsiniz.*

Lakin Sən, ya Rəbb, əbədi taxtında əyləşmisən, Sənin şöhrətin nəsildən-nəslə deyiləcək.

*Məzmur 102:12*

# Böyük şagirdlik

**YERUSƏLİM:** YAQUB, ZAVDAYIN OĞLU

**Tarix bizə öyrədir ki, Yaqubu öldürməli olan şəxs bunu etməkdən imtina etmişdi. Hökmdar Hirod onların hər ikisinin boynunu vurdurmuşdu. Çox güman ki, bu, belə baş vermişdi:**

Edam İsanın çarmıxa çəkildiyi ildən təxminən on dörd il sonra Pasxa həftəsinin cümə axşamında olmalı idi. Zavdayın oğlu Yaqub edam otağına aparıldı. Çoxlu əsgərlər artıq otaqda idilər. Yağ çıraqlarının işığı döşəmədə olan qan ləkələrini əks etdirirdi. Ondan əvvəl İsanın neçə şagirdi bu otağa daxil olmuşdu?

Yaqub əsgərin gözlərinə baxdı, amma əsgər baxışlarını ondan gizlətdi, onun ürəyi yaman narahat idi. Yaqub dəfələrlə ona ağır həbsxana qapısının arasından İsa haqqında danışmışdı və əsgərin ürəyi deyəsən, yumşalırdı. İndi onun "dostu" cəlladına çevrilmişdi.

Yaqub diz çökdü. Qılınc yuxarı qalxanda əminsizliklə silkələndi və sonra Yaqubun yanında yerə düşdü. Yaquba heç nə olmadı. "Mən bacarmıram!" Edam edən əsgər qışqırdı. "Mən onu öldürməyəcəyəm! Onun İsa haqqında dedikləri həqiqətdir və mən Onun qulluqçusunu öldürə bilməyəcəyəm."

Hirodun işarəsi ilə əsgərlər irəliyə çıxıb həmin əsgərin əllərini arxasına bağladılar və Yaqubun yanında yerə oturmağa məcbur etdilər.

Birlikdə diz çökərək onların boyunları vuruldu.

*Müəllimlik etmək həm dünyəvi, həm də ruhani aləmdə geniş tanınmış bir mövzudur. İki insan arasında şəxsi ünsiyyətin özünəməxsus gücünə daha çox insan diqqət yetirir. Bir nəfər nəyisə öyrənməlidir: O birisi isə nəyisə öyrətməlidir. Bir nəfər nəsə əldə etməlidir: O birisi isə nəsə verməlidir. Məsihin ardınca gedən şəxsin nümunəsini izləmək müəllimliyin ruhani təyinatıdır. Bir məsihçi o biri məsihçiyə göstərir ki, öz imanını praktiki olaraq necə yaşasın. Sizin həyatınızda müəllim kimdir? Onun həyatında Məsihə bənzər hansı keyfiyyətləri görmüsünüz?*

Mən də sənə imanımı
əməllərimlə göstərəcəyəm.

*Yaqub 2:18*

# Duanın böyük tərifi

**ÇİN:** QIRMIZI QVARDİYADA OLAN ƏSGƏR

**Bu maraqlı məktub kommunist ölkəsi olan Çindən qaçaqmalçılıq yolu ilə çıxarılmışdı:**

"Mən yeniyetməyəm və Qırmızı Qvardiyada əsgərəm. Mən nə Allaha, nə cənnətə, nə cəhənnəmə, nə Xilaskara, ümumiyyətlə, heç nəyə inanmırdım. Bir gün mən təsadüfən radioda bir dalğanı tutdum. Əvvəlcə istədim ki, söndürüm. Yaxşı kommunist Allaha inanmır. Amma proqram mənə maraqlı səsləndi, ona görə də yenidən həmin dalğanı tutdum. İndi mən Məsihə inanıram. Amma iki sualım var.

"Birinci: Allah kommunist ölkəsi olan Çindən kimisə qəbul edirmi? Proqramda siz məbəd haqqında danışırsınız, amma mən, demək olar ki, məbədlər olmayan bir ölkədə, Çində yaşayıram. Allah məbədi olmayan kimisə qəbul edə bilərmi?"

Bu gənc əsgər Çində nə qədər qeyri-rəsmi məbədin mövcud olduğundan, həm də Məsihi sevən bütün şəxslərin məbəd olduğundan xəbərsiz idi. Sonra o, ikinci sualı verir: "Siz mənə dua etməyi öyrədərsinizmi? Siz hər radio proqramını dua ilə başlayıb, dua ilə də bitirirsiniz. Mən dua etmək istəyirəm, amma bilmirəm necə dua edim."

Əsgər heç vaxt məbəddə olmamışdı, amma deyirdi ki, onun fikrincə dua "bütün günü hər bir şeyi söyləyib qurtardıqdan sonra 'Amin' kəlməsini əlavə etməkdir."

Bu, duanın necə də gözəl tərifidir.

*Dua təbii deyil. Əslində, bu, təbii şəkildə insana gəlmir, çünki bu, qeyri-təbii bir şeydir. Allah Onunla ünsiyyət qurmağımız üçün bizə ruhani arzu verir. Riyaziyyat və ya dil kimi dua öyrənilən bacarıqdır. Biz nə qədər çox dua etsək, bir o qədər dua təbiiləşər. Bu hekayədə olan gənc imanlı duanı həyatın hər bir sahəsinə təsir edən bir şey kimi təyin edir, bununla da insanın bütün həyatını Allaha dua hesab edir. Siz bunu təcrübədən keçirmirsiniz? Bu gündən başlayaraq, Allahdan xahiş edin ki, sizə Onunla danışmaq üçün fövqəladə güc versin və duanı hər günün təbii hissəsinə çevirsin. Sonra bunu təcrübədən keçirməyə başlayın. Qoy sizin həyatınız dua olsun.*

Buna görə hər bir mömin Səni tapan zaman Sənə dua etsin.

*Məzmur 32:6*

# BÖYÜK SADİQLİK

**Həbsxanaya düşməzdən əvvəl Allah haqqında eşitmişdik. Amma həbsxanada Allahı hiss etdik.**

Sze pastor – Çində imanına görə həbs olunmuş ev toplantısının rəhbəri. O, aclıqdan, xəstəlikdən və məcbur edilərək işlədiyi kömür şaxtasında partlayışdan sağ çıxmışdı.



189-cu gün

# Böyük ağılsızlıq

**RUSİYA:** ANNA ÇERTOKOVA

**Anna Çertokova üçün ruhi xəstəxana geyimində olmaq işgəncə idi. Onun əlləri bədəninə möhkəm bağlanmışdı və bundan yaman zəhləsi gedirdi. Orada işləyənlər üçün o, heyvandan artıq bir şey deyildi, heç bir diqqətə layiq deyildi.**

Anna Rusiyada dəlixanada on il vaxt keçirdi. Onda heç bir ruhi xəstəlik yox idi. Hakim onu oraya məsihçi olduğuna görə göndərmişdi. Onun Məsihi inkar etməməsi hakimi yaman əsəbiləşdirmişdi.

Əqlən xəstə insanlar ilə əhatə olunan Anna bəzən öz normal psixi vəziyyətinə şübhə ilə yanaşırdı. Hətta ətrafında olan xəstələr qəzəb və dəhşət içərisində qışqırarkən o, uzun gecələr öz ağlında Allaha fəryad edirdi. Amma o, heç vaxt hirslənmirdi. Məhkəmə zalında inkar etmədiyi imanını ruhi xəstəxanada da inkar etmədi. Başa düşməyi bacaranlara Anna hətta Məsihin sevgisini bölüşməyə və nümunə olmağa çalışırdı.

"Mən sizin hər birinizi Rəbbimiz İsa Məsihin sevgisi ilə salamlayıram" – bu sözləri Anna xəstəxanada olarkən yazmışdı. "Mən Allaha dua edirəm ki, bizi Məsihdə gözəl və kamil etsin, eləcə də bizim məsələlərimizi həll etsin. Mən bütünlüklə inanıram ki, hər bir kəsin ürəyini yaratmış və fani insanların bütün işlərini tədqiq edən Allah ateizm bütpərəstliyi ilə mənim mübahisəmi yoluna qoyacaq, eləcə də Öz mühakiməsini və ədalətini icra edəcək."

*Məsihçilər bəzən özlərini ağılsız vəziyyətlərdə görürlər, belə ki bu vəziyyətlər onların səbirlərini tələb edir və xasiyyətlərini yoxlayır. Çətin yaşayış şəraiti. İşdə problemlər. Sözə qulaq asmayan uşaq. Vəziyyətlərimiz hər nə cür olursa olsun, biz Allaha etibar etməkdə davam edəcəyikmi? Əgər biz şükranlığın sirrini bilsək, bunu bacararıq. Müqəddəs Kitab bizə öyrədir ki, zahirdə olan vəziyyətlər ilə üzləşərkən daxildə olan şükranlıq hissi rəhbərlik etməlidir. Bizim vəziyyətlərimiz deyil, münasibətlərimiz öz eyhamlarını Allahdan götürür. Yoxsa biz vəziyyətlərimiz kimi çaşqınlığa düşmək təhlükəsindəyik. Annadan öyrənin. Vəziyyətlərinizə baxmayaraq, Allahdan xahiş edin ki, hər şeyə şükür edən insan olmağın sirrini O, sizə öyrətsin.*

Ehtiyaca düşdüyüm üçün bunları söyləmirəm, çünki hansı şəraitdə yaşasam, ondan razı qalmağa alışmışam.

*Filip. 4:11*

# Böyük iş

**RUMINİYA:** Dr. KARLO

**Ərizənin qəbulu uzun və yorucu idi. Çoxlu yoxlamalar aparıldı və Dr. Karlonun ərizəsi az qala onun "məsihçi" əlaqələri ilə bağlı şayiələr əsasında kənarlaşdırılacaqdı. Amma Dr. Karlo buna müvəffəq oldu, o, üzücü prosesləri keçib Məxfi Polis üçün həkim oldu. O, onlara məsihçi olduğunu söyləmədi.**

Dr. Karlonun öz ailəsi ondan üz döndərdi, çünki onun kommunist olduğunu fikirləşdilər. Bir-bir, onun məbəddəki ailəsi və bütün yaxınları ona arxa çevirdilər. Onlardan heç kim onun niyyətini bilmirdilər: o pastoru axtarırdı.

Məxfi Polisin həkimi olmaqla o, sorğu-sual olunmadan həbsxanaya gəlib gedə bilərdi. Onun istənilən həbsxana otağına girmək imkanı var idi, beləliklə, o, nəhayət, gizli saxlanılmış pastoru tapdı.

Karlo başqa məsihçilərə sözü çatdırdı, daha sonra kənara – dünyaya sözü çatdırdı. Məsihçilərə onun öldüyü barədə deyilmişdi, amma indi onlar sübut etdilər ki, pastor Riçard Vurmbrand sağdır. 1956-cı ildə Kruçev və Eyzenhauer arasında danışıqlar zamanı dünyadakı məsihçilər Vurmbrandın azadlığını tələb etdilər. Nəhayət, 10 000 $ məbləğində pul istəyərək onu azadlığa buraxdılar.

Vurmbrand yazır: "Əgər məni tapmaq üçün məxsusi olaraq, Məxfi Polisə qoşulan bu həkim olmasaydı, mən heç vaxt azadlığa çıxmazdım. Mən ya həbsxanada qalardım, ya da həbsxananın qəbiristanlığında yatardım."

*Gizli xəfiyyələr böyük səhnənin ulduzlarıdır. Onların işlərinə rəhbərlərinin əmrlərini icra etmək üçün ayrı-ayrı macəralar daxildir. Belə yolla məhdudiyyətlər qoyulmuş xalqlarda güclü imanlılar macəralı həyat yaşayırlar. Onların başlarına gələnlər bir çoxlarına əbədi bir fərqi göstərir. Onlar öz tapşırıqlarını elan etmirlər, amma həmişə Məsihin xoş xəbərini bölüşməkdə hər bir imkandan istifadə etməyə hazırdırlar. Coğrafi yerindən və ya həyatda qarşılaşdığı vəziyyətlərə baxmayaraq, göylərdəki rəhbərlərimizə hesabat verərək Allah hər birimizi Onun ruhani xəfiyyəsi olmağa çağırır. Bizə hər gün Allahın sevgisini bölüşmək tapşırığı verilib. Allah bu işin icra olunmasında heç bir təhlükəsizlik zəmanəti vermir, amma əbədi mükafatları vəd edir.*

Zəifləri əldə etmək üçün onlarla zəif kimi davrandım. Hər hansı bir yolla bəzilərini xilas etmək naminə hər kəs üçün hər şey oldum.

*1 Kor. 9:22*

# Böyük əzablar

**ROMA:** POLİKARP

**Polikarp həvari Yəhyanın şagirdi olmuşdu, amma ömrü qüruba enmişdi. Səyahət edərkən bir uşaq onu tanımışdı və dərhal əsgərlərə xəbər çatdırmışdı. Əsgərlər gəlib Polikarpı yemək yeyən gördükdə, o öz yeməyini onu həbs etməyə gəlmiş əsgərlərlə bölüşdü.**

Birlikdə yemək yedikdən sonra Polikarp xahiş etdi ki, heç olmasa bir saat dua etsin. Əsgərlər razılaşdılar, amma sonra bu qərarı çıxardıqlarına peşman oldular. Polikarp elə güclü dua etdi ki, əsgərlər özləri günahlarını boyunlarına aldılar.

Nəhayət, Polikarp hakimin qarşısına gətirildi, həmin şəxs onun bazar meydanında yandırılmasına əmr verdi. Hakim ona öz həyatını xilas etmək üçün imkan verdi, əgər İsanı inkar etsəydi, bu, mümkün olardı. Polikarp bundan imtina etdi və belə dedi: “Səksən altı il ona xidmət etmişəm. Bəs onda məni xilas edən Padşahıma necə küfr edə bilərəm?”

Onlar Polikarpı dirəyə bağladılar və ətrafında olan odunları alışdırdılar. Cəsur imanlının ətrafında alovlar yuxarı qalxmağa başladı, amma möcüzəli surətdə onun bədənində heç bir tük yanmadı. Hakim yaman bərk hirslənmişdi. O, əsgərlərə əmr verdi ki, məsihçinin böyrünü deşsinlər. Onlar Polikarpı öldürməklə məqsədlərinə çatdılar, amma onun imanını və qalib çıxmış ruhunu məhv edə bilmədilər.

Polikarpın sonuncu duası belə idi: *Mən bu gün və bu saat Səni izzətləndirirəm, çünki çoxlu şəhidlər arasında qəbul edilməyi mənə layiq bildin ki, mən də qəlbimin dirilməsi üçün Məsihin kasasını bölüşüm.*

*Polikarp ifadəyə yeni bir məna verir: “fəal istefa”. Sınaqdan keçmiş səksən yaşlarında olan müqəddəs Polikarp kifayət qədər yaşamışdı və Məsihə imanı barədə ona qarşı duranların nə düşündüyü onu narahat etmirdi. Spektrin o biri ucunda cavan fanatlar heç bir şey bilmədən çox vaxt düşmənə hücum edirlər. Əksər imanlılar bu iki sərhədin arasına düşürlər. Biz canlı həsr olunmamızı itiririk, amma biz kifayət qədər yaşamamışıq ki, imanımız barədə başqalarının fikirlərinə məhəl qoymayaq. Allaha minnətdarıq ki, necə varıq və necə olmalıyıqsa, elə də bizi qəbul edir. Bu gün Ona verə biləcəyiniz həsr olunmanı Ona təqdim edin və icazə verin ki, sabah sizin imanınızı daha da artırsın.*

Qardaşlar, sizin üçün həmişə Allaha şükür etməliyik və belə etməyimiz yerinə düşər, çünki imanınız artdıqca artır və hamınızın bir-birinizə olan məhəbbəti çoxalır.

*1 Salonik. 1:3*

# Böyük qulluqçu

**PAKİSTAN:** ZEBA

**"Bu ayələri təkrar elə!" – deyə, Zebaya əmr etdilər.**

"Mən bu ayələri təkrar etməyəcəyəm. Mən məsihçiyəm. Mən həmişə məsihçi olacağam."

Ailəsi kasıb olduğundan Zeba varlı bir müsəlman ailəsində qulluqçu işləməyə məcbur olmuşdu. O, orada işləyərkən ailənin başçısı ona islam haqqında öyrətməyə çalışdı və Qurandan ayələri əzbərləməyə məcbur etdi. Üç dəfə fərqli vaxtlarda Zeba inkar etmişdi: "Mən məsihçiyəm." Hər dəfə inkar edəndə onu döyürdülər.

Ailə üzvlərindən biri qışqıraraq deyirdi: "Siz kafirsiniz! Həm sənin qızın, həm də özün kafirsiniz və yaşamağa layiq deyilsiniz." Onlar Zebanın anasının üstünə benzin tökərək kibritlə onu alışdırdılar. Zeba bir daha anasını görmədi. Faciəyə baxmayaraq, Zeba Məsih ilə addımlamaqda davam etdi və tezliklə vəftiz olundu.

Bu gün Pakistanda tikiş məktəbi yaradılıb ki, Zeba kimi cavan məsihçilər öz ailələrini dolandırmaq üçün daha qulluqçu kimi iş axtarmasınlar. Zebanın başına gələn müsibətə baxmayaraq, o, düşmənçilik etmək fikrində deyil, əksinə, öz ölkəsində başqalarına imanı barəsində danışmaq istəyir. O, Müqəddəs Kitab müəllimi olmaq istəyir.

*Allahın padşahlığı aşağı görünərkən yuxarıdır. Onun vaciblik iyerarxiyası dünyanın cəmiyyətdəki insanları necə formalaşdırması ilə müqayisədə aşağıdır. Siyahının başlanğıc hissəsində istedadlı, gözəl və varlı olmaq əvəzinə təvazökar qulluqçular səmavi başlıqları yaradırlar. Zeba dünyanın gözündə heç nədir, amma padşahlıq üçün böyük işlər görür. Qulluqçu xüsusi istedada sahib olmaya bilər, amma qulluqçu işləməyə qadirdir. Qulluqçu başqaları üçün çox da dəyərli olmaya bilər, amma Allahın xidmətində çox qiymətlidir. Dünyadakıların əksinə olaraq yaşamaq nə deməkdir? Əgər siz Allaha bir qulluqçu kimi təslim olsanız, hissi dərhal tanıyacaqsınız? Siz özünüzü qulluqçu rolu üçün alçaltmağa və Allahın Xoş Xəbərinin yayılması üçün hər nə lazımdırsa, onu etməyə hazırsınız?*

Sizin aranızda isə qoy belə olmasın.
Sizlərdən böyük olmaq istəyən
xidmətçiniz olsun.

*Matta 20:26*

# Böyük dönüş

**ÇİN:** ÇANQ ŞEN

**Tövbə etməzdən əvvəl Çanq Şen qumarbaz, arvadbaz və oğru kimi tanınmışdı. Orta yaşlarında gözləri kor olanda qonşuları bunu pis əməllərinə görə allahların cəzası olduğunu söylədilər.**

1886-cı ildə Çanq yüzlərlə kilometr məsafəni qət edərək müjdəçilik xəstəxanasına gəldi, burada insanların gözləri açılırdı. Onun görməsi qismən bərpa oldu və həyatında ilk dəfə Məsih barəsində eşitdi. Həkim deyir: "Müjdəni belə sevinclə qəbul edən xəstəmiz heç vaxt olmayıb."

Çanq vəftiz olmağı xahiş edəndə müjdəçi Ceyms Vebster ona dedi: "Evinə qayıt və qonşularına de ki, dəyişilmisən. Mən sonra sənin yanına gələcəyəm, sən İsanın ardınca getməkdə davam etsən, səni vəftiz edəcəyəm." Beş ay sonra Vebster onun yanına gəldi və gördü ki, burada dörd yüz imanlı var. O, yeni müjdəçini böyük sevinc ilə vəftiz etdi.

Sonralar yerli, bacarıqsız həkim Çanqı qismən görmədən də məhrum etdi, amma Çanq müxtəlif kəndlərə səfər etməkdən əl çəkmədi. Baxmayaraq ki, bəziləri onun üzünə tüpürüb rədd etdilər, o, yenə də yüzlərlə insanı Məsihə gətirdi.

Bokser Rebellion rəhbərliyi ələ keçirəndən sonra məsihçilər Çanqın təhlükəsizliyi üçün onu mağarada gizlətdilər. Bokser yaxınlıqdakı şəhərdə əlli məsihçini tutub edam etdirmək istəyirdi, amma vəd etmişdi ki, Çanq ortalığa çıxsa, onların həyatını xilas edər. Bu xəbər Çanqa gəlib çıxanda o dedi: "Mən böyük sevinclə Onun üçün ölərəm." Üç gün sonra Çanqın boynu vuruldu və qalan yerli məsihçilər xilas oldular.

*Böyük dəyişiklik böyük Müjdənin xəbəridir. İsa bizim köhnə həyatımızı yeni başlanğıc ilə dəyişməyi təklif edir. Baxın, görün O, Çanqı necə dəyişdirdi, o, özü üçün yaşayan biri idi, amma özünü Məsihə bütünlüklə təslim etdi. Köhnə həyatımızda nə qədər xarabalıqlar yaratsaq da, biz Allah ilə düzgün ünsiyyətə çıxmaq üçün bərpa ola bilərik. Ona görə də bizim şəxsi şəhadətliyimiz belə güclü şahiddir. Dəyişilmiş həyat xilasa güclü sübutdur. Biz əvvəllər danışdığımız kimi artıq danışmırıq. Biz əvvəllər gəzdiyimiz kimi artıq gəzmirik. Məsihin sizin həyatınızda etdiyi fərq haqqında kim eşitməlidir?*

Bu təlimə görə əvvəlki həyat tərzinizə məxsus olub aldadıcı ehtiraslarla pozulmaqda olan köhnə mənliyi kənara atın, ruhən və əqlən yeniləşin, əsl salehlik və müqəddəsliklə Allaha bənzər yaradılmış yeni mənliyə bürünün.

*Efes. 4:22-24*

# Böyük yük

**KOLUMBİYA:** CUAN

**Nə narkotik maddələr, nə də vətəndaş müharibəsi Kolumbiyada Müjdənin yayılmasını dayandıra bilməz.**

Cuan və həyat yoldaşı Mariya Kolumbiyanın Kali şəhərinin şimalında yaşayan yerli əhali arasında müjdəçidirlər. Kali şəhəri Kolumbiyanın İnqilabçı Silahlı Qüvvələri (KİSQ), solçu partizan qrupu tərəfindən idarə olunur. Bir çox kolumbiyalı pastorlar və müjdəçilər bu qrup tərəfindən müqavimətlə qarşılaşıb və həmin ərazidən qaçıb getmişdilər. Cuan üç il əvvəl əlli nəfərdən ibarət KİSQ qrupu ilə görüşəndə onlardan iyirmisi Məsihi qəbul etdi. O, belə söyləyir: "Biz silahları Allahın Kəlamı ilə dəyişmişik."

İndi həmin ərazidə Milli Azadlıq Ordusu məsihçilərə hücum edirdi. Təzəliklə iyirmidən artıq məbəd bağlanıb və çoxlu pastorlar öz canlarını qurtarmaq üçün qaçıb gediblər. Partizanlar çox vaxt gəlib bütün ondabirləri və ianələri tələb edir, ya da pastoru öldürürdülər. İndi Cuan həmin ərazidə yeganə pastor idi və kənardan ona heç bir kömək edilmirdi.

Cuan və həyat yoldaşı hələ də orada qalmağa və insanlara xidmət etməyə qərara gəliblər. Onlar deyirlər: "Əgər Allah Kəlamını vəz etdiyimizə görə ölməliyiksə, məbədi atmaqdansa ölməyimiz daha yaxşı olar."

Cuan məbədi atıb gedənləri mühakimə etmir, nə də üzləşdikləri çətinliklər haqqında bir söz demir. O, Allahın etdiyi işləri və xidmət üçün ürəyində olan yükü bölüşməyi üstün tutur. O, dərin düşüncələrə qərq olub, bu, təhlükə dolu fikirlər deyil, bu, Kolumbiyadakı insanlara Məsihi çatdırmaq barədə fikirlərdir.

*İsa yüklənmiş heyvan sürüsünü təsvir edir. Heyvan yükün ağırlığına qarşı müqavimət göstərmir, əslində, yük onun üçün olduqca ağırdır. Müjdə ilə yüklənmək dünyəvi qayğılarla yüklənmək ilə eyni deyil. Müjdənin yükü sadəcə başqalarının ruhani ehtiyaclarından agah olmaq deməkdir. Cuanın "yük"ü var, amma onun yükü yüngüldür. Məsihin nümunəsinə baxaraq, biz imansız insanlar üçün yüklənməliyik. Bu yük yüngüldür, çünki biz həmişə onu veririk. Biz xoş xəbəri özümüz üçün saxlamamalıyıq. Siz Məsih barəsində başqası ilə bölüşəndə sizi rədd ediblərmi? Ola bilsin ki, siz müqavimətə təslim olmağı düşünmüsünüz. Qoy imansız insanlar üçün İsanın yükü sizi ruhlandırsın ki, siz orada daha bir gün qala biləsiniz.*

Çünki mənim boyunduruğum rahat
və yüküm yüngüldür.

*Matta 11:30*

# BÖYÜK SADİQLİK

**Əgər biz məsihçilər Müjdəni paylamaqda davam etməsək və sərhədləri aşıb keçməsək, sərhədlər bizim üzümüzə bağlanacaq. Əgər biz "səssiz şahidlər" olmaqda davam etsək, onda heç bir şahid olmayacaq və Amerikada məsihçilik öləcəklər.**

Ray Torn – təqib olunmuş məbəddə müjdəçi



196 gün

# Böyük müjdəçi

**ÇİN:** PASTOR Lİ DEKSİAN

**"Mən ölənə qədər vəz edəcəyəm."**

Pastor Li Deksian elə bir neçə dəqiqə idi ki, vəz edirdi, qəfildən Xalq Təhlükəsizlik Bürosunun zabitləri evə doluşdular. Onlar pastor Lini, eləcə də toplantıda olan başqalarını bayıra çıxarıb döydülər.

Polis məntəqəsində müjdəçini yenidən o vaxta qədər döydülər ki, artıq o, qan qusurdu. Zabitlər onu öz Müqəddəs Kitabı ilə üzünə vuraraq döydülər, onu həbsxananın beton döşəməsində qanı axaraq qoyub getdilər, onun ağlı tam özündə deyildi.

Yeddi saat sonra onu buraxanda o, öz xidmətinə yenidən başladı. Gələn dəfə həmin məbəddə Kəlamı bölüşürdü, yeddi XTB zabiti içəriyə girdi, müjdəçinin üstünə qışqıraraq onu ittiham etdilər. Onlar qərbli insanların da buraya gəldiyini görəndə çıxıb getdilər, amma on beş dəqiqə sonra əlavə yardım ilə birlikdə gəldilər. Zabitlər Lini bayıra çıxarıb başını divara vuraraq onu döyməyə başladılar.

"Niyə onu döyürsünüz?" – xaricilərdən bəziləri qışqırdı. "Bəs siz deyirsiniz ki, Çində "din azadlığı" var?"

XTB xariciləri, eləcə də toplantının keçirildiyi evin sahibəsini yerli polis məntəqəsinə apardılar. Həmin qadının oğlu XTB-ya toplantı haqqında xəbər vermişdi.

Hücumdan sonra kənddə böyük toplantılar daha keçirilmədi, amma məbəd dayanmadı. İndi onlar qırx kiçik toplantıda yığışır və hər həftə yeni insanlar Məsihi əldə edirlər.

Bir şərtlə ki, eşitdiyiniz Müjdənin verdiyi ümiddən sarsılmadan, iman əsasında möhkəm və sabit durasınız. Bu Müjdə səma altında olan bütün yaradılışa vəz olundu və mən Paul Müjdənin xidmətçisi oldum.

*Kolos. 1:23*

*Bu, sanki bir damcı civə kimidir, müxalif qüvvələr məbədi öz əllərində sıxıb saxlamaq istəyəndə o, daha kiçik hissələrə bölünür. Məhdudiyyətlər qoyulmuş ölkələrdə məbədlər qırx hektarlıq böyük məbədlərin Qərb mədəniyyətini heç vaxt hiss etməyə bilərlər: amma onlarda məbədə gələnlərin sayı artır. Əslində, Koreyada bir məsihçi məbədinə gələnlərin sayı Qərbdə olan bir neçə böyük məbədə gələnlərin sayından artıqdır. Amma Çində olan strategiya kimi Koreyadakı məbəd də minlərlə kiçik ev toplantılarından "hücrə"lərdən ibarətdir. Bizim müjdəçiliyə qarşı əngəllər kimi gördüyümüz şeylər, sadəcə, cildini dəyişmiş imkanlardır. Siz müqavimət ilə rastlaşanda tezliklə təslim olursunuzmu? Yoxsa mətanət göstərib Müjdənin yayılması üçün başqa yollar axtarırsınızmı?*

# Böyük qüvvə

**BANQLADEŞ:** İDRİS MİYAH

**"Əgər Abu məsihçi olmaq istəyirsə, onda o, bunu başqa bir yerdə etməli olacaq. Biz onun evini mühasirəyə almışıq, həm də onu zorla bayıra çıxarmağa və evini yandırmağa hazırıq."**

Biz evə yaxınlaşdıqca onun danışdığını eşidirdik. Biz bilmək istəyirdik: *Görəsən, kömək üçün oraya başqalarını da yığıbmı?* Sonra biz eşitdik ki, o bütün kənd üçün dua edir və bizim edəcəyimiz işlərə görə İsadan bizi bağışlamasını xahiş edir! Bu bizi daha da hirsləndirdi, ona görə də iyirmi beş nəfər olan bizlər onu tutmaq üçün evə soxulmaq üçün irəlilədik. Amma gözəgörünməz bir qüvvə bizim heç birimizi içəriyə girməyə qoymadı və biz də yamanca qorxduq.

"Mən evə qayıdanda yata bilmədim. Mən eləcə Abunun duası haqqında düşünürdüm. Nəhayət, səhərə yaxın saat üçdə mən Abunun evinə getdim. Mən ondan xahiş etdim ki, İsa haqqında mənə danışsın. Abu ilə üç saat danışdıqdan sonra İsadan xahiş etdim ki məni bağışlasın və həyatımı Ona təslim etdim. Mən tez evə qaçdım və başıma gələnləri həyat yoldaşıma danışdım. Həyat yoldaşım da uşaqlarım ilə birlikdə Məsihi qəbul etdilər."

Bir neçə günün içərisində bu hekayəni danışan banqladeşli imanlı İdris Miyah imtahanla üz-üzə gəldi. O öz işindən qovuldu və uşaqları məktəbdən çıxarıldı. Amma o deyir ki, hələ də sevinci var, çünki İsa ürəyindədir.

*Çox vaxt biz həyatımızın məzmununu seçə bilmirik, amma biz münasibətimizi və cavabımızı seçə bilərik. Biz vəziyyətlərə baxmayaraq, həmişə həmin seçimləri edə bilərik. Ona görə də Abu kimi fəlakətin qarşısında dayananda biz dua edib Məsihə bənzər cavab verəcəyik, yoxsa təlaşa düşüb narahat olacağıq? Başqaları ən böyük səyləri göstərsələr də, bizi hirsləndirə və sıxışdıra bilməzlər. Biz həmin seçimləri özümüz edirik. Eynilə də müqavimətə qarşı cavab olaraq biz Məsihi təqlid etməyi seçə bilərik. Kim bilir ki, bundan hansı nəticələr yaranacaq? Allahdan xahiş edin ki, istənilən üzücü vəziyyətə qarşı düzgün cavabı seçməkdə bu gün sizə kömək etsin.*

Səni çağıranda mənə cavab ver, ey adil Allahım! Dara düşən zaman məni genişə çıxar.

*Məzmur 4:1*

# Böyük "qul"

**VİRGİN ADALARI:** LEONARD DOBER

**Leonard Dober İsanın çarmıxa getməsindən əvvəl həddən artıq çox düşünüb-düşünmədiyini bilmək istəyirdi; sonra İsanın bağdakı duası yadına düşdü: "Amma Mənim yox, Sənin iradən olsun." Loeonardın tapşırığı qeyri-mümkün görünürdü, amma o özünün deyil, Allahın iradəsini axtarırdı.**

Leonard Dober qəti qərara gəlmişdi ki, onun üçün Allahın çağırışı Virgin Adalarında yaşayan qullara Müjdəni paylamaqdır. O, bu kişilərə və qadınlara Müjdəni paylamaq üçün özünü qul kimi satmağı və gündəlik bu insanlarla işləyib Məsihin sevgisini onlarla bölüşməyi planlaşdırdı. Qul olmaq fikirləri onu qorxuya salır və ikrah hissi yaradırdı. Ona qarşı olacaq rəftar haqqında düşünəndə dəhşətə gəlirdi. "Ancaq Məsih mənim üçün çarmıxda ölməyə hazır idi" – o düşündü. "Ona xidmət etmək üçün heç bir qiymət yüksək deyil."

Doberin ən sərt təqibçiləri qulların sahibkarları deyildilər, onlar məsihçi yoldaşları idilər. Onlar Leonardın çağırışına, yəni qullara xidmətinə şübhə ilə yanaşdılar və bu planına görə ona səfeh kimi baxıb ələ saldılar. Amma Dober fikrindən daşınmadı. O, 1730-cu ildə Virgin Adalarına gəlib çatdı.

O, hakimin evində qulluqçu işləyəndə qorxdu ki, bu vəzifə onu xidmət etmək istədiyi qullardan uzaqda saxlayar. Ona görə də hakimin evini tərk edib palçıq komaya köçdü, burada o, qullar ilə çiyinbəçiyin işləyə bilərdi.

Üç ilin içərisində Doberin xidmətinə on üç mindən artıq yeni imanlı daxil idi.

*İsanın qəribə adamları. Dünya imanı bir az radikal görünən insanlara belə ad verir. Qəribə, son dərəcə də fərqli aparan insanlar. Dober on səkkizinci əsrin qəribə adamı idi – qulları İsaya gətirmək üçün qul kimi yaşamağı seçən azad insan idi. O, Məsihə xidmətdə ürəyindən həsrolunmanın son qramını sıxıb çıxarmaq üçün hər bir şey etməyə hazır idi. Dober üçün bu xüsusi bir plan demək idi, bu plan başqaları üçün heç bir məna daşımırdı. Siz heç əsas qaydalar ilə getməkdən imtina edərkən qəribəliyinizə görə siyahıdan kənarlaşdırılmısınızmı? Əgər Allah sizi ailənizdə, məbədinizdə və ya cəmiyyətinizdə hansısa bir radikal işi görməyə çağırıbsa, siz mütləq itaət etməlisiniz. Qoy başqaları sizi dəli adlandırsın, amma qoy İsa sizi sadiq bir qulluqçu kimi görsün.*

Əgər ağlımızı itirmişiksə, bu, Allah üçündür, yox, əgər ağlımız başımızdadırsa, bu, sizin üçündür.

*2 Kor. 5:13*

# Böyük ibadət

**QƏDİM BABİL:** DANİEL

**O öz pəncərəsindən fərmanı eşitdi: "Növbəti otuz gün ərzində kim padşahdan başqa bir allaha, yaxud insana dua edərsə, şirlər olan quyuya atılsın."**

Daniel pəncərəni açdı. Ona nifrət edən padşahın iki məsləhətçisi yuxarı otağında olarkən kənardan tərs-tərs baxırdılar. O, mehribancasına başı ilə işarə etdi və onlar da cavab olaraq başları ilə işarə etdilər, onların sifətlərində hiyləgər təbəssüm var idi.

Daniel otağının hər bir pəncərəsinə yaxınlaşıb onları geniş açdı. Pəncərələrinin hər birinin qarşısında müşahidəçilər var idi. Sonra o, otağın ortasına gedib diz çökdü və Allaha ibadət etməyə başladı, buradan onu hamı gördü.

Padşah onların Danieli qarşısına gətirdiklərini görəndə dilxor oldu. Padşahla hiyləgərcəsinə davranmışdılar. Padşah Danielin yaxşı insan olduğunu hesab edirdi, baxmayaraq ki, onu azad etmək üçün bütün günü yollar axtardı, amma onun fərmanı ləğv edilə bilməzdi.

"Onu aparın" – deyə, padşah Dara mühafizəçilərə söylədi. Sonra Danielin gözlərinə baxaraq dedi: "Daim qulluq etdiyin Allahın səni qurtarsın!" (Daniel 6:16). Əsgərlər Danieli quyuya gətirdilər, padşah da onların arxasınca gəlirdi. Daniel heç bir söz demədi, amma Padşaha səcdə edib şirlər arasında gəzdi. Quyunun ağzına böyük bir daş qoydular.

Daniel quyunun ortasına keçdi, diz çökdü və Allaha ibadət etməyə başladı.

*Böyük ibadət izzətləndirmək üsulu deyil. Bu, xüsusi bir metod və ya xüsusi bir ənənə deyil. Bu orqan musiqisini müasir ilahilər ilə müzakirə etməklə təyin edilmir. Əslində bu, bizim Allaha necə izzət gətirməyimiz ilə az əlaqəlidir. Böyük ibadət bizim nə vaxt və harada ibadət etməyimiz ilə təyin edilir. Biz ən gərgin vaxtlarımızda ibadət etməyə cəlb olunanda böyük ibadəti həyata keçirmiş oluruq. Müqavimətin ən güclü olduğu yerdə izzət ilahisi oxumağa cəlb olunanda biz böyük ibadəti həyata keçirmiş oluruq. Daniel kimi biz də yol verməli deyilik ki, şəraitlərimiz nə vaxt və harada Allaha ibadət etməyi əmr etsin. Biz imanımızı istənilən vaxt, istənilən yerdə tətbiq etməyə hazır olmalıyıq. Bu gün böyük ibadətdə Allaha xidmət etmək istəyirsiniz?*

Bunu eşitdikdə padşah əmr etdi və Danieli gətirib şirlər olan quyuya atdılar. Padşah Danielə belə dedi: "Daim qulluq etdiyin Allahın səni qurtarsın!"

*Daniel 6:16*

# Böyük imtina

**ŞİMALİ KOREYA**

**"Onlar mənə elə hey yalvardılar, amma mən onu onlara verə bilmədim" – kişi dedi. "Mən bilirəm ki, məsihçilər bölüşməlidirlər, amma mən, sadəcə, ondan ayrıla bilmədim." O, kədərli halda əlini irəliyə uzadıb açdı ki, dinləyiciləri onun belə yüksək qiymətləndirdiyi əşyasını görə bilsinlər.**

"Mən həqiqətən istəyirdim, amma edə bilmədim. Siz görürsünüz ki, Şimali Koreyada insanlar Müqəddəs Kitab əldə etmək üçün əlli il dua etdiklərini mənə söyləyiblər. Amma mən özümünkünü onlara vermədim, çünki iyirmi il idi ki, dua edirdim və təzəcə Cənubi Koreyada bir pastordan onu əldə etmişəm."

O, dərindən köksünü ötürdü, fikri isə Şimali Koreyada ehtiyac içində olan imanlılara getdi, onlar Müqəddəs Kitabın bir nüsxəsi üçün olduqca güclü dualar edirdilər. O öz Müqəddəs Kitabını sinəsinə sıxdı. O, kommunist həbsxanasından qaçmışdı və indi Cənubi Koreyada azad yaşayırdı.

Şimali Koreyada Müqəddəs Kitablar ələ düşmür. Kommunistlər tərəfindən müqavimətə görə imanlılar Kəlamı qızıldan qiymətli hesab edirlər. Bir kişi Şimali Koreyaya Müqəddəs Kitabları gətirərkən Çin sərhədində yaxalanaraq dəmirlə ölənədək döyülmüşdü. Kədərli də olsa, bu hallar dəfələrlə təkrarlanmışdı.

"Mən həmin insanları unuda bilmərəm" – o, köks ötürərək dedi. "Mən Müqəddəs Kitabımı onlara göstərərkən onların üzündə olan həsəd hissini yaddan çıxara bilmərəm. Onların vəziyyəti məni çox kədərləndirir."

*Müqəddəs Kitablardan fincan və ya uzaqdan idarəetmə pultunu qoymaq üçün altlıq kimi istifadə olunur. Onların möhkəm örtükləri mehmanxanada məktub yazmağa və ya siqaretdən düşən külü tutub saxlamağa kömək edir. Onlar karamel qabı və televiziya proqramları qəzetinin yanında cansız halda yazı stolunu bəzəyir. Baxmayaraq ki, bu kitab ildən-ilə ən çox satılan bir kitab olur, heç kimin onu çox oxuduğu görünmür. Bu, Müqəddəs Kitabdır. Müqəddəs Kitabdan sui-istifadə edilir və onun həqiqi dəyərinin hamıya yaxşı məlum olduğu yerlərdə ona etinasız yanaşılır. Əgər biz Müqəddəs Kitabı əldə etmək üçün iyirmi il dua etməli olsaydıq, onda onunla necə də fərqli davranardıq! Allahın qiymətli Kəlamı üçün öz qızğın həvəsinizi yenidən canlandırmaq üçün nə edə bilərsiniz?*

Sənin əmrlərindən zövq alıram,
onları sevirəm.

*Məzmur 119:47*

# Böyük görmə qabiliyyəti

**RUSİYA:** LYUBA QANEVSKAYA

**Lyuba Qanevskaya Rusiya həbsxanasında dəfələrlə döyülmüşdü. Amma o, başını qaldırıb ona işgəncə verən və əlində qamçı tutmuş şəxsin üzünə baxanda gülümsəmişdi.**

"Nəyə görə gülürsən?" – o, heyrətə gələrək soruşdu.

"Mən sizi indi güzgüdə özünüzü necə görürsünüzsə, eləcə görmürəm" – deyə, Lyuba cavab verdi. "Mən sizi gözəl, məsum bir uşaq kimi görürəm. Biz eyni yaşdayıq. Biz, ola bilsin ki, birlikdə oynamışıq."

Allah Lyubanın gözlərini açmışdı ki, kişini başqa cür görsün. O, kişinin artıq yorğun olduğunu hiss etdi; Lyuba döyülməkdən yorulmuşdu, eynilə, onu döyən də yorulmuşdu. Kişi hirslənmişdi ki, başqa imanlıların nə işlə məşğul olduqlarını açıqlamasına bu qadını məcbur edə bilmir.

"O da elə sənin kimidir" – Allah bu sözləri Lyubanın ürəyinə qoydu. "Siz hər ikiniz həyatın eyni səhnəsində dayanmısınız. Sən və sənə əzab verən şəxs eyni göz yaşlarını axıtmısınız."

Kişiyə Allahın gözləri ilə baxan Lyubanın davranışı dəyişdi. O, kişi ilə danışmaqda davam etdi. "Mən sizi bir nəfərə bənzədirəm, ümid edirəm belə də olacaq. Həyatda sizdən də betər olan biri – Tarsuslu Şaul – həvari və müqəddəs bir insan oldu." Lyuba artıq sakitləşmiş kişidən soruşdu ki, həyatında hansı ağır yükü var. Həmin bu ağır yük idi ki, onu dəli olmaq dərəcəsinə gətirmiş və ona heç bir pislik etməyən insanı döyməyə vadar etmişdi.

Allahın sevgisi ilə dolu olan Lyuba ona əzab verən şəxsi Məsihin padşahlığına gətirdi.

*Cismani görmə qabiliyyətinə çox vaxt müxtəlif xəstəliklər mane olur: astiqmatizm, yaxındangörmə, qlaukoma və başqaları. Bizim görmə qabiliyyətimiz müalicəvi linzalardan necə faydalanırsa, ürəyimizin gözləri də ruhani müdaxilədən faydalana bilər. Özümüzə qalsa, biz yalnız başqalarında yaxşı şeyləri deyil, pis şeyləri görürük. Amma həyata göylərin baxışı ilə baxmaq istəyən insanlara Allah ruhani təsəvvür verir. Biz xasiyyətinə dözmədiyimiz müdirimizə və ya bizi incidən istənilən insana sevgiyə ehtiyacı olan yaralı bir fərd kimi baxa bilərik. Biz sözə qulaq asmayan yeniyetmənin qorxunc maskasının arxasında bəyənilmə üçün ağlayan qorxmuş qızı və ya oğlanı görə bilərik. Siz başqalarına göylərin gözləri ilə baxırsınızmı? Ruhani görmə qabiliyyəti sizin həyatınızda hansı fərqi yaradır?*

Mən Rəbb salehliyimlə səni çağırdım...ki, korların gözlərini açasan.

*Yeşaya 42:6-7*

# BÖYÜK SADİQLİK

**Mən Rəbbimə xəyanət etməkdənsə asılmağı üstün tuturam.**

Salima – imanına görə ciddi təqibə məruz qalmış Pakistanda yaşayan on doqquz yaşlı məsihçi



203-cü gün

# Böyük şərəf

**RUMINİYA:** VALERYU QAFENSU

**Valeryu Qafensu və ailəsi atalarını itirmişdilər, bununla belə kommunist işgəncə verənlərin əllərində böyük əzab çəkmişdilər. Amma ailəsinə bu qədər ağrı və əzab vermiş kommunistlər haqqında heç bir pis söz demirdi. O, bu qədər əzaba necə dözə bilir və səbəbkarlara qarşı danışmır?**

O, belə cavab verir: "Davud padşah çətin vəziyyətdə olanda Şimey ona daş atırdı, lənətləyirdi və etmədiyi cinayətlərə görə onu ittiham edirdi (2 Şamuel 16). Davudun əsgərlərindən biri Şimeyi öldürməyə hazır idi, amma Davud onu qoymadı. O icazə verdi ki, Şimey lənətləsin, çünki Rəbb ona belə etməyi əmr etmişdi. Davud bilirdi ki, Şimeyin onu ittiham etdiyi işlərə görə günahsızdır, amma Şimeyin heç bir şey bilmədiyi başqa günahlara görə təqsirli olduğundan da agah idi.

"Kommunistlər bizi oğru və insanların düşməni adlandırır, halbuki bu, belə deyil. Amma biz hamımız Məsihə bənzər nümunəvi müqəddəs olmadığımıza görə günahkarıq. Kommunistlərin səhv sözlərinə bizim cavabımız nifrət deyil, daxili yeniləşmə olmalıdır. Bizlərdən şölə saçan müqəddəslik şüaları şəri məhv edəcək. Allah sözü yunan dilində *theos* olub "şölə saçmaq" mənasını verən sözdən yaranıb.

Qafensunun həbsxanada şəhadətliyi bir çoxlarını Məsihə gətirdi. O, ölən günə qədər ağzını açıb ona əzab verən şəxslər barədə bir pis söz demədi.

*Düşmən şərəfə layiqdirmi? Ola bilsin ki, bu ağrılar barədə düşünmək çətindir. Amma biz təqib olunmuş məbəddən öyrənə bilərik ki, Allah bizi özünə yaxınlaşdırmaq üçün hətta düşmənlərimizdən istifadə edə bilər. Buna görə də biz həyatlarımızda düşmənlərimizin rolunu dəyərləndirə bilərik. Əgər biz düşmənlərimizi incitsək, onda Allahın möhtəşəm planına hörmətsizlik etmiş olarıq. Əgər düşmənlərinizi sizinlə rəftarına görə lənətləməklə məşğulsunuzsa, dayanın və düşünün ki, niyə Allah bu vəziyyəti həyatınıza gətirib. Bunun vasitəsilə Allahın sizə nəsə öyrətməsini çətinləşdirirsiniz, yoxsa asanlaşdırırsınız? Əgər belədirsə, siz yəqin ki, öyrənənə qədər onunla yenidən üzləşəcəksiniz.*

Mühakimə etməyin, siz də mühakimə olunmazsınız. Hökm çıxarmayın, sizə də hökm çıxarılmaz. Başqalarını bağışlayın, siz də bağışlanacaqsınız.

*Luka 6:37*

# Böyük şayiə

**ÇİN:** ÇİNLİ İMANLILAR

**Çinli imanlılardan ibarət qrupun yazdığı məktubda ilk sətirlər belə başlayır: "Biz belə bir şayiə eşitmişik: Qərbdə yaşayan insanlar deyirlər ki, Çində yaşayan məsihçilər təqib olunmur."**

"Burada yüzdən artıq bacı və qardaş həbsdədir və yaşı on səkkizdən aşağı olan çoxlu gənc məsihçi polisin güclü təzyiqi altındadır. Bəzilərini peyin xəndəklərinə atıblar; digərlərini elektrik zərbəsi vuran dəyənəklər ilə döyüblər, elələri də vardır ki, həddən artıq çox döyüldüyündən ayaq üstə dura bilmir, yalnız sürünə-sürünə gəzirlər.

"Bir neçə insan buna dözə bilməyib. Onlar öz yoldaşlarının adlarını və ünvanlarını polisə xəbər verib. Onlar üçün hökm cəzası oxunub, amma əhəmiyyətsiz sübutlar olduğundan heç bir söz deməyən insanlar sonda azadlığa buraxılıb.

"Təqib bizim üçün normal bir şeydir. Bir çox hallarda biz sorğu-sual olunduqdan sonra buraxılırıq. Sonra biz vəz etmək üçün öz əvvəlki yerimizə qayıdırıq.

"Bəzi yeniyetmələr bütün vaxtı xidmət etmək üçün özlərini Allaha həsr etmək istəyirlər. Evlərini ataraq, müjdəçi kimi bütün həyatlarını bu təhlükəli həyat tərzində yaşamaq istəyirlər. Biz buna qorxu və təşvişlə baxırıq, qorxuruq ki, Müjdəni vəz etdikdən sonra biz özümüz tənha qalaq.

"Biz Müjdə üçün böyük məbləğ ödəmişik – çoxlu qan və tər tökmüşük, çoxlu göz yaşları axıtmışıq, bir çoxları qurban getmiş, eləcə də külək və yağışlara sinə gərmişik."

*Çində yaşayan məsihçilər barədə olan şayiələr, yəqin ki, yanlış idi. Əslində, bu şayiələr düşmənin istifadə etdiyi alətlər ola bilər, bu alətlərlə düşmən təqib olunmuş imanlılara gərək olan dua və dəstəyin qarşısını kəsə bilər. Çox vaxt biz hiss edirik ki, əgər nəyinsə o cür olmadığını özümüzə desək, onda, həqiqətən, elə də olar. Əgər biz özümüzü təqiblər haqqında məlumatdan və təqibdən keçmişlərin hekayələrindən qoruyuruqsa, onda biz müqavimətin mövcud olmadığına inanmağa başlayırıq. Amma biz həqiqəti gizlədə və ya inkar edə bilmərik. Bu gün bizim qardaşlarımız və bacılarımız məhdudiyyətlər qoyulmuş ölkələrdə təqib olunurlar. Bunu bilməklə sizin cavabınız nədir? Siz dua edəcəksinizmi? Xidmət edəcəksinizmi? Verəcəksinizmi? Öz reaksiyanız barədə düşünmək və dua etmək üçün bir az vaxt ayırın.*

Özünüzü həbsdə olanların yerinə qoyaraq onları yada salın. Əzab-əziyyət içində olanları da elə xatırlayın ki, sanki özünüz onlarla birgə əzab-əziyyət çəkirsiniz.

*İbr. 13:3*

205-ci gün

# Böyük sual

**ROMA:** PTOLOMEY

**"Sən məsihçisən?" Üç dəfə sual verildi. Üç dəfə cavab eyni oldu: "Bəli". Üç məsihçi şəhid oldu. Roma hökmdarı Urbikus b.e. əvvəl 150-ci ildə məsihçiləri cəzalandırırdı.**

Ptolomey ona görə ittiham olunmuşdu ki, xilasın yalnız İsa Məsihə iman ilə qazanıldığını öyrədirdi. O, həmin vaxtlarda olan yalana və allahsızlığa nifrət edirdi. Ona görə də Urbikus ondan məsihçi olub-olmadığını soruşanda o, yalan danışa bilmədi. O, salehliyi nümayiş etdirməli və cəsarətlə cavab verməli idi: "Bəli". Buna görə onu qandallamış və dəfələrlə döymüşdülər.

Onu yenə də Urbikusun qarşısına gətirdilər. Ona yenə də bircə sual verdilər: "Sən məsihçisən?"

Ağrı və əzab gerçəkliyi dəyişdirə bilməzdi. "Bəli" – deyə, Ptolomey yenə də cavab verdi.

Ptolomeyin həbsi barədə eşidən yaşlı bir kişi Urbikusa yaxınlaşıb onun canının xilas edilməsi üçün yalvardı. "Siz niyə belə gözəl müəllimi edam edirsiniz? Bu sizə və ya imperatora nə xeyir verir? O, heç bir qanunu pozmayıb. O, yalnız məsihçi olduğunu etiraf edib."

Yaşlı kişinin Ptolomeyi müdafiə etməsi onda maraq oyatdı və o, bircə sual verdi. "Sən məsihçisən?" Yaşlı kişi cəsarətlə öz yerində durub dedi: "Bəli, məsihçiyəm."

"Onda sən də müəllimə qoşula bilərsən."

Başqa bir kişi də irəliyə çıxıb eyni etirazı bildirdi. Yenə də həmin sual verildi: "Sən məsihçisən?"

Allahın üç övladı "bəli" cavabı verdiklərinə görə edam olundular.

*Sual kifayət qədər sadədir. "Sən məsihçisən?" Bu, birbaşa sualdır. Bu, şəxsidir. Bu, həqiqətin bəli və ya xeyr məqamıdır. Onda cavab verməkdə çətinlik nədir? Problem o deyil ki, məsihçilər necə cavab verməyi bilmirlər. Əsl problem budur ki, başqaları bizə kifayət qədər tez-tez bu sualı vermirlər. Biz çox fərqli bir həyat tərzində yaşamırıq ki, həyatlarımızda olan fərqlilik barədə kimsə soruşsun. Biz etiraf etməliyik ki, çox az insanlar Ptolomeyə verilən sualı bizə verirlər. Bu, əsl problemdir. Sonuncu dəfə həyat tərziniz nə vaxt iş yoldaşınız, dostunuz və ya qonşunuzda – imanınız barədə sual vermək üçün kifayət qədər maraq oyadıb. Siz cavabı bilirsiniz – indi elə yaşayın ki, başqaları sizə bu sualı versin.*

Siz yer üzünün duzusunuz.
Amma duz öz dadını itirərsə, nə
ilə duzlanar?

*Matta 5:13*

206-ci gün

# Böyük təbəssüm

**RUMINİYA:** MİLAN HAYMOVİKİ

**Soyuq, qaranlıq həbsxana kamerası qaranlığa İsanın nurunu gətirmək qərarına gəlmiş romalı məsihçilər ilə dolu idi. Məhbuslardan biri Milan Haymoviki adlı yəhudi imanlı idi.**

Bir gün Milan digər məhbus yoldaşı ilə müzakirəyə başladı, həmin şəxs böyük alim idi, amma Allaha inanmırdı. Milan bu professorun intellektual və mədəni səviyyəsinə malik deyildi, amma İsa haqqında ona danışdı. Professor onu ələ saldı: "Sən nə yalançı insansan. İsa iki min il bundan əvvəl yaşayıb. Sən necə deyə bilərsən ki, onunla gəzib danışırsan?"

Milan ona cavab verdi: "Onun iki min il bundan əvvəl ölməsi doğru fikirdir, amma O, həmçinin, dirilmişdir və bu günə qədər yaşamaqda davam edir."

Onda professor Milana başqa sual verdi: "Yaxşı, deyirsən ki, O, səninlə danışır. Onun üzündə nə cür ifadə var?"

Milan cavab verdi: "Bəzən o, mənə gülümsəyir."

"Əcəb yalandır" – deyə, professor güldü. "Bir göstər görüm, O, necə gülümsəyir." O, mehribancasına bununla razılaşdı. Onun başı qırxılmışdı və yalnız bir dəri, bir sümük idi, gözlərinin altı isə qara kölgə salmışdı. Onun dişləri tökülmüşdü və əynində məhbus geyimi var idi, amma dodaqlarında olduqca gözəl bir təbəssüm ifadə olundu. Onun çirkli sifəti nur saçırdı. Onun üzündə böyük sülh, xoşbəxtlik və sevinc hiss olunurdu.

Allahsız professor başını əyib etiraf etdi: "Cənab, sən İsanı görmüsən."

*Təbəssüm insanda arxayınlığın, sülhün və xoşbəxtliyin təbii ifadəsidir. Ağrı və əzab, hətta dəhşətli işgəncə zamanı təbəssüm Allahı fövqəltəbii surətdə sübut edə bilər. Əgər İsa Məsih, Allahın Öz Oğlu həqiqətən ürəklərimizdə yaşayırsa, onda bizlərdən bəzilərimiz xoş xəbəri sifətlərimizdə göstərməliyik! Məbəddə biz bəzən himnləri dəfn mərasiminin himnləri kimi oxuyuruq – bizim fikirlərimiz sözlərimizdən minlərlə kilometr uzaqdadır. Sizin sifətiniz İsa ilə ünsiyyətinizi necə aşkar edir? Küçədə yanınızdan keçən başqa insanlar sizdə bunun şahidi olurlarmı? Ürəyinizdə Məsihin xoşbəxtliyini göstərə bilirsinizmi? Yoxsa qaşlarınız həmişə narahatçılıqdan çatılmış və dodaqlarınız büzülmüş olur? Allahdan xahiş edin ki, səssiz xəbərinizdən agah olmaqda sizə kömək etsin və sizi Öz sevinci ilə doldursun.*

Ümidinizlə sevinin. Əziyyətdə dözümlü olun. Dayanmadan dua edin.

*Roma. 12:12*

# Böyük rəqabət

**YƏHUDEYA:** C. OSVALD SMİT

**Rəbb İsa Məsih ətraf şəhərlərdən yığışıb gələn beş min nəfər insanı yedizdirəndə xüsusi bir strategiyadan istifadə etmişdi. Artıq axşama yaxın idi və həvarilər İsanın yanına gəlib Ondan xahiş etdilər ki, izdihamı buraxsın. Amma İsanın başqa planı var idi. O, insanların otun üzərində cərgələrlə oturmasını xahiş etdi. İsa yeməyi götürüb minnətdarlıq etdikdən sonra həvarilər birinci cərgənin başlanğıcından başlayıb axıra qədər hər kəsə payladılar.**

Vəzçi və yazıçı C. Osvald Smit bu yerdə qeyri-adi bir sual verir: "Həvarilər yenidən geriyə qayıdıb başlanğıc cərgədə oturanlardan əlavə yemək istədiklərini soruşaraq payladılarmı?

Xeyr! Bunu etmiş olsaydılar, arxa cərgədə oturanlar ayağa qalxıb ciddi surətdə etirazlarını bildirərdilər. Onlar belə demiş olardılar: Buraya qayıdın. Bizə də yardım edin. Nəyə görə biz payımızı almamış qabaq cərgədə oturanlar artıq ikinci dəfə yeyirlər?

Yəqin ki, onlar doğru fikir söyləyirlər. Biz Məsihin ikinci gəlişi haqqında danışırıq. Bir çoxları birinci gəlişi barədə hələ eşitməyiblər. *Nəyə görə kimsə bir dəfə Müjdəni eşitməmişdən qabaq başqa birisi iki dəfə eşitməlidir?* Beş min nəfərlik izdihamda hər kəs birinci payını alana qədər heç kim ikinci payı almamışdı."

*Bir çox məsihçilər müjdəçilərin ayaq basmadıqları ölkələrə getməyə qorxurlar. Tanış ərazidə qalmaq çox asandır. Amma İsa imanlılara "bütün dünyaya" getməyi və Məsihin adının heç vaxt bəyan olunmadığı yeni yerləri tapmağı əmr edib. Smitin beş min nəfərin yedizdirilməsi haqqında olan gerçək izahı müjdəçiliklə bağlı bizim metodologiyamızı sual altına qoyur. Nəyə görə əksər insanların resursları və maliyyə büdcələri Müjdəni artıq eşitmiş insanlar üçün nəzərdə tutulub və onlara doğru yönəlib? Əslində, həmin ölkələrdə məbədlər həddən artıq çoxdur, amma başqa insan qruplarının öz dillərinə tərcümə edilmiş Müqəddəs Kitabları belə yoxdur. Sizin dəstəyiniz tərəzinin tarazlaşmasına kömək edirmi? Sizin həyatınız sabahın müjdəçilik səyində fərq yarada bilərmi?*

Çünki Allah dünyanı elə sevdi ki, vahid Oğlunu verdi; bunu ona görə etdi ki, Ona iman edən hər kəs həlak olmasın, amma əbədi həyata malik olsun.

*Yəhya 3:16*

# Böyük girov

**İNGİLTƏRƏ:** BİLL VƏ CON

**Bill və Con İngiltərənin cənubunda limana yaxın olarkən gəminin arxasında Rumıniya bayrağının asıldığını gördülər. Bu, həmin illər idi ki, Rumıniyada çətin kommunist rejimi hökm sürürdü.**

Bir az söhbət etdikdən sonra onlar qarşılarında olan müjdəçilik ərazisini tanıdılar, Müqəddəs Kitablar olan çantalarını açıb gəmiyə mindilər. Onlar yeməkxanaya girdilər, burada otuz beş nəfər gəmi heyətinin hamısı yığışmışdı. Bill və Con nəyə görə gəldiklərini izah etdilər və rumın dilində olan Müqəddəs Kitabları çıxarmağa başladılar. Heyət dərhal bu iki nəfərə diqqətlərini cəmlədi. Onlardan çoxu bu vaxta qədər Allah və Onun Oğlu İsa haqqında heç vaxt eşitməmişdilər.

Bill və Con görəndə ki, onların kifayət qədər rumın dilində Müqəddəs Kitabları yoxdur, iki enlikürək dənizçi Billin qollarından tutub yavaşca, amma ciddi surətdə onu stula otuzdurdular. Onlar qırıq-qırıq ingilis dilində danışaraq üzr istəyib dedilər ki, Con gedib hamıya Müqəddəs Kitab gətirməyincə Bill burada oturacaq.

Müqəddəs Kitab üçün girov – Con bilmədi ki, gülsün, yoxsa ağlasın, amma yalnız bu yolla rumıniyalılar əmin ola bilərdilər ki, Con geriyə qayıdacaq. Həyata keçirilməmiş vədlər olan kommunist ölkəsində onlar heç kimə etibar etmirdilər.

Con tez ofisə qaçıb öz çantasını rumın dilində olan Müqəddəs Kitablar ilə doldurdu. Bir saatın içərisində o, yeməkxanaya qayıtdı, heyət bunu görən kimi sevinclə Müqəddəs Kitabları götürüb “girov”u buraxdı.

*Kəlamı kənara çıxarın. İsa Öz xəbəri barədə məhz bunu etməyi söyləmişdi. Amma biz bunu edə bilərik, haraya gediriksə, hansısa bir iş görürüksə, Məsih haqqında kəlamı yaymağa hazır olmalıyıq. Bizim həsr olunmamız bizi limanlara və ya sadəcə imansız qapı qonşumuzun səhər yeməyi süfrəsinə apara bilər. Hər iki halda biz ruhən ölən insanlara Allah Kəlamını bölüşmək üçün hazır olmalıyıq. Siz Məsih haqqında kəlamı kənara çıxarmaq istəyirsinizmi? Siz tapşırığınızı həyata keçirmək üçün məhdud vaxtınızın olduğundan xəbərdarsınızmı? Öz üzərinizə düşən tapşırığın başqası tərəfindən icra ediləcəyini düşünərək, daha bircə dəqiqə də itirməyin. Bu gün Xoş Xəbəri yaymaq üçün siz nə edə bilərsiniz?*

Beləliklə, iman eşitməkdən,
eşitmək də Məsihin kəlamı
vasitəsilə yaranır.

*Roma. 10:17*

# BÖYÜK SADİQLİK

**Biz Sudanın rəhbərliyi üçün dua edirik, amma buna görə də Allaha şükür edirik. Dövlətin qaydalarına və məsihçilərə qarşı mübarizəsinə görə Allaha minnətdarıq – terror, hədə-qorxular, həbslər – bir baxın, görün məbəd necə də inkişaf edib. Bütün bunların içərisində Allahın bizim üçün açdığı imkanlara baxın! Baxın, nə qədər insan Məsihi qəbul edirlər.**

Sudanlı məsihçi



## 210-cu gün

# Böyük naşir

**ÇİN:** KATİ Lİ

**Qonaqlar gizlicə və səssizcə qoca çinli bir qadının evinə gəlib çatdılar. Onların pərdənin arxasından keçməsinə yol göstərdilər, sonra onlar bir kilometrə yaxın uzun, qaranlıq tuneldən sürünə-sürünə keçərək iki kiçik mağaraya bənzər otağa gəlib çıxdılar.**

Otaqların birində Kati Li adlı on doqquz yaşlı məsihçi bir qız balaca, köhnə çap maşınını işlədirdi. Neçə aylar idi ki, o, buradan çıxmayıb mağarada işləyirdi, qeyri-qanuni kitablar və başqa məsihçi ədəbiyyatlar çap edirdi. Əgər onu burada görsəydilər, artıq o, cəmiyyət içərisində öz həqiqi kimliyini göstərə bilməyəcəkdi.

Amma gizli çap maşını çoxlu kitablar və kitabçalar nəşr etmişdi, Xalq Təhlükəsizlik Bürosu (XTB) şübhələnməyə başlamışdı və kənd camaatını sorğu-suala tutmağa başlamışdı. Nəşriyyatı tanıyan insanlar bu işdə köməklik etmək istəmirdilər.

Nəhayət, insanların yardım etmədiklərini görən XTB dinamitdən istifadə etməyə başladı və qoca qadının evinə çatana qədər kənddə hər bir evi partlatdılar. Mağara tapıldı və çap maşını müsadirə olundu. İşçilərə heç bir xətər dəymədən onlar əvvəlcədən qaçıb gedə bildilər.

Bu günə qədər Kati Li və başqa işçilər hələ də gizlənirlər. Əgər onları tapsalar, dərhal həbs edərlər və yəqin ki, edam edərlər. Onlar öz dostlarını və ailə üzvlərini bir daha görmək imkanına malik olmazlar. Amma Katinin işi və şəhadətliyi nəşr etdiyi kitablar və kitabçalar vasitəsilə yaşayır. Bu günə qədər onlar minlərlə çinli məsihçi tərəfindən oxunulub.

*Müdaxilə oluna bilər. Dəyişdirilə bilər. Hətta müvəqqəti olaraq dayandırıla da bilər. Amma Allahın padşahlığı daim irəliyə doğru gedir. O, heç vaxt dayana bilməz. Məsih Böyük Tapşırığı şagirdlərinə həvalə edəndə Öz padşahlığını işə salıb. Həmin gündən bəri padşahlığa əlavə olunan insanlar düşmənin müqavimətinə baxmayaraq var-qüvvə ilə inkişaf etməkdə davam edir. Əlbəttə, bir çoxları Müjdənin yayılmasının qarşısını almağa çalışıblar, amma onlar bu işdə uğursuzluğa düçar olublar. Siz xidmətinizdə müdaxilə ilə rastlaşmısınızmı? Siz gözlənilməz vəziyyətlərə görə işinizin bitdiyindən narahat olmusunuz? Yadda saxlayın, Allah hələ sizinlə işi bitirməyib. Sizin Müjdə üçün göstərdiyiniz təsir nə qədər Ona sadiq qalsanız, davam edəcək.*

Əminəm ki, sizdə xeyirli işə başlayan Allah Məsih İsanın zühur edəcəyi günədək bunu başa çatdıracaq.

*Filip 1:6*

# Böyük "zənginliklər"

**CƏNUB-ŞƏRQİ ASİYA:** HMONQ MƏSİHÇİLƏRİ

**"Onlar bir imanlını uzun bıçaqla ağzından bıçaqlayaraq öldürmüşdülər, əlində Müqəddəs Kitab tutan başqa birisini isə boğazına qaynar su tökməklə öldürmüşdülər. Bütün bir ailəni suda boğmuşdular."**

Cənub-şərqi Asiyada yaşayan hmonq qəbiləsindən olan imanlılar öz şəhadətliklərinin video kasetə yazılmasına razılıq verdilər. Onlar Qərbdə yaşayan imanlıları ruhlandırmaq istəyirdilər.

Bir hmonq məsihçi belə danışırdı: "Kommunist rəhbərlər hmonq qəbiləsindən olan çoxlu insanın məsihçi olmasına görə qorxuya düşmüşdülər. Onlar məsihçiləri döyərək məcbur edirdilər ki, şər ruhlara ibadət etmələrinə qayıtsınlar."

"Yerli polis bizə məsihçi olmağı qadağan etmişdi. Onlar bizi həbsxanaya salacaqlarını və hətta öldürəcəklərini deyərək bizə hədə-qorxu gəlirdilər" – deyə, qadın əlavə etdi. "Amma Məsihin uğrunda ölməliyiksə, biz ölməyə hazırıq."

Bu imanlılar özlərini hətta daha böyük təhlükələrə atmağa hazırdırlar, bununla onlar təqiblərin qarşısında güclü dayandıqlarını dünyaya bildirmək istəyirlər. Hmonq qəbiləsi Cənub-şərqi Asiyanın ən böyük qəbiləsidir və bu qəbilədə məsihçilik daha çox artır. Bu qəbilə həm də ən çox təqib olunan insan qruplarından biridir.

Başqa bir qadın deyirdi: "Mən Allaha minnətdaram ki, biz güclü qalmışıq. Mən inanıram ki, təqib sadəcə bizim Məsihə olan imanımız üçün sınaqdır. Təqib həqiqi zənginlikləri üzə çıxarır. Bu, gümüşü və qızılı hasil edir. Sadəcə, bizim üçün dua edin ki, biz axıra qədər sadiq qalaq."

*Polad müxtəlif emal prosesləri vasitəsilə möhkəmlənir – ifrat istiliyə qədər qızdırılır, formaya salmaq üçün döyəclənir və sonra soyudulur. Sonra proses yenidən və yenidən təkrarlanır, qızdırma və döyəcləmə prosesi çirkli qalıqları kənarlaşdırır və sonra polad soyudulur ki, metala birləşdirmək mümkün olsun. Buna oxşar emal prosesi bizim imanımızı möhkəmləndirir. Biz başqalarının nifrəti vasitəsilə qızdırılarkən, təqiblər vasitəsilə döyəclənərkən və sonra Allahın hüzurunun xoş təsəllisi vasitəsilə soyuyarkən bizim çirkli qalıqlarımız kənarlaşdırılır və imanımız möhkəmlənir. Siz həyatınızda emal prosesindən agahsınızmı? Bu prosesin heç bir mərhələsinə müqavimət göstərməyin. Hmonq qəbiləsindən olan bacı və qardaşlarınızdan öyrənin. Sizin düşmənləriniz bilmirlər ki, onların nifrəti sayəsində siz daha güclü olacaqsınız.*

Belə ki imanınızın sınaqdan
keçməsi İsa Məsihin zühurunda
sizə tərif, izzət və şərəf gətirsin.
Bu imanınız odla təmizlənsə belə,
fani qızıldan daha çox dəyərlidir.

*1 Peter1:7*

# Daha böyük qaçaqmalçı

**ŞƏRQİ AVROPA:** MİHAY

**Mihayın "Volsfagen" maşını yavaş-yavaş sərhəd yoxlama məntəqəsinə yaxınlaşdı. O, həyəcanlı halda qısa bir dua etdi: "Əziz İsa, xahiş edirəm, Kəlamını qoru ki, sərhəd mühafizəçiləri onu tapmasınlar və müsadirə etməsinlər."**

Mihay hər suala diqqətlə cavab verdi, amma gözünün ucu ilə baxaraq gördü ki, mühafizəçilərdən biri maşınında olan hər oturacağın altına baxır, bu, onun ürəyini tez-tez döyündürdü. Mihay uzun müddət dayanmaqdan yorulmağa başladı. Mihayın cavablarından qane olan mühafizəçilər, nəhayət, öz ölkələrinə daxil olmağa ona icazə verdilər, onun qiymətli malları mühafizəçilərin gözlərindən uğurla yayındı.

Neçə illər bu cavan, cəsarətli qaçaqmalçı Müjdə haqqında ədəbiyyatları Şərqi Avropada yaşayan kommunist xalqlara gizli yolla gətirmişdi, onun gizli yükü heç vaxt aşkar edilməyib. Mihay adi bir insan idi, onun qeyri-adi təsəvvürü tamamilə cəsarət tələb edən bir şey idi. Onun ayaqları yox idi – demək olar ki, ayaqları tamamilə amputasiya olunmuşdu – amma o, qərara gəlmişdi ki, şikəstlik onu bu yoldan saxlaya bilməz.

Həvari Paul kimi Mihay da bilirdi ki, Məsihin qüdrəti onun fiziki zəifliyində kamilləşəcək. Onun ayaqlarının yerinə metal protezlər qoyulduqdan sonra o, hər ayağının boş qalan hissəsinə ədəbiyyatları doldururdu və həvəslə öz səyahətinə çıxırdı.

*Allah hər bir kəsə xidmət etmək üçün imkan verir. Əslində, Mihay öz şəxsi məhdudiyyətini Allaha yaradıcı bir işdə qoşulmaq üçün əla bir üsul kimi gördü. Hər bir problem özünəməxsus xidmət üçün imkan ola bilər. Məsələn, boşanmış ailənin faciəsini yaşamış insanlar eyni vəziyyətlərdə olan başqa insanlara xidmət edə bilər, halbuki belə həyat təcrübəsi olmayan insan bunu bacarmaya bilər. Allahın padşahlığında öz faydalılığınız ilə əlaqədar uzun müddət çatışmazlıqlarınız hesab etdiyiniz şeylər nədir? Onlara Allahın nöqteyi-nəzərindən baxın. Sonra onları Allaha təqdim edin və Öz izzəti, eləcə də, sizin xeyriniz üçün onlardan necə istifadə etdiyinə baxın.*

Üstün qüvvənin bizdən yaranmadığı, Allaha aid olduğu bilinsin deyə, bu xəzinəni saxsı qablarda saxlayırıq.

*2 Kor. 4:7*

# Daha böyük xəzinə

**TACİKİSTAN:** QREYS SONMİN MƏBƏDİ

**Bazar günü idi və Tacikistanın Düşənbə şəhərində olan Qreys Sonmin məbədində toplantı keçirilirdi. Baxmayaraq ki, onların ölkəsi indi qəddar kommunist hökmranlığı altında deyildi, radikal müsəlmanlar hələ də məbədə azğınlıqla müqavimət göstərirdi. Bu qarşıdurma, sadəcə, bir terrorist rəhbərliyin əlindən o birisinin əlinə keçmişdi.**

Qonaq gəlmiş pastor yenicə vəzini bitirmişdi ki, birdən məbədin arxasından güclü partlayış səsi binanın bir hissəsini dağıtdı. Bu, bomba idi. Bir dəqiqənin içərisində Allaha ibadət edən imanlılar dəhşət içərisində canlarını qurtarmaq üçün qaçmağa başladılar. Onlar dəhlizə qaçmağa çalışdılar, amma o biri bomba onların qaçmaq istədikləri yolda partladı. Cəsədlər və qan məbədin hər yerinə səpələnmişdi.

Qoca bir qadın hərəkətsiz halda döşəmədə uzanmışdı. Bir neçə dəqiqə bundan əvvəl ibadət zamanı oxuduğu Müqəddəs Kitabı qadının qanına bulaşaraq onun yanında yerdə idi. Məbədə hücum etməzdən bir az əvvəl onun üç ayəni dairələdiyi səhifə açıq vəziyyətdə qalmışdı. "Üstün qüvvənin bizdən yaranmadığı, Allaha aid olduğu bilinsin deyə, bu xəzinəni saxsı qablarda saxlayırıq. Hər tərəfdən əziyyət çəkirik, amma əzilmirik. Çaşqınlıq içindəyik, lakin çarəsiz deyilik. Təqib olunuruq, amma tərk edilmirik. Yıxılırıq, amma yox olmuruq" (2 Kor. 4:7-9).

*Radikal müsəlmanlar öz səbəblərinə görə günahsız insanları əhəmiyyətsiz hesab etdilər. Amma imanlıların ölümü Allahın sadiqliyinə bir şəhadət olaraq qiymətli daş-qaş kimi şəfəq şaçdı. Düşmən qoca qadının bədəninə – onun "saxsı qabına" zərbə vura bildi – amma qadının daxili xəzinəsi hücumdan bir neçə gün sonra, onun ruhu göylərə qalxdıqdan sonra zühur etdi. Biz indi daha yaxşı bilirik ki, düşmənimizin əllərində ölüm gözlənilmədən gələ bilər. Amma siz ölümdən qorxmamalısınız. Bundan başqa, düşmənimizin bizə etdiyi ən pis şey fani bədənlərimizi öldürməkdir. Sizin fiziki bədəniniz həqiqi "siz" deyilsiniz. Bu gün rahatlanın və bilin ki, canınızın xəzinəsi toxunulmazdır.*

İsanın ölümünü bədənimizdə həmişə daşıyırıq ki, Onun həyatı bədənimizdə aydın görünsün. Çünki İsanın həyatı fani cismimizdə aydın görünsün deyə, biz yaşaya-yaşaya İsa üçün həmişə ölümə təslim edilirik.

*2 Kor. 4:10-11*

# Böyük başlanğıclar

**AMERİKA BİRLƏŞMİŞ ŞTATLARI:**
RİÇARD VƏ SABİNA VURMBRAND

**1967-ci ilin gözəl bir payız günü idi, onlar yeni evlərindəki kiçik mətbəx stolunun üstünə qoyulmuş köhnə çap maşınının qarşısında əyləşmişdilər. Riçard Vurmbrandın gizli məbəddə işinə görə Rumıniyanın soyuq və qaranlıq olan həbsxanasında oturduğu günlər çox uzaq keçmişdə deyildi. Onun həyat yoldaşı Sabinaya məcburi olaraq həbsxana düşərgəsində işləmək hökmü verilmişdi.**

Ərlə arvad Allahın onlara verdiyi tapşırıq üzərində götür-qoy edirdilər. Onlar dünyanın hər bir yerində təqib olunmuş məsihçilərin üzləşdiyi sınaqları və qələbələri başqaları ilə bölüşmək istəyirdilər. Rumıniyanın məxfi polisi onlara hədə-qorxu gəlmişdi ki, kommunizmin əleyhinə danışmasınlar, amma bu hədə-qorxu onları saxlaya bilməzdi. Onlar Məsihin əzab çəkən bədəninin səsini ucaltmağa böyük ehtiyac duyurdular – bu səs azad dünyada bir çox illər rədd edilmiş və unudulmuşdur.

Sözlər səhifələrə asanlıqla axdı və çox vaxt keçmədi ki, onlar "*Şəhidlərin səsi*" bülleteninin birinci nəşrini buraxdılar. Onlar təkcə yüz dollardan və bir neçə yüz məsihçinin adlarından və ünvanlarından başladılar, bu məsihçilər onlara necə kömək etməklə maraqlanırdılar.

Bir həbsxana kamerasında doğulmuş görüntü indi təqibdə olan məbədə xidmət etməyə həsr olunmuş beynəlxalq təşkilata çevrilib. Sonradan buraxılan milyonlarla "*Şəhidlərin səsi*" bülletenləri sayca ondan çox dildə dünyanın hər bir yerinə paylanıb.

*Hansısa bir yerdən başlayın. Allahın xidmətində yaxşı ideyalar həmişə buradan – hansısa bir yerdən başlayır. Məsihə xidmət o deməkdir ki, haradan, nə vaxt, yaxud necə başlamağın mənası yoxdur, əsas başlamaqdır. Bir çoxları hansısa bir yerdən başlamaq əvəzinə, arzularını həyata keçirməyi gecikdirirlər. Biz özümüzə deyirik ki, hansısa bir gün Məsihə xidmət edəcəyik: uşaqlar böyüyüb evdən gedəndə; çeklərimizi nəhayət ödəyib qurtardıqdan sonra ondabirləri verə biləndə. Hər dəfə biz deyirik ki, nəsə başqa bir şeyi qurtardıqdan sonra Məsihə xidmət etməyə başlayacağıq, biz çağırışımızın məğzini itirmişik. Allah sizə nə etməyi söyləyir? Sizi bu işi görməyə çağırdığı vaxt deyil, əsas olan budur ki, O, nəyin edilməsini istəyir? Onun çağırışını həyata keçirməyə başlamaq üçün indi siz nə edirsiniz?*

Kənar insanlarla müdrikliklə rəftar edin və hər fürsətdən istifadə edin.

*Kolos. 4:5*

# Böyük oğul

**YUNANISTAN:** TİMOTEY

**Timotey cavan olsa da, Paul onu ruhlandırırdı ki, hamıya nümunə olsun. Timotey sübut etdi ki, bu təlimatlara uyğun yaşamağı bacarır.**

Timotey Listradan idi, bu şəhər Paulun ilk müjdəçilik səyahətində səfər etdiyi şəhərlərdən biri idi. Timoteyin atası yunan idi, anası və nənəsi isə onun həyatına böyük təsir göstərmiş yəhudi məsihçilər idilər. Əslində, Müqəddəs Kitab yazır ki, anası və nənəsi Timotey üçün imanda nümunə idilər. Paul, yəqin ki, Timoteyin güclü imanlı olması üçün onda olan potensialı görmüşdü. Sila və Luka ilə birlikdə Paul ikinci səfərinə çıxanda Timotey onlara qoşuldu və Makedoniyaya səyahət etdilər.

Paul Timoteyi imanda oğlu hesab edirdi. Efesdəki məbədə pastor lazım olanda Paul həmin şəhərdə olan imanlıları öyrətmək və ruhlandırmaq üçün Timoteyi orada qoydu. Timotey Paulun həyatını və xidmətini bölüşdü. Ola bilsin ki, Timotey Paulun Romada başının vurulduğu gün onunla idi, çünki Paul ondan xahiş etmişdi ki, axırıncı dəfə onu görmək üçün gəlsin.

Paulun ölümündən sonra Timotey Efesə qayıdıb oradakı məbədə rəhbərlik etdi. O, Efes şəhərində bir çoxlarını varlı edən bütlərə sitayişi ittiham etməkdə davam edirdi. Domitian məsihçilərin ikinci böyük Roma təqibini təsdiqləyəndə bütpərəstliklə məşğul olanlar daha da ürəkləndilər. Timotey təqribən b.e. 98-ci ilində daşlanaraq öldürüldü – Paulun onu öyrətdiyi kimi, axıradək sadiq qaldı.

*Heç kimin məsihçi həyatını tək yaşaması nə arzulanır, nə də ruhlandırılır. Əslində, belə yaşamaq qeyri-mümkündür. Paul Timoteyə xatırlatdığı kimi, bizə də elə bir insan lazımdır ki, yolu göstərsin və Məsihə xidmət etmək üçün potensialımıza bizi inandırsın. Biz məbədimizdə, cəmiyyətimizdə, ailələrimizdə və məktəblərimizdə nümunə olan insanlara baxaraq böyüyürük. Biz öz təsirimizin rollarını mənimsəməyə başladıqca yanımızda daha böyük həsr olunmaya doğru bizi ruhlandıran fanatlar olmalıdır. Sizin üçün imanda nümunə kimdir? Məsih üçün necə yaşamağı sizə öyrətməkdə cavabdeh şəxs kimdir? Bu, sizin üçün ailənizin yaxın üzvü, dostunuz və ya pastorunuz ola bilər. Həyatınızda onların etdiyi təsirə görə Allaha minnətdarlığınızı bildirin.*

Sənsə öyrəndiyin və güvəndiyin şeylərə sadiq qal. Çünki bunları kimlərdən öyrəndiyini bilirsən.

*2 Timotey 3:14*

# BÖYÜK SADİQLİK

**Mən artıq inanmışam ki, Allah Öz hikməti ilə hər bir nəsildə hansısa dərəcədə şəhidliyə yol verir, çünki onlar olmasa, Məsihin ölümünün gerçəkliyi olduqca tutqun görünür... Biz şəhidlərə baxdıqca, birinci əsrin Qolqofasını bəzən örtən duman yox olur və biz çarmıxa çəkilmiş Rəbbi görürük.**

Mark Qalli



217 gün

# Böyük simalar

## RUMINİYA: HƏBSDƏ OLAN PASTOR

**"Başqa imanlıların simalarında İsanı görə bilmək çox heyrətamiz bir şeydir. Onların üzləri nur saçır, çünki kommunist həbsxanalarında olan məsihçilərin simalarında nurun görünməsi Allahın izzəti üçün böyük bir nailiyyətdir. Biz əl-üzümüzü yumamışdıq – mən üzümü üç il yumamışdım – amma Allahın izzəti hətta çirk qatının arxasından belə parlayırdı. Həbsxanadakı məsihçilərin üzlərində həmişə zəfər təbəssümü var idi" – həbsdə olan pastor yazır.**

"Mənim kimi kommunist həbsxanalarından buraxılmış başqa imanlıları tanıyıram. Onlar kimi məndən də küçədə yanımdan keçən şəxslər bir neçə dəfə məni saxlayaraq soruşublar: 'Cənab, siz çox şad görünürsünüz, buna səbəb nədir? Xoşbəxtliyinizin mənbəyi haradandır' Mən onlara dedim ki, bu xoşbəxtlik neçə illər kommunist həbsxanalarında Xilaskarıma görə əzab çəkməyimdən irəli gəlir.

Onlar bunu başa düşə bilmirdilər, çünki öz həyatlarının çətinliklərindən başqa heç nə düşünə bilmirdilər. Onlar Ruhda gəzməyi və Allahın hüzurunda yaşamağı öyrənməyiblər. Bir çoxları fikirləşirlər: 'Siz bircə bilsəniz ki, mənim necə həyatım var – ərim məni döyür, arvadım zəhləmi tökür və uşaqlarım ürəyimi sındırır.' Sizin qəlbinizdə çoxlu maddi çətinliklər və narahatçılıqlar var. Axı nə olsun ki? Onlar İsanı tanımağın sevinci ilə necə müqayisə oluna bilər?

*İsanın verdiklərini heç kim sizdən ala bilməz. O, daxilimizdə yaşayan Müqəddəs Ruhun hüzurunda bizə sevinc verir. Vəziyyətlərimiz dumanlı və qaranlıq olsa da, sevincimiz hələ də parlayır. Hətta kommunist həbsxanasında keçən üç ilin ən qara çirki belə məsihçi sevincini ört-basdır edə bilməz. Biz əzablarımıza görə heç də şad deyilik. Biz kədərimizə görə şənlənmirik. Amma yenə də biz sevinc içində oluruq, çünki Məsihin sevinci bizim kədərimizin içindədir. Siz sevinc hissinizi itirmisinizmi? Siz görürsünüz ki, heç kim sevincinizi sizdən ala bilməz. Əgər sevinc həyatınızda itibsə, bu, ona görədir ki, siz onu könüllü surətdə vəziyyətlərinizə görə atmısınız. Bu gün Allahdan xahiş edin ki, sizin sevincinizi bərpa etsin.*

Onda ürəyiniz sevinəcək və
heç kəs sevincinizi sizdən ala
bilməyəcək.

*Yəhya 16:22*

# Böyük şəfa

**PAKİSTAN:** ASİF

**Asifin ayağı Pakistanın küçəsində onu maşın vurarkən sınmışdı. Ağrının içərisində o, ayağının üzərində kiminsə əlinin olduğunu hiss etdi. O, başını qaldıranda gördü ki, onun ayağının sağalması üçün bir qadın İsaya dua edir. Asif hirslənməyə başladı, çünki o, müsəlman idi. Sonra qəribə bir istilik onun bütün bədənini bürüdü. Onun ayağı düzəldi və sümük yerinə daxil oldu. Nəhayət, o, hadisə yerindən uzaqlaşıb evinə getdi.**

Ona şəfa verən "İsa" haqqında daha çox bilmək arzusu ilə qadının ona verdiyi Müqəddəs Kitabı açıb İsanın başqa möcüzələri barədə oxudu. Asif öz suallarını məsciddə olan *mulviyə* (dini rəhbər) verdi. "Sən niyə İsa haqqında danışırsan?" – deyə, mulvi onu danladı. "Mən ona necə maraq göstərməyə bilərəm" – deyə, Asif cavab verdi. "O, mənə şəfa verib."

Mulvi və məsciddə olan başqa adamlar Asifi bir otağa salıb qapısını açarladılar və onu zəhər içməyə məcbur etdilər. Onlar düşünürdülər ki, əgər o, Məsihi qəbul etməzdən qabaq ölsə, hələ də cənnətə düşmək imkanı olar. Amma Asif bu vəziyyəti görüb İsanı çağırdı.

Qəfildən toz basmış otağı parlaq bir işıq doldurdu. Asif söz verdi: "Mənim həyatım səninkidir. Nə qədər ki, bu yer üzündə yaşayıram, Sənin üçün işləyəcəyəm."

Həmin vaxtdan bəri Asifin ailəsi ondan üz döndərib və o, dəfələrlə döyülüb, çünki yeni dostu İsa Məsih barədə danışmaqdan əl çəkmir.

*Bəzən biz Allahın qüdrətinə inanmazdan əvvəl onu yaşamalı oluruq. Əslində, bir çox imansızlar şəxsi ruhani görüşə can atmaqdansa, uzaqdan dini müzakirə etməyi üstün tuturlar. Heç kim şəxsi həyat təcrübəsini müzakirə edə bilməz. Belə məsələdə fərd özü yeganə ekspertdir. Allah ilə görüşmək Onun gücünü və hüzurunu hiss etməkdir. Müqəddəs Kitab Allahın gücü ilə qarşılaşmış imansız insanların bir çox nümunələrini verir. Bəziləri ibadət ilə cavab vermişdilər. Digərləri isə Onun gücünə qarşı durmuş və acı nəticələrindən əzab çəkmişdilər. Hər iki halda insan Allah ilə görüşdən sonra heç vaxt əvvəlki kimi olmur. Sanki Allah şübhə edən ürəyə deyir: "Mən həqiqiyəm. Mənə yaxınlaş." Allah sizə həqiqi olduğunu necə göstərib? Öz həyat təcrübənizi kiminlə bölüşə bilərsiniz?*

Qulaqlarıma sorağın çatmışdı,
indisə Səni gözlərimlə görürəm.

*Əyyub 42:5*

# Böyük şarlar

## ŞİMALİ KOREYA: ŞƏHİDLƏRİN SƏSİ

**"Nənəcan, bax gör nə tapmışam!" Şimali koreyalı balaca qız yaman sevinirdi. Onun əlində bu vaxta qədər heç vaxt görmədiyi bir şey var idi. Nənəsi nurdan düşmüş gözləri ilə onun əlindəki şeyə baxdı, amma gözləri onun nə olduğunu heç cür seçmədi. Ona görə də qızın anasını çağırdı. "Xahiş edirəm, bax gör uşaq nə tapıb."**

Qoca qadının qızı evə girib anasının qırışlı əlindən həmin əşyanı götürdü. O, keyfiyyətli rezin şarın üzərində yazılmış sözləri oxumağa başladı. "Rəbb İsa sizi sevir. Bacı və qardaşlarınız sizi unutmayıb. Çünki Allah dünyanı elə sevdi ki, vahid Oğlunu verdi."

Nənə sevincdən qışqırdı: "Bu, Kəlamdır! Onlar Müqəddəs Kitabın ayələrini şarın üzərinə yazıb göndəriblər! Xahiş edirəm, axıra qədər oxu."

Rezin şarın üzərində üç nəsil şimali koreyalı üçün ruhlandırıcı sözlər var idi. Burada Qərbdə yaşayan məsihçilərin ürək sözləri və altı yüzdən artıq Müqəddəs Kitab ayələri var idi, ayələr oxucunu yaradılışdan çarmıxa və İsa Məsihin ikinci gəlişinə qədər aparırdı. Son on il ərzində yüz mindən artıq belə "Kəlam şarları" Şimali Koreyanın səmasında süzüb.

"Şəhidlərin səsi" xidməti təzyiq altında olan bu insanlara Allah Kəlamı və Müjdə ilə toxunmaq üçün özünəməxsus bir üsul tapmışdı. Məzmur 19:1-də deyilir: "Göylər Allahın əzəmətini bəyan edir, göy qübbəsi əllərinin işini elan edir."

*Bu hekayədə olan şarlar kimi Allah da istəyir ki, Kəlama ən çox ehtiyacımız olan anlarımızda ağlımızda və ürəyimizdə ruhlandıran Kəlamı süzdürsün. Amma Kəlamın heç vaxt birinci yerdə olmadığı ağıllara Kəlamı gətirə bilməz. Qəribədir ki, biz azad cəmiyyətdə yaşasaq da, çox vaxt özümüzü elə aparırıq ki, sanki Allah Kəlamını oxuya bilməyən Şimali Koreya kimi məhdudiyyətlər olan bir ölkədə yaşayırıq. Bizim Müqəddəs Kitabı oxumağımız nizamsız və hərdən bir olur – sanki bizim Kəlamımız heç yoxdur. Ola bilsin ki, sizin örtülü düşüncənizin sərhədlərində Kəlamı "süzdürməsini" Allahdan xahiş etmək vaxtıdır. Hər gün Müqəddəs Kitabı oxumaq üçün cədvəlinizdə vaxt ayırın və Ondan xahiş edin ki, Kəlama olan arzunuzu yeniləşdirsin.*

> Bütün Müqəddəs Yazılar Allahdan ilham almış və təlim, məzəmmət, islah, salehlik tərbiyəsi üçün faydalıdır; beləcə, Allah adamı bacarıqlı olub hər yaxşı iş üçün təchiz edilsin.
>
> *2 Timotey 3:16-17*

# Böyük həqiqət

**PAKİSTAN:** NADİYA NAİRA MASİH

**On beş yaşlı Nadiya Naira Masih əsl məsihçidir. O öz evlərində yaşayanda gündəlik səhər tezdən durub dua edir və Müqəddəs Kitabı oxuyurdu. Baxmayaraq ki, valideynləri onu 2001-ci il fevral ayından bəri görməyiblər, amma onlar inanırlar ki, onu ev dustağı edən şəxsin evində də qız bunları edir.**

Əhməd Maqsud adlı bir müsəlman Nadiyanı oğurlayıb. Maqsudun anası, sonra Nadiyanın ailəsinin dostu Nadiyanı aldadaraq evdən çıxarmışdılar. Evdən çölə çıxan kimi, avtomat silahlarla silahlanmış Maqsud, iki qardaşı və dostu onu güclə maşına basmışdılar. O vaxtdan bəri onu görən olmayıb.

Cavan qızların oğurlanması Pakistanda az hallarda baş verir, amma bu, məsihçilərə qarşı baş verərsə, pakistanlı polislər, xüsusilə də, onlara rüşvət təklif ediləndə buna başqa cür yanaşırlar, bu, onlarda adi bir haldır. Belə görünür ki, Nadiyanın oğurlanmasında da belə bir vəziyyət hökm sürür və polis bu işi araşdırmaqda ləngiyir.

Nadiyanın ailəsinə onun Maqsudla evlənməsi barədə sertifikat çatdırılıb. Sertifikatda izah edilir ki, nikaha görə o, rəsmi olaraq, məsihçilikdən dönərək islamı qəbul edib. Amma Nadiya hələ yeniyetmədir. Qəzəb və itki ilə üzləşən Nadiyanın valideynləri hələ də Maqsuda qarşı bir söz demirlər. Əksinə, onlar inanırlar ki, Nadiyanın geriyə qayıtması üçün lazım olan hər bir şeyi etməkdə Allah kifayət qədər güclüdür.

*Etibar insanın tamamilə məxsus olduğu bir şey olmayınca o, heç vaxt bütünlüklə onu başa düşməz. Nadiyanın valideynləri etibar etməyin nə olduğunu bilirlər. Onlar bütünlüklə etibar etmirlər ki, Nadiya bir gün, həqiqətən, qayıdacaq. Əslində, onlar tam arxayındırlar ki, Allah onu sağ-salamat qaytarmağa qadirdir. Burada fərq böyükdür. Əgər onlar xüsusi bir nəticəyə etibar etmiş olsaydılar, həmin nəticə baş vermədikdə onların etibarı laxlaya bilərdi. Amma onlar bunu həyata keçirməkdə Allahın sarsılmaz gücünə və bacarığına etibar etməyi seçirlər. Əgər Allah öz hikmətində onun geriyə qayıtmasına yol vermirsə, onlar Ona daha da çox etibar edəcəklər. Siz nəticədən asılı olaraq Allaha yalnız hansısa bir müddətə qədər etibar edirsiniz? Yoxsa hər hansı nəticə olursa olsun, Ona etibar edirsiniz?*

Ey padşah, əgər belə olsa, qulluq etdiyimiz Allahımız bizi...sənin də əlindən qurtaracaq. Sənə məlum olsun ki, ey padşah, əgər belə olmasa da, biz sənin allahlarına qulluq edən deyilik.

*Daniel 3:17-18*

# Böyük əminlik

**ROMA:** CASTİN

**"Əgər cinayətkar kimi qamçılansan və ya boynun vurulsa, cənnətə gedəcəyinə yenə də inanacaqsan" – deyə, şəhərin başçısı ondan soruşdu.**

"Mən inanıram ki, əgər həmin şeylərə dözsəm, İsanın mənə vəd etdiklərini əldə edəcəyəm" – Castin dedi. "Çünki bilirəm ki, Onda qalanların hər biri ilə hətta dünyanın sonuna qədər Onun həyat hədiyyəsi qalacaq.""Sən fikirləşirsən ki, orada hansısa bir mükafat alacaqsan?"

"Mən bu haqda fikirləşmirəm; Mən bilirəm. Mən ona əminəm."

Rustikus səbirsiz halda yerinə oturdu. "Siz allahlara qurban gətirməyə razılaşmalısınız."

Castin hərəkətsiz halda dayanmışdı. "Sağlam düşüncəyə malik heç bir insan allahlara qurban gətirməklə Allah ilə olan ünsiyyətini pozmaz."

Rustikusa bu sözlər artıq kifayət edirdi. "Əgər sən mənim dediklərimə əməl etməsən, rəhmsizcəsinə edam olunacaqsan."

"Mən bilirəm ki, əgər Onun üçün şəhadətliyə görə ölsəm, qorxmalı deyiləm. Mən bu səbəbə görə ölməyi Məsih qarşısında xilasımız və əminliyimiz hesab edirəm" – Castin cavab verdi.

Castin ilə dayanan başqa adamlar da belə dedilər: "Nə istəyirsən et, biz məsihçiyik və bütlərə qurban gətirmirik."

Rustikus onun tələblərini rədd edən məsihçilərə cəza hökmü oxudu. "Allahlara qurban gətirməkdən imtina edən və imperatorun əmrlərinə tabe olmayan bu insanlar qanuna əsasən qamçılanmalı və boyunları vurulmalıdır."

*Castin onu edam edən şəxslərə "Siz bizi öldürə bilərsiniz, amma bizə həqiqi heç bir pislik edə bilməzsiniz" deyəndə, bu sözlər dəli bir insanın sözləri idimi? O öz ölümünün yaqinliyini düşünəndə çaşqınlığa düşmüşdümü? Xeyr, o, bir şeyə əmin idi: İsa Məsihin ədədi həyat hədiyyəsinə. O, dünyadakı mövcudluğunun sonunu düşündükcə, demək olar ki, göylərdəki evinin gözəlliyini görürdü. Siz göylərdəki əbədi həyatınız haqqında əminliyinizdən daha çox yer üzündəki həyatınızı itirməkdən qorxursunuz? Ölüm şübhələr üçün vaxt deyil. Hələ sağ ikən və sağlam ikən məsələni həll edin. İsa Məsih ilə ünsiyyət vasitəsilə Allahın əbədi həyat hədiyyəsini əldə edin.*

Bədəni öldürüb canı öldürə bilməyənlərdən qorxmayın. Həm canı, həm bədəni cəhənnəmdə məhv edə bilən Allahdan qorxun.

*Matta 10:28*

# Böyük müəllif

**İNGİLTƏRƏ:** CON FOKSİ

**Maqdelen Universitetində işləyən cavan müəllim Con Foksi duasında Allaha yalvarırdı: "Onlar özlərini Sənin kahinlərin və xidmətçilərin adlandırırlar, amma onlar özlərinə və siyasi hakimiyyətlərinə ibadət edirlər. Onların gözlərini aç ki, Allah ilə insan arasında İsa Məsih və Kəlamdan başqa heç bir vasitəçiyə ehtiyac olmadığını görsünlər."**

Kimsə Conun duasını eşitdi və dərhal universitetin rəhbərliyinə xəbər çatdırdı. Onlar Conu hakimiyyətə və yerli məbədə qarşı üsyankarlıq fikirləri gəzdirdiyinə görə ittiham etdilər. O öz fikirlərindən dönməyəcəyini söyləyəndə şura onu universitetdən qovdu.

Buna görə Con bir müəllim kimi iş tapmaqda böyük çətinliklər ilə qarşılaşdı. Bir gün aclıqdan yorulmuş bir halda məbəddə oturub dua etdi. Birdən Conun heç vaxt görmədiyi bir kişi qarşısında dayanıb onun ovcuna pul basdı. "Ruhdan düşmə" – o dedi. "Bir neçə günün içərisində sənə yeni iş təklif olunacaq." Bir neçə gün sonra onu müəllim kimi işə götürdülər.

VII Henrinin hakimiyyəti dövründə Con kimi məsihçilərə çox müqavimət göstərmirdilər. Amma I Meri hakimiyyətə gələndə dövlətin dini qanunlarına tabe olmayan hər bir məsihçini edam etdirdi. Onun beş illik hakimiyyəti dövründə üç yüz insan öldürüldü. Con və hamilə həyat yoldaşı güc-bəla ilə canlarını qurtararaq İngiltərədən Belçikaya qaçdılar.

İmanlarına görə ölənlərin şərəfinə Con Foksi *"Şəhidlər kitabı"*nı yazdı.

*Təqib haqqında oxumaq bir şeydir, amma onu yaşamaq isə tamamilə başqa bir şeydir. Eynilə də bir çox insanlar sadiq imanlıların həyatları haqqında oxuyub onların cəsarətlərinə uzaqdan pərəstiş edirlər. Amma onların öz imanlarının təcrübəsi yoxdur. Onlar şəhidlərin cəsarətinə pərəstiş edərkən onun mənbəyi ilə əlaqələnə bilmirlər: İsa Məsih ilə şəxsi ünsiyyət. Onlar Müjdəni oxuyurlar, amma ona imanda cavab vermirlər. Şəhidlər başqalarını, hətta onları təqib edənləri Məsihə iman etməyə səsləyərək yaşayıb və ölüblər. Siz onların hekayələrini oxuduqca onlar sizi daha dərindən həsr olunmağa səsləyirlərmi? Siz imanı təcrübədən keçirməyə dəvət edildiyiniz bir halda onların imanlarına sadəcə pərəstiş etməyin.*

Çünki Misirdən çıxanlar kimi biz də Müjdə aldıq. Amma onların eşitdiyi kəlam onlara xeyir gətirmədi, çünki bu kəlama qulaq asanların imanlarına şərik olmadılar.

*İbr. 4:2*

# BÖYÜK SADİQLİK

**Zindan faydalı məsihçi həyatı üçün maneə deyil.**

Pastor Riçard Vurmbrand



**224cü gün**

# Böyük cəza

**İNGİLTƏRƏ:** CON VİKLİFF

**1428-ci ilin İngiltərənin soyuq bir səhərində kişilər qəbirlərin arasında nəsə axtararaq deyinə-deyinə gəzirdilər. Onların arasında gözəl dini libas geymiş olan biri dedi: "Budur. Qazıb çıxar onu. Gəlin, bu işlə qurtaraq."**

Nəhayət ki, bellər, nəsə möhkəm bir şeyə toxunanda yanda dayanan, gözəl libas geyinmiş kişi laqeyd baxışlarla baxaraq dedi: "Açın onu."

"Axı cənab, o, əlli ildir ki, buradadır!" – qəbri qazanlardan biri cavab verdi. "Burada çox şey qalmaz!"

Dini rəhbər sanki xoşagəlməz bir səhnənin qarşısında dayanıb titrəyirdi. Sonra onlara dedi: "Onda onu tamamilə çıxarın. Biz onun hamısını yandıracağıq."

Bu kişini belə qəzəbləndirən şey nə idi? Niyə ölümündən əlli il sonra kişinin cəsədi qazılıb çıxarılsın və sümükləri kafir kimi yandırılsın? Təqribən 1376-cı ildə Con Vikliff "Lütfdə tapılmış güc" təlimini nəşr etdirmişdi. Böyük narazıçılığa səbəb olan bu təlimdə deyilir: "Müjdə özü hər bir yerdə məsihçilərin həyatlarını idarə etmək üçün kifayət edir."

Vikliff həm də Latın Vulqeyt Müqəddəs Kitabını ingilis dilinə tərcümə etməyə başlamışdı və onu gizlicə broşuralar və kitablar halında paylamışdı. O, bu işi ölümünə qədər, yəni 1384-cü ilə qədər davam etdirmişdi, bu Reformasiyadan yüz otuz üç il əvvəl idi.

"Külü çaya tökün" – alov sönəndən sonra kişi əmr etdi. "Bu bizim Con Vikliff və onun təlimləri barədə eşitdiyimiz sonuncu şey olmalıdır." İngilis dilində Müqəddəs Kitabı oxumağın qanuni bir şey olması üçün bu hadisədən yüz ildən artıq bir vaxt keçdi.

Yalnız bununla deyil, çəkdiyimiz əziyyətlərlə də fəxr edirik, çünki bilirik ki, əziyyətdən dözüm, dözümdən Allaha xoş gəlmə, Allaha xoş gəlmədən ümid yaranır.

*Roma. 5:3-4*

*Dini rəhbərlər Con Vikliffdən "sonuncu" azad olma prosesində əllərindən gələni etməyə çalışdılar. Əksinə, belə görünür ki, Conun yanmış bədəninin külü bütün Avropada Allah Kəlamı üçün yeni bir susuzluq yaratdı. Onların səyləri təkcə onların hədəflərini boşa çıxarmadı, eləcə də Məsihin işinə yardım etdi. Beləcə, biz də çox vaxt məsihçiliyi məğlub etməkdə hər bir şey edən düşmənimizi, şeytanı görə bilərik. Amma onun səyləri nəticədə uğursuzluğa düçar olur. Allah təqiblərə yol verir ki, imanlıları ruhlandırsın və onları daha dərindən həsr olunmaya səsləsin. Siz şəxsi təqibinizin Allahın planına uyğun rol oynamasına yol verirsinizmi? Tezliklə görəcəksiniz ki, sizi təqib edənin müqaviməti sizi daha da gücləndirir və onun lənətləri Allahın xeyir-dualarını gətirir.*

# Böyük şəhidlik – birinci hissə

**ROMA:** KARPUS

**"Mənim birinci və seçilmiş adım məsihçidir. Dünyada isə məni Karpus çağırırlar."**

"Sən imperatorun əmrlərini bilirsən. Sən Romanın tam gücə malik allahlarına ibadət etməlisən. Ona görə də sənə məsləhət görürəm ki, irəliyə çıxıb allahlara qurban gətirəsən" – konsul dedi.

"Mən məsihçiyəm. Mən Məsihə, Allahın Oğluna böyük hörmət edirəm, O, bir müddət bundan əvvəl bizi xilas etməyə gəlmiş və şeytanın pis əməllərindən qurtarmışdır. Mən belə bütlərə qurban gətirməyəcəyəm. Onlar murdar ruhları, cinləri təmsil edirlər. Onlara qurban gətirmək mənim üçün qeyri-mümkündür."

"Sən qurban gətirməlisən; Qeysər bunu əmr edib."

"Yaşayan insan ölüyə qurban gətirmir."

"Sən elə inanırsan ki, allahlar ölüdür?"

"Onlar heç vaxt insan olmayıblar, nə də heç vaxt həyatda yaşamayıblar ki, ölə bilsinlər. Onlara ibadət edənlər böyük çaşqınlığa düşüblər."

"Mən sənin çoxlu cəfəngiyat danışmağına yol verdim və indi də allahlara, eləcə də imperatorun əzəmətinə küfr etməyinə icazə verdim. Sən daha bu söhbətləri danışma, yoxsa sonra gec olar. Ya sən qurban gətirməlisən, ya da ölməlisən!"

"Mən qurban gətirə bilmərəm. Mən heç vaxt bütlərə qurban gətirməyəcəyəm və indi heç nə edən deyiləm."

Konsul əmr etdi ki, onu assınlar və o, "mən məsihçiyəm! mən məsihçiyəm! mən məsihçiyəm!" deyib qışqırarkən, onun dərisi işgəncə alətləri ilə soyuldu.

*Bu hekayədə olan konsul kimi Çarmıx haqqında fikir onu başa düşməyənlər üçün ağılsız bir şeydir. İnsanlar başa düşmədikləri şeylərə qarşı müqavimət göstərməyi düşünürlər. Ola bilsin ki, onlar başa düşə bilmədikləri şeydən qorxurlar. Ya da qürur onlara mane olur ki, iman vasitəsilə Allahın Müjdəsini təvazökarlıqla qəbul etsinlər. Hər hansı səbəb olursa olsun, onlar Çarmıxın Müjdəsinə etibar etməkdənsə ölməyi üstün tuturlar. Biz anlamalıyıq ki, məsihçiliyə qarşı çıxan insanlar çox vaxt bunu ona görə edirlər ki, həqiqəti iman vasitəsilə qəbul etməyi bacarmırlar. Siz Müjdəyə qarşı çıxan insanlar üçün dua edirsinizmi? Siz başqalarını təqib edən insanlar üçün dua etdikcə Müqəddəs Ruhdan xahiş edin ki, Çarmıxı başa düşməkdə onlara kömək etsin.*

Çünki çarmıx barəsindəki kəlam məhv yolunda olanlar üçün ağılsızlıq, xilas yolunda olan bizlər üçünsə Allahın qüdrətidir.

*1 Kor. 1:18*

# Böyük şəhidlik – ikinci hissə

**ROMA:** PAPİLUS

**Konsul Papilusa üzünü çevirdi, o, qanı axaraq asılıb qalmış Karpusdan çox da uzaqda dayanmamışdı. "Sənin uşaqların var?" – konsul soruşdu.**

"Əlbəttə, Allahda mənim çoxlu uşaqlarım var."

Ətrafdakı izdihamdan kimsə dedi: "O, demək istəyir ki, məsihçi imanında uşaqları var."

Bunu eşidən konsul daha da qəzəbləndi. "Sən niyə yalan danışıb deyirsən ki, uşaqların var?" – deyə, o qışqırdı.

"Mən sənə həqiqəti deyirəm. Hər bir kənddə və şəhərdə mənim Allahda uşaqlarım var."

Konsulun hirsi soyumadı. "Sən qurban gətirməlisən, yoxsa Karpusun başına gələnlər sənin də başına gələcək! Bəs, indi nə deyirsən?"

Papilus narahat olmadan cavab verdi: "Mən gəncliyimdən Allaha xidmət edirəm. Mən heç vaxt bütlərə qurban gətirməmişəm. Mən məsihçiyəm. Məsihçi olmağımdan daha gözəl bir şey yoxdur."

Konsul əmr verdi ki, onu Karpusun yanında assınlar və dəmir işgəncə alətləri ilə dərisini soysunlar. Papilus heç bir söz demədi, amma cəsur bir döyüşçü kimi bu cəzaya dözdü.

Konsul onların sadiqliklərini görəndə əmr etdi ki, Karpus və Papilusu diri-diri yandırsınlar. Onlar hər ikisi özləri edam olunacaqları yerə gəldilər, bu dünyadan tezliklə azad olacaqlarını düşünərək sevinirdilər. Papilus dirəyə mıxlandı. Alovun dilləri onun bədənini bürüdükcə o, sakitcə dua etdi və canını tapşırdı.

*Məsihçilərə imanlarını müdafiə etmək lazım gəldikdə nə deməli olduqları barədə çox vaxt narahat olurlar. Belə imkan yaranında biz imtahan üçün sualları ağlımızda təkrarlayaraq institut tələbəsi kimi qürurlanırıq. "Bəs, birdən məndən Üçlüyü müdafiə etməyi soruşsalar, necə danışaram?" "Müjdəni heç vaxt eşitməyən insanların taleyi barədə soruşsalar, onda nə cavab verərəm?" "Bakirə qızdan doğulmaq haqqında fikrimi necə izah edərəm?" "Məsihçi olmağımdan daha gözəl bir şey yoxdur." Ağılda edilən bütün təkrarlamalardan daha çox sizin İsaya sevginizi səmimi tərzdə bölüşməyə hazırlığınız imansızları inandıra bilər.*

Ey qardaşlar, mən Allah barəsində
sirli həqiqəti elan etmək üçün
sizə gələndə yüksək natiqlik və
müdrikliklə gəlmədim.

*1 Kor. 2:1*

BÖYÜK SADİQLİK

# Böyük şəhidlik – üçüncü hissə

**ROMA:** AQASONİKA

**Karpus dirəyə mıxlandı və alov onu bürüdükcə o, sevinclə dua etdi: "Sənə izzət olsun, Rəbb İsa Məsih, Allah Oğlu. Məni günahkar hesab etməyinə baxmayaraq, Sənin kimi şəhid olmağı da mənə layiq bildin!" Sonra canını göylərə tapşırdı.**

Aqasonika Karpus dua edərkən onun qarşısında Allahın izzətinin dövr etdiyini gördü. Göylər Allahın Quzusunun toy ziyafətini aşkar etmək üçün açılmışdı, onun qarşısında süfrələr bəzənmişdi, İsa isə süfrənin başında idi. Bunu görən qadının ürəyi sevincdən atıldı və göylərdən çağırışını hiss etdi.

O, ayağa qalxıb qışqırdı: "Bu süfrə mənim üçün də açılıb. Mən izzət süfrəsini qəbul etməliyəm."

İzdihamdan bir səs gəldi: "Övladına, oğluna yazığın gəlsin!"

"Onun qayğısına qalan Allah var" – Aqasonika cavab verdi. "Allah hamının qayğısına qalır. Mənsə Onunla olacağam."

O özünü irəli atıb üst paltarını çıxardı və sevinclə dirəyə mıxlanmasına icazə verdi.

Ətrafda dayananlar ağlamağa başladılar. Onlar ağlayaraq deyirdilər: "Bu cəza dəhşətli və ədalətsizdir!"

Alovun içərisində o qışqırırdı: "Rəbbim, Rəbbim, Rəbbim, mənə kömək et, Sənin yanına gəlirəm." Bu, b. e 165-ci ilində baş vermişdi.

*Zəncirvarı reaksiya. İnsanların bir-birinə gözlənilməz təsiri – bu, izaholunmaz və planlaşdırılmayan bir şeydir. Bu, Papilusa cəsarəti göstərən Karpusla başladı və hər ikisi imanlarına görə əzab çəkdilər. Sonra onların şəhidliklərinin ağlasığmaz nəticələrindən ruhlanmış müşahidəçi könüllü surətdə dirəkdə ölmək üçün özünü imana doğru tulladı. Bu gün biz imanın zəncirvarı reaksiyalarını məbəd oyanışlarında və universitetlərdə görürük. Biz bunu qitələrdə bir həyatın başqa birinin həyatını oyatdığı və daha dərindən həsr olunmaya səslədiyi kəndlərdə, şəhərlərdə və cəmiyyətlərdə görürük. Nə vaxtdan bəri siz öz məbədinizdə və ya cəmiyyətinizdə həsrolunmanın zəncirvarı reaksiyasını hiss etmisiniz? Oyanışın sizdən – zəncirdə ən vacib olan həlqədən başlaması üçün dua edin.*

Bizi elə yaşat ki, ismini çağıraq.

*Məzmur 80:18*

# Böyük qaçaq

**ÇİN:** LO LAYU

**Lo Layu ehtiyatla Çində izdihamlı bir küçədə gəzirdi. O, gizlicə dala, eləcə də ətrafına baxırdı ki, arxasınca kiminsə düşmədiyinə və ya onu tanıyan insanların olmadığına əmin olsun. O, daha bir plakatın yanından keçdi, onun şəkli plakatda əks olunmuşdu və aşağısında onun həbsi üçün altı yüz dollar mükafatın ayrıldığı bildirilirdi.**

Layunun on yeddi yaşı var idi, o, Allahın qulluqçusu olmaq üçün evi tərk etmişdi. Ona bir təşkilat yardım etmişdi ki, qeydiyyatsız ev toplantısı yaratsın. Bu, kommunistlərin gözündə qeyri-qanuni bir şey idi. Onun işi elə idi ki, ölkəsinə Müqəddəs Kitabları qaçaqmalçılıq yolu ilə gətirən xarici məsihçilər ilə əlaqə saxlayırdı.

Demək olar ki, Layu bu xidmətdə on il idi və polis onu həbs etdi. O, gərgin sorğu-sualdan keçdi. Bir dəfə onu elə pis döymüşdülər ki, o, bir neçə saat komaya düşmüşdü. Amma Layu işlədiyi imanlılar və onların fəaliyyətləri barədə hökumətə məlumat verməkdən imtina etmişdi.

Polisə heç bir məlumat açıqlamadıqdan sonra bir neçə ay keçdi və onu buraxdılar, amma o, yenə də nəzarət altında idi. Bir neçə il sonra o və başqa beş nəfər həbs olundu və bütün ona məxsus olan şeylər müsadirə edildi. Bu dəfə o, üç il əmək düşərgəsində cəza çəkdi.

Layu cəzasını çəkdikdən sonra yenə də polisin hədəfindədir. Yenidən həbs olunmaq təhlükəsinə baxmayaraq, Layu İsanı sevmək və həmin sevgini başqaları ilə bölüşmək "cinayətini" törədərək Məsih üçün qaçaq həyatı yaşamaqda davam edir.

*Bu haqda düşünün: Əgər özünü həsr etmiş məsihçilərin hamısı üçün həbsdən zəmanət olsaydı, sizi rəhbərliyə kim satardı? Yaxınlıqdakı dükanda alış-veriş edərkən sizin mülayim ruhunuz və salamlaşmanız, xoş rəftarınız sizin kim olduğunuzu göstərəcəkmi? Maşın dayanacağında səbirlə öz növbənizi gözləməklə nəzakətli xasiyyətinizi nümayiş etdirərkən ətrafdakı sürücülər sizi potensial imanlı kimi tanıya bilərlərmi? İş yoldaşlarınız Məsihə imanınıza əsl sübut taparaq, sizi ələ veribverməməyi aralarında müzakirə edərlərmi? Ailəniz polisə zəng etmək qərarına görə götür-qoy edərmi? Yoxsa onlar sizin davranışınızın və hərəkətlərinizin "həsr olunmuş məsihçi" tərifinə uyğun gəlmədiyini söyləyirlər? Siz nə fikirləşirsiniz? Siz nə etməlisiniz?*

Beləcə, hər birimiz özü üçün
Allaha hesabat verəcək.

*Roma. 14:12*

# Böyük bəhrə

**PAKİSTAN:** SAFİNA

**Safina sakit və gözəl bir qızdır. Pakistanda böyüyən qız artıq həyatda öyrənib ki, bir qadın və məsihçi kimi onun həyatdakı imkanları məhdud və az olacaq.**

O, varlı bir müsəlman ailəsi üçün yemək bişirmək və ev yığışdırmaq işinə düzəldi, o, çox sevinirdi ki, bir az pul qazanıb kasıb ailəsinə kömək edə biləcək.

Nəhayət, Safinanın gözəlliyi və xoş rəftarı sahibin oğlunun diqqətini çəkdi. O, valideynlərinə söylədi ki, Safinanı almaq istəyir, amma o, məsihçi idi. Onlar qızı məcbur etdilər ki, islamı qəbul etsin, amma Safina cəsarət və dəyanətlə imtina etdi. Həftələrlə təzyiqə dözən qız işdən çıxmaq istədi, amma bilirdi ki, ailəsinin pula çox ehtiyacı var.

Nəhayət, cavan oğlan Safinanın həyat yoldaşı olmaq fikrindən daşındı və sərt qərar çıxardı. O, hirslə Safinanı yataq otaqlarından birinə dartıb apardı və ona güclə sahib oldu.

Safinanın ümidləri alt-üst oldu. O, dərhal işdən çıxdı, amma o, bu iş barədə polisə xəbərə verməzdən əvvəl, həmin ailə polisə onun oğurluq etdiyi barədə məlumat verdi. Safina dərhal həbs edildi və həbsxanada növbəti təhqirə məruz qaldı.

Safina Məsihi təmsil etdiyinə görə peşman deyil, amma başına gələn bu biabırçılıqlara görə hələ də mübarizə aparır. O, bu mübarizənin içində həmin oğlanı bağışlamaq üçün böyük ümidlə Allahın fiziki və emosional şəfa vədlərindən yapışıb.

*Biz dinin davamçılarının həyatlarındakı nəticələri tədqiq etməklə onun haqqında çox şey öyrənirik. Bu hekayə səhv yolla addımlayaraq səhv allahların ardınca gedən ailə haqqında bir hekayədir. Bu ailənin dini onları məcbur edib ki, manipulyasiya, cinsi əxlaqsızlıq, yalan və ədalətsizlik etsinlər. Buna zidd olaraq, Safinanın Allahı, sevgi Allahı onu işgüzar, qurban verən və mətin olmağa səsləyib. Bir gün Allah Safinaya kömək edəcək ki, ona qarşı pislik edənləri bağışlaya bilsin. İnsanların başqa dinlərin də əsasən eyni yolla getdiyini söylədikləri vaxt diqqətli olun. Bizə deyilib ki, insanların məqsədlərini aşkar etmək üçün həyatlarında olan bəhrələri diqqətlə araşdıraraq müşahidə edək. Hər hansısa bir din haqqında oxuyarkən özünüzü aldatmayın. Dinin davamçılarının həyatlarındakı nəticələrə yaxından baxın.*

Onları bəhrələrindən tanıyacaqsınız. Qaratikandan üzüm, yaxud qanqaldan əncir yığılarmı? Beləcə də, hər yaxşı ağac yaxşı bəhrə, pis ağac isə pis bəhrə verər.

*Matta 7:16-17*

# BÖYÜK SADİQLİK

**Nə qədər şeytan bərk vursa da, bir o qədər onun məğlubiyyətindən zövq almış olacağıq. Qoy gəlsin!**

Sudanlı məsihçi



231 gün

# Böyük "təhlükəsiz evlər"

**BANQLADEŞ:** ANDREY

**Andreyin Banqladeşdə xidməti müddətində 749 yeni imana gəlmiş müsəlman vəftiz olunub. Bundan başqa, xidmətə 3000-dən artıq Müqəddəs Kitab və Əhdi-Cədid, eləcə də 137 000-dən artıq müjdəçilik kitabçalarını paylamaq da daxil olub.**

Amma Andrey yenicə imana gəlmiş bir çox müsəlmanların qarşılaşdığı təhlükəni görərək təhlükəsiz evlər kimi xidmət göstərən bir yer yaratmışdı. Məsihçi ailələr və ya ölkənin hər bir yerindən olan fərdlər bu gizli məkana gəlirlər, onlar buraya dincəlmək və təhlükəsizlik üçün gəlmirlər. Burada yeni məsihçilərə gün doğandan gün batana qədər şagirdlik və müjdəçilik öyrədilir.

Proqramı bitirdikdən sonra onlar kəndlərə göndərilirlər, bu kəndlərdəki insanlar onları tanımır. Bu, onlar üçün yeni müjdəçilik sahəsi olur! Bu məsihçilər təhlükədən uzaqlaşmaq üçün gizli evə gəlib yalnız daha təhlükəli vəziyyət üçün təlim alırlar. Onlar bilirlər ki, tək deyillər; yüzlərlə bacı və qardaşları bütün Banqladeş boyunca İsa Məsihi bölüşmək üçün onların qarşısında gedib.

Andreyin işi risksiz deyil. O, həbs olunmuş və dəfələrlə polis tərəfindən yaxalanmışdı, eləcə də onun müjdəçiliyindən qorxan radikal müsəlmanlar tərəfindən döyülmüşdü. Onun ailəsi və evi də daim təhlükə altında olub. Andreyin xidməti yenicə tövbə etmiş müsəlmanlar üçün təhlükəsiz evlər təmin etməkdir, amma onun xidməti çox təhlükə qarşısındadır. Onun ailəsi və xidmətinə aid olan insanlar üçün gündəlik risk var; amma onun tələbələri əbədi həyatı əldə edir və eyni imkanı başqalarına da vermək üçün təlimatlanırlar.

*Təsəvvür edin ki, fermer böyük məhsulu təklikdə biçməyə çalışır. Fermer nə qədər səylə işləsə də, mövsümdə tapşırığı qurtarmaq üçün kifayət qədər vaxtı olmaz. İsa yolunu itirmiş insanları biçilməyə hazır olan sahə ilə müqayisə edib. Həmin iş bir insanın həyata keçirməsi üçün həddən artıq çox iş tələb edir. Ona görə biz də Andreyin Banqladeşdə təhlükəsiz evlər metoduna oxşar strategiyadan istifadə etməliyik. Biz başqalarına deməliyik ki, digərlərinə Məsih barədə necə danışsınlar. İnsanları təkcə məsihçiliyə gətirmək kifayət deyil. Biz eləcə də şagirdləri gətirməliyik ki, onlar da öz növbələrində şagirdlik etməyi öyrənsinlər. Siz təklikdə mübarizə aparan fermersinizmi? Yoxsa siz sahədə necə işləməyi başqalarına öyrədirsiniz?*

O zaman İsa şagirdlərinə dedi: "Məhsul çoxdur, işçilərsə azdır. Buna görə də məhsulun Sahibinə yalvarın ki, Öz məhsulunu yığmaq üçün işçilər göndərsin."

*Matta 9:37-38*

BÖYÜK SADİQLİK

# Böyük mətanət

**AZƏRBAYCAN:** PASTOR ROMAN ABRAMOV

**Pastor Roman Abramov və həyat yoldaşı Azərbaycanın İsmayıllı rayonunda məbəd yaratmaq üçün səylə üç il çalışıblar. Amma kəndə köçdükləri elə birinci ildən polis onları həbs edərək rayondan çıxıb getməyə məcbur etmişdi.**

Məbəd üzvlərinin sayı azalmışdı, hər həftə on nəfər üzv toplantıya gəlir, amma onlar İsa Məsihin Müjdəsini bölüşməkdə davam edirdilər. Yerli icra orqanlarının ev yiyələrinə göstərdiyi təzyiqə görə Abramovların ev kirayə tutmaqda çətinlikləri olub, ona görə də onlar həm yaşamaq, həm də qanuna əsasən toplantılar keçirmək üçün bir ev tikməyə müvəffəq oldular.

Abramovlar öz yeni evlərində toplantılar keçirməyə başlayanda toplantıya gələnlərin sayı artdı. Keçən dekabrda mollalar (müsəlman dini rəhbərlər) onların evlərinə gəlib deyiblər ki, məsihçi toplantıları keçirməkdə onların hüquqları yoxdur.

Pastor Abramov öz məbədini müdafiə etmiş və mollaları toplantıya dəvət etmişdi. Onlardan biri dəvəti qəbul etmiş və bir neçə dəfə toplantıya gəlmişdi. O biri molla məsihçiləri mühakimə edərək demişdi ki, onlar "Quran"ın nüsxəsini tapdalayıblar, bundan başqa o, məbədin bağlanması üçün rayon icra hakimiyyətinə müraciət etmişdir. Sonra yerli icra orqanları məbəd üzvlərinin evlərinə getməyə başlamışdı. Onları narahat etmiş və sorğu-suala tutmuşdu. Bəzilərini isə on günlük həbsə salmışdı.

Mühakimələrə və bir çox məbəd üzvünün qorxularına baxmayaraq, pastor Roman duada sadiq qalaraq inanır ki, oyanış gələcək. Onun evi toplantıya gəlmək istəyən hər bir insanın üzünə açıqdır.

Dözüm də öz əməlini kamil etsin ki,
siz yetkin və kamil adamlar olasınız,
heç bir çatışmazlığınız olmasın.

*Yaqub 1:4*

*Biz istəyirik ki, bəzi şeylər olmasın. Sınaqlar onlardan biridir. Nəyə görə həyat çox vaxt ardıcıl problemlər kimi görünür? Amma Müqəddəs Kitab bizə öyrədir ki, həyat problemdən kənar olmamalıdır. Uşaqlar kimi biz də tapşırıq həddən artıq çətin olanda çox vaxt ondan əl çəkirik. Biz çətinliyin qarşısında təslim oluruq. Amma biz kamilləşdikcə dözməyi öyrənirik – çətinliyin içərisində dayanıb sonunu görürük. Eynilə imanda da biz kamilləşdikcə dözümlülüyün dəyərini öyrənirik. Siz hələ də kamilləşməmiş, asanlıqla ruhdan düşən və təslim olmağa meyil edən insansınız? Allaha deyin ki, siz "böyüməyə" hazırsınız.*

233-cü gün

# Böyük pay

**AMERİKA BİRLƏŞMİŞ ŞTATLARI:** PARK GİLLESPAY

**İnsanlar çox vaxt dünyanın hər bir yerində təqib olunmuş bacı və qardaşlarına kömək etmək üçün böyük işlər görürlər. Yeddinci sinfin təbiət və sosiologiya fənlərindən dərs keçən müəllim, Park Gillespay öz saçlarını verməkdə birinci insan idi!**

Məsihçi işçilər onun sinfində Sudan barədə danışmışdılar, bunu eşidəndən sonra Parkın şagirdləri imanına görə təqib olunan qaçqınlara kömək etmək üçün yeni bir görüntü əldə etdilər. Şagirdlərin belə coşqun həvəsləri hətta müəllimlərini də heyrətə saldı.

Yeddinci sinfin şagirdlərinin Sudanda əzab çəkənlər üçün ədyallar toplaması ilə başlanan bu təşəbbüs tezliklə bütün məktəbə yayıldı. Gillespay Şimali Karolina ştatındakı Şarlotta şəhərində olan WBTV ilə əlaqə saxladı və onlara uşaqların Sudanda əzab çəkən insanlara yardım etməkdə etdikləri işlər barədə xəbər verdi.

Ədyallar artıq sinif otaqlarını doldurmağa başladı, amma çatdırma xərcləri barədə suala hələ toxunulmamışdı. WBTV-dən icmalçı gəlib bu haqda məlumat toplayanda Gillespay ona dedi ki, əgər onlar xərcləri ödəməkdə yardım etsələr, öz başını qırxar. Şagirdlərin bu təşəbbüsləri barədə televiziyada xəbər verildikdən sonra maliyyə dəstəyi göstərənlər artdı.

Beləliklə, heç vaxt həyatda görmədiyi insanlara sevgisindən Gillespay öz başını qırxdı. Onun başı qırxılarkən bütün məktəb yığışmışdı və WBTV-nin icmalçısı bu hadisəni videoya çəkmişdi. Amerikalılar çox vaxt düşünürlər ki, onlar başqa ölkələrdə olan təqib olunmuş məsihçilərə az kömək edə bilərlər. Park Gillespay isə başqa cür sübut etdi.

*Park Gillespay və onun şagirdləri bizə mərhəmətin yaradıcılığa, həsr olunmaya və axırda dəyərə necə keçməsi prosesini öyrədir. Park və onun şagirdləri dəyəri ödəməyə hazır idilər – hətta başında olan sonuncu tükünü belə! Ürəyi yanma əzaba təbii cavabdır, amma özü-özlüyündə kifayət deyil. Biz problemlər üçün şəfqətliliyimizi yaradıcı həllər ilə fəallaşdırmalıyıq. Sonra isə biz həllərimizi hərəkətə gətirməliyik və onlar üçün lazım olan dəyəri ödəməyə hazır olmalıyıq. Siz prosesdə haradasınız? Siz şəfqətinizi hansısa yaradıcı düşüncə ilə birlikdə işlədirsinizmi? Siz yardım etmək üçün özünüzü həsr etmisinizmi? İndi siz dəyəri ödəməyə hazırsınızmı?*

Lakin izdihamı görəndə İsanın onlara rəhmi gəldi.

*Matta 9:36*

# Daha böyük cəza

**PAKİSTAN:** AYUB MASİH

**"Bu həbsxana kamerası məni Rəbbim İsa Məsihi sevməkdən saxlaya bilməz" – Ayub Masih yazır. O, indi həbsxanada yanlış ittihamlara görə beş ildən artıqdır ki, yatır.**

Pakistanda imanlılar çox vaxt Məhəmmədə, islamın banisinə qarşı küfr danışdıqları üçün yanlış tərzdə ittiham olunurlar. Müsəlmanların qanunlarına görə küfr ölüm cəzasını daşıyan bir cinayətdir. Ayub müsəlman dostu ilə istənilən yerdə söhbət edib çox vaxt zidd məsələlər barədə müzakirə və zarafat edirdi; söhbət Şeytani Ayələr kitabına – islama zidd olan bir kitaba gəlib çıxdı. Onların söhbətlərini kimsə eşitdi və başqalarının təzyiqi nəticəsində Ayubun "dostu" şikayət ərizəsi yazdı.

Ayub həbs olundu və Məhəmmədə küfr etdiyinə görə ona ölüm cəzası verildi. Bundan az sonra onun kəndinə basqın edildi və orada yaşayan on iki məsihçi ailəsi öz evlərindən qovuldu. Ayubun ittihamlarda günahsız olduğuna bəraət verildi və o, məhkəməyə müraciət etdi. O, duada qalaraq məhkəmənin cavabı üçün həbsdə beş il gözlədi.

O, hal-hazırda Pakistanın Multon şəhərində yerləşən Şahival Mərkəzi Həbsxanasındadır. O bilir ki, hətta azadlığa buraxılsa da, həyatı hələ də təhlükədə olacaq və o öz ailəsində, eləcə də cəmiyyətində olan insanlar üçün təhlükə yarada bilər. 1998-ci ilin əvvəllərində onun həyatına sui-qəsd edilmişdi və molla həmin vaxtlarda Ayubu öldürəcək hər bir kəsə on min dollar məbləğində pul mükafatı verəcəyini söyləyib.

*Bu gün müsəlman ölkələrində islama zidd hesab edilən dini mövzuda danışmaq ölüm deməkdir. Qəribə budur ki, müsəlmanlar özləri də ölüm cəzası ilə üzləşirlər. Müqəddəs Kitab öyrədir ki, günaha görə cəza ruhani ölümdür. Məsihdən kənarda hər bir kəs əbədi ölüm ilə qarşılaşır. Amma Allaha minnətdarıq ki, Məsih bütün iman edən şəxslər, hətta müsəlmanlar üçün ölüm cəzasını çəkib. İsa Məsih çarmıxda əzab çəkərək bizim yerimizi tutub. Onun ölümü bizim Allah ilə göylərdə əbədi həyata malik olmağımıza imkan verdi. Bu gün Allaha minnətdarıq ki, ölüm cəzası götürülüb və biz bağışlanmışıq. Müsəlman ölkələrində Məsihsiz öz əbədi ölümləri ilə üzləşən və məsihçiləri öldürənlər üçün dua edin.*

Çünki günahın əvəzi ölümdür,
Allahın ənamı isə Rəbbimiz Məsih
İsada olan əbədi həyatdır.

*Roma. 6:23*

# Böyük məntiq

**SUDAN**

**"Bu dini sözləri de, yoxsa öləcəksən" – deyə, şimali Sudandan olan əsgər qışqırdı. Əsir düşmüş məsihçi onun gözlərinin nifrətlə dolu olduğunu gördü və bu vaxta qədər nə qədər insanı məhv etdiyini düşündü. Əsgər böyük bıçağı məsihçinin boğazına dirədi.**

Məntiq ona deyirdi: "Oxu! Allah bilir ki, sən məcbur edilirsən. Nəyə görə həyatını bir neçə sözü deməməklə məhv edirsən, onsuz da sən həmin sözlərə inanmırsan?"

Digər tərəfdən, o bilirdi ki, Müqəddəs Kitab insanın sözlərinin gücə malik olduğunu öyrədir. O xatırladı ki, insanın Məsih qarşısında etiraf etməsi güclüdür. "Küfrlü etiraf da güclü ola bilərmi?" – o fikirləşdi. "Hətta dediklərinə inanmasa da?" Suallar onun beynində sanki bir-biri ilə vuruşurdu. Onun məntiqi Məsihə olan sevgisinə qarşı vuruşurdu.

Sudanda yaşayan məsihçilər belə seçimlər ilə tez-tez üzləşirlər və onlar çoxlu dostlarının, eləcə də ailə üzvlərinin Məsihə iman etdiklərinə görə öldürüldüklərini görüblər. Şəhidlər müsəlman duasını etmirlər, öz ruhlarını küfrlü sözlər ilə çirkləndirmək və Allahın ürəyini qırmaq istəmirlər.

Onların məntiqi faktlara qarşı müdafiəsi budur ki, onların daxilində yaşayan Məsih belə bir sözləri deyə bilməz. Ona görə də onlar cəza ilə üzləşməli olurlar. Onların daxilində yaşayan bu Məsih sözləri demədiyi kimi ölümdən də qorxmur. Bu imanlılar özlərini artıq Məsihdə ölü hesab edirlər – onlarda olan Məsihə həqiqətən heç bir pislik edilə bilməz.

*Hər gün bizim məntiq və iman arasında söhbətlərimiz toqquşur. İman bizə söyləyir ki, məşhurluq sərhədinə qarşı gedək. Biz məntiqə qulaq asanda başqa insanın tələbini yerinə yetirmək üçün öz inamımızı kənara qoya bilərik. Qarşıdurmadan uzaqlaşmaq üçün başqasının sözlərini təkrar edirikmi? Bu, aldadıcı işləri tələb edən iş ola bilər. Məntiq sizə deyir ki, işinizi əlinizdə saxlamaq üçün ağzınızı yumasınız. Əgər siz ona həddən artıq çox qulaq asdığınızı hiss edirsinizsə, onda Allahdan xahiş edin ki, Ona qulaq asmaqda sizə yardım etsin. Səhv məntiqi anlarda düzgün sözü söyləmək üçün Ondan iman istəyin.*

Məsihlə birlikdə çarmıxa çəkildim.
Artıq mən yaşamıram, Məsih
məndə yaşayır.

*Qalat. 2:20*

# Daha böyük qaçaqmalçı

**UKRAYNA:** GİZLİ MƏSİHÇİLƏR

**Rus sərhəd mühafizəçisi o baş bu başa gedib gəlirdi. II Dünya Müharibəsindən sonra sərhədlər hansısa bir şübhəli fəaliyyətlər üçün olduqca diqqətlə qorunurdu. İki təhlükə var idi: sovet vətəndaşları qaçmağa çalışarlar və qaçaqmalçılar Müqəddəs Kitab kimi qeyri-qanuni şeylər gətirməyə çalışarlar.**

Bu xüsusi mühafizəçi Ukrayna Sovet Sosialist Respublikası ilə Rumıniya arasındakı sərhədə təyin edilmişdi. O, təzəcə yağmış qarın üzərində fənərini o tərəf bu tərəfə fırladaraq yavaş-yavaş gəzişirdi.

Birdən onun diqqətini nəsə cəlb etdi, bu, qarda bəzi boş yerlər idi, fənəri həmin yerləri işıqlandıranda sanki yuxudan ayıldı. Ayaq izləri! Rumıniyaya gedib çıxır! O, fitini dodaqlarına yaxınlaşdırıb uzun, davamlı və güclü bir həyəcan səsi çıxardı.

Tezliklə başqa mühafizəçilər də onun ətrafına toplaşdılar. "Bu tərəfə!" "Bu tərəfə!" – o, tullanaraq qışqırdı və dörd cüt ayaq izini göstərdi. "Onlar çox uzaqda olmazlar! Yəqin ki, biz onları Rumıniyaya çatmazdan əvvəl tuta bilərik!" Dəstə gecə vaxtı mümkün qədər cəld irəliyə doğru qaçmağa başladı.

Bu səsi eşidən dörd rumın məsihçi qaranlıqda yerlərində donub qaldılar. Mühafizəçilərin qışqırıqları və it səsləri yavaş-yavaş onlardan uzaqlaşdıqca diqqətlə qulaq asdılar. Onlar çevrilib bir-birinə baxaraq gülümsədilər. Rəhbərləri başı ilə işarə verdikdən sonra onlar öz səyahətlərinə davam etdilər. Gizli məbəddəki bacı və qardaşları üçün öz qiymətli yüklərini, Müqəddəs Kitablarını daşıyaraq ehtiyatla *dal-dala* Ukraynaya doğru getdilər.

Budur, sizi qurdlar arasına quzular kimi göndərirəm. Ona görə də ilan kimi müdrik və göyərçin kimi məsum olun.

*Matta 10:16*

*Müqəddəs Kitab yazır ki, bizim ruhani düşmənimiz məsihçiliyə mane olmağa çalışır. Buna zidd olaraq, sülh müjdəsini daşıyan bizlər isə canavarın günahsız yeminə oxşayırıq. Amma İsa bizə öyrədir ki, canavarlar arasında qoyun olmağın təhlükəsindən xəbərdar olaq və buna uyğun şəkildə planlaşdıraq. Biz düşməni aldatmaq üçün dəqiq strategiyadan və ağıllı taktikalardan istifadə etməliyik. Şeytanın gücü var, amma Allah hamıdan güclüdür. O, sizə imkan verəcək ki, düşmənləriniz üzərində qələbə qazana biləsiniz. Sizin işiniz isə Allahın qələbə planlarını həyata keçirmək üçün müdriklik və cəsarət istəməkdir. Siz xüsusi bir problem ilə qarşılaşmısınız? Siz növbəti hərəkətinizi planlaşdırarkən Allahın müdrikliyi üçün dua etmisinizmi? Sizin düşməninizi necə aldatmağı O, yaxşı bilir, Ona etibar edin – O, bu işi neçə illərdir ki, edir.*

# BÖYÜK SADİQLİK

**Məsih artıq yer üzündə olmadığından istəyir ki, bədəni – məbəd Onun əzabını öz əzabında aşkar etsin. Biz Onun bədəni olduğundan bizim əzablarımız da Onun əzablarıdır.**

Con Payper – *Allaha susayaraq.*



238 gün

# Böyük təkan

**VYETNAM:** LİN DAO

**Lin Dao və onun anası həbsxanaya yaxınlaşarkən o artıq bilirdi ki, nə edəcək. Amma o, bunu emosional gənc bir qız kimi hərəkət edərək cəld etməli idi.**

Linin atası Vyetnamda gizli məbədin pastoru idi. Bir il bundan əvvəl on yaşı olanda dörd polis məmuru onların evlərinə girib Müqəddəs Kitabları tapmaq məqsədilə axtarış etdilər, qız onları məktəb çantasında gizlətmişdi. Onun atası həbs edildi və çətin əmək vasitəsilə yenidən tərbiyələndirmək hökmü verildi.

Linin atasını onlardan ayıran zəncir həlqələri olan hasara çatanda qız imkan yarandığını gördü. O, cəld hasarın arasında olan boşluqdan keçib atasının üstünə tullandı və onu möhkəm qucaqladı. Mühafizəçilər ona kənardan təəccüblə baxırdılar, amma ona toxunmadılar. Bir də ki, axı balaca qız nə pislik edər?

Linin ailəsi atasına gizlicə kiçik qələm verməyə müvəffəq oldu, o, bu qələmlə siqaret kağızlarında Kəlamı və vəzləri yazdı. Bu "siqaret kağızları" bir həbsxana kamerasından o birisinə yayıldı və bir çox məhbusu Məsihə gətirdi.

Lin Dao indi düzgün olan işi görməzdən əvvəl riskə görə narahat olmayan çılğın bir yeniyetmədir. Onun arzusu atasının addımları ilə getmək və müjdəni vəz etməkdir. O, kommunist ölkəsi Vyetnamda imanını bölüşməyin təhlükəsindən agahdır və insanlara deyil, Məsihə itaət etmək üçün "çılğın" olmaqda davam edir.

*İmanlıların Məsih üçün şəhadətliklərində çox da çılğın olmamalarının səbəblərindən biri budur ki, onlar bir səs eşitməli olduqları halda iki səs eşidirlər. Çılğın itaətkarlıq heç vaxt iki yerə ayrılmış diqqətdən yarana bilməz. Xüsusi bir vəziyyətdə nə etməli olduğumuzu dərhal Allah ürəklərimizə deyəndə Onun səsini eşidirik. "İndi bunu de. İmanını bölüş." Amma biz cürbəcür bəhanələri gətirən öz səsimizi də eyni zamanda eşidirik. "İndi yox. Sonra. Sən nə edirsən?" Allah bizə yalnız Onun səsinə qulaq asan fərdi ürək verir. Biz imanımızda yetkin olanda öyrənirik ki, itaətkarlıq – refleks kimi qeyri-iradi olaraq daha da təbiiləşir.*

Ya Rəbb, qəlbimi səmimi et, qoy
Sənin ismindən qorxum.

*Məzmur 86:11*

# Böyük qüvvə

**BANQLADEŞ:** ABDULLA

**Abdulla İsanı qəbul edəndən bəri ailəsi onu bu fikirdən döndərmək üçün çox çalışdı. Onun atası kənddə hörmətli kişilərdən biri idi və həm də öz evlərinin lap yanında məscid tikdirmişdi.**

Abdullanın islama qayıtması üçün danışıqlar heç bir əhəmiyyət vermədi, onlar onu döyməyə başladılar. Bu üsul da kömək etmədikdə onlar başqalarını çağırdılar ki, onu daha da bərk döysünlər. Heç bir şey kömək etmədi; Abdulla inadla Məsihə imanından möhkəm yapışdı. Nəhayət, qəzəblə dolu anası ona yemək vermədi, yemək qabına yalnız kül qoydu. Abdulla Allahın gücü üçün dua edirdi və o, möhkəm dayandı.

Sonuncu bir vasitə kimi ailəsi mollanı çağırdı ki, gəlib oğlanın həyatını işğal etmiş "şeytandan" onu azad etmək üçün islamdakı ayini yerinə yetirsin. Molla onların evlərinə gəlib oğlanın üzərində müsəlman dualarını oxudu. O, dini bir nəğmə oxudu. O, əllərini oğlanın üzərinə qoydu. O, rəqs edib qışqırdı. Abdullanın daxilində olan Ruh möhkəm dayandı. Beş saatdan sonra molla əldən düşərək bu işi dayandırdı.

"Abdullanın Ruhu mənim ruhumdan güclüdür" – molla çıxıb gedəndə oğlanın atasına dedi. Abdullanı bu yoldan döndərmək mümkün olmadı, o, başqalarına həmin güclü Ruhdan bölüşməyi dayandırmadı. Bir neçə aydan sonra o, iyirmi yeddi müsəlmanın hamısını Məsihin Ruhu ilə dolduraraq, onları Məsihə gətirdi!

*Potensial enerji böhranını aradan qaldırmaq məqsədilə müasir mühəndislər elə maşınlar düzəltməyə çalışırlar ki, bütünlüklə batareya gücü ilə işləsin. Burada bir maneə var: maşınların öz batareyalarını yenidən yükləməsi üçün enerji mənbəyinə keçidləri olmalıdır. Bu ideya hələ də yeni bir şeydir, köməkçi güc batareyaları olan məntəqələr azdır və ya bir-birindən çox uzaqdır. Güc mənbəyi olmadan maşın yararsızdır. Eynilə də Müqəddəs Ruhun gücü olmadan bəhrəli şahidlər olmağa çalışan məsihçilər yararsızdırlar. Allah Kəlamını öyrənməklə yanaşı biz, eləcə də, şahadətliyimizdə hikmət, müdafiə və güc üçün Müqəddəs Ruha etibar etməliyik. Siz İsanın gücünün sizin vasitənizlə axmasına icazə verməkdənsə, Onun üçün hər bir işi öz gücünüz ilə görməyə çalışırsınız!*

Amma Müqəddəs Ruh üzərinizə enəndə siz qüvvə alacaqsınız.

*Həv. İş. 1:8*

# Allah Kəlamına böyük sevgi

**İNGİLTƏRƏ:** GƏNC QULLUQÇU QIZ

**On altıncı əsrdə kral Filip II Kəlamı özü üçün şərh etməyə çalışan hər bir kəsə qarşı ciddi tədbirlər görürdü. Bu dövrdə kiminsə Müqəddəs Kitabı tədqiq etdiyi aşkar edilsəydi, ya dar ağacından asılırdı, ya dirəkdə yandırılırdı, ya suda boğulurdu, ya tikələrə parçalanırdı, ya da diri-diri yandırılırdı.**

Kralın müstəntiqləri bələdiyyə rəisi Bracın evini yoxlamaq üçün göndərilmişdilər, onlar orada Müqəddəs Kitab dərslərinin keçirilib-keçirilmədiyini öyrənmək istəyirdilər. Onlar axtarış apararkən Müqəddəs Kitabı aşkar etdilər. Orada olanların hər biri onun haqqında nəsə bildiklərini inkar etdilər. Sonra gənc qulluqçu qız gəldi. Müqəddəs Kitab barədə sual veriləndə o dedi: "Mən onu oxuyuram!"

Bələdiyyə rəisi onu qorumağa çalışdı: "Bilirsiniz, o oxumağı bacarmır."

Amma qulluqçu qız yalan ilə müdafiə olunmağı arzulamadı. "Bu, doğrudur, kitab mənimdir. Mən onu oxuyuram və o, mənim üçün hər bir şeydən əzizdir!"

Ona boğulma ölüm cəzası verildi, şəhər divarının arasına qoyulub hər tərəfdən suvaqlanaraq öldürüldü. Ölüm hökmü icra olunmazdan əvvəl bir məmur ona sual verdi: "Belə gənc və gözəl olasan, amma öləsən?"

O, cavab verdi: "Mənim Xilaskarım mənim üçün öldü. Mən də onun üçün öləcəyəm."

Nəhayət, divarı tikib örtmək üçün bir daş qalanda ona yenə də dedilər: "Tövbə et! Sadəcə, bircə tövbə sözünü de!"

Əksinə, o, yeganə arzusunu, İsa ilə olmaq arzusunu bildirdi və dedi: "Rəbbim, məni öldürənləri bağışla!"

*Bəziləri üçün bu, sadəcə, kitabdır – illər boyunca ən çox satılan bir kitabdır. Başqaları üçün bu, sadəcə, ailə ənənəsidir – toylarda, dünyaya uşaq gələndə və dəfn mərasimlərində verilən bir kitabdır. Amma digərləri üçün isə bu, Allahın müqəddəs Ruhdan ilhamlanmış Kəlamıdır. Bu imanlılar sözlərə yapışırlar, sanki onlar üzərlərinə dəfələrlə yağış kimi tökülən, sevgililərindən aldıqları bir məktubdur. Onlar Allah Kəlamının həqiqətində nə görürlər? Onu oxumaq üçün ölümlə risk etməkdə onları nə vadar edir? Allahdan cavab istəyin. Əgər bu həqiqətlər sizin üçün sirli olaraq qalırsa, Allahdan gözlərinizin açılmasını xahiş edin ki, sözlərini daha aydın görə biləsiniz. Onun köməyi olmadan sözlər səhifədə qeydlər kimi qalacaq. Amma Allah onları həyata qaytara bilər.*

Gözlərimi aç ki, Qanununun xariqələrini görüm.

*Məzmur 119:18*

# Böyük şahidlik

**ŞİMALİ KOREYA:** NAMƏLUM ANA VƏ OĞUL

**“Nə baş verib?” – deyə, şimali koreyalı ana oğlundan soruşdu, oğlu giriş qapısından içəriyə daxil olanda onun üzündə həyəcan hiss olunurdu.**

“Mən bu gün dostumla idim, iki polis bizi saxladı. Onlar dostumu məsihçi olduğu üçün ittiham edərək döydülər. Dostum özünü müdafiə etməyə çalışmadı. Hətta silah düz üstünə tuşlansa da, o, yenə də sakitcə dayanmışdı.

“O, düz gözlərimin içinə baxırdı və heç bir söz demədən onun nə demək istədiyini anladım. O istəyirdi ki, onun etdiyi həmin şeyə mən də inanım. Sonra o dedi: ‘Onlara xeyir-dua ver’. O, elə mənim qarşımdaca öldürüldü, çünki məsihçi idi. Mən heç məsihçi nədir, bilmirəm. Mən bunu heç anlamıram.”

Oğlan başına gələnləri danışdıqdan sonra anası əlləri ilə onun başını qucaqlayaraq dedi: “Mən anlayıram.” Sonra o öz Xilaskarı Məsih barəsində həqiqəti ona danışmağa başladı. O, oğluna İsanın möcüzəli surətdə dünyaya gəlməsi və çarmıxda ölümü vasitəsilə xilas imkanını öyrətdi. Oğlunun təhlükəsizliyi üçün narahat olduğundan ona danışmağa heç vaxt cəsarət etməmişdi, buna görə ürəyi ağrısa da, Allaha minnətdar idi ki, ona ikinci şansı verib. “Həmin güllələr dostunun ürəyini deşsə də, Allah sənin ürəyində ümid toxumunu əkmişdir.”

Bu gün həmin oğlan Şimali Koreyaya Müqəddəs Kitabı qaçaqmalçılıqla keçirməkdə və ev toplantıları yaratmaqda fəal iş görür.

*Oğlanın anası oğluna doğularkən fiziki həyat vermişdi, amma yenidən doğulmaqla əbədi həyatı əldə etmək imkanını da ona ötürmüşdü. Fiziki həyat solub gedir, amma Allahın əbədi həyat hədiyyəsi həmişəlik davam edir. Biz sevdiyimiz insanlar ilə Kəlamı bölüşəndə Allah onlara əbədi həyatı təklif edir. Sevdiyiniz insanlara xilas planını bölüşmək üçün imkanı əldən buraxmısınızmı? Allahdan xahiş edin ki, bu gənc oğlanın anasına verdiyi kimi, sizə də ikinci şansı versin. İmkandan istifadə etməzdən qabaq faciənin baş verməsini gözləməyin.*

Çünki siz çürüyən toxumdan deyil, çürüməzdən, Allahın canlı, davamlı olan kəlamı vasitəsilə yenidən doğulmusunuz.

*1 Peter 1:23*

# Böyük ilahi

**ŞİMALİ KOREYA:** ELİZABET PRENTİSS

**"Mən özümü çox boş hiss edirəm" – Elizabet Prentiss ağladı. İki uşağını itirmək onun üçün həddən artıq çətin idi. Baxmayaraq ki, o, iki ayağını işlədə bilmədiyindən həyatda böyük ağrılar ilə yaşamışdı, Məsihə olan imanı başqalarını ruhlandırmaq üçün özünəməxsus bacarıq ilə onun həmişə gülümsəməsinə kömək etmişdi.**

Bu dəfə kədər o qədər böyük idi ki, ona dözmək mümkün deyildi. "Allahım mənim, xahiş edirəm, qırılmış ruhuma xidmət et."

Allah onun duasına cavab verdi. Bir dəfə günorta vaxtı idi, kədərinin ən dərin yerlərindən kənara çıxaraq bu tanış, ruhlandırıcı ilahiyə sözlər yazdı:

*Məsihim, qoy səni daha çox sevim!*

*Eşit dizi üstə etdiyim duamı.*
*Bu, mənim ciddi xahişimdir: Məsihim, qoy səni daha çox sevim...*
*Yer üzündə sevinc üçün susadım, sülh və dinclik axtardım;*
*İndi yalnız Səni axtarıram, nə yaxşıdırsa, onu ver...*
*Qoy kədər öz işini görsün, göndərsin ağrını və qüssəni;*
*Onlar mənimlə birlikdə oxuyanda: Məsihim, qoy səni daha çox sevim....*

Elizabet onun mahnısının müasir məsihçilərə verdiyi təsəllini və təsiri heç vaxt bilmədi. Şimali Koreyada axırıncı kommunist rəhbər Kim II Sanq yerin altında yaşayan otuz məsihçini aşkar edəndə onları camaat qarşısında edam etdi. Məsihçilər ölüm ilə üzləşərkən oxuduqları axırıncı sözlər onun mahnısının sözləri idi: "Sənə daha çox sevgi."

*İsa kədərin dəyərini bizdən uzaqlaşdırmır. O başa düşür ki, bəzən biz sadəcə ağlamalıyıq. Amma kədər göz yaşları içində boğulmağımıza yol verməkdə bizi həddən artıq çox sevir. O, kədərin uzun müddət sürməsinə yol verir ki, kədər həyatlarımızda öz işini görsün, bizi Onun bənzərinə uyğun şəkildə böyütsün. Sonra biz artıq ona dözmədiyimizi düşünəndə görürük ki, həyatlarımız yaxşı istiqamətə yön alır. Bizim özümüzü daha da güclü hiss edəcəyimiz gün gələcək. Yük daha yüngül görünəcək. Şimali Koreya məsihçilərinin təqibi gözlədiyi kimi, biz də nəhayət, biləcəyik ki, hətta əzab çəkərkən sevinmək nəyə bənzəyir. Kədər sizin həyatınızda tam işini görübmü? Kədər sizin daxilinizdə Məsihə daha çox sevgi yaradıbmı?*

Əksinə, Allahın xidmətçisi olaraq hər şeydə özümüz barədə zəmanət veririk;... kədər içindəyik, əslində, həmişə sevinirik.

*2 Kor. 6:4, 10*

# Böyük anbar

**RUMINİYA:** PASTOR RİÇARD VURMBRAND

**Pastor Riçard Vurmbrand ağır polad qapını açdı və böyük beton otağa daxil oldu. O ətrafa, döşəmədə qalaqlanmış kitablara baxdı. Üzündə böyük bir təbəssüm, gözləri isə yaşlı olan Riçard kitablardan birini götürüb dostuna göstərdi. Bu, rumın dilində olan uşaqlar üçün Müqəddəs Kitab idi.**

Özünü toplayıb dedi: "İndi anbar olan bu yerdə əvvəllər olmuşam. Mən düz elə burada, yerdən doqquz metr aşağıda üç ilədək birnəfərlik kamerada qalmışam. Mən bu müddət ərzində nə günəş, nə də ay görmüşəm. Demək olar ki, hər gün döyülürdüm. İndi Müqəddəs Kitablar və mənim kitablarım burada saxlanılır. Allah bundan daha yaxşı nə edərdi!"

1989-cu ildə Rumıniyada kommunizm ləğv olunanda "*Şəhidlərin səsi*" təşkilatının işçiləri kitabxana və devrilmiş kommunistlərdən qəpik-quruşa böyük çap maşınını ala bildilər. Onlar Riçard Vurmbrandın minlərlə kitabını və Müqəddəs Kitablar çap etmişdilər, bunları müvəqqəti saxlamaq üçün onlara yer lazım idi. Buxarestin yeni icra hakimi Çauşeskinin iqamətgahının altında anbar yerini onlara təklif etmişdi. Riçard doğma vətəni Rumıniyaya xidmət üçün dua edərək neçə ilini həbsxanada, elə həmin bu yerdə keçirmişdi!

Riçard həbsxanada olanda mühafizəçilər ona demişdilər ki, o, heç vaxt azadlığa buraxılmayacaq və ya Allah üçün başqa faydalı bir iş görə bilməyəcək. Bu gün onların əzab məkanı xidmət məkanına çevrilmişdi!

*Vanil, yağ, şəkər, un və kakao dadlı şokolad tortu üçün sadalanmış əsas məhsullardır. Bütün bu məhsulları birlikdə qarışdırmaq şirin bir şirniyyat yaradır. Amma biz bu məhsulları ayrılıqda götürsək, məsələn, vanil, dadı şirin deyil, hətta acıdır. Eynilə də, Allah baş aşpazdır, özünə şirin bir şirniyyat hazırlamaq üçün həyatlarımızda məhsulları qarışdırır. Fərdi həyat təcrübəsi özü-özlüyündə acı ola bilər; amma bütün məhsullar ilə qarışdırılanda bizim həyatlarımız ilahi yaradılışa çevrilir. Siz indi acı sınağı yaşayırsınızmı? Həmin sınağı Allahın necə istifadə edəcəyini və başqa hadisələri qarışığa əlavə edəcəyini gözləyin. Ona etibar edin, gözləyin və baxın.*

Biz bilirik ki, hər şey birlikdə Allahı sevənlərin, Onun məqsədinə görə çağırılanların xeyrinə işləyir.

*Roma. 8:28*

# BÖYÜK SADİQLİK

**Siz nə miqdarda əzab çəkmisinizsə, başqalarına yalnız o miqdarda kömək edə bilərsiniz. Nə qədər böyük məbləğ ödəmisinizsə, insanlara bir o qədər çox kömək edə bilərsiniz. Nə qədər az məbləğ ödəmisinizsə, insanlara bir o qədər az kömək edə bilərsiniz. Siz alovlu sınaqlardan, imtahanlardan, sıxıntılardan, münaqişələrdən keçdikcə – ölən İsanın işini görmək üçün daxilinizdə Müqəddəs Ruha icazə verdikcə – həyat, hətta Məsihin həyatı başqalarına axıb töküləcək.**

Uatçman Ni – imanına görə həbs olunmus çinli məsihçi



245 gün

BÖYÜK SADİQLİK

# Böyük sadiqlik

**RUMINİYA:** PASTOR RİÇARD VURMBRAND

**On iki şagird pastorları ilə birlikdə hasar boyunca dayanmışdı. Hasarın o biri tərəfində böyük bir xəndək var idi, onun arxasında isə insanların düzəltdiyi bir mağara var idi. Böyük bir şir mağaranın ağzında o tərəf-bu tərəfə gedirdi.**

Onların pastoru dedi: "Sizin əcdadlarınız imanlarına görə belə vəhşi heyvanlara atılmışdılar. Bilin ki, siz də əzab çəkəcəksiniz. Siz şirlərə atılmayacaqsınız, amma siz bu heyvanlardan daha pis olan insan əllərində əzab çəkəcəksiniz. İndi burada qərara gəlin, Məsihə sadiq qalacağınıza söz verirsiniz, yoxsa yox."

Şagirdlər bir-birinə baxdılar. Onların qarşısında gizli məbəd üçün çalışdığına görə ömrünün on dörd ilini həbsdə keçirmiş pastorları, Riçard Vurmbrand dayanmışdı. Bu, pastorun Rumıniyada sonuncu həftəsi idi, çünki o, ailəsi ilə birlikdə öz ölkəsindən başqa ölkəyə yaşamağa gedirdi, həmin ölkə onu müəyyən məbləğ ilə azadlığa çıxarmışdı. Onlar bir neçə gündən sonra çıxıb gedirdilər.

Riçard bu şagirdlərin ateist kommunistlərin qəddar əllərində əzab çəkib-çəkməyəcəyini bilmirdi, amma o istəyirdi ki, onların ürəklərinə ən çətin sınaqlarda sağ qalacaq iman əksin. Ona görə də o, şirləri görmək üçün şagirdləri yerli zooparka gətirmişdi.

Gənc olsalar da, şagirdlər pastorun dediklərini tamamilə anlayırdılar. Onlar göz yaşları içərisində cəsarətlə dedilər: "Biz Məsihə sadiq qalacağımıza söz veririk."

*Riçardın dərsi gənclərə öz vaxtında öyrətmişdi. Şagirdlər şəhidliyi, ola bilsin ki, nə vaxtsa yaşamış olacaqdılar, və ya heç vaxt bunu özləri yaşamayacaqdılar, amma onun gizli mənalarını tamlığı ilə başa düşməsələr də, vacib qərarı çıxarmaqda bu təsvir onlara yardım etdi. Onlar Məsihə sadiqliklərinə əvvəlcədən zəmanət verdilər. Qabaqcadan qərar çıxarmaq qarşıdurma zamanı uğur qazanmaq üçün başlıca bir şeydir. Biz artıq sadiqliyimizi hələ sınaqdan keçməyə uzun müddət qalmış bir vaxtda qurmalıyıq. Ən çətin təzyiq anı bizim seçimləri götür-qoy edib əminliyimizi qərara gəlmək vaxtı deyil. Bu, əvvəlcədən təyin edilmiş əminliyimizi hərəkətə qoymaq vaxtıdır. Sınaqdan əvvəl əminliyinizi qurmusunuzmu ki, heç bir müdir, həyat yoldaşı, hökumət və ya başqa nəsə sizi fikrinizdən döndərə bilməsin?*

Bizi sizlərlə birlikdə Məsihə möhkəm bağlayan və bizi məsh edən Allahdır.

*2 Kor. 1:21*

# Böyük şəhadətlik

## QƏDİM ALBANİYA: BARTALMAY

**Padşah Estieyc onun üstünə qışqırdı. "Sən mənim doğma qardaşımı, arvadımı və bir neçə övladımı yoldan azdırmısan! Sən bizim allahlarımıza olan ibadətimizi pozmusan! Aştarot kahini sənin qanına susayıb! Əgər sən bu İsa haqqında vəz etməyi dayandırmasan və allahlara qurban gətirməsən, ən əzablı ölümlə öləcəksən!"**

Həvarilər ayrılandan sonra Bartalmay Likaoniya, Suriya, yuxarı Asiya və Hindistana Müjdəni yaymaq üçün səfərlər etdi. Sonra o, Albaniyanın paytaxtına getmiş və orada bir çoxları Məsihi qəbul etmişdi. Burada Bartalmay ittiham olunmaq üçün padşahın qarşısına gətirilmişdi.

"Mən onları yoldan azdırmamışam" – deyə, Bartalmay cavab verdi. "Onları həqiqətə yönəltmişəm. Mən sənin yalançı allahlarına qurban gətirməyəcəyəm. Mən yalnız bir olan həqiqi Allaha ibadəti vəz edirəm, imanıma və ya vicdanıma görə azca əzab çəkməkdənsə, şəhadətliyimi qanımla möhürləməyə hazıram!"

Padşah yaman hirsləndi. Bartalmayı susdurmaq üçün o, əmr etdi ki, onu çubuqla döyüb işgəncə versinlər. Bartalmay hələ də başqalarını həqiqətdən möhkəm yapışmağa səsləyirdi. Sonra o, çarmıxdan tərsinə asıldı və bıçaqla diri-diri dərisi soyuldu. O, yenə də hamını həqiqi Allaha və Onun Oğlu İsa Məsihə iman etməyə çağırırdı. Nəhayət, padşah əmr verdi ki, Bartalmayın başı balta ilə kəsilsin. Bununla onu susdurdu, amma şəhadətliyi qorundu və taleyi İsa Məsihdə möhürlənirdi.

*Ola bilsin ki, şəhidlərin hekayələrini eşidən bəzi insanlar onların həyatlarının məğlub olduğunu düşünürlər. Axı Bartalmay kimi onlar da düşmənlərinin əlində ölüblər. İsaya da buna oxşar ölüm cəzası verilmişdi. İsanın dirilməsini təkzib edənlər Onun gözəl bir müəllim olduğunu düşünürlər. Bu müəllimin xidmətini vaxtsız ölüm faciəvi surətdə dayandırmışdı. Ölüm, həqiqətən, şeytanın qələbəsinin əlamətidir? İsanın vəziyyətində yox. Əslində, İsanın ölümü Allahın günah üzərində tam qələbəsi idi. Məsihçi şəhidlərin ölümü cəsur şəkildə qarşılamaqları ilə yaranmış şəhadətliklər bir çoxlarını imana gətirmişdir, halbuki, onlar öz həyatları boyu bəlkə də bu qədər insanı imana gətirməyib. Allahı həm həyatınız, həm də ölümünüz ilə izzətləndirmək mümkündür.*

Onlar Quzunun qanı və öz şəhadət sözləri vasitəsilə ona qalib gəldilər. Hətta ölümlə üzbəüz olanda da öz canlarını sevmədilər.

*Vəhy 12:11*

# Böyük müddəalar

**ROMA:** HƏVARİ PAUL

**Paul Timoteyə yazmışdı: "İman uğrunda yaxşı mübarizə apar. Əbədi həyatı bərk tut; bunun üçün çağırıldın" (1 Timotey 6:12). O, bu mübarizə ilə yaxşı tanış idi.**

O, Korinflilərə bəzi həyat təcrübələri haqqında yazır: "...hədsiz dözümdə, əziyyətlərdə, ehtiyaclarda, sıxıntılarda, döyüləndə, həbslərdə, qarışıqlıqlarda, zəhmətdə, yuxusuz qalanda, aclıqlarda,... Elə bil ölümün ağzındayıq, amma hələ yaşayırıq. Elə bil cəza çəkirik, amma öldürülmürük. Sanki kədər içindəyik, əslində, həmişə sevinirik. Yoxsul sayılırıq, amma çoxlarını varlandırırıq. Elə bil heç nəyimiz yoxdur, amma hər şeyə sahibik" (2 Kor. 6:4-5; 9-10).

Ölüm cəzası alan Paul həbsxanada olarkən Filipililərə yazırdı: "Çünki mənim üçün yaşamaq Məsihdir, ölməksə qazancdır. Lakin cismən yaşasam, faydalı işlər görə biləcəyəm. Hər iki tərəfdən yolum kəsilib. Arzum buranı tərk edib Məsihlə olmaqdır, çünki bu, lap yaxşıdır. Amma sağ qalmağım sizin üçün daha lazımlıdır. Buna əmin olaraq bilirəm: sağ qalacağam və hamınızla birlikdə qalmaqda davam edəcəyəm ki, imanda həm irəliləyəsiniz, həm də sevinəsiniz" (Filip. 1:21-25).

Amma bir neçə il sonra Timoteyə yazmışdı: "Mən yaxşı mübarizə aparmışam, yolumu sona çatdırdım, imanı saxladım" (2 Timotey 4:7). İmperator Neronun əmri ilə altmış dörd yaşında Romada Paulun boynu vurulur və o, İsanın yanına gedir.

*Əgər əzabla üz-üzə olanda irəliləmək üçün ruhlanmaya ehtiyacımız varsa, bizə Paulun həyatından başqa bir həyata baxmağa ehtiyac yoxdur. Paulun dözüm yarışı başlanğıcdan olan çətinliklər ilə başlayır. O, Həvarilərin İşləri kitabında yazılmış saysız-hesabsız dəhşətli həyat təcrübələrindən keçmişdir. Amma o, keçirdiyi bütün çətinlikləri İsanı tanımaq və Onu tanıtdırmaqla müqayisədə heç hesab edib. Əzablar gələndə siz də Paul kimi eyni şeyi deyə bilərsinizmi? Məsihi tanımağın və Onu tanıtdırmağın məqsədindən saxlaya bilən bir şey varmı? Əgər siz sadiq xidmətinizin sonuncu məsafəsində olduğunuzdan qorxursunuzsa, Paulun ruhlandırıcı sözlərinə diqqət yetirin və ikinci nəfəsi əldə edin.*

Öz canıma heç əhəmiyyət vermirəm, onu qiymətləndirmirəm. Mənə kifayətdir ki, yolumu – Rəbb İsanın mənə tapşırdığı kimi Allahın lütfünü göstərən Müjdəni şəhadətetmə xidmətini başa çatdırım.

*Həv. İş. 20:24*

# Böyük "vəftizçi"

**YƏHUDEYA:** VƏFTİZÇİ YƏHYA

**Vəftizçi Yəhya heç vaxt salehlik uğrunda danışmaqdan qorxmamışdı. Padşah Hirod Antipa arvadını boşayıb öz qardaşı arvadını alanda Yəhya etirazını bildirdi. O, Hiroda dedi ki, əgər belə etsə, Allahın qanunlarına itaətsizlik etmiş olacaq. Hirod Yəhyanın bu məzəmmətinə görə ona nifrət bəslədi, amma o, həm də Yəhyadan qorxurdu, çünki insanlar onu peyğəmbər hesab edirdilər. Hirod Yəhyanı öldürtmək istəyirdi, amma ona toxunmağa cürət etmirdi, xalqın buna pis münasibət bəsləyəcəyindən çəkinirdi. Amma yeni arvadı Hirodiasın təkidi ilə onu öldürmək üçün yaxşı bir yol tapdı – onu zindana saldı.**

Zindanda olarkən Yəhya İsanın yanına adamlar göndərdi ki, haqqında peyğəmbərlik etdiyi gəlməli olan Şəxsin İsa olduğunu yoxlasın. İsa bunu təsdiqləyəndə Yəhya artıq rahatlandı ki, onun həyatının tapşırığı tamamlanıb. Məsih gəldi. Yəhya indi hər şeyi anladı. Bütün bunlar İsa ilə bağlı idi.

Hirodun ad günü ziyafətində şahzadə Hirodias öz qızını göndərdi ki, onun qarşısında rəqs etsin. Hirod qıza cəld vəd verdi ki, nə istəsə, ona verəcək. Qız da hiyləgərcəsinə sinidə Yəhyanın başını istədi. Hirod öz qonaqları qarşısında utandı, bu pis xahişi rədd etməyə cəsarət etmədi, ona görə də Yəhyanın başını kəsdirdi.

*Bir çoxları onların qoçaqlığına pərəstiş edir və cəsarətlərini tərifləyirlər, amma şahidlər pərəstiş olunmaq üçün yaşayıb ölməmişdilər. Onların hekayələrinə o qədər hörmət etmək olar ki, biz şahidlərin həyatlarının mənzərəsini itirərik. İmanına görə öldürülmüş insanlar İsanı kölgədə qoymaq üçün deyil, izzətləndirmək üçün ölüblər. Onların həyatlarına bir cavab bədənə və qana hörmət deyil, Rəbb üçün böyük hörmət olmalıdır. Sizin dərindən həsr olunma hissiniz sizə şərəf gətirəcək bir şey deyil. Sizin həsr olunmanız sizin adınızı məsihçilərin şərəf lövhəsinə yazacaq bir şey deyil. Sizin həsr olunmanız İsaya, yalnız Ona izzət gətirməlidir.*

İndi Ona böyümək, mənə kiçilmək gərəkdir.

*Yəhya 3:30*

# Böyük hesabat aparan

**KOMMUNİST HƏBSXANASI:** FLORİKA

**Florika hər şeyə şübhə ilə yanaşırdı və ümid edə bilmirdi. Neçə həftə idi ki, onlar qadınların həbsxanadan çıxdıqlarını görürdülər. Onların adları çəkilirdi və həbsxananın həyətində yığışırdılar, amma heç kim bilmirdi ki, onlar haraya gedirlər. Bəlkə onlar, həqiqətən, azadlığa buraxılırlar.**

Və beləcə o, adını eşidəndə özünü Allahın iradəsi hər nə cür olsa da, ona təslim etdi.

İş stolunun arxasında oturmuş mayor dedi: "Siz bilməlisiniz ki, bu yerdə mən Allahdan daha güclüyəm. Bu ana qədər Allahın sənin xeyrinə heç bir müdaxilə etməyib. Bir de görüm, sən həqiqətən, bunu qəbul etmisən? Mən demək istəyirəm ki, kommunist cəmiyyətində allaha ehtiyac olmadığını sən artıq bilməlisən! Sənə allah lazım deyil. Əgər sən nə vaxtsa buradan azad olsan, görəcəksən ki, keçən bir neçə il ərzində gözəl nailiyyətlər qazanmışıq və bu, hələ başlanğıcdır!"

Florika onun iş stolunun üzərində sənədlərə baxdı və cavab verdi: "Mən görürəm, siz güclüsünüz. Əminəm ki, mənim barəmdə sənədləriniz var. Bu sənədləri mən heç vaxt görməmişəm, halbuki, onlar mənim taleyimi həll edə bilər. Amma Allah da hesabat aparır. Bizlərdən heç birimizin Onsuz həyatı ola bilməz. Ona görə də istər məni burada saxlasın, istərsə də buraxsın, mən Onun hər bir qərarını özüm üçün ən yaxşı bir şey kimi qəbul edəcəyəm."

Üç gün sonra Florika azadlığa buraxıldı.

*Uşaqlar məktəbdə olanda onlar yazı lövhəsinin gücünü dərhal öyrənirlər. Uşaqların nöqteyi-nəzərindən müəllimin hansısa bir şagirdin adını lövhəyə yazması sözə qulaq asmayan şagirdlər üçün tam cavabdehliyi göstərir. Biz də uşaqlar kimi, bizə pislik edənlərin adlarının yazılmasını çox istəyirik. Biz əminik ki, cəza mütləq gələcək və tez veriləcək. Biz həmin uşaqlara xas olan etibardan bir az itirmişikmi? Biz bugünkü dünyada şərin artdığına görə o qədər yorulmuşuqmu ki, Allahın hələ də "adları yazdığına" artıq inanmırıq? Müqəddəs Kitab bizə öyrədir ki, bütün dünya Allaha hesabat verir. Ona görə də şərin cəzasız qaldığını görüb ruhdan düşməyin. Allah onları ittiham edəcək.*

...belə ki bütün dillər sussun və
bütün dünya Allahın hökmünə
məruz qalsın.

*Roma. 3:19*

BÖYÜK SADİQLİK

# Böyük inqilabçılar

**ROMA**

**Erkən məsihçilər ruhani inqilabçılar idilər. Bütlərə ibadət edən və etməyənləri "ateist" adlandıran bir cəmiyyətdə məsihçilər Romanın bütövlüyünü təhlükə altına salan radikal bir qüvvə idi. Onlar əsas qaydalara qarşı idilər və ona görə də Roma hökuməti üçün təhlükəyə çevrilmişdilər. Məsihçilərə o qədər nifrət edirdilər ki, onların ölümü təkcə saysız-hesabsız deyildi, həm də bu işi dəhşətli qabiliyyətləri ilə həyata keçirirdilər.**

Məsihçilər qiyamət günü və bir çoxlarının xilası üçün Məsihin ikinci gəlişi ilə dünyada olacaq dəyişiklikləri bəyan edən inqilabçılar idilər. Onlar İsa Məsihin Roma imperatorundan daha böyük səlahiyyətə malik olduğunu söyləyirdilər. Ona görə də Roma imperatorları fərmanlar göndərdi, özünü məsihçi hesab edən hər bir kəs qanuni məhkəmə olmadan ölümə məhkum idi. İmperatorun qaydalarını rədd etməyə cürət edən bu "üsyankarlar" üçün lazımi məhkəmə təmin edilmirdi. Roma imperializmi on ifrat təqib dövrünə havadarlıq etdi, bu dövrlər biri-birindən dəhşətli idi.

İnqilabçılar şəhid sözü ilə tanınmağa başladılar. Bu söz hakimlər, eləcə də mətin və ciddi təlim keçmiş əsgərləri olan imperatorlar qarşısında şəhadətlik edənlərə şamil edildi. Onlar ciddi sınaqlarda ölməsələr də, şəhidlər və ya etirafçılar adlandılar. Onlar, sadəcə, öz fikirlərindən dönmədilər. Şəhidlik dəqiq vəziyyətlərdən asılı olmayaraq, insanın Məsihə imanına şəhadətlik deməkdir. Məsih üçün hər şəhadətlik müasir günümüzdə inqilabdır.

*Tarixdə şəhidlər bu gün bizim kimi ruhani döyüşdə olan əsgərlər idilər. Bu döyüş İsa çarmıxda ölən zaman şər qüvvələri məğlub edərkən başladı. O öz ölümündə cəhənnəmi və onun cinlərini tərksilah etdi. Amma bu döyüşdə vuruşan şəhidlər fiziki silahlar ilə deyil, ruhani silahlar ilə döyüşürlər. Onların etirafı onların silah seçimləridir. Onlar məhdudiyyətlər qoyulmuş ölkələrdə düşmən ərazisinə yeriyir və Məsihin şeytan üzərində qələbəsini qorxmadan bəyan edir. Onların yüksək qiymətləndirdikləri varidat həyatları deyil, şəhadətlikləridir. Ona görə onlar imanlarını saxlamaq üçün həyatlarını verməyə hazırdırlar. Siz döyüşə harada başlayacaqsınız? Siz etirafınızın silahını əldə saxlamaq istəyirsinizmi?*

Əbədi həyatı bərk tut; bunun üçün çağırıldın və yaxşı əqidəni bir çox şahid qarşısında iqrar etdin.

*1 Timotey 6:12*

### Tapşırıq

Mən Rəbbə dedim ki, qonşuma kömək etmək,
Uzaq yerlərə Müjdəni aparmaq,
Xəstələrə təsəlli vermək istəyirəm,
amma O, mənə dedi:

Əgər məni sevirsənsə, əllərim ol.
Mən Rəbbə dedim ki, ölənlərə,
Küçədəki yetimlərə,
Məhbuslara baş çəkmək istəyirəm,
amma O, mənə dedi:

Əgər məni sevirsənsə, ayaqlarım ol.
Mən Rəbbə dedim ki, kasıblara baxmaq,
Ağlayan hər körpənin keşiyini çəkmək,
Və hər bir insanın ehtiyacını görmək
istəyirəm, amma O, mənə dedi:
Əgər məni sevirsənsə, gözlərim ol.
Mən Rəbbə dedim ki, Sənə xidmət
etmək istəyirəm,

Amma haradan başlayacağımı bilmirəm.
Məhəbbət cavabdır, O, mənə dedi:
Əgər məni sevirsənsə, ürəyim ol.

C. Şiri Uestfal



# Böyük möhkəmlik

**PATMOS:** HƏVARİ YƏHYA

**Siz yağda qaynayan, amma ölməyən insan ilə nə edərdiniz?**

Belə deyilir ki, Roma imperatoru Domitian əmr etmişdi ki, həvari Yəhyanı ölənə qədər yağda yandırsınlar, amma Yəhya tiyanın içərisində vəz etməkdə davam etmişdi. Başqa bir vaxt Yəhyanı məcbur etmişdilər ki, zəhər içsin, amma Mark 16:18-də vəd edildiyi kimi, zəhər ona təsir etməmişdi. Beləliklə, həmin vaxtlar Efesdəki məbədin rəhbəri olan Yəhya b. e. 97-ci ilində Patmosa qovulmuşdu.

Yəhya bütün bu sınaqlardan canını qurtara bilmişdi, çünki Allah onunla işini bitirməmişdi. "Vəhy" hələ gəlməli idi.

O, Patmos adasında mağarada olarkən görüntü əldə etdi. Görüntü Vəhy kitabına – məbəd dövründə müjdəçilik üçün hərəkətverici qüvvə rolunu oynayan bir kitaba çevrildi. Burada Məsihin qayıtması ilə əlaqədar hadisələr peyğəmbərlik edilir. Yəhya Məsihin ikinci gəlişi haqda yazır və Onun gəlişini alqışlayır. Hətta bu gün də onun yazıları Məsihin izzətli gəlişini sevinclə gözləmək üçün imanlıları ruhlandırır.

Yəhyanın sürgün olunmasından iki il sonra imperator Domitian öldü və Yəhya Efesdəki məbədə qayıtdı. İsanın möhkəm məbədinə yarım əsrdən çox xidmət edərək, ən cavan həvari yaşayaraq ən qoca həvari oldu, səksən yaşında Efesdə sülh içində vəfat etdi.

*Allahın xidmətindən təqaüdə çıxmaq qeyri-mümkündür. Sadəcə, bunu Yəhyadan soruşun. Ölümün orta yaş həddinin çox aşağı olduğu bir vaxtda Yəhya ömür boyu sadiqliklə xidmət edərək səksən yaşa qədər yaşadı. Ola bilsin ki, siz Allahın xidmətində özünüzün faydalılığınız ilə mübarizə aparırsınız. Bəlkə siz özünüzü qoca hiss edirsiniz və sizin yerinizə Allahın başqa adamı istifadə edə biləcəyini düşünürsünüz. Yaxud, siz cavan və subaysınız və düşünürsünüz ki, evli insanlar Allahın fikrində olan insanlardır. Sizin öz bəhanələrinizdən əl çəkməyinizi istəyən Allah sizdə asanlıqla ruhdan düşməyən ruhani möhkəmlik yaratmaq istəyir. Bu gün Allahdan xahiş edin ki, Ona xidmət etmək üçün sizə növbəti addımlarınızı göstərsin.*

Əziyyətə, Allahın Padşahlığına və dözümə sizinlə İsada şərik olan mən – qardaşınız Yəhya Allahın kəlamından ötrü və İsa barədə şəhadət etdiyimə görə Patmos adlanan adada idim.

*Vəhy 1:9*

# Böyük itaətsizlik

**YERİXO:** RAHAV

**Yeşua iki casusu Yerixo torpağına baxmaq üçün göndərəndə onlar fahişə qadın Rahavın evində gizləndilər. Rahavın evi Yerixonun divarlarına bitişik idi, bu divar ona görə tikilmişdi ki, arzu olunmayan qonaqların çağırılmadan gəlişinin qarşısını alsın. Padşah İsrailin casuslarının şəhərdə olduğunu eşidəndə dərhal Rahava xəbər göndərdi. O, əmr verdi ki, evinə girən casusların yerini söyləsin.**

Rahav padşahının əmrinə itaət etmədi və casusların gizləndikləri yerləri qorumaq üçün hətta yalan danışaraq onları gizlətdi. Sonra həmin gecə o, casusları uzun kəndirlə öz pəncərəsindən aşağı sallayaraq gizlicə onları şəhərdən çıxardı.

Rahav İsrailin Allahı barədə az bilirdi, amma o, Allahın xalqına kömək etməyə hazırlaşmışdı. O, bütpərəst hakimiyyətə itaət etmədi və hətta öz həyatını təhlükə altına saldı. Nəticədə isə o, həyatını xilas etdi.

Həvarilərin İşləri kitabında oxşar hərəkət var. Paulun tövbəsindən dərhal sonra o, Dəməşqdə həvarilər ilə bir neçə gün vaxt keçirdi, sinaqoqlarda vəz edir və öyrədirdi. Yəhudilər Paulun dəyişildiyini görüb çaşqınlığa düşdülər, onu təhlükəli hesab etdilər. Həvarilər onu səbətdə şəhər darvazasından aşağı salladılar və onu öldürmək istəyən yəhudilərin əlindən həyatını xilas etdilər.

*Bəzi məsihçilər inanırlar ki, məhdudiyyətlər olan ölkələrdə rəhbərliyə itaətsizlik təqibə zəmanət verir. Rəsmi məbəd ilə qeydə alınmaqdan imtina edən çinli məsihçilər döyülməyə layiqdirlərmi? İslam ölkələrində məsihçiliyi qəbul etmiş müsəlmanlar ölüncəyədək daşlanmağa layiqdirlərmi? Müəyyən ayələr fərqli tərzdə izah edilsə də, bütün məsihçilər yekdilliklə söyləyərlər ki, Allahın qanunlarına itaət etməməyə məcbur edən hakimiyyətlə razılaşa bilmərik. Əlbəttə, bu, məsihçilərə icazə vermir ki, dövlətə qarşı şəxsi düşmənçilik etsinlər. İtaətsizliyə yalnız o vaxt zəmanət verilir ki, biz Məsihə sadiqlik ilə hökumət qanunları arasında sadiqliyi seçməyə məcbur edilirik. Məsələlərin həllində siz harada dayanırsınız? Kəlamı tədqiq edin və özünüz seçim edin.*

Çünki Allah tərəfindən təyin olunmayan hakimiyyət yoxdur.

*Roma. 13:1*

# Böyük hiyləgərlik

**ŞİMALİ KOREYA:** YAŞLI QADIN

**Bir gün müəllimimiz bizə dedi ki, xüsusi bir oyun oynayacağıq. O, valideynlərimizin evlərimizdə gizlətdikləri xüsusi kitab haqqında pıçıltı ilə bizə dedi. Biz valideynlərimiz yatana qədər gözləməli idik, sonra bu kitabı tapıb növbəti gün xüsusi bir sürpriz üçün gizlicə məktəbə gətirməli idik. Mən evə getdim və dərhal kitabı axtarmağa başladım.**

"Növbəti gün sinfə qara üzlü kitabı, Müqəddəs Kitabı gətirən on dörd uşaqdan biri də mən idim. Bizə mükafat olaraq parlaq qırmızı rəngli şərflər verdilər və biz otağın içərisində təntənəli surətdə dövrə vurduqca o biri şagirdlər bizə əl çaldılar.

Həmin gün günorta evə qaçdım, çünki anama qırmızı şərf qazandığımı söyləmək üçün bərk sevinirdim. O, nə evdə idi, nə də tövlədə. Mən gözlədim, nə atam, nə də anam gəlib çıxmadı, onda mən qorxmağa başladım. Mən ac idim, hava da qaralmağa başlayırdı. Mən daxilən narahat olmağa başladım və stulumda yuxuya getdim.

Səhəri gün polis məmurları gəlib mənə dedilər ki, indi dövlət qayğıma qalacaq. Mən valideynlərimi bir daha görmədim."

Şimali Koreyadan olan yaşlı bir qadın bu hekayəni bizə danışdı. O, heç vaxt valideynləri barədə eşitmədi və hələ də bağışlamaq onun üçün çətindir, bununla mübarizə aparır. O, belə sınaqlardan keçmiş bir çox insanlardan biridir.

*Məşhur karikaturadan fərqli olaraq, şeytan qırmızı kostyumda, əlində yaba ilə özünü göstərmir. Biz şeytanın belə aydın görünüşünü dərhal tanıya bilərik. Amma bu hekayədə olan uşaq kimi biz də çox vaxt onunla fərqli tərzdə rastlaşırıq. Düşmənin təmsilçiləri çox vaxt yüksək yerlərdə oturan təsirli insanlardır. Yumşaq tərzdə danışan biznes həmkarın təsirinə diqqət yetirin. Yaxud universitet professorunun həmin aləmdə əlində saxladığı gücü təsəvvürünüzə gətirin. Bu hekayədə uşağın aşkar etdiyi kimi düşmən çox çirkin iş görür. Biz düşmənlə və onun təmsilçiləri ilə harada rastlaşmağımızdan asılı olmayaraq, sadəlövhlüyü kənara qoymalıyıq və düşmənə qarşı özümüzü qorumalıyıq. Siz düşmən üçün asan ələ keçən şikarsınızmı? Yoxsa o, sizi ayıq və tədbirli tapacaq?*

Buna heyrətlənmək lazım deyil, çünki Şeytan da işıq mələyi cildinə girir. Şeytana xidmət edənlərin salehlik xidmətçilərinin cildinə girməsi qəribə deyil.

*2 Kor. 11:14-15*

# Böyük məhbus

**VYETNAM:** TU DİN TRANQ

**Tu Din Tranq öz velosipedi ilə K'Ho qəbiləsinə xidmət etmək üçün kələ-kötür yollar ilə yüzlərlə kilometr yol qət etmişdi. Bu qəbilə Vyetnam hökumətinin qonaqların müjdəçilik etməsinə icazə vermədiyi altmış qəbilədən biridir. O, 1995-ci ilin aprel ayının 4-də kəndə daxil olanda qəfildən polis onu kənara çəkib döyməyə başladı. Onu videokameraya çəkdilər və kənd camaatının qarşısında ələ saldılar.**

Onu həbsxanaya apardılar və məhkəmə olmazdan qabaq altı ay orada saxladılar. O, uşaqların mahnısını "Rəbbi gecə və gündüz sevin" oxuyanda həbsxanada daha çox qalmasına hökm verildi.

Nəhayət, məsihçilərə yardım təşkilatlarının təzyiqi nəticəsində Tranqı altı ay əvvəl azadlığa buraxdılar. Baxmayaraq ki, onun sadiq həyat yoldaşı və iki kiçik övladı onun yolunu gözləyirdi, müjdəçi hələ çıxmağa hazır deyildi! Müjdəçi yolundan azmışlara vəz etmək üçün buna əlavə bir imkan kimi baxdı. Onlar ona nə edə bilərdilər? O, artıq həbsxanada idi?

Qanq Nqayi yaxınlığında olan həbsxanada göstərdiyi səylərə görə bir çoxları Məsihi əldə etdilər. Çoxlu sayda məsihçilərin dualarını və xahişlərini eşitdikdən sonra o, bu imkanı necə əldən buraxa bilərdi, onun Allahın padşahlığı üçün öz həyatından imtina etməsi bir nümunə idi. Tranq erkən azadlığa buraxılmasından imtina etdi və müjdəçi kimi işini davam etdirmək üçün həbsxanada qalmağa üstünlük verdi.

*Tranq birinci dəfə dövlətin məhbusu idi və qəddarlığa və əzaba məruz qaldı. Amma o, həbsxanada qalmağa üstünlük verəndə İsa Məsihin məhbusuna çevrildi. Dövlət onu qırmağa çalışdı. Onun yeni Ağası – İsa – onu bərpa etdi. Dövlət onun səsini kəsmək istədi. İsa Müjdəni hər bir həbsxana kamerasına apardı və Tranqı iki dəfə müjdəçi etdi. Tranq bizə hətta bu həyatın narahatçılıqlarının və dərdlərinin köləsi olduğumuz anlarda Məsihin hökmranlığı altında olan azadlıqdan zövq almağı xatırladır. Ola bilsin ki, siz buna oxşar yorucu bir vəziyyətdə olaraq özünüzü məhbus kimi hiss edirsiniz. Qoy İsa həyatınızın həqiqi Ağasına çevrilərək sizi azad etsin.*

Mən Paul siz başqa millətlərdən olanlar uğrunda Məsih İsanın məhbusuyam.

*Efes. 3:1*

# Böyük pastor

**SUDAN:** PASTOR LUKA

**Pastor Luka Cənubi Sudandakı xidmətinə yenidən qayıtmaq üçün qaçqın düşərgəsindən çıxmazdan qabaq beş övladı və həyat yoldaşı ilə öpüşüb xudahafizləşdi. O, ailəsini üç ay idi ki, görmürdü, onun xidməti vətəndaş müharibəsindən və islam hökumətinin hücumlarından əzab çəkmiş ərazilərdən birində idi.**

Pastor Lukanın toplantısı heç bir məbəd binasında yığışmırdı, çünki bir çox binalar demək olar ki, iyirmi il Sudanda olan vətəndaş müharibəsi nəticəsində dağılmışdı. Onlar hər həftə üstündə oyularaq çarmıx şəkli olan böyük bir ağacın kölgəsində görüşürdülər. Pastor Luka oyulmuş çarmıxın yaxınlığında dayanıb vəz edəndə məbəd üzvləri ya yerdə otururdu, ya da ayaq üstə dururdular.

Əgər pastor Luka ailəsi ilə birlikdə qalsaydı, onlar hər gün birlikdə vaxt keçirərdilər. Əlbəttə, yardım edən işçilər qaçqın düşmüş sudanlılara yemək verməkdə davam edərək onların fiziki ehtiyaclarını ödəyəcəkdilər. Amma Allah Lukanı çağırmışdı ki, insanların ruhani ehtiyaclarının qayğısına qalsın. Əgər o getməsəydi, kim bu işi öz üzərinə götürərdi?

Luka elə bir ərazidə xidmət edir ki, əvvəllər orada heç bir məbəd fəaliyyət göstərməyib. O, müharibədən zərər çəkmiş ərazidə Allahın duz və nur olmaq əmrinə itaət edir. Pastor Luka üçün ailəsini qoyub getmək bəzən çətindir – ağrılıdır. Amma Allah onun qurbanını canlı və artan “ağac məbəd” ilə mükafatlandırıb.

*Allahın işi bəzən bizi sevdiklərimizdən ayırır. İsa özü otuz yaşı olanda xidmətinə başlamaq üçün ailəsini və yaşadığı yerdə tanıdığı bütün insanları tərk etmişdi. Əgər biz həyatlarımız üçün Allahın planlarını həyata keçirməliyiksə, onda həmin yol bizi çox vaxt tanıdığımız yerlərdən tanımadığımız yerlərə aparacaq. Səyahətimiz bizi sevdiklərimizdən, evimizdən, rahatlığımızdan və təhlükəsizliyimizdən ayırsa da, biz heç vaxt Məsihin sevgisindən ayrıla bilmərik. Onun sevgisi bizim daimi yoldaşımızdır və ona görə də biz heç vaxt tək deyilik. Siz eviniz, ailəniz, dostlarınız üçün darıxmısınızmı? Əgər siz həyatınız üçün Allahın iradəsini həyata keçirdiyinizə əminsinizsə, onda siz tapşırığınıza yapışmalısınız. Məsih sizin daimi yoldaşınız olacaq.*

Məsihin məhəbbətindən bizi
kim ayıra bilər?

*Roma. 8:35*

# Böyük televiziya vəzçisi

**VYETNAM:** K'B QARDAŞ

**İlk dəfə K'B qardaşın uşaqları onu televiziyada görəndə çox sevindilər. Onlar atalarının cinayətkar olduğunu elan edəndə isə onların sevinci yoxa çıxdı. Onlar iddia edirdilər ki, o, Vyetnam hökumətinə qarşı çoxlu "cinayətlər" törədib.**

K'B qardaşın "cinayətləri" bu idi ki, o, qeydiyyatdan keçməmiş ev toplantılarında Müjdəni vəz edirdi. Hökumət televiziyada onun üzünü göstərdi ki, onu utandırsın və başqaları da ondan özlərini qorusunlar. Eləcə də televiziyada və radioda onun polislə müsahibələri verildi, amma bu Müjdənin daha da yayılmasına yardım etdi. Bu, ona bir çoxlarını Məsihə gətirmək imkanı yaratdı. Bu qardaşı televiziyada görənlər ona imanı barədə suallar verdilər və o da onlara Məsih haqqında danışa bildi.

O izah etdi: "Onlar mənim üzümü televiziyada göstərdilər ki, insanlar məni tanıya bilsinlər. Mənim qonşularım deyirlər: 'Ailəni niyə tərk edirsən?' Mən onlara deyirəm ki, Allah onların qayğısına qalacaq. Mən getməliyəm. Məhsul hazırdır, amma işçilər isə azdır."

İctimai biabırçılığın K'B qardaşın xidmətini dayandırmadığını gördükdə növbəti dəfə vəz edərkən polis onu həbs etməklə hədə-qorxu gəldi. "Mənim həyat yoldaşım sevinir ki, adlarımız Həyat Kitabında yazılıb və mənim üzüm televiziyada şəhadətlik edir. Polis Müjdəni yaymağa kömək edir. Onlar məbədi bağlaya bilərlər, amma bizim şəhadətliyimizi isə yox."

*İmanlılar dirəyə mıxlana bilərlər, həbsxana kamerasında zəncirlənə bilərlər və ya bir nəfərlik kameralarda saxlanıla bilərlər. İmanlılar hətta ölə bilərlər. Amma Müjdə yaşamaqda davam edir. K'B qardaş bizə xatırladır ki, Müjdə məbəd binası, toplantı və ya hansısa bir imanlı deyil. Məbəd binası bağlana bilər. Toplantı ləğv oluna bilər. İmanlı həbs oluna və ya öldürülə bilər. Sizin məsihçilik barədə anlayışınız hansısa bir pastora, məbəd binasına və ya fəaliyyətə bağlanıbmı? Bütün bu zahiri formalar götürülsə də, sizin imanınız hələ də çiçəklənəcəkmi (məhdudiyyətlər qoyulmuş bəzi ölkələrdə olduğu kimi)? Bu məhdudiyyətlərə baxmayaraq, Allah Kəlamı hələ də qalır. İmanınızı yaşatmaq üçün K'B qardaşın etdiyi kimi siz də bir yol tapa bilərsinizmi?*

Bu Müjdə naminə zəncirə vurulmuş bir cinayətkar kimi əzaba qatlaşıram. Amma Allahın kəlamı zəncirlənməmişdir.

*2 Timotey 2:8-9*

# BÖYÜK SADİQLİK

**Rəbbin qulluqçusu olmaq imkanı bütün vaxtlarda və bütün yerlərdə mövcuddur. Qarşıdurma təsir göstərməməlidir. Ruhani olaraq bizim yeganə Rəhbərimiz var. O, bizim addımlarımızı təyin edir.**

Adanın üzərində kiçik təyyarədən Müjdə kitabçalarını tulladığına görə Kuba kommunist həbsxanasında əzab çəkmiş Tom Uayt



259-cu gün

# Böyük həkim

**RUMINİYA:** DOKTOR MARQARİTA PESKARU

**Kommunist ölkəsi Rumıniyada hər bir məhbusun həkimi olurdu, həkim çox vaxt istintaq zamanı iştirak edirdi və ölümə səbəb olmadan ağrı yaradan ən yaxşı metodları işgəncə verən şəxsə söyləyirdi. Amma bəzi həkimlər öz andlarına ciddi yanaşırdılar və kommunistlərin etdiklərinə nifrət bəsləyirdilər.**

Belə həkimlərdən biri gözəl məsihçi qadın, Marqarita Peskaru idi. Bütün tibb işçiləri həbsxanaya girəndə yoxlanırdılar, amma doktor Peskaru üzərinə böyük risk götürərək dəfələrlə içəriyə dərman keçirə bilmişdi. Onun fədakarlıq səyləri bir çoxlarının həyatını xilas etmişdi.

Bir dəfə onu, xüsusilə vərəm xəstələri üçün nəzərdə tutulmuş məhbus xəstəxanasına təyin etdilər. Bu müddət ərzində kommunistlər kişiləri "yenidən tərbiyələndirənlər" kimi təyin etmişdilər, bu insanlar məhbusu inandığı hər bir şeydən döndərməkdə istənilən vasitədən istifadə edir və onların kommunizmə tamamilə sadiq qalmalarını söz vermək üçün məcbur edirdilər.

Onlar çox qəddar insanlar idilər və bir çox məsihçilər onların verdikləri işgəncələrə tab gətirməyib ölmüşdülər. Doktor Peskaru eşidəndə ki, onlar vərəm xəstələri üzərində öz dağıdıcı işlərini həyata keçirmək üçün məhbus xəstəxanasına gəliblər, o, ağlasığmaz bir iş gördü. O, bütün həbsxanalar üzrə ən böyük rəhbərlərin yanına getdi və köməksiz məhbusların işi barədə müraciət etdi. Heç kim bilmir ki, doktor Peskaru rəhbərlərin rəğbətini necə qazandı.

Onun cəsarətlə etdiyi səylərə görə Rumıniyada kommunizmin hökmranlıq etdiyi müddətdə "yenidən tərbiyələndirənlər"in günahsız insanlara işgəncə verməsi dayandı.

*Bu fellər arasında nə fərq var: səy göstərmək, səy göstərilib. İrəliyə doğru getməklə sakit qalmaq arasında fərq var. Bu iş məsihçilərin Məsihin Müjdəsinə diqqətlərini cəmləyəndə etdikləri işdir. İmanlılar, hətta uğursuzluqla qarşılaşsalar da, həmişə səy göstərməlidirlər. Bu doğrudur! Biz əgər səy göstərməsək, heç vaxt nə baş verəcəyini bilmərik. Ola bilsin ki, işdə, evdə və ya cəmiyyətdə Müjdəni yaymaqla əlaqədar bizə gələn yaradıcı ideyaları tez gözdən qaçırırıq. Biz düşünürük ki, onlar heç vaxt alınmazlar. Biz özümüzü inandırırıq ki, qarşıdurma həddən artıq güclü olar. Amma biz səy göstərməsək, biz buna əmin ola bilməyəcəyik. Bu gündən başlayaraq, Məsihə itaət etməyə səy göstərəcəksinizmi?*

Mən də...sonra qanunu pozub padşahın yanına girəcəyəm. Buna görə ölməliyəmsə, qoy ölüm.

*Ester 4:16*

# Böyük divar kağızı

**KOREYA:** ROBERT C. TOMAS

**1863-cü ilin iyul ayında Robert C. Tomas və həyat yoldaşı ilk müjdəçi olaraq Koreyaya getdilər. Tomas oraya gedən kimi həyat yoldaşı öldü. 1866-cı ildə Koreyada bir neçə ay müjdəçilik edən və dili öyrənən Tomas *General Şerman* – Amerika gəmisi ilə Taydonq çayı boyunca müasir dövrdə Şimali Koreyanın paytaxtı olan əraziyə gəlib çıxdı. Gəmi quma oturdu. Koreya əsgərləri şübhələndilər və qorxdular. Onlar əllərində uzun, tiyəsi parıldayan bıçaqları yelləyərək gəmiyə mindilər.**

Tomas göröndə ki, onu öldürəcəklər, Koreya dilində olan Müqəddəs Kitabını çıxarıb, onlara "İsa, İsa" dedi. Onun başı kəsildi.

Tomasın ölümündən iyirmi beş il sonra kimsə həmin ərazidə kiçik qonaq evini aşkar etdi, onun içində qəribə divar kağızı var idi. Kağızın üzərində Koreya heroqlifləri çap olunmuşdu. Evin sahibi izah etdi ki, o, bu kitabın səhifələrini yazıları qorumaq üçün divara yapışdırıb. Sahib və bir çox qonaqlar gəlib "divarları oxuyurdular". Bu, Tomasın onu öldürən şəxslərə verdiyi Müqəddəs Kitab idi.

Bu gün həmin ərazidə kommunistlər hökmranlıq etsələr də, məbəd yaşayır. "Müvəqqəti müjdəçilik" adlanan Robert C. Tomasın işi Şimali Koreyada davam edir, indi Allah Kəlamı təkcə onların divarlarına yapışdırılmayıb, eləcə də ürəklərində gizlənib.

*Təsəvvür edin ki, yazda bağ-bostan əkirsiniz, amma yayda köçüb gedəcəksiniz. Pomidor, bibər və qarpız toxumları üçün sərf edilən vaxt, eləcə də əkmək, alaq eləmək və sulamaq səyləri sanki əbəs yerədir. Eyni şey bizim Məsihə görə etdiyimiz şəhadətlik üçün deyilə bilər. Burada risklər bir səbət pomidordan daha yüksəkdir. Öz zəhmətimizin bəhrəsini görməyin dəyəri olmadan ağır işimizin qiymətləndiriləcəyinə və ona hörmət bəslənəcəyinə etibar etmək çətindir. Yadda saxlayın, Allah, hətta bizi başqa yerə köçürsə də, bizim başladığımız işi davam etdirəcək. Başqasının qulluq etməsi üçün hansı bağı tərk etməlisiniz?*

Mən əkdim, Apollo suladı, amma Allah böyütdü. Buna görə də mühüm olan əkən, ya da sulayan deyil, əkiləni böyüdən Allahdır.

*1 Kor. 3:6-7*

# Böyük dəyanət

**ROMA İMPERİYASI:** BLANDİNA

**Blandina Allahın qüdrəti ilə dolu olan bir qulluqçu idi. Ona gecə-gündüz növbə ilə əzab verənlər, nəhayət, bu işdən əl çəkdilər. Əslində, onun işgəncələri Blandinanın imanını sanki daha da gücləndirirdi. O, cəsarətlə imanını bəyan edirdi: "Mən məsihçiyəm; biz utanmayacağıq."**

Blandina Roma imperatoru Markus Aurelius Antoniusun (b. e. 161-170-ci illərində) hakimiyyəti dövründə təqib olunmuşdu. Bu dövr məsihçilərin öz əzablarının ciddi hesabatını apardıqları bir dövr idi. Onlar təqiblərdə dəyanətli qalacaq başqa imanlıları ruhlandırmağı ümid edirdilər.

Blandinanı dirəkdən asdılar, amma o, buna dözdü, onun işgəncələrinə şahid olan insanları ruhlandırdı. Bu ssenaridən sağ çıxdıqdan sonra onu Pontikus adlı on beş yaşlı məsihçi oğlanla birlikdə şirlər olan meydana çıxardılar. Pontikus onun nümunəsindən ruhlandı. Blandina vəhşi heyvanların qarşısında özünü ümidsiz göstərmədi, amma "sanki toy ziyafətinə çağırılmış bir insan kimi sevinib şadlanırdı."

Blandinanı iki dəfə ac şirlərin qabağına tulladılar, amma şirlər ona toxunmadı. Bundan sonra o, həbsxanaya sağ-salamat qayıtdı. O, nəhayət, "şirlər tərəfindən parçalandı, qamçılandı, torun içərisinə salınıb vəhşi öküz tərəfindən ora bura çırpıldı və çılpaq halda qızmar metal stula otuzduruldu." Amma o, yenə sağ çıxdı və ətrafında olan bütün insanları imanlarında möhkəm qalmağa ruhlandırdı. Nəhayət, Blandinanı imandan döndərə bilmədiklərinə görə qılınc ilə öldürdülər.

*Məsihçi şəhadətliyi ilə əlaqəli olmasa da, sanki canımızı qurtara bilmədiyimiz olduqca çətin vəziyyətlər var. Evdə çətin tərbiyəli uşağı böyütmək. Çətin işçilərin yanında işləmək. Çətin həyat tərzi. Elə vaxtlar olur ki, biz gərginliyə artıq dözə bilməyəcəyimizi düşünürük və təslim olmaq istəyirik. Hər nə cür vəziyyət olursa olsun, Allah bizə dözüm və güc verir ki, bizə tapşırdığı işi həyata keçirə bilək. Allah Blandinadan işgəncəyə dözməyi xahiş etmişdi. O, bizdən valideynlik məsuliyyətimizdə, iş yoldaşlarımız ilə üzləşmədə və ya hansısa qeyri-mümkün tapşırıqda Ondan kömək diləməyimizi istəyir. İsanın adını nümayiş etdirməklə biz Onun üçün şəhadətlik edə bilərik. Bizim ssenarilərimizdən asılı olmayaraq, Allah bizimlədir, bizə səbir və sevinc verir. Yalnız bizim lütfkar Allahımızdan gələn bu böyük dəyanətə hansı sahələrdə ehtiyacınız var?*

Hər şeyə dözərək səbir edə bilməniz üçün....möhkəmlənəsiniz, müqəddəslərin nurda olan irsinə şərik olmanız üçün sizə səlahiyyət verən Ataya sevinclə şükür edəsiniz.

*Kolos. 1:11-12*

# Böyük oğru – birinci hissə

**RUSİYA:** NİKOLAY KAMARA

**Nikolay Kamara soyğunçuluğa görə ittiham edilərək on il müddətinə həbs olunmuşdur. Kamara məsihçilərə baxırdı və onların nə cür varlıqlar olduğunu düşünürdü, amma onlar əzablarına baxmayaraq sevinc içində idilər və çətin vaxtlarda mahnı oxuyurdular. Onların bir tikə çörəkləri olanda onu çörəyi olmayan insanla bölüşürdülər. Onlar kiməsə danışanda üzləri nur saçırdı.**

Bir gün məsihçilər Kamara ilə birlikdə oturub ondan başına gələnləri soruşdular. Kamara onlara kədərli taleyindən danışdı və dedi: "Mən yolunu azmış bir insanam."

Məsihçilərdən biri üzündə təbəssüm Kamaradan soruşdu: "Əgər kimsə qızıl üzüyünü itirsə, həmin qızıl üzük itəndə onun dəyəri nədir?"

"Necə də ağılsız bir sualdır! Qızıl üzük elə qızıl üzükdür. Sən onu itirdin, başqa birisi onu tapacaq."

"Çox gözəl cavabdır" – deyə, məsihçi cavab verdi. "İndi mənə de görüm, yolunu azmış insanın dəyəri nədir?" Yolunu azmış insanın, hətta oğrunun, zinakarın və ya qatilin böyük dəyəri var. O qədər dəyəri var ki, Allah Oğlu göylərdən yerə enib onu xilas etmək üçün çarmıxda ölmüşdür."

Məsihçi quldura dedi: "Siz, ola bilsin ki, azmısınız, amma Allahın sevgisi sizi tapa bilər." Bunu eşidən Kamara həyatını Məsihə verdi.

*Dəyər necə ölçülür? Adətən, insanın vaxt, pul və emosiya sərfi ilə. İnsanın əmlaka, fəaliyyətə və ya ünsiyyətə qarşı münasibəti həmin şəxsin onu necə dəyərləndirməsi ilə ölçülür. Məsələn, köhnə iş paltarlarına olan münasibət ilə təzə kostyuma olan münasibət arasında fərqə diqqət yetirin. Kağız materialdan olan stəkan ilə büllur piyalə arasındakı fərqə diqqət yetirin. Dəyərli bir şey itəndə və ya əzizlərimizə nəsə olanda biz nə qədər göz yaşı tökürük. Yaxşı, insanlar dəyərlidirlərmi? Bəs siz necə, dəyərlisinizmi? Məsihçilərin Kamaraya dediyi kimi, onun dəyəri o qədər çoxdur ki, İsa onun azmış və üsyankar varlığı üçün göylərdən enib çarmıxda ölmüşdür. Allah onları çox sevir. Siz sevilirsiniz; siz dəyərlisiniz. Sevinin və ətrafınızda olan "əzizlərinizə" bu xoş Müjdəni paylayın.*

Lakin Allah bizə olan məhəbbətini bununla sübut edir ki, biz hələ günahkar ola-ola Məsih bizim uğrumuzda öldü.

*Roma. 5:8*

# Böyük oğru – ikinci hissə

**RUSİYA:** NİKOLAY KAMARA

**Nikolay Kamara həbsxanaya bir oğru kimi getdi, amma məsihçi kimi çıxdı. O, azadlığa buraxılandan sonra Rusiyada gizli toplaşan məbədə qoşuldu.**

Bir müddətdən sonra Kamaranın məbədinin pastoru həbs olundu. Məmurları ona işgəncə verdilər. Onlar ümid edirdilər ki, o, məbədi ələ verər, amma o, heç nə demədi. Sonra onlar Nikolay Kamaranı həbs etdilər. Onlar Kamaranı pastorun qarşısına gətirdilər və dedilər: "Əgər sirləri deməsən, biz sənin qarşında Kamaraya işgəncə verəcəyik."

Pastor ona görə kiminsə əzab çəkməsinə dözə bilməzdi. Amma Kamara ona dedi: "Məsihə sadiq qalın və ona xəyanət etməyin. Mən İsaya görə əzab çəkməyə razıyam." Sonra onlar Kamaranın gözlərini çıxardılar.

Pastor buna dözə bilmədi. O, Kamaraya qışqırıb dedi: "Mən buna necə baxa bilərəm? Sən axı, kor qalacaqsan!"

Kamara cavab verdi: "Mənim gözlərim məndən götürüləndə bu gözlərimlə gördüyümdən daha çox gözəllik görəcəyəm. Mən Xilaskarımı görəcəyəm. Siz axıradək Məsihə sadiq qalmalısınız."

İstintaq edənlər pastora deyəndə ki, Kamaranın dilini kəsəcəklər, onda Kamara cavab verdi: "Rəbb İsa Məsihə izzət olsun. Mən söylənilə bilən ən ali sözləri dedim. Əgər istəyirsinizsə, indi mənim dilimi kəsə bilərsiniz." Keçmiş oğru məmurlardan bir imkan oğurladı. O, şəhid kimi öldü.

*Kamaranın hekayəsi Allahın padşahlığı ilə şeytanın padşahlığı arasındakı ziddiyyətlərdə olan bir dərsdir. Müqəddəs Kitab bizə şeytanın padşahlığının üzvləri kimi oğurlayanları, öldürənləri və məhv edənləri necə tanımağı öyrədir. Kamaranın vəziyyətində düşmən onun görməsini oğurladı, nitqini məhv etdi və nəhayət, onu öldürdü. Bunun əksi olaraq, İsanın padşahlığı həyatdır – bol həyatdır. Belə ki, İsa Kamaraya yeni həyat verdi və keçmiş oğrunu saleh etdi. İki padşahlıq bir-biri ilə çəkişmədədir və həyatlarımız talan olunur. Kamaraya iki imanlı şəxs Allahın padşahlığına necə qoşulmağı öyrədəndə o, digər tərəfə keçdi. Başqalarını Allahın padşahlığına gətirmək üçün siz nə edirsiniz?*

Oğru yalnız qarət etmək, öldürmək və tələf etmək üçün gəlir. Mən isə gəldim ki, onlar həyata, bol həyata malik olsun.

*Yəhya 10:10*

# Böyük tərcümələr – birinci hissə

**İNGİLTƏRƏ:** MƏSİHÇİ DUL QADIN

**Altı kişi və bir dul qadın İngiltərədəki məbədə qarşı böyük cinayət etdikləri üçün mühakimə olunurdu. Onlar ingilis dilində uşaqlarına Rəbbin Duasını və On Əmri öyrətmişdilər.**

1519-cu ildə İngiltərədə Müqəddəs Kitabın təlimi üçün yeganə icazə verilən dil latın dili idi. Amma insanlar ingilis dilində danışırdılar. İmanlılar gizlicə Kəlamın bəzi hissələrini ingilis dilinə tərcümə etmişdilər və ehtiyatla evlərə paylamışdılar. Amma indi onlar tutulmuşdular və dirəyə bağlanaraq camaat qarşısında yandırılacaqdılar.

Məhkəmə yeddi məhbusdan biri olan dul qadına mərhəmət göstərdi və onun azad olunmasına icazə verildi. Heç kim buna etiraz etmədi, çünki onun əri yox idi və evdə yeddi uşağı qalmışdı.

Simon Morton adlı bir mühafizəçi dul qadını evə yola salmaqda kömək etdi. Simon qadının qolundan tutaraq onu aparanda paltosunun qolunun içindən şıx-şıx səsi gəldi. O, dul qadının paltosundan ingilis dilində tərcümələri çıxardı, onlar həmin bu tərcümələrdən istifadə edərək uşaqları öyrədirdilər. Baxmayaraq ki, o, indicə ölüm cəzasından canını qurtarmışdı, tərcümələrdən ayrılmaq istəmədi. O, düşünürdü ki, uşaqlarının hələ də Allah Kəlamının həqiqətini bilməyə ehtiyacı var. Onun taleyi indi möhürləndi.

Bu hadisədən qısa müddət sonra altı kişi və cəsur dul qadın üç taxta dirəyə bağlanıb diri-diri yandırıldılar.

*Biz rəqəmli dünyada yaşayırıq, evlərimizə siqnalizasiya sistemi qoşuruq. Bizim dəyərləndirdiyimiz şeylər aydındır – evlərimiz və bizə məxsus olan şeylər o qədər qiymətlidir ki, onları itirməkdən qorxuruq. Amma on altıncı əsrdə yaşayan məsihçilər üçün Kəlam ən qiymətli bir şey idi. Bu hekayədə olan inadcıl dul qadın kimi, onlar Müqəddəs Kitabın adi hissələrini öz həyatları bahasına layiq bilmişdilər. Vaxt dəyişsə də, Allah Kəlamının dəyəri dəyişməyib. Bizim həyatlarımız hələ də başqalarına Allah Kəlamının qiymətli olduğunu nümayiş etdirməlidir – baxmayaraq ki, biz belə etməklə ölən deyilik. Başqaları sizin Kəlamı nə qədər çox və ya az qiymətləndirdiyinizi bilirlərmi? Onlar Allah Kəlamının şəxsi dəyərinin həyatınızda olduğunu deyə bilərlərmi?*

Ağzından çıxan qanun mənim üçün
minlərlə qızıldan, gümüşdən daha
qiymətlidir.

*Məzmur 119:72*

# BÖYÜK SADİQLİK

**Məsihçi müjdəçilər hesabat verməlidirlər və mütləq yoxlanılmalıdırlar, çünki onlar imperializmin aləti kimi istifadə olunan hiyləgər canavarlardır.**

Şimali Koreya dövləti tərəfindən xalqa bildirilən açıq xəbərdarlıq



266 gün

# Böyük tərcümələr – ikinci hissə

## İNGİLTƏRƏ: UİLYAM TİNDAL

**"Axı, Tindal müəllim, siz razılaşmalısınız" – deyə, teologiya üzrə alim ona istehza etdi. "İnsanların Müqəddəs Kitabda Allahın öz qanununu anlaya bilmələrindənsə, məbədin qanunları ilə yaşamaqları daha yaxşıdır!"**

Uilyam Tindal bu sözlərini eşidəndə yaman hirsləndi. "Mən kahinlərə və onların qanunlarına tabe olmuram! Əgər Allah mənə yaşamağa imkan versə, onda kotan sürən hər bir oğlanın Kəlamı bu kahinlərdən daha yaxşı bilməsi çox da gec olmayacaq!" Onun bu sözləri Tindal ilə qurulmuş məbəd arasında narazılıq yaratdı. O, tezliklə İngiltərədən qaçıb bir adaya getdi, burada o, ingilis dilində Əhdi-Cədidin "qeyri-qanuni" versiyasını buraxdı.

Neçə illər Tindalın kiçik Əhdi-Cədidləri alman gəmiləri vasitəsilə pambıq topalarında o biri ölkələrə keçirildi, buradan kitablar gizlicə İngiltərəyə aparılırdı. Amma Tindal "dostu", Henri Filips tərəfindən ələ verildi və kafirliyə görə ittiham olundu.

Uilyam Tindal edamını gözləyərək həbsxanada bir ildən artıq qaldı. Belə güman edilir ki, o, ingilis dilində Əhdi-Cədidin tərcüməsini bitirmişdi. 1536-cı ilin oktyabr ayında dirəkdə yandırılmazdan qabaq onun son sözləri bunlar olmuşdu: "Rəbbim! Kralın gözlərini aç!"

Allah bu duaya cavab verdi. Tindalın ölümündən bir il sonra monarxiya qanuni şəkildə ilk dəfə Müqəddəs Kitabın çap olunmasına icazə verdi. Yetmiş beş il sonra "*King James Authorized Version*" ortalığa çıxdı. Bu gün Müqəddəs Kitabın "*King James*" versiyası Tindalın tərcüməsinə təqribən doxsan faiz sözbəsöz uyğundur.

*Qarşıdurma uğursuzluğa bərabər deyil. Bəzən bu, sadəcə əkslik deməkdir. Bəzən ən xoş məramlı həmkarlarımız xidmət üçün bizim məqsədimizə qarşı dura bilər. Biz onların tənqidlərini eşidib geriyə çəkilə bilərik və öz çağırışımızı şübhə altına sala bilərik. Allah Tindala verdiyi kimi, bizə xidmətimiz üçün məqsəd verəndə fikir ayrılıqlarına baxmayaraq, tapşırığımıza sadiq qalmalıyıq. Tənqid bizi ruhdan salmamalıdır – bu, məqsədimizi yaxşılaşdırmaq üçün bizi irəliyə doğru aparmalıdır. Allah xidmət üçün sizə məqsəd veribmi? Tindal kimi siz də zəhmətinizin nəticələrini hansısa bir müddət və ya heç vaxt görməyə bilərsiniz. Bu müddət ərzində sizi danlaya bilərlər. Siz yenə də tapşırığa sadiq qalın və Allah tənqidi yoluna qoyacaq.*

Sənin uğrunda üzərimə
rüsvayçılıq töküldü.

*Məzmur 69:7*

# Böyük cəsarətə malik uşaqlar

**ŞİMALİ KOREYA:** ÇENQ Lİ VƏ HONQ CUN

**Kommunistlər şimali koreyalı uşaqlara deyirlər ki, əgər Çində ələ keçsələr, onlar acı talelərinə görə əzab çəkəcəklər. Amma uşaqlar eləcə də bilirlər ki, əgər qaçmağa müvəffəq olsalar, kömək üçün üstündə çarmıx şəkli olan binanı axtarmalıdırlar. Çin məbədinə gəlib çıxmış iki şimali koreyalı uşaq öz başlarına gələnləri pastora danışdılar.**

"Mənim adım Çenq Lidir. Bacım və mən valideynlərimizin acından öldüyünü gördük. Biz Yalu çayını keçə bildik, çay hələ donmuşdu. O biri tərəfə keçəndə mənim böyük bacım dedi: 'Sən burada qal. Mən özüm bir az qabağa getməliyəm.' O, heç vaxt geriyə qayıtmadı." Çenqin altı yaşı var.

On bir yaşlı oğlan Honq Cun dedi: "Mən Şimali Koreyaya qayıdıb başqalarına Məsih haqqında danışmaq istəyirəm." Sonra o, bir mahnı oxudu:

Ya Rəbb, sevdiyin sevimli qardaşlarımız üçün

Bizə müjdənin səsini ver,
Onlar haraya gediblər? Rəbb onlara baxır.
Ya Rəbb, bizi sevimli koreyalı qardaşlarımızın yanına göndər.
Ya Rəbb, bizi sevimli koreyalı qardaşlarımızın yanına göndər.
Onlar harada olursa olsunlar, qoy gül kimi çiçək açsınlar.

Bir neçə ay sonra Honq Cunu kənddən oğurlayıblar və zorla Şimali Koreyaya qaytarıblar. Ola bilsin ki, oğlan indiyə qədər onu əsir saxlayanlara şəhadətlik edir.

*Cəsarət elə bir şeydir ki, vəziyyət onu tələb edənədək insanlar onun özlərində olduğunu bilmirlər. Lazım olan ən həlledici bir anda insanlarda cəsarət ya olur, ya da olmur. Eyni şeyi xasiyyət üçün demək olar – müəyyən vəziyyətlər bizə dəqiq göstərəcək ki, biz cəsarətə malikik, yoxsa yox. Nəticədə saxtalaşdırmaq mümkün olmayan iki şey xasiyyət və cəsarətdir. Xoşbəxtlikdən İsa Məsih ən çox ehtiyac duyduğumuz vaxtda bizə dəyişilməz cəsarət və şübhəsiz xasiyyət verir. Biz cəsarət görkəmini geyinə bilərik, amma yalnız İsa bizi cəsarətli edə bilər. Bizim gözəl ictimai nüfuzumuz ola bilər, amma bizə heç kimin baxmadığı vaxtlarda xasiyyəti yalnız İsa verə bilər. Həyatınızda xasiyyət və cəsarət hansı yerlərdə işləyir?*

Onlar Peter və Yəhyanın cəsarətini görəndə... heyrətə düşdülər, amma tanıdılar ki, onlar İsa ilə birgə olmuşdular.

*Həv. İş. 4:13*

# Başqa böyük işıq

**PAKİSTAN:** ZAHİD

**Zahid pakistanlı müsəlman axund idi. O, məsihçilərə pusqu qurmuşdu və onların Müqəddəs Kitablarını yandırmışdı. Bir dəfə o, Müqəddəs Kitablardan birini özündə saxladı və məsihçiliyin yalan olduğunu sübut etmək üçün onu tədqiq etməyə başladı.**

"Mən məsihçi imanına qarşı istifadə edə biləcəyim ziddiyyətlər axtarmaq məqsədilə Müqəddəs Kitabı oxudum" – deyə, Zahid bölüşdü. "Qəfildən böyük bir işıq otağımı doldurdu və eşitdim ki, kimsə adımı çəkir. Nur bütün otağı işıqlandırmışdı.

"Zahid, sən məni niyə təqib edirsən?" – deyə, həmin səs məndən soruşdu.

"Mən qorxdum. Bilmədim, nə edim. Mən soruşdum: 'Sən kimsən?'

'Yol, Həqiqət və Həyat mənəm.' Növbəti üç gecə həmin işıq və səs yenə də qayıtdı. Dördüncü gecə mən diz çökdüm və İsanı Xilaskarım kimi qəbul etdim."

Məsihçiliyi qəbul etmiş Zahid həbs edildi və islama satqın çıxan bir insan kimi ittiham olundu. O, iki il həbsxanada işgəncələrə məruz qaldı və nəhayət, ona ölüm hökmü verildi. Zahidin boynuna ilgək keçiriləndə o, onu edam edənlərə dedi: "İsa Yol, Həqiqət və Həyatdır." O istəyirdi ki, son nəfəsi öz həmvətənlərini xilas etmək üçün istifadə olunsun.

Sonra qəfildən mühafizəçilər qaça-qaça gəlib dedilər ki, edam dayandırılmalıdır və Zahid azadlığa buraxıldı. Zahidin ölüm hökmünün niyə ləğv olunduğunu heç kim bilmir, amma bu gün Zahid bir müjdəçi kimi Pakistanda səyahətini davam etdirir.

*Ölümlə üzləşmiş insanlar, adətən, eyni sözləri söyləyirlər. Onlar belə qərara gəlirlər ki, həyatlarını uzatmaqda Allahın öz məqsədi var idi. Əfsuslar olsun ki, televiziya müsahibələri nadir hallarda məqsədin nə olduğunu yenidən açıqlayır! Onlar Allahın məqsədini həyatlarında aşkar etdilər, yoxsa yox? Əslində, Allahın hər birimizin həyatı üçün eyni məqsədi var. O istəyir ki, biz Onu tanıyaq və başqalarına tanıdaq. Zahid kimi bəziləri Allahı tanıtmaq üçün xüsusi yerlərə gələrək özünəməxsus həyat təcrübələrindən keçə bilər. Amma bizim tapşırığımız, əsasən, eynidir. Heç hiss etmisinizmi ki, Allah sizi bu yer üzünə xüsusi bir səbəbə görə gətirib? Bu, Onu tanımaq – və başqalarına tanıtdırmaqdır.*

İsa ona dedi: "Yol, həqiqət və həyat Mənəm. Mənim vasitəm olmadan heç kim Atanın yanına gələ bilməz."

*Yəhya 14:6*

# Böyük güc

**ROMA:** VİNSENT

**Romalı məsihçi Vinsent çiyinlərinin yerindən və budlarının oynaqlarından çıxdığını hiss edənədək biləklərində və topuqlarında olan kəndirlər daha da çox dartılırdı.**

Dekius Roma imperatoru Vincentin bağlandığı işgəncə alətinin yanında durmuşdu. "Sən dəhşətli bir əzab içində öləcəksən" – o gənc məsihçiyə söylədi.

"Ölüm şəhid olmaqdan daha şərəfli bir şey deyil" – Vincent əminliklə padşaha dedi. "Mən göyləri görürəm və sənin bütlərinə nifrət edirəm."

Zalım padşah indicə şikəst olmuş məsihçiyə işgəncə verilməsini əmr etdi. Amma onlar Vinsentin üzündəki gülüşü ondan ala bilmədilər. O, ağrı içində imperatora dedi: "Sən yalnız mənim bədənimi məhv edirsən, onsuz da bir gün o, məhv olacaqdı. Mənim daxilimdə başqa bir Vinsent yaşayır və onun üzərində sənin heç bir səlahiyyətin yoxdur. Həmin Vinsent işgəncə alətinin üzərinə qoyula bilməz və öldürülə bilməz." Vinsent ölümü təbəssüm ilə qarşıladı.

Nəhayət, romalı əsgərlər onu işgəncə alətindən ayırdılar, amma onun işgəncələri hələ bitməmişdi. Onlar Vinsentin paltarlarını çıxarıb həbsxanaya atdılar, burada döşəmə sınıq şüşə parçaları ilə örtülmüşdü. Dayana bilməyən Vinsent şüşələrin üstünə uzanmağa məcbur oldu. Orada da Allahın sülhü onunla idi. Sonralar mühafizəçilər imperatora dedilər ki, Vinsent sınıq şüşə parçalarının üstündə sanki "gül-çiçək yatağında" dincəlirdi.

*Müasir mədəniyyətdə güc-qüvvət səlahiyyət və idarə ilə əlaqəlidir. Güc zahirən vacib görünmək üçün yetişdirilir və saflaşdırılır. Amma tarix göstərir ki, sadə gücə malik insanlar öz vəzifələrini yerinə yetirmək üçün daxili güc olmadan səmərəsizdirlər. Buna zidd olaraq, Allah bizim daxili gücümüzü Müqəddəs Ruhun hüzuru vasitəsilə istiqamətləndirir. Əzab onun sinif otağıdır, burada O, bizə necə güclü olmağı öyrədir. Biz təsəvvür etdiyimizdən artıq dözə bilirik. Biz öz gücümüzdən artıq dərəcədə cəsarətliyik. Siz elə hiss edə bilərsiniz ki, sanki əzablarınız sizi zəiflədib. Əslində, Allahdan xahiş edin ki, əzabların sizi necə güclü etdiyini göstərsin. Əzələlərinizi yoxlayın. Siz görəcəksiniz ki, düşündüyünüzdən qat-qat güclüsünüz.*

Hər şeyə dözərək səbir edə bilməniz üçün Onun izzətli qüvvəsinə güvənərək hər cür qüdrətlə möhkəmlənəsiniz.

*Kolos. 1:11*

# Böyük əsgərlər

## ROMA İMPERİYASI: QIRX SADİQ KİŞİ

**İmperator Konstantin b.e. 320-ci ilində Roma imperiyasında məsihçiliyi qanuniləşdirdi. Amma imperiyanın şərq yarımhissəsini idarə edən Likinius Qərbə sadiqliyi pozub məsihçiliyə təzyiq göstərməyə davam etdi.**

Likinius öz tabeçiliyində olan hər bir əsgərdən tələb edirdi ki, Roma allahlarına qurban gətirsinlər. "Guruldayan Legion"dan olan qırx məsihçi kişi bundan imtina etdi. Onların generalları Laysias əsgərləri qamçılatdırdı, qarmaqlar ilə bədənlərini cırıq-cırıq etdi və sonra qandallayaraq həbsxanaya saldı. Onlar diz çökməkdən yenə də imtina edib Allaha ibadətdən əl çəkməyəndə o, əmr etdi ki, onların paltarlarını çıxarıb donmuş gölün ortasına qoysunlar. Belə etməklə onları fikirlərindən döndərmək istəyirdilər.

Əgər onlardan hansısa biri öz əqidəsindən əl çəksəydi, isti hamama aparılacaqdı. Kişilər dua etdilər ki, heç biri bu yoldan dönməsin. Amma hava qaranlıqlaşanda onlardan biri artıq soyuğa dözə bilmədi və isti hamama qaçdı.

Qırx qoçaq əsgərin Məsihə mahnı oxumasına baxan mühafizəçilərdən biri hirsləndi. Onun hirsi əminliyə, sonra isə imana çevrildi. O, əsgərlərin "Məsih üçün qırx qoçaq əsgər" vədini yerinə yetirərək öz paltarlarını cırıb buzlu gölə cumdu.

Həmin gün qırx əsgər öldü. İsti hamama görə imandan dönən o biri əsgər də öldü.

*Məsihçi cəmiyyəti yekdilliklə hərəkət edən özünü həsr etmiş bir neçə fərddən ibarətdir. İstər bu, məsihçi institutu olsun, istər məsihçi xidməti olsun, istər məbəd, istərsə də ailədə olsun, qardaşlıq və bacılıq dəstəsi güc hesab edilməlidir. Biz birlikdə dayananda həmişə daha güclü oluruq. Bütün Kəlam boyunca Allah bizi səsləyir ki, həsr olunma cəmiyyəti ilə – iman ailəsi ilə birlikdə olaq. Sayı artırmaq prinsipinə görə deyil, məsihçi cəmiyyəti öz üzvlərini imanla ruhlandırır. Bu hekayədə olduğu kimi güclülər zəiflərin əvəzini ödəyir. Siz məsihçi cəmiyyətinizi tapmısınızmı? Ödəniləcək bütün dəyərlərə baxmadan məbədinizi, ailənizi və ya başqa qrupu sevginizə və sadiqliyinizə inandırmısınızmı?*

Məsih İsanın yaxşı əsgəri kimi
mənimlə birgə əzaba qatlaş.

*2 Timotey 2:3*

# Böyük gözəllik

**SANKT-PETERBURQ:** AİDA SKRİPNİKOVA

**"Həbsxanada ən çətin şey Müqəddəs Kitabsız yaşamaq idi."**

Aida Skripnikova gözəl bir gənc qız idi. İyirmi yaşlı bu qız Sankt-Peterburqun küçələrində tinlərdə dayanıb İsaya olan sevgisini, eləcə də Onu Rəbbi, Xilaskarı kimi tanımağın sevincini bildirərək şeirlər paylayırdı. O, tezliklə həbs olundu, baxmayaraq ki, ona bir illik həbs cəzası verilmişdi, o, ittihamlarda qəti mövqedə qaldığını sübut etdi.

Sonralar Aidanın iyirmi yeddi yaşı olanda Müjdə uğrunda dördüncü dəfə həbsxanaya düşdü. O, açıq danışmaqda davam edirdi, nəşrlərin birində o, belə deyirdi: "Biz həyatımızın tam mənasını təşkil edən – Məsih haqqında sakit qala bilmərik."

Onun dördüncü dəfə həbsxanada qalması çox çətin oldu. Mühafizəçilər həmişə çalışırdılar ki, onun imanını müxtəlif şeylərlə təhrifə uğratsınlar, onu gah təhqir edirdilər, gah da şokolad təklif edirdilər. Amma onun üçün ən çətin şey Allah Kəlamı olmadan yaşamaq idi. Onun Kəlamdan olan nüsxələri müsadirə olunmuşdu. Bir cəza kimi bir nəfərlik kamerada on gün qalmışdı.

O, nəhayət, azadlığa buraxılanda Aidanı tanımaq çox çətin idi – valehedici gözəlliyi itmişdi və o, olduqca yaşlı görünürdü. Amma Allaha olan sevgisi onun təbəssümü ilə parlayırdı və daxilindəki gözəlliyi bərpa edirdi.

*Bir çox ərzaq mağazalarında gözəllik kremlərinin sayı tərəvəz konservlərinin sayından çoxdur. Kosmetika silsiləsi zahiri görünüşü təravətləndirməyi və bərpa etməyi vəd edən formullar ilə doludur. Kaş ki biz zahiri görünüşümüz barədə narahat olduğumuz kimi, daxili xarakterimiz barədə də narahat olaydıq. Şəhidlər daxildən özümüzün həqiqətən kim olduğumuzu qiymətləndirməyi öyrədir. Daxili varlığımız. Bu, elə bir şəxsiyyətdir ki, əzablar nə qədər çox olsa da, qorxuya düşməz. Bu şəxsiyyət Məsihin surətinə bənzəyərək inkişaf edir. Siz dünyəvi standartlara uyğun olaraq başqalarına təsir göstərmək istəyərdiniz. Amma Allah düşünür ki, sizin daxili varlığınız daha valehedicidir. Siz zahiri görünüşünüzə diqqət yetirdiyiniz kimi, daxili xarakterinizə də eləcə diqqət yetirirsinizmi? Siz yaşa dolduqca daxili varlığınız hansı yollarla daha da gözəlləşir?*

Qoy sizin bəzəyiniz...gizli olan daxili varlığınız, həlim və sakit ruhun solmayan gözəlliyindən ibarət olsun. Bu, Allahın qarşısında çox dəyərlidir.

*1 Peter 3:3-4*

# BÖYÜK SADİQLİK

**Mən Allahdan güc istədim –**
**Allah məni güclü etmək üçün**
**çətinliklər verdi.**
**Mən Allahdan müdriklik istədim –**
**Allah mənə həll etmək üçün problemlər**
**verdi.**
**Mən Allahdan xoş güzəran istədim –**
**Allah mənə işləmək üçün beyin və əzələ**
**verdi.**
**Mən Allahdan cəsarət istədim –**
**Allah mənə qalib gəlmək üçün təhlükələr**
**verdi.**
**Mən Allahdan sevgi istədim –**
**Allah mənə imkanlar verdi.**
**Mən istədiyim heç bir şeyi əldə etmədim –**
**Amma mənə lazım olan hər bir şeyi əldə**
**etdim.**
**Mənim duama cavab gəldi.**

Hindistanda yaşamış, tibb institutunun tələbəsi olan məsihçi Maykl Cobun ailəsindən, o, atasının müjdəçiliklə məşğul olduğuna görə 1999-cu ilin iyun ayında öldürülmüşdü.



273-cü gün

# Böyük "təlim" – birinci hissə

**İNGİLTƏRƏ:** DR. ROULAND TEYLOR

**Hadley şəhərinin camaatı dr. Rouland Teylora yalvardılar ki, yepiskop Vinçester və Lord Kanslerlə görüşməsin. Onlar bilirdilər ki, yepiskop dr. Teylorun təlimlərinə görə yaman hirslənibdir.**

İyirmi ilə yaxın idi ki, ingilis dilində Müqəddəs Kitab İngiltərədə qanuni şəkildə paylanırdı. Dr. Teylor məbəddə olan bütün insanlara öyrədirdi ki, Müqəddəs Kitabı özləri oxusunlar və onun təlimlərinə riayət etsinlər. Buna zidd olaraq, kraliça I Merinin amansız hökmranlığı altında olan dini rəhbərlər məbəd adətlərinə ciddi riayət olunmasını tələb edirdilər.

Yepiskop tərəfindən təhqir edildikdən və ittiham olunduqdan sonra Rouland cavab verdi: "Mən məsihçi insanam. Mən məbədə qarşı küfr etməmişəm. Əslində, siz öz ittihamlarınıza görə kafirsiniz. Məsih bir dəfə və həmişəlik bütün bəşəriyyət üçün öldü. Bu, kifayət etdi. Siz və sizin ənənələriniz heç bir şey verə bilməz."

Növbəti iki ili dr. Teylor həbsxanada qaldı. O biləndə ki, Hadleydən kənarda dirəyə bağlanaraq yandırılacaq, sevincdən atılıb düşdü. O öz təhlükəsizliyinə görə narahat deyildi. Əksinə, Hadleyin içindən keçəcəyini və imanlı bacı-qardaşlarını yenidən görəcəyini düşünəndə sevinclə dolurdu.

Dr. Rouland Teylor 1555-ci ilin qışında şəhid oldu.

*Məhəbbət bir çox fərqli dillərdə ifadə olunur. İnsanlar sevgini anlamaq üçün onun haqqında öz dillərində eşitməlidirlər. Bəzi ərlər həyat yoldaşlarına öz sevgilərini göstərmək üçün səhər yeməyini yatağa gətirirlər. Amma bəzi qadınlara isə "mən səni sevirəm" ifadəsini ucadan və aydın eşitmək üçün hansısa onun xoşladığı bir hədiyyə gərəkdir. Təbrik açıqcalarını istehsal edən şirkətlər ümid edirlər ki, biz sevgimizi sözlərlə deyək. Amma İsa deyir ki, onun sevgi dili itaətkarlıqdır. Biz bununla Ona olan sevgimizi ifadə edirik. Ona itaət edəndə biz Onu sevdiyimizi nümayiş etdiririk. Teylor ona görə şəhid oldu ki, İsanın sevgi dilində danışmağı davamçılarına öyrədirdi. O, davamçılarına öyrədirdi ki, Müqəddəs Kitabı oxusunlar və onun təliminə riayət etsinlər. İsaya göstərin ki, Onu sevirsiniz və bu gün dr. Teylorun xatirəsini anın.*

İsa ona cavab verdi: "Kim Məni sevsə, sözümə riayət edər."

*Yəhya 14:23*

# Böyük "təlim" – ikinci hissə

**İNGİLTƏRƏ:** DR. TEYLOR

**Müqəddəs Kitabı öyrətdiyi üçün dirəkdə yanmazdan qabaq dr. Rouland Teylor bu gözəl sözləri yazmışdır:**

"Mən həyat yoldaşıma və uşaqlarıma deyirəm ki, Rəbb sizləri mənə verdi və Rəbb də məni sizdən, sizi isə məndən aldı: Rəbbin adı xeyir-dualıdır! Mən Onu hansısa bir ərdən və ya atadan daha sadiq və daha lütfkar görürəm. Bizim Xilaskarımızın ləyaqəti ilə Ona etibar edin, iman edin, itaət edin, Onu sevin və Ondan qorxun. Ona dua edin, çünki kömək edəcəyini vəd edib. Məni ölmüş sanmayın, çünki mən əbədi yaşayacağam və heç vaxt ölməyəcəyəm. Mən birinci gedirəm, siz məndən sonra əbədi evə gedəcəksiniz.

"Mən Hardleydə olan əziz dostlarıma və vəzimi eşidən bütün insanlara deyirəm ki, təlimim haqqında buradan təmiz vicdanla ayrılıram, çünki Allaha mənimlə birgə minnətdarlıq bildirməyinizi dua edirəm. Mən azacıq istedadımdan istifadə edərək, Allahın kitabından, xeyir-dualı Müqəddəs Kitabdan topladığım dərsləri başqalarına da öyrətmişəm. Ona görə də əgər mən və ya göydən gələn başqa bir mələk sizə aldığınız Müjdədən fərqli bir müjdəni vəz etsə, Allahın böyük lənəti həmin vəzçinin üstündə olsun!

Buradan böyük bir ümidlə ayrılıram, əbədi xilasıma şübhə etmədən əsl Xilaskarım vasitəsilə göylərdəki Atama minnətdaram."

*Rouland Teylor*

*Siz uşaqlıqda ən yadda qalan müəlliminizi xatırlayırsınızmı? Ola bilsin ki, o, hansısa xüsusi bir ətirdən istifadə edirdi. Bəlkə o, üzündəki çapığı hansısa bir vasitə ilə örtürdü. Həmin insan barədə yaddaşınızda nəsə qalıb. Amma biz qocalanda müəllimləri fərqli səbəblərə görə qiymətləndiririk. Onların bizə öyrətdikləri dərsləri – heç vaxt unutmayacağımız dərsləri xatırlayırıq. Biz Allah Kəlamını ilk dəfə bizə öyrədən şəxsi həmişə xatırlayacağıq. Biz müəllimlərimizin Allahın sevgisi və xilası barədə öyrətdikləri əsas həqiqətləri unuda bilmərik. Kimsə elm və maariflənmə adı ilə gələndə Allahın həqiqətləri sizi müdafiə edəcək və yalanı tanımaqda yardım edəcək. Onlar sadəcə xatirələrdən daha böyükdür. Onlar sizin ən dəyərli ləl-cavahiratınızdır.*

Əmrlərimə bağlı qalsan,
yaşayacaqsan, təlimimi göz
bəbəyin kimi qoru.

*Sül. Məs. 7:2*

# Böyük ailə

**KAMBOCA:** HAYİM VƏ ONUN AİLƏSİ

**Kambocanın cəngəlliklərində Hayim və onun ailəsinə bel verib demişdilər ki, öz qəbirlərini qazsınlar. Onlar məsihçiləri "şöhrətli inqilabın" düşmənləri hesab edən Xmer Rucun girovları idilər.**

Əsgərlər Hayim və onun ailəsinə diz çöküb, əl-ələ tutub dua etməyə icazə verdilər. Hayim əsgərlərə dedi ki, tövbə etsinlər və İsanı Rəbləri, eləcə də, Xilaskarları kimi qəbul etsinlər. Əsgərlər onun ölüm ayağında belə şəfqətli olmasını görüb çaşqınlığa düşdülər.

O danışarkən oğullarından biri ayağa qalxıb meşəyə qaçdı. Əsgərlər onun dalınca qaçmaq istədilər, amma Hayim onları saxladı. Onun arxayınlığı kommunistləri inandırdı və onun nə edəcəyini gözlədilər.

Ailəsi əsgərlərin tüfəngləri qarşısında diz çökərkən Hayim meşənin kənarına doğru getdi. "Oğlum, qaçaq kimi meşədə gizlənib həyatdan bir neçə gün oğurlamaq, burada qəbirdə ailənə qoşulub tezliklə cənnətdə Məsih ilə həmişəlik azad olmaqla müqayisə edilə bilərmi?" Bir neçə saniyədən sonra kolların bəziləri xışıldadı və Hayimin oğlu göz yaşları içində irəliyə çıxıb atasının yanında diz çökdü.

Hayim əsgərlərə baxdı: "İndi biz hazırıq."

Amma əsgərlərin heç biri tətikləri çəkə bilmədilər. Lakin tezliklə oğlanın qayıtmasından xəbəri olmayan zabit gəlib çıxdı və əsgərləri qorxaq olduqlarına görə danladı və məsihçiləri öldürdü.

*Bəzi ailələr həddən artıq yekdil olmaqlarına görə tanınırlar. Digərləri həddən artıq zəngin olduqlarına görə qürrələnirlər. Elələri də vardır ki, əhəmiyyətli insanlar olub həddən artıq məşğul olduqlarını göstərirlər. Amma Allah başqa şeylərdən istifadə edə bilər, onun təsir ideyası tamamilə fərqlidir. Allahın padşahlığında ailəni nə faydalı edir? Həddən artıq itaətkarlıq. Bu, ailənin maşınının ölçüsü deyil; bu, onların Məsihə həsr olunmalarıdır. Allah ailəni yaradıb ki, uşaqlar Məsihə necə itaət etməyi valideynlərindən öyrənsinlər. Hayimin ssenarisi özünəməxsus olsa da, biz də öz vəziyyətlərimizdə onun kimi itaətkar ola bilərik. Siz öz ailənizin həsr olunmasını necə təsvir edərdiniz? Kimin ailəsi özünü böyük ailənin nümunəsi kimi göstərir?*

Çünki kim Allahın iradəsini yerinə yetirirsə, Mənim qardaşım, bacım və anam odur.

*Mark 3:35*

# Yalanlardan böyük istifadə

**RUSİYA:** UNİVERSİTET TƏLƏBƏSİ

**Allahsız professor qapının yanında asılmış Leninin şəklinə baxaraq gülümsədi və sonra üstündə su dolçası olan stola yaxınlaşdı. O, bir paket tozu cibindən çıxarıb yavaş-yavaş suyun içinə tökdü və su qırmızı rəngə çevrildi.**

"Bu, tam möcüzədir" – deyə, o, dərsinə başladı. "İsa paltarının qolunda belə bir toz gizlətmişdi və möcüzəli surətdə suyu şəraba çevirdiyini iddia edirdi. Amma mən İsadan daha yaxşı edə bilərəm; mən şərabı yenidən suya çevirə bilərəm."

O, yenidən başqa bir paket toz çıxardı və qırmızı mayenin içərisinə tökdü. Məhlul əsl su kimi oldu. O biri paket ilə yenidən qırmızı oldu.

Tələbələrdən biri başını yırğalayaraq narazılığını göstərdi. Nəhayət, professora belə dedi: "Yoldaş professor, siz bizi heyrətə gətirdiniz. Biz sizdən daha bir şeyi də etməyinizi xahiş edirik – *şərabınızı için*!"

Professor altdan-altdan gülərək dedi: "Mən bunu edə bilmərəm. Bu toz zəhərdir."

Məsihçi ona cavab verdi: "Elə bu, sizinlə Məsih arasında böyük fərqdir. O öz şərabı ilə bizə sevinc verib, amma siz öz şərabınız ilə bizi zəhərləyirsiniz." Professor hirslə öz otağından çıxıb tələbəni həbs etdirdi. Amma bu xəbər çox uzaqlara yayıldı və bir çoxlarının imanını möhkəmləndirdi.

*Düşmənin asan dəyişiklik barədə vədi yalandır. Bir çox mağazalarda alıcıların malı qaytarmaq hüququ var, bu, alıcılara kömək edir ki, razı qalmaları üçün aldıqları şeyləri dəyişə bilsinlər. İnsanlar növbəyə dayanırlar ki, kiçik ölçünü böyüyü, bir rəngi başqa rənglə dəyişdirsinlər, bununla da ümid edirlər ki, aldıqları mal onları daha arıq, daha gözəl və ya daha xoşbəxt edəcək. Buna oxşar olaraq, həyatda bir çox insanlar da əllərində Allahın həqiqətini tutaraq növbəyə dayanıblar. Onlara deyilib ki, Allahın həqiqətini istənilən şeyə çevirsinlər və bununla da özlərini razı salsınlar. Biz həmişə sonda peşmançılıqla üzləşirik. Allah istəyir ki, biz düşmənin yalanlarından agah olaq. Nəyin bahasına olursa olsun, Allahın həqiqətindən möhkəm yapışın.*

Onlar Allahın həqiqətini
yalanla əvəz etdilər.

*Roma 1:25*

# Böyük yalvarış

**İNDONEZİYA:** DELORES

**Deloresin qocalmış bədəni qaçmaqdan yorulmuşdu, o, ağlamağa başladı: "Allahım, bizə, uşaqlarına mərhəmət et!" Delores başqa imanlılar ilə birlikdə həyatını qorumaq üçün qaçırdı, çünki hücumçular artilleriya ilə onların kəndinə dolmuşdular. Öz nahamar əsasından istifadə edərək, addımbaaddım dik dağ silsiləsinə dırmaşdı, nəhayət, təhlükəsiz bir yerə gəlib çıxdı. O, bu zorakılığa görə evindən qaçmış yüzlərlə başqa insanlar ilə birlikdə müvəqqəti qaçqın düşərgəsində məskunlaşdı.**

Delores İndoneziyada yaşayan milyonlarla məsihçidən biridir – bu torpaq on üç mindən artıq adadan ibarətdir. İndoneziya dünyada ən məşhur müsəlman ölkəsidir. Amma müsəlmanlar və məsihçilər neçə illər eyni torpağı bölüşüblər, neçə nəsil birlikdə sülhdə yaşayıblar. Amma onlar indi yeni düşmən ilə üzləşirlər: fanatik müsəlman qrupları təzəliklə adalarda *cihadlar* (müqəddəs müharibələr) törətmişdilər. Bu gün müsəlmanlar və məsihçilər arasında artıq sülh yoxdur.

Bir şəhərdə məsihçilər qubernatorun idarəsinin qarşısında nümayiş keçirərək "Mən hər bir şeyi təslim edirəm" ilahisini oxudular. Onlar yalvarırdılar ki, azğın müsəlmanların əlində nə qədər məsihçinin öldürüldüyünü hökumət etiraf etsin. Dinc imanlılar mahnı oxumaqda davam etsə də, müsəlmanlar başqa bir kəndə hücum etdilər və onu viran qoydular. Çiçəklənən bir çox cəmiyyətlər indi sadəcə, kül və daş qalağıdır.

*Delores sadəcə İndoneziyada Allahın qurtuluşu üçün fəryad edən təqib olunan imanlılardan biridir. Vəhy Allahın mühakiməsini və ədalətini istəyən şəhidlərin izdihamı haqqında danışır. Amma onlar təklikdə fəryad etməli deyillər. Yaşayan bizlər səsimizi onların ciddi yalvarışlarına qoşmalıyıq. Baxmayaraq ki, biz öz rahat evlərimizdə oturub onlardan uzaqda olsaq da, bizim ciddi dəstəyimiz uzaqdan edilən dualardır. Biz təhlükəsizlik və qurtuluş üçün dua edərkən ürəklərimizi əzab çəkənlərə qoşuruq. Siz bu gün Delores və İndoneziyada olan başqa imanlılar üçün dua edərsinizmi? Allahdan xahiş edə bilərsinizmi ki, onları bu yolda qorusun və qurtuluş üçün etdiyimiz duaları eşitsin?*

Onlar uca səslə fəryad edirdi: "Ey müqəddəs və haqq olan Pərvərdigar, nə vaxta kimi mühakimə etməyib yer üzündə yaşayanlardan qanımızın qisasını almayacaqsan?"

*Vəhy 6:10*

# Böyük dua

İSVEÇRƏ: MAYKL SETTLER

**Maykl Settler ona verilən cəzaya – dili kəsildikdən sonra kafir kimi yandırılacağına təəccüblənmədi. Bu, on altıncı əsr idi və Maykl məbədin Əhdi-Cədid formasına qayıtmasını istəyən imanlılar hərəkatından olan anabaptist idi. Amma Avropanın dini və sosial təşkilatları anabaptistlərin təhlükəli şəxslər olduğunu düşünürdülər.**

Tamaşa etməyə gələnlərdən ibarət izdiham bazarda toplaşmağa başladı. Orada dayananlardan biri iyirmi beş yaşlı Klaus von Qrafenek idi, o, dustağa yaxın yerdə dayanmışdı və cəlladın Mayklın ölümü üçün hazırlaşmasına tamaşa edirdi.

Maykl sözləri aydın tələffüz etməsə də dua etməyə başladı: "Əziz Rəbbim, bu cavan oğlanın gözlərini aç..."

Klaus birdən geriyə çəkildi, o, cinayətkarın onun üçün dua etdiyini eşidəndə heyrətə gəldi!

Cəllad Mayklı bağlayarkən dustaq izdihama doğru çevrilib korlanmış bir nitqlə söylədi: "Tövbə edin!" Sonra gözlərini yumub dua etdi: "Külli-İxtiyar olan əbədi Allah, mən bu gün həqiqətə şəhadətlik edəcəyəm və öz qanımla onu möhürləyəcəyəm."

Bundan sonra cəllad Mayklı alovun içinə tulladı. Onun əllərində olan kəndirlər yanıb qurtardıqdan sonra o, əllərini yuxarı qaldırıb dua etdi: "Ata, mən öz ruhumu Sənin əllərinə tapşırıram."

Klausa ittiham olunan kişinin duası elə böyük təsir göstərmişdi ki, o, Settlerin ölümü barədə dərin hörmətlə yazdı. O, yazısını bu sözlərlə tamamladı: "Qoy Allah bizə də onun kimi qoçaqlıqla və səbirlə şəhadətlik etməyə imkan versin."

Hər cür dua və yalvarışla, həmişə Ruhun idarəsi ilə dua edin.

*Efes. 6:18*

*Dua məsihçinin gizli silahıdır. Bu, insanın Məsihə imanı barədə səssiz təsdiq və ya açıq danışıqdır. Klaus ittiham olunan insanın duasını eşidəndə dua onu dayanıb düşünməyə vadar etdi. Buna oxşar olaraq, restoranlarda yemək üçün dua etməyimizi başqaları görəndə biz də onların dayanıb Allah haqqında düşünməsinə səbəb ola bilərik. Hətta insanların fikirlərini bir neçə anlıq tutub saxlasaq və düşüncələrini Məsihə doğru yönəltsək, biz artıq işimizi görmüş oluruq. Mayklın Klaus üçün etdiyi kimi, dua həyatları dəyişdirir və həsr olunmaya ruhlandırır. Amma Allah sizin təklif etmədiyiniz duaları istifadə edə bilməz. Bu gün görüşdüyünüz insana görə səssiz dua etmək üçün bir az vaxt ayırın. Siz nəticədə nə baş verəcəyini heç vaxt bilmirsiniz.*

# BÖYÜK SADİQLİK

**Müqəddəs Kitabda "missioner" sözü yoxdur, orada "şəhadətlik etmək" sözü var.**

Cim Elliot – Ekvadorda Auka qəbiləsinə Müjdəni yaymağa çalışarkən şəhid olmuş müjdəçi, sitat Elizabet Elliotun *"Mənim qəyyumumun qəddarlığı"* kitabından götürülmüşdür.



280 gün

# Böyük əlyazma

**İTALİYA:** YUSEBİYAS

**Diokletianın hökmranlığı altında b.e. 303-cü ilində Romada "Böyük Təqib" başlandı. Bu dövrdə Diokletian məsihçilərin imanını məhv etmək cəhdi ilə məsihçiliyə qarşı rəsmi qərarlar nəşr etdirmişdi. Ətraflı qərarların içərisində aşağıdakı əmrlər də var idi:**

Dövlət idarələrində işləyən məsihçilər işdən çıxarılmalıdır;
Məsihçiliyə qarşı bütün ittihamlar qəbul edilməlidir;
Məsihçilərə öz imanlarına görə işgəncə verilməlidir;
Kəlam dərhal müsadirə olunmalı və yandırılmalıdır;
Məbəd binaları dağıdılmalıdır;

Məsihçilərin vətəndaşlıq hüquqları məcburi inkar olunmalıdır və məbədlərin rəhbərləri, yepiskopları və başçıları allahlara qurban gətirmək üçün həbs olunmalıdır.

Bu müddət ərzində Yusebiyas adlı cavan yazıçı erkən məbədə qarşı törədilmiş vəhşiliyi qeydə almışdı. Məbəd rəhbəri və teoloq olan Pamfilus onu olduqca ruhlandırmışdı. Pamfilus b.e. 308-ci ilində həbs olunmuşdu və ona işgəncələr verilmişdi, amma bu, Yusebiyasın həyatına əhəmiyyətli təsiri göstərdikdən sonra baş vermişdi.

Yusebiyas yazırdı: "Biz öz gözlərimiz ilə görmüşük ki, dua evləri təməlindən dağıdılıb...və ruhla dolu müqəddəs Kəlam alova atılıb...və məbədlərin pastorlarından bəziləri burada və orada özlərini gizlədirlər."

Pamfilusun b. e. 309-cu ilində edamı Yusebiyasın "*Məbədin tarixi*" adlı əlyazmanı yazmasına mane olmadı.

*Yusebiyas sonralar məsihçiliyə göstərdiyi xidmətlərə görə həbs olundu. Amma onun həyatı qorunmuşdu. Allah onu qorumuşdu ki, gələcək məbəd üçün yazıları yazmaqda davam etsin. Onun yazıları erkən məbədin üzləşdiyi əzabları görmək üçün gələcək nəsillərin gözlərini açdı. Onun məsihçi rəhbərlərin həyatı, ölümü və irsi barədə yazıları bizə məsihçi qəhrəmanların böyük mirasını xatırladır. Əgər biz təqib olunan əcdadlarımızın cəsur imanından və ölməz sevgisindən öyrənə bilsək, yazılar əbəs yerə deyil. Nə də əzablar əbəs yerə deyil. Bu gün siz nə edirsiniz ki, növbəti nəsli daha da dərindən həsr olunmağa ruhlandıra bilsin? Allahdan xahiş edin ki, öz mirasınızdan əl çəkməkdə sizə yardım etsin.*

Onun ədalətini, Onun əməllərini gələcəkdə doğulan xalqa bildirəcək.

*Məzmur 22:31*

# Böyük ört-basdır etmə

**SƏUDİYYƏ ƏRƏBİSTANI:** ƏR VƏ ARVAD

**Ər və arvad başqa bir ölkədən neftlə zəngin bir ölkə olan Səudiyyə Ərəbistanına gəlib çatdılar.**

Onlar öz evləri adlandırdıqları bu müsəlman ölkəsində yaşayır və işləyirdilər. Nəhayət, onlar imanlarını – məsihçiliyi bölüşdükləri başqa əcnəbi imanlılar ilə görüşdülər və birlikdə ibadət etdilər. Amma Məhəmmədin ruhani mərkəzində məsihçiliklə məşğul olmaq təkcə kütləvi olmayan bir şey deyil; bu, həm də qeyri-qanunidir. Buna baxmayaraq, ər-arvad sadiq tərzdə öz ibadətlərini davam etdirmək üçün həbsin, deportasiyanın və hətta ölümün riskini qəbul etdilər.

Onlar neçə il sülhdə yaşadılar. Amma bir gün Səudiyyə Ərəbistanının polisi onların evlərinə basqın etdi. Onları dini mövqeləri ilə əlaqədar sorğu-sual etmək üçün polis məntəqəsinə apardılar. Həmin vaxt onların başqa yerli məsihçilər ilə əlaqə saxlama məlumatı olan kompüterləri müsadirə olundu. Onlar qorxdular ki, tezliklə o birilər də belə əzab çəkərlər.

Ər həbsdə saxlanıldı, amma arvada ittihamlarda bəraət verildi və azadlığa buraxıldı. O, ərinə bəraət verilməsi və həbsdən azad edilməsi üçün bir neçə kənar dövlətə müraciət etdi. O, azadlığı müdafiə edənlərə arxayın oldu. Amma başqa ölkələr onun vəziyyətinə müdaxilə etməyə can atmadılar. Ər həyat yoldaşını bir daha görüb-görməyəcəyini düşünürdü. Onların məhkəmə işi Səudiyyə Ərəbistanının müsəlman xalqında məsihçiliyə qarşı olan bir çox sirli təqiblərdən biridir. Amma həqiqət bir gün aşkar olacaq.

*Səudiyyə Ərəbistanı dünyada edamın ən yüksək səviyyəsini göstərən ölkələrdən biridir. 1999-cu ildə Səudiyyə Ərəbistanı insan hüquqlarından sui-istifadə haqqında məxfiliyi təmin etmək üçün ictimai əlaqələr üzrə 1000000 $-dan artıq pul xərcləyib. Amma onlar sirləri əbədi olaraq saxlaya bilməzlər. Biz dua etməliyik ki, Səudiyyə Ərəbistanında məsihçilərin səsi bizim yaşadığımız müddətdə eşidilsin və onlara cavab verilsin. Biz bilirik ki, Məsih qayıdanda heç bir ictimai əlaqə firmaları onları mühakimədən qoruya bilməyəcək. Yaxşı, bəs bu gün? Dua dəyişiklik etməyə doğru bir addımdır. Bu, sirr deyil – qarşıdurma güclüdür. Amma Allah daha güclüdür. Həbsdə olanlara görə Onun gücünü toplamaq üçün siz nə edirsiniz?*

Çünki elə gizli bir şey yoxdur ki, aşkara çıxmayacaq və elə örtülü bir şey yoxdur ki, bilinib aydın olmayacaq.

*Luka 8:17*

# Böyük itaətsizlik

## ROMA İMPERİYASI: TEBAN QOŞUNU

**B. e. 286-cı ilində Teban qoşunundan olan 6 666 əsgərə imperator Maksimus tərəfindən əmr verilmişdi ki, Qalliyaya yürüş etsinlər və Burqundiyanın üsyançılarına qarşı ona kömək etsinlər. Bu bölmənin hər bir üzvü əsl məsihçi idi.**

Alp dağlarından çətinliklə keçdikdən sonra Maksimus döyüşə çıxmazdan əvvəl ümumi qurban gətirməyi tələb etdi. Teban qoşunundan olan hər bir kəs Allaha hörmətsizlik etməkdən imtina etdi. İmperator onların bu itaətsizliyini görüb bərk hirsləndi, ona görə də hər on əsgəri qılıncla öldürtdü ki, onları bu fikirdən daşındırsın. Amma əsgərlər öz yerlərindən belə tərpənmədilər. İmperator bu dəfə öz əsgərlərinə əmr etdi ki, sıralarda hər on əsgərdən birini öldürsünlər. Bu əsgərlər ləyaqət ilə başlarını dik tutaraq, özlərini elə göstərdilər ki, sanki döyüşdə ölürlər. Amma bu ikinci qətl hadisəsi birincidən daha təsirli olmadı.

Bunu görən yerdə qalan əsgərlər öz yoldaşlarının ölümündən sonra yenə də öz mövqelərində qaldılar. Zabitlərinin göstərişi ilə ölmək istəməyərək imperatora sadiqlik məqaləsi yazdılar. Onlar bəyan etdilər ki, Allaha imanları və həsr olunmaları onların imperatora daha da sadiq olmalarına yardım edib. Onlar bununla ümid etdilər ki, imperatoru sakitləşdirərlər, amma bu, əksinə təsir göstərdi. Qəzəblənmiş imperator Teban qoşunundan qalan əsgərlərin öldürülməsinə əmr verdi.

*İtaətsizlik hərbidə ən pis hərəkət sayılır. Amma Teban qoşununun başqa seçimi yox idi, çünki Allaha itaətsizlik daha böyük cinayət olardı. İnsanlar səlahiyyət ilə hökmranlıq edirlər. Amma səlahiyyəti yalnız Allah verir. Müqəddəs Kitab bizə insan səlahiyyətinin Allahın əmrinə zidd getdiyi vaxtda Allahın xalqının həmin səlahiyyəti necə rədd etdiyini göstərir. İbrani mamaçalarını və eləcə də fironun əmrlərinə itaətsizlik edən Musanın valideynlərini yadınıza salın. Yad allahlara xidmət etməkdən imtina edən Daniel və onun yoldaşları haqqında düşünün. Onların nümunələri və bu cəsur əsgərlərin nümunələri bizə xatırladır ki, insan səlahiyyətini tanımaq borcumuzdur. Amma biz hər şeydən öncə Allahın səlahiyyətinə hörmət göstərməliyik. İnsan əmrləri Allahın əmrlərinə birbaşa ziddirsə, siz itaətsizlik riskini diqqətinizdə saxlayın.*

Lakin Peterlə Yəhya cavab verib dedi: “Özünüz qərar verin, Allaha deyil, sizə qulaq asmaq Allahın gözündə nə qədər doğrudur?”

*Həv. İş. 4:19*

# Böyük təmkinlilik

**ROMA:** SEBASTİAN

**Sebastian hər gün sarayın dəhlizlərindən keçirdi. O, imperatorun mühafizəçisi vəzifəsinə gəlib çıxmaq üçün çox çalışmışdı, amma Romaya gəlib çıxandan sonra imperiyanın bütpərəst həyatından özünü qorumuşdu. O, yalnız Məsihə bütün ürəyi ilə xidmət etmək istəyirdi.**

İmperator Diokletian onun işində irəliləmək istəyinin az olduğunu eşidəndə Sebastian ilə görüşdü və onun imanı barədə məlumat əldə etdi. Buna görə əmr etdi ki, Sebastianı şəhərdən kənara çıxarsınlar və oxlar ilə onu öldürsünlər. Əsgərlər öz işlərini gördülər və cəsədin çürüməsi üçün elə oradaca qoyub qayıtdılar. Tezliklə bir qrup məsihçi onun cəsədini lazımi qaydada dəfn etmək üçün gəldilər.

Onlar onu qaldırarkən kimsə qışqırdı: "O, sağdır!"

"Sakit!" – deyə, o birisi ona xəbərdarlıq etdi. "Gəlin onu harayasa təhlükəsiz bir yerə aparaq."

Sebastianı bir evə apardılar, burada onu müalicə etdilər və onun yaraları sağaldı. O özünü yaxşı hiss edən kimi yenidən imperatorun qarşısına çıxdı. Bir dəfə göylərin ümidindən dadan Sebastian üçün bu dünyanın ləzzəti onu az cəlb edirdi.

Əlbəttə ki, imperator Sebastianın ölülərdən dirilməsini görəndə məəttəl qaldı. O əmr etdi ki, Sebastianı tutsunlar, ölənə qədər döysünlər və sonra cəsədini çirkab suların içinə atsınlar. Onun cəsədini məsihçilər yenə götürdülər və katakombalarda basdırdılar.

*Cinsi əxlaqsızlıq. Pis sözlər. Oğurlamaq. Yalan danışmaq. Aldatmaq. Həddən artıq çoxlu məsihçi özlərini etmədikləri işlər ilə təsvir edirlər. Şübhəsiz, çoxlu məşğuliyyətlər vardır ki, Allah öz xalqına onları etməyi qadağan edir. Amma təmkinlilik özü-özlüyündə fayda vermir. Sebastian sadəcə təmkinliliyinə görə şəhid olmamışdı – yoxsa o, sadəcə, yaxşı insan olduğu üçün öldürülərdi. O öz açıq imanına görə şəhid olmuşdu. Bunun kimi biz də Allahın əmrlərini tamlığı ilə qəbul etmək üçün şərdən uzaq dayanmalıyıq. İtaət edin. İbadət edin. Xidmət edin. İmanınızı etmədiyiniz işlər ilə deyil, etdiyiniz işlər ilə təsvir edin. Siz sadəcə yaxşı insan, yoxsa açıq iman ilə yaxşı insan olmaqla tanınırsınız.*

Ayağımı hər pis yoldan kənar qoydum ki, sözlərinə bağlı qalım.

*Məzmur 119:101*

284-cü gün

# Böyük azadlıq

**MORAVİYA:** PAUL QLOK

**Paul Qlok çətin bir vəziyyətdə idi. O öz anabaptist imanına görə həbs olunmuşdu. Nəzarətçi şəxs ona bir az azadlıq vermişdi, o da öz növbəsində qaçmayacağına söz vermişdi. Ona odun gətirməyə, ayaqqabıları düzəltməyə, cürbəcür işlər etməyə və tapşırılan işləri görməyə icazə verilmişdi, amma yad insanlar yaxınlaşanda o, gözə çarpmamalı idi, belə ki, dini rəhbərlər onun azadlığı barədə öyrənərdilər.**

Paul öz azadlığına görə çıxılmaz bir vəziyyətdə idi. Onun mühafizəçisi, Klaus von Qrafenek 1527-ci ildə anabaptist Maykl Settlerin ölümünə şahid olmuşdu. Sadəcə, kənardan durub baxan Klaus Settlerin ölümündən qabaq onun üçün dua edərkən imana gəlmişdi. Bu hadisə iyirmi beş il bundan əvvəl olmuşdu və yəqin ki, Klausun ədalətsiz surətdə təqib olunan anabaptistlərə qarşı ürəyində mərhəmət hissi var idi.

Paulun itirəcəyi bir şey yox idi. Onun həyat yoldaşı və uşağı artıq ölmüşdülər; onun Moraviyada bir imanlı qardaşı var idi. Amma Paul qaçmaq sınağına təslim olmurdu. Əgər o qaçsaydı, ona qarşı yaxşı rəftar edən Klaus qanun qarşısında cavab verməli olardı və həmin ərazidə həbs olunmuş anabaptistlərin işləri daha da dərindən yoxlanardı. Paul sözünün ağası idi.

Allah sonra Paulun qərarını qiymətləndirdi. 1576-cı ildə onun qaldığı qalada yanğın baş verdi. O və dustaq yoldaşları alovu söndürməkdə kömək etdilər və Paula kəskin müqavimət göstərən dini rəhbərlər qarşısında azadlıqlarını qazandılar.

*Şəhidlərin həbs hekayələri tunel qazıyaraq gizli qaçış deşikləri düzəldən bacarıqlı personajı olan Hollivud filmləri deyil. Süjet məhbusun təhlükədən necə qaçacağından asılı deyil. Əslində, Paul Qlok kimi şəhidlər hətta qaçmağa imkanları olsa da, qaçmamışdılar. Onların hekayələri şəraitlərindən asılı olmayaraq, Allahın izzəti üçün hər bir vəziyyəti daxil etmək haqqındadır. Paul və Silanın baş mühafizəçini və onun ailəsini necə Məsihə gətirdiklərinə diqqət yetirin, çünki onlar həbsdən qaçmamışdılar. Siz çətinliklərinizdən çıxış yolu axtarmaqla məşğulsunuzmu? Bəlkə siz Allahın sizi görmək istədiyi yerdəsiniz? Ola bilsin ki, Allah sizin qaçmağınızı deyil, dözməyinizi istəyir.*

Paulla Silanı evinə aparıb onlar üçün süfrə açdı. Allaha iman etdiklərinə görə o və bütün ev əhli şad oldular.

*Həv. İş. 16:34*

# Böyük şahid

**PAKİSTAN:** ŞİRAZ

**Məktubun gücü bir sətir sözdən gəlmirdi: “Müsəlmanlara vəz etməyin.” Məktubun çatdırılma metodu çox böyük təsir göstərmişdi; məktub Müqəddəs Kitab kollecinin tələbəsi olan Şiraz adlı oğlanın qanlı cəsədinə yapışdırılmışdı. Məktub və Şirazın cəsədi onun Pakistanın Lahor şəhərinin yaxınlığında olan məbədinin giriş darvazasına atılmışdı.**

Şiraz məktubun məsləhətinə riayət etməmişdi. O, getdiyi hər bir yerdə onun günahlarına görə ölmüş Xilaskarının sevgisindən danışırdı. O, işlədiyi fabrikdə işçilərə, Müqəddəs Kitab kollecində və öz ailəsində hamıya vəz edirdi.

Şiraz valideynlərinə və üç bacısına yardım etmək üçün fabrikdə işləyərkən bir həftə əvvəl bəzi müsəlman iş yoldaşları ilə müzakirə etmişdi. Onlar hirslənmişdilər və başqa işçilər qızğın mübahisə barədə şikayət etmişdilər. O vaxtdan bəri heç kim Şirazı görməmişdi.

Şiraz riskdən xəbərdar idi. Pakistanda olan bir çoxları imanlarını bölüşdüklərinə görə öldürülmüşdülər. Digərlərini kafirliyə görə ittiham etmişdilər və həbsdə saxlamışdılar. Amma Müjdə o qədər gözəl idi ki, Şiraz, sadəcə, onu özündə saxlaya bilmirdi.

Onun məbədinin üzvləri də məktubun məsləhətini qəbul etmədi. Onlar islamın nifrətindən və qorxusundan kölə olanlara İsanın sevgisini təklif edərək, müsəlmanlara vəz etməkdə davam etdilər. Onlar da risklərdən xəbərdar idilər, amma onlar davam ediblər və aqibətləri Şiraz kimi ola bilsə də, yenə davam edəcəklər.

*Ən effektli şahid səmimi olandır. Biz həyatlarımızda İsanın etdiyi dəyişikliyi başqalarına demək üçün günahların yuyulması barədə teoloji mənanı əzbərləməli deyilik. İsanın bizdən xahiş etdiyi şey budur ki, biz öz gözlərimiz və qulaqlarımız ilə gördüyümüzə və eşitdiyimizə şəhadətlik edək. Bizim şəxsi həyat təcrübəmiz İsa Məsihə olan iman üçün ən güclü faktdır. Heç kim bununla mübahisə edə bilməz, çünki bu, bizim başımıza gəlib. Siz imanınızı bölüşməyə çəkinirsinizmi? Siz nəsə səhv deyəcəyinizdən, yoxsa kiminsə suallarından çıxılmaz vəziyyətə düşəcəyinizdən qorxursunuz? Siz, sadəcə, doğru bildiyinizi söyləyin. Şəxsi həyat təcrübəniz sizi məsihçilik üçün ekspert şahid edir.*

Axı eşidib-gördüklərimizi
deməyə bilmərik.

*Həv. İş. 4:20*

# BÖYÜK SADİQLİK

**İsa dedi ki, biz getməliyik.
O, heç vaxt demədi ki, biz geriyə qayıdacağıq.**

Anonim



# Böyük ciddi tədbirlər

## SƏUDİYYƏ ƏRƏBİSTANI: TƏQİB OLUNMUŞ MƏSİHÇİLƏR

**"Mənim adım siyahıda varmı?" Səudiyyə Ərəbistanının Ciddə şəhərində dini polis məsihçinin evinə basqın edib həmin ərazidəki məsihçilər barədə məlumat olan şəxsi kompyuteri müsadirə edəndən sonra hər bir məsihçinin fikrindən bu sual keçirdi. "Görəsən indi mənim qapımı döyəcəklər?"**

Prabhu İshaq *mutavadan* və ya polisdən məktub alan ilk şəxs idi. İshaq Hindistan vətəndaşı idi, amma Səudiyyə Ərəbistanında islamdan başqa hansısa imanı dəstəkləmək qeyri-qanuni idi. Hətta çarmıxı göstərmək belə cinayət idi. Polis narahat idi ki, Səudiyyə vətəndaşları məsihçilər ilə qarşılıqlı ünsiyyətdə olurlar. Onlar beynəlxalq qanunun tələblərinə baxmayaraq, İshaqa öz ölkəsinin konsulluğuna girməyə icazə vermədilər. Polis, həmçinin, onun həyat yoldaşını sorğu-sual etdi və başqaları ilə ünsiyyət saxlamamağı ona xəbərdarlıq etdi.

Sonra başqa bir imanlı İsgəndər Mengis İshaqın kompyuterində adı tapıldıqdan sonra həbs olundu. Növbəti həbs olunan şəxs Uilfredo Qaliyaq oldu. O, həbsdən dərhal sonra xəstəxanaya göndərildi, belə deyilirdi ki, onu "gün vurma"dan müalicə almaq üçün göndəriblər. Amma Qaliyaqa baş çəkən insanlar deyirdilər ki, onun bədəni döyülüb və göyərib, sanki polis onunla pis rəftar edib.

Səudiyyə Ərəbistanı Müjdə üçün bağlıdır, amma cəsarətli məsihçilər müsəlman ölkələrində dostlarında və iş yoldaşlarında iman toxumunu əkməyə başlayıblar. Bu iş çətindir və risklər isə böyükdür. Amma Xoş Xəbər padşahlığı irəliyə doğru aparır.

*Səudiyyə ərəbistanında məsihçilər qorxurlar ki, onların adları dini polisin ciddi tədbirlər siyahısında olar. Amma onların kompyuterləri müsadirə olunmazdan və adları bir hədəf kimi sadalanmazdan qabaq adları fərqli, daha vacib bir siyahıda aşkar edilib. Müqəddəs Kitab bizə öyrədir ki, göylərdə "Həyat Kitabı" var, burada imanlıların adları bir-bir sadalanır. Həyat Kitabında adları yazılmış insanlar xilas olacaqlar. Adları həmin kitabda olmayan insanlar əbədi olaraq məhv olacaqlar. Əgər siz İsa Məsihi Xilaskarınız kimi qəbul etmisinizsə, qoy sizin adınız qorxu olmadan qarşıdurmanın istənilən forması ilə qeyd edilmiş olsun. Hər şeydən öncə siz Məsih ilə siyahıya alınmısınızmı?*

Qalib gələn hər kəs də ağ paltar geyinəcək. Mən onun adını həyat kitabından əsla silməyəcəyəm, Atamın və Onun mələklərinin önündə adını iqrar edəcəyəm.

*Vəhy 3:5*

# Böyük cəza

## ƏFQANISTAN: YARDIM EDƏN XARİCİ İŞÇİLƏR

***Talibançılar*. Əfqanıstanın radikal islam hökumətinin adı bütün dünyada tanınıb. Talibançılar tərəfindən idarə olunan bu zülmkar ölkədə məsihçiliklə məşğul olmaq həmişə cinayət olub.**

Əfqan hökuməti qərara gəldi ki, onlara uşaqlar lazım deyil. Onlar uşaqların atalarını istəyirdilər. Uşaqlara məsihçilik barədə öyrədilmişdi və buna görə də onları həbs etmişdilər. Xalqa humanitar yardım paylamağa icazə almış xarici qruplar, eləcə də, məsihçi kitabları və materialları gətirmişdilər. Bir çox xalqlarda humanitar yardım Müjdə üçün yeganə açıq qapıdır. Amma hökumət materialları cəld ələ keçirdi.

Hökumət qərara gəldi ki, məsihçilik təliminin öyrədilməsinə görə uşaqları günahlandırmaq lazım deyil. Valideynlər uşaqlarının qayğısına qalmamışdılar və onları nəzarətsiz qoymuşdular. “Həbslər valideynlər üçün bir dərs olmalıdır ki, uşaqlarına nəzarət etsinlər və nə işlə məşğul olduqlarını bilsinlər” – yaxşılığın inkişafı və pisliyin qarşısının alınması üzrə Talibanın nazir müavini demişdi.

*Ən azı işçilərdən ikisi amerikalı məsihçilərdir, bu prosesdə onların ədalətsiz cəzaları fəlakət kimi görünür. Amma fəlakət kimi görünən bir şey, əslində, Allahın böyük məqsədlərinə çevrilə bilir. Sadəcə, İsanın həyatına baxın. İlk baxışdan Məsihin ölümü baş verəcək ən pis bir şey kimi görünürdü. Onun xidməti, elə bil ki, qurtarmışdı. Amma Allah onun ədalətsiz cəzasını bizə xilas gətirmək üçün istifadə etmişdi. Beləcə, başqalarına Xoş Xəbəri çatdırmaq üçün böyük cəzaya dözməyə razı olan bu işçilər haqqında bütün dünya eşidib, bu, bir çoxlarını Məsihə iman etməyə və digər imanlıları isə ruhlandırmağa yardım edib. Siz ədalətsiz vəziyyətlərə görə əzab çəkirsinizmi? Bu, Allahın səciyyəvi xüsusiyyətidir.*

Bizim əmin-amanlığımız üçün o,
cəza aldı.

*Yeşaya 53:5*

# Böyük "yuva"

**RUMINİYA:** ŞENİYA KOMAROV

**İt öz ipini dartaraq qabağa qaçdı, o, iti dişlərini qıcamışdı. Onun sahibi, kapitan Nudni itin üstünə qışqırdı: "Hücum et!"**

"Rəbbim, mənə mərhəmət elə!" – deyə, məsihçi məhbus Şeniya Komarova dua etdi. O bilirdi ki, azğın mühafizə itləri bir çox məhbusları öldürmüşdü və dua edirdi ki, Allah onu xilas etsin.

Böyük alman iti ona doğru qaçdı, amma birdən dayandı. İt qorxdu, məsihçini dişləmək istəmədi. Nudni itə əmr etdi ki, dala çəkilməsin və hətta iti döydü, amma it Komarova hücum etmədi.

Məhbuslara, demək olar ki, yeməyə heç nə verilmirdi və Komarov təvazökarlıqla bir az yemək istəyəndə onun xahişinə Nudninin qəzəbi cavab verdi.

Bir neçə gün sonra Komarov dua etdi. "Rəbbim, acından ölürəm, ələ salınıram və kədər içindəyəm. Xahiş edirəm, hər şeyə son qoy. Qoy ölüm və rahatlıq tapım, ya da İlyas üçün etdiyin kimi bir möcüzə törət."

Dərhal Nudni ona yaxınlaşdı – düzdür, bu dəfə o, itsiz gəlmişdi. Komarov düşündü ki, Allah onun duasına cavab verdi və o, tezliklə ölər. Əksinə, mühafizəçilərin başçısı məsihçini mətbəxə apardı və ona şorba və çörək verdi. O, eləcə də başqa məsihçi məhbusları da yeməklə təmin etdi.

"Sənə hücum etmək üçün üstünə it göndərdiyimə görə məni bağışla" – Nudni məsihçiyə dedi. "İndi bu, mənə əzab verir."

Komarov mühafizəçini bağışladı və bu möcüzəyə görə Allaha minnətdarlığını bildirdi.

*Bir çox insanlar Daniel və şirlərin yuvası haqqında hekayəni danışa bilər. Onların ən ağır vəziyyətləri şərin əlində əzab çəkməli olan Danielin taleyinə oxşayır. Danielin hekayəsi qələbə hekayəsidir. O, dəhşətli vəziyyətindən cəsarətlə çıxdı, çünki Allaha etibar edirdi ki, Allah onu xilas edəcək. Buna oxşar olaraq, biz də öz gücümüzdən kənar olan bəzi vəziyyətlərə düşə bilərik – bəziləri hətta həyatımızı təhlükə altına sala bilər. Allah bizi qorxudan gerçəklikdən xilas edə bilər və bizə sülh verə bilər. Biz sadəcə problemlər olan "yuvamızın" həllində Ona etibar etməliyik. Sizi qorxudan hansı vəziyyət ilə üzləşirsiniz? Allahdan xahiş edin ki, sizə Öz qoruyucu hüzurunu hiss etdirsin. Sizi çətinliklərinizdən təhlükəsiz halda çıxaracağına etibar edin.*

Allahım Öz mələyini göndərib şirlərin ağzını bağladı və onlar mənə toxunmadı, çünki mənim Allahın önündə təqsirsiz olduğum bilindi. Ey padşah, sənə qarşı da heç bir cinayət etməmişəm.

*Daniel 6:22*

# Böyük "inkarlar"

**İNDONEZİYA:** GƏNC MƏSİHÇİ QIZ

**İndoneziyadakı kəndin məscidinin qarşısına toplaşmış izdihamın üstünə soyuq su səpdilər. Silahlanmış ağ geyimli cihad döyüşçüləri həmin yeri dövrəyə almışdı. Qrupun islamı qəbul etməsi üçün dəstəmaz almağa məcbur edirdilər. İzdiham bilirdi ki, ya islamı qəbul etməli olacaqlar, ya da həmin yerdə güllələnəcəklər və ya başları kəsiləcək.**

Gənc qız imanı üçün ağlayırdı, çünki o, təsəvvür edirdi ki, dəstəmaz almaq imanından dönmək idi. O bilmirdi ki, bədəninə hər nə olsa da, Məsihə imanı onun qəlbində idi. O, həm də qorxudan ağlayırdı, çünki bilirdi ki, qrupda olan başqa kişilər, qadınlar və uşaqlar ilə birlikdə sünnət oluna bilər. Məcbur edilmiş sünnət yeni dini qəbul etməyin sonuncu addımı idi. O, yeni din istəmirdi və ona görə də Allaha fəryad edirdi.

İndoneziya dözüm sığınacağı idi. Baxmayaraq ki, dünyada olan istənilən başqa ölkədən daha çox bu ölkə müsəlmanlar üçün ev idi, burada azacıq problemlər var idi. Müsəlmanlar, məsihçilər və buddistlər qismən ədavət ilə birlikdə işləyərək yanbayan yaşamışdılar.

Bu dəyişmişdi. Radikal müsəlmanlar xalqı cihada və ya müqəddəs müharibəyə sürükləmişdilər və hər bir məsihçi indi hədəf idi. Bir çoxları həyatlarını xilas etmək üçün müsəlman duasını edirlər; amma ürəklərində Allaha fəryad edirlər, bilirlər ki, xilası yalnız O verə bilər.

*İnsanlar bizi xaricdən dəyişməyə çalışırlar. Amma yalnız Allah bizi daxildən dəyişə bilər. Biz Məsihi tanımazdan qabaq çox vaxt həyatlarımız üçün dünyanın standartlarına uyğunlaşmağa çalışırıq və özümüzü isə nəzərdən qaçırırıq. Biz məcbur edilirik ki, heç vaxt olmaq istəmədiyimiz bir insan olaq. Amma Allah insanları daxilən bir dəfə dəyişdikdən sonra onlar əbədi olaraq dəyişilirlər. Biz geriyə qayıda bilmərik. Biz öz köhnə mənliyimizə yenidən qayıda bilmərik. Bu hekayədə olduğu kimi bizə də başqaları təsir edə bilər və üzərimizdə hansısa bir dərəcədə nəzarəti ələ keçirə bilər. Amma onlar artıq Məsihin bizi dəyişdirdiyi kimi bir daha bizi dəyişdirə bilməzlər. Siz Müqəddəs Kitabın öyrətdiyi "dəyişikliyi" hiss etmisinizmi?*

O dedi: "Sizə doğrusunu deyirəm: əgər siz yolunuzdan dönüb uşaqlar kimi olmasanız, Səmavi Padşahlığa əsla daxil ola bilməzsiniz."

*Matta 18:3*

# Böyük nəzakətlilik

**RUSİYA:** PAYOTT

**Emmausa gedən yolda dirilmiş Xilaskar iki həvari ilə Yerusəlimdə yenicə baş vermiş hadisələr haqqında danışaraq gedirdi. Baxmayaraq ki, həvarilər onu tanımamışdılar, O onlara Məsih üçün Allahın planı haqqında danışmışdı. Onlar şəhərə gəlib çıxanda İsa özünü elə göstərdi ki, sanki bir az da irəliyə getməli idi. Niyə? O, dayanıb söhbəti davam etdirmək istəmədi?**

Rusiyalı imanlı Payott üçün İsanın hərəkətləri nəzakətliliyi göstərmişdi. O, həqiqətən, istəsəydi, qalardı. Payot kommunistlərin ölkədə hədlərini aşdığını görürdü. Polis istədiyi vaxt insanların evlərinə soxulurdu. Nəhayət, bir məsihçi Xilaskarın hekayəsini onunla bölüşdü, O, Payottun ürəyini astaca döyürdü və icazə verilən vaxt oraya girməsini gözləyirdi. Həlim İsa Payotda böyük təəssürat yaratdı və könüllü olaraq ürəyinin qapısını açdı. İsa Payottun Xilaskarı və Rəbbi oldu.

Payott tövbənin nə məna daşıdığını bilirdi. O dəyişilmişdi. Allah onu gizli yığışan məbədə xidmət etməyə göndərdi. Burada o, başqalarından çox şey öyrəndi. Böyüyən məsihçilər ona necə şəhadətik etməyi və imanını məşq etdirməyi göstərdilər. Tezliklə, Payott məsihçi ədəbiyyatlarını Rusiyaya qaçaqmalçılıq yolu ilə gətirərək saysız-hesabsız səfərlər etdi. O, get-gedə daha da cəsarətli oldu. O, sadəcə, şagird olmaq istəmirdi, başqalarını Məsihə gətirərək şagird etməyi də arzulayırdı.

Nəhayət, o həbs olundu. Onun başına nə gəldiyini heç kim bilmir.

*Rumıniyalı pastor Riçard Vurmbrand bir dəfə söyləmişdi: "Biz Məsih üçün qəlbləri qazanmaq işində heç vaxt dayanmamalıyıq. Bunu etməklə biz yalnız işin yarısını görürük. Məsih üçün qazanılmış istənilən qəlb də öz növbəsində qəlb qazanan olmalıdır. Rusiyalılar təkcə tövbə edən insanlar deyildilər, eləcə də gizli yığışan məbəddə "müjdəçilər"ə çevrilmişdilər. Onlar ehtiyatsız idilər və Məsihin işi üçün cəsarətlə dolu idilər." Payott kimi insan xilas olub başqalarını xilas etməklə necə böyüyür? Payotta kimsə necə məsihçi olmağı göstərdiyi kimi, kimsə də ona imanda böyüməyi göstərmişdi. İnsanlara Məsih üçün daha çox susamağı göstərməlidirlər. Sizin artan imanınız başqaları üçün nümunədirmi? Allah sizi şagird kimi, eləcə də şagird edən bir şəxs kimi çağırır.*

Lakin Rəbbimiz və Xilaskarımız İsa Məsihin lütfündə və Onu tanımaqda böyüyün.

*2 Peter 3:18*

# Böyük xatirələr

**KUBA:** TOM UAYT

**Onların kiçik təyyarələri Kubanın təcrid olunmuş adasında qəzaya uğramazdan əvvəl Tom və onun pilotu neçə ay müjdə kitabçalarını səpələməklə məşğul idilər, Kuba xalqının cavab verib-verməmədiyini heç vaxt bilmirdilər. İndi Combinado Del Este həbsxanasında iyirmi dörd illik həbs cəzası aldıqdan sonra Tom Kuba məbədinin vəziyyəti barədə ilk məlumatı eşitdi. Məbəd öz fəaliyyətini davam etdirirdi!**

Ona görüşdüyü bir çox məsihçilər ilə həbsxanada olmaq məmnunluq hissi bəxş edirdi. Amma kapitan Santos onu bir nəfərlik, soyuduculu kameraya yerləşdirdi. İndi müsbət mövqedə qalmaq və ürəyini kamera kimi soyuq olmaqdan saxlamaq bir mübarizə idi.

Yatmaq qeyri-mümkün idi, çünki döşəmə həddən artıq soyuq idi. Yeganə dinclik onun bir ayağını divara qoyub alnını oraya söykəmək idi.

O, təslim olmağa qarşı əqli mübarizə apardıqca himnlər və xor mahnıları oxuyurdu. O, bütün gücünü toplayıb, həbsdə olan qardaşlarının gücünə diqqətini cəmlədi. Onlar Tomu ruhlandırırdılar və onun üçün dua etdiklərini söyləyirdilər. O, eləcə də yeniyetmə yaşlarında anasının ona verdiyi kitabdan bir çox ruhlandırıcı şəhadətlikləri də yadına salırdı.

Tom həmin kitabdan xatirələri yadına salmaqla əldə etdiyi ünsiyyətə görə çətin vaxtdan keçə bildi. Kitabın adı nə idi? *Foksinin "Şəhidlər kitabı*".

*Kimsə bizdən əvvəl buna oxşar sınaqlardan keçəndə özümüzün sınaqdan keçmək prosesimiz asanlaşır. Bu, şəxsi hekayənin gücü adlanır. Kiminsə həyat təcrübəsini oxumaq bizə kömək edir ki, öz vəziyyətimizə düzgün nəzərlərlə baxaq. Bəzi vaxtlar biz özümüzü Tomun bir nəfərlik kamerasında hiss edirik. Ola bilsin ki, nəyisə təklikdə keçiririk. Belə yalqız vaxtlarda ən yaxın dostlarımız başqa cəsur imanlıların hekayələridir. Şəhidlərin və başqa məsihçilərin həyatları ət-qan dostlarımızın etdiyi kimi bizi sakitləşdirə, ruhlandıra və həvəsləndirə bilər. Siz çətinliklərdən keçirsinizmi? Öz tənhalığınızı məsihçi qardaşlarınızın və bacılarınızın hekayələri ilə sakitləşdirin. Bu gün güc, sabaha isə ümid əldə edin.*

Buna görə bir-birinizə bu sözlərlə təsəlli verin.

*1 Salonik. 4:18*

# BÖYÜK SADİQLİK

**Daha çox təqib – daha çox böyümə!**

Çində ev toplantısının pastoru Samuel Leymin sevimli sitatı –
İmanına görə iyirmi il həbsdə qalmış pastor



294cü gün

# Daha bir böyük müjdəçi

**HİNDİSTAN:** EMİ KARMİÇAEL

**1931-ci ilin oktyabrın 24-ü Emi Karmiçael dua etdi: "Allahım, mənimlə hər nə etmək istəyirsənsə, onu da et. Sənə daha yaxşı xidmət etməyim üçün hər bir şeyi et." O, Hindistanda müjdəçi və bütpərəst məbədlərdə fahişəlikdən xilas etdiyi uşaqların anası idi. Emi baş verəcək hər bir şeyə görə Allaha dua etməyə və etibar etməyə öyrəşmişdi.**

Elə həmin gün o yıxıldı, topuğu burxuldu və ayağını sındırdı. Ağırlaşmalara görə Emi ümidsiz halda şikəst oldu və növbəti iyirmi ilini yataq xəstəsi oldu.

Amma Emi öz vəziyyətinə görə götür-qoy etməklə vaxt itirmədi. O, yazıya və dünyada olan müqəddəsləri ruhlandırmağa doğru öz enerjisini yenidən topladı. O, öz yatağından minlərlə məktub göndərdi, on üç kitaba müəlliflik etdi və gözəl şerlər yazdı.

Sənin yaran yoxdurmu?
Yaran yoxdur? Çapığın yoxdur?
Amma qulluqçu Rəbb kimi əzab çəkir,
Onun ardınca gedən ayaqları yaralanır;
Lakin sənin ayaqlarında yara yoxdur:
Yarası və çapığı olmayan Onun ardınca
uzun yol gedərmi?

*Emi Karmiçaelin "Dağ mehləri" kitabından götürülüb. © 1999, Dohnavur Fellowship. Christian Literature Crusade tərəfindən nəşr olunub, Fort Washington, PA. İcazə ilə istifadə olunub.*

*Emi şikəst oldu, amma yaraları onu Allaha daha da yaxınlaşdırdı. Çapıqlarına görə o, daha yaxından tanımalı olduğu Xilaskarı ilə yaxın ünsiyyətdə idi. Xüsusi faciədən keçmiş insanlar bir-biriləri ilə danışırlar və dərhal ünsiyyət qururlar. Boşanmış ailədən olan insanlar bir-birilərini yaxşı anlaya bilirlər. Məsih ilə də belədir. Biz əzab çəkərkən İsa ilə tamamilə fərqli bir səviyyədə danışmağa başlayırıq. Biz bilirik ki, o, bizim ağrılarımızı hiss edir və biz də Onun ağrılarını qismən hiss edirik. Sizin yaralarınız İsa haqqında sizə nə öyrədir? Siz yaralarınıza icazə verirsinizmi ki, sizi daha yaxın ünsiyyətə cəlb etsin?*

Amma Allah əzabkeşləri əzablarından xilas edər, dara düşəndə onlara səsini eşitdirər.

*Əyyub 36:15*

# Böyük kod

**RUMINİYA:** PASTOR RİÇARD VURMBRAND

**Zirzəmidə yerləşən kamerada tək olan pastor Allaha şikayət etdi: "Sən deyirsən ki, günəşi və yağışı yaxşılara və pislərə verirsən. Yaxşı, bu, nə deməkdir? Mən pisəm, yoxsa yaxşı?"**

Allah bu sözləri onun ürəyinə qoydu: "Sən tamamilə başqasan – Allahın övladısan. Allahın övladı günəşi və yağışı gözləmir. O özü günəşi verməlidir. Sən qaranlıq dünyada nursan, ona görə də nur saç. Səndə olmayan şeylər haqqında şikayətlənmək əvəzinə, bəlkə başqalarına nəsə verəsən? Sənin ətrafında başqa kameralarda çoxlu qəlblər var."

Pastor Vurmbrand dua etdi: "Mən kamerada tənha oturduğum bir halda kiməsə xilası necə çatdırmalıyam?"

"Bunu sən özün fikirləş."

Riçard Vurmbranda sonra bir ideya gəldi və o, divarları tıqqıldatdı. Əlbəttə ki, cavab olaraq o tərəfdən tıqqıltı səsi gəldi. Sonra o, hər iki tərəfdə olan məhbuslara Morze kodunu öyrətməyə davam etdi. Nəhayət, onlar səmərəli surətdə ünsiyyət qura bildilər və Riçard Müjdəni vəz etməyə başladı. Ətrafda olan məhbuslar da öz növbələrində eyni şeyi yan kameralarda etdilər.

Onun yeni ideyası Allaha imkan verdi ki, olduqca ümidsiz görünən bir vəziyyəti bütün həbsxana boyunca Müjdəni paylamağın səmərəli metoduna çevirsin.

Neçə illər sonra Riçard bir nəfərin şəhadətliyini eşitdi, həmin rumın şəxsin dediyinə görə o, həbsxanada olarkən qonşu kamerada olan məhbusun divarı tıqqıldatması ilə Məsihi əldə etmişdi.

*Faktlarla üzləşmək çətin tapşırıqdır. Pastor Vurmbrand öz vəziyyətinə qiymət verəndə faktlar yaxşı görünmürdü. Amma onun əzabları onu yeni kəşf etməyə gətirib çıxardı. O aşkar etdi ki, insanın münasibəti faktlardan daha vacibdir. Yeniləşmiş ümid ilə silahlanaraq o, faktlara yenidən qiymət verməyə başladı. O, danışa bilmirdi. Amma Morze kodunu tıqqıldada bilirdi. O, hətta Müjdəni – Onun həqiqi sevgisini bölüşə bilirdi. Vəziyyətlərimiz bizə qarşı dayananda biz münasibətlərimizə diqqət yetirməliyik. Biz Məsih kimi əzablara hazırlaşmalıyıq. Amma bir şeyi qərara gəlməliyik ki, əzab bizi məğlub etməyəcək. Biz ondan canımızı qurtara biləcəyik. Siz faktlara daha çox diqqət verirsiniz? Yoxsa siz iman qəhrəmanısınız?*

Beləliklə, Məsih cismən əzab çəkdiyinə görə siz də eyni düşüncələrlə silahlanın.

*1 Peter 4:1*

# Böyük zəhmət

## ŞİMALİ VYETNAM: DA QARDAŞ

**Da qardaş ilk dəfə qısadalğalı radioda məsihçi proqramını dinləyəndə şimali Vyetnamda kommunist partiyasının sadiq üzvü idi. Əvvəlcə bunu səfeh bir mövhumatçılıq kimi rədd etdi, amma iki ay dinlədikdən sonra artıq Məsihə qarşı dura bilmədi. O, Allahın sevgisi barədə sevinclə dolmuşdu və bu, onun ürəyini bürüyürdü. O, tezliklə qonşularından çoxunu Məsihə gətirdi.**

Amma onun sevinci uzun sürmədi. 1998-ci ilin dekabrın 29-da Vyetnam polisi Danın müjdəçilik fəaliyyətlərindən qəzəblənərək onun evinə basqın etdilər və başına silahı dirəyək evdən çıxardılar. Onu həbs düşərgəsinə aparanda həyat yoldaşı və dörd uşağı yalnız uzaqdan ona baxa bildilər.

Ağır şəraiti olan əmək düşərgəsində Danı məcbur etdilər ki, kərpic fabrikində çalışsın. Hər gün o, iki min kərpic daşıyırdı. Əgər o, gündəlik normanı yerinə yetirməsəydi, amansızcasına döyülürdü. Artıq o, bu çətin işə dözmədiyini düşünəndə 2000-ci il, oktyabrın 15-ində onu azadlığa buraxdılar.

O, ev dustağı olsa da, ona əmr etmişdilər ki, imanını bölüşməsin. Ona deyilmişdi: “Sən yenicə əmək düşərgəsindən qayıtmısan. Yenidən oraya qayıtmaq istəyirsən? Diqqətlə fikirləş.”

Amma Da Allah üçün “sevgi zəhmətinə” özünü həsr etmişdi və ətrafında olanlara Məsihi çatdırmaq işini davam etdirdi. Heç bir fiziki iş – hətta gün ərzində iki min kərpic daşımaq belə – onu bu işdən saxlaya bilməz.

*Çox az insan etiraf edər ki, hər gün işə getməyi sevir. Bəziləri üçün iş qaçılmaz bir şərdir. Amma Allah barədə şəhadətlik etməklə işləyən insanların tamamilə fərqli düşüncə tərzləri var. Allahın işi heç vaxt üzücü iş deyil. Amma biz həmişə Müjdəni hər bir yerdə yaymağa çalışırıq. O, əlimizdə olan tapşırıq üçün bizə enerji, çətin vaxtlarda isə dözüm verir. Niyə məsihçilər belə çox işləyirlər? Bu maaşdır? Bu mükafatdır, əlavə qazancdır, yoxsa başqa dəyərlərdir? Xeyr, məhəbbət bizi oyadır ki, hər bir şeyimizi Allahın xidmətinə verək. Əgər siz Məsihi sevirsinizsə, siz Onun üçün sevinə-sevinə işləyəcəksiniz. Bu gün Allah Öz xidmətində sizi nə etməyə çağırıb?*

Çünki imandan yaranan əməllərinizi, məhəbbətdən doğan zəhmətinizi və Rəbbimiz İsa Məsihə bağladığınız ümidin verdiyi dözümü Atamız Allah qarşısında daim yada salırıq.

*1 Salonik. 1:3*

# Böyük xahiş

**ŞİMALİ KOREYA:** QONAQ GƏLƏN MÜJDƏÇİ

**Oğlan qonaq gələn "biznesmeni" mehmanxanada tapanda onun yanına qaçdı və əlindən tutdu. Mat qalmış qonaq əlini kənara çəkməyə çalışdı, amma tezliklə aşkar etdi ki, oğlan barmağı ilə ovcunda səssizcə çarmıx işarəsini çəkir. Məbəd ilə əlaqə saxlamaq üçün dua edən bu müjdəçi arıq oğlanın sifətinə baxıb dərhal anladı ki, "Şimali Koreyada məbəd sağdır!"**

Növbəti gün müjdəçi oğlanla gizlicə görüşdü. O öyrəndi ki, oğlanın atası neçə illər əvvəl həbs edilmiş məsihçidir. Oğlanın ailəsi qəddar hökumətin rəhbərliyi altında çox əzab çəkmiş və sağ qalmaq üçün başqalarından yemək istəyirdilər. İndi quraqlıq olduğu üçün hər yerdə insanlar pis qidalanmadan ölürdülər.

Müjdəçi oğlan üçün nə edə biləcəyini soruşanda əmin idi ki, oğlan ondan ailəsi üçün yemək istəyəcək. Amma oğlan ondan ancaq dörd şey istədi: oğlanın neçə illər yığıb saxladığı ondabirini götürüb onu vəftiz etsin, ona Rəbbin Süfrəsini versin və yaxşı bir Müqəddəs Kitab versin.

Kişi oğlanın müdrikliyini görəndə göz yaşları ilə doldu. Fiziki yardım ona yalnız bir-iki gün kömək edə bilərdi, sonra o, yenidən həmin vəziyyətə qayıdacaqdı. Ruhani kömək isə onu əbədiyyət üçün hazırlayacaqdı.

*Nəsə istəmək və nəyəsə ehtiyacı olmaq bir çox insanlar üçün tamamilə fərqli şeydir. Onların istədikləri onların ehtiyacı olduqları şeylər deyil. Amma onların ehtiyacı olduqları şeylər onların ən çox istəmədikləri şeylərdir. Ona görə bir çox insanlar hirslənirlər. Bu hekayədə olan uşaq bizə öyrədir ki, bütün istəklərimiz bütün ehtiyaclarımız ilə bir olanda nə baş verir. O, düzgün şeyləri istəyirdi. O özünə ən çox lazım olan əsas şeyi istəmişdi: İsa Məsihi. Sizin bütün istəkləriniz bütün ehtiyaclarınız olanda siz böyük məmnunluq əldə edəcəksiniz. Siz, ola bilsin ki, pul istəyirsiniz, amma tezliklə aşkar edəcəksiniz ki, pul yalnız bir çox ehtiyacları ödəyir. Sizə, ola bilsin ki, pul lazımdır, amma tezliklə başqa şeyləri də istəyəcəksiniz. Yalnız İsa eyni vaxtda həm istəklərinizi, həm də ehtiyaclarınızı təmin edə bilər.*

Sizin hər ehtiyacınızı isə Allahım Məsih İsada olan Öz izzətli zənginliyinə görə ödəyəcək.

*Filip. 4:19*

# Böyük duruş

**NİGERİYA:** SARATU TURUNDU

**"Mən qaçmayacağam. Mən dayanmağa hazıram."**

Saratu Turundunun otuz beş yaşı var idi və ərdə deyildi. O, uşaqları çox sevirdi və çox istəyirdi ki, öz uşaqları olsun, amma Allah onun duasına cavab vermədi.

Saratu özünü Allaha və məbədə həsr etməyə qərar verdi. O, məbəd ailəsini bütün ürəyi ilə qəbul etdi. O, xüsusilə dirilmə məktəbində dərs keçməyi sevirdi. Onun uşaqlar ilə qarşılıqlı ünsiyyəti və onlara Məsihə gedən yolu göstərmək imkanı Saratunu ağlasığmaz sevinc ilə doldurmuşdu. O bilirdi ki, Məsihsiz heç vaxt xoşbəxt ola bilməz.

Amma onun şəhəri Kadunaya hökmranlıq edən fanatik müsəlmanlar məsihçiləri təqib etməyə başladılar. O, başqa kəndlərdə məsihçilərin təqib olunduğunu, evlərinin və əmlaklarının yandırıldığını eşitmişdi. Onlardan bəziləri hətta döyülüb öldürülmüşdülər.

Ona görə də izdiham Kaduna şəhərində məsihçilərə hücum edəndə Saratu artıq qərara gəlmişdi ki, orada qalacaq və Məsihi müdafiə edəcək. Saratunun qardaşları ona yalvardılar ki, onlarla birlikdə meşəyə qaçsın. Amma o, hirsli izdihamın onun sevimli məbədini yandırdığını görsə də, getmək istəmədi. Müsəlmanlar binanın ətrafına benzin töküb alışdırarkən o, öz evində diz çöküb dua edirdi.

Ailəsi və dostları Saratunu mehriban, hər bir kəsə məhəbbət göstərən rəhmli bir insan kimi xatırlayırlar. O, Xilaskarını sevərək öldü.

Xidmətçi haqlı çıxacaq, çünki Rəbb
onu haqlı çıxarmağa qadirdir.

*Roma. 14:4*

*İnsan gücündən artıq güc haqqında danışılan hekayələr maraqlı olduqları halda, həm də ruhlandırıcıdırlar. Biz ağır yol qəzalarında anaların yanan maşınlardan uşaqlarını çıxarmalarına dərin hörmət bəsləyirik. Adrenalinin hesabına insan bədəni heyrətamiz igidliklər etməyə qadirdir. Adrenalin insan əzələlərimizə təsir göstərdiyi kimi imanımız da heç vaxt mümkün ola bilməyəcəyini düşündüyümüz şeyləri həyata keçirməkdə ruhani əzələlərimizə güc verir. Saratu öz şəhərində Məsihi müdafiə etməyi qərara gələndə ruhani əzələlərini əymişdi. O, ola bilsin ki, həmin ana qədər heç vaxt düşünməmişdi ki, bunu etməyə gücü var. Amma Allah ona bu gücü verdi. Həyatda elə bir şey olubmu ki, siz heç vaxt edə bilməyəcəyinizi düşünmüsünüz? Bu gün Allaha sadiqliyinə görə minnətdarlığınızı bildirin ki, sizi möhkəm saxlasın.*

# Böyük intiqam

**İSPANİYA:** BARTOLOMİ MARKİZ

**“Mən səndən xahiş edirəm, intiqam alasan...”**

İspaniyalı şəhid Bartolomi Markizin məktubunu oxuyanlar onun sonuncu məktubunda intiqam almaq sözlərini görəndə məəttəl qaldılar. Sonra onlar gördülər ki, bu sözlərlə o özünə görə qisas almaq üçün qan tökməyi deyil, amma daha çox insanın İsanın qanının altına gəlməsini xahiş edir.

“Mən sizdən xahiş edirəm ki, mənə pislik edənlərə yaxşılıq etməklə məsihçi intiqamını alasınız” – Markiz başqa imanlıları ruhlandırırdı. “Mən tezliklə gedəcəyim yerdə, cənnətdə sizi görəcəyimə ümid edirəm.”

İspan kommunistlər 1939-cu ildə bir neçə pastor ilə birlikdə Markizi öldürdülər. Onun sonuncu məktubu həyat yoldaşı və məsihçi bacı-qardaşları üçün sevinc məktubu idi.

“Bir neçə saatdan sonra Xeyir-dualının izhar olunmaz sevincini yaşayacağam. Məsih naminə təqib olunanların ölümü necə də asandır! Allah mənə layiq olmadığım imtiyazı verir: Onun lütfündən həzz alaraq ölmək.

O, həyat yoldaşına yazırdı: “Nə qədər ki, mənim ürəyim döyünür, o, sənə sevgi ilə döyünəcək. Mən dinin, vətənin və ailənin yüksək ideallarının müdafiəsi uğrunda məhkum edilərkən göylərin qapısı mənim üçün açıldı. İndi daha çox olan sevgimizin xatirəsinə görə səndən xahiş edirəm ki, canının xilasını ali borcun hesab edəsən. Bununla biz cənnətdə əbədiyyət üçün birləşmiş olacağıq. Orada heç kəs bizi bir-birimizdən ayırmayacaq.”

*Məsih üçün əzab çəkənlər daha böyük mənzərəni görmək bacarığına malik olmalıdırlar. Müqəddəs Kitab bizə fərdi həyatlar barədə öyrədən hekayələr ilə doludur. Amma həmin həyatlar daha böyük plana – Allah ilə şər arasında döyüşə uyğunlaşır. Daha böyük mənzərə imkan verir ki, müqavimətin və əzabın arxasında şeytanın necə durduğunu görək; ona görə də bizə qarşı duranlardan intiqam almalıyıq. Onlar, sadəcə olaraq, şeytanın planında şahmat oyununda olan piyada kimidir. Markiz kimi şəhidlər bizə xatırladır ki, şeytanın hücumlarına görə qisas almaq üçün hücumçuları Məsihə gətirməkdən daha böyük intiqam ola bilməz. Dövlətin qəddar rəhbərləri və rejimlər üçün dua edin. Elə insanlara Müjdəni paylaya bilmək imkanı olan müjdəçiləri və başqa insanları dəstəkləyin.*

Sülh qaynağı olan Allah Şeytanı
tezliklə ayaqlarınızın altında əzəcək.

*Roma. 16:20*

# BÖYÜK SADİQLİK

**Məbəd həmişə təqib olunub və olunacaq. Hər kəs bizə baxır. Əgər biz imanda, ümiddə və sevgidə ölsək, bu, xalqların tarixini dəyişə bilər. Əgər biz imanımız üçün sevgidə və ümiddə qala bilməsək, xalqlar çox vaxt Məsihi inkar edəcəklər.**

Çində və Şimali Koreyada işləyən müjdəçidən



301 gün

# Böyük müdaxilə

**RUMINİYA:** COANA MİNDRATZ

**Coana Mindratz öz hərəkəti ilə bir çoxlarını təəccübləndirmişdi. O, cəsarətlə polisə yaxınlaşıb dedi: "Allahın xalqından olan Məsihin altı şagirdi burada əzab çəkir. Mən də onlarla əzab çəkmək istəyirəm." Tezliklə o da həmin gün bir az əvvəl həbs olunmuş insanlar – yəhudi məsihçi pastor, onun həyat yoldaşı və başqa dörd məsihçi ilə birlikdə mahnı oxumağa başladı.**

Rumıniya dövləti Almaniya faşizm ilə müttəfiq olandan bəri dəhşətli bir dərəcədə yəhudiləri təqib edir və öldürürdü. Amma bu yəhudi məsihçi ər-arvadı – pastor Riçard Vurmbrandı və həyat yoldaşı Sabinanı – bütün Rumıniya yaxşı tanıyırdı və sevirdi.

Məhkəmə günü bir neçə məşhur dini rəhbər Vurmbrandın tərəfini tutmaq üçün gəlmişdi, həmin rəhbərlər ümid edirdilər ki, onların müdaxiləsi ər-arvadı azad edəcək. Amma birdən səma sovet döyüş təyyarələri ilə doldu və tez hamını, eləcə də məhbusları bomba sığınacağına saldılar. Orada pastor Vurmbrand hakimlər də daxil olmaqla qrup üçün dua etməyə imkan tapdı. Onun duası həqiqətən imana və tövbəyə cildini dəyişmiş bir çağırış idi, təhlükə sovuşandan sonra məhkəmə yenidən başlandı və möcüzə baş verdi.

Allah həmin böhran zamanı hakimlərin ürəyini dəyişdirdi və Vurmbrand azadlığa buraxıldı! Bir hakim əlavə etdi: "Polis altı insanı həbs edib, amma mənim qarşımda yeddi insan dayanıb. Burada aydındır ki, nəyisə səhv salıblar. *Məhkəmə* buraxılır!"

Əslində yəhudilərin ittiham olunduğu həmin dövrdə bu, yeganə məhkəmə işi idi ki, yəhudilər bəraət almışdılar.

*Bu, izah olunmazdır. İnanılmaz bir şeydir. Allah nə vaxt bizim gerçəkliyimizə addım atır, Onun ayaq izləri aydın görünür. Ətrafımızda olan insanlar, imansızlar da daxil olmaqla anlayırlar ki, bizi kimsə qoruyur. Onlar ona bizi qoruyan "Allah" və ya "Qoruyan Mələk" kimi baxırlar. Amma bir məsihçi kimi bilirik ki, göylərdəki Atamız güclüdür və möcüzəyə ehtiyacımız olanda onu törətmək üçün qayğımıza qalır. Öz həyatınızda və ya əzizlərinizin həyatında Allahın müdaxiləsi barədə şəhadətlik etməyə imkan olubmu? Allahın həyatınızda müdaxilə etdiyi üçün bu gün Ona minnətdarlığınızı bildirin.*

Mənə həyat verdin, sevgi göstərdin, qayğıma qalmağınla ruhumu hifz etdin.

*Əyyub 10:12*

# Böyük müdafiə

**UKRAYNA:** VERA YAKOVLEVNA

**Bir Ukrayna şəhərində saysız-hesabsız məsihçilər imanlarına görə artıq Sibir əmək düşərgələrinə göndərilmişdilər. İndi isə Vera Yakovlevnanın növbəsi idi. Bu düşərgələrin adı hamıya məlum idi və o əmin idi ki, oradan sağ çıxmaz.**

Mühafizəçi onun Məsih haqqında şəhadətlik etdiyini görəndə Veranın cəzası saatlarla buzun üstündə ayaqyalın dayanmaq olurdu. O, gündəlik iş normasını yerinə yetirməyəndə döyülürdü və axşam yeməyi olan sulu bulyondan məhrum olurdu.

Bir axşam sıxıntı içində olan və ağlayan Vera tək qalmaq üçün həbsxananın bağçasında gəzişməyə başladı. Bu acınacaqlı vəziyyətində o, qadağan olunmuş zonanı keçdiyini bilmədi, əslində, bu zonanı keçən məhbuslar oradaca güllələnirdilər.

Birdən kobud bir səslə kimsə qışqırdı: "Ey, sənin anan məsihçidirmi?"

Çaşqınlığa düşmüş və qorxudan əsən Vera, əslində, həmin dəqiqələrdə anasını düşünürdü. O dedi: "Siz nəyə görə soruşursunuz?"

Mühafizəçi dedi: "Çünki mən on dəqiqə olar ki, sənə baxıram, amma səni güllələyə bilmirəm. Mən qolumu tərpədə bilmirəm. Əslində, mənim qolum sağlamdır – mən bütün günü onu hərəkət etdirmişəm. Ona görə də mən belə fikirləşdim ki, sənin üçün dua edən anan var. Geriyə qaç – mən başqa tərəfə baxacağam."

Vera səhəri gün həmin mühafizəçini gördü. O, Veraya baxıb gülümsədi və qolunu qaldırıb dedi: "İndi mən onu yenə də tərpədə bilirəm."

*Biz təhlükəsiz oynamağı xoşlayırıq. Biz macəralar üzərində zəmanətin olmasını xoşlayırıq. Biz çətin işi rahat etməyə üstünlük veririk. Çətinlik gələndə həyatlarımızı mümkün qədər şübhədən və qorxudan mühafizə etmək istəyirik. Amma biz unutmuşuq ki, Allahın xidmətində ön cəbhədə olanda O, bizi qoruyur. Allahın müdafiəsi evdə rahatlığımız üçün təhlükəsizlik ədyalından daha çox döyüşdə bir qalxana bənzəyir. Sadəcə, Allahın müdafiəsinə arxalanmalı olduğunuz iman addımını axırıncı dəfə nə vaxt atmısınız? Siz həyatınızı mühafizə etməklə həddən artıq məşğulsunuzmu ki, Allaha necə etibar etməyi unutmusunuz? Siz həddən artıq ehtiyatlısınızmı ki, Allah üçün heç vaxt risk etmirsiniz? Nəticədən asılı olmayaraq, şəhadətlik sadəcə "risk" deyil. Bu, imandır.*

O, ədalətin yollarını qoruyur,
möminlərin yollarını hifz edir.

*Sül. Məs. 2:8*

# Böyük qərar

**RUMINİYA:** RİÇARD VƏ SABİNA VURMBRAND

**Ölkədən qaçmaq üçün çox da gec deyildi; minlərlə insan özlərinə çıxış yolu tapa bilirdilər. Pastor ilə həyat yoldaşı bilmirdilər ki, getsinlər, yoxsa qalsınlar. "Əgər biz həbsxanaya getsək, illərlə orada qalacağıq. Bəs onda oğlumuz necə olsun?"**

Amma onlar məbədlərini tərk etmək istəmirdilər. Məbəd üzvlərinin onların qüvvəsinə və dəstəyinə ehtiyacları var idi və buna görə də insanları tərk edib getməkdə özlərini təqsirkar hiss edirdilər. Dostlarından biri mələyin Luta dediyi sözləri onlara xatırlatdı: "Öz canını qurtar, arxana baxma."

Pastor təəccübləndi: "Bu söz Allahdan idimi? Canımızı qurtaraqmı?"

Onun həyat yoldaşı başqa bir ayə oxudu. "Kim canını xilas etmək istəyirsə, onu itirəcək, amma kim Mənimlə Müjdə uğrunda canını itirirsə, onu xilas edəcək" (Mark 8:35).

Beləliklə, bu müzakirə gizli ev toplantısının gecə duasına qədər davam etdi, burada əlliyə yaxın imanlı gecə duasına yığışmışdı. Gecə yarısına yaxın diz çökmüş insanların içərisindən bir qadın belə dua etdi: "Çıxıb getməyi düşünən sizlər – yadda saxlayın ki, Yaxşı Çoban öz sürüsünü atmır. O, axıra qədər qalır."

Bu qadın pastor və həyat yoldaşının mübarizəsi haqqında heç nə bilmirdi, amma onlar üçün bu sözlər aydın idi. Onlar qaldılar və sürüyə xidmət etməyə qərar verdilər və sonra onlarla birlikdə həbsxanada əzab çəkdilər.

*Vurmbrandlar kimi biz də qərarlarımız üçün dua etməliyik, Müqəddəs Kitabı araşdırmalıyıq və başqalarının məsləhətinə qulaq asmalıyıq. Vurmbrandlar kimi biz də cavab almazdan əvvəl Allaha itaət etməyə özümüzü həsr etməliyik. Bu, başlıca amildir. Bu, sanki nə etməli olduğumuzu soruşmazdan əvvəl bizim duadan əvvəl "Bəli" ilə başlamağımızdır. Biz öz həyatlarımızdan əl çəkməyə hazır olmalıyıq və bütün sahibkarlıq hissini itirməliyik. Yalnız bundan sonra biz həqiqi həyatımızı və Allahın həyatlarımız üçün tam iradəsini tapırıq. Həyatınızda çox vaxt möhkəm tutub saxladığınız, Allah hansısa qərar barədə fikrinizi dəyişmək istəyəndə ona heç cür icazə vermədiyiniz hallar olurmu?*

Kim canını xilas etmək istəyirsə, onu itirəcək, amma kim Mənimlə Müjdə uğrunda canını itirirsə, onu xilas edəcək.

*Mark 8:35*

# Böyük ad günü şənlikləri

**RUSİYA**

**"Bu gün mənim ad günümdür, yoxsa sənin?" – bir göz qırpımında məsihçi soruşdu.**

"Səninki bu gündür" – ata dedi. "Mənimki isə keçən həftə idi." Kommunist ölkələrində ad günləri başqa imanlılar ilə birlikdə yığışmaq üçün böyük səbəb idi. Bəzi ailələr əslində gizli məbəd toplantısı olan ad günü şənliyi üçün hər həftə yığışırdılar.

Cavan insanlar bu "şənliklər"dən Müjdəyə həsr olunmalarını möhkəmləndirmək üçün istifadə edirdilər. 1966-cı ildə Rusiyada üç gənc oğlan və dörd qız qatarda ilahi oxuduqları üçün həbs olundular.

Məhkəmədə yeddi gənc diz çökdülər. "Biz özümüzü Allahın əllərinə təslim edirik" – onlar hakimin və yığışmış şahidlərin qarşısında belə söylədilər. "Rəbbimiz, imana görə əzab çəkməyə icazə verdiyin üçün Sənə minnətdarıq."

Onların etirafından sonra məhkəmə zalında olan başqa məsihçilər gənclərin həbsinə səbəb olmuş ilahini oxumağa başladılar. Onlar dedilər: "Gəlin, gənclərimizi Məsihə həsr edək."

Kommunistlər məbədin görüşməsinə və böyüməsinə mane ola bilmədilər. Rusiyanın bir qəzetində üç dəfə həbsdə olmuş pastor haqqında danışılır. Hər dəfə onu azadlığa buraxdıqdan sonra o, dərhal gedib dirilmə dərsləri keçirirdi.

Bu imanlılar Allaha öz sadiqliklərini ifadə etmək üçün hər nə lazım idisə, ondan istifadə edirdilər. Onlar Allahın məbədinə xidmət edərkən ölkələrində ittiham olunmağa risk etmişdilər və əzab çəkmişdilər.

> Siz qısa bir müddət əzab çəkdikdən sonra sizi İsa Məsihdə Özünün əbədi izzətinə çağırmış, hər cür lütf verən Allah Özü sizi bərpa edəcək, möhkəmlədəcək, qüvvətləndirəcək və sarsılmaz təmələ oturdacaq.
>
> *1 Peter 5:10*

*Bizim fiziki əzələlərimizin daha da möhkəm olması üçün əvvəlcə onlar zəifləməlidir və məşqlər, eləcə də ağır iş nəticəsində dartılmalıdırlar. Buna oxşar olaraq, iman da əzələ kimidir, yalnız daha çox məşq edəndə böyüyür. Əzab çəkmək bizim imanımızın əzələsini məşq etdirir. Biz sınaqlar zamanı Allahın qarşısında dartılmalı və "zəifləməliyik". Amma biz nəticədə daha da möhkəmlənirik. Məhdudiyyətlər qoyulmuş məbədlər əzablarına görə nəhəng gücü nümayiş etdirirlər. Eyni şeyi biz Amerikada imanımız üçün deyə bilərikmi? Məşqlər bizi yorur – biz onu yerinə yetirmək istəmirik. Buna oxşar olaraq, əzab çəkmək haqqında düşüncə sizi narahat edə bilər. Amma siz imanınızı məşq etdirməsəniz, böyüyə bilməzsiniz.*

# Böyük aşkarlıq

**RUSİYA:** ADSIZ MƏHBUS

**Dul qadın dörd uşağından ikisinin əlindən tutaraq, şəhid olmuş ərinin cəsədinin yanında dayanmışdı. Onun əri həbsxanada ölmüşdü və cəsədində olan əlamətlər aydın göstərirdi ki, onu yavaş-yavaş və ağrı ilə öldürmüşdülər.**

Başqa imanlılar da belə talelərinin ola biləcəyini düşünürdülər, amma yüzlərlə imanlı insan onun dəfn mərasiminə gəlmişdi. O, tövbə edəndən üç ay sonra imanına görə ölmüşdü və indi onun üçün yas tuturdular.

İnsanlar dəfn mərasiminin keçirildiyi evin ətrafına yığışmışdılar və bir çoxları onun bu nümunəsindən ruhlanmışdılar. Həmin gün səksən insan camaat qarşısında Məsihi qəbul etdi, onların içərisində Kommunist Gənclər Təşkilatının üzvü olan çoxlu gənc də var idi.

Məsihçilər şəhərin o biri başına, çaya getdilər, burada onlar yeni imanlıları vəftiz etməyə başladılar. İndi izdiham artıq on beş minə çatmışdı.

Tezliklə sayca çoxlu polis gəlib çıxdı. Onlar xidmətin rəhbərlərini həbs etmək istədilər, çünki hər bir kəsi həbs edə bilməzdilər. Məsihçilər dərhal diz çökdülər, Allahdan xahiş etdilər ki, xidməti başa vurmaqda onlara imkan versin. Sonra onlar çiyinbəçiyinə dayanıb polisin irəliyə gəlməsinə mane olaraq vəftiz xidmətini davam etdirdilər. Bütün yeni imanlılar vəftiz olunduqdan sonra izdiham polisin irəliyə gəlməsinə imkan verərək səpələnməyə başladı.

Min nəfər insan bir yeni imanlının göstərdiyi nümunəyə görə ruhlanmışdı.

*Aşkarlıq sözü aydınlıq, görünmə; nümayiş; baxış, gözlə seçilən deməkdir. Sözün mənası aydındır. İmanımızın aşkarlığı da beləcə aydındır. Bu hekayədə olan kişi İsanı nümunə kimi götürmüşdü. Aydın və sadə. Onun aydın nümunəsinin nəticəsində çoxlu başqa imanlılar da öz imanlarını aşkar etməkdə eyni nümunəni götürmüşdülər. Beləliklə, bizim də həyatlarımız ətrafda olanların hamısına Məsihə olan imanımızı aydın şəkildə nümayiş etdirməlidir. Başqaları sadəcə sizin nümunənizə baxmaqla Məsihin ardınca necə getməyi bilərlərmi? Onlar sizin imanınızı nümunə götürməyə cəlb olunarlarmı? Ehtiyatlı olun ki, imanınızın aşkarlığını ritorik və ya başqa dini çaşqınlıqlar ilə dolaşıq salmayasınız. Sadəcə, Məsih kimi olun və başqaları sizin ardınızca gələcək.*

Allahdan nümunə götürün.

*Efes. 5:1*

# Böyük ayələr

## KOMMUNİST ÖLKƏLƏRİ: GİZLİ MƏBƏD

**"Müqəddəs Kitab həqiqiliyində qalır, hətta şeytan ondan sitat gətirsə də."**

Əvvəlcədən Müqəddəs Kitabı ələ salmaq ideyası olub ki, özünə hörmət edən heç bir insan ona inanmasın. Bu planı həyata keçirmək üçün milyonlarla kitab nəşr olunmuşdu, buraya "*Komik Müqəddəs Kitab*", "*İmanlılar və İmansızlar üçün Müqəddəs Kitab*" daxildir.

Bu kitablar İsanı ələ salırdılar, Onun möcüzələrini sual altına atırdılar və məsihçi imanının başqa cəhətlərini lağa qoyurdular. Amma tənqidlər o qədər çox idi ki, heç kim onlara ciddi yanaşmırdı. Kommunistlərin fikrincə, kitabın yanlışlığı barədə Kəlamın saysız-hesabsız ayələri "sübut" kimi mətnə daxil edilmişdi.

Gizli məbədin üzvləri bu "komik" kitablar çap olunan kimi onun nüsxələrini qapırdılar. Bu kitablarda verilmiş ayələr ruhani aclıq keçirənlər üçün ləzzətli bir qida idi. Bütün bunlar qanuni idi, onların Allaha nifrət edən hökumətləri tərəfindən nəşr olunmuşdu. İlyas ac olarkən qarğalar onu yedizdirdiyi kimi, Allah da kommunist ölkələrində aclıq çəkən övladlarını yedizdirmək üçün dövlətin nəşriyyatlarından istifadə etdi.

Nəşriyyat işçiləri bu kitabların yenidən nəşr olunması barədə minlərlə məktub alarkən sevinirdilər. Onlar cəld bu kitabların yeni nüsxələrini çıxarırdılar. Onlar bilmirdilər ki, bu məktublar gizli məbədin başqa üzvlərinə Allah kəlamı ilə dolu qiymətli kitabları paylamaq istəyən imanlılardan gəlib.

Vədlərin damağıma necə də ləzzət verir! Onlar dilimdə baldan şirindir.

*Məzmur 119:103*

*Məhdudiyyətlər qoyulmuş ölkələrə Müqəddəs Kitab göndərmək belə vacibdirmi? Şəhidlər və onların qərarları barədə hekayələri oxuyun. Müqəddəs Kitabı öz qiymətindən dörd dəfə ucuz, köhnə mal kimi satan ölkədə yaşayan bizlər ruhani aclıq keçirənləri həqiqətən qiymətləndirə bilmirik. Biz yazı stollarımızda Müqəddəs Kitabları qalaq-qalaq yığdığımız bir halda, başqa imanlılar məbəddə bölüşmək üçün bir nüsxəni əldə etməyə can atırlar. Sizcə, ədalətlidirmi ki, məbədlərlə dolu ölkələrdə, demək olar ki, hər bir ailədə Müqəddəs Kitablar var, amma məhdudiyyətlər qoyulmuş ölkədə heç bir kitab yoxdur? Ya Rəbb, bizim Kəlam üçün aclığımızı yenidən oyat və artıq acından ölənlərə Kəlamı çatdırmaq üçün bizi yeniləşdir! Bu gün məhdudiyyətlər qoyulmuş ölkələrdə Müqəddəs Kitabı paylamağa necə yardım etmək barədə düşünün.*

# BÖYÜK SADİQLİK

**İsa ilə dostluq baha qiymətədir. Yalnız iman xilas edir, amma xilas edən iman heç vaxt tək deyil. Bu, həmişə Məsih uğrunda böyük qurbanlar ilə müşayiət olunur.**

Pastor Riçard Vurmbrand



308 gün

# Böyük şəhadətlik

**SUDAN:** KUVA BAŞİR

**"Əgər mən ölsəm, çox xoşbəxt olaram, çünki başqa məsihçilərin ardımca gəlmələri üçün nümunə qoyacağam."**

Gənclər pastoru olan sudanlı Kuva Başir növbəti Müqəddəs Kitab dərsi üçün hazırlaşarkən dəhşətli, amma gözləmədiyi bir xəbər eşitdi. 1987-ci il idi və dövlətin Sudan müsəlman qoşunu indicə Blu Nayl ərazisini ələ keçirmişdi.

Hər bir kəsi islamı qəbul etməyə məcbur edən müsəlman qoşunu tezliklə Başiri həbs etdi. Başir azadlığa buraxılmazdan əvvəl yeddi gün döyüldü və ona işgəncə verildi, amma o, islamı qəbul etmədi. Ona deyildi ki, heç vaxt gənclər üçün fəaliyyətlər təşkil etməsin və ya bir daha məbədə getməsin, amma Başir bundan qorxmadı. O bilirdi ki, islam qüvvələri onun qəlbinə toxuna bilməzlər.

O, ikinci dəfə həbs ediləndə belə dedi: "Mən, İsa çarmıxda öldüyü kimi heç bir qorxu olmadan könüllü surətdə ölərəm." Başir onu həbs edənlərə Allah haqqında danışdı və zabit onu güllələməklə hədələdi. Bunun əvəzinə belə qərara gəldilər ki, Başirin əllərinə turşu töksünlər ki, islama qayıtmadığını daim yadda saxlasın.

Amma Başirin imanı möhkəm qaldı. Bu gün onun yanmış, faydasız əlləri Sudan Efiopiya sərhədi boyunca olan Bonqa qaçqın düşərgəsində birlikdə işlədiyi gənclər üçün canlı şəhadətliyə çevrildi.

*Şəhidlərin təsirli ölümləri vasitəsilə dedikləri xəbəri biz gündəlik həyatlarımız vasitəsilə bölüşməliyik. Biz Allahın lütfünə canlı şahidlər olmalıyıq. Ola bilsin ki, biz Məsihə olan imanımıza görə ölməyib heç vaxt şəhidlərin sırasına qoşulmayacağıq. Amma Onun üçün yaşamağa görə bizim gündəlik imkanlarımız var. Belə deyilir ki, "Bizi öldürməyən şey bizi daha da güclü edir." Biz əzablardan sağ çıxırıq ki, Allahın lütfü barədə başqalarına danışmaq üçün həyatımızı davam edək. Sizin həyatınız əzablardan çapıqlar əldə edibmi? Utanmayın. Qoy sizin çapıqlarınız şəhadətliyiniz olsun. Qoy onlar sizin sarsılmaz imanınızı görən bütün insanlara hekayənizi danışsın.*

Lakin əgər bir insan məsihçi kimi əzab çəkirsə, qoy bundan utanmasın, bu adı daşıyaraq Allahı izzətləndirsin.

*1 Peter 4:16*

# Gənc müjdəçilər

**RUMINİYA**

**Sovet işğalçıları onların ölkələrini qorxuya salsa da, rumın uşaqlar rus əsgərlərini görəndə onları əminliklə, gülər üzlə qarşılayırdılar.**

Əsgərlər uşaqların başlarını sığallayaraq mehribancasına onlarla salamlaşırdılar. Hər bir əsgər öz uşağı barədə düşünürdü, Rusiyada hər biri məcburi olaraq uşaqlarını qoyub gəlmişdi.

"Gəlin, sizə konfet verək" – zabitlərdən biri dedi. O, əlində bir ovuc şokoladı uşaqlara uzatdı, uşaqlar da sevinə-sevinə bu çətin tapılan şirniyyatı ondan aldılar.

"Çox sağ ol, cənab" – oğlan dedi. "Bizim də sizin üçün hədiyyəmiz var." Onlar əllərini ciblərinə salıb, rus dilində Müjdənin kitabçalarını və Əhdi-Cədidi çıxardılar.

"Bu, nədir?" – deyə, əsgərlər soruşdu.

"Bu Xoş Xəbər kitabıdır" – oğlanlar ağızları şokoladla dolu cavab verdilər. Əsgərlər kitabçaları vərəqlədilər. Zabitlərdən biri kitabçaların dini olduğunu başa düşdü və təhlükəni hiss etdi. O, böyük narahatçılıqla uşaqlara baxdı. Əgər böyüklər belə materialları paylasaydı, onları həbs edərdi. *Axı, bu uşaqlar nə pislik edərlər ki?* – deyə, o düşündü.

Zabit onu bilmirdi ki, bu uşaqlar rus ordusundan bir çoxlarına Allahı tapmaqda kömək edərək yüzlərlə belə Əhdi-Cədid kitabçalarını paylayıblar. Bu uşaqlar daxili "döyüş" ilə başqa bir "orduya" yazılmışdılar.

Böyüklərin təhlükəsiz halda xidmət edə bilmədikləri yerdə uşaqlar Müjdə ilə geniş açılmış qapıdan keçirdilər.

*Nikbin və bədbin arasında fərq "bacarmaq" ilə "bacarmamaq" arasında fərqdir. Əlbəttə, dini baxımdan məhdudiyyətlər qoyulmuş ölkələrdə olan imanlılar ilə dini azadlıq olan ölkələrdə olan imanlılar da bağlı qapılar ilə üzləşirlər. Bəzi ölkələrdə Müqəddəs Kitaba malik olmaq həbs cəzası deməkdir. Amerikada "məbədin və dövlətin ayrılması" çox vaxt həddən artıq vurğulanır. Bəzən bir məsihçi kimi etməli olmadığımız şeylərə diqqəti cəmləməklə Allahın imkanlarını əldən buraxırıq. Biz asanlıqla açıq qapıları görməkdənsə, bağlı qapıları görürük. Məsələn, məhdudiyyətlər qoyulmuş belə ölkələrə müjdəçilər girə bilmədikləri halda "peşəkar" işçilər oraya cəlb olunurlar! Biz həm də orada yaşayan yerli məsihçiləri dəstəkləyə bilərik. Qapı açıqdır. Qapıdan içəri daxil olun.*

Diləyin, sizə veriləcək, axtarın, tapacaqsınız, qapını döyün və sizə açılacaq.

*Matta 7:7*

# Məktəb uşaqları

**SUDAN**

**Ağacın kölgəsində tirlərin üstündə oturmuş 230 məsihçi şagird başlarının üzərində dəhşətli səsləri eşidərkən ingilis dili dərsinə yenicə başlamışdılar. Məktəb həyətinin üzərində göydə təyyarə uğuldayırdı. Bir neçə dəqiqənin içərisində islam ordusu Rusiyada istehsal olunmuş böyük bombardmançıdan yerə beş bomba atdı.**

Qorxan və ağlaşan uşaqlar dərhal qaçmağa başladılar. Bombalardan ikisi kəndin ətrafında olan quru xəndəklərə düşdü, başqa birisi partlamadı.

Əfsuslar olsun ki, mıxla doldurulmuş o biri iki bomba qorxmuş şagirdlərin arasına düşdü. Partlayış dəhşətli idi. Zərər düşünülməz idi.

Səhər 9:15-də bombardmançı getdi və dəhşətli mənzərə yarandı. Şagirdlər heyrət içində məktəb həyətində dolaşdılar, onlar həm ağlayırdılar, həm də yaralarından qan axırdı. Onların doqquz yaşından on altı yaşa qədər olan on iki məktəb yoldaşı partlayışdan sağ çıxmadı. Onların cavan sevimli müəllimləri Roda İsmayıl da dağıntıların içərisində ölü halda uzanmışdı.

Daha yeddi şagird hücumdan sonrakı günlərdə həyatlarını dəyişdilər və üç şagirdin ətrafları amputasiya edildi.

Bütün bunlardan sonra uşaqlar növbəti gün həmişəki kimi dərsə gəldilər. Yorğun və məyus bir müəllim onlara dedi ki, evə getsinlər. "Mən sizə deyə bilmərəm ki, biz nə vaxt dərslərə başlayacağıq, ümumiyyətlə, başlayacağımızı heç bilmirəm. "

On yaşlı bir oğlan ona yaxınlaşıb dedi: "Xahiş edirik, gəlin davam edək. Biz öyrənmək istəyirik, əgər Allahın iradəsidirsə, bu gün biz ölmərik."

> Şimon Peter Ona cavab verdi: "Ya Rəbb, biz kimin yanına gedək? Əbədi həyatın sözlərini söyləyən Sənsən."
>
> *Yəhya 6:68*

*Həyat dörd yol ayrıcındadır. Biz hamımız həmin yerdə olmuşuq, təslim olmaq, yoxsa irəliyə getmək fikirləri arasında tərəddüd etmişik. Məktəbli oğlan kimi İsanın ardınca gedən izdiham da bir gün aşkar etdilər ki, onların getdikləri yol təhlükə ilə dolu bir yoldur. Məyus müəllim kimi izdihamda olan bir çox insanlar da evə qayıtdılar, onlar da Məsihin ardınca gedib getməyəcəklərini dəqiq deyə bilmirdilər. Amma Peter və başqa şagirdlər Onun ardınca getməkdə davam etdilər. Məktəbli oğlanın ciddi xahişi Peterin cavabını əks etdirir: "Gəlin, davam edək." Biz təslim olmağa meyil edəndə gəlin, davam edək. Məsihin ardınca getmək həddən artıq çətin görünəndə, gəlin davam edək. Siz həsr olunmanın yol ayrıcında dayanmısınız? Allahdan xahiş edin ki, təslim olmaq əvəzinə sizə irəliyə getməyə güc versin.*

# Sağ çıxmış böyük insan

**ŞİMALİ KOREYA:** YEGANƏ ŞAHİD

**O, yavaş-yavaş gedərək gözləri tüstüyə alışdı. O, pastorunu çağırdı, amma heç kim cavab vermədi. Dəhşətə düşmüş bir halda o, cəld dağıntılar və cəsədlər qalağından çıxmaq üçün özünə yol açdı.**

Həmin səhər o, 190 nəfər Şimali Koreyadan olan imanlının əhatəsində idi, bu zaman polis onlara hücum edib bir yerə yığaraq kobud tərzdə onları şəhərin mərkəzinə gətirdi.

Onların ölkələrinin rəhbəri II Kim Sunq qarşılarında durmuşdu. Qəddar diktator meydanın ortasına gəlib torpaqda bir xətt çəkdi və əmr etdi ki, yaşamaq istəyənlər Məsihi inkar edib xətti keçsinlər.

Heç kim irəliyə çıxmadı. Qəzəblənmiş II Kim Sunq qrupa əmr etdi ki, onları mədən üçün olan tunelə dinamit ilə birlikdə atsınlar.

Sağ qalmış imanlının yadında qalan sonuncu sözlər pastorunun sözləri idi, o, imanlılar qrupuna təsəlli və ürək-dirək verirdi. Bu imanlı təkcə özünün sağ qaldığını aşkar edəndə fəryad etdi: "Ya Rəbb, niyə? Nə üçün icazə vermədin ki, o biri imanlılar ilə birlikdə ölüm?"

Allah dərhal onun ürəyini sülh ilə doldurdu və o bildi ki, kimsə sağ qalıb onların imanına şahidlik etməli idi. Bu hadisə II Kim Sunq tərəfindən kommunizm və ibadət formasında "*Juche*" adlanan amansız hücumlardan birincisi idi. Qəhrəmanlıq hadisəsi barədə xəbərlər məsihçilər arasında tezliklə yayıldı və hələ də Şimali Koreyada bu gün də danışılmaqdadır.

*Dünya Ticarət Mərkəzinə edilmiş terror hücumundan sağ çıxmış yanğınsöndürənlər bu hekayədə olan imanlı kimi səssiz şahidlər deyillər. Onlar niyə sağ çıxdıqlarını, amma yoldaşlarının sağ çıxmadıqlarını izah edə bilməsələr də, səmimi vətənpərvər olmaqla bilirlər ki, başqalarını xilas edərək ölən insanların hekayələrini danışmaq üçün kimsə sağ qalmalıdır. Bir məsihçi kimi sizin danışmaq üçün daha böyük sağ qalma hekayəniz var. İsa Çarmıxdan sağ çıxmadı. O, çarmıxa qalib gəldi. O, sadəcə, ağır sınaqdan canını qurtarmadı; O, zəfər çaldı. O, şagirdlərinə xəbəri çatdırmaq üçün dirilmiş bədəninə qayıtdı, onlar da tezliklə dünyaya xəbəri yaydılar. İsa başqalarını xilas edərək öldü ki, onlar yaşaya bilsinlər. Amma O, ölülərdən diriləreк indi sağdır, dünyaya xilası təklif edir.*

Məsih İsa günahkarları xilas etmək üçün dünyaya gəldi, bu söz etibarlı və tamamilə qəbul olunmağa layiq sözdür.

*1 Timotey 1:15*

# Böyük qız

**TACİKİSTAN:** MUNİRA

**"Munira, səni öldürməzdən əvvəl sənə beş dəqiqə vaxt verirəm. Kimi seçirsən – ailəni, yoxsa İsanı?"**

Neçə ay idi ki, Munira öz imanını gizli saxlayırdı; o, ailəsini o qədər sevirdi ki, onları incitmək istəmirdi. Amma Muniranın atası onu ərə vermək istəyəndə o, İsaya olan sevgisi barədə onlara danışdı.

Munira imanında möhkəm dayanmışdı. O, atasına dedi: "Mən İsanı seçməliyəm." Atası gözəl qızının Tacikistanda islam tərbiyəsini inkar etməklə ailəsinə qarşı çıxdığını biləndə o qədər hirslənmişdi ki, qızını daha iki saat döyməyə başlamışdı.

Amma Allah müdaxilə etdi. Muniranın məsihçi dostu bir müddət onu öz evində qalmağa dəvət etdi. Munira dedi: "Mən evdə olmadığım müddətdə çoxlu dualardan sonra Allah öz sadiqliyini mənə göstərdi, mən bildim ki, indi sevimli ailəmlə barışmaq vaxtıdır."

O, evə qayıdanda atasından başqa hər bir kəs onu görməyə şad idi. Atasının ilk sözləri bu oldu: "Mənim səndən zəhləm gedir! Çıx get! Mənim qızım üç ay bundan əvvəl ölüb!"

Munira məyus halda atasının ayaqlarına düşüb ağlayaraq dedi: "Mənim Allahım mənə dedi ki, evə qayıdım. Hətta sən döyüb öldürsən də, mən səni heç vaxt tərk etməyəcəyəm."

Atası qızının bu hərəkətini görəndə ürəyi yumşaldı. O, tezliklə qızının yeni imanı ilə barışdı və hətta onun Müqəddəs Kitab kollecinə getməsinə icazə verdi.

*Bəzi oxucular hekayəni oxuyarkən onu o qədər sevirlər ki, axırda nə baş verəcəyini bilmək üçün sonunu oxuyurlar. Onlar hansısa bir fəsli oxumurlar və ya kitabın arxasına baxırlar. Onlar, sadəcə, qəhrəmanın sonda qələbə çalıb-çalmadığını bilmək istəyirlər. Onlar hər bir şeyin plana uyğun həyata keçib-keçmədiyini bilmək istəyirlər. Əfsuslar olsun ki, siz həyatınızın hekayəsini əvvəlcədən oxuya bilməzsiniz. Munira kimi siz də gündə bir fəsli oxumalısınız. Onun kimi siz də nəticələrə görə peşman olmayacaqsınız. İtaətinizin haraya aparıb çıxaracağını görmək üçün həyəcanlısınızmı? Allahın sizin üçün gələcəkdə nə planlaşdırdığını axtarıb tapmaq istəyirsinizmi? Sizin edə biləcəyiniz ən yaxşı şey bu gün itaət etmək və sabahı isə Allahın əllərinə buraxmaqdır.*

Beləliklə, sabahın qayğısını çəkməyin. Çünki sabahkı gün özü üçün qayğı çəkəcək. Hər günün öz yamanlığı kifayətdir!

*Matta 6:34*

# Böyük yoldaş

**MİSİR:** ORİQEN

**"Onlar bizim nəyimiz var idisə, yandırdılar, amma onlar İsanı ürəklərimizdən yandırıb çıxara bilməzlər."**

Oriqen, sadəcə olaraq, on səkkiz yaşlı bir oğlan deyildi. O, Misirdə ikinci əsrdə müəllim idi. Onun məbədi həmin dövrdə ciddi təqiblərə məruz qalanda Oriqen qızların dalınca düşməklə və ya öz yaşıdlarına təsir göstərməklə vaxtını keçirmədi.

Atasının ölümünə səbəb olan dəhşətdən qaçmaq əvəzinə, Oriqen təqib olunmuş məbəd ilə yoldaşlığı seçdi. O, vaxtını məhkəmədə istintaq olunan məsihçiləri ruhlandırmağa sərf etdi. Onlar ölümə gedəndə Oriqen yaxınlaşıb onları öpürdü. O, hətta imanlılara təsəlli vermək üçün məhbuslara baş çəkirdi.

Amma Oriqen tezliklə aşkar etdi ki, ittiham olunan imanlılara qarşı mərhəmətinə görə böyük təhlükədədir. Onun məbədə göstərdiyi təsirə görə əsgərlər tezliklə onun evinin ətrafında qarovul çəkməyə başladılar. Onun çoxlu düşmənləri var idi və ona qarşı nifrət günbəgün artırdı.

Nəhayət, onu məcbur etdilər ki, şəhəri tərk etsin. O, həyatına qarşı edilən hədələrə görə bir evdən o biri evə köçürdü. Amma İbranilərə məktubda iman qəhrəmanlarından ruhlanaraq, təqib olunan insanlara yoldaş olmaqda davam etdi. O, hətta Kəlamın əlavə nüsxələrini əl ilə yazmaq üçün bir neçə insanı təyin etdi.

Nəhayət, onun heyrətamiz münasibəti düşmənlərindən bəzilərini Məsihə gətirdi. Amma o, nəhayət, həbs olundu, əzab çəkdi və bu münasibətə görə öldürüldü.

*Təqib olunan insanlarla yoldaş olmaq nə deməkdir? İnsanlar dəqiq eyni əzablardan keçdiklərinə görə yoldaşlar deyillər. Biz məhdudiyyətlər qoyulmuş ölkələrdə yaşayan bacı və qardaşlarımızdan tamamilə fərqli bir vəziyyətdə ola bilərik, amma biz buna baxmayaraq, hələ də yoldaşlar ola bilərik. Fiziki məsafə bizi can yoldaşı etmir. Şəxsi həsr olunma isə bizi can yoldaşı edir. Möhkəm dəstək, dua və qayğı bizim ürəklərimizi və həyatlarımızı bir-birinə birləşdirir. Oriqen kimi biz də Müjdəyə görə əzab çəkənlər ilə özümüzü bir sıraya qoymaq istəyirikmi? Biz nə dostluqlarımızdan utanmalı deyilik, nə də risk haqqında məlumatsız olmalı deyilik. Biz dualarımızda şəhidlərin bizi çağıran səsini eşidəndə həqiqi dostlar kimi onların çağırışlarına diqqət yetirəcəyikmi?*

Əziyyətə, Allahın Padşahlığına və dözümə sizinlə İsada şərik olan mən – qardaşınız Yəhya...

*Vəhy 1:9*

# BÖYÜK SADİQLİK

**Mənim sevimli Rəbbim ilə hər yerdə yaxşıdır. Onunla mənim qaranlıq zindanda nurum var. Mən zahiri insan üçün yaxşı olan yerdə deyil, bəhrə gətirə bildiyim yerdə olmağı, harada olmalıyamsa, orada olmağı Ondan xahiş etdim. Bu, mənim çağırışımdır.**

Rusiyalı pastor P. Rumatçik – beşinci dəfə həbs olunarkən yazdığı məktubdan



315 gün

# Başqa bir böyük vəkil

**ALMANİYA:** DİETRİX BONHOEFER

**On dörd yaşlı Dietrix Bonhoefer xidmətçi olmaq arzusunu bəyan edəndə onun zəngin ailəsi məbədi tənqid etdi. Dietrix onlara dedi ki, məbədi yenidən təşkil edəcək.**

Onun iyirmi yaşı olanda "*Müqəddəslərin birliyi*" adlı dissertasiyası "teoloji möcüzə" kimi tərifləndi. Təyin olunmuş bir xidmətçi, teologiya üzrə professor və müəllif kimi Bonhoefer öz həyatını məbəd məsələlərini araşdırmaqla keçirdi.

1933-cü ildə Adolf Hitler hakimiyyətə gələndə məbəd Hitlerin fikirlərindən birini qəbul etdi. Onun irəli sürdüyü fikrə əsasən, yəhudi irsinin xidmətçilərini təyin etmək üçün məbədin hüququ rədd olunurdu. Yalnız Bonhoefer bu qərara qarşı açıqcasına danışdı və onun ləğv olunmasını irəli sürdü.

Mühazirələr və nəşr olunmuş məqalələr vasitəsilə Bonhoefer şər faşizmə qarşı durdu və məbədi "qurbanlara görə və...onlara yardım etməyə tələsmək üçün yollar axtarmaqda öz səsini ucaltmadığı" üçün məzəmmət etdi.

1943-cü ilin aprel ayında Bonhoefer Berlində "silahlı qüvvələri devirdiyi" üçün həbs olundu. Amma həbsxanada olarkən o, yazmaqda davam etdi. "Məbəd qışqırmalı olduğu bir vaxtda sakit idi."

1945-ci ildə Bonhoefer Flossenburq həbs düşərgəsinə köçürüldü, burada onu altı nəfər ilə birlikdə aprelin 9-da asdılar. Dar ağacına getməzdən əvvəl onun diz çöküb dua etməsini müşahidə edən düşərgə həkimi belə deyirdi ki, "indiyə qədər, demək olar ki, heç vaxt Allahın iradəsinə bütünlüklə itaətkar tərzdə ölən insan görməyib."

*Belə deyilir ki, əgər biz nəyinsə tərəfini tutmasaq, biz yəqin ki, hər bir şeydə uğursuzluqla üzləşəcəyik. Bu, Almaniya faşizmində belə idi. Məsihçi ölkəsində olan məbəd Bonhoeferin tənha səsini batıraraq tarixin şər dalğasına qarşı səssiz dayandı. Əgər biz belə məsələlərdə səssiz qalırıqsa, həqiqətin tərəfdarı olduğumuzu deyə bilərikmi? Bu məsələlərə görə səssizliyimiz məhdudiyyətlər qoyulmuş ölkələrdə qəddarlıqla razılığa bir işarədir. Həqiqətin tərəfdarı imanda birbaşa olmalıdır. Bonhoefer kimi biz də mövqeyimizin nəticələrinə dözməyə hazır olmalıyıq. Yoxsa, biz Məsihə görə danışıb-danışmamağı qərara gələrkən "hər bir şeydə uğursuzluq" təhlükəsi ilə qarşılaşmış olarıq.*

Mənim adıma görə hamı sizə nifrət edəcək. Amma başınızdan bir tük belə, əskik olmayacaq. Dayanıb dözməklə canlarınızı qurtarın.

*Luka 21:17-19*

# Böyük silah

**RUMINİYA:** SABİNA VURMBRAND

**Səhər saat 5:00-da onlar qapının döyüldüyünü eşitdilər və dərhal bildilər ki, bu, polislərin reydidir. Sabinanın əri artıq həbsxanada idi və o, narahat idi ki, əgər özünü də aparsalar, gənc oğlunun taleyi necə olar? Rumıniya polisi səhər tezdən evə girib onun qonaqlarını qorxudanda Sabina sakitcə dua etdi və özünü, eləcə də ailəsini Allahın əllərinə tapşırdı.**

Onlar tələb etdilər: "Sabina Vurmbrand? Biz sənin burada silah gizlətdiyini bilirik. De görək, onlar haradadır!" O, söz deməyə macal tapmamış onlar sandıqları, şkafları açıb tökdülər və siyirmələri yerə boşaltdılar. Onlar qışqıraraq deyirdilər: "Əgər sən bizə silahların harada gizlədildiyini göstərməsən, biz buranı dağıdacağıq!"

Sakit qalmağa çalışan Sabina sadəcə: "Bizim bu evdə yeganə silahımız budur" – deyərək, polislərin ayaqlarının altından Müqəddəs Kitabı qaldırdı.

Zabit cavab verdi: "Əgər sən mənə həqiqəti söyləməsən, həmin silahlar barədə tam məlumat vermək üçün bizimlə getməli olacaqsan."

Sabina Müqəddəs Kitabı stolun üstünə qoyub dedi: "Zəhmət olmasa, bizə dua etmək üçün bir neçə dəqiqə verin, sonra mən sizinlə gedərəm."

Sabinanı apararkən o öz "silahını", Müqəddəs Kitabını itirdiyi üçün ağladı, amma onun sözlərini ürəyində gizlətdiyini anlamaqdan güc əldə etdi, burada onları heç kim müsadirə edə bilməzdi.

*Allahın zirehlərinə aid olan təsvirdə yalnız bir hücumedici silah var. Efeslilərə məktubda Paul məsihçi imanında müdafiə ölçülərini sadalayır: dəbilqə, zireh, kəmər, qalxan və qoruyucu ayaqqabılar. Amma o, bir müdafiə silahını dəstəkləyir: Allahın Kəlamı. Bu, seçmə silahdır. Təhlükəsizliyimizə görə yolu təmizləmək üçün qədim dövrdə əsgər öz qılıncından asılı olduğu kimi, biz də Kəlamın iti ucundan asılı olmalıyıq. Çox kədərlidir ki, bir çox məsihçilər ruhani mübarizədə müdafiəsiz qalıblar. Onlar Sabina kimi Müqəddəs Kitabı əzbərləməyiblər; onlar Kəlamın gücündən götürməyi bacarmırlar. Növbəti qurban olmayın. Bu gün silahınızı götürün.*

Xilas dəbilqəsini və Ruhun qılıncını, yəni Allahın kəlamını götürün.

*Efes. 6:17*

# Böyük bağışlanma

**RUMINİYA:** DİANA VƏ FLOREYA

**Diananın atası imana görə həbs olunanda onun on doqquz yaşı var idi. O və bacısı Floreya ailəni dolandırmalı oldular, amma tezliklə onlar atalarının həbsinə görə fabrikdə işlərini itirdilər.**

Ailədə anaları xəstə idi və özlərindən başqa dörd bacı-qardaşı da var idi. Diana və Floreya ümidsiz halda idilər. Bir cavan oğlan onlara zəng edib Diana üçün iş tapdığını söyləyəndə, ailənin sevinci yerə-göyə sığmadı. Onlar nahar vaxtı görüşdülər, oğlan ona çoxlu şərab verdi və sonra onu yoldan azdırdı. Bundan sonra ona bir az pul verdi və bu da həyat tərzinə çevrildi. İş haqqında başqa heç bir söz deyilmədi və Diana ümidsiz halda olduğu üçün pulu qəbul etdi.

Diana, baxmayaraq ki, özünü təqsirkar hiss edirdi, amma ailəsini saxlamaq üçün fahişəlik etməkdə davam etdi. Tezliklə onun bacısı da bu işə qoşuldu və birlikdə onlar rüsvayçılıqlarını gizlətdilər.

İndi onlar anaların üzünə baxarkən dedilər: “Sən bizi necə bağışlaya bilərsən? Biz düşünürük ki, sən bizə nifrət edərsən.”

O, onlara sevgi və təsəlli sözləri söylədi: “Siz etdiyiniz işlərə görə utanırsınız, belə də olmalıdır. Amma bu rüsvayçılıq və təqsirkarlıq hissi sizi parlaq salehliyə aparacaq. Yadınızdadırsa, əsgərlər Məsihin böyrünü deşmişdilər, belə ki, günahkarlar asanlıqla onun ürəyinə girib bağışlanma əldə edə bilərlər.

*Günahımıza görə təəssüflənmək və özümüzə görə təəssüflənmək iki fərqli şeydir. Əzablardan keçən bir çox insanlar özlərinə görə təəssüflənirlər. Onlar hamısı uğursuzluqlarına görə başqalarını günahlandırmağa can atırlar. Bu qızlar səhvlərinə görə atalarını günahlandırmağa can ata bilərdilər. “Əgər o, məsihçi olmasaydı, həbs olunmazdı və biz də bu yola düşməzdik.” Amma onlar bilə-bilə etdikləri itaətsizliyə görə həqiqi utancaqlıq və tövbə hissi ilə analarının yanına gəldilər. Onlar bağışlanma əldə etdilər. Allahın istədiyi tərzdə olan kədər bağışlanmaya yol açan tövbəyə aparır. Siz əzablarınızda özünüzə görə təəssüflənirsinizmi? Diqqət edin! Bu, sizi asanlıqla itaətsizliyə apara bilər.*

Allah istəyən tərzdə olan kədər insanda tövbə yaradıb onu xilasa aparır və bunda peşmançılıq yoxdur. Dünyanın kədəri isə ölüm yaradır.

*2 Kor. 7:10*

# Böyük "cinayətkar" – birinci hissə

**SƏUDİYYƏ ƏRƏBİSTANI:** PASTOR UALLİ, FİLİPPİNLİ İŞÇİ

**O, bütün Səudiyyə Ərəbistanında ən çox axtarışda olan cinayətkar idi. O, oğurluğa, qətlə və ya zorlamaya görə axtarışda deyildi. O, Səudiyyə Ərəbistanının paytaxt şəhərində böyük gizli məbədə rəhbərlik etdiyi və məsihçi pastor olduğu üçün axtarışda idi.**

Heç bir ittiham olmadan pastor Uallini evindən çıxarıb üç kişi olan bir otağa gətirdilər. Burada onu şapalaq, təpik və yumruq ilə döydülər. Ən ağrılı olan cəza ayaqlarının altına qamçı ilə vurmaq idi. Qamçılama qurtardıqdan sonra onun əlləri və ayaqları badımcanın bənövşəyi rəngi kimi oldu.

Həmin ağrının içərisində işgəncə verən şəxslər Ualliyə əmr etdilər ki, ayaq üstdə dayansın. "Mən dayana bilmərəm" – deyə, o dedi. Onun ayağının hər bir yeri ağrıyırdı və onun çəkisini saxlamaq üçün heç bir gücü yox idi. "Xahiş edirəm, mənə icazə verin diz çöküm." Ona işgəncə verənlər bununla razılaşmadılar.

Üç kişi onu döyərkən pastor Ualli onlar üçün dua etdi. Onun duaları ona bir ayəni xatırlatdı. "Allah sənə görə mələklərinə əmr edər ki,... səni əlləri üstündə aparsınlar, ayağın bir daşa dəyməsin" (Məzmur 91:11-12). Ayaqlarının vəziyyətinə baxmayaraq, Ualli kişilərin içində ayaq üstə düz durdu. Onlar bu qədər döyülmədən sonra onun ayaq üstə dayana bildiyinə məəttəl qalmışdılar.

"Mən Allahın mələklərinin əlləri üstündə dayanmışdım" – sonralar pastor Ualli dedi. "Onlar mələkləri görə bilmirdilər, amma mən hiss edirdim ki, onlar mənim ayaq üstə durmağım üçün orada mənə kömək edirdilər."

Allah sənə görə mələklərinə əmr edər ki,... səni əlləri üstündə aparsınlar, ayağın bir daşa dəyməsin.

*Məzmur 91:11-12*

*Bəzi insanlara elə gəlir ki, qoruyucu mələklər iş vaxtından artıq çalışırlar. Pastor Ualli kimi onlar da həmişə dua edən şahid kimi cəsarətli ruh ilə Məsih üçün hazırdırlar. Biz təsəvvür edə bilərik ki, padşahlığa yardım edən, məsihçilər üçün ayrılmış bəzi qoruyucu mələklərin əllərində vaxt var. Pastor Uallinin vəziyyəti özünəməxsus olsa da, onun duası özünəməxsus olmalı deyil. Bəzən biz Məsihə sadiq olmaq üçün mələklərinin əllərinin üstündə dayanmalıyıq. Biz iş yerimizdə həmin növ coşqun arzunu ətrafa yayırıqmı? Və ya evlərimizdə? Məktəbimizdə? Bu gün Məsihi təmsil etməkdə sizin üçün çətin olan yerlərdə Allahdan xahiş edin ki, sizi qaldırmaq üçün mələklərini göndərsin.*

# Böyük rəhbərlik

**FİLİPPİ:** PAUL VƏ SİLA

**"O mənə dedi: 'Makedoniyaya gəl və bizə kömək et'" – Paul dedi.**

Sila cavab verdi: "Sən inanırsan ki, bu, Allahdan gələn görüntüdür?"

"Bəli, mən inanıram."

Sila gülümsündü və cavab verdi: "Onda Allahın köməkliyi ilə Makedoniyaya gedərik!"

Onlar Filippiyə çatanda tanınmış tacir qadın tövbə etdi və cavan bir qız cindən azad oldu. Əlbəttə ki, onlar Allahı dəqiq eşitmişdilər və Onun rəhbərliyi ilə gedirdilər.

"Onlar buradadırlar!" – deyə, izdihamın başında duran kişi qışqırdı. Paul və Sila nə baş verdiyini anlamazdan qabaq onları şəhər hakimlərinin qarşısına gətirdilər və Müjdə ilə sülhü pozduqlarına görə ittiham olundular. Baş hakim əmr etdi ki, onların əynindəki paltarları soyundurub dəyənəklə döysünlər və zindana atsınlar.

Həmin gecə qan içində olan və bədənləri göyərən Paul və Silanın ayaqları kündəyə salınmışdı, onlar düşünə bilərdilər ki, Allah onları aldadıb. Amma "Allah bu şeylərin baş verməsinə necə yol verə bilər?" sualı heç vaxt verilmədi. Əksinə, onlar gecə yarısı ilahi oxuyub Allaha həmd edirdilər. Onlar Allahın rəhbərliyinə etibar edirdilər. Onlar bilirdilər ki, Allah onları tərk etməyib, möcüzəli qurtuluş tezliklə bunu təsdiqləyəcəkdi.

Sila və Paul birlikdə səyahət edərkən Allahın idarəçiliyi ilə getməkdə davam etdilər. Nəhayət, Sila Korinfdə məbədin rəhbəri oldu. Hər iki kişi Allahın idarəçiliyi ilə gedirdi və hər ikisi də imanlarına görə şəhid oldu.

*Kaş ki həyatlarımız üçün Allahın iradəsi bizə görüntüdə gələydi! Kaş ki Onun planları küçədə olan reklam afişası kimi qarşımızda aydın surətdə görünərdi! Daha da yaxşı olardı ki, nə etməli olduğumuzu bizə dəqiq söyləyən bir səs olaydı! Amma bu, nə qədər gözəl görünsə də, belə birbaşa metodlar imanın tərkib hissələrini tamamilə kənarlaşdırır. Allah istəyir ki, biz həyatlarımızın istiqamətlərini təyin edərkən Ona bir xəritə kimi etibar edək. Paul və Sila Filippidə onların başına nə gələcəyini dəqiq bilmirdilər. Onlar bircə onu bilirdilər ki, Allah onlara getməyi deyib. Siz, ola bilsin ki, Allahın sizi nə vaxt apardığını bilməyəsiniz, amma bunlara baxmayaraq, Onun dalınca getməyə hazırsınızmı? Siz Ona tamamilə etibar etməyincə getməyəcəksiniz.*

Məni haqq yolu ilə apar, həqiqətini mənə öyrət. Məni qurtaran Allah Sənsən, daim Səni gözləyirəm.

*Məzmur 25:5*

# Böyük “cinayətkar” – ikinci hissə

**SƏUDİYYƏ ƏRƏBİSTANI:** PASTOR UALLİ

**“Rəbbim, bu gecə hər şey ola bilər” – deyə, pastor Ualli dua etdi. “Amma xahiş edirəm, onlara icazə vermə ki, həyatımı əlimdən alsınlar.”**

Pastor Ualli döyülərkən Səudiyyə Ərəbistanında ona işgəncə verən adamlar üçün dua edirdi. Duanın ortasında onun yadına düşdü ki, bədəninin Müqəddəs Ruhun məbədi olduğunu desin.

“Sənin məbədin olmağa mənə icazə verdiyin üçün minnətdaram” – Ualli dua etdi. Mən inanıram ki, Sən məbədinin düşmən tərəfindən dağıdılmasını və təhqir edilməsini istəmirsən. Sən istəyirsən ki, məbədin Səni izzətləndirsin və Sənin əzəmətinlə dolsun. Rəbbim, mən bədənimin tamlığı ilə bərpasını tələb edirəm. Mən dua edirəm ki, tam sağalanda məndə daha da çox izzətlənəsən. İnsanlar işgəncə verən adamların bədənimə etdiklərinin heç izini belə görməyəcəklər.”

Pastor Uallinin çubuqla belinə və ayaqlarına vurmuşdular, əlləri və ayaqları çox göyərdiyindən demək olar ki, istifadəyə yararsız idi. Nəhayət, onlar bu məsihçiyə işgəncə verməkdən yorularaq onu öz kamerasına göndərdilər.

Ualli bir neçə saat dua etdi və sonra bərk yuxuya getdi, yatdığı zaman Allahın hüzurunu və şəfa verən toxunuşunu hiss etdi. O, yuxudan ayılanda əlləri və ayaqları sağalmışdı. O, bu qədər döyülmədən sonra bədənində heç bir ağrı hiss etmədi. Ualliyə bu möcüzə çox böyük təsir göstərdi, çünki Allah ona şəfa vermişdi.

*Pastor Ualli öz şəfası üçün iman ilə dua edərkən həddini aşmışdımı? O, inadkarlıqla etdiyi xahişində Kəlamdan sui-istifadə etmirdimi? Sübut göstərir ki, Ualli bu şeylərdən heç birini etməmişdi. Əslində, pastor sadəcə Allahı Öz sözündə tutmuşdu. Bir çox məsihçilər belə etməklə faydalana bilərlər. Amma biz Allahın Kəlamını bilmiriksə, Onun Öz sözündə tuta bilmərik. Pastor Ualli Kəlamda çoxlu vaxt keçirdiyi üçün ehtiyac anında ruhlandırıcı ayələri yada sala bilirdi. Döyülən bir çox sadiq məsihçilər dərhal sağalmırdılar, amma biz sağalsaq da, sağalmasaq da, Allah şəhadətliklərimizdən istifadə edir. Sizə lazım olan vaxtda Allahın Kəlamını yadınıza sala bilirsinizmi? Siz həqiqi Kəlamdansa, daha çox Kəlam haqqında bilirsiniz? Allaha deyin ki, siz Onu öz sözündə tutmağa hazırsınız.*

Çünki biz var olan Allahın məbədiyik.

*2 Kor. 6:16*

# BÖYÜK SADİQLİK

**Mən İsanın sözləri üzərində düşünürəm: "Ona iman edən hər kəs...əbədi həyata malik olsun." (Yəhya 3:16)**

**Mən cinayətkarların içərisindəyəm. İnsanların heyvanlara oxşaması alçaltmadır. Heyvanlar günahsızdır.**

**Amma həbsxanada ətrafımda olan insanlar heyvanlar üçün əlçatmaz olan şeytani qaranlığın dərinliklərinə gedib çatırlar.**

**Bu cinayətkarların əhatəsində yaşamaqdansa tövlədə yaşamaq daha asan olar. Bu insanların hər bir sözü iyrənc, hər bir hərəkəti isə çirkindir. "Boğazları açıq qəbirdir...ağızları lənət və acı sözlərlə doludur." (Roma. 3:13-14)**

**Amma bu səhnəyə qarşı Allahın qeyri-adi sevgisi parlayır. Bu doğrudur ki, iman edən hər kəs – hətta belə insanlar da əbədi həyata malik ola bilərlər. Allah məni həbsxanaya göndərib ki, onlara Xoş Xəbəri çatdırım.**

Rusiyada həbsdə olan məsihçi məhbusun məktubundan



# Böyük məzuniyyət

**İRAN:** DƏNİZKƏNARI ŞƏHƏR

**"İndi biz məzuniyyətdəyik, əzizim," – deyə, iranlı pastor yoldaşına söylədi. "Xahiş edirəm, polisi bizi sorğu-sual etməyə məcbur edəcək bir şey etmə. Gəl bu birgə vaxtımızı korlamayaq."**

Pastorun yoldaşı İsa Məsih üçün gəzib vəz edən bir şəhadətçi idi. O, İranda müsəlmanlara minlərlə Müqəddəs kitab və beş mindən çox "*İSA*" filmini vermişdi.

Məzuniyyətdə olduqları dənizkənarı şəhərdə, onlar üstüörtülü bazara getdilər. Onlar istədikləri müxtəlif şeyləri axtarmaq üçün ayrıldılar və pastor qayıdanda o, yoldaşının bazarda bir qrup insanlara İsa Məsih haqda danışdığını gördü. O, məxfi polisə görə ətrafına baxdı və cəld yoldaşını bazardan çıxarıb maşınına oturtdu. "Əzizim, biz *məzuniyyətdəyik*. Mən fikirləşdim ki, biz bunu burda etməyəcəyik."

Yoldaşı onun gözlərinin içinə baxdı. "O bazarda İsanı tanımayan çoxlu adamlar var," – deyə, o, ciddi olaraq dedi. "Əgər onlar ölsələr və cəhənnəmə düşsələr, buna sən məsuliyyət daşıyırsan." Danlanmış pastor geriyə dönüb bazara tərəf sürdü. Onun yoldaşı cəld içəri gəldi və Müqəddəs yazı nüsxələrini və "*İSA*" filmlərini payladı.

Bir qadın ona yaxınlaşdı. "Çox sağ olun, minnətdaram," – o, göz yaşları ilə dedi. "Beş ildir ki, Müqəddəs Kitaba görə dua edirdim və indi Rəbb mənim dualarıma cavab verdi."

*Məzuniyyətlər gözəl xatirələr yaradır. Dəniz kənarında gəzişmək. Şəhərdə alış-veriş etmək. Ocağın yanında oturub kitab oxumaq. Buna baxmayaraq, bizim gündəlik həyatımızdan bir müddət ayrılmağa ehtiyacımız olsa da, bizə şəhadət etməkdən bir müddət ayrılmaq hüququ verilməyib. Əslində, gərək bizim şahidliyimiz şəxsiyyətimizin bir hissəsi olsun və biz bunu iki yerə ayıra bilmərik. Həvari Paul heç vaxt harasa "turist" kimi getməmişdir. Bu hekayədə pastorun yoldaşı kimi adamlar üçün bu, işığı yandırıb və söndürmək kimi bir şey deyil. Onların cəsarətli şəhadəti sadəcə onların kimliyidir və bu, təbii olaraq, hansı vaxt olursa-olsun baş verir. Təbii olmayan şey bir neçə hissələrə ayrılmış inamdır – bu, süni təəssürat bağışlayır. Əvəzində, qoy sənin imanın gündəlik təcrübəndə azad inkişaf etsin.*

Allahın kəlamını vəz edəsən, hansı vaxt olursa-olsun, hazır olasan, insanlara tam səbirlə təlim öyrədərək məzəmmət, xəbərdarlıq və nəsihət verəsən.

*2 Timotey 4:2*

# Böyük cavab

**ŞİMALİ AFRİKA:** YENİ İMANLI

**"Niyə bu toplantıları davam edirsiniz," məxfi polis işçisi məsihçidən soruşdu. "Fikirləşirsən ki, sənin qonşuların bizə məlumat verməyəcəklər?"**

Cavan oğlan yeni məsihçi idi, amma artıq iyirmi nəfəri Məsihə gətirmişdi. Onlar dua edirdilər ki, Allah onları yığışmaq və birgə ibadət etmək üçün yerlə təmin etsin.

Üç həftə ərzində Şimali Afrika məsihçiləri bir mənzildə görüşürdülər – qeyri-qanuni yığıncaq onların həbs edilməsinə səbəb ola bilərdi. Onların mədh etməsi və ilahi oxumaqları, onlar haqda məxfi polisə şikayət edən qonşuları ayıltdı. Üç dəfə cavan məsihçilər sorğu-sual edilmək üçün aparılmışdılar.

"Siz islam dininə qarşı danışırsınız?" – deyə, məmur üçüncü istintaq vaxtı soruşdu.

"Xeyr," – deyə, məsihçilər cavab verdi. "Bizim islam dini ilə heç bir işimiz yoxdur. Biz İsaya ibadət edirik."

"Siz bizim rəhbərlərimizə qarşı danışırsınız?"

"Xeyr, cənab. Biz İsanın dediyi kimi, öz rəhbərlərimiz üçün dua edirik."

"Bəlkə görüşmək üçün başqa bir yer tapasınız? Onda sizin qonşularınız sizin haqda şikayət etməyəcəklər."

"Cənab, axı bunu necə edə bilərik. Bizim görüşmək üçün münasib yerimiz yoxdur."

Məmur öz stoluna yaxınlaşdı və bir ərizə formasını çıxartdı. O, bir neçə dəqiqəlik yazı yazdı və ərizəni məsihçiyə verdi. Bu, məsihçilərə artıq istifadə olunmayan bir məbəddə öz birgə görüşməkləri üçün hüquq verdi. Gözəl bina və orda görüşmək üçün hökumətin icazəsi – bu, onların dualarına bir cavab idi.

*Cavab verilməyən bir dua yoxdur. Allah həmişə hər birimizin duasına cavab verir. Buna baxmayaraq, o, bizim fikirləşdiyimiz kimi cavab verməyə də bilər. Bəzən cavab "gözlə" olur. Biz irəliyə addımlamaq üçün onun müəyyən etdiyi vaxtı gözləməliyik. Bəzən onun cavabı bizim ruhən "böyüməyimizdir." Bizim xahişimiz düz hədəfə doğru gedir, amma irəliyə addımlamaq üçün biz böyüməliyik. Bəzən biz Onun "Xeyr" cavabını eşidəndə məyus oluruq. Bizim xahişimiz Onun iradəsinə uyğun deyil və ya hələ vaxtı çatmayıb. Bəzən cavab "irəli"dir. Bizim xahişimiz düz hədəfə doğru gedir. Biz ruhən hazırlanmışıq və vaxt çatıb. Sənin indi duan üçün Allahın cavabı nədir?*

Səni çağırıram, ey Allah, mənə cavab verirsən.

*Zəbur 17:6*

# Böyük qərarsızlıq

**İRAN:** PASTOR ROUBAK

**Gecə yarısından bir az keçmişdi və məhbus çox yorğun idi. O, İran həbsxanasında biradamlıq kamerada 28 günlük həbsdə idi, Allahdan dua edirdi ki, dözə bilmək üçün ona kömək etsin. Onun kamerasının qapısı döyülərkən, o, yorğun və acıqlı idi.**

"Pastor," – deyə, gözətçi söylədi, "Mən sizinlə İsa haqda danışmaq istəyirəm."

"Çıx get," – deyə, pastor zarıldadı. "Mən səninlə danışmaq istəmirəm."

"Axı siz mənimlə danışmalısınız," – deyə, gözətçi dedi. "Siz pastorsunuz."

Cavan iranlı gözətçinin çoxlu sualları var idi. O, məsihçilik və islam arasında olan fərqi, Allahın ağır tələbləri ilə göylərdəki Atanın sevgi dolu çağırışı arasında olan fərqi bilmək istəyirdi. İki kişi, dörd saata yaxın danışdılar və pastor məsihçi imanı, İsanın çarmıxda ölümü vasitəsilə günahdan azad olma və Məsihi öz həyatına necə qəbul etmək haqda danışıb başa saldı.

Növbəti gün səhər saat 04:30-da iki kişi bir yerdə dua etdi. Göz yaşları yanaqlarına axaraq gözətçi Məsihi qəbul etdi. Pastor da göz yaşları ilə onu Allahın səltənətinə qəbul etdi.

Gözətçi yeni həyata daxil olan kimi, pastor öz ürəyində dəyişiklik hiss etdi. "Birinci dəfə idi ki" – deyə, o, sonra söylədi – "bütün kin keçib getmişdi." Onu tutanlara və ölkəsində olan müsəlmanlara qarşı onda məhəbbət oyandı. Həmin andan sonra onun xidməti çox artdı.

*Nəsildən nəslə ötürülən mebel gözəl görünməyə bilər, amma o hansısa hisslərlə əlaqəlidir. Nənə və babana məxsus olan xüsusi bir stul özündə zərif xatirələri daşıyır və üstündə olan ləkə, kiçik yarıqlar və başqa köhnəlmə əlamətləri olduğuna baxmayaraq, bu, sənin üçün hələ də xüsusidir. Bir vaxtlar yaxın qohumun saxladığı xarab olmuş və kəsik-kəsik olan sidr paltar şkafı, misilsiz dəyəri olan xüsusi bir xəzinədir. Eynilə, Allah bizə xoşagəlməz bir şeyə xüsusi məhəbbət verə bilər. O, dəyərsiz bir şeydə dəyər görməyə bizə kömək edə bilər. Onun məhəbbəti sənin günahlarını örtdüyü kimi başqa insanın təqsirinin üstünü də örtə bilər. Bunu sınaqdan keçir və gör. Başqalarını Onun gözləri ilə görməklə sevilməyə layiq olmayan birisini sevmək üçün Allahdan kömək istə.*

Ona qarşı olanları həlimliklə tərbiyə etməlidir. Bəlkə Allah onlara tövbəyə imkan verəcək. Beləliklə, onlar həqiqəti anlayarlar.

*2 Timotey 2:25*

# Böyük müjdəçi

**İRİAN JAYA:** STENLİ ALBERT DEYL

**Bir-birinin ardınca oxlar onun bədəninə dəyirdi və bir-birinin ardınca Stenli Albert Deyl onları bədənindən çıxarırdı və dizi ilə oxları qırırdı. Qan onun yaralarından axırdı və çayın qırağına da tökülürdü. Çığıran Yali döyüşçüləri qorxurdular ki, bu ağ adam, ya da *duonq* ölməzdir.**

Artıq yalilər başqa bir kənddə Deyli öldürməyə çalışmışdı. Onlar onun müjdəsindən qorxmuşdular, çünki onun ardıcılları onların bütlərini və ruhlara ibadət edilən yerlərini yandırmışdılar. Onlar həmçinin, Deylə atəş açmışdılar, amma duonq çıxıb getmişdi və tamamilə sağalmışdı.

Deyl, İrian Jayanın (indiki İndoneziya) dağlarına 1960-cı ildə, Məsihin məhəbbətini bölüşməyə gəlmişdi. Çığıran yüzlərlə döyüşçü ilə üzləşərkən, o, oxlar onun dərisini deşən kimi onları dartıb çıxarırdı. Yalilərə xəbərdar etmişdilər ki, onun daxilində olan Ruh çox güclüdür. Axır ki Deyl və başqa müjdəçi yıxıldı. Altmışdan çox sınmış ox Deylin ayaqlarının yanında topa şəklində yığılıb qalmışdı. Döyüşçülər sonradan onun bədənini hissələrə ayırdılar, çünki qorxurdular ki, o, yenidən dirilə bilər.

Yalilər fikirləşdilər ki, bu, onların dərəsində axırıncı Müjdə olacaq, amma belə olmadı. Başqa məsihçilər gəldilər və Deylin bədəninə ox atan həmin döyüşçülərin əksəriyyəti imana gəldi. Ölməyən duonq indi öz imana gəlmiş qatilləri ilə birgə İsanı izzətləndirir.

*Baxmayaraq ki, yalilər onun bədənin ölməz olduğunu fikirləşirdilər, əslində, ölməz olan onun ruhu idi. Deylin izi ilə gedən müjdəçilər yalilərə əbədiyyəti başa düşməyə kömək etdilər. Onlar yalilər ilə Allah haqda bölüşdülər. Axırıncı həftə ərzində hansı hadisələr, adamlar və şeylər sənin vaxtının çoxunu alıb. Şübhəsiz, həyatın praktikliyi bizi, heç də əbədi bir məsələ olmayan şeylərin öhdəsindən gəlməyə çağırır: uşaq bezləri, telefon zəngləri, quru təmizləmə, futbol məşqləri. Buna baxmayaraq, Deylin hekayəsi bizi əbədiyyət üçün məna kəsb edən şeyləri üstün tutmağı xatırladır. Gündəlik həyatının hansı hissəsində əbədi əhəmiyyətlilik var? Əgər sən buna vaxt ayırmasan, kim ayıracaq?*

O, əbədiyyəti də insanların ürəyinə qoydu.

*Vaiz 3:11*

# Başqa bir böyük poema

**RUSİYA:** ALEKSANDR ZAÇEPA

**Kommunist ordusunda olan rus əsgəri Aleksandr Zaçepa döyüşdə həlak olanda, onun paltarında bu poema tapıldı:**

Eşit məni, ay Allah; Heç vaxt həyatım boyu mən Səninlə danışmamışam.
Amma indi mən hiss edirəm ki, Sənə öz salamlarımı göndərirəm.
Bilirsən, uşaqlıq vaxtlarımdan bəri onlar həmişə mənə deyirdilər ki, Sən mövcud deyilsən.
Mən bir axmaq kimi, onlara inandım. Mən heç vaxt kainat haqda fikirləşməmişəm. Buna baxmayaraq, səngərdə durub yuxarıya baxanda mən göydəki parlayan ulduzlara valeh oldum və birdən yalanın qəddarlığını anladım.
Mənə maraqlıdır, mənim Allahım, Sən mənə əlini uzadarsan?
Amma mən Sənə deyəcəyəm və Sən başa düşəcəksən.
İşığın mənim üzərimə düşməsi və bu cəhənnəm gecəsinin yarısında Səni görməyim qəribə deyilmi?
Buna baxmayaraq, mən əvvəllər Sənin dostun olmamışam,
Amma mən gəlsəm, Sən hələ də mənə daxil olmağa izin verərsənmi?
Niyə mən ağlayıram! Ay Allah, mənim Rəbbim, Sən görürsən mənimlə nə baş verir.
Bu gecə mənim gözlərim açıldı.
Hələlik, mənim Allahım. Mən gedirəm və çox güman ki, qayıtmayacağam.
Qəribədir, elə deyilmi? Amma, mən artıq ölümdən qorxmuram.

Lakin O, sizə görə səbir edir. Çünki O, heç kəsin həlak olmasını istəmir, amma hər kəsin tövbə etməsini istəyir.

*2 Peter 3:9*

*Şəhidlər Allahın sadiqliyi, onun sülhü, onun məhəbbəti, və onun müdafiəsi haqda bizi öyrədirlər. Buna baxmayaraq, şəhidlərin hekayələri yalnız onların özləri haqda deyil, həm də onların düşmənləri haqdadır. Kommunizmdən məsihçiliyə tərəf keçənlər hekayənin başqa tərəfini bizə göstərir. Onlar Allahın səbrini, onun lütfünü və onun mərhəmətini diləyən hətta ən pis günahkarı belə bağışlamasına hazır olmasını aşkar edirlər. Aleksandrın poeması həqiqətə "gözləri açıq olan" hər bir tövbə edən günahkarın yalvarışını ifadə edir. Onun hekayəsi bizə xatırladır ki, İsanın kim olduğunu anlamağımızı və xilas üçün Ona yaxınlaşmağımızı səbirsizliklə gözləyən Allaha xidmət edirik. Bu, şəhidlərin böyük bir xəbəridir. Sənin də xəbərindir?*

# Böyük təhlükə

**ƏFQANISTAN:** ERİK VƏ İV BARENDSEN

**Adamlar bir neçə kilometr keçib İv Barendsen və onun həyat yoldaşı Erikdən dərman və kömək axtarmaq üçün gəlmişdilər. Onların Əfqanıstanda, Kabulda olan balaca evləri, minlərlə müsəlman və məsihçi kimi əfqanların ümid yerinə çevrilmişdi. Soruşan hər bir kəsə onlar deyirdilər ki, İsa Məsihə xidmət edirlər. Buna baxmayaraq, onların xidməti qarşıdurma üçün onları hədəfə çevirdi.**

Erik və İv 1980-ci ildə qısa bir məzuniyyət götürdülər, amma tezliklə onların evinə çevrilən müharibənin viran etdiyi ölkəyə qayıtdılar. “Siz axı necə ora qayıda bilərsiniz?” – deyə, bəziləri soruşdu. “Siz məgər narahat olmursunuz? Axı bu, təhlükəlidir?”

Erik və İv təhlükəni görmədilər; onlar fürsəti gördülər. Onlar mümkün olan qatilləri görmədilər; onlar mümkün olan məsihçiləri gördülər. “Mən ancaq bir böyük təhlükəni anlayıram,” – İv dedi. “Yeganə təhlükə Allahın iradəsinin mərkəzində olmamaqdır.”

Onlar beş və üç yaşlı uşaqları ilə birlikdə Əfqanıstana qayıtdılar. Onların qayıdışından qısa bir müddət sonra, imana gəlmiş məsihçilərlə görüşdükləri evlərində onlara hücum olundu. Onlar qatlanan bıçaqla öldürülmüşdü və uşaqları yetim qalmışdı. Buna baxmayaraq, hətta bu axırıncı anlarda onların sülhü var idi.

Qətldən bir gün əvvəl, İvin anası vəhy görmüşdü ki, mələklər Erik və İvin göylərdə başına qızıl taclar qoyur. Hətta sonra o, onların qətlə yetirilməsi haqda öyrənəndə, bu vəhy onun kədərində ona güc verdi.

*Müsəlman ölkəsində fəal məsihçi olmaq ən təhlükəli işlərdən biridir. Buna baxmayaraq, İv və Erik təhlükə ideyasına yeni bir məna verir. Onların dostları Kabulda olmağın yolverilməz olduğunu deyərkən, Erik və İv bundan başqa bir yerdə olmağın yolverilməz olduğunu dedilər. Onlar bunu özlərinin bir çağırışı kimi gördülər. Onlar bunu Allahın iradəsi kimi gördülər. Deyilənə görə, əgər biz Allahın təminatından kənara çıxırıqsa, biz Allahın müdafiəsini itirmək riski ilə üzləşirik. Əgər yeganə təhlükə Allahın iradəsinin mərkəzindən kənarda olmaqdırsa, bu, sənin üçün yolverilməz olan yeganə təhlükədir. Sən tez-tez özünü qorumaq naminə, Allahdan kənara çəkilib özünü daha böyük təhlükəyə qoyursanmı? Böyük itaətkarlıq gözlənilən şeyləri təhlükə altına qoyur.*

Çünki əvvəldən bizdə olan etimadı
sonadək möhkəm saxlasaq,
Məsihlə ortaq olarıq.

*İbr. 3:14*

# BÖYÜK SADİQLİK

**Çarmıx olmayan yerdə tac yoxdur. Bu dərs kitablardan öyrənilə bilməz və insan, adətən,bu şirinliyi dadmır. Bu bol həyat rahat mühitdə olmur. Ədviyyat yağ olmaq üçün emal olunmayıbsa, ətrin iyi ətrafa yayılmayacaqdır. Əgər üzümləri çəlləkdə əzməsələr, onlar şərab olmayacaq.**

Çinli məsihçidən



329-cu gün

# Böyük sıxma

**ÇİN:** XANIM LU YİNQ

**"Mebeli çəkin kənara və Müqəddəs Kitabları axtarın!" – deyə, zabit əmr etdi. Kommunist gözətçiləri onun evini alt-üst etdikcə xanım Lu Yinqin gözlərindən yaş axırdı.**

"Tapdım!" – deyə, gözətçi qışqırdı. Amma gözətçi kitabı zabitə uzadıb verərkən, xanım Lu Yinq cəsarətlə kitabdan yapışıb ondan aldı.

"Bu kitaba mənim əziz Rəbbim və Xilaskarım haqda bilmək istədiyim hər şey daxildir və mən bundan ayrılmaq istəmirəm," – deyə, o, Müqəddəs Kitabı sinəsinə yaxın saxlayaraq həvəslə söylədi.

"Çıxarın onu bayıra," – deyə, zabit çığırdı. "Görərik nə qədər o, İsa haqda olan kitabından yapışacaq."

Dörd kommunist gözətçi xanım Yinqi küçəyə apardı, onu lağa qoydular; ona tüpürdülər; onu ayaq üstə dura bilməyənə qədər döydülər. "Sən hələ öz əfsanələr kitabına inanırsan?" – deyə, gözətçi güldü.

Hələ də əlində Müqəddəs Kitabı saxlayan İn, şişmiş və qanamış ağzı ilə öz imanını yenidən bəyan etdi.

Gözətçi dəmir çubuğu götürüb onun əl sümüklərini əzdi və onun şikəst əlləri ilə kitabı sıxıb saxlaya bilməməsi üçün barmaqlarını əzdi. Müqəddəs Kitab kənara düşdü və müsadirə olundu.

Təxminən iyirmi ildən sonra bir müjdəçi, xanım Yinq üçün Müqəddəs Kitab gətirdi. Onun gözləri yaşla doldu. O, şikəst əlləri ilə onu tutdu və pıçıltı ilə dedi: "Bu dəfə mən əlimdən buraxmayacağam."

*Bir çox insanlar yalnız yarı-həqiqətdən bütövlüklə yapışıblar. Onlar istər ateist, istər aqnostik, istər buddist, istərsə də hindu olsunlar, yığdıqları bütün həsr olunma yalan imanlarını faktlara çevirə bilməz. Onların səmimiyyəti mahiyyətin çatışmazlığı üçün əvəzedici deyil. Bunun əksi olaraq, məsihçilərdə onların imanına dəstək olan Allah kəlamına dəyişilməz əminlik var və onlar bilirlər ki, Allah kəlamı həqiqətdir. Biz Müqəddəs Kitabla ehtiyatsız davranmağa yol verə bilmərik, baxmayaraq ki, başqaları bütün gücləri ilə bizə qarşı dura bilərlər. Pul və şöhrət kimi həyatında malik olduğun dəyərli şeylərdən bərk yapışdığın kimi, sən Allahın kəlamından da belə bərk yapışırsan? Qoy tutduğun bütün başqa şeylər əlindən düşsün; lakin nəyin bahasına olursa olsun, Allahın kəlamından yapış.*

Rəbbin kəlamları pakdır.

*Zəbur 12:6*

# Böyük "ruh"

**ÇİN:** MİZONQ MAYAO

**Çin əmək düşərgəsində vəziyyət çox amansız idi. Düşərgədə ərzaq ehtiyatı çox azalmışdı, şaxtalı qış temperaturu və epidemiya başlamışdı. Qış başlayanda orda min üç yüz məhbus var idi. Yaz gələndə onların yalnız iki yüz əllisi sağ qalmışdı.**

Mizonq Mayao müjdəni vəz etdiyinə və öz imanını inkar etmədiyinə görə düşərgəyə göndərilmişdi. Öz məhbus yoldaşlarına vəz etməyi dayandırmaqdan imtina edəndə onun beş illik cəzası üç qat artırıldı.

Bu sərt qışda, gözətçilər Mizonq Mayaonun öldüyünü zənn etdilər. Görünürdü ki, həyat onun donmuş bədənini tərk edib, amma Mayaonun ruhu sağ idi və o dua edirdi. Meyitxanada tək olarkən o, oraya gələn birini gördü – parlayan üzlü və ağ geyimdə olan mələk. Mələk yaxınlaşıb Mayaonun üzünə üfürdü. Mələk üfürdükcə, o, xəstəliyin onun bədənini tərk etdiyini və istiliyin ona daxil olduğunu hiss etdi. O, dərhal dizi üstə oturdu və minnətdarlıq duası etdi.

O, meyitxanadan çıxıb həbsxana həkiminin yanına getdi. Həkim dəhşətə gələrək ona heyrətlə baxdı; o, ruh gördüyünü fikirləşdi. "Qorxma. Mən Mizonq Mayaoyam," – deyə, məsihçi söylədi. "Allah mənim sağlamlığımı bərpa etdi. O, məni sənə Allahın yolunu göstərmək üçün göndərdi. Ehtiramla baş əyərək, həkim dedi, "Sənin Allahın həqiqidir." O gecə o, Məsihi Xilaskarı kimi qəbul etdi.

*Görmək inanmaqdır. Biz Allah haqda danışa bilərik. Biz İsa haqda öyrənə bilərik. Amma həkim kimi, "Allah həqiqidir" etirafını etmək üçün biz imanla onu yaşamalıyıq. Çin əmək düşərgəsində olan həkimin Məsihə iman etmə imkanı, demək olar ki, sıfıra bərabər idi. Buna baxmayaraq, yaşayan möcüzə ilə üz-üzə duranda o, Mizonq Mayaonun Allahına inanmağı seçdi. Bəzən biz hiss edə bilərik ki, bizə əziz olanlar eyni qəribəliklər ilə üzləşir. Biz onların Allahı hiss etmələri üçün dua etməliyik. İnsanlar dünya və kainat vasitəsilə Allahla qarşılaşa bilərlər. Onlar sevgi dolu münasibət vasitəsilə Onun iş gördüyünü görə bilərlər. Mizonq Mayaonun möcüzələrinə bənzəyən möcüzələr azdır, öz əzizlərin üçün dua et ki, onların yaşayan, sevən Rəblə həyatıdəyişdirən görüşləri olsun.*

Onlar... Filipin yanına gəlib "ağa, biz İsanı görmək istəyirik" – deyə, ondan xahiş etdilər.

*Yəhya 12:21*

# Böyük "sövdələşmə"

**ŞƏRQİ AVROPA:** DUSTAQLAR

**Təbliğçi öz ilk fikrini deməyə başlayarkən, həbsxana gözətçiləri otağa soxulub ondan yapışıb digərlərini yerə yıxdılar.**

"Sən bilirsən ki, belə bir vəz qadağandır," – deyə, onlardan biri bağırdı. "İndi sən cəza ilə üzləşəcəksən." Yekəpər gözətçilər onu həbsxana kamerasından dartıb çıxartdı və aşağıya apardılar. Başqa məhbuslar bilirdilər ki, Şərqi Avropa kommunist gözətçiləri onların dostunu "işgəncə otağına" aparırlar. Onlar otağın qapısının çırpıldığını eşitdilər və gözətçilər onların dostunu amansızcasına döydükcə onlar boğuq səs və qışqırıq eşidirdilər.

Bir saatdan sonra gözətçilər kameranın qapısını açıb vəz edən kişini içəriyə tulladılar. Başqa məhbuslar onun paltarlarının qan içində və üzündə işgəncə əlamətlərinin olduğunu gördülər. O, kamera yoldaşlarına elə baxdı ki, sanki burada kimlərin olduğunu bilmək istəyirdi.

"İndi isə mənim qardaşlarım," o dedi, " bizi kobudcasına narahat edərkən mən söhbətin harasında qalmışdım?" – beləliklə, o, vəzə davam etdi. Həbsxanadakı məsihçilər vəz etməyin onlara baha başa gələcəyini bilirdilər, buna baxmayaraq, bir çoxları vəz edirdi. Bəziləri Müqəddəs Kitab təlimini keçmədən və xidmətlə bağlı təcrübəsi olmadan həvəslə və təsirli surətdə həbsxanada vəz edirdi.

"Bu, bir sövdələşmə idi," – sonra bir məhbus yazdı. "Biz vəz edirdik, onlar isə döyürdülər. Biz vəz etdiyimiz üçün şad idik və onlar da döyməklərinə görə şad idilər, belə ki, hamı şad idi."

*Müqavilənin artıq insanları bir-birinə bağlamadığı bir dünyada, ailələr dağılır və boşanmaların sayı nikah quranların sayından ötüb keçir, məsihçilər nəyin bahasına olursa olsun, həsr etmənin mənasını yenidən bərpa etməlidirlər. Əgər vəd heç bir məna kəsb etmirsə, onun dəyəri nədir? Buna baxmayaraq, Məsihə olan həsr olunmamızın nəticəsi ucuz deyil. Dünya standartlarına əsasən, bu, bizə müvəffəqiyyətli olmaq bahasına başa gələ bilər. Bu, bizə dostlar və şöhrət bahasına başa gələ bilər. Bu, bizim ailəmizin bahasına başa gələ bilər. Bizim təhlükəsizliyimiz bahasına başa gələ bilər. Bəziləri üçün isə hətta həyatı bahasına başa gələ bilər. Həsr olunmanın qiyməti olmalıdır. Dustaqlar bunu bütövlüklə başa düşdülər. Buna baxmayaraq, Məsihin mükafatı sövdələşmənin bir hissəsidir. Sən sövdələşmənin sənə aid olan hissəsinə əməl edirsən?*

Sən dözümlü oldun, Mənim adım naminə tab gətirdin və yorulmadın.

*Vəhy 2:3*

# Böyük çağırış

**RUMINİYA:** KAPİTAN REK

**Bir neçə gün ərzində kommunist gözətçiləri həbs edilmiş pastoru döyürdülər. Sonra yaxşı yemək ilə onun güc yığmasına kömək edər və yenidən döyərdilər. O, müntəzəm olaraq ölənə qədər döyülürdü, amma tez öldürülmək üçün yox. Onlar onun əzab çəkməsini istəyirdilər.**

Kapitan Rek bir gün pastoru döyərkən dedi: "Mən Allaham. Mən sənin üzərində olan ölüm və həyat üçün qüdrətə malikəm. Göylərdə olan bir nəfər sənin sağ qalıb qalmamağına qərar verə bilməz. Hər şey məndən asılıdır. Mən istəsəm, sən yaşayacaqsan, ya da öləcəksən. *Mən Allaham!*"

Pastor sakitcə cavab verdi: "Sən bilmirsən necə dərin bir şey dedin. Sən işgəncə verən, adam öldürən biri kimi olmaq üçün yaradılmamısan. Sən Allaha oxşar kimi olmaq, ürəyində onun həyatını yaşamaq üçün yaradılmısan. Sənin kimi təqibçilərin bir çoxları, həvari Paulun etdiyi kimi, başa düşməyə başlamışlar ki, vəhşilik törətmək insan üçün rüsvayçılıqdır. Onlar bundan daha yaxşı şeylər edə bilər. İnan mənə, kapitan Rek, sənin həqiqi çağırışın Allah olmaq deyil, Allaha oxşar olmaqdır. Sən cəlladın deyil, Allahın xüsusiyyətlərinə malik ola bilərsən.

Rek məsihçinin sözlərinə özünü eşitməməzliyə vurdu və pastoru onun imanına görə döyməyə davam etdi. Buna baxmayaraq, o öz çağırışı haqda fikirləşməkdən vaz keçə bilmirdi. Nəticədə, Rek, dizi üstə Məsihi öz ürəyinə qəbul etdi.

*Hər bir tırtıl, əgər düzgün inkişaf edərsə, həqiqi bir kəpənəkdir. Əgər inkişaf etməsə, ola bilər ki, yaşamağa davam etsin. Buna baxmayaraq, o, qabaqcadan təyin edilməmiş bir şeydir. Həmçinin, bir insan kimi bizim həqiqi çağırışımız, İsa Məsih ilə şəxsi münasibətə girmək və Məsihə oxşar xasiyyəti inkişaf etdirməkdir. İsasız, biz yaxşı nüfuza malik ola bilərik. Biz çox uğurlu ola bilərik – müvəffəqiyyətli iş adamı, sevən ana, sədaqətli ata. Buna baxmayaraq, əgər biz öz həqiqi çağırışımızı əldən buraxsaq, heç vaxt başlanğıcdan yaradıldığımız insan kimi bir insan ola bilməyəcəyik. Tırtıl maraqlıdır. Amma kəpənək onu gözəlliyində və bacarığında üstələyir. Həyatında dünyəvi müvəffəqiyyətə malik olub, lakin öz həqiqi çağırışını əldən buraxmısan?*

Bizdə fəaliyyət göstərən qüdrətlə istədiyimiz, yaxud düşündüyümüz hər şeydən daha artığını etməyə qadir olan Allaha... izzət bütün nəsillər boyunca əbədi olsun!

*Efes. 3:20*

# Böyük məhdudiyyətlər

**BABİL:** ŞADRAK, MEŞAK VƏ AVED-NEQO

**"Bizim bu iş üçün sənin önündə özümüzü müdafiə etməyimizə ehtiyac yoxdur. Ey padşah, əgər belə olsa, qulluq etdiyimiz Allahımız bizi odla qızmış sobadan xilas etməyə qadirdir və sənin də əlindən qurtaracaq. Sənə məlum olsun ki, ey padşah, əgər belə olmasa da, biz sənin allahlarına qulluq edən deyilik və sənin qoyduğun qızıl heykələ də səcdə etməyəcəyik" (Daniel 3:16-18).**

Bu üç kişiyə qarşı padşahın qəzəbi artdı. Onlar onun öz xalqı üçün ucaltdığı bütlərə sitayiş etməkdən imtina etdilər və onları odla qızmış sobaya atmaqla cəzalandırmaq istədi. "Sobanı qızdırın!" – deyə, o əmr etdi. "Mən onun adətən qızdırıldığından yeddi dəfə çox qızdırılmasını istəyirəm. Ordusunda olan ən güclü əsgərlərə onların əllərini bağlamağı əmr etdi. Soba bərk qızdı və onun divarları qırmızı rəngə çevrildi, sanki əriyəcəkdi. "Onları atın ora," – deyə, padşah əmr etdi.

Onlar bunu edərkən soba həddindən artıq qızdırıldığı üçün əsgərləri öldürdü. Soba həddən artıq qızdığı üçün alovdan içərisini görmək mümkün deyildi, məhbuslar bir anlıq alovun içində itmişdilər.

Sonra baxanda Navuxodonosor, heyrətə gəlib yerindən sıçradı. O dedi: "Budur, mən odun içində əl-qolu bağlanmamış dörd nəfərin gəzdiyini görürəm və onlara heç nə olmur. Onlardan dördüncüsü allahların oğluna bənzəyir" (Daniel 3:25).

Birdən Navuxodonosor, bir həqiqi Allahın qarşısında öz məhdudiyyətini bildi.

*Xeyir və şər arasında olan müharibəyə gəldikdə, bu, ədalətli savaş deyil. Düşmən güclüdür. Amma Allah daha qüdrətlidir. İblis güclüdür. Buna baxmayaraq, Allah daha güclüdür. İblis bütün dünyaya öz pis ruhlarını göndərir ki, onun pis əmrlərini yerinə yetirsinlər. Bunun əksi olaraq, yalnız Allah hər yerdə mövcud olandır – tamamilə hər yerdə hər zaman mövcuddur. Bununla belə, biz qarşı tərəfin təzyiqi altında olanda iblisin məhdudiyyətliyi həmişə aydın görünmür. Elə vaxtlar olur ki, iblis qorxulu görünür. Hədə-qorxu edən, məhv edən görünür. Biz müvəqqəti olaraq, Allahın məhdudiyyətsiz qüdrətini unuduruq. İblisin sobasında olarkən sənin gözün termostatdadır? Yoxsa sən Allahın hüzuruna diqqətini cəmləyirsən və istiyə dözmək üçün güc tapırsan?*

Çünki bu cür xilas edən başqa bir allah yoxdur.

*Daniel 3:29*

# Böyük alqışlar

**İNGİLTƏRƏ:** TOMAS HAUKER

**Tomas Hauker – şən, yaraşıqlı, alicənab bir gənc, Məsih ilə olan şəxsi münasibətlərini inkar etməyəcəkdi. Buna görə ona dirəkdə yandırılma hökmü verilmişdi.**

Edam günündən bir gün əvvəl, Tomasın dostları onun həbsxana kamerasına gəldilər. Onlardan biri dedi: "Mən inanıram ki, Allah alovda ölənlərə xüsusi lütf verir və onlara bu alova dözməyə kömək edir. Sənin xatirinə, sənə qarşı olan bu qəddarlığa mənim dözə bilməyim üçün, sən bizə bir işarə edə bilərsən? Bunu bilməsəm, inanmıram ki, mən o günə dözə bilim."

Tomas bir anlıq fikirləşdi. "Əgər ağrının şiddətliliyi dözülə biləndirsə, ölməzdən qabaq mən işarə kimi, əllərimi göylərə qaldıracağam."

Edam günündə, izdiham Tomasın vədinə görə səy-küy salmışdı. Onu dirəyə bağlayanda, o, odunları düzən adamla mülayim tərzdə və böyük lütf ilə danışdı. Sonra o, gözlərini bağladı və alov alışıb yanmağa başladı.

Tomas onun ətrafında olanlara vəz etməyə davam etdi, amma tezliklə alovun səsinə görə o, davam edə bilmədi. Hamı əmin idi ki, o ölüb. Birdən, o əllərini göyə – Allaha qaldırdı və həmd və minnətdarlıqla üç dəfə əl çaldı. İzdihamda səs-küy qalxdı və Tomas alova büründü və öz ruhunu təslim etdi.

*"Mən buna artıq dözə bilmirəm." Tez-tez biz balaca sınaqlarda məyusluq ifadə edirik. Ağlayan uşaq. İlişən qapı dəstəyi. Layihə işinin təhvil verilməsinin son müddəti ilə bağlı, işin gecələr də davam edilməsi. Buna baxmayaraq, təzyiq altında təslim olmağa sövq olunanda, şəhidlərin hekayəsi bizim az əhəmiyyətli fikirlərimizi izləyir. Biz tez-tez problemlərimizi şişirdirik və onlara dözə bilmək qabiliyyətimizə lazımi qədər qiymət vermirik. Əslində, Allah bizə söz verir ki, dözə biləcəyimizdən artıq bir şeyin həyatımıza gəlməsinə yol verməyəcək. Tomasın həmd ilə əllərini göyə qaldırması, alov üzərində qalibiyyətini işarə etməsi kifayət qədər sübutdur. Müəyyən vəziyyətə artıq dözə bilməyəcəyini fikirləşəndə, Toması xatırla. Həmçinin, Allahın sadiqliyini xatırla. O, sənin nəyə dözə bilib bilməyəcəyini dəqiq bilir.*

Gözlərimizi görünən şeylərə deyil,
görünməyən şeylərə dikirik.
Çünki görünənlər gəldi-gedər,
görünməyənlərsə əbədidir.

*2 Korinf. 4:18*

# BÖYÜK SADİQLİK

**Ay Allah, mənim bütün əzablarımı, mənim yorğunluğumu, mənim alçalmamı, mənim göz yaşlarımı, vətən həsrətimi, mənim ac olmağımı, mənim soyuqdan əziyyət çəkməyimi, ruhumda yığılan bütün kədəri qəbul et. Əziz Allah, bizi təqib edən və gecə-gündüz bizə işgəncə verənlərə rəhm et. Onlara da ilahi lütfünü ver ki, Sənin məhəbbətinin şirinliyini və xoşbəxtliyini tanısınlar.**

Sibirdə, Vorkutada islah əmək koloniyasında cəza çəkən məsihçi qadından.



336 gün

# Böyük islahatçı

**ALMANİYA:** MARTİN LÜTER

**31 oktyabr 1517-ci il, Martin Lüter Almaniyada Vittenberq kilsəsinin qapısına Müqəddəs Kitaba əsaslanan imanın doxsan beş bəyanatını vurmuşdu və ömrünün qalan hissəsini edamdan bir addım kənarda keçirmişdi. Bu təhlükəyə baxmayaraq, Lüter onun vaxtında kilsənin yeritdiyi təlimə qarşı, ruhani təlimin gerçəkliyi haqda mübahisə etmək fürsətindən heç vaxt qorxub kənara çəkilmirdi.**

Baxmayaraq ki, ona Vormsda olan toplantılara qosulmaması barədə dəfələrlə xəbərdarlıq edilmişdi, o dedi: "Madam ki, mən göndərilmişəm, Rəbbimiz İsa Məsihin adı ilə mən qərara gəldim və mən iştirak etmək niyyətindəyəm; baxmayaraq ki, orada Vormsun evlərini örtən kirəmitlər qədər şeytanların mənə qarşı duracağını bilirəm."

Ona öz təlimlərini ləğv etmək barədə deyiləndə, Lüter dedi: "Mənim vicdanım müqəddəs yazı və Allahın kəlamı ilə elə bağlanıb və zəbt edilib ki, mən heç bir sözümü geri götürməyəcəyəm; mən vicdanıma qarşı getməyi mömin və qanunauyğun hesab etmirəm. Mən bunun tərəfdarıyam və buna əsaslanıram. Başqa sözüm yoxdur. Allah özü mənə mərhəmət etsin!"

O, onu öldürmək istəyənlərdən qaçıb canını qurtardı – və gizli yaşayaraq – müqəddəs yazıları alman dilinə tərcümə etdi. Daim təhlükə altında olmasına baxmayaraq, o, altmış altı yaşına qədər yaşadı və öz əcəli ilə öldü.

*Bu və ya başqa şeyə görə insanlar məbədi cəld tənqid edirlər. Brodvey teatrı üçün tənqidi rəy yazmaq kimi, eynilə məbəd üzvləri də ibadəti bir tamaşa kimi qiymətləndirməyə can atırlar. Musiqinin səsi çox yüksəkdir. Vəz çox qısadır. Bina soyuqdur. Oturacaqlar narahatdır. Amma Lüter tənqidçi deyildi, baxmayaraq ki, o, təsis olunmuş kilsəni dəstəkləmədi. O, onu məzəmmət etdi. Məzəmmət etmək tənqid etməkdən fərqlənir, çünki məzəmmət müqəddəs yazıdan ayrı düşmüş məbədi geriyə, Allahın kəlamına çağırır. Bundan fərqli olaraq, tənqid, sadəcə, insanın fikrinə və nəyi üstün tutmasına olan çağırışdır. Sən Lüter kimi ehtiyatla Məsihin cəmiyyətinə xidmət edirsən, yoxsa, sadəcə, Allahın məbədini tənqid edirsən?*

Allahın kəlamını vəz edəsən,
hansı vaxt olursa-olsun hazır
olasan, insanlara tam səbirlə təlim
öyrədərək məzəmmət, xəbərdarlıq
və nəsihət verəsən.

*2 Timotey 4:2*

# Böyük daşıyıcı

**ROMA:** İQNATİUS

**"Əgər Məsih onda yaşamırsa, insanın həyatı davamlı bir ölümdür."**

**- İqnatius**

İqnatius həvari Yəhyanın şagirdi idi və imperator Antakyalı Trayanı bütlərə sitayiş etdiyinə görə cəmiyyət içində məzəmmət etmişdi. Lakin Trayan onun xəcalətli məzəmmətinə görə əvəzində İqnatiusdan ictimai qisası alacağına and içdi.

İqnatius həbs edilib Romaya gətirildi. Şirlər olan quyuya aparılarkən o, başqa bir imanlıya dedi: "Mənim əziz Məsihim, Xilaskarım, mənim ürəyimin dərinliyində yazılıb və məndə əminlik var ki, əgər mənim ürəyim kəsilsəydi və hissələrə bölünsəydi, hər bir hissədə İsa adı tapılardı.

Çoxlu insanlar onun ölümünə şahid olmaq üçün yığılanda, İqnatius çığıran izdihama cəsarətlə müraciət etdi. "Mən Allahın taxılıyam. Mən heyvanın dişlərinin altında üyüdülürəm ki, mənim üçün Həyat Çörəyi olan Məsih üçün pak bir çörək olum."

Bu sözləri deyən kimi iki ac şir onu qapıb yedi. O, öz soyadının mənasını həyatda yaşadı, Seoforus, "Allahı daşıyan" deməkdir. Axıra qədər o, Allahın və Xilaskarının adını öz dilində daşıdı. O, tez-tez deyirdi: "Çarmıxa çəkilmiş Məsih mənim yeganə və tam bir məhəbbətimdir." Sonda isə o, bu sadə həqiqətdə təsəlli tapdı: "Dünya məsihçilərə nifrət etdikcə, Allah onları sevir."

*Nikah ənənəsinə əsasən qadın ərinin soyadını, onların birliyinin bir rəmzi kimi daşımalıdır. Onlar artıq iki insan deyillər, birdirlər. Cütlük birgə yaşa dolduqca, onlar soyadlarından daha çox şeyləri bölüşməyə başlayırlar. Onlar eyni dostları və maraqları bölüşürlər. Onlar bir-birinin cümlələrini tamamlamağa başlayırlar. Onların bəziləri hətta qəribə olaraq bir-birinə bənzəməyə başlayırlar...məsələn, onların uzun müddətli yaxın olmaları. Eynilə "məsihçi", ya da "balaca məsih" adını daşıya insan eyni yaxınlığı – Xilaskar ilə birliyi inkişaf etdirir. Məsih adını yaxşı daşıyırsan? İqnatius kimi, İsanın adını bölüşmək, səni onun əziyyətləri, xidməti və həyatı ilə bölüşməyə ruhlandırır?*

Çünki Sənə məxsusam, Ey Ordular Allahı Rəbb!

*Yeremya 15:16*

# Başqa bir böyük sual

**BİRLƏŞMİŞ ŞTATLAR:** UŞAQLAR ÜÇÜN SSENARİ YAZANLAR

**"Biz bu sualı verə bilmərik. Biz cavabı bilmirik!"**

Ssenari yazanlar uşaqlar üçün "*Stefanın imanının sınağı*" videosu üzərində işləyirdi, burada, təqibin tarixini öyrənmək üçün balaca oğlan keçmiş dövrə səyahət edir. Onlar Romada iğtişaş yaratmaqda ittiham olunan və sonra həbs edilib ac şirlərin yuvasına atılan məsihçilərin səhnəsi üzərində işləyirdilər.

"Burada Stefan bu sualı verə bilməz, 'Əgər Allah Danieli şirlərin yuvasında qorudusa, bəs niyə O, Kolizeydə olan məsihçiləri qorumadı?"

Nəyə görə Allah özünün bir övladını qoruyur, amma digər min övladının məhv olmasına icazə verir? Baş ssenari yazan fikirləşdi və cavab verdi: "Problem cavabda deyil; problem sualdadır. Biz gərək soruşmayaq: 'Niyə?' Biz gərək soruşaq: 'Biz istəyirikmi?' Daniel ac şirlərin qarşısında məhv olmağa hazır idi. Neronun vaxtında da imanlılar ölməyə hazır idilər. Birinin cəzadan qurtulması və o birisinin cəzadan qurtulmaması faktı onların ürəyinin vəziyyətini dəyişmədi. Şəhadəti əziyyətimiz yox, itaətkarlığımız göstərir."

Navuxodonosor, Şadrak, Meşak və Aved-Neqonu odla qızmış sobaya atdıranda, onlar dedilər: "Qulluq etdiyimiz Allahımız bizi odla qızmış sobadan xilas etməyə qadirdir....əgər belə olmasa da, biz sənin Allahlarına qulluq edən deyilik və sənin qoyduğun qızıl heykələ də səcdə etməyəcəyik" (Daniel 3:17-18).

*Bir çox insanlar niyə sualını verirlər. Biz izah olunmamış faciə ilə bağlı cavabsız qalan sualların yeni bir erasına daxil olmuşuq. Dünya öz suallarına cavab almaq üçün qışqırır, buna baxmayaraq, biz hamımız bilirik ki, heç bir cavab yaranı sağaltmaq üçün kifayət etməyəcək. Hətta əgər biz hər bir xüsusi vəziyyətdə baş verən faciənin səbəbini bilsəydik, bu, ağrını yalnız azca yüngülləşdirərdi. Əvəzində bizə, Danielin dostları kimi bir iman lazımdır, onlar deyirdilər ki, Allah bizim duamızdan fərqli bir tərzdə hərəkət etməyə qərar versə də əmin olmalıyıq ki, O, bütün şeyləri bizim yaxşılığımız naminə edir. Niyə sualını verib başa düşmək üçün yalvarmaq əvəzinə, biz hər şeydən üstün olan sülh üçün dua etməliyik.*

Onda Allahın ağlagəlməz sülhü ürəklərinizi və düşüncələrinizi Məsih İsada qoruyacaq.

*Filip. 4:7*

# Böyük miras

**BİRLƏŞMİŞ ŞTATLAR:** EN HATÇİNSON

**"Uşaqlar, aşağı əyilin!" – deyə, En Hatçinson qapıya dəyən oxu eşidib qışqırdı. Sonra onlar evi əhatəyə alan hinduların dəhşətli qışqırığını eşitdilər. Hər tərəfdən oxların gəldiyi görünürdü və o, pəncərəyə yaxınlaşan addımları da eşidə bilirdi. "Rəbb, mən bu gün səni görəcəyəm!" – deyə, En söylədi.**

En Hatçinson cəsarətli qadın idi. İyirmi üç yaşında olanda, o, puritan imanı haqda açıq danışdığına görə üç dəfə həbs edilmişdi. Puritanlar Müqəddəs Kitab haqda öz məbədlərində eşitmək istəyirdilər, çünki İngiltərədə bir neçə məsihçidə ingilis dilində Müqəddəs Kitab var idi.

En və onun əri Vilyam dini azadlıq axtarışı ilə 1634-cü ildə Amerikaya gəlmişdilər, amma hətta Amerikada evdə keçirtdikləri dini görüşlərinə görə onlar təqiblə qarşılaşmışdılar. Onların xidmətinə dəstək olan insanlar həbs olunmuşdular və hətta səs vermək hüququnu itirmişdilər.

Qırx altı yaşında və on səkkizinci uşağına hamilə olan En, məhkum olunaraq dörd aylıq həbs edilmişdi. Koloniyadan qovulandan sonra, onun ailəsi və dostları Rod-Aylondda yeni şəhərcik və ev toplantısını təşkil etməyə başladılar.

İlk yolu açaraq, En Hatçinson ibadətdə azadlıq ideyasını bir Amerika idealı etməyə kömək etdi. O və onun beş uşağı hindu hücumçuları tərəfindən öldürüldü. O, öz həyatını cəsarət və imanla yaşadığı kimi Xilaskarını da elə qarşıladı.

*Azadlıq heç vaxt ödənişsiz başa gəlmir. O, həmişə nəyinsə bahasına əldə edilir. İsa Məsih dini azadlığın əldə edilməsi üçün tam ödənişi ödəyən birinci insan idi və çarmıxdakı ölümü vasitəsilə bizə Allaha gedən yolu açıq etdi. Bizi günahdan azad etmək üçün ödənişi ödəyə bilən yalnız O idi. Onun ölümü və dirilməsi həqiqi azadlığın əsasını qoydu, o vaxtdan bəri bir çox imanlılar, hər kəsin Məsihdə olan azadlığı yaşaması hüququnu müdafiə etmək üçün qurbanlar verdilər. En kimi imanlılar Amerikada olan dini azadlıq arzusunu gerçəkliyə çevirdi. Bizim qurban vermək mirasımız böyükdür. Gələcək nəslin sənin zövq aldığın dini azadlıqları yaşaması üçün hansı ödənişi ödəmək istəyirsən? Allahdan xahiş et ki, bunu gələcək nəslə necə ötürməyi sənə göstərsin.*

Əməllərin nəsildən-nəslə qədər
mədh ediləcək, qüdrətli işlərin
bəyan ediləcək.

*Zəbur 145:4*

# Böyük qaçaqmalçılar

**ŞİMALİ KOREYA:** KİQ

**"Çarmıxı axtarın," – Kiq adında cavan koreyalı oğlan kəndlinin dediyini eşitdi.**

Çarmıx olan binanı axtarmaqla bağlı olan söz, Şimali Koreyadan Çinə qaçanlara yayıldı. O, axır ki, birini tapdı, həm də yemək və paltar tapdı. O, həmçinin, İsa Məsihlə olan yeni ünsiyyəti tapdı.

Məbəd üzvləri Kiqə üç ay təlim keçdilər. Amma Kiq bilirdi ki, o başqalarına İsa haqda demək üçün Şimali Koreyaya qayıtmalıdır.

Kiq və beş başqa cavan imanlılara Müqəddəs Kitab və səyahət üçün yemək verildi. Amma onlar çayı keçib Şimali Koreyaya keçən kimi sərhəd gözətçiləri onları tutdular.

Gözətçilər Kiqin dostlarının apardıqları Müqəddəs Kitabları aşkar etdilər. Sonra gözətçi Kiqin dostunu dəmir çubuq ilə ölənə qədər döydü. Sonra onlar Kiqə tərəf döndülər, amma o, qaçmağa nail oldu. Bir neçə aydan sonra o, başqaları ilə İsa haqda bölüşməyə başladı və Şimali Koreyada gizli bir məbəd yaratdı.

Tezliklə Kiq, sayca tez artan imanlılar üçün Müqəddəs Kitab lazım olduğunu başa düşdü. O öz torpaqlarına Allah kəlamı gətirməyə çalışaraq öz həyatını qurban verən dostunu yada saldı. Kiq daha çox Müqəddəs Kitab üçün Çinə qayıtmağı qərara alanda, imanlılar onun təhlükəsizliyi üçün çox narahat oldular.

Kiq bir müddət bundan qabaq ona verilən məsləhəti yada saldı. O, belə cavab verdi: "Sadəcə çarmıxı axtarın."

*Çarmıx mübahisəli məsələdir. Bir çox insanlar din haqqında danışırlar, amma çarmıx onları narahat edir və hətta onların qanını qaraldır. Kiqə təhlükəsizlik üçün çarmıxı axtarmaq deyilmişdi. Amma Kiq başa düşmürdü ki, onun düşmənləri eyni işarəni axtarırlar və bunun üçün kifayət qədər səbəb var idi. Onlar bilirdilər ki, məsihçilər bu çarmıx işarəsinin altında yığışırlar. Onlar məsihçiliyə müqavimət göstərdikləri üçün çarmıx onların düşməninə çevrildi. Bizim ruhani düşmənimiz çarmıxa ikrah, qorxu və nifrət dolu hiss ilə baxır. Sən çarmıxa sevinc, ümid və minnətdarlıqla ifadə olunan nəzərlərlə baxırsan? Hücum etməyi planlaşdıran bir düşmən kimi – sənin düşmənin birbaşa çarmıxa istiqamətlənib. Sən də eynilə çarmıxı qorumaq, sevmək və xidmət etmək üçün fikrini ona cəmləşdirmisən?*

Sizə dəfələrlə söylədiyim kimi, indi də göz yaşları içində təkrar deyirəm: bir çoxları Məsihin çarmıxına düşmən olaraq həyat sürür.

*Filip. 3:8*

# Böyük birlik

**MALUKU:** NUS REYMAS

**"11 sentyabrda təyyarələrin Ümumdünya Ticarət Mərkəzinə dəydiyini görəndə, bu, məni ağrılı xatirələrə qaytardı," – deyə, İndoneziya Müjdəçilik Kilsəsinin baş katibi Nus Reymas söylədi.**

"Bir il bundan qabaq, deyilənə görə, Osama Bin Ladenlə əlaqəsi olan yüzlərlə yaxşı silahlanmış müsəlman bizim Maluku adasına hücum etdilər. Onların tapşırığı bütün məsihçiləri oradan təmizləmək idi." Hesablamalara görə, altı minə yaxın adam öldürülmüşdü və əlavə olaraq, beş min daimi sakin, arası kəsilməyən atəş və törədilən yanğın ucbatından evlərindən qovulmuşdular. "Müsəlmanlar mənim qohumlarımın otuz səkkiz üzvünü qətlə yetirdilər," – deyə, Reymas dərin düşüncələrə qərq olaraq dedi.

22 oktyabr 2001-ci ildə "*Məsihçilik bu gün*" radio buraxılışında, Reymas 1 Saloniklilərə 5:18-i, "hər vəziyyətdə şükür edin, çünki bunlar Məsih İsada olan sizlər üçün Allahın iradəsidir", kəlamını tətbiq etməyin onun üçün necə çətin olduğu barədə danışdı. Ağrı o qədər güclü idi ki, bərpa olma sanki heç vaxt olmayacaqdı. Buna baxmayaraq, Allahın lütfü ilə, Reymand qərara gəldi ki, o, Allah Kəlamının öyrətdiyinə əsasən yaşayacaq.

"Yalnız onda mən vəziyyətə tab gətirib onunla üz-üzə dura bilərəm. Heç kim belə şeyləri gözləmir, amma onlar baş verir. İndi Reymand müxtəlif cür məbədlərdən olan məsihçi rəhbərlər arasında toplantılar təşkil edir. Necə ki, Amerikada həyatın müxtəlif sahələrində çalışan insanlar dua və dəstək üçün bir yerə toplaşırlar, eləcə də bir çox məsihçi rəhbərlər də dua və ünsiyyət üçün İndoneziyada toplaşırlar. Reymas düşündükcə gülümsəyir: "Bu, əvvəllər heç vaxt baş verməmişdi."

*Bizdə əvvəllər heç vaxt belə şey baş verməmişdi. Məhv olmuş insan ləyaqəti. Dağılan Əkiz Qüllələr. Qara yara. Amerika bayrağı Pentaqonun yaralarının üzərinə sərilmişdi. Belə şey baş verməmişdi. Bizim adamlar dua edir. Bizim məbədlərimiz doludur. Boşanma haqqında ərizələr geriyə götürülür. Yox, belə şey hələ olmamışdı. İrqləri və mədəniyyətləri bir-birindən ayıran divarlar yox olmuşdu. Qaranlıq rəisi iblis bizi ayırmaq istədi. Məhəbbət olan Rəbb bizi özünə cəlb edir. Belə şey baş verməmişdi. Edilən və deyilən bütün şeylərdən sonra biz bir şeyi bilirik: Əgər nə vaxtsa biz bu yolu yenə keçsək, biz onu bir yerdə keçəcəyik.*

Nə yaxşıdır, nə xoşdur qardaş olub
bir yaşamaq!

*Zəbur 133:1*

# BÖYÜK SADİQLİK

**Ailəm ilə bağlı dəlilik, həyəcan, daimi gərginliyin hamısı məni məhv edir. Amma əgər onlar mənim ağlımı başımdan çıxarır, ya da sağlam düşüncədə saxlayırsa, uşağın onun atasının əlindən hər şeyi qəbul etdiyi kimi, mən də Allahın göndərdiyi hər şeyi qəbul edirəm. Qorxaqlıq ağılsızlıqdır. Ruhi xəstəxanada mən tez-tez fikirləşirdim ki, Allahın iradəsi insanın azadlığını toxunulmamış saxlayır.**

İmanına görə Rusiya ruhi xəstəxanasına salınan Şimanov qardaşdan.



343-cü gün

# Böyük "itki"

**ÇEXOSLOVAKİYA:** ZAVARSKİ QARDAŞ

**Bu məyusluq nəticədə həddən artıq idi. "Mənim bütün vaxtım qul əməyi ilə keçirilir!" – deyə, çex dustağı Zavarski qardaş şikayət etdi. Gündə on saat mən kommunistlərin yaxşı qiymətə satdığı zənbilləri toxuyuram. Niyə mən pastor olmaq üçün bu qədər oxudum? Kommunizm xidmətində olan bu yazıqlar kilsədə böyük vəzifəyə malikdirlər. Onlar vəz edir, məsləhət verir, sürünü otarırlar. Mən isə əziyyət çəkirəm."**

"Niyə şikayət edirsən?" – deyə, həbsxanadakı başqa məsihçi soruşdu. "Allaha sənin vəzin, ya da sənin ilahiyyatın lazım deyil. Kommunizmin əlaltıları bu işi görürlər. Amma onlar Xilaskarın əziyyətini başqaları ilə bölüşə bilmirlər. Ruhani işə həsr olunan şəxs bu əsas vədi verməlidir. Sən heç Məsih üçün çəkdiyin kədər haqda vəz etmisən? Allaha minnətdar ol ki, O, sənə hər hansı vəzin ən qiymətli hissəsini yerinə yetirməyə fürsət verib."

Cəzalandırılan Zavarski həbsxanada uzun günlərlə keçən əməyi haqda bir daha şikayət etmədi. Həbsxanadan çıxandan sonra Zavarski pastorluq işini davam etdirə bilmədi, çünki həbsxana həyatı onun səhhətinə çox ziyan vurmuşdu. Ona baş çəkənlər, döyülmüş və əldən düşmüş bir adamı görmədilər. Onlar öz Xilaskarı üçün üzü məhəbbətlə parlayan bir adamı gördülər. O, etiraf etdi ki, onun həyatı əlindən alınmamışdı. O öz istəyi ilə İsaya onun çarmıxını daşımağa kömək etdi.

*İnsanların öz biznes müqaviləsində olan ziyanı həvəslə qəbul etməyinə və əliaçıqlıqla ianə verməyinə nə səbəb olur? Məsihçilərin öz torpaqlarını tərk edib imansız əcnəbi bir millətlə yaşamasına nə səbəb olur? Kiminsə günaha təslim olmaqdansa ölməyi üstün tutmasına nə səbəb olur? Bu, Məsihin şəxsiyyətinə son dərəcə bağlanıb sadiq olmaqdır. Hər bir şəxsi itkidə onlar ruhani fayda üçün imkan görürlər. Onlar öz pul kisəsinə, cədvəlinə, planlarına, rahatlığına, mənfəətinə zərbə vurub, bununla da Allahın səltənətinin daha irəli getməsini istəyirlər. Sən son dərəcə yüksək sadiqliyini necə ifadə edirsən? Başqaları sənin sadiqlik dərəcənə görə sənin dəli olduğunu fikirləşirlər? İsa üçün "bunu itirmək" göylərin bundan fayda qazanması deməkdir.*

Bundan əlavə, Rəbbim Məsih İsanı tanımağın ali dəyərinin yanında hər şeyi ziyan hesab edirəm. Onun uğrunda var-yoxumu atıb tullantı sayıram ki, Məsihi qazanım...

*Filip. 3:8*

# Daha böyük inqilabçı

**PERU:** MARİYA YELENA MOYANO

**Onları qəzəbləndirən, qətlə yetirmək dərəcəsində qəzəbləndirən o idi ki, yeni imana gələn onlar kimi terrorçu idi.**

Mariya Yelena Moyano, Peruda inqilab üçün onlarla birgə qışqırırdı. O, kəndlilərə yemək verilməsini silahın gücü ilə xahiş edirdi. Sonra isə o, İsa Məsihlə tanış oldu və başqa cür inqilabı – ürəkdə olan məhəbbətin inqilabını tapdı.

O, Limanın daxmalarla dolu olan ən geniş şəhərciyində bələdiyyə rəisinin müavini oldu. O, yoxsulları, ac olanları yeməklə təmin etmək, xəstələrin qayğısına qalmaq və kimsəsiz uşaqlar üçün geniş yayılan yardım aksiyalarını təşkil edirdi. O deyirdi: "Onlar məsihçiləri 'inqilabın yanğınsöndürənləri' adlandırırlar, çünki biz onların törətdiyi yanğını söndürürük. Onlar istəyirlər ki, əhali üçün yeməyə heç nə olmasın, bununla da ümid edirlər ki, insanlar silaha əl atacaq. Amma biz terrordan qorxmamalıyıq. Biz bu amansızlığa və ədalətsizliyə qarşı durub, ehtiyac içində olanlara kömək etməliyik."

Mariya bilirdi ki, o, əziyyət çəkəcək, amma onu da bilirdi ki, o, İsanın izzətini bölüşməkdən əvvəl Onun kədərini bölüşməlidir. Maoistli terroristlər zorakılıq həvəsi ilə hücum edib kasıblar üçün ərzaq saxlanılan evi partlatdılar. "Bəzən mən qorxuram" – Mariya dedi – "amma mən sözümün üstündə dururam ki, biz gərək heç vaxt zorakılığa əl atmayaq. Terrorizmə qalib gəlmək çətindir, amma mümkündür."

Mariyanın işinin effektliliyinə və onu dayandıra bilmədiklərinə görə partizanlar Mariyanı fevralın 1-i, 1992-ci ildə öldürdülər.

> Bu səbəbdən fariseylər bir-birlərinə dedilər: "Baxın əlinizdən bir iş gəlmir. Artıq aləm Onun ardınca getdi."
>
> *Yəhya 12:19*

*Fariseylərə taktikaya malik olan mütəxəssislər deyirdilər. Limadakı terrorçular kimi, onların insanları İsanın ardınca gəlmələri ilə bağlı çaşdırmaq strategiyası qabaqcadan nəzərdə tutulmayan nəticəyə gətirdi. Həm fariseylər, həm də terrorçular xalqın sadiqliyi üçün çox çalışdılar. Fariseylər insanların ruhlarını ac qoymağa, terrorçular isə insanların qarınlarını ac qoymağa çalışırdılar. Buna baxmayaraq, Yerusəlimdəki və Perudakı adamların hamısı eynilə İsanın inqilabi təliminin ardınca getdilər. Nə qədər İsa Məsihə qarşı müqavimət çoxalırsa, o qədər də Onun işi irəli gedir. Müqavimət sənə və sənin səylərinə qarşı işləyə bilər, amma Padşahlıq üçün işləyəndə o, səni heç vaxt məğlub edə bilməz. Əslində, müqavimət bilmədən sənin xeyrinə də işləyə bilər.*

# Böyük sübut

**RUSİYA:** PASTOR "CORC"

**Kilsənin kiçik otağında gəzişərək, rus kapitanı divardakı çarmıxa baxıb başını yırğaladı. "Bu, bir yalandır" o dedi. Bu, kasıbları aldatmaq və varlılardan pul almağı asan etmək üçün sizin istifadə etdiyiniz bir uydurmadır. Biz indi burada təkik. Etiraf elə ki, sən heç vaxt İsa Məsihin Allahın oğlu olmasına inanmamısan."**

Pastor "Corc" çarmıxa baxdı və sonra gülümsədi. "Əlbəttə, mən buna inanıram. Bu, həqiqətdir."

"Mənə kələk gəlməyinə yol verməræm!" – deyə, kapitan qışqırdı. O, tapançanı qabından çıxarıb pastorun bədəninə yaxınlaşdırdı. "Əgər bunun yalan olduğunu qəbul etməsən, səni öldürəcəyəm."

"Mən bunu qəbul edə bilmərəm, çünki bu, yalan olar," – "Corc" söylədi. "Bizim Rəbbimiz, həqiqətən, Allahın həqiqi oğludur. Məni öldürmək bunu dəyişməyəcək."

Kapitan tapançanı yerə tulladı. O, göz yaşları içində pastorun əlindən tutanda bu, onu təəccübləndirdi.

"Bu, həqiqətdir" – deyə, kapitan ağladı. "Bu, həqiqətdir. Mən də inanıram. Adamın bu inama görə ölməsini özüm üçün aşkar etməyənə qədər əmin ola bilməzdim. Ah, çox sağ ol! Sən mənim imanımı möhkəmlətdin. İndi mən də Məsih üçün ölə bilərəm. Bunu necə etməyi sən mənə göstərdin.

*Hər bir dində şəhidlər tapılır. Biz deyirik ki, imanımız üçün ölməyə hazırıq. Onlar da öz imanları üçün ölməyə hazır olduqlarını deyirlər. Məsihçi şəhid öz imanını ekstremist müsəlmandan daha çox necə sübut edir? Sübut etmir. Müsəlmanların öz imanları uğrunda ölməyə hazır olmaları öz dinlərinin həqiqiliyini bizim məsihçiliyi sübut etməyimizdən daha güclü surətdə sübut etmir. Yalnız Allah Özü həqiqi olduğunu sübut edir. Biz həqiqətə şahidlik edirik. Amma Allah özü həqiqətdir. Onun, Oğlu haqqında olan şəhadəti, sənin öz şəhadətini üstələyir. Başqaları sənə İsa uğrunda necə ölməyi göstərə bilərlər. Amma yalnız Allah sənə tam əminlik verə bilər ki, bunu etməyə dəyər.*

Biz insanların şəhadətini qəbul edirik, amma Allahın şəhadəti bundan üstündür. Çünki bu, Allahın şəhadətidir; O Öz Oğlu barədə şəhadət edib.

*1 Yəhya 5:9*

# Böyük minnətdarlıq

**NİDERLAND:** HANS

**Niderlandda, Antverpen şəhərində Hans özünü Müqəddəs Kitabın ciddi tələbəsi kimi fərqləndirmişdi. O, hətta öz bazar günlərini imana təzə gələnlərə təlim verməklə keçirirdi. İnsanlar Hansın və onun anasının təhlükəli olduğunu düşünürdülər. Onlar anabaptist idilər və dini rəhbərlər onları imanlarına görə kafir hesab edirdilər.**

1517-ci ildə məhkəmə icraçısı və onun məmurları Hansı və bəzilərini həbs etdilər, amma onun anası qaçmağa nail oldu. Dini rəhbərlər Hansa işgəncə verdilər və onu anabaptist imanından döndərməyə çalışdılar. Amma o, onların qəddar işgəncəsinə təslim olmadı.

Hans Antverpendə qalada, nəm, təcrid olunmuş zindanda həbsdə olarkən, öz ailəsinə ruhlandırıcı məktublar yazırdı.

Hans aşağıdakı məktubu yazmışdı:

"Əziz, sevimli anam, mən demək istəyirəm ki, bədənə əsasən, mən yaxşıyam. Amma ruha əsasən, mən Rəbbə minnətdaram ki, mənə Müqəddəs Ruh vasitəsilə güc verir ki, mənim ağlım dəyişilməmiş qalsın. Vəhşi canavarlara qarşı durmaq üçün, yalnız ondan biz gücümüzü gözləyirik ki, onlar bizim ruhumuz üzərində hakimiyyətə malik olmasınlar."

Tezliklə Hans məhkəmə qarşısına çıxarıldı və orada cəsarətlə öz imanını bəyan etdi. Sonra onun, dirəkdə yandırılmasına hökm verildi. Onun məktubu, Məsihin onun ruhunu qoruması və xilas etməsinə görə böyük minnətdarlığın şəhadəti idi.

*"Allah böyükdür. Allah gözəldir. Qoy öz...əziyyətlərimizə görə Ona minnətdar olaq." Bu, bizim uşaqlıqda*

*eşitdiyimiz xeyir-dua duası deyil. Söz özü bizim qulaqlarımız üçün uyğun səslənməsə də bizə xatırladır ki, həmin prinsip bizim ürəyimizə də uyğun səslənmir. Biz daha çox Allaha sınaqlarımıza görə yox, yeməyə görə minnətdarlığımızı bildiririk. Eynilə, Hans əziyyətləri üçün minnətdarlığı, qəribə bir minnətdarlıq məktubunda yazdı. Buna baxmayaraq, bu, şəhidin səmimi duasıdır, Hansın əziyyətləri onu həmişə istədiyi bir adam etdi. Sən, həqiqətən, Məsih üçün olmaq istədiyin bir şəxssən? Allahın sənə o qələbəni gətirməsi üçün, hər nə olursa olsun, hətta ağır əzablarda da Ona minnətdar olmağa hazırsan?*

Rəbbimiz İsa Məsih vasitəsilə bizə qələbə bəxş edən Allaha şükür olsun!

*1 Korinf. 15:57*

# Böyük çağırış

**YENİ QVİNEYA, PAPUA:** CEYMS ÇALMERS

**"Maraqlıdır, görəsən orda, adamyeyənlərə Xoş Müjdəni çatdırmaq istəyən bir oğlan var?" – deyə, müjdəçi məktubu ilə cavan Ceyms Çalmersin kilsəsini bu işə səslədi. Ceyms o oğlan olmağa qərar verdi.**

1866-cı ildə, Çalmers və onun cavan həyat yoldaşı Cənub dənizinə üzdülər və Rarotonqada gəmi qəzaya uğradı və orada məskən saldılar. On bir ildən sonra onlar Yeni Qvineya Papuaya getdilər və adamyeyənlərin Suau adlanan kəndində məhəbbətlə qarşılandılar.

Çalmers sahil boyu aşağı yuxarı səyahət etməyə başladı. Onun dayandığı yerlərin birində yerli insanlar onu əhatəyə aldılar və döyüş baltaları və bıçaqları tələb etdilər. O, məhəl qoymayıb yerində möhkəm durdu və yerlilər onun inadkarlığına hörmət etdilər. Onlar hətta növbəti gün üzr istədilər və tezliklə dostlaşdılar.

1879-cu ildə onun həyat yoldaşı öldü. Ceyms ruhdan düşmüş bir halda idi və dostuna dedi: "Qoy mən dərdimi Məsih üçün gördüyüm iş ilə dəfn edim."

Çalmers iki dəfə İngiltərəyə məzuniyyətə qayıtdı, burada yalnız öz çağırışına bir daha əmin oldu. "Mən minlərlə vəhşi insanların Allahın bizə yaxın olduğunu bilməməsi ilə bağlı rahat otura bilmirəm."

1901-ci ildə aprelin 7-də, Çalmers, Oliver Tompkins və bir qrup köməkçi Qoaribari adasına üzdülər. Növbəti gün o və Tompkins sahilə gəldilər və böyük bir binaya yaxınlaşdılar. İçəriyə daxil olarkən, yerli insanlar onları öldürdülər və həmin gün bişirdilər.

*Necə də kədərlidir. Aydındır ki, biz Ceyms Çalmers kimi şəhidlərin hekayələri haqda oxuyanda, bizim adi reaksiyamız şəfqət, qəm və hətta xəcalət ola bilər. Nə böyük itkidir. Amma biz onların hekayələrinə yaxından nəzər salmalıyıq. Çalmers bu dünyadakı həyatını, başqaları ilə əbədi həyatı bölüşmək üçün verdi. Çalmers öz şəhidliyini axmaq bir səhv hesab etmədi. Biz nəyə görə ruhdan düşməliyik? Əgər bizim dünyəvi əzablarımız göylərə izzət və lütf gətirirsə və azmışlara bir addım yaxın edirsə, heç nə əbəs yerə deyil. Sən və başqaları üçün əzab, Allahın planının mürəkkəb bir hissəsi olmağa başlayır. Sən başqalarına göylərin fürsətini çatdırmaq üçün dünyəvi ağrılara dözməyə hazırsan?*

Buna görə xahiş edirəm ki, mənim sizin üçün çəkdiyim əziyyətlərdən ötrü ruhdan düşməyin. Bu, sizə izzət gətirir.

*Efes. 3:13*

# Böyük təslim olma

**İNDONEZİYANIN MALUKU ADASI:** SUTARSİ SİLONQ

**Kişi indoneziyalı qadının əlindən yapışıb onun üzünə qışqırdı: "De, 'Allahu əkbər' (Allah böyükdür)! De görüm!" Amma cavan Sutarsi Silonq təslim olmadı və həqiqi Allahını təhqir etməkdən imtina etdi.**

O, vəhşicəsinə silahı onun ağzına saldı. Onun gözləri genişləndi, amma o, yenə də imtina etdi. Silahı ilə mübarizə apararaq kişi atəş açdı. Güllə Sutarsinin sol yanağını deşib keçdi. O, yerində yırğalandı və sonra özünü əvvəlki duruşuna qaytardı. Amma hirsli döyüşçü bununla kifayətlənmədi və süngüsünü çıxarıb onun sifətini çapdı.

Sutarsi Silonq İndoneziyanın Maluku adasında müsəlmanların "*Laskar Cihad*" və ya müqəddəs döyüşçülər adlandırdığı fanatik qrup tərəfindən hücuma məruz qalan əksər məsihçilərdən biridir. Silonq və imanlı dostlar bilirdilər ki, ağ uzun geyimdə olan və maskalanan bu müqəddəs döyüşçülər onlara hücum edəcəklər. Onlar iki metrlik divarla əhatə olunmuş Nita Məbədində yığışmışdılar və bir neçəsi növbə ilə mühafizə edirdi.

İslamçı döyüşçülər gələndə onlar sülh ilə təslim olmağa çalışdılar. Buna baxmayaraq, onların ağ bayrağı qılınc ilə iki yerə bölündü və bir neçə dəqiqə ərzində vəhşilik baş qaldırdı. İslamçı dəstələr vəhşilik törədib, məbədləri yandırıb və imanlıları öldürdükcə bu mənzərə İndoneziyada daha da adi görünməyə başladı.

Yaxşı ki, Sutarsi Silonq kimi İndoneziyadakı əksər imanlılar təslim olmaqdan imtina etdilər. Onlar Məsihi inkar etmək və islamı qəbul etməklə bağlı cihad döyüşçülərinin tələblərinə qarşı durdular.

Ey Allah, qəlbim Sənə möhkəm bağlanıb, möhkəm bağlanıb,

*Zəbur 57:7*

*Biz bir az da olsa təslim olmayacağıq? Heç cüzi qədər olsa da? Bundan nə ziyan olacaq ki? Fanatik müsəlmanın Sutarsiyə dediyi kimi, iblis də bizə acı sözlər deyə bilər. Buna baxmayaraq, o, heç cüzi qədər də təslim olmadı. Bununla belə, günaha sövq olmanın dözülməz olduğu hallarında burada, ya da orada ona təslim olmaqla bağlı, bizim rahatlıqla dolu şəxsi-seçimli öhdəliyimiz yoxdur. Biz iblisə nə vaxt təslim olmağı, ya da olmamağı seçib qərar verə bilmərik. Biz dözümlü olmalıyıq. Dözümlü olmaq iblisə təslim olma* ehtimalının az olması *demək deyil. Bu, sənin çox,* daha çox çalışmağın *demək deyil. Allah sənə dözümlü ürək verir ki, sən* təslim olmayasan. *Nöqtə. Dözümlü ürəyi Allahdan bu gün istə.*

# BÖYÜK SADİQLİK

**Mən buraya əllərimi dizimin üstünə qoyub sakit oturmaq üçün gəlməmişəm. Mən Məsih haqda danışmaq üçün gəlmişəm.**

Kalina Vilçinskaya, 1980-ci ilin əvvəllərində Rusiyada, Məsihə görə iyirmi üç yaşında həbs edilmiş qadın. O, məsihçi yay düşərgəsində uşaqlara təlim verdiyinə görə həbs edilmişdi.



350 gün

BÖYÜK SADİQLİK

# Böyük mükafat

**ŞİMALİ NİGERİYA**

**Şimali Nigeriyada müsəlmanlar şəriət qanunu – ən sərt islamçı qanunları toplusu yaratmışdılar. Məsihçilər Nigeriya əhalisində üstünlük təşkil edirlər, ona görə islamçı rəhbərlər qanunun müsəlmanların yalnız evdaxili məsələlərinə tətbiq edilməsini inadla tələb edirlər. Buna baxmayaraq, məsihçilər daha yaxşı bilir. Onların yüzlərlə kilsələri artıq dağıdılıb. Əgər onlar yenidən bərpa olunursa, onları yenə yandırırlar. Bir çox məsihçilər şəhid olur.**

Şimali Nigeriyada Kaduna şəhərində bir məbəd rəhbəri söyləyir ki, müsəlman ekstremistlər məsihçi rəhbərlərin başına pul qoyublar, onlar hər öldürülən insan üçün min naira təklif edirlər. (Bu, təxminən, min ABŞ dollarıdır.) Bununla belə, İsanın başı üçün də pul qoyulmuşdu və Onu otuz gümüşə təslim etdilər.

Davamlı hədə-qorxularla, bəzi məsihçilər müqavimət göstərmək üzərində düşünürlər. Amma bir məsihçi rəhbər Kadunada olan imanlılara belə dedi: “Baş verənlərin içində biz Rəbbimizin şəri yaxşıya çevirməklə bağlı təlimini yadda saxlamalıyıq və baş verənlər qarşısında səbirlə dözməliyik. Həmçinin, Nigeriya demokratik bir ölkə kimi bəyan edildiyinə görə, məsihçilərin məsuliyyəti, hər kəslə ədalətlə və vicdanla davranmaqdır.”

Məsih eyni fikri, demək olar ki, iki min il bundan qabaq çatdırmışdı: “Allahın Rəbbi... sev”. Bu, böyük və əsas əmrdir. İkincisi isə budur: “Qonşunu özün kimi sev” (Matta 22:37-39).

*İsanın: “Qonşunu özün kimi sev.” – əmrinə riayət etmək elə də asan deyil. Onların bizə bu məhəbbəti olmayanda İsanın “Qonşunu sev.” – əmrinə riayət etmək daha çətindir. Biz hamımız bu hissi bilirik. Sənin işinə mane olmaq istəyən bir iş yoldaşın ola bilər. Bəlkə sənin elə müəllimin ola bilər ki, heç bir səbəb olmadan sənin probleminə təzyiq göstərər. Yaxud həyatında pis şeylər baş verəndə, dost adlandırdığın şəxs, qəribə də olsa, sevinə bilər. İsa başqalarının sənin əzablarını bayram eləmək hissini bilir. Sənin əzablarını görmək üçün pul ödəyən bir kəsi necə sevə bilərsən? Başqaları sənin rüsvay olduğunu görüb bunu yüksək qiymətləndirə bilər. Buna baxmayaraq, bu sahədə Allaha olan itaətkarlığının dəyəri hədsizdir.*

Düşmənlərinizi sevin, sizə nifrət edənlərə yaxşılıq edin, sizi lənətləyənlərə xeyir-dua verin, sizi incidənlər üçün dua edin.

*Luka 6:27-28*

# Böyük xidmətçilər

**SƏUDİYYƏ ƏRƏBİSTANI:** İSKƏNDƏR MƏNGİZ

**Gecə yarısı idi və polislər zorla evə girib, İskəndər Məngizi, onun yoldaşını və üç uşağını dərhal oyatdılar. Onlar gördülər ki, Səudiyyə Ərəbistanının Daxili İşlər Nazirliyinin agentləri onların evində axtarış edirlər.**

"Siz nə edirsiniz? Sizin evimizi belə dağıtmağa ixtiyarınız yoxdur."

"Sənin isə Məhəmmədin torpağında öz dinin ilə məşğul olmağa ixtiyarın yoxdur! Dinindən dönməzdən əvvəl sənə xəbərdarlıq olunmuşdu. Polis İskəndəri qapıdan bayıra itələdi və başqaları Müqəddəs kitabları, ilahi mahnıları, foto albomları və sübut kimi istifadə oluna biləcək hər şeyi götürdülər.

İskəndər qorxu içində olan yoldaşı və uşaqlarını geridə qoyub polis qərargahına istintaq edilmək üçün gətirildi. İskəndər və onun ailəsi Efiopiya məsihçiləridir. Onlar Səudiyyə Ərəbistanının əhalisi arasında olan xaricilərin üçdə bir hissəsini təşkil edir və neftlə zəngin olan ölkədə işləyirlər. Bu xaricilərin bir çoxları məsihçidirlər və öz imanlarını ifadə etmək istəyəndə onlar çətin vəziyyətlərlə üzləşirlər.

Bir çox məsihçilər müsəlman ölkəsində öz imanlarını icra etmək niyyətində olmurlar. İslamın qara buludları altında olarkən, onlar göylərə doğru baxırlar və ətraflarında olan imanlılarla ünsiyyət qururlar. Bir çoxları hətta onların müsəlman işçilərinə Xoş Müjdəni bölüşürlər. Səudiyyə Ərəbistanında müsəlmanı məsihçiliyə döndərmək, hər iki tərəfə ölüm hökmü irəli sürülməklə nəticələnir.

*Təcrübəli müjdəçinin ayaq basa bilmədiyi bir yerdə, bütün vaxtını xidmətə sərf edən məsihçi səhnəyə daxil olur. Onlar nadir və qüdrətli şəhadəti dünyada ən çox qadağalar qoyulmuş ölkəsinə gətirirlər. Onlar Səudiyyə Ərəbistanında neft mədənlərində adi mühəndislər kimi ağıllı tərzdə özlərini gizlədən sadiq məsihçilərdir. Onların tapşırıqları aydındır, amma üsulları gizlidir. Onların şəhadəti güclüdür, amma gizlidir. Onların tapşırığı xidmətçi olub Müjdəni təqdim etməkdir: işdə fədakar və çox çalışan iş yoldaşı, evdə öz xeyrini güdməyən qonşu. Bizim vəzifəmiz onlara dua vasitəsilə dəstək olmaqdır. Dünyanı Məsihə olan imana gətirməklə biz hamımız xidmətçiyik, öz işimizi görürük. Səudiyyə Ərəbistanında olan İskəndər kimi insanlar öz vəzifəsini yerinə yetirir? Bəs sən öz vəzifəni yerinə yetirirsən?*

Çünki biz Allahın yaratdığı əsərlərik,
əvvəlcədən hazırladığı yaxşı
əməllərinə görə həyat sürmək üçün
Məsih İsada yaradıldıq.

*Efes. 2:10*

# Böyük şəhadət

**ROMA:** ZOYA

**"Öldürün onu! Yaşasın Diokletian!" Kolizeyin qarşısında hirsli izdihamın önündə dayanan Zoyanın qulaqlarına əks-səda gəldi.**

Zoya orda nəyə görə olmağı haqda fikirləşdi və güldü. Həbsxanada işləyən və başqa allahlara qurban gətirmədiklərinə görə həbs edilmiş məsihçilərə gözətçilik edən ərini görməyə gəldiyi gün Zoyanın yadına düşdü. Zoya uşaq vaxtlarından məsihçilərin aldadılmış və ölü bir mövhumatın ardınca getdiklərini eşidirdi. Onlar Romada İmperator Neronun hökm sürdüyü vaxtda böyük təlatüm yaratmışdılar və layiq olduqları cəzanı almışdılar – onlar çarmıxa çəkilmişdilər və şirlərə atılmışdılar.

Amma həmin gün həbsxanada Zoya məsihçi ailəsinin duasına şahid oldu: "Əziz Rəbbimiz, bizim ölümümüzün Sənin adına izzət gətirməsinə yardımçı ol. Bizi həbs edənləri biz bağışlayırıq." Zoya təəccüb içində həbsxanadan getdi. Nəyə görə bu məsihçilər bu qədər sülhə malikdirlər, axı onlar tezliklə şirlərin qarşısına çıxarılacaqlarını bilirdilər?

Zoya gizlicə bu ailə ilə görüşməyə və onlardan imanları haqda soruşmağa başladı. Tezliklə, o öz ürəyini İsaya verdi.

Zoyanın yeni tapdığı imanı haqda söz-söhbət tez yayıldı və gözətçilər onun evinə göndərildilər ki, ona Məsihdən üz döndərmək və Mars allahına qurban təqdim etmək üçün imkan versinlər. O, imtina etdi. Gözətçilər onu qandalladılar və ərinin gözətçilik etdiyi həmin həbsxanaya sürüyüb apardılar.

Öz imanından üz döndərməyəcəyini təkid edəndə, o asıldı, yandırıldı və çaya atıldı.

*Bu hekayədə böyük şahid kimdir? Bu, şirlərə atılmazdan qabaq dua edən ailə idi? Yoxsa bu, gözətçilər qarşısında yeni tapdığı imanından üz döndərməyən Zoya idi? Cavab, bəlidir. Bu dünyadan çıxıb getməkdə olan ailə, başqa bir insanı göylərə gətirdi. Hər ikisi Məsih üçün böyük şahid oldular və tarixdə öz silinməz izini qoydular. Əks təqdirdə, bütpərəst həbsxana gözətçisinin bütpərəst arvadı kimi Zoya unudula bilərdi. Əgər min nəfər məhv olsaydı, tarix buna elə də fikir verməzdi. Buna baxmayaraq, adi bir insanı qeyri-adi imanı ilə yadda saxlamağa dəyər. Sənin həyatın İsa Məsih üçün böyük şahid kimi səni tarixə yazacaq?*

Biz sizə gördüyümüzü və eşitdiyimizi
elan edirik ki, sizin də bizimlə
şərikliyiniz olsun.

*1 Yəhya 1:3*

# Böyük məhbus

**ÇİN:** AL LİNQ

**"Sən deyirsən ki, bu, səhvdir," – deyə, hirsli gözətçi yaşlı çinli imanlıya acıqlandı. "Sən 'İsa yaxşıdır' yox, 'Həbsxana yaxşıdır' deməliydin.**

Al Ling gülümsədi. "Amma həbsxana yaxşı deyil. Məsələ elə bundadır. Mən yalan danışmalıyam?"

"Onda uzanaraq əllərin üstə əlli dəfə qalxıb en!" – deyə, kefi pozulmuş kommunist gözətçisi əmr etdi. "Dünən etdiyin kimi."

Yetmiş yaşlı Al Ling əli üstə qalxıb endi və düşərgəyə qayıtdı, Lingin həyat yoldaşı Müjdəni yaydığına görə həbs olunmuşdu və dünyasını dəyişmişdi. İndi Ling həbsxanada idi və oradakı yoldaşlarına çinli adamlara İsanın məhəbbəti haqda danışırdı.

"Yemək yaxşıdır, həbsxana yaxşıdır!" çöllükdə ağır iş günündən sonra məhbuslar bu sözləri ucadan deməyə məcbur edilirdilər. "İsa daha yaxşıdır!" – onun səsi dəstənin içindən çıxdı.

"Al Ling, yenə əllərin üstə qalxıb enmək istəyirsən?" – deyə, gözətçi soruşdu.

"Mən istəyirəm ki, sən İsanın səni nə qədər sevdiyini biləsən," – deyə, o cavab olaraq gülümsədi. Hətta bu, ona gündəlik uzanaraq əlləri üstə qalxıb enməklə nəticələnsə də, o, kommunist gözətçilərə və məhbuslara İsanın nə qədər yaxşı olması ilə bağlı fürsət gələndə bərk həyəcanlanırdı. Həbsxanadan çıxışı vaxtı gözətçilər onu son dəfə sorğu-suala tutmağa qərar verdilər. "Sənin həyat yoldaşın harada işləyir?" – cavan gözətçi soruşdu.

"O, gizli bir iş görür," – deyə, o cavab verdi. Maraqlanan gözətçi qeyd dəftərçəsini çıxartdı. Ling gülümsədi: "O, bir neçə il bundan qabaq dünyasını dəyişib."

*Al Ling ilahiyyatçı deyildi. O, təcrübəli natiq də deyildi. Buna baxmayaraq, öz sadə, dözümlü və hətta məzəli cavabları ilə o, kommunist düşmənlərini mat qoya bildi. Həmin vəziyyətdə olsaydıq, biz nə deyəcəyimiz və edəcəyimiz haqda fikirləşib özümüzü çaşdıra bilərdik. Biz cəld cavab verə və ya hərəkət edə bilərdik? İsa deyib ki, biz imanımızı müdafiə edərkən nə deyəcəyimiz haqda narahat olmamalıyıq. Bizdən hazırlanmış vəzi vermək xahiş edilmir. Bizdən ən çox ehtiyac hiss etdiyimiz vaxtda Ona hikmət sözləri üçün arxayın olmaq xahiş olunur. Bu vaxt gələndə, Allah Ona görə effektiv şəhadət etmək üçün sənə sözlər verəcək.*

Buna görə də ürəyinizdə qərara alın ki, özünüzü necə müdafiə edəcəyiniz barədə əvvəlcədən düşünməyəsiniz. Çünki Mən sizə elə danışıq qabiliyyəti və hikmət verəcəyəm ki, sizə qarşı çıxanların heç biri nə ona etiraz edə biləcək, nə də ona qarşı dura biləcək.

*Luka 21:14-15*

# Böyük əzab – birinci hissə

**SUDAN:** KAMERİNO

**Nənə axır ki, öz on yaşlı ac nəvəsinə yemək axtarmağa icazə verdi. O, kənddən kənarda olan təhlükə haqda bilirdi və onun qaranlıq düşənədək evdə olmasını tələb etdi.**

Kamerino və onun dostları iki kilometrdən çox yol gedərək giləmeyvələr yığırdılar və birdən əsgərlərin onlara çığırmasını eşitdilər. Onlar qorxub uzun otları olan tarlaya girdilər və aşağı əyildilər. Əsgərlər tarlanı alova bürüdülər və oğlanların oradan çıxmasını gözlədilər.

Sudandakı məsihçilər öz ölkələrində imanlarına görə başqa yerlərə köçürülmüşdülər. Bir çoxları üzərində yalnız bir geyimlə islamçı hücumlardan canlarını qurtarıb aradan çıxmışdılar.

Alov cəld oğlanlara tərəf gəlib çatdı və onların öz həyatlarını qurtarmaqdan başqa bir seçimi yox idi. Ancaq üç oğlan tarladan çıxdı; Kamerino isə qaldı.

Alov yanıb sönəndən sonra əsgərlər üç oglanı tutub Kamerinonun uzanıb qaldığı yerə getdilər. Şiddətli ağrı onun başıaşağı formada əyilib qalmağına səbəb olmuşdu. Oğlanın yanmış bədəni hərəkətsiz idi. Başqa bir məsihçi itkisi. Daha doğrusu, onlar belə fikirləşdilər.

Möcüzə kimi görünsə də, Kamerino tarladan sürünüb çıxa bildi və onu nənəsinin evinə gətirən kəndlilər tərəfindən aşkar edildi. Onun bədəninin çox hissəsi bərk yanmışdı. Onlar Kamerinonun ağrıları üçün dua etməkdən başqa heç nə edə bilmədilər.

*Sudandakı məsihçilər duanın gücünə ümidləri kimi baxırlar. Onların əzabları və gündəlik təhlükələr, onların özlərinə olan inamını azaldıb və onların Allahda olan asılılığını artırıb. Sudandakı bir çox məsihçi ailələrində yeganə qalan duadır. Bu, qorxulu məsələdir – amma belə yerdə olmaq gözəldir. Allah bizim yeganə ehtiyacımız olmayana qədər, çətin ki biz yalnız Allaha ehtiyacımız olduğunu deyək. Əks təqdirdə, biz öz bacarığımıza arxayın olmaqda fəalıq. Dua – ən çoxunu edir, biz ən azını etmək ehtimalındayıq. Bu böyük vaxtlarda Allah səni böyük dualar etməyə çağırır. Duadan başqa heç nə edə bilmədiyin vaxtlarda, sən tez-tez duaya arxalanırsanmı?*

Özünüzü duaya həsr edin.

*Kolos. 4:2*

# Böyük əzab – ikinci hissə

**SUDAN:** KAMERİNO

**Amerika müjdəçi komandası Sudan ərazisində səyahət edirdi və yemək, ədyal, Müqəddəs Kitab paylayırdılar və İSA filmini nümayiş etdirirdilər. Onların maşını çayda ilişib qalmazdan əvvəl hər şey planlaşdırıldığı kimi gedirdi və onlar bir günün işini itirdilər.**

Müjdəçilər bu hadisəni Allahın ixtiyarına verdilər və Ondan yollarında bələdçilik etməsini xahiş etdilər. Onlar bilirdilər ki, səyahətlərini qısaltmalı və müəyyən edilmiş günə qədər işlərini görməlidirlər, onlar yaxınlıqdakı kəndə baş çəkdilər. Yenicə çatmışdılar ki, bir neçə qadın xaricilərə tərəf qaçıb onlara yaxınlaşdı. Özlərinin zəif ingilis dili ilə dedilər. "Tez, gəlin....bizim uşaq....siz kömək etməlisiniz...tez gəlin!"

Həmin komanda qadının ardınca balaca, qaranlıq bir otağa gəldi. Onlar yerdə cırıq ədyala bükülmüş, hərəkətsiz balaca oğlanı gördülər. Ədyalı qaldıranda onlar Kamerinonun bədənini örtən ciddi yanıqları gördülər.

Onlar tez və ehtiyatla Kamerinonu maşınlarına qoydular və səksən kilometr uzaqda olan xəstəxanaya apardılar. Orada, oğlan dərhal çox ehtiyacı olan müalicəni aldı. Bu günlərdə Kamerino, duanın və Allahın əlinin onu necə xilas etməsi haqda düşünəndə gözləri yaşla dolur. O, İsanı tanıyır və şəfa vermə qüdrətini bilir və o, neçə aydan sonra birinci dəfə gülümsəyir.

Müjdəçilər də, Allaha minnətdarlıqlarını bildirdilər ki, Sudanda bu qədər ölüm və əzabla əhatə olunduqdan sonra, O onlara on yaşlı cəsur oğlanı xilas etməyə icazə verdi.

*Kamerino "ardı var" ifadəsinə yeni məna gətirir. Elə görünürdü ki, onun həyatı qurtarmayan əzab və cırıq ədyala bürünmüş vəziyyətdə davam etməyə qabaqcadan müəyyən edilmişdi. Buna baxmayaraq, ikinci hissə xoşbəxt sonluğu və Allahın lütfünün xatırlanmasını sübut etdi. Amma onun hekayəsi burada bitmir, üçüncü hissə yazılmaqdadır. Bir gün Kamerino, əzab və ağrının olmadığı göylərdəki evində tam şəfanı yaşayacaq. Dünya yaxşı olmazdan qabaq pis olacaq. Buna baxmayaraq, Allah təsəvvür edilən ən pis vəziyyətə ayaq basacaq və bütün əzabların sonunu tələb edəcək. Sonra biz hamımız evə gedəcəyik. Əgər sən indi ağlasığmaz ağrı yaşayırsansa, sonda, haraya gedib çıxacağını yadına sal.*

Allah onların bütün göz yaşlarını siləcək. Artıq ölüm olmayacaq. Yas, nalə və ağrı bir daha olmayacaq. Çünki əvvəlki şeylər keçib getdi.

*Vəhy 21:4*

# BÖYÜK SADİQLİK

**Din öz iradəmizi yox, Allahın iradəsini yerinə yetirməkdən başqa bir şey deyil. Cənnət və cəhənnəm yalnız bundan asılıdır.**

Susanna Vesli, Con Vesli və Çarlz Veslinin anası.



357 gün

BÖYÜK SADİQLİK

# Böyük pastor – birinci hissə

**ŞİMALİ KOREYA:** PASTOR İM

**"Siz mənim bədənimi məhv edə bilərsiniz, amma ruhumu yox," – deyə, cəsur koreyalı pastor zorla içəri girmiş Şimali Koreyanın kommunist qoşunlarına cavab verdi. "Mən marksist təbliğatını öz vəzimə qoymayacağam. Mən bilirəm ki, siz gecə başqa pastorları evlərindən çıxarıb, sizin əmrlərinizə itaət etmədiklərinə görə onlara işgəncə vermisiniz və bədənimə nə edəcəyinizin mənim üçün fərqi yoxdur."**

Pastor İm danışdıqca zabitin qəzəbi daha da artdı. Sonra o, nifrət hissi ilə dedi: "Əgər sənin özün üçün fərqi yoxdursa, onda ailən haqda fikirləş. Onları da öldürəcəyik. Pastor İm qərarsız qaldı. Ona zərər vurulacağını gözləyirdi, amma ailəsini heç nəzərə almamışdı. O, sakitcə kommunist zabitinə dedi: "Mən Rəbbimə xəyanət edib ailəmi xilas etməkdənsə, onların və mənim sədaqətli qalmamı bilib, yoldaşımın və uşaqlarımın sənin silahından ölməsini üstün tuturam."

"Aparın onu" – deyə, zabit əmr etdi. Pastor İm qaranlıq həbsxanada iki il saxlanıldı və orda ona üzünü qırxmağa və paltarını dəyişməyə icazə verilmirdi. O, ruh yüksəkliyini Müqəddəs Kitabda ona dəyərli olan bir ayəni əzbər söyləməklə saxlayırdı. Hər gün başqaları, onun təcrid olunmuş balaca həbsxana kamerasından, Pastor İmin məhəbbət dolu və arxayınlıqla əzbər söylədiyi, İsanın vəd etdiyi Yəhya 13:7: "Mənim nə etdiyimi sən indi bilməzsən, amma sonra anlayacaqsan" kəlamını eşidirdilər.

*"Sonra." Müasir cəmiyyətdə bir anda hazır olan qəhvə, nağd pul, rahatlıq olduğu halda, "sonra", demək olar ki, köhnəlmiş ifadədir. Bizə lazım olanı, biz indi əldə etmək istəyirik, sonra yox. İdman, əyləncə və hava haqqında xəbərlər – hətta media həyatın hər bir sahəsindən bizə ən son hadisələri təqdim edir. Buna baxmayaraq, hökm sürən və vaxtla məhdudiyyətsiz idarə edən Allah, hələ də "sonra" prinsipi ilə hərəkət edir. Biz Ona indi etibar etməyə və hətta qeyri-müəyyən olsa belə, hadisələri anlamağı təxirə salmağa hazırıqmı? Əgər sən indi sınaqlardan keçirsənsə, anlama deyil, etibar sənin ən dəyərli müsbət keyfiyyətindir. Sənin anlamağa olan həvəsini üstələmək üçün, Allahdan, böyük etibar etmək bacarığını xahiş et.*

Mənim nə etdiyimi sən indi bilməzsən, amma sonra anlayacaqsan.

*Yəhya 13:7*

# Böyük pastor – ikinci hissə

**ŞİMALİ KOREYA:** PASTOR İM

**1950-ci ilin sentyabrında Birləşmiş Millətlər təşkilatının qoşunları zəbt edilmiş torpaqları yenidən əldə edəndə: "Amma mən kommunist deyiləm. Siz mənə inanmalısınız," – deyə, Pastor İm onlara yalvardı. Şimali Koreyanın kommunist əsgərləri İmi, Məsih haqda vəz etdiyinə və öz vəzini keçmiş marksist təbliğatı ilə əvəz etməsindən imtina etdiyinə görə iki il təcrid olunmuş həbsxana kamerasına salmışdılar.**

BMT-nin qoşunları gələndə, o əmin oldu ki, yenə də azad insan ola bilər. Buna baxmayaraq, onlar onu kommunistlərlə səhv saldılar və onu kommunist əsirləri ilə həbsxana kamerasına saldılar.

Ürəyiyumşaq və vəziyyəti Allahın iradəsi kimi qəbul edən bir adam kimi, Pastor İm kommunist məhbuslarına da şəhadətlik etdi. Bir çoxları Məsihə iman etdilər. "Biz bu həbsxanadakı təbliğçi haqda çox eşidirik" – deyə, amerikalı müjdəçi Koreyaya səfər edən öz dostuna dedi.

"Madam ki, o, məhbusları yaxşı tanıyır, görəsən o, bizə müjdəçilik xidmətini təşkil etməkdə kömək edə bilər?" – deyə, o, sual verdi. Allah onların dualarına cavab verdi.

Amerikalı müjdəçilər Pastor İm ilə ünsiyyət üçün icazə əldə edə bildilər. Beləliklə, "həbsxana müjdəçisi" sadiqcəsinə kömək etdi və Cənubi Koreyadakı həbsxana düşərgələrində vəz etməyə başladı. Minlərlə kommunist İsanı qəbul etdi. Bir il ərzində minlərlə məhbus səhər dua toplantıları üçün sübh tezdən oyanırdılar.

Pastor İm heç vaxt yenidən öz ailəsini görmədi, buna baxmayaraq, həbsxana düşərgəsində minlərlə məhbus onun Məsihdə qardaşı oldu.

*"Bunun mənası nədir?" Ədalətsiz əzabları və vəhşiliyi görəndə bu sual hamının ağlına gəlir. Buna baxmayaraq, biz həmişə Allahın məqsədini bilmirik. Biz ancaq bilə bilərik ki, bu, yaxşıdır və bu, sonda bizim yaxşılığımız üçündür. Biz stolun üstünə düzülmüş xırda hissəciklərdən ibarət böyük şəklin ayrıca hissələriyik. Biz gözümüzü o tərəf bu tərəfə çeviririk və ətrafımızda olan bu şəklin hissələrinin düzgün yığılmadığını görürük. Biz özümüzü dilxor və qorxmuş hiss edirik. Amma Allah xırda şəkillərdən ibarət böyük şəklin Sahibidir – bütün şəkli görən yalnız Odur. O, həyatının hər bir hissəsini eyni vaxtda görə bilir. Bu böyük məqsəd üçün O, bu hissələri necə yerləşdirməyi bilir. Sahibin gözlərinə etibarla baxıb, haraya səni yerləşdirməsindən asılı olmayaraq, bundan razı qalacaqsan?*

Tədbirlərin əzəmətli, işlərin böyükdür!

*Yeremya 32:19*

# Böyük milad hekayəsi

**RUMINİYA:** ARİSTAR

**"Siz nə vaxtsa təzə otun iyini hiss etmisiniz?"**

Aristar, cavan fermer oğlan, öz hekayəsinə başladı. "Elə bil ki, kimsə yazın təravətini götürüb və təzəliyini itirməmək üçün onu qablaşdırıb. Məryəm və Yusif onların uzun səyahətindən sonra tövləyə tərəf çatanda iyi, yəqin ki, hiss etmişdilər.

Aristar milad haqda təbii olaraq danışdıqca başqa məhbuslar diqqətlə qulaq asırdılar. "O, doğulan kimi atın qulaqları Xilaskarın səsinə tərəf dönmüşdü. Onlar çox yaxşı qulaq asırlar, İsa danışarkən biz də belə olmalıyıq."

Rumıniya həbsxanası, Tarğu-Oknadan kənarda kəskin soyuq olan milad axşamında, qarın hündürlüyü iki metrə yaxın idi. Məhbusların paltarları, yeməkləri az idi və hərəsinə bir ədyal güclə çatırdı. Onların hamısı öz ailələri üçün darıxmışdılar və təskinlik tapmaq üçün Aristarın Məsihin doğuluşu haqda hekayəsinə qulaq asırdılar.

O, davam etdi: "Ulduzun parıltısı, yəqin ki, aydan parlaq idi. Ola bilsin ki, o, tövlə qapısının pəncərəsindən içəri şölə saçırdı və xoruz Məsihin doğuluşunu elan edirdi." Məhbuslar qulaq asdılar və ağladılar. Hekayədən sonra, kimsə oxumağa başladı və aydın, təmiz havada, tədricən əks-səda artmağa başladı. Hər kəs dayanıb gözəl səsə qulaq asmağa başladı.

Hətta ciddi həbsxanada, Məsihin hədiyyəsi ilə bağlı hekayə çoxlarının ürəyini isitdi. Məsih təməl olduğu üçün, heç kim heç vaxt milad əhval-ruhiyyəsini söndürə bilməz.

*Əlbəttə, milad ildə bir dəfə qeyd edilir. Milad bundan daha artıq bir şeydir, buna baxmayaraq, fəsildən asılı olmayaraq, bu, Məsihin dünyaya möcüzəli gəlişini qeyd edən hər kəsin ürəyində baş verir. Milad əhval-ruhiyyəsinin səmimiliyi bizim qaranlıq vəziyyətlərimizə işıq saçır və Məsihdə olan ümidimiz haqda bizə xatırladır. Yerdəki qarı, rəngarəng işıqları və bəzədilmiş şam ağacını görüb görməməyimizdən asılı olmayaraq, biz miladı qeyd edə bilərik. Hər hansı çətinliklərdən keçirsənsə, Məsih, ehtiyac içində olduğun vaxtlarda sənə kömək etmək üçün doğulub. Onun mərhəməti il boyu davam edir. Axırıncı dəfə Məsihin ümidini, ruhunda canlı hiss etdiyin an nə vaxt olub? Bu gün vaxt ayırıb Məsihin, sənin dünyanda və ürəyində olan doğuluşunu qeyd et.*

Bu gün Davudun şəhərində sizin üçün Xilaskar doğuldu. Bu, Rəbb Məsihdir.

*Luka 2:11*

# Daha böyük görüntü

**ŞƏRQİ AVROPA:** MƏSİHÇİ MƏHBUS

**Məhbus sərt, qəzəbli, üzü qızarmış, enli çiyinli qadın komandir müavininin qarşısına gətirildi. "Deməli, sən yenə Allah haqda məhbuslara vəz edirdin. Sən vəz etməyi dayandırmalısan!" Onun sifəti Şərqi Avropada olan kommunist həbsxanalarındakı qəzəbi təsvir edirdi.**

Məhbus sakit, amma dözümlü bir vəziyyətdə dayanmışdı. O, komandirə dedi ki, heç nə onu Xilaskar haqda danışmaqdan dayandıra bilməz.

Komandir əlini qaldırıb məhbusu vurmaq istədi, amma birdən dayandı. "Niyə gülürsən?" – deyə, o soruşdu.

"Mən gülürəm, çünki gözlərində bir şeyi görürəm."

"Nəyi görürsən?"

"Özümü. Mən də bir vaxtlar tez coşan idim. Mən də hirsli idim və sevməyin həqiqətən nə demək olduğunu öyrənənə qədər əl qaldırardım. O vaxtdan bəri mən yumruğumu sıxıb əlimi qaldırmıram."

O, davam etdi: "Əgər sən mənim gözlərimin içinə baxsan, məni etdiyi kimi, özünü də yalnız Allahın səni edə biləcəyi kimi görəcəksən." Məhbus özünün köhnə mənliyinin, təhqirə təhqirlə cavab verməklə onun hüquqlarını necə qoruya biləcəyini də görə bildi. Buna baxmayaraq, onun Məsihdə olan yeni həyatına görə, o, ancaq lütfkarlıq göstərdi və öz şəhadətini davam etmək hüququnu qazandı.

Komandir əllərini aşağı saldı. O, heyrətə gəlmişdi və sakitcə dedi: "Çıx get."

Məhbus, bir daha komandir müavininin maneçiliyi olmadan, həbsxananın bütün yerlərində Məsih haqda şəhadət etməyə davam etdi.

Bu təlimə görə, əvvəlki həyat tərzinizə məxsus...olan köhnə mənliyi kənara atın, ruhən və əqlən yeniləşin, əsl salehlik və müqəddəsliklə Allaha bənzər yaradılmış yeni mənliyə bürünün.

*Efes. 4:22, 24*

*Komandirin məhbusu əsəbiləşdirmək cəhdləri, ölü bir adamla mübahisə etmək kimi idi. Elə bil ki, o, meyiti qıcıqlandırmağa çalışırdı. Sonda komandir məhbusda onun həqiqətən kim olduğunu gördü: Məsihdə yeni məxluq. Nifrətə nifrətlə cavab verən köhnə şəxs artıq yox idi. Onun yerinə, məhbus, komandirə Məsihə bənzəyən rahatlıq və lütfkarlığı görməyə imkan verdi. Biz də beləcə özümüzü yeni nurda görməliyik. Biz düşmənə dünyəvi düşmənçiliklə cavab verməyə borclu deyilik. Keçmiş həyat tərzi üçün biz ölmüşük. Uyğun olmayan tərzdə hərəkət etmək üçün düşmən tərəfindən sənə yumruq dəyəndə, incidiləndə və qıcıqlandırılanda, bu hekayədə olan məhbusdan ibrət götür. Özünü ölmüş kimi apar.*

# Böyük çayı keçmək

**TAİLAND:** HO QARDAŞ

**Ho qardaş və onun dostu, Mekonq çayının buzlu sularına girəndə xəstə idi və qızdırmadan yanırdı. Kommunist əsgərləri kolleci dağıtmazdan qabaq onlar Laosda Müqəddəs Kitab kollecinin tələbələri idilər.**

Tailanda gedərkən onlar güclə qaçıb canlarını qurtara bilmişdilər. Onlar məsihçi olmayan ailələri ilə sağollaşa bilmədilər, çünki polisə təslim edilə bilərdilər. Beləliklə, onlar sakitcə dua etdilər və bellərindən asılmış qiymətli bir yük ilə soyuq, palçıqlı çaya girdilər, bu yük plastikə bükülmüş Müqəddəs Kitablar idi. Malik olduqları başqa dünyəvi şeylər isə geridə qalmışdı.

Ho fikirləşdi: "Ya Rəbb, ən azından əgər biz ölsək, onlar biləcəklər ki, biz məsihçiyik və ümid edirik ki, onlar bu Müqəddəs Kitabı oxuyacaqlar."

Çayda yolun yarısını keçəndə, Honun dostu yorğunluqdan plastik çantanın üstündə üzmək üçün onu sinəsinə tərəf çevirdi. Qəfildən çıxan şappıltı səsi yaxınlıqdakı qüllədə olan gözətçilərə çatdı və onlar projektor işığını çaya saldılar. İşıq plastik bağlamaların birinin üzərinə düşdü və gözətçi bunun sadəcə bir balıq olduğunu fikirləşdi.

Bir az sakitləşib, Ho və onun dostu çayın Tailand tərəfinə keçib gəldilər. Onlar Müqəddəs Kitabların içində əbədi həyat kəlamı olduğuna və o gecə onların həyatını xilas etdiyinə görə Allaha minnətdar oldular. Sağ-salamat gəlib çatandan sonra, onlar özlərini Tailandın qaçqın düşərgələrində xidmət etməyə həsr etdilər.

*Bu hekayədəki müjdəçilər kağız və dəri cilddən daha böyük bir şeyə arxayın idilər. Onlar Allaha arxayın idilər. Buna baxmayaraq, onların gecə yarısı çaydan keçməsi bizə Müqəddəs Kitabın həyatımızda oynadığı dəqiq rolu göstərir. Biz Allahın kəlamına elə arxayın olmalıyıq ki, sanki bizim həyatımız ondan asılıdır. Yəqin ki, bu həqiqətin hərfi reallıq olduğu bir yerə biz düşməyəcəyik. Buna baxmayaraq, təsvir aydındır. Biz öz həyatımızı qorumaq üçün Müqəddəs Yazıların vədlərindən yapışmalıyıq. Biz çətinlik içində olanda, bu qarışıqlıqdan çıxmaq üçün kifayət qədər uzağa üzə bilmirik. Biz Allahın kəlamı üstündə "üzməliyik", yoxsa biz hamımız batacağıq.*

Sənin qayda-qanunlarını gör nə qədər sevirəm, ya Rəbb, məhəbbətinə görə mənə həyat ver.

*Zəbur 119:159*

# Böyük sövq olunma

**RUMINİYA:** SABİNA VURMBRAND

**Evlilik illərində Sabina Vurmbrand heç vaxt həyat yoldaşına olan məhəbbətində tərəddüd etməmişdi. Amma çoxdandır o, həbsxanadakı yoldaşı haqda eşitməmişdi. Hətta şayiələr gəzirdi ki, o həlak olub, amma Sabina hiss edirdi ki, Allah ona dözməyi və inanmağı deyir. Nə vaxtsa onlar bir yerdə olacaqlar?**

Sabina hələ də cavan idi, yeniyetmə oğlunu da böyütməli idi və tez-tez məhəbbətə və qarşılıqlı münasibətə sövq olunurdu. Beləliklə, mehriban, yaraşıqlı Paul adında məsihçi onlara gəlib onun oğluna dərslərində kömək edəndə, təbii olaraq, Sabina özünü cəlbedici hiss edirdi. Bəzən onlar gəzməyə çıxanda oğlan, onun əllərindən tutardı, ya da həsrətlə onun gözlərinə baxardı.

Sonda Sabina ən çətin qərarı verdi. O bilirdi ki, əgər yoldaşına yenidən qovuşacağına inanmağa davam edirsə, o, hər bir sövq olunmadan çəkinməli və fikrini Allahın vədində cəmləşdirməlidir. O, Pauldan bir daha onun yanına gəlməməyi xahiş etdi. O, başa düşdü və gülər üzlə razılaşdı.

Qısa bir vaxtdan sonra, Allah onun sadiqliyini mükafatlandırdı. Bir gün o, məbəddə döşəməni yuyanda, bir poçt açıqcası zərfi aldı. O, “Vasiliy Georgesku” adı ilə imzalanmışdı, amma onun yoldaşının xəttini səhv salmaq olmazdı.

Bu sözləri oxuduqca onun gözləri doldu: “Vaxt və məsafə balaca sevgini boğur, amma böyük sevgini daha da güclü edir.”

*Təqib olunan məbədin hekayələri, əsl insanların əsl emosiyaları haqqındadır. Hekayənin baş qəhrəmanı mükəmməl surətdə bəzədilmiş cazibəli aktyor və aktrisalar deyil. “Şəhidlərin səsi” gerçəkliyin və həqiqətin səhv salınmaz səsidir. Yoldaşının təqib edilməsinin nəticəsindən sonra Sabina günaha sövq olma ilə manipulyasiya edildi. Bəli, onun yoldaşı sınaqlara çəkilirdi. Amma Sabinanın da imanı yoxlanılırdı. Təqib bizə müxtəlif səviyyələrdə toxunur. Qısa müddət çətin sınaqlara dözən insan sınaq bitəndən sonra güclü olur. Vurmbrand kimi, sənin sevmək üçün bacarığın – əgər sən ona öz məqsədini icra etməyə icazə versən, təqib vasitəsilə güclənəcək.*

O, hər şeyə qatlaşar, hər şeyə inanar, hər şeyə ümid bəsləyər, hər şeyə dözər. Məhəbbət əsla tükənməz.

*1 Korinf. 13:7-8*

# BÖYÜK SADİQLİK

**Əgər sənin görüntün varsa, heç nə səni qorxutmayacaq. Öz görüntüsü ilə Allah sənə qüdrət verir. Sən qorxmamalısan.**

İranlı pastor



## 364cü gün

BÖYÜK SADİQLİK

# Başqa bir böyük yeniyetmə

**PAKİSTAN:** TARA

**Pakistanda gizlicə Müqəddəs Kitab qiyabi təhsil kurslarına yazılan Tara yeddinci sinif şagirdi idi. Onun dindar müsəlman ailəsi, İsa haqda onun suallarına heç vaxt cavab vermirdi və o özü həqiqəti tapmağa qərar verdi.**

Amma bir gün valideynləri onu otağında məsihçilik haqda kitablar oxuyan görəndə bərk əsəbiləşdilər. 1992-ci ilin noyabrında, onlar onu elə qəddarcasına döymüşdülər ki, o otaqda bir həftə huşsuz uzanmışdı, o inanır ki, mələk onu bir gün oyatdı və onun xəstəxanaya getməsinə səbəb oldu.

Tara imanında böyüməyə davam edirdi və 1995-ci ildə gizlicə vəftiz oldu. Valideynləri Taranın müsəlman bir kişiyə ərə getməsini təşkil etdilər. O razı olmaqdan imtina edəndə, yenidən döyüldü. O, həmçinin, üç gün yuxusuz qalmağa da məcbur edildi. Bu vaxt ərzində Tara üç görüntü gördü və səs eşitdi: "Mən səninləyəm. Mən sənin Atanam."

Daha çox döyüləndən sonra o, komaya düşdü. Üç gündən sonra ayıldı və özünü qan içində gördü. O, yenə də həmin ruhlandırıcı sözü eşitdi: "Mən səninləyəm. Mən səni qoruyacağam."

Tara qaçıb gedə bildi və indi başqa bir ölkədə, təhlükəsiz bir evdə yaşayır və Allahın onu qoruyacağı vədi ilə Rəbbə bütün günü xidmət edir.

*Məsihçilik itki verən bir işdir? Qadağalar qoyulmuş ölkələrdə yaşayanlar, Məsihdə olan imanına görə itirməyin nə olduğunu yaxşı bilirlər. Onlar ailələrini bir neçə yolla necə itirə biləcəklərini bilirlər. Müsəlman ailəsi, imanından dönmüş ailə üzvünü kafir kimi tamamilə rədd edə bilər. Onlar təcrid olunmuş insanlardır. Məsihçi ailəsi də bundan yaxşısını etmir, buna baxmayaraq, başqa şərtlər altında hərəkət edir. Ekstremistlər bütün məsihçi ailələrini onların imanlarına görə məhv edir. İtki çox dəhşətlidir. Buna baxmayaraq, bizdə Məsihin vədi var. Onun uğrunda hər nəyi itirsək, bunun əvəzi göylərdə əbədi həyatımızda yüz qat ödəniləcək. Bu qumar deyil. Bu, Allahın etibarlı kəlamına əsaslanıb nəzərdə tutulmuş riskdir. Ya sən buna etibar edirsən, ya da etmirsən.*

Mənim adım uğrunda ya evlərini, ya qardaşlarını, ya bacılarını, ya atasını, ya anasını, ya uşaqlarını və yaxud tarlalarını atan hər kəs bundan yüz dəfə artıq alacaq və əbədi həyatı da irs olaraq alacaq.

*Matta 19:29*